

# BİZİM BÜLBÜL-
# DÜNYANIN BÜLBÜLÜ

2006
1506

Щ31
B 69

80235

# BİZİM BÜLBÜL – DÜNYANIN BÜLBÜLÜ

[Vokal sənətinin banisi, dahi müğənnimiz Bülbül haq.]

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

ARXIV

78306

Bakı – 2006

Щ31(2A)-8 + Ш6(2=A3)-49

Az. 85.244.
B 89

**Çapa hazırlayanı və redaktoru:** Nahid HACIZADƏ

**Məsləhətçilər:** Adilə MƏMMƏDOVA
Rəhilə BÜNYADOVA

**«Bizim Bülbül – dünyanın Bülbülü»**, Bakı, «Nurlan», 2004, 516 səh. (+ 16 səh. şəkil)

Bu kitabda Azərbaycan vokal sənətinin banisi, dahi müğənnimiz Bülbül haqqında tanınmış söz-sənət adamlarının, görkəmli şəxsiyyətlərin məqalələri, xatirələri, fikirləri, eləcə də şairlərimizin böyük sənətkara həsr etdikləri şeirlər verilmişdir.

4702000000
N – 098 – 2006 **Qrifli nəşr**

© «Nurlan», 2006

## ÖZÜ BÜLBÜL, SÖZÜ BÜLBÜL

*«Mən aydınlıq bir gecədə dünyaya gəlmişəm. Odur ki, əvvəlcə adımı Aydınlıq qoymaq istəyiblər».*

*Bu sözləri mən Bülbülün öz dilindən eşitmişdim. Konservatoriyada bir çıxışında deyirdi.*

*Adımı Aydınlıq deyil, Murtuza qoyublar.*

*Murtuza Məşədi Rza oğlu Məmmədov dövlətin ən yüksək mükafatları və adlarıyla təltif olunmuşdu – SSRİ Xalq artistiydi, Lenin ordenli idi, Stalin mükafatı laureatı, Ali Sovetin deputatı, professor idi.*

*Amma bütün bunlardan daha yüksək olan bir adı ona – hələ çox gənc yaşlarında, yeniyetməlik çağında xalq özü vermişdi: Bülbül.*

*Əsrlər boyu insanları cəh-cəhiylə valeh edən, heyran qoyan bülbül Şərq ədəbiyyatında ən çox işlənən obrazlardandır. Musiqi ifaçılığıyla bağlı söhbətlərdə, əfsanələrdə də tez-tez bülbüldən söz açılır.*

*Belə rəvayətlər də çoxdur ki, bülbül bəzən mahir musiqiçilərin ifasından vəcdə gəlib özü də cəh-cəh vurmağa başlayır və hətta uçub ustad tarzənlərin tarının üstünə qonur.*

*Amma yenə də uzun əsrlər boyu xalq bu adı – «bülbül» sözünü heç bir məşhur xanəndəyə qıymayıb, sanki bu adı gələcəyin böyük müğənnisi olacaq Murtuzanın istedadını qabaqcadan duyaraq onun üçün saxlayıb.*

*Çox illər bundan qabaq Moskvanın «Melodiya» firması beş valdan ibarət «Bülbül sənəti» adlı albom buraxmışdı. Adətən, vallara resenziya yazılmır, lakin mən bu ecazkar musiqi ifasını dinləyərkən elə böyük zövq aldım, elə munis hisslər keçirdim ki, bu təəssüratımı oxucularla bölüşmək ehtiyacı duydum və mətbuatda geniş məqaləylə çıxış etdim.*

*Yazımda qeyd edirdim ki, dinləyici bir və ya bir neçə gün ərzində bu valları ard-arda dinləyərək həm böyük estetik ləzzət ala bilər, həm də böyük müğənninin repertuar diapazonunun nə qədər geniş olduğunu, vokal ustalığının nə dərəcədə əlvan olduğunu dərk edər: Azərbaycan və Avropa operalarından ariyalar, milli bəstəkarlarımızın romans və nəğmələri, zəngin musiqi folklorumuzun örnəkləri – təsniflər, xalq mahnıları – çoxsəsli, çoxrəngli, çoxçalarlı Bülbül dünyası...*

*Əgər Bülbül yaradıcılığının bir zirvəsi Koroğlu obrazı, ikinci zirvəsi dahi Üzeyir Hacıbəylinin «Sənsiz», «Sevgili canan», Asəf Zeynallının «Ölkəm» romansları, Fikrət Əmirovun, Niyazinin, Səid Rüstəmovun, Cahangir Cahangirovun, Tofiq Quliyevin, Süleyman Ələsgərovun, Ağabacı Rzayevanın romans və nəğmələridirsə, üçüncü zirvəsi təsniflər və xalq mahnılarıdır – «Küçələrə su səpmişəm», «Güloğlan», «Qara tellər», «Girdim yarın bağçasına», «Qaçaq Nəbi». Bülbülün ifasında gəncliyimin ən kövrək xatirələriylə bağlı olan bir xalq mahnısı – «Çəkərəm nazını yarım, nə qədər naz eləsən də» mahnısı heyf ki, hansı səbəbdənsə alboma daxil edilməyib.*

*Bu mahnıların bir çoxunu başqa müğənnilərimiz də oxuyublar və oxuyurlar, çox gözəl, çox məlahətli ifaçıları da az deyil. Lakin Bülbülün oxumasında elə boyalar, elə incəliklər var ki, onu bu mahnıların tam hüquqlu müəllifi hesab etmək olar. Doğrudur, bu mahnıların melodiyalarını, sözlərini Bülbül yaratmayıb. Məsələ hətta təkcə bir bu musiqi folklorunun Bülbülün rəhbərliyi ilə toplanmasında, unudulmaqdan xilas edilməsində də deyil. Məsələ ondadır ki, topladığı, özünəxas şəkildə yozduğu bu incilərə Bülbül ikinci, yeni həyat verib.*

*Axı Bülbül yalnız min illik muğam xanəndəlik ənənələrinin layiqli varisi yox, eyni zamanda italyan belkanto vokal məktəbini keçmiş nadir bir istedad idi – ilk baxışda bir-birindən çox uzaq olan iki musiqi dünyasını – Şərq və Qərb*



*musiqisini öz parlaq sənətiylə yaxınlaşdırır, birləşdirir, təbii, üzvi vəhdətdə yüksək sənət örnəkləri yaradırdı. Yalnız Azərbaycanda deyil, bəlkə bütün islam Şərqində yeni vokal üslubunun təməlini qoyurdu.*

*Bu üslub Kavaradossinin ariyasından «Çahargah təsnifi»nə, «Müxalif təsnifi»nə qədər uzanan ucsuz-bucaqsız bir musiqi dünyasını ehtiva edirdi. Bülbülün ecazkar səsində iki musiqi aləmi – Avropa və Şərq – bir-birinə qovuşurdu.*

*Ömrünün son illərində ifa etdiyi təsniflər sübut edirdi ki, Bülbül səsinin bütün gücünü və məlahətini hifz etməklə, sənətkarlığının daha uca bir zirvəsinə də yüksəlmişdir. Nə yazıq ki, təsniflərin ifası Bülbül sənətinin heyranları üçün bu böyük müğənniylə son canlı görüş oldu.*

*Təsəllimiz odur ki, cismən dirilərdən ayrılan Bülbülün ən böyük sərvəti – səsi bu gün də bizimlədir və əbədilik bizimlə, bizdən sonra gələnlərlə qalacaq.*

*Rəsul Rzanın bir şeirində deyilir:*

*Qururam radionu*
*Ölü Bülbül oxuyur*
*Ölü Üzeyirin «Sənsiz»ini.*
*Piano çalan da*
*Ölmüşdür.*
*Dinləyirəm məyus, kədərli.*
*Tellərin fəryadı ucalanda*
*Sanki nəğmə pıçıldayır qulaqlarıma:*
*Üzeyir də sağdır!*
*Bülbül də!*
*Ölməmişdir piano çalan da!*

*Əlbəttə belədir, əlbəttə Üzeyir bəy də, Bülbül də sənətləriylə ölməzlik qazanıblar və Azərbaycan xalqı yaşadıqca qəlblərdə, xatirələrdə, ən incə duyğularda yaşayacaq, ürəklərə sevinc, fərəh, qürur hissləri bəxş edəcəklər.*

*Amma bir acı həqiqət də var ki, heç bir lent yazısı, kino kadrı, heç bir val canlı Bülbül ifasının bütün təravətini və təkrarsızlığını əks etdirməyə qadir deyil.*

*Bu cəhətdən mən o xoşbəxtlərdənəm ki, diri Bülbülü həm opera səhnəsində, «Koroğlu»da at belində görmüşəm, dinləmişəm, həm Filarmoniyada, Konservatoriyada, həm də müşayiətsiz-filansız – ev şəraitində...*

*Bülbülün valideynlərimlə – Rəsul Rza və Nigar Rəfibəyliylə xoş münasibətləri vardı. Niyazinin və Süleyman Ələsgərovun atamın sözlərinə yazdığı mahnılarının, Adilə xanım Hüseynzadənin anamın sözlərinə bəstələdiyi romansının ilk və təkrarsız ifaçısı Bülbül idi.*

*Rəsul Rzanın Bülbül haqqında xatirələri bu kitabda dərc olunduğuna görə onların dost münasibətləri, ünsiyyətlərinin müxtəlif epizodları üzərində dayanmıram.*

*Anam danışardı ki, Bülbül bəzən müxtəlif məclislərdə yavaşcadan ona deyərmiş: «Eh, məclislər görmüşük, özümüz ağırlığında qızıllar görmüşük».*

*Bunları pıçıltıyla deyərmiş, çünki həmin sözlər sovet hakimiyyətindən əvvəlki illərə aid idi.*

*Bülbül Nigar Rəfibəylinin əslini-nəslini yaxşı xatırlayırmış. 1919-cu ildə anamın babası, el ağsaqqalı Ələkbər bəy Rəfibəylinin əzəmətli dəfn mərasimində o vaxt çox cavan olan Bülbül cənazənin qabağında növhə oxuya-oxuya gedibmiş.*

*Bülbülün evimizə gəldiyi günü yaxşı xatırlayıram. Atam Nazim Hikməti dəvət etmişdi. Qonaqların arasında Bülbül, Mikayıl Rəfili, Süleyman Rüstəm, Sabit Rəhman, Cəfər Cəfərov, Ənvər Məmmədxanlı da vardı.*

*O unudulmaz axşam Bülbül bizdə «Segah» təsnifi oxuyurdu. Məclisdəkilər heyranlıqla dinləyirdilər.*

*Yadımdadır, Bülbül oxuyub qurtarandan sonra həmişə deyib-gülən, hamını güldürən Sabit Rəhman dinməz-söyləməz oturmuş, sanki dərin xəyallara dalmışdı. Atam soruşanda ki, sənə nə olub, niyə qəm dəryasına qərq olmusan, cavab verdi ki, hələ də Bülbülün ifasının təsiri altındayam. O, bu sözləri ondan çıxmayan bir ciddiliklə, zarafatsız-filansız deyirdi.*



*Bülbülün oxumasına bütün məclisdəkilər kimi Nazim Hikmət də valeh olmuşdu. Deyirdi ki, Azərbaycanda, Türkiyədə, ümumən Şərqdə bir çox müğənnilər oxuyarkən sözləri elə tələffüz edirlər ki, bircə kəlməsini də anlamaq olmur. Bülbülün bir məziyyəti də ondadır ki, hər sözü dinləyiciyə bircə-bircə çatdırır.*

*Və Nazim Bülbülün indicə oxuduğu bayatını təkrar edirdi: «Yağaram yağış kimi, əsərəm qamış kimi, oğlana qız yaraşır, xəncərə gümüş kimi»... «Nə güzeldir» – deyirdi, «Bayıldım» – deyirdi, «şakı Bülbülüm, şakı!» – deyirdi.*

*Çox sonralar bir kitabda Nazimin Bülbülü yubileyində eynən bu sözlərlə təbrik etdiyini oxudum: «Sovet insanlarına və bütün insanlığa gözəl şərqilərini uzun illər boyu şakı Bülbülüm, şakı. Nazim Hikmət».*

*Nazim Hikmətin Bülbülə göndərdiyi başqa bir teleqram isə belədir: «Səhər vaxtı, quş səsi, ruzigarda qayın ağacının yarpaqlarının səsi, sevgilinin ovcundan tökülən su səsi, makinaların səsi, kaman səsi, tar səsi... Amma məncə səslərin ən gözəli, ən dərini, ən ulusu – İnsan səsidir. İnsan səsi insanları ölümə də çağıra bilər, həyata da, kinə də, sevgiyə də. Sənin səsin, sevgili qardaşım, bütün ömrün boyunca insanları gözələ, doğruya, haqqa, ümidə çağırdı. Mən sənə ölümsüz gənclik diləyirəm. Gözlərindən öpürəm. Nazim Hikmət».*

*...Qarşınızdakı kitab – «Bizim Bülbül – dünyanın Bülbülü» xatirələr toplusu böyük Bülbülün ölümsüz sənəti, nadir şəxsiyyəti, mehribanlığı, insansevərliyi, doğma xalqına, onun musiqi mədəniyyətinə təmənnasız xidməti haqqında şəhadətləridir – Bülbülü görmüş, tanımış, onun diqqətini və qayğısını duymuş insanların, onu dost sayan sənətçilərin, ustad sayan tələbələrin canlı şəhadəti...*

*Ölməz sənətkar haqqında indiyəcən bir sıra kitablar nəşr olunub. Mənə beh gəlir ki, «Bizim Bülbül – dünyanın Bülbülü» toplusu öz sanbalı, siqləti ilə əvvəlki nəşrlərdən daha zəngin və əhatəlidir. Bu kitabın səhifələrində oxucular Azərbaycanın, eləcə də bir sıra ölkələrin söz-sənət adamlarının, alimlərinin, siyasi və ictimai xadimlərinin dahi müğənni haqqında dəyərli fikirləri, xatirələrilə tanış olacaqlar.*

*Əksər şairlərimiz, o cümlədən S.Rüstəm, S.Vurğun, M.Dilbazi, N.Rəfibəyli, H.Arif, Q.Qasımzadə, M.Araz, Ə.Kərim, T.Bayram, Ə.Salahzadə və bir sıra başqaları Bülbül sənətinə, şəxsiyyətinə dərin hörmət və ehtiramlarını şeirlərdə ifadə etmişlər. Burada həmin şeirlər də özünə yer alacaqdır.*

*...Bülbül oxuduğu bir çox mahnıların mətnlərində «Bülbül» sözünü nə isə xüsusi bir ahənglə tələffüz edirdi.*

*İfa etdiyi mahnıların birində «Özü bir gül, sözü bülbül» misrasına şux bir ədayla «Səsi bülbül» sözlərini əlavə etmişdi.*

*Dahi Bülbülün bu əlavəyə tam haqqı vardı.*

**ANAR**
**11 avqust 2002-ci il**



# MƏQALƏLƏR

## SƏNƏT GÜLÜSTANININ BÜLBÜLÜ

İncəsənətin ürəkləri nəcib hisslərlə döyündürən, insan arzular qanadında göylərə ucaldan qüdrəti barədə düşünəndə əlbəttə, hər şeydən əvvəl klassik yaradıcılıq nümunələrini xüsusilə də musiqi sahəsindəki nümunələri xatırlayırıq. Axı incəsənətin heç bir növü insan qəlbinə belə ilahi möcüzə ilə sirayət edərək, duyğular tufanı yaradıb, insanı ağlasığmaz qəhrəmanlıqlara sövq edə bilməz.

Üzeyir Hacıbəyovun «Koroğlu» operasını, Bethovenin «Aylı sonata»sını, yaxud Çaykovskinin «İlin fəsilləri» əsərini laqeydcəsinə, həyəcansız dinləmək olarmı?! Məgər bu misilsiz əsərlər estetik zövqü hələ formalaşmamış, yaxud da tələbkar zövq sahibi olmayan adamların da qəlbini riqqətə gətirmirmi?

Vokalçının sənəti musiqi yaradıcılığının ən təsirli formasıdır, çünki ifada iki nəhəng qüvvə – insan qəlbinin zənginliyi, böyüklüyü, gözəlliyi üzvi sürətdə çulğaşır, birgə hərəkətə gəlir. Bu qüvvələr poetik söz və musiqidir. Müğənni təkrarsız məlahətə, parlaq istedada malikdirsə, səsin bizim duyğularımıza təsiri xüsusilə valehedici olur.

Bizim Bülbül məhz bu cür istedad sahibi idi.

O, incəsənətdə əsl möcüzə yaradan insan idi, çünki öz səsi ilə insanların ürəyində gözəllik və xeyirxahlıq, uca, humanist məqsədlər naminə fədakarlığa və igidliyə hazır olmaq hissi oyadırdı. Bülbülə qulaq asanda həyat bizə daha mənalı və gözəl görünürdü, bizə sanki yeni güc gəlirdi, biz yaratmaq, sevmək, insanlara yaxşılıq etmək, qəlbimizin hərarəti ilə onları isitmək istəyirdik.

Şəxsən mən Bülbülün öz ifası ilə mənə zövq verdiyi iyirmi beş il ərzində onu daim heyranlıqla dinləmişəm. Çoxlar

da mənim kimi. Zalı tərk edəndə ətrafımda xoşbəxt üzlər, sevincdən, fərəhdən yanan gözlər görürdüm. Onlar bu görkəmli müğənniyə, zəmanəmizin böyük sənətkarına ürəkdən heyran idilər.

Bülbül musiqi ilə, mahnı ilə yaşayır, onunla nəfəs alırdı. Bütün varlığı ilə o, bizim qabaqcıl incəsənətin yüksək estetik prinsiplərinə sədaqətini təcəssüm etdirirdi. Onun hər çıxışı, hər sözü, hər baxışı incəsənətə, musiqiyə fədakarlıqla xidmətə necə şövqlə, fərəhlə hazır olduğunu aydın ifadə edirdi. Bir həmsöhbəti ilə danışanda musiqi, vokal məktəbi barədə öz mülahizələrini hərarətlə, ehtirasla bildirirdi.

İncəsənət onun üçün həmişə xalq ruhunun ifadəsi, xalq həyatının çox qiymətli bir parçası olaraq qalırdı. Elə bir hadisə xatırlamıram ki, incəsənət barədə danışarkən Bülbül öz doğma Azərbaycanının təsərrüfat və mədəniyyətinin inkişafı perspektivləri haqqında fikirlərini bildirməsin. Bu, nə mübaliğədir, nə də müəyyən niyyətlə deyilmiş söz. Bülbül həm böyük sənətkar idi, həm də böyük vətəndaş.

Xalqın səadəti yolunda mübarizə üçün incəsənət onun əlində həmişə kəskin, vacib silah idi. O, insanların zəka və zövq hissinin tərbiyəsində, əmək igidliyi, yaradıcılıq və aktiv fəaliyyəti sahəsində onların mənəvi-psixoloji hazırlığında musiqini, ifaçılıq sənətini gözəl tərbiyəvi vasitə hesab edirdi.

Min illər ərzində yaradılan Azərbaycan xalq musiqisinin misilsiz, çox dəyərli keyfiyyətləri gələcək müğənnini lap uşaqlıqdan məftun etmiş, onun qanına, canına hopmuşdu.

Bülbülün incəsənətin yüksək məqsədlərinə sədaqəti, onun yorulmadan yaratmaq həvəsi xalqına, insana, Vətəninə sonsuz sevgisindən doğurdu. Bülbül bizim vokal sənətimizdə Üzeyir Hacıbəyovun Azərbaycan musiqisində, Səməd Vurğunun da yeni Azərbaycan poeziyasında tutduğu yeri tuturdu.

Təsadüfi deyil ki, incəsənətdə hər üçünün taleyi, onların estetik tələbləri və yaradıcılıq yolu bir-birinə bu qədər yaxın, mənən doğma idi.



Xəlqilik, ən yaxşı klassik ənənələrə sədaqət, novatorluğa meyl – Azərbaycan xalqının bu üç böyük, istedadlı şəxsiyyətini səciyyələndirən keyfiyyətlərdir.

Bülbül yeni, mütərəqqi, əsl xəlqi olan nə varsa, ona doğru cəsarətlə gedirdi. Həm də əliboş getmirdi, xalqın əsrlər boyu yaratdığı parlaq, qiymətli, bədii cəhətdən dolğun əsərləri diqqət və qayğı ilə toplayaraq gedirdi. O, klassik və xalq sənətini zərgər dəqiqliyi ilə qiymətləndirən, elmi cəhətdən hazırlıqlı, məlumatlı insanlardan biri idi. Sənətkar kimi püxtələşmiş Bülbül artıq sovet hakimiyyəti illərində xalqla əlaqəsinin qırılmazlığını, onun mənəvi tələbləri ilə bağlılığını hər gün hiss edirdi, ona görə də yeni zəmanəni, dövrün tələblərini bütün varlığı ilə başa düşürdü.

Bülbülün bütün yaradıcılıq fəaliyyəti dövründə ən böyük və parlaq qələbəsi onun Azərbaycan Konservatoriyasında öz vokal sənəti məktəbini yaratmasıdır. Hətta min illər bundan əvvəl yaranmış xalq mahnıları Bülbülün misilsiz təqdimatında müasirlik çalarları, yeni intonasiyalar kəsb edir, verilən estetik zövq, insanların bugünkü mənəvi tələbatına cavab verən mahnıların gözəl ifasına görə dinləyicilərin dərin minnətdarlığını qazanırdı. Musiqi ilə sözün üzvi vəhdətinə, məna aydınlığına, gözəl ifaya nail olmaq – Bülbülün fikrincə, bu, vokal sənətinin, ifaçılıq ustalığının əsas, həlledici məsələsidir.

Bülbülü dinləyəndə bizə həmişə elə gəlirdi ki, sözlər musiqiyə çevrilir, musiqi isə insanın danışığı kimi səslənir. Bülbül qarşımızda oxuyur, biz onun qeyri-adi gözəl, yumşaq, məlahətli səsini zövqlə, heyranlıqla dinləyirdik. Eyni zamanda bizə elə gəlirdi ki, biz mahnıya qulaq asmırıq, kiminsə müdrik kəlamlarını eşidirik, sözlər də kiminsə gözəl səsiylə diqqətlə, səmimiyyətlə deyilir, sanki kim isə bizi xoşagəlim, doğma Azərbaycan dilində nəyəsə inandırmağa çalışır.

Azərbaycan xalq musiqisinin əsl nümunələrinin toplanması və tədqiqi sahəsində Bülbülün elmi tədqiqat işinin də-

yəri ölçüyəgəlməzdir. Musiqi folklorunun öyrənilməsi məsələlərində Bülbülün məqalə və şifahi çıxışları böyük elmi əhəmiyyətə malik olub, xüsusilə qiymətlidir.

Bülbülün 1961-ci ilin mayında Aşıqlar qurultayındakı parlaq, dərin məzmunlu məruzəsi xüsusilə yaddaqalandır. Bülbül o vaxt təkcə aşıqları deyil, bizim bir çox bəstəkarlarımızı, yazıçılarımızı heyrətə gətirdi, düşünməyə vadar etdi. Həmin o unudulmaz gündə Bülbül bir daha göstərdi ki, incəsənətin problemlərinə necə düzgün, əsl qabaqcıl mövqedən yanaşır, ənənə və novatorluq məsələlərini necə dərindən başa düşür.

Bülbülün yaradıcılığı çoxcəhətlidir, hədsiz hüdudsuzdur.

Azərbaycan xalqının mahnıları ilə bərabər o, qardaş xalqların və dünya vokal sənətinin ən gözəl nümunələrini də böyük ustalıqla, məhəbbətlə ifa edirdi. Bülbül hərtərəfli inkişaf etmiş, universal, mənən kamil insan, yaradıcılığı daim dünyanın ifaçılıq mədəniyyətinin ən yaxşı nailiyyətləri səviyyəsində dayanan bir sənətkar idi.

Zaman, dövran müğənninin səsinin nəinki ifadə gücünə, xüsusiyyətinə, hətta ifaçının bu və ya digər vokal əsəri hansı daxili emosional-psixoloji vəziyyətdə oxumasına da təsirsiz qalmır. Çox vaxt yaşa dolmuş müğənninin səsi cavanlığında olduğu kimi ilhamlı, şövqlə eşidilmir. Amma deməliyəm ki, Bülbülün ifaçılıq ustalığını qiymətləndirərkən bu məlum qanunauyğunluq özünü doğrultmur. Uzun illər Bülbülü dinlədikdən sonra belə qənaətə gəldim ki, yaşa dolmuş bu müğənninin səsi öz emosional coşğunluğu və lirik ifadəliliyini nəinki itirməyib, əksinə, səsinin ahənginə daha çox liriklik, hərarət, emosionallıq, həssaslıq gətirib.

İllər keçir, Bülbülün ürəyində isə sönməz gənclik eşqi, ilhamı əvvəlki tək şölələnirdi. Yox, bütün ömrü boyu bizim Bülbülümüz laqeyd, ürəksiz oxumayıb, incəsənət barədə soyuqqanlı, ürəksiz danışmayıb. Şeiriyyət kimi uca, həyəcanlı, qeyri-adi dərəcədə aydın məqsədli, ömrünün son gününədək o, öz xalqına fədakar oğul məhəbbəti, alovlu eşq ilə xidmət etmişdir.



...1961-ci il sentyabrın iyirmi altısı... Bir payız səhəri, sübhün alatoranında Bülbülün radioda səslənən ecazkar mahnıları hələ ürəyimizi titrədən zaman biz öz işlərimizdən ayrılıb, reproduktorların önündə dayanır, ya da oxuduğumuz kitabı örtərək, bu səsi eşidib, yenə qürurla fikirləşirdik: «Nə yaxşı ki, bizim belə gözəl, belə qüdrətli müğənnimiz var!» Həmin unudulmaz, faciəli gündə, sübh çağı Bülbül ürəyi həmişəlik dayandı, böyük xalq müğənnisinin səsi həmişəlik susdu.

Bülbülü itirdik. Buna inanmaq çətindi. Amma ölüm sevinirdi. Ölüm öz qurbanının böyüklüyü ilə lovğalanır, bu cür nəhəng qayanı dağıtdığı üçün toy-bayram edirdi. Fəqət ölümün qara kabusu bu dəfə də aldanmışdı. Parlaq işıq saçan istedadı, nəhəng, fədakar əməyi, tükənməz ilhamı və məftunedici sənəti ilə əbədiyaşar olan sənətkarı həyatın, ölkənin əlindən almaq mümkün deyildi.

O, yaşayıb, yaşayır və xalqın ürəyində, yaddaşında əbədilik yaşayacaq! Kəsib-biçən dəryazını qaldırmamış ölüm kabusu canlı Bülbüllə üz-üzə dayandı. Bülbülün milyonların ürəyində xoşbəxtlik nəğməsi tək oxunan, həyata sevgi ilə dolu, məhəbbət himni kimi səslənən gur səsi reproduktorlardan şəlalə tək axdı, daha heç bir qüvvə bu cazibədar, bu qüdrətli musiqini susdurmaq iqtidarında deyildi... Yox, böyük Xalq müğənnisinin tabutu başında bu dəqiqələrdə ölüm sevinmirdi, həyat, ölməzlik, əbədiyyət xalqın idrakında, hafizəsində bərqərar olurdu.

Bu sətirlərin müəllifinə Bülbülü Bakı teatrlarının, konsert salonlarının səhnələrində, Moskvanın Böyük Teatrında, Kremldə, respublikanın rayonlarında, kolxoz çöllərində, Cənubi Azərbaycanın Təbriz və Mərənd şəhərlərində dəfələrlə dinləmək nəsib olub. Ağzınadək dolu salonlar hər yerdə Bülbülü sürəkli alqışlarla qarşılayırdı. Onun sənəti insanlara

ali, ülvi hisslər aşılayırdı. Harada çıxış edir-etsin, orda minlərlə dinləyici ovsunlanmış kimi, onun mahnılarının – ürəkləri quş tək qanadlandıran, varlıqlarını sevinclə, nurla dolduran mahnılarının sehrinə düşürdü.

Hər dəfə Bülbülə qulaq asanda görürdüm ki, adamlar onun hər sözünü, hər mahnısını həssaslıqla, diqqətlə dinləyirlər. Gözləri sevincdən işıqlanır, üzləri fərəhdən nurlanır, sanki arzuları çiçək açır.

Bülbülün mahnıları dinləyici qarşısında daim həyatın yaxşı, işıqlı tərəflərini əks etdirir, onlarda insana, onun şüuruna, iradəsinə inamı möhkəmlədir, nəcib, saf, ülvi əməllərə ruhlandırır. Bunda da qeyri-təbii heç nə yoxdur, çünki əsl sənətin gücü bundadır. Bülbülün «Yaxan düymələ», «Süsən sünbül», «Qaçaq Nəbi» kimi məşhur xalq mahnılarından sonra salonu titrədən gurultulu alqış sədaları xalqın əsl sənətə olan məhəbbətinin nümayişinə çevrilir.

Söz yox, bizim musiqişünaslar Bülbül sənətinin xüsusiyyətlərini, onun istedadının kütlələrə belə güclü təsirinin səbəblərini dərindən öyrənəcəklər, onun xalq mahnılarının və muğamların ifa spesifikasını açacaqlar, Azərbaycan vokal sənəti sahəsində onun novatorluğunu peşəkarlıqla təhlil edəcəklər.

Yazıçı və ədəbiyyatşünas kimi mənə bir şey aydındır: Bülbülün bu cür böyük müvəffəqiyyəti onun sənətinin xəlqiliyi ilə izah olunur.

Müğənninin söz, ritm üzərindəki işini, onun mahnının bütün zəngin çalarlarını dinləyicilərə çatdırmaq bacarığını mən xüsusi qeyd etmək istəyirəm. Bülbül Füzuli, Zakir, Seyid Əzim kimi klassiklərin qəzəllərini, Vaqif, aşıq Ələsgər qoşmalarını, ümumiyyətlə, xalq yaradıcılığını nəinki yaxşı bilir, həm də bu əsərləri böyük sənətkar ürəyilə duyur, hiss edirdi.

Bülbül bir çox gözəl səhnə obrazları yaratmışdır.

Bülbül elə ustadlardandır ki, onların hər şəhərdə, hər



kənddə saysız-hesabsız pərəstişkarları var. Bu da təsadüfi deyil. Bülbül fəhlələr qarşısında, kolxoz çöllərində hesabagəlməz konsertlər verib. Zəhmətkeşlərlə əlaqə, xalqın nəfəsi onun ürəyini daim fərəhlə doldurur, onu ilhama gətirirdi.

Bülbülün adı tarixə yazılmışdır. O, təkcə yüksək istedadlı müğənni deyil, həm də əsl xalq sənətkarıdır – heyrətamiz, nadir istedadını, tükənməz, kamil ustalığını səxavətlə, sevinclə sonadək xalqa ərmağan edən bir sənətkardır.

Öz nadir, böyük, qüdrətli istedadını Bülbül Azərbaycan xalqının bədii-mənəvi həyatının elə sahəsinə səxavətlə sərf etdi ki, o zaman fəaliyyətinin ilk illərində əsl novatorluqda, əsl inqilabda zərurət hiss olunurdu; bu novatorluğu, inqilabı ədəbiyyatda Mirzə Fətəli Axundov, musiqidə Üzeyir Hacıbəyov artıq yaratmışdılar.

80235

Azərbaycanın xalq vokal sənətini bu dövrün ruhuna, tələblərinə uyğun yeni məzmunla zənginləşdirmək lazım idi, onun bədii formasını inkişaf etdirmək, mükəmməl hala gətirmək, əsrin yeni formalarını mənimsəmək, Avropa və rus vokal sənətinin nailiyyətlərini əxz etmək lazım idi. Bizim vokal sənətimiz yalnız Bülbülün şəxsində öz alovlu inqilabçısını, bu sənətin inkişafında yeni dövr açan nadir, nəhəng istedadı tapdı. Bülbül Azərbaycanın vokal sənətini zənginləşdirdi, onu yüksək pilləyə qaldırdı, bunu çox gözəl, ədəbərkan və böyük zövqlə etdi.

Bülbül böyük sənətkar idi. Dünyada vokal sənətinin çox əsrlər ərzində böyük nümayəndələri az olmamışdır. Lakin Şalyapin kimisi, Bülbül kimisi həmişə nadir hadisə olmuşdur. Onlar böyüklər arasında böyüklərdən idilər…

Bülbülün səsində, oxumaq manerasında, aktyor mədəniyyətində ecazkar cazibə qüvvəsi vardı. O, sehrkar idi: minlərlə adamı bir anda sehrləyə bilirdi. Bu sözləri yazarkən Bülbülün təbəssüm əskik olmayan gözəl siması gözümdə canlanır. Onun dumduru bulaq suyu kimi qaynayan işıqlı gözləri yadıma düşür…

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası

Mən Bülbüllə bağlı çox hadisələrin şahidi olmuşam. Hər şeydən də əvvəl M.F.Axundov adına Azərbaycan Akademik Opera və Balet Teatrı, onun səhnəsi və bu səhnədən teatrı doldurmuş adamları vəcdə gətirən, ürəkləri bədii gözəlliyin misilsiz həzz aləminə aparan Bülbül sənətinin!

Bülbülün səsindəki məlahət ayrı bir keyfiyyət idi, heç bir ölçüyə gəlməyən estetik nemət idi.

Uzun illər bu ecazkar nemətdən, Bülbül sənətinin gözəlliyindən həzz almaq səadəti mənə də qismət olmuşdur.

1937-ci il aprel ayının 30-da böyük bəstəkarımız Ü.Hacıbəyovun «Koroğlu» operasının ilk tamaşasında Bülbülü görmüşəm. 1938-ci il aprelin 5-də Moskvada birinci Azərbaycan Ədəbiyyatı və İncəsənəti Ongünlüyündə və bu ongünlüyə hazırlıq dövrünün ən həlledici çağlarında mənim həyatım, fəaliyyətim incəsənətlə, onun yaradıcıları ilə bağlı olub, o cümlədən, əlbəttə, Bülbüllə!

Bülbül sənəti, işıqlı, məlahətli Bülbül şəxsiyyəti moskvalıları da sehrləmişdi!

Bir müddət sonra Böyük Vətən Müharibəsinin ən ağır vaxtlarında – 1941-ci ilin oktyabrında mən Təbrizdə, Cənubi Azərbaycanın başqa şəhər və kəndlərində çıxış edən opera teatrımızın artistləri sırasında Bülbülü xatırlayıram. Biləsiniz bu necə ilham idi, necə həvəs idi, onun bütün varlığını bürümüşdü. Cənublu qardaş və bacılarımız heyranlıqla, böyük məhəbbətlə onu alqışlayırdılar!

Xalq məhəbbəti, tamaşaçı nəfəsi Bülbülü yaman alovlandırırdı; hətta mən onun müəyyən səfərlər zamanı nə üçünsə meydanlara yığışmış bir dəstə adamı gördükdə maşından düşərək onlarla salamlaşıb musiqisiz, tarsız-kamansız, Koroğlusayağı qıy vurub xalq mahnılarını, operalardan ariyaları oxuduğunu görmüşəm: Mərənddə, Xoyda belə olmuşdu! Bülbülün sənətinin böyüklüyünə, şəxsiyyətinin sadəliyinə vurulmuş xalq kütləlləri onu hər yerdə həvəslə, məhəbbətlə, gül-çiçəklə yola salmışdır!



Kolxoz kəndlərində belə hadisələr çox olmuşdur. Bir dəfə Bülbül, böyük şairimiz Rəsul Rza və mən Bakıdan maşınla rayonlara çıxmalı olduq. Biz gah lirik ruhlu, gah ciddi mühakiməli, gah da ürək açan, fikir oynadan zarafatlarla yola pilləkən döşəyirdik... Kirovabadla (Gəncə – red.) Şamxor (Şəmkir – red.) arasında hey çöllərə, əkin-biçin sahələrinə göz salan Bülbül birdən sürücüyə yumşaq bir səslə «əzizim, saxla!» dedi. Düşdük, pambıq becərən bir dəstə kişili-qadınlı kolxozçulara yaxınlaşdıq. Salam-kalamdan sonra, eynən Xoyda, Mərənddə olduğu kimi Bülbül cəh-cəhlə «Yaxan düymələ»ni oxudu. Kolxozçuların ogünkü heyranlığı, sevinci, məhəbbəti təsvirə gəlməzdir...

Bülbül Azərbaycan vokal sənətində xüsusi mərhələ açdı, onu yeni yüksək zirvəyə qaldırdı, bizim xalq havalarımızın, vokal sənətimizin rus və Avropa vokal sənəti ilə sintezini yaratdı. M.F.Axundovun ədəbiyyat aləmində, Ü.Hacıbəyovun musiqimizdə yaratdığı inqilabı Bülbül vokal sahəsində etmişdir.

Bülbül sənətinin bir gözəlliyini də qeyd etmək istəyirəm: o da Bülbülün sözə, ədəbi mətnə həssaslığı idi. Onun sözü dinləyiciyə çatdırmaq, aydın və təmiz tələffüz etmək qabiliyyəti çox yüksək idi. Bülbül oxuyarkən şeirin bütün məna və gözəlliyini saxlayırdı, dinləyənlərin qəlbinə yol açırdı. Füzuli şeirinin fəlsəfəsini, tutumunu, gözəlliyini, əruz vəzninin ahəngini saxlamaqda Bülbül çox mahir və incə ruhlu bir sənətkar idi. Arzu edərdim ki, vokal sənəti ilə məşğul olan və bu sahəyə yeni gəlmiş xanəndələr Bülbül ustalığının bu cəhətinə də diqqəti artırsınlar... Axı, keçmişin böyük xanəndələri də muğamat oxuyarkən qəzəlin bütün fəlsəfi mənasını və bədii gözəlliyini canlandırmağa, dinləyicinin ruhuna hopdurmağa səy etmişlər...

Bülbül sözün əsl mənasında böyük və ölməzdir. Xalq onun işıqlı surətini ürəyində qranit abidə kimi qayğı ilə qoruyur.

Əziz Bülbülümüz, sən bu gün də bizim aramızdasan! Sənin adın çəkilən hər yerdə insanların çöhrəsinə təbəssüm qonur, gözlər sevincdən, fərəhdən nurlanır. Belə olub, daim də belə olacaqdır.

***M.İBRAHİMOV,***
***xalq yazıçısı, akademik,***
***Sosialist Əməyi Qəhrəmanı***



### *SƏNƏTKAR VƏ ALİM*

Bülbül mənim ən istəkli və istedadlı tələbəm idi. O öz doğma Azərbaycanına, eləcə də mənim adıma dünya şöhrəti gətirdi.

Mən Bakıdan ayrılandan sonra da bizim dostluğumuz davam edirdi. Biz Moskvada, ölkənin müxtəlif kurortlarında görüşürdük, məktublaşırdıq. Mən Bülbülün bütün uğurlarını, zəfərlərini böyük diqqətlə izləyir və bununla fəxr edirdim.

Bülbül vokal sənəti tarixində yüksək aktyor-ifaçı ustalığı ilə dərin elmi biliyə malik tədqiqatçı alim erudisiyasının nadir vəhdətini özündə birləşdirən bir istedaddır.

Bülbülün Azərbaycan vokal mədəniyyətinə gətirdiyi yeniliklər opera və ifaçılıq sənətinin gələcək inkişafına misilsiz töhfədir.

Bülbülün novatorluq fəaliyyəti rus opera sənəti ustalarının tarixi rolundan əsaslı surətdə fərqlənir. Çünki onun klassik opera ənənələri əsasında yetişmiş sələfləri yox idi. O, köhnə qanun-qaydaları dağıtmalı, yenilərini yaratmalı, yeni üslub, yeni vokal sənətinin yaradılması uğrunda mübarizə aparmalı oldu.

Məhz buna görə Bülbülün novatorluğu tam yenidir və tarixilik baxımından böyük əhəmiyyətə malikdir.

Azərbaycanın vokal-musiqi mədəniyyətinin inkişaf tarixində Bülbülün hərtərəfli, coşğun fəaliyyətinin xüsusi yeri var.

Azərbaycan xanəndəlik məktəbi ilə ümumavropa və rus ifaçılıq məktəbinin sintezini əyani surətdə nümayiş etdirən Azərbaycan professional vokal məktəbinin yaradıcısı, respublika bəstəkarlarının yetişməsi prosesində böyük rol oynamış Azərbaycan Elmi Tədqiqat Musiqi Kabinetinin təşki-

latçısı, Azərbaycan Dövlət Konservatoriyası vokal kafedrasının professoru, gözəl müğənni Bülbül xalqının yüksək hörmətini və məhəbbətini qazanmışdır. Xalqın sevimlisi olan Bülbül SSRİ xalq artisti kimi yüksək adı layiqincə daşıyır.

Əgər məndən soruşsaydılar ki, Bülbül kimin şagirdidir? Mən cavab verərdim: «Bülbül Bülbülün şagirdidir». Bülbüldən soruşsaydılar: «Siz kimin şagirdisiniz»? Məncə, o, belə cavab verərdi: «Mən çoxlarından öyrənmişəm – biliyi olan hər kəsdən. Mən maraqlandığım, vacib, gərəkli saydığım hər şeyi soruşub öyrənmişəm».

Amma hər hansı işin, biliyin, sənətin öyrənilməsi sahəsində ilk addımlar çox vacib, həlledici rol oynayırsa, ümid edirəm ki, mənim adım sizinlə bərabər sizin səsinizin, gözəl istedadınızın püxtələşməsi üzərində işləmiş bir şəxsin adı yadınızdan çıxmayacaq, mənim dərin hörmət bəslədiyim əziz dostum Bülbül.

***N.İ.SPERANSKİ,***
***RSFSR əməkdar artisti,***
***professor***



## *GÖRÜŞLƏRİ, SÖHBƏTLƏRİ XATIRLARKƏN...*

27 sentyabr... Gecə saat üçdür... Ürək dərddən sızıldayır. Bülbül yoxdur, vəfat etmişdir – bu dəhşətli sözləri yaza bilmirəm, yazmaq istəmirəm.

Bülbülümüz elə gümrah, elə şən, gülərüz idi ki! Onu tez-tez dinləyərdik, Bülbülümüzün səsində əbədi, solmaz gəncliyin nəfəsini aydın duyardıq. Heyhat, ölüm Azərbaycanın bülbülünə rəhm etmədi, şöhrəti dünyanı tutmuş qartal qanadlı müğənni doğma torpağın qoynuna sığındı...

Sanki hər evin, hər ailənin şirin avazlı bülbülü susdu.

İradəmi toplayır, özümə toxtaq verirəm. Fəqət ürək daha bərk çırpınır, üsyan edir. Qəhər məni boğur, gözlərimdə yaş gilələnir.

Bülbüllə görüşlərimi, söhbətlərimi xatırlayıram... Biz iyirmi beş il dostluq eləmişik. Moskvaya, Tbilisiyə, Daşkəndə, Təbrizə bərabər getmişik. Çörəyi, duzu, həyatın acısını, şirinini də bərabər bölmüşük. Keçən il bu vaxtlar onunla bir yerdə Azərbaycanın rayonlarını səyahətə çıxmışdıq.

Bülbül iyirmi il əvvəl olduğu kimi ilhamla, öz sənətinə sönməz, odlu məhəbbətlə oxuyurdu... Onun daim cavan, parlaq istedadının pərəstişkarları ilə dolu mədəniyyət saraylan alqış sədalarından titrəyirdi.

O, dönə-dönə səhnəyə qayıdır, gülümsəyir, xalqın məhəbbətinə məhəbbətlə cavab verərək oxuyur, yorulmadan oxuyurdu... Bülbül gah ağac yarpaqlarının arasında gizlənib cəh-cəh vuran bülbülləri heyran qoyan qıvrımtel şuşalı oğlana dönür, gah da əlində misri qılınc, Qıratın belində çapan pəhləvana çevrilirdi. Coşğun hisslər, qaynar duyğular içində

o, gurultulu dağ şəlaləsini xatırladırdı... Heç vaxt da özözünü təkrar eləmirdi, daim yaradır, daim yeni musiqi xəzinələri aşkarlayırdı...

Xalq qarşısında Bülbülün çıxışları həmişə böyük uğurla keçirdi. O, elə aydın, səlis danışırdı ki, doğrusu, ondan sonra biz yazıçılar danışmaqda çətinlik çəkirdik. Bir dəfə mən bunu açıqca dedim: «Yoldaşlar, Bülbüldən sonra mən sizi nə ilə heyrətləndirə bilərəm?!»

İndiki kimi yadımdadır: Bülbül səhnəyə çıxanda zaldakılar onu gurultulu, arası kəsilməyən alqışlarla qarşıladı.

Böyük müğənnimizin oxuduğu «Segah dəstgahı», «Rast dəstgahı», «Şur təsnifi», «Bayatı-Şiraz təsnifi», «Çahargah təsnifi» muğamlarını dinləyicilər şövqlə dinləyirdilər.

Konsertdən sonra Bülbül respublikamızda mədəniyyət və incəsənətin inkişafından söz açdı. Hamı – pambıqçılar, ipəkçilər, heyvandarlar, üzümçülər, kənd ziyalıları sevinc içində idi. Bu gözəl gecə yəqin ki, onların xatirindən uzun zaman silinməyəcəkdi.

Bülbül xalq yaradıcılığının dərin qatlarından müasir dünya vokal sənətinin zirvələrinə qədər yüksəlmişdir. Ölkəmizin bütün qardaş xalqları Bülbülü tanıyır, sevir, səsinə məftun olur, onu böyük hörmətlə qarşılayır, zəmanəmizin böyük müğənnisinin sənətini yüksək qiymətləndirirdilər.

Bülbülün səmimi və zərif, təntənəli və əzəmətli mahnıları bütün dünyanı dolaşır.

Bizim Bülbül, nəğməkar, sənətkar Bülbül!... Bülbül deyəndə, gözümüz dolanıb axtaranda, Bülbülü kim və ya kimlərlə müqayisə etmək istəyəndə, gözümüzün qabağına Üzeyir bəy gəlir, Səməd Vurğun gəlir. Mənim mülahizəmə görə Üzeyir bəy musiqi aləmində hansı bir yeri tutursa, Səməd Vurğun müasir poeziyada hansı bir mövqedə dayanırsa, Bülbül də vokal səhnə sənəti aləmində belə bir yeri tutur, belə bir mövqedə dayanır.



«Koroğlu»nu Bülbülsüz təsəvvürə gətirmək çətindir. Altında Qırat, sinəsində sədəfli saz, əli ağır toppuzlu Koroğlu Bülbülün ifasında necə də öz klassik həllini tapmışdır!

Bülbül yalnız müğənni, ifaçı deyil, o, həm də Azərbaycanın görkəmli alimidir. O, xalq musiqisinin incilərini aşkara çıxaran professor və gözəl aktyordur. Onun sənəti hamı üçün doğmadır, əzizdir – fəhlə üçün də, kolxozçu üçün də, alim üçün də... Bülbül hamının ürəyinə yol tapır, bülbül kimi özünə əbədi yuva qururdu. Elə bir insan tapılmaz ki, Bülbülün sənətini sevməsin, ona heyran olmasın.

Biz Bülbülümüzlə fəxr edirik. Doğrudanmı indi bizim Bülbülümüz susacaq?

Yox, onun səsi, bülbül cəh-cəhi ölkəmizin üstündən əskik olmayacaq.

Xalqımız onunla təsəlli tapır ki, Bülbülün fədakarlıqla, təmənnasız xidmət etdiyi sənət əbədidir. Onunla təsəlli tapır ki, xalq arasından çıxmış mavi gözlü oğlan, sənətin çətin, daşlı-kəsəkli yolları ilə irəliləyərək zirvələrə yüksəldi, dünyanın ən qüdrətli müğənniləri ilə bir cərgədə dayandı.

Bəli, o, xalqımızın adını ucaltdı, ona şöhrət gətirdi.

Bəli, bizim susmaz bülbülümüz, Azərbaycanımızın şirin avazlı bülbülü, qartal qanadlı müğənnisi ölməzdir, əbədidir!

***Süleyman RƏHİMOV,***
***xalq yazıçısı,***
***Sosialist Əməyi Qəhrəmanı***

## *AZƏRBAYCAN OPERASININ NOVATORU*

Bülbülün ölümü mənə çox ağır təsir etmişdir. Mən həyatımda dəhşətli bir boşluq hiss edirəm. Fikirləşəndə ki, daha heç vaxt öz xeyirxah, vəfalı dostumu görməyəcəyəm, ürəyim qana dönür.

Biz Bülbül ilə uzun illər bir binada yaşamışıq. Yaradıcılıq dostluğu ilə yanaşı, şəxsi dostluğumuz da var idi. Lap bir ailə kimi idik. Demək olar ki, hər gün görüşürdük.

Bütün bayramları, əlamətdar günləri birlikdə keçirirdik. Mənim ad günüm avqustun 20-si, Ada xamının (mən də, Həcər də onu Adoçka çağırırdıq) ad günü isə avqustun 22-si idi. Qonaqlıqlar avqustun 20-dən başlayırdı. Ad günlərimizi üç gün – gündüzləri bağda, axşamları isə şəhərdə bayram edirdik. Bülbülün evində, bizim evimizdə nə qədər gözəl günlər keçirmişik! Bütün bunlar sanki dünən olub, həm də elə bil uzaq keçmişdə qalıb.

Biz tez-tez qardaş respublikalara qastrola çıxardıq. Hər yerdə gözəl qarşılanma, dolu zallar, sürəkli alqışlar, misli görünməmiş müvəffəqiyyət!

Biz onunla bir çox opera tamaşaları üzərində bərabər işləyir, konsert estradalarında birgə çıxış edirdik. Onun hər dəfə də melodiyanı, musiqi ifadəsini cilalamaq bacarığı məni heyrətə gətirirdi.

Bülbül həmişə Azərbaycan bəstəkarları ilə sıx yaradıcılıq əlaqəsi saxlayır, ifa etdiyi mahnılarla yaşayır və onları xüsusi məhəbbətlə dinləyicilərə çatdırır.

Bülbüllə olan 20 illik şəxsi və yaradıcılıq dostluğumuz müddətində bir çox opera əsərlərinin üzərində onunla birgə



işləyərkən, estrada konsertlərində çıxış edərkən mən b böyük sənətkara diqqətlə baxır və onun musiqi ilə nə qədə qaynayıb-qarışdığına heyran qalıram.

Bülbül yeni bəstələnmiş mahnının hər sözünə, hər ahə nginə diqqət yetirir, sanki musiqinin bəstələnməsi prosesir yenidən özü üçün canlandırır. Vaxt olur ki, o, saatlarla gözlə rini yumub kresloda oturur, fikrə dalır, musiqi obrazı vasitəsi lə ifa etdiyi mahnının xarakterini, sözlərin mənasını, tələffü qaydalarını xəyalında canlandırır, partituraları qurur, kompo zisiyanı əsərin ümumi ruhu ilə həmahəng edir.

Bülbülün xalq tərəfindən böyük maraq və ürək döyü ntüsü ilə dinlənilməsi belə gərgin və çətin əməyin səmərəl nəticəsidir.

Bülbülün işə məhz belə ciddi fikir verməsi onun yüksə sənət zirvələrinə qalxmasına imkan yaratdı.

Mən Şalyapini rus operasının novatoru, Bülbülü is Azərbaycan operasının novatoru hesab edirəm.

Əgər biz Şalyapinin ifaçılıq sənətini, onun ifa etdiyi mu siqini ruhən duyduğunu, musiqidə dərinlik və məzmun axta rışını, yaratdığı surətlərə qovuşaraq onların həyatı ilə yaşa dığını başa düşürüksə, demək, Bülbül sənətkarlığının dinləy icilərə güclü təsirini də anlamış oluruq. Bülbülün peşəka ifaçılıq məktəbinin yaranması sahəsindəki misilsiz xidmətlə ri ölçüyəgəlməzdir.

Onun bizim müğənni və bəstəkarlarımız qarşısında d xidmətləri böyükdür.

Biz fəxr edirik ki, Bülbül bizim xalqımızın bülbülüdür Bülbül bizimdir.

***NİYAZİ,***
***SSRİ xalq artisti,***
***Sosialist Əməyi Qəhrəmanı***

*BÖYÜK MAESTRO*

Bülbülün Xatirə Muzeyinə çevrilən bu əziz, qonaqpərvər evə nə qədər gəlmişəm, indi onu demək çətindir. Bu səliqəli mənzildə maraqlı adamlarla nə qədər gözəl, unudulmaz görüşlər olub!

Adətim üzrə indi də bura gələrkən həyəcan keçirirəm. Burada hər şey onun sağlığında olduğu kimidir, təkcə özü yoxdur…

Yenə də burada hər şey onu xatırladır. Adama elə gəlir ki, ətrafda Bülbülün qeyri-adi dərəcədə gözəl və ifadəli səsi dolaşır. Xatirələr dil açır, əzəmətli istedad haqqında, gözəl insan, ağıllı müsahib və böyük yumor hissinə malik sənətkar haqqında canlı hekayətlər danışır…

Bülbül heyrətamiz istedada və çoxcəhətli yaradıcılığa malik idi; həm xalq mahnılarının, ariyaların, romansların, rus və Azərbaycan klassikasının misilsiz ifaçısı idi, həm də Aşıq Qərib, Kavaradossi, Hersoq, Aslan, Əlyar, Əsgər, Nizami,… obrazlarının yaradıcısı. Ən başlıcası isə böyük maestro – Bülbül onun şöhrətini göylərə ucaldan Koroğlu obrazında misli-bərabəri olmayan vüsət əldə etmişdi.

«Koroğlu» operasını Üzeyir Hacıbəyov məxsusi olaraq Bülbül üçün yazmışdı. Rövşənin musiqi partiyasının tələb etdiyi çətin tessituraya yalnız o, belə sərbəst və virtuozcasına yiyələnmişdi.

Təkcə «sibemol», «si», üçüncü oktavanın «do» notu «Koroğlu»da onlarcadır. Bülbülün böyük təcrübəsinə, parlaq istedadına, ustalığına illər təsir göstərə bilmirdi. Onun səsi ömrünün son gününədək şəlalə kimi çağlayırdı. Bülbül Azərbaycan xalqının fəxri, bizim tariximizin iftixarıdır.

Bülbül ölməzliyə qovuşmuş müğənnidir.



Əziz Adilə xanım! Bu xatirəni göz yaşları içində qələmə alıram. Bülbül haqqında çox yazmaq olar. Lakin bu ağır itki məni dondurub, söz tapa bilmirəm. Bülbülsüz qaldığımızı dərk etmək çox ağırdır. Xatirələr yada düşür, ürək dərddən sıxılır. Mehribanlıq, səmimiyyət, sevgi və dostluğun daim hökm sürdüyü Sizin bu gözəl evinizdə nə qədər unudulmaz saatlar, günlər, illər keçirmişəm!

Sizin evdə ölkənin görkəmli xadimləri, tanınmış yaradıcı adamları ilə görüşdüyümü xatırlayıram. Söhbətlər zamanı maraqlı ideyalar meydana gəlirdi. Biz musiqi mədəniyyətinin inkişafı ilə bağlı fikir mübadiləsi edir, yeni əsərləri dinləyir, gələcək planlardan, perspektivlərdən danışırdıq.

Bülbül ilə ünsiyyətdən nə qədər gərəkli xüsusiyyətlər götürürdük!

Bilsəydiniz Bülbül üçün, onun mülayim danışığı, söhbətləri, şirin yumoru, zarafatları, müdrik məsləhətləri üçün necə darıxıram! Qonaqlarla dolu bu evinizdəki o günlər, axşamlar necə gözəl idi! Kədərinizə şərik oluram. Möhkəm olun! Özünüzü ələ almalısınız. Siz Çinaya, Polada lazımsınız.

Dərin hörmətlə, həmişə Sizin:

***Rəşid BEHBUDOV,***
***SSRİ xalq artisti,***
***Sosialist Əməyi Qəhrəmanı***

### *BÜLBÜLÜN XATİRƏSİNƏ*

Azərbaycan bəstəkarları bu gözəl sənətkara çox borcludurlar. Bülbül bizim yaradıcılığımızın alovlu təbliğatçısı, musiqimizin carçısı idi, onun tanınması yolunda fədakarlıqla çalışırdı. Bülbül müdrik bir müəllim kimi müxtəlif janrda, həcmdə yazılan musiqi nümunələrinin – adi mahnılardan tutmuş iri, indi hamı tərəfindən qəbul olunan simfonik əsərlərə, operalara qədər çoxlu əsərlərin yaradılmasının təşəbbüskarı olmuşdur. Onun yüksək tələbkarlığı, qeyri-adi duyumu, həssaslığı yaradıcılıq işində bizim hər birimiz üçün meyar idi.

Bülbülün dahiyanə ifaçılıq ustalığı çoxşaxəli idi. Sadə xalq mahnıları və klassik operaların mürəkkəb nümunələri, çətin muğam sənəti və sovet bəstəkarlarının əsərləri – bütün bunlar sovet ifaçılıq mədəniyyəti xəzinəsinə böyük töhfələr vermiş ustadın maraq dairəsinə daxil idi.

İtaliyada vokal təhsili almış Bülbül yüksək belkanto üslubunun Azərbaycan milli oxuma üslubu ilə üzvi sintezini yaratdı. Bu, istedadlı və tələbkar ustadın çox böyük yaradıcılıq nailiyyətlərindən biri idi.

Azərbaycan Dövlət Konservatoriyasının professoru kimi Bülbülün çoxillik məhsuldar pedaqoji fəaliyyəti bənzərsiz Azərbaycan vokal məktəbinin yaranmasına səbəb oldu. Bu ənənələr ustadın şagirdləri və ardıcılları tərəfindən uğurla inkişaf və davam etdirilir.

Bülbül Azərbaycan musiqi folklorunun müntəzəm toplanması və elmi surətdə araşdırılması işinin təşəbbüskarı, eyni zamanda Azərbaycan xalq mahnıları məcmuələrinin tərtibçisi və redaktoru oldu. Bunlar da bu sahənin əsasını qoydu və onun gələcək inkişafını təmin etdi.



Bülbülün bütün həyatı incəsənətə ilhamla xidmətin nümunəsidir. O öz baxışlarında, münasibətlərində kompromisə, güzəştə getmir, çətinliklər qarşısında geri çəkilmir, həqiqət, realizm və incəsənətdə əsl gözəllik devizi uğrunda mübarizə aparırdı. Bu mübarizə o, cavan xanəndə olanda da, uzaq İtaliyada təhsil illərində də, bütün ölkədə kamil sənətkar kimi tanındığı zamanda da, bir sözlə, ömrünün son gününədək davam edirdi.

Bizə böyük kədər üz verib. Əziz, unudulmaz Bülbülümüz – xalqın sevimlisi, coşğun təbli müğənni, gözəl artist, istedadlı alim və pedaqoq, ictimai xadim vəfat etmişdir. O daha bizimlə deyil. Ürəklərimizi çulğayan qüssə, kədər ölçüyəgəlməzdir, onu sözlə ifadə etmək çətindir.

Bülbülümüzün cəh-cəhi susdu, həmişəlik susdu... Onun parlaq, nurlu gözləri əbədi qapandı... Müdrik, xeyirxah, əvəzsiz dostumuz bizi tərk etdi. Fəqət özündən sonra doğma xalqına qiymətli, misilsiz bir sərvət, miras qoyub getdi. Bu gözəl sənət inciləridi, mahnılardı, onun sadiq tələbələridi.

Öz xalqına sonsuz məhəbbətlə dolu bir ömür yaşadı. Həyatının son gününədək xalqına sadiq oğul oldu.

Yox, Bülbül bizdən ayrılmayıb. Ölüm onun əbədiyaşar sənətini bizim əlimizdən ala bilməyəcək. Bu sənət bizi həmişə sevindirəcək, həyatımızı zənginləşdirəcək və xalqı ruhlandıracaq.

Bağlarımızda bülbüllərin heç vaxt susmayacağı kimi, bu böyük sənətkarın uzun ömründən şərəflə keçirib, gələn nəsillərə çatdırdığı estafeti qəbul etməyə layiq xalq istedadlarımız da tükənməyəcəkdir.

***Qara QARAYEV,***
***SSRİ xalq artisti,***
***Sosialist Əməyi Qəhrəmanı***

## *HEYRƏTAMİZ SƏNƏTKAR İSTEDADI*

Hər dəfə Bülbülün səsini eşidəndə qeyri-ixtiyari donub yerimdə qalıram. Dinləyirəm, tanış olduğum, ancaq hər dəfə yeni görünən bir melodiyam, kəlməni də ötürməkdən qorxuram. Minlərcə tenorlar içərisində bu nadir tembri, nadir gözəllikdə, nadir qüdrətdə olan səsi tanıyıram. «Fermato» notunu nəfəs dərmədən sonsuzluğa qədər məharətlə uzatmaq bacarığını heç kəsdə görməmişəm. Onun virtuoz ustalığı ən dərin insani hissləri – əlacsız faciədən işıqlı, nurlu lirikaya qədər bütün duyğuları ifadə üçün bir vasitə imiş.

Bəli, istedadının miqyası, qeyri-adiliyi cəhətdən Azərbaycanda onun tayı-bərabəri yox idi. Lakin sənətkar yaradıcılığının əhəmiyyəti doğma respublikadan çox-çox uzaqlarda geniş qiymətləndirilirdi. Buna bir neçə misal gətirim.

Bəstəkar V.Muradeli yazırdı: «Azərbaycan Bülbülünün ecazkar səsi cingilti ilə bütün Sovet torpağına yayılır».

Sergey Lemeşev də deyirdi: «Çox böyük istedad, inadlı zəhmət Sizi bütün xalqımızın görkəmli sənətkarına çevirmişdir».

Bülbülün adı ilə bağlı əfsanələr danışılır. Adın özü də qeyri-adidir – Bülbül. Dabbaq Məşədi Rza Məmmədovun oğlu lap uşaqlıqdan bülbülləri yamsılayıb. Bu adı ona bülbül kimi cəh-cəh, zəngulə vurduğuna görə vermişdilər. Hələ belə bir rəvayət də var ki, o, oxumağa başlayanda onun doğma şəhəri Şuşanın bütün bülbülləri özlərini «məğlub olmuş» saydıqlarından susarmış...

Bu, əlbəttə ki, zarafatdır. Ancaq elə o zaman aydın idi ki, bu balaca oğlanın qeyri-adi istedadı var. Təbiət bu uşağa öz ilahi vergisini əsirgəməmişdi! O, səkkiz yaşından xanəndə kimi toylarda, yığıncaqlarda oxuyurdu. Xalq mahnılarını,



muğamları elə ifa edirdi ki, bu, dünyagörmüş adamları, musiqiçiləri, yaşlı xanəndələri ağlamağa, gülməyə vadar edirdi.

İllər keçdi...Onun Bülbül adı ilə şöhrət qazanması da bu qeyri-adi istedadın rəmzi idi.

Onun təşkilatçılıq bacarığı hələ Gəncədə olarkən özünü büruzə vermişdi. O, Gəncə və onun qəzalarında musiqi-teatr işlərinin təşkilatçısı, Gəncə musiqiçiləri xorunun yaradıcısı idi. Musiqi təhsili almaq məqsədilə o, Bakıya Azərbaycan konservatoriyasına gəlir. Konservatoriyanı bitirdikdən sonra sənətini təkmilləşdirmək üçün Azərbaycan hökuməti onu İtaliyaya göndərir.

Bülbülün İtaliyadan qayıtmağı böyük təntənə oldu. Onun hər konserti, aparıcı solisti olduğu M.F.Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının səhnəsində hər rolu bir incəsənət bayramına çevrilirdi. Üzeyir Hacıbəyov Koroğlu partiyasını məhz onun üçün yazmışdı. Tamaşanın yaranmasında iştirak etmək, tamaşanın gedişi boyu rəqsləri ifa etmək səadəti mənə nəsib olub və Bülbülün rol üzərində necə həvəslə, ehtirasla, eyni zamanda necə səylə, diqqətlə işlədiyini də gördüm. Operanın Bakıda ilk tamaşası, sonra isə 1938-ci ildə Moskvada Azərbaycan İncəsənəti Ongünlüyündə nümayişi, əsas partiyanın ifaçısına görünməmiş müvəffəqiyyət, uğur gətirdi. Maraqlı bir cəhət də odur ki, Koroğlunun bu çox mürəkkəb partiyasını Bülbül Böyük Teatrın səhnəsində 21 il sonra altmış yaşında da çox böyük müvəffəqiyyətlə ifa etdi.

Bülbül çox gözəl vokal məktəbi keçib. Elə o səbəbdən də yaş dəyişməsi səsinə təsir etmirdi. Mən onunla eyni teatrda işləmişəm, eyni binada iyirmi beş il yaşamışam. Onun hər çıxışa özünü necə hazırladığını müşahidə etmişəm. O, səhnəyə Bülbül kimi yox, əsl Koroğlu, Alının dərdli oğlu, Nigarın incəqəlbli sevgilisi, xalqın igid sərkərdəsi kimi çıxırdı. Bu barədə ondan çox şey öyrənə bilərdilər, xüsusilə də gənclər. Koroğlu obrazı Bülbül yaradıcılığının zirvəsidir, la-

kin opera səhnəsində onun məharətlə yaratdığı bir sıra başqa surətlər də vardır. O, Kavaradossinin («Toska», Puççini), Hersoqun («Riqoletto», Verdi), Aşıq Qəribin («Şahsənəm», Qliyer), Əlyarın («Nərgiz», M.Maqomayev), Nizaminin («Nizami», Ə.Bədəlbəyli), Aslanın («Vətən», Q.Qarayev və C.Hacıyev) partiyalarını da ustalıqla ifa etmişdi.

Onun yaradıcılıq bioqrafiyasının parlaq səhifəsi isə xalq mahnılarının, Azərbaycan bəstəkarlarının romans və mahnılarının ifası idi. Narahat, fəal insan olan Bülbül təkcə öz şəxsi uğurları üçün məsuliyyət daşımırdı. O bütövlükdə incəsənət üçün can yandırırdı.

Folklorumuzu toplamaq və öyrənmək üçün açdığı Elmi Tədqiqat Musiqi Kabinetinin işinə ən müxtəlif mütəxəssislər cəlb etmişdi. Xalq yaradıcılığının Cabbar Qaryağdıoğlu və Qurban Pirimov kimi biliciləri öz təcrübə və biliklərini gənc musiqiçilərə həvəslə öyrədirdilər. Onun tapşırığı ilə cavan bəstəkarlar qədim xalq mahnılarını nota köçürmək üçün respublikanın müxtəlif rayonlarına gedirdilər. Qara Qarayev, Fikrət Əmirov, Cövdət Hacıyev, Tofiq Quliyev, Zakir Bağırov və bir sıra başqa bəstəkarlar onların professional cəhətdən yetişməsində həlledici rol oynamış Bülbülü minnətdarlıqla xatırlayırdılar. Prinsipcə yeni janr olan «Şur» və «Kürd ovşarı» kimi simfonik muğamların yaranmasında incəsənətimiz məhz Bülbülə borcludur. Müğənni bu sənət nümunələrinin müəllifi olan bəstəkar Fikrət Əmirovu xalq mahnı və melodiyalar xəzinəsi ilə tanış etdi, bu incilərin də çoxu o simfonik muğamlara daxil edildi.

Konservatoriyanın professoru kimi Bülbül müğənni kadrların hazırlanmasına, tədqiqat işlərinə çoxlu qüvvə sərf edirdi.

Genişürəkli Bülbül qibtə nə olduğunu bilmirdi, başqasının nailiyyətinə səmimi-qəlbdən sevinirdi. Azərbaycan incəsənətinin hər uğurunu öz sevinci hesab edirdi. Yadımdadır, «Qız qalası» baletinin ilk tamaşasından sonra fərəhdən üzü necə də gülür, ilk Azərbaycan baletinin yaranmasına görə



bəstəkar Əfrasiyab Bədəlbəylini necə hərarətlə təbrik edirdi! O, əsas partiyanın ifaçısı kimi mənə çox böyük, deyərdim ki, nəhəng bir gül səbəti təqdim etdi və indiyəcən yaddaşımdan silinməyən odlu-alovlu təbrik sözləri dedi.

Onun 60 illik yubileyinin necə təntənə ilə qeyd olunduğu yadımdadır. Bülbül M.F.Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının səhnəsində, hündür bir yerdə – iri kresloda oturmuşdu, qarşısında isə o gün müğənniyə hörmət və məhəbbətini izhar etmək istəyən adamlarla dolu izdihamlı bir zal vardı. Mən yubilyarın sağ tərəfində oturmuşdum, yüzlərlə adamdan, onlarca kollektivdən gəlmiş təbrikləri, gül-çiçək dəstələrini qəbul edirdim.

Dörd il sonra Azərbaycan xalqına, sovet incəsənətinə əvəzedilməz itki üz verdi: gözəl insan və dahi sənətkar vəfat etdi. Bu, iyirmi beş il bundan əvvəl olub. Hələ Bülbülün sağlığında İvan Semyonoviç Kozlovskinin peyğəmbərcəsinə dediyi sözlər özünü doğrultdu: «Bülbülün adı, onun biliyi, zövqü gələcək nəsillərdə yaşayacaq...» Biz artıq bunun şahidiyik. İndi nə qədər adam – bakılılar da, Azərbaycan paytaxtının qonaqları da, musiqiçilər və incəsənəti sevənlər də Xatirə Muzeyinə – böyük müğənninin vaxtilə yaşadığı evə axışırlar, gəlirlər ki, onunla canlı insan kimi görüşsünlər, ölməz Bülbülün yaradıcılıq dünyası ilə təmasdan bir daha sevinc hissi duysunlar.

*Qəmər ALMASZADƏ,*
*SSRİ xalq artisti,*
*SSRİ Dövlət mükafatı laureatı*

## *NADİR ŞƏXSİYYƏT, NADİR SƏNƏTKAR*

Biz Bülbül ilə Opera və Balet Teatrında düz 40 il bir yerdə işləmiş, 23 il eyni binada yaşamışıq. Yaxşı qonşuluq eləmişik. Ailəvi yaxın olmuşuq. Bizi həm də yaradıcılıq dostluğu bağlayırdı bir-birimizə. Biz onunla tez-tez Moskva, Leninqrad, Kiyev, Xarkov, Tbilisi şəhərlərinə, eləcə də Orta Asiya respublikalarına qastrol səfərlərinə gedirdik.

Azərbaycanı onunla qarış-qarış gəzmiş, kolxoz və sovxozlarda, fabrik və zavodlarda, pambıq tarlalarında, maldarların, neftçilərin, sərhədçilərin yanında olmuşuq.

Bülbül ilə iki dəfə İrana səfər etmişəm. Birinci dəfə 1941-ci ilin sentyabrında – Opera teatrı ilə. Bu, iki ay davam edən səfər idi. İkinci dəfə isə İrana 1943-cü ildə Bülbülün başçılıq etdiyi konsert briqadası ilə getmişəm. Deməliyəm ki, Leyla Bədirbəyli, Hacı Məmmədov, Tərlan Əliyeva, Çarski, Feldman və rəqs cütlüyü də bizim briqadaya daxil idi.

Bu səfərlər zamanı Bülbülün necə hərarətlə, necə məhəbbətlə qarşılandığını təsvir etmək mümkün deyil. Bunu gözlə görmək, ürəklə duymaq gərəkdi. Ağzınacan dolu zallar, ardı-arası kəsilməyən alqışlar, gül-çiçək dəstələri, minnətdarlıq sözləri!...

Onu dönə-dönə səhnəyə çağırırdılar. O da dinləyicilərin məhəbbətinə məhəbbətlə cavab verir, oxuyur, hey oxuyurdu...

Qəzvində konsert zamanı zaldan səs eşidildi: – Əziz Bülbül, Siz Pəhləvi şəhərində çıxış edəndə mən xahiş elədim ki, Koroğlunun ariyasını oxuyasınız. Burada – Qəzvində də yenə həmin xahişi edirəm. Mən sizin arxanızca Tehranacan gedəcəyəm, hər konsertdə də xahiş edəcəyəm ki, Koroğlunun ariyasını oxuyasınız.



Yaşadığımız mehmanxanadan teatra qədər səkilər qızılgül ləçəklərinə bürünmüşdü. Bu, sevimli müğənniyə məhəbbət və xüsusi hörmət nişanəsi idi. Deməliyəm ki, Daşkənddə də eyzən belə oldu. Bülbülün yaşadığı mehmanxanadan Nəvai adına Opera teatrına qədər bütün səkilər təzə-tər qızılgüllər içində üzürdü.

İran qəzetləri Bülbülün qeyri-adi səsi və çıxışları barədə tərif dolu məqalələr dərc edirdi. Bu sözlər yadımdadır: «Bu payız günlərində bizim Bülbül, bizim şeyda Bülbülümüz öz gözəl səsilə bizə əsl bahar gətirdi».

Bülbülü fərqləndirən başlıca cəhət onun hərtərəfli və çoxcəhətli fəaliyyətidir. Onun barəsində təkcə mahir ifaçı kimi deyil, həm də gözəl pedaqoq, Azərbaycan folklorunun toplayıcısı, səmimi, həssas yoldaş və əvəzsiz dost kimi danışmaq lazımdır. Bülbül gözəl tembrli, böyük diapazonlu misilsiz səs sahibidir. İfa ustalığı, səmimiyyəti, lirizmi təkrarsızdır. Bu səs, səmimiyyət, lirizm 40 ildir dinləyiciləri heyran edir, Bülbül istedadının pərəstişkarlarının qəlbini ovsunlayır...

Hər bir insan üçün vaxtında verilmiş məsləhət, dost köməyi çox vacib və qiymətlidir. Bülbül olduqca diqqətcil və qayğıkeş yoldaşdır. O, iştirak etdiyi bütün operaların partiturasını incəliyinəcən bilir. Ona görə də məşq zamanı gərəkli məsləhətləri ilə bizə hər an kömək edir, obrazın düzgün qavranması və səhnə təcəssümü ilə bağlı izahlar verir.

O, istedadlı müğənnilər nəsli yetişdirmişdir. Onların arasında respublikada tanınmış adlar az deyil: Kamal Kərimov, Mirzə Babayev, Sergey Nevedov, Firidun Mehdiyev, Mobil Əhmədov, Əmir Məmmədov, Məmməd Salmanov...

Bülbül Azərbaycan incəsənətinə şöhrət gətirən nadir şəxsiyyət və sənətkardır.

**_Həqiqət RZAYEVA,_**
**_respublikanın xalq artisti_**

## *XALQIN SEVİMLİ SƏNƏTKARI*

Elə insanlar var ki, onların sənəti həyatlarından ayrılmazdır. Bu insanlar öz işlərinin vurğunudur, qaynar yaradıcılıq fəaliyyətinə malik olan şəxsiyyətlərdir. Onların həyatı başdan-başa yaratmaq yanğısı ilə doludur. Bülbül də belə şəxsiyyət idi.

O, mürəkkəb həyat və yaradıcılıq yolu keçmişdir. Xanəndə... sənətkar – vətəndaş və dövlət xadimi... Budur onun böyük sənətinin dinamik inkişafı!

Bülbül sənəti əsl şövqlü, işıqlı sənətdir. Fəxr edirik ki, bu görkəmli sənətkarın, pedaqoqun, gözəl folklorçu və ictimai xadimin istedadı bizim Azərbaycanda çiçəklənmişdir.

Təbiət ona güclü, gözəl səs bəxş etmişdir. O da öz cazibədar səsini elə ustalıqla, elə məharətlə cilalamışdır ki, xalq ona «bizim bülbülümüz» adını vermişdir.

İlk günlərdən başlayaraq onun fəaliyyəti xalq musiqisi ilə bağlı olmuşdur.

Bülbülün fitri istedadı getdikcə pardaqlanır, yeni keyfiyyət kəsb edir. Alim, xalq musiqisinin görkəmli tədqiqatçısı, pedaqoq və ictimai xadim olan bir sənətkar kimi formalaşır.

Gərgin təhsil illərindən, böyük konsert fəaliyyətindən sonra Bülbül İtaliyaya – Rossini, Verdi, Puççini kimi nəhəng musiqiçilərin vətəninə gedir.

O, bu ustadların və böyük italyan opera ifaçılarının yaradıcılığını dərindən öyrənir. Bu tanışlıq Bülbülün bir vokalçı kimi formalaşmasında müsbət rol oynayır.

O, İtaliyadan Vətənə dönür. Moskva, Leninqrad... Bülbül böyük yaradıcılıq həvəsi ilə rus ifaçılıq məktəbinin əsaslarını öyrənməyə başlayır. Çoxillik gərgin əmək nəticəsində o, Azərbaycan Opera Teatrının yenilikçi müğənnisi keyfiyyətlərini qazanır.



Azərbaycan xalq musiqisini dərindən bilməyi, italyan vokal məktəbinin öyrənilməsinə tənqidi yanaşması və üstündə möhkəm dayandığı bünövrə – dünyaya Şalyapini, Nejdanovanı, Sobinovu və başqalarını bəxş etmiş böyük rus ifaçılıq məktəbi – budur Bülbül sənətini zirvələrə qaldıran!

Bülbül otuzuncu, qırxıncı və sonrakı illərdə Konservatoriyanın professoru kimi, həm də yaratdığı Elmi Tədqiqat Musiqi Kabinetinin rəhbəri kimi geniş fəaliyyət göstərir.

Bəstəkarlarla sıx yaradıcılıq dostluğu, onlarla ortaq müəllifliyi Bülbülün fəaliyyətində xüsusi qeyd edilməlidir. O, bəstəkarlarımızın yaratdığı ən yaxşı əsərlərin ən qızğın təbliğatçısı idi.

Həssas sənətkar, bəstəkarların böyük dostu... O, bizi yeni-yeni əsərlər yazmağa ruhlandırır, xalq musiqisini dərindən sevməyi, ondan yaradıcı şəkildə istifadə etməyi öyrədirdi.

Biz – cavan bəstəkarlar onun rəhbərliyi altında xalq yaradıcılığının ustad sənətkarları olan Cabbar Qaryağdıoğlunun, Qurban Pirimovun, aşıq Mirzənin, aşıq Əsədin və bir çox başqalarının ifalarını lentə köçürürdük. Bülbül bizi vokal sənətinin gözəlliklərinə qovuşdururdu. Bülbül olmasaydı, yəqin ki, xalq yaradıcılığını belə incəliklə öyrənə bilməzdik.

Mahir bilici, folklorçu, musiqişünas olan Bülbülün folklorun öyrənilməsi məsələlərinə dair məqalələri, şifahi çıxışları böyük elmi əhəmiyyətə malikdir.

Bülbül biz gənc musiqiçilərə xalq musiqisinə xüsusi bir məhəbbət aşılayırdı. O, bizi ETMK-nın işinə cəlb etdi, Azərbaycanın ucqar rayonlarına elmi ekspedisiyalara göndərdi. Bizim qarşımızda misilsiz, zəngin bir xəzinə açıldı. Bu, bizim yaradıcılıq qayəmizi istiqamətləndirməklə, zövqümüzü ömürlük müəyyənləşdirdi.

Bizim yaradıcılığımız üçün, bəstəkar kimi püxtələşməyimiz üçün bu fəaliyyətimizin dəyəri ölçüyəgəlməzdir.

Bülbül bizim qarşımızda xalq şeiriyyətinin, misilsiz gözəllik aləminin qapılarını taybatay açdı. Bizim musiqi mədəniyyətimizin bir çox sahələrinin inkişafında Bülbülün rolu əvəzsizdir.

Bülbül bizim «Vətən» operasının (Q.Qarayevin və C.Hacıyevin) yaradılmasında fəal iştirak etdi. O, bütün vokal partiyalarını redaktə etdi. Bu opera nəinki səhnədə göstərildi, hətta SSRİ Dövlət mükafatına da layiq görüldü.

***Cövdət HACIYEV,***
***respublikanın xalq artisti,***
***bəstəkar***



## *ŞƏRƏFLİ YOL*

Tamaşaçıların sürəkli alqışları altında səhnənin məxmər pərdəsi yavaş-yavaş örtüldü. Orkestr sonuncu notu çalıb qurtarmışdı. Lakin salonda alqış səsləri hələ də davam edirdi. Bu alqış dəfələrlə pərdə qarşısına çıxan ifaçıların, xüsusən müəllifin şərəfinə idi.

Həmin gün Opera və Balet teatrının, xalqımızın musiqi mədəniyyətinin xəzinəsinə yeni bir inci daxil oldu. Azərbaycan xalqının sevimli bəstəkarı Üzeyir Hacıbəyovun klassik əsəri «Koroğlu» operasının ilk tamaşası misli görünməmiş bir müvəffəqiyyətlə keçdi.

Koroğlu obrazı o qədər inandırıcı və o qədər cazibədar idi ki, tamaşa boyu salondakılar sənət ustası Bülbülün təqdirəlayiq, yüksək ustalıqla yaratdığı Rövşən surətinə heyran qalmışdılar. Bu surətin ustalıqla ifa olunması ona tamaşaçılarımız arasında böyük şöhrət qazandırdı.

Bülbül Opera və Balet Teatrında gözəl səhnə surətləri yaratmışdır. Bunlardan M.Maqomayevin «Nərgiz» operasında Əlyar, R.Qliyerin «Şahsənəm» operasında Qərib, Ə.Bədəlbəylinin «Nizami» operasında Nizami, Niyazinin «Xosrov və Şirin» operasında Fərhad, Q.Qarayevin və C.Hacıyevin «Vətən» operasında Aslan, Ü.Hacıbəyovun «Arşın mal alan» musiqili komediyasında Əsgər və başqalarını göstərmək olar.

«Koroğlu» operasında Rövşən surəti Bülbülün yaradıcılığında xüsusi mərhələ təşkil edir. Bu surət istedadlı sənətkarın geniş yaradıcılıq imkanına malik olduğunu bir daha aydın sübut edir. Bülbül-Rövşən zülmkarlara qarşı amansız bir mübariz, öz doğma xalqına sonsuz məhəbbətlə bağlı olan, zəhmətkeş kütləloəri sevən sadə bir kəndli balasıdır. Zülmkarlara qarşı mübarizədə həmişə qoçaqlıq və mərdlik göstərdi-

yinə görə xalq onu özünə sərkərdə seçmişdir. Xalqı soyub, talan edən xanların qoşun dəstələri hər dəfə Rövşənlə üz-üzə gəldikdə məğlubiyyətə düçar edilir. Üsyançı kəndlilərin məskən saldığı «Çənlibel» zülmkarları həmişə qorxu içərisində saxlayır.

Rövşən surəti çox mürəkkəb və məsuliyyətlidir. Həmin surətin ifaçısından qüvvətli səs və zəngin səhnə təcrübəsi tələb olunur. Heç də təsadüfi deyildir ki, bir çox solistlər Rövşən surətini yüksək sənətkarlıqla ifa etməkdə çətinlik çəkirlər.

Rövşən həm yenilməz xalq qəhrəmanı, həm də təmiz qəlblə sevən, yüksək mənəviyyatlı romantik bir surətdir. İstedadlı artist Bülbül bu mürəkkəb surətin səhnəmizdə hələ də yeganə ifaçısı olaraq qalır. Bülbülün birinci pərdədə, xanın zülmündən cana gəlmiş kəndliləri üsyana çağırması, üçüncü pərdədə sevgilisi Nigar haqqında oxuduğu ariya, xüsusən dördüncü pərdədə sarayda oxuduğu aşıq mahnıları dinləyicilərə həmişə gözəl təsir bağışlayır. Məharətli artistin «Koroğlu» operasında ustalıqla oxuduğu ariya və mahnılar xalqımızın dilinin əzbəri olmuşdur.

Bülbül bir çox romans, ariya və xalq mahnılarını özünə məxsus ustalıqla ifa edən sənətkarlardandır. Gözəl oxumaqla yanaşı, sözün aydın tələffüz olunmasına, mətnin dinləyicilərə düzgün çatdırılmasına diqqət yetirmək Bülbülün əsas yaradıcılıq xüsusiyyətlərindəndir.

«Koroğlu» operasının ilk tamaşasından 21 il keçir. Bülbül 400-cü dəfədir ki, Rövşənin partiyasını yüksək sənətkarlıqla ifa edir.

Bülbülün sənəti Azərbaycan opera teatrının ən gözəl səhifələrini təşkil edir. Biz, şərəfli yaradıcılıq yolu keçmiş sənətkarımıza uzun ömür, can sağlığı və unudulmaz səhnə surətləri yaratmağı arzu edirik.

***Soltan DADAŞOV,***
***əməkdar incəsənət xadimi***



## YADDAŞIMA ÖMÜRLÜK YAZILIB

«Koroğlu» ilə mən Moskvada Azərbaycan incəsənətinin birinci ongünlüyündə tanış oldum. SSRİ xalq artisti Bülbül məni ürəkdən heyran etdi. O, Koroğlu partiyasını indi də, 20 il bundan əvvəlki kimi ilhamla ifa edir. Parlaq, məlahətli səs, gözəl aktyor məharəti olduğu kimi qalmışdır.

1938-ci ildə Bülbül Koroğlu rolunu ifa edərkən gənc deyildi, yaradıcılığının kamil çağında idi. Bütün opera boyu davam edən yüksək tessitura gərginliyi, dördüncü pərdədə bir-birinin dalınca gələn üç vokal nömrə, rəqs elementləri ilə qaynayıb-qarışan oxuma çətinliyi ifaçıdan böyük məharət tələb edir.

Sevindirici hal idi ki, sənətkarın ustalığı, yaratmaq eşqi zamana qalib gəlmişdi. Böyük teatrdakı yekun konsertində moskvalıların köhnə tanışı, SSRİ xalq artisti, daim coşğun təbi, ustalığı ilə öz dinləyicilərini heyrətləndirən Bülbül böyük səmimiyyətlə Üzeyir Hacıbəyovun ölməz Nizaminin qəzəlinə bəstələdiyi «Sevgili canan» romansını oxudu və hamını məftun etdi.

Çox yüksək notdakı fermato Bülbülün ifasında kəsilmək bilmədi, sonsuzluğadək uzandı… Salon heyrətə gəlmiş tamaşaçıların alqış səslərindən titrəyirdi. Musiqiçilər də, müğənnilər də, sənətşünaslar da bu fermatonu yüksək qiymətləndirdilər. Bu çox gözəldi! Mən Bülbülü yalnız Moskvada deyil, eləcə də Leninqradda – simfonik və kamera konsertlərində dinləmişəm. Bundan böyük zövq almışam.

O, lirik-dramatik tenor səsinin nadir gözəlliyi və geniş diapazonu ilə dinləyiciləri valeh edirdi. Bülbülün aydın diksiyası, nəfəs genişliyi, bütün registrlərdə heyrətamiz rəvanlığa malik səsi vardı.

Bülbül vokal texnikasına mükəmməl yiyələnmişdi. Onun səsi zərif, yumşaq, bəmdən gur zilədək fövqəladə, görünməmiş dərəcədə rahat axan misilsiz xüsusiyyətə malik idi.

Bülbül hər yerdə təsvirəgəlməz bir müvəffəqiyyətlə qarşılanırdı. O, estradada həmişə sadə və ciddi görkəmdə olurdu. Çox oxuyurdu, ilhamla oxuyurdu...

Bülbülün səsinin gözəlliyini, məlahətini, ürəyəyatımlılığını nə təsvir etmək mümkündü, nə də sözlə ifadə etmək.

Bülbülün ecazkar səsi yaddaşıma ömürlük yazılıb və heç vaxt da silinməyəcək.

***V.P.SOLOVYOV-SEDOY,***
***Sosialist Əməyi Qəhrəmanı,***
***Lenin mükafatı laureatı***



## *ADI QIZIL HƏRFLƏRLƏ HƏKK OLUNUB*

Bülbül – vokal sənətində adı vətən mədəniyyəti tarixinə qızıl hərflərlə yazılmış şəxsiyyətdir. Bülbül – zəmanəmizin görkəmli sənətkarı, realist məktəbin ustadıdır. Bülbül – xalq yaradıcılığının dərinliklərindən dünya incəsənəti zirvələrinə yüksəldi.

Onun çox geniş diapazonlu gözəl, emosional səsi, yüksək vokal texnikası, təkrarsız diksiyası və qeyri-adi nəfəsi var idi. Bülbülün repertuarındakı klassik və müasir mahnıların da, xalq mahnılarının da ifası misilsizdir. Dinləyici ilk anlardan onun səmimi, coşğun istedadının sehrinə düşür.

Bülbülün yaradıcılığı yüksək, əyani vokal məktəbidir. Onun sənətində əsl xəlqiliklə beynəlmiləlçilik üzvi surətdə birləşmişdir.

Mən Bülbülü çox sevirəm. Tanışlığımızın tarixi uzaq illərə gedib çıxır. Moskvada tez-tez görüşürdük. Mən Bakıda ona qonaq olurdum, o da Tbilisidə mənə. Gürcüstanda Bülbülü çox sevirdilər. Onun konsertləri həmişə böyük uğurla keçirdi.

Mən onun çıxışları zamanı ağzınacan dolu zalları çox görmüşəm. Uzun zaman susmayan gurultulu alqışları, bir də, bilet tapmayan adamların Opera Teatrının qapılarını sındırıb, zala doluşduğunu yaxşı xatırlayıram.

***A.XORAVA,***
***SSRİ xalq artisti***

## *XOŞBƏXT SƏNƏTKAR*

Xalqın məhəbbəti sənətkar üçün ən yüksək mükafatdır. Bu məhəbbəti, bütün varlığı ilə öz elinə, vətəninə bağlanmış, xalqın yaradıcılıq dühasından öyrənmiş və kamala yetmiş sənətkarlar qazanır. Bu məhəbbəti sənətin çətin və zəhmətli yollarından keçib yüksək zirvəyə qalxan sənət xadimləri qazanır. Onlar adətən xalq yaradıcılığından ana südündən qidalanır kimi qidalanır, xalqın arzusunu, onun ümid və diləklərini ata nəsihəti eşidir kimi qəbul edir və ömür boyu xatırlayırlar.

Xalqın məhəbbətini, elin rəğbətini qazana bilən sənətkarlar xoşbəxtdirlər!

SSRİ xalq artisti Bülbül belə sənətkarlardandır.

Bülbül yaradıcılığındakı cazibənin, dinləyicilərdə onun sənətinə yaranmış məhəbbətin sirri nədədir?

Bülbülün vokalçı və artist yaradıcılığı dərindən-dərinə xalq ruhu, xəlqilik mayası ilə aşılanmışdır. Bunun mənşəyini və izlərini xanəndələr vətəni Qarabağın gözəl və səfalı təbiətində, rəngarəng və cazibəli mənzərələrində, Turşsuyun və İsa bulağının şırıltısında, Şuşanın yaşıl yamaclarından, sıldırım dağlarından, Cıdır düzündən ucalan çoban bayatılarında, şikəstə sədalarında, elin kədərini və sevincini ifadə edən xalq mahnılarında axtarmaq və tapmaq mümkündür.

Xanəndəlik həvəsi Bülbüldə kiçik yaşlarından oyanmışdır. Xalq musiqisi, el havaları Bülbül üçün əsl məktəb olmuşdur. Bir çox məşhur vokalçılar kimi Bülbülün də yaradıcılığı mahnıdan doğmuş və mahnılarla tərbiyələnmişdir. Onun ifaçılıq xüsusiyyətini xarakterizə edən səmimiyyət, hərarət, sadəlik məhz bu mənbədən alınmış keyfiyyətlərdir. O, «ürəkdən oxumaq» dərsini hələ uşaq yaşlarında xalqdan almışdır.



Bülbülün bir xanəndə olaraq boy atmasında, ifaçılıq inkişafında, şübhə yoxdur ki, Cabbar Qaryağdıoğlu, İslam Abdullayev, Seyid Şuşinski kimi məşhur sənətkarların böyük təsiri olmuşdur.

Bülbülün fitri istedadı nadirdir. Onun çox məlahətli və güclü səsi, təsirli nəfəsi, yaxşı musiqi hafizəsi vardır. Bu istedadına görədir ki, onun səsini dinləyənlər lap cavan yaşlarında onu «Bülbül» adlandırmışlar.

Bülbül uzun illərin xanəndəlik təcrübəsi nəticəsində Azərbaycan milli musiqisini dərindən öyrənmək, ifa və təbliğ etmək yolunda görkəmli nailiyyətlər əldə etmişdir. O, müxtəlif və saysız-hesabsız el havalarının, zəngin və mürəkkəb muğamatın bilicisi olmuşdur. Xalq melosunu bilməkdə, xalq musiqisindəki məzmunu, forma xüsusiyyətini və intonasiya gözəlliklərini duymaqda, folklor nümunələrini məzmun və formasına görə müxtəlif tərzdə, özü də hər dəfə şövqlə, qəlblə, ustalıqla ifa etməkdə Bülbüllə yarışmaq asan deyil.

Bülbülün vokal yaradıcılığını müəyyən edən bir qiymətli xüsusiyyət də var. Biz onun ifasında daim bir təbiilik və inandırıcılıq hiss edirik. İnsan həyatda, adətən, ən çox sevindiyi, yaxud ən çox kədərləndiyi vaxtlarda oxuyur. O, musiqi və mahnı vasitəsilə özünün fikir və duyğularını büruzə verir. Məclisdə, estrada yaxud teatrda oxunan hava yalnız o zaman təbii görünür ki, xanəndə, artist oxuduğu əsərdəki fikir və duyğuları öz fikir və duyğuları kimi ifadələndirməyi bacarır. Bu bacarıq Bülbüldə parlaq tərzdə inkişaf etmişdir. O, ifa etdiyi əsərin məzmun və mənasını dərindən dərk edir, əsərə münasibətini və ifa məqsədini özü üçün tamam müəyyənləşdirir. Yəqin buna görə də onun ifasındakı məlahət mənalı, məna isə məlahətli görünür. Buna görə də onu başa düşmək, ondan zövq almaq asandır. Elə buna görədir ki, onun oxumağı danışıq qədər təbii və inandırıcıdır. Bu cəhət ifaçı ilə dinləyici arasında dərin ünsiyyətə imkan yaradır, ifa olunan əsərin təsir gücünü qat-qat artırır. Biz bu gözəl vokalçının

ifasında həmişə bir orijinallıq duyuruqsa, bunu yalnız onun fitri nəğməkarlıq istedadı ilə deyil, bir də yuxarıda qeyd olunduğu kimi, ifa etdiyi əsərin şeiriyyət və musiqisinə bəslədiyi şüurlu münasibətlə izah etməliyik.

Adi xanəndəlikdən gəlib opera artisti olmaq üçün Bülbül sınaqlı və möhkəm bir körpüdən keçmişdir. Bu körpü təhsil, bilik və sənətkarlıq texnikası ilə qurulmuşdur. Uzun illərin zəhməti, həm də dözümlü və səbrli zəhmətin nəticəsində o, həqiqi opera artisti mövqeyini tuta bilmişdir.

Bülbülün opera sahəsindəki yaradıcılığı milli musiqi mədəniyyətimizin, xüsusilə vokal sənətimizin inkişaf yollarını tədqiq etmək üçün son dərəcə maraqlı material ola bilər. Çünki onun yaradıcılığında Azərbaycan milli musiqisinin, xalq xanəndələrinin ən gözəl ənənələri Qərb və rus musiqi mədəniyyətinin zəngin təcrübəsi ilə qəribə və əlamətdar bir tərzdə uyuşmuşdur. Xanəndə yaradıcılığından gəlmə vərdiş və hünər İtaliya vokal məktəbinin texnikası ilə nəinki toqquşmamış, əksinə, onların arasında heyrətli bir vəhdət yaranmışdır. Bu vəhdətin, bu möhkəm tutmuş peyvəndin nəticəsidir ki, Bülbülün oxumağında milli koloritlə klassik vokal texnikası bir-birini tamamlayır və son dərəcə cazibəli görünür. Məlumdur ki, musiqi təhsilindən sonra o, parlaq vokal texnikasına yiyələnmişdir. O, nadir hallarda təsadüf edilən güclü nəfəsə, böyük diapazonlu, yüksək tesseturalı gur səsə malik olmuşdur. Bülbül öz səsini istədiyi kimi və istənilən tərzdə idarə edir. Texniki ustalıqda, səsə dinamik boyalar verməkdə, yerinə görə filirovka işlətməkdə kreşendo və dominiendo vasitələrindən istifadə etməkdə bir çox opera artistləri Bülbülə həsəd apara bilər. O, vokal texnikasını işlətməkdə, səsini oynatmaqda mahir usta olmuşdur.

Maraqlı burasıdır ki, bütün bunlarla yanaşı, Bülbül opera tamaşalarında çıxış edərkən bizim xalq xanəndələrinin ifaçılıq məharətindən də gözəl istifadə edir.

Milli koloritlə, klassik vokal texnikasını belə qəşəng



uyuşdura bildiyi üçündür ki, o, muğam operalarında deyil, «Nərgiz», «Koroğlu», «Vətən», «Nizami», «Xosrov və Şirin» kimi əsərlərdə daha geniş fəaliyyət göstərmişdir. Çünki bu operalar milli musiqi ilə klassik opera məktəbinin üzvi vəhdəti əsasında yazılmışdır.

Xoşbəxt həyat həsrəti ilə çırpınan Əlyarın, qəhrəman Koroğlunun, mərd və alicənab Aslanın, vəfalı və cəfakeş Fərhadın, böyük mütəfəkkir Nizaminin gözəl surətləri dinləyicilərimizin, tamaşaçılarımızın xatirəsindən çıxmamışdır. Artist bu obrazların hər birini onların musiqi və səhnə materialına uyğun tərzdə səciyyələndirib yaratmışdır.

«Koroğlu» operasının ilk tamaşasından iyirmi il keçmişdir. Musiqi mədəniyyətimizin bu gözəl əsəri həmin müddət ərzində böyük şöhrət qazanmışdır. Onun dərin mənası şüurlara nəqş olunmuş, şirin musiqisi könüllərə yol açmış, yüz minlərlə tamaşaçının ruhunu oxşamışdır.

Koroğlu rolu Bülbülün simasında öz ləyaqətli ifaçısını tapmışdır. Bu operanın səhnə həyatı artistin yaradıcılığı ilə yaxından bağlıdır. O, Koroğlunun ilk və əsas ifaçısıdır. Bülbül Koroğlu ilə iyirmi il canbir qəlbdə yaşamış, onun ariyasını dörd yüz dəfədən çox ifa etmiş və iyirmi il Koroğlu ilə yanaşı boy atmış, yaradıcılığının təkamül dövrünü keçirmişdir. Bülbülün vokalçılıq məharəti də, artist bacarığı da bu rolda daha qabarıq, daha ifadəli görünür.

Bülbülün ifasında Koroğlu həm mətin bir qəhrəman, həm də incə qəlbli bir aşiq kimi canlanır. Birinci keyfiyyət üçün operanın ilk pərdəsindəki üsyana çağırış səhnəsi, Çənlibeldəki «Mərd igidlər nərə çəksin davada» monoloqu səciyyəvidirsə, ikinci keyfiyyət üçün üçüncü pərdədəki «Sevdim səni mən...» ariyası və dördüncü pərdədəki aşıq mahnısı xarakterikdir. Artist tamaşa boyu həm dramatik, həm də lirik boyalardan ustalıqla istifadə edir. Koroğlu rolunda Bülbülün musiqi və səhnə materialını incələmək qabiliyyəti də aşkar görünür. O, ümumiyyətlə incəlikləri, mürəkkəb nüansları

çox sevir. Buna inanmaq üçün təkcə dördüncü pərdədə Qıratın dalınca gəldiyi səhnəni xatırlamaq kifayətdir. Buradakı reçitativ cümlələrə və kantilena əsasında yazılmış başqa parçalara fikir versəniz, Bülbülün müxtəlif intonasiya boyalarından necə məharətlə istifadə etdiyini görərsiniz. O, aşıq mahnısını, gözəlləməni və «şikəstəni» tamam başqa əda ilə oxuyur. Bu yerdə Bülbülün adi danışıq intonasiyasından tutmuş ən melodik boyalara, pıçıltıdan başlayaraq artan və tədriclə fəvvarə kimi gurlayan zəngulələrə – bir sözlə, zəngin səs palitrasına malik olduğunu görmək mümkündür.

Bülbül incəlikləri, nüansları sevməklə bərabər rolun əsas istiqamətini, hərəkət xəttini də həmişə diqqət mərkəzində saxlayır. O, tamaşa boyu Koroğlunu cavan bir aşıqdən cəsur bir sərkərdəyə doğru inkişaf etdirir və onun simasını hərtərəfli şərh etməyə çalışır. Birinci pərdədə o, sadə bir el oğlu, bir aşıqdirsə, üçüncü pərdədə cəsur bir qəhrəmandır. Dördüncü pərdədə ağıllı, tədbirli bir döyüşçüdürsə, beşinci pərdədə məharətli bir sərkərdədir.

Küll halında götürəndə Bülbül Koroğlu rolunda epik bir obraz yaradır.

Koroğlu rolunda sanki Bülbülün həyat və sənət təcrübəsi cəmləşmiş, böyük bir qüdrətlə təzahür etmişdir. Bu rolda Bülbül yaradıcılığının bütün ləyaqətləri – xalq yaradıcılığı sərvəti, klassik vokal texnikası və püxtə sənətkarlıq keyfiyyətləri bır vəhdət halında və daha parlaq şəkildə üzə çıxmışdır. Koroğlu rolu dünya opera repertuarının ən çətin rollarından biridir. Lakin qəribə də görünsə, demək lazımdır ki, bu rol Bülbülün ifasında adama asan görünür. Ümumiyyətlə, Bülbülün ifa etdiyi bütün əsərlər, bütün rollar adama asan görünür. Onu dinləyərkən istər-istəməz K.S.Stanislavskinin Bülbülə dediyi bu cümlələr yada düşür: «Parlaq fitri istedad kamil sənətkarlıqla birləşirsə bundan gözəl, cazibədar və qüdrətli nə ola bilər! Kamil sənətkarlıq sizə həyatınız boyu çəkdiyiniz zəhmət bahasına başa gəlmişdir... Lakin siz öz



yüngül texnikanızla bizi valeh edərkən, nə qədər zəhmət çəkdiyiniz heç kəsin ağlına belə gəlmir. Sənət və texnika sizin üçün üzvi və təbii bir işdir. Siz bülbül kimi oxuyursunuz. Çünki oxumaq sizin üçün mənəvi bir tələbdir, siz oxumaya bilməzsiniz».

Bülbül xalqa məhəbbətlə xidmət etdiyi üçün xalqın məhəbbətini qazanmışdır.

Bu, böyük xoşbəxtlikdir.

***Mehdi MƏMMƏDOV***
***«Ədəbiyyat və incəsənət» qəzeti***
***28 dekabr 1957-ci il***

## *ONU HAMI SEVİR*

Öz məlahətli səsilə ürəklərə yol tapan böyük sənət ustası Bülbüllə Azərbaycan xalqı haqlı olaraq fəxr edir. Adi xanəndəlikdən opera sənətinin zirvəsinə qalxan Bülbülün 40 illik səhnə fəaliyyəti fədakar əməyin, misilsiz səyin, coşğun ehtirasın məhsuludur. Bülbülü xalqa sevdirən, onu bu qədər məşhurlaşdıran da məhz budur. Biz onun mahnılarını dinləyərkən doğma yurdumuzun rəngarəng lövhələri, füsunkar təbiəti, bərəkətli tarlaları, meyvəli bağları, yamyaşıl don geymiş çəmənləri, ceyran-cüyür oylaqları, başı qarlı uca dağları, sərin bulaqları, sonalı gölləri gözümüz önündə canlanır. Onun mahnılarında həyata, təbiətə zinət verən, səadətə qovuşan, sülhün və zəhmətin keşiyində duran alnıaçıq mərd insanlar, onların əzm və vüqarı, eşqi, məhəbbəti, saf duyğuları, elin gücü, ürək sözü ifadə olunur. Bu mahnılar adamlara nəcib hisslər aşılayır, onları sevindirir, düşündürür, güldürür.

Mahnıları bir dastan kimi dillərdə dolaşan, adı nəğmə kimi diyar-diyar gəzən Bülbülün yaradıcılığı Vətənimizin xaricində də məşhurdur. Bülbülü İran, Əfqanıstan və başqa Yaxın və Orta Şərq ölkələrində tanıyırlar. Bu il respublikamıza gələn Əfqanıstan mədəniyyət xadimləri nümayəndə heyətinin başçısı Əfqanıstan Puştu Tolina (əfqan ədəbiyyatı) Ədəbiyyat Akademiyasının prezidenti şair Gül Paça Ülfət Azərbaycan mədəniyyətinə Əfqanıstanda bəslənilən böyük rəğbətdən ətraflı danışarkən qeyd etmişdir ki, «sizin məşhur artistiniz Bülbülü bizim ölkədə yaxşı tanıyırlar. Biz radio vasitəsilə onun məlahətli səsinə maraqla qulaq asırıq».

Bu ilin payızında Bakıya gələn Suriya mədəniyyət xadimlərilə görüşdə Bülbül el havalarından oxuyarkən suriyalı qonaqlar onun yüksək ifaçılıq məharətini qeyd etdilər.



Bülbüllə görüş və onun yaradıcılığı Çindən, Hindistandan, Albaniya və Rumıniyadan, Çexoslovakiya və Bolqarıstandan, Fransa və İtaliyadan, Misir və Livandan gələn elm, mədəniyyət, ədəbiyyat və incəsənət xadimlərinə unudulmaz təsir bağışlamışdır. Sevimli artist və müğənninin ifasında operalardan ariyalar və xalq mahnılarının valları dünyanın bir çox ölkələrində yayılmışdır.

Qalib sosializm ölkəsində yaşamaq, yaratmaq, xalqa xidmət etmək sənətkar üçün böyük səadətdir. Qoy, Bülbülün sinəsində ümman kimi coşan xalq nəğmələri dalğa-dalğa havalanıb bir dostluq töhfəsi kimi ellərə, obalara yayılsın!

*Rza QULİYEV,*
*Azərbaycanın Xarici Ölkələrlə Dostluq və Mədəni əlaqə Cəmiyyətinin sədri*
*«Ədəbiyyat və incəsənət» qəzeti, 28 dekabr 1957-ci il*

## *AZƏRBAYCANIN BÜLBÜLÜ*

Ana laylası demək olar ki, bütün insanları uşaqlıqdan ovsunlayan ilk səsdir (təəssüflər olsun ki, indi bizim gəlinlərimiz körpələrimizi bu füsunkar səsdən məhrum etmişlər). Mən özümü çox xoşbəxt hesab edirəm ki, uşaqlıqda bu füsunkar səsin qanadlarında böyümüşəm. Qəlbimi ovsunlayan ikinci tilsimli səs isə bülbül səsi olmuşdur. Sonralar L.Tolstoyun «Hacı Murad» əsərini oxuduğum zaman onun Şəkini «bülbüllü Şəki» adlandırmaqda nə qədər haqlı olduğunu anladım.

Bakıya köçəndən sonra isə böyük müğənnimiz Bülbülün ürəkləri fəth edən ecazkar səsi bir vaxtlar eşitdiyim o iki səsi əvəz etdi.

Atası Məşədi Rza kişi övladına Murtuza adını vermişdi. Bu uşaq böyüdü, pərvazlandı, Şuşanın ab-havası ilə qidalandı və nəhayət, Cıdır düzündə bülbül kimi cəh-cəh vurduğuna görə millət ona «Bülbül» adı verdi. Böyük sənətkar xalqın ona verdiyi bu gözəl adı ömrünün sonuna qədər şərəf və ləyaqətlə daşıdı.

Bu gün Bülbül bizim üçün kimdir? Mirzə Fətəli Axundzadə dramaturgiyamızın, Üzeyir bəy operamızın və professional musiqimizin binasını qoydusa, Bülbül də professional vokal sənətimizin təməlini qoydu. Bu üçlük təkcə Azərbaycan mədəniyyətinin deyil, bütün müsəlman Şərqində saydığım sahələrin baniləri olmaqla Azərbaycanımızın başını ucaldıblar.

Bülbülün cahanşümul xidməti bir də bundan ibarətdir ki, o, Azərbaycan milli vokal sənətini Qərb vokal sənəti ilə qovuşduraraq mədəniyyət tariximizdə yeni bir inqilab yaratdı.

Ölməz Bülbülümüzün xidməti bununla məhdudlaşmır.



Vəfatından bir qədər əvvəl onun Akademiyadakı son çıxışı bu gün də qulaqlarımda səslənir. Bülbül Azərbaycan və italyan dillərində sait səslərin çoxluğunu və vokal uyarlığını fonetik faktlarla göstərərək böyük alimliyini bir daha sübuta yetirdi.

O, həm də musiqi folklorumuzun yorulmaz bilicisi və tədqiqatçısı idi. Bülbül Azərbaycanı oymaq-oymaq gəzərək 500-ə qədər xalq mahnısını toplayıb, onları özünəməxsus ilahi rəng və çalarlarla xalqın özünə qaytardı.

Bülbül bütün bu xidmətləri ilə vokal sənətimizdə bir məktəb yaratdı. Şükürlər olsun ki, bu gün bu məktəbin Azər Zeynalovu və Vokalçıların Bülbül adına Birinci Beynəlxalq Müsabiqəsinin «Qran-Pri» mükafatına layiq görülmüş Əli Əsgərovu var.

Bəli, Bülbülün sənətdə açdığı yol geniş üfüqlərə doğru irəliləyir. Allahdan arzum budur ki, Bülbülün yurdu tezliklə erməni tapdağından azad olunsun və onun növbəti yubileyini Şuşada keçirək.

***Bəxtiyar VAHABZADƏ,***
***xalq şairi***
***1998-ci il***

## *AZƏRBAYCAN XALQININ FƏXRİ*

Bülbülün yaradıcılığı Azərbaycan opera sənəti üçün parlaq bir dövrdür. O, Azərbaycan Opera və Balet teatrının səhnəsində «Şahsənəm» operasında Aşıq Qərib, «Nərgiz»də Əlyar, «Arşın mal alan» musiqili komediyasında Əsgər və bir sıra başqa obrazlar yaratmışdır.

Onun yaradıcılığının zirvəsi Üzeyir Hacıbəyovun «Koroğlu» operasındakı əfsanəvi Azərbaycan qəhrəmanı Koroğlu surəti idi. Tamaşaçı qarşısında ürəklərə sirayət edən təkcə qüdrətli səs sahibi olan misilsiz müğənni deyil, həm də ifadəli, çoxcəhətli səhnə vasitələrindən parlaq şəkildə istifadə edən istedadlı aktyor canlanırdı. Bu rolda Bülbül psixoloji həqiqətlə romantik ruh yüksəkliyinin vəhdətini yaratmağa nail olmuşdu.

Bu operada Bülbülü dinləmək xoşbəxtliyi mənə hələ çox-çox illər bundan qabaq – əsər M.F.Axundov adına Opera və Balet teatrında yenicə tamaşaya qoyulan vaxt nəsib olmuşdur. Elə o zamandan Koroğlu obrazı ürəyimin dərinliyində özünə yer tapmışdır.

Mən sonralar bu operanı on dəfələrlə dinləmiş və bu istedadlı müğənninin sənətinə daim heyran qalmışam. İndi də teatra gələndə və altmış yaşlı, lakin həmişəcavan Bülbülü dinləyəndə böyük bir sevinci yaşayıram.

O, hələ Azərbaycan xalq mahnılarını necə gözəl ifa edir! O mahnılar qeyri-adi məlahəti və milli melodik çalarların gözəlliyi ilə göz önündə lövhə kimi canlanır. Canına sanki cənub günəşinin şüaları hopmuş bu mahnılar bərq vurur, milli parlaq rənglərlə işıq saçır.

Təntənəli və əzəmətli, kədərli və həzin, şən və oynaq, bir sözlə, necə mahnılar oxuyur-oxusun, onlar müğənninin



təfsirində mütləq eyni ilhamla, eyni səmimiyyətlə parlayacaq, ürəklərə yol tapacaq.

O, ürəkdən oxuyur, hər əsərə yalnız özünə xas olan, yalnız özünün olan, təkrarsız cizgilər, boyalar vurur.

Artıq qırx ildir ki, Bülbül incəsənətə fədakarlıqla xidmət edir. O, indi də gümrahdır, qəlbi yaradıcılıq eşqi ilə doludur. Əminik ki, zəmanəmizin görkəmli müğənnisi öz gözəl, həmişəcavan sənəti ilə gələcəkdə də bizi sevindirəcəkdir!

***Azad MİRZƏCANZADƏ,***
***akademik***

## *O, ƏBƏDİYYƏTƏ ÜZ TUTUB*

Dahi sənətkarımız Bülbülün səsini hər dəfə radioda, televiziyada eşidəndə xəyalən o uzaq gənclik illərimə qayıdıram. Mən o zaman radioda diktor işləyirdim. O vaxt verilişlər efirə canlı gedirdi. Bülbül radioya tez-tez gəlirdi. O, necə sadə, mehriban, gülərüz bir insan idi! Belə adamlar haqqında deyirlər: «Necə işıqlı insandır, üz-gözündən nur yağır».

Ağır illər idi. Ölkədə müharibə gedirdi. Bülbülün gecəsigündüzü yox idi. Cəbhəyə gedənlər qarşısında, hərbi hospitallarda, mədənlərdə, zavodlarda tez-tez çıxış edirdi. Bülbülün oxuduğu qəhrəmanlıq mahnıları bizi qələbəyə səsləyir, ümidimizi, inamımızı ovxarlayırdı. O illərdə ölməz Üzeyir Hacıbəyovun «Koroğlu» operası aləmə səs salmışdı. Bu əsər Azərbaycan opera sənətində bir hadisə idi. Baş rolu Bülbül ifa edirdi. Özü də necə böyük sənətkarlıqla!

Kim bilir neçə dəfə baxmışam bu ecazkar tamaşaya. Hər dəfə də Bülbül sənətinə vurulmuşam. Bülbül doğrudan da Koroğlu obrazını böyük qüdrətlə yaradıb. İnana bilmirəm ki, kimsə onu – Koroğlunu bu zirvəyə qaldıra bilsin.

O, Koroğludur, Koroğlu da odur. Üzeyir Hacıbəyov tanınırdı, sevilirdi, məşhur idi. O, böyük Üzeyiri Koroğlu obrazı ilə üfüqlərə qanadlandırdı. Bizim təsəvvürümüzdə Bülbül Koroğlunun özüdür, elə bil onun prototipidir. Mənə elə gəlir ki, Çənlibel yaşayır, Çənlibellə birlikdə Koroğlu yaşayır, Koroğlu ilə birlikdə Bülbül yaşayır.

Bülbül Azərbaycanın nadir sənətkarlarından, vokal sənətimizin korifeylərindən, ən uca zirvələrindən biridir. Bülbül sənəti ölməzdir, əbədiyaşardır.

O, xalqımızla birlikdə sabaha, gələcəyə addımlayır, əbədiyyətə üz tutub...

***Nəbi XƏZRİ,***
***xalq şairi 1998-ci il***



## *BÜLBÜL SƏSİ ZİRVƏDİR*

Qarabağ... Azərbaycanın ən füsunkar, nadir guşələrindən biri... Onun incisi, sənət beşiyi Şuşa... Başı qarlı dağlar, zümrüd rəngli meşələr, buz bulaqlar M.P.Vaqif, Q.B.Zakir, X.B.Natəvan, Ə.B.Haqverdiyev, F.B.Köçərli, Y.V.Çəmənzəminli, C.Qaryağdıoğlu, S.Şuşinski, X.Şuşinski, Q.Pirimov kimi sənətkarların ilhamına qanad vermişdir.

Onların sırasında xalqımıza başucalığı gətirən, musiqi dünyamızda təkrarsız səsi ilə ürəkləri fəth edən dahi nəğməkarımız, xalqımızın fəxri, SSRİ xalq artisti, Dövlət mükafatı laureatı, professor Bülbülü həmişə iftixar hissi ilə xatırlayırıq.

Əgər biz ölməz bəstəkarımız Üzeyir Hacıbəyovu Azərbaycan professional musiqisinin yaradıcısı adlandırırıqsa, Bülbül də professional vokal sənətinin banisi və ilhamvericisidir. Biz Bülbülü xalq musiqimizin mahir bilicilərindən, həm də təbliğatçılarından biri kimi tanıyır və sevirik.

Onun böyük qayğı və məhəbbətlə toplayıb nəşr etdirdiyi «Azərbaycan xalq mahnıları» adlı kitabından musiqi məktəblərində, konservatoriyada dərs vəsaiti kimi indi də geniş istifadə olunur.

...1932-ci ildə Bülbülün təşəbbüsü və rəhbərliyi ilə Azərbaycan Mədəniyyət Nazirliyinin İncəsənət İşləri İdarəsinin nəzdində Zaqafqaziyada ilk elmi-pedaqoji musiqi kabineti yaradıldı.

Bülbül həmin kabinetə işləməyə dəvət etdiyi ilk Azərbaycan romanslarının müəllifi bəstəkar Asəf Zeynallı ilə birlikdə Qarabağa elmi ekspedisiyaya gedib. Onların topladığı zəngin materiallar kabinetin fəaliyyətində əsas yer tutmuşdur.

Bülbülün Avropa vokal mədəniyyətinə yiyələnməsi onun Azərbaycan folklorunun tədqiqinə olan marağını nəinki azaltmamış, əksinə, daha da artırmışdı. O, Ü.Hacıbəyov, S.Rüstəmov, Q.Qarayev, C.Hacıyev, T.Quliyev, F.Əmirov, Niyazi, Z.Bağırov və bir sıra başqa bəstəkarları Elmi Tədqiqat Musiqi Kabinetində əməkdaşlığa dəvət etmişdi.

Musiqi kabinetinin, şəxsən Bülbülün təşəbbüsü ilə Üzeyir Hacıbəyov «Azərbaycan xalq musiqisinin əsasları» əsərini yazarkən ekspedisiya zamanı toplanmış zəngin materiallardan istifadə etmişdir. Dahi bəstəkarımız Bülbülə bağışladığı həmin kitabın titul səhifəsində belə bir avtoqraf yazmışdır: «Bu əsərin yaranmasının təşəbbüskarına və əvəzsiz Koroğluya – SSRİ xalq artisti Bülbülə!»

Bülbül səhnədə olduğu yarım əsr müddətində opera sənətimizi ən yüksək zirvələrə qaldırmışdır. Onun yaratdığı obrazlardan bir neçəsini xatırlamaq yerinə düşərdi: «Şahsənəm»də Qərib, «Nərgiz»də Əlyar, «Nizami»də Nizami, «Koroğlu»da Rövşən-Koroğlu, «Karmen»də Xoze, «Toska»da Kavaradossi... Bu klassik nümunələr Bülbülün ifasında böyük müvəffəqiyyətlə səslənmişdir.

...Mənim böyük nəğməkarla şəxsi tanışlığım 1941-ci ildən başlayıb. Elə o vaxtdan da geniş ürəkli bir insan kimi onun qayğısını, mehribanlığını həmişə hiss edib duymuşam. Müharibənin qızğın çağı respublika qəzetlərində «Cəbhə şeirləri» rubrikası ilə tez-tez cavan şairlərin şeirləri dərc olunurdu. Bir dəfə «Kommunist» qəzetində müharibədə həlak olmuş Şirzad Əliyevin «Gözlə məni» adlı şeirini oxudum. Bu misralar qəlbimi riqqətə gətirdi:

*Yenə düşdün yadıma, sevgilim, nazlı dilbər,*
*Yanıram hicr oduna eşqinlə axşam-səhər.*
*İlqarından dönənə bizdə «dönükdür» deyirlər,*
*Mən sənə söz vermişəm, sevgilim, gözlə məni,*
*Ürəyimdə qalmasın nisgilim, gözlə məni.*



Bu misralar vətəni müdafiəyə getmiş igidlərin ürək çırpıntılarını ifadə edirdi. Mən bu şeirə musiqi yazmağı qərara aldım. «Gözlə məni» adlı ilk mahnımla utana-utana maestro Bülbülün evinə getdim. O, mahnını dinlədi, qeydlərini söylədi, bir neçə gün məşq etdikdən sonra onu radioda ifa elədi. O gündən «Gözlə məni» mahnısı həyata vəsiqə aldı.

Sonra film çəkildi, burada maestro Bülbül cəbhəyə gedən döyüşçülər qarşısında «Gözlə məni» mahnısını oxuyurdu. Tezliklə mahnı xalq arasında yayıldı. Sevincimin həddi-hüdudu yox idi.

Fərəhlə, minnətdarlıq hissi ilə qeyd etməliyəm ki, mənim bir bəstəkar kimi formalaşmağımda Bülbülün əməyi böyükdür.

1943-cü ildə məni Azərbaycan Bəstəkarlar İttifaqına qəbul edən Ü.Hacıbəyov «Gözlə məni» mahnısının Bülbülün ifasında çox gözəl alındığını qeyd etdi. Sonrakı illərdə ölməz müğənni ilə yaradıcılıq əlaqələrimiz daha da genişləndi.

Bu gün özümü çox xoşbəxt hesab edirəm ki, Bülbül kimi dünya şöhrətli sənətkar mənim «Göy göl», «Yada düşdü», «Alagözlü», «Yardan ayrı», «Vətənimdir», «Qalib ordu» və başqa mahnılarımın ən gözəl ifaçısı olmuşdur. Bu mahnı və romanslar onun ifasında qrammofon vallarına yazılmışdır.

Bülbülün həssas qəlbi, qayğıkeşliyi, gözəl insani keyfiyyətləri bizim hamımızı heyran etmişdi. Böyük sənətkarı kim tanıyıbsa, görübsə, ürəkləri riqqətə gətirən mahnılarını dinləyibsə, onu həmişə xoş duyğularla yada salacaq, xatırlayacaqdır.

Ömrünün sonuncu ilində – 1961-ci ilin avqust ayında o Şuşaya, həmyerlilərinin görüşünə gəlmişdi.

Mənim üçün böyük iftixardır ki, bu səfər zamanı Bülbül oğlu Poladla, musiqişünas, «Oxuyur Bülbül» filminin yaradıcısı Kərim Kərimov və kinorejissor Nəriman Şıxəliyevlə bizim evin əziz qonağı oldular.

O unudulmaz gün mənim, eləcə də ailə üzvlərimin yaddaşından heç vaxt silinməz. Biz o anları xatırlayanda həmişə kövrəlir, həm də qürur duyuruq.

***Süleyman ƏLƏSGƏROV,***
***bəstəkar, respublikanın xalq artisti,***
***Dövlət mükafatı laureatı***



## *BÜLBÜL ÖZBƏKİSTANDA*

Bülbülün fövqəladə gözəlliyə malik səsi, vokal ustalığı, təsirli oxuması barədə fikirləri təkrar eləməyə yaqin ki, ehtiyac yoxdur. Mən ancaq onu demək istəyirəm ki, bu görkəmli müğənni öz sənətini bütünlüklə öz xalqına bəxş etdi, bununla da hamının məhəbbətini qazandı.

Bülbülün – bu böyük korifeyin Daşkəndə hər gəlişi şəhərin mədəni həyatında çox böyük bir hadisəyə çevrilirdi. Onun bizim işimizə yaxından təması özbək musiqi mədəniyyətinin inkişafına çox kömək edirdi.

Ə.Nəvai adına Opera və Balet teatrı «Koroğlu» operasını tamaşaya ona görə qoymuşdu ki, Bülbül Özbəkistana tez-tez gəlsin. Koroğlu partiyasında onun hər çıxışı əsl bayrama çevrilirdi. Böyük sənətkarın konsertləri həmişə anşlaqla, görünməmiş müvəffəqiyyətlə keçirdi.

Bülbülün Özbəkistan kolxozlarındakı çıxışları unudulmazdır. O, səhnəyə çıxan dəqiqədən ifasının sadəliyi ilə, hər bir mahnının, ariyanın, romansın məzmununa dərindən nüfuz etməsi ilə dinləyiciləri məftun edirdi. Bülbülün Daşkənd Konservatoriyası tələbələrilə necə həvəslə görüşdüyü, onun bir ata kimi gənclərlə zəngin yaradıcılıq təcrübəsini necə bölüşdüyü yada düşür.

Dərin zəka sahibi olan Bülbül öz biliyi ilə ətrafındakıları ovsunlayırdı. Onun xeyirxah, nəcib surəti hafizəmdə ömürlük həkk olunub.

Biz – Özbəkistanın mədəniyyət xadimləri Bülbülü doğma qardaşımız hesab edirdik. Elə qardaş ki, o, doğma incəsənətə fədakarcasına xidmət, sədaqət nümunəsi idi!

***Muxtar ƏŞRƏFİ,***
***SSRİ xalq artisti, bəstəkar***

### *TƏKRAROLUNMAZ SƏS*
### *(Bülbülün memorial muzeyində düşüncələr)*

Əvvəllər bu ev yalnız ona məxsus idi. Səhərlər gülərüzlə evdən çıxıb, qonşularına «sabahınız xeyir!» deyib işə yollanardı. Axşamlar Koroğluya, Əsgərə, Fərhada, Aşıq Qəribə, Əlyara... çevrilib əlində gül dəstələri teatrdan qayıdardı. Yorğun olmasına baxmayaraq, qarşısına çıxanlara gülərüzlə deyərdi:

– Axşamınız xeyir!

Bu minvalla Bülbül 1937-ci ildən 1961-ci ilin sentyabr ayına kimi, ömrünün sonunadək burada yaşayıb. İndi bu evin qapıları bütün sənətsevərlərin, musiqisevərlərin üzünə açılıb. 1982-ci ilin iyun ayının 10-dan bura Bülbülün memorial muzeyinə çevrilib.

Muzeydə hər şey – pianodan tutmuş adi qələmə kimi xatirəylə doludur. Bu xatirələr qanadında keçmiş illərə qayıdırıq. Qızıl səsin nağılı bizə nələr demir...

Heykəltəraş Aslan Rüstəmov tərəfindən görkəmli sənətkarın ağacdan hazırlanmış büstü elə bil canlıdır. Sanki onun mehriban baxışları dilə gəlib deyir:

– İnsanlar, mən sizi çox sevirdim. Həmişə könlünüzü, zövqünüzü oxşamağa çalışmışam.

Adama elə gəlir ki, büst canlıdır, dilə gələrək bizi altı mindən artıq eksponatı olan muzeyin salonlarına dəvət edir. Özü də bələdçimizə çevrilir.

Qonaq otağı... Dünyanın görkəmli musiqi xadimləri bu evin qonağı olub, Bülbüllə şirin söhbət ediblər, sənət haqda danışıblar. Bülbül piano arxasına keçib məlahətli səsi ilə oxuyub. «Ölkəm», «Sənsiz», «Sevgili canan», «Şəfqət bacısı», «Bakı», «Göy göl»... kimi məşhur mahnılar ilk dəfə bu



otaqdan pərvazlanıb əvvəl Bakının, sonra respublikanın, daha sonra isə ölkəmizin və dünyanın məşhur konsert salonlarında eşidilib. Onun sənətkarlığı K.S.Stanislavski, D.Şostakoviç, V.Solovyov-Sedoy kimi məşhur sənət xadimlərinin nəzərini cəlb edib. K.S.Stanislavski yazır: «...Siz Bülbül kimi oxuyursunuz və sizin üçün oxumaq həyati ehtiyacdır. Siz oxumaya bilməzsiniz».

Bu, doğrudan da belə idi. Bəli, o, səkkiz yaşından başlayaraq ömrünün sonuna kimi Bülbül kimi oxudu.

1959-cu ildə Moskvada keçirilən Azərbaycan Ədəbiyyatı və İncəsənəti Ongünlüyünü xatırlayıram... SSRİ Böyük Teatrında Üzeyir Hacıbəyovun ölməz «Koroğlu» operası göstərilirdi. Koroğlu Qırat üstə səhnəyə gələndə hər tərəfdən alqış səsləri ucaldı. Bülbül öz məlahətli səsi ilə elə ilk gəlişdən tamaşaçıların diqqətini cəlb etdi. Onun oxuduğu hər ariyadan sonra salonda uzun zaman kəsilməyən alqış səsləri ucalırdı. Tamaşadan sonra məşhur sənət xadimləri görkəmli sənətkarı təbrik edir, əllərini sıxır, onu Bülbül deyil, Koroğlu, – deyə çağırırdılar. Praqadan gəlmiş bir alim dedi:

– Arzu edirik ki, Koroğlu Qırat üstə Çexoslovakiyanı gəzsin, Brnonu, Bratislavanı, Karlovı Varını, Tatra dağlarını dolaşsın. Koroğlu bütün dünyanı gəzməyə layiqdir.

SSRİ xalq artisti Sergey Lemeşev isə Bülbülü bağrına basıb dilə gəldi:

– Koroğlu Çənlibel dağlarından Böyük Teatra xoş gəlib!

Lenin mükafatı laureatı, Sosialist Əməyi Qəhrəmanı V.Solovyov-Sedoy dedi:

– Mən «Koroğlu» ilə Azərbaycan incəsənətinin Moskvada keçirilən birinci ongünlüyündə tanış olmuşam. İndi o vaxtdan 20 il keçib. Siz yenə də əvvəlki kimi böyük məharət göstərirsiniz.

* * *

Muzeydəki hər şəkil, hər sənəd, hər eksponat önündə ayaq saxlamalı olursan... Bülbülün yazı stolu...Elə bil, sahibi üçün darıxıb, «gözləri yol çəkir». Stolun üstündəki armudu stəkan, təsbeh, qələm, müğənninin qəlbi kimi əbədi olaraq döyünməkdən dayanan qol saatı, eynək... bizə nələr danışmır...

Həmişə görkəmli müğənninin üzünü ağ edən qara piano... Bu şirmayi dillər üstə Bülbülün barmaqlarının izləri yadigar qalıb. Elə bil, bu dillərdən «Sənsiz» sədası eşidilir. Otuzuncu illərdən yadigar qalan bu piano müğənninin yuxusuz gecələrinin sirdaşı, narahat, sınaqlı anlarının şahidi olub. Mənə elə gəlir ki, piano dilə gəlir, ölməz müğənnidən xatirələr danışır. Acılı-şirinli xatirələr, musiqili-nəğməli xatirələr...

Sənədlər xəyalımızı Böyük Vətən Müharibəsinin qanlı-qadalı illərinə aparır. Bülbülün oxuduğu «Şəfqət bacısı» mahnısı qulaqlarımızda əks-səda verir:

Gəl, ana yurdumun qızı-gəlini, İndi hünər vaxtı, qeyrət dəmidir...

Müğənni bu mahnını müxtəlif cəbhələrdə, hərbi hissələrdə, hospitallarda, çağırış məntəqələrində, odlu səngərlərdə böyük qürur və məhəbbətlə oxuyurdu.

Muzeydəki iki qiymətli sənəd Bülbülün Böyük Vətən müharibəsi dövründə etdiyi fədakarlığından, xeyirxahlığından söhbət açır. O, müharibənin ağır illərində tank dəstələrinə və cəbhədəkilərin uşaqlarına yardım məqsədilə Müdafiə Fonduna öz şəxsi vəsaitindən 200 min manat pul vermişdi. Muzeydə Ali Baş Komandan İ.V.Stalindən müğənninin adına gəlmiş iki teleqram nümayiş etdirilir. Teleqramların birində yazılır: «Yoldaş Bülbül, cəbhəçi ailələrinə göstərdiyiniz qayğı üçün sizə və sizin həyat yoldaşınıza təşəkkür edirəm. Salamımı və Qızıl Ordunun minnətdarlığını qəbul edin».



Bu xatirəli otaqları gəzdikcə sənətkar ömrünün müxtəlif fəsilləri ilə qarşılaşırıq. Xəyalımız Bülbülün vətəni Qarabağa, gözəl Şuşaya qanadlanır. Müğənninin ev-muzeyi qarşımızda mənalı bir kitab kimi vərəqlənir. Bu vərəqlər arasından Bülbülün səsi eşidilir.

– Müğənni olmağım üçün Şuşaya, bu gözəlliklər diyarına minnətdaram. Bu yerlərin təbiətinin özü də müğənnidir, gözəl bir səslə oxuyur.

Muzeydə olduğum anları xatırlayıram... Bir hindlinin sözləri yadıma düşür:

– Azərbaycan – bülbüllər məskənidir. Bu yerdə bülbülləri lal edən Bülbüllər yetişir. Azərbaycanda insanlar da bülbülləşib.

* * *

Xatirələr bitib-tükənmir. Yenidən xəyalən Bülbülün Bakıdakı memorial muzeyinə qayıdıram.

...Müğənninin qrimləri, iş çamadanı. O, qırx il bu çamadanla işə yollanıb. Adama elə gəlir ki, Bülbül özünəməxsus səliqə ilə yenə də həmin çamadanı açacaq, qrimlənəcək, sonra Koroğluya, Əsgərə, Aşıq Qəribə, Nizamiyə, Əlyara dönüb alqışlar altında səhnəyə çıxacaq. Öz-özünə düşünürsən: ölməz müğənni son dəfə bu çamadanı açıb qrimlənəndə görəsən hansı hissləri keçirib? Yəqin heç xəyalına da gəlməyib ki, adi saydığı bu əşyalar bir zaman muzey üçün qiymətli eksponatlara çevriləcək.

Muzeydən başlanan xatirə çağları ilə Bülbül adına küçə ilə addımlayırıq... Azərbaycan Dövlət Konservatoriyasında müğənninin 30 il dərs dediyi sinfə baş çəkirik... Ölməz sənətkarın adını daşıyan gəmini seyr edirik... Bülbül adına orta ixtisas musiqi məktəbini gəzirik. Sonra... Fəxri xiyabanda onun qəbri üstə ucalan monument önündə ayaq saxlayırıq.

Abidəyə çevrilən, tunclaşan Bülbül məzarını ziyarətə gələn musiqiçilərimizə, müğənnilərimizə sanki belə deyir:

– Azərbaycan musiqisinin şöhrətini ucaldın! Bu, müqəddəs və şərəfli bir işdir. Qoy bizim sənətdə koroğlularımız yetişsin! Qoy, bizim musiqimiz bütün dünyada böyük əzəmətlə səslənsin! Bu musiqidə Azərbaycan torpağının qəlbi döyünsün!

***Tofiq MÜTƏLLİBOV,***
***şair***
***«Azərbaycan gəncləri» qəzeti,***
***20 iyun 1987-ci il***



## *BÜLBÜL*

İlk dəfə mən onun qrammofon valına 1939-cu ildə, 9 yaşımda ikən Ağdaşdakı evimizdə qulaq asmışam. Televiziyanın olmadığı, radionun isə bizim tərəflərə hələ gəlib çıxmadığı bir vaxtda qrammofon çoxlarına bir möcüzə təsiri bağışlayır, səsi eşidilən kimi kəndsayağı, heç bir dəvət-filan gözləməyən qohum-qonşu böyük eyvanımıza yığışardı. Niyə gizlədim? Barmaqla sayılan qədər az valımız vardı. Buna görə də hər dəfə bu cür görüşlər zamanı bütün vallar səsləndirilərdi. Bülbülün ifasında Koroğlunun ariyası digər vallardan təqribən iki dəfə böyük diskə yazılmışdı. Buna baxmayaraq həmin ariya mütləq təkrar qoyular və hamı xüsusi huş-guşla onu dinləyərdi.

O vaxt heç fərqinə vara bilməmişdim ki, Bülbülün ifasını mənə sevdirən nədir. Lakin yaxşı yadımdadır ki, onun vallarının bütün «bislərinə» həmişə məmnun-məmnun qulaq asardım və bu dəqiqələrdə kiminsə yanındakına hətta pıçıltı ilə öz təəssüratını bildirməsi məni qısqandırar, bir-iki dəfə «inqə» deyən körpəsini uzaqlaşdırmayıb bu patefon «konsertinə» qulaq asan qonşu gəlininə daralardım...

Bülbül möcüzəsi ilə canlı ünsiyyətim isə təqribən on il sonraya, Bakıdakı tələbəlik çağlarıma təsadüf etdi. O zaman universitetin ümumi yataqxanasında sonralar İstiqlal ordenli xalq şairi kimi tanınmış Xəlil Rza, məşhur tənqidçi, naşir, publisist kimi zəngin irs qoyub getmiş professor Qulu Xəlilov, aşıq Ələsgərin nəvəsi və yorulmaz tədqiqatçısı İslam Ələsgərovla bir otaqda yaşayırdıq.

Dördümüz də kənddən gəlmişdik. Dərslərdə, seminarlarda, müxtəlif disputlarda, Yazıçılar İttifaqında keçirilən «Gənclər günü» tədbirlərindəki müzakirələrdə az-çox fərq-

lənsək də, şəhərli dostlarımızla müqayisədə ümumi geriliyimizi başa düşür və bunu aradan qaldırmağa çalışırdıq. Əsas hədəf rus dilini öyrənmək, mədəni-kütləvi tədbirlərdə iştirak etmək, mümkün qədər çox teatra getmək və yeni filmlərə baxmaq idi. Bu münasibətlə çox ciddi əməl etdiyimiz bir cədvəlimiz vardı. Həftədə iki dəfə teatra gedirdik. Azərbaycan Dövlət Dram Teatrında, Opera və Balet Teatrında, Rus Dram Teatrında tamaşalara baxır, sonra birlikdə onları müzakirə edirdik, fikirlərimizi otağımızın orqanı olan əlyazma jurnalında qeyd edirdik (mərhum Q.Xəlilov dünyasını dəyişmək ərəfəsindəki son görüşlərimizin birində demişdi ki, həmin jurnalın bir neçə nömrəsi onda durur).

Dediyim kimi, biz öz cədvəlimizə ciddi riayət edirdik. Bir tamaşaya iki dəfə baxmağa nə vaxtımız vardı, nə də maddi imkanımız. Lakin bu məsələdə də «Koroğlu» operası istisna təşkil edirdi. Bülbülün baş qəhrəman rolunda çıxış etdiyi hər tamaşa kənd-kəsək idilliyasından, ailə ocağından təzəcə ayrılmış 18-20 yaşlı biz tələbələr üçün gözəl bir bayrama çevrilərdi.

Mən dünyanın bir çox ölkələrinə getmiş, onların paytaxtlarında az da olsa yaşamış, qəbul edən tərəfin yaratdığı imkanlar dairəsində tamaşalara baxmış, televiziya ilə çoxlu operalar dinləmişəm. Lakin nə Ankarada və Afinada, nə Praqada və Kopenhagendə, nə də Moskva, Pekin, Tokio və Vaşinqtonda mən hələ bu qədər sehrkar tenora rast gəlməmişəm.

İndi, yaşımın bu çağında bu barədə düşünərkən belə bir qənaətə gəlirəm: Bülbülün çox zəngin repertuara söykənən ifaçılıq mədəniyyətinin tarixi məna və əhəmiyyəti bir də bundadır ki, ölməz müğənni Azərbaycan dinləyicilərinin bir neçə nəslinin zəngin xalq musiqimiz əsasında Avropa vokal sənətinin ahənginə alışması, onu duyub başa düşməsi üçün şahrah bir yol açmışdır. Allahın verdiyi, bütün «Qafqazın konservatoriyası» kimi şərəflənən Şuşada biçimlədiyi təkrarsız səs imkanlarını özünəməxsus ifa tərzi, dünya miqyaslı



artistizmi və çox uyarlı, təbii, ağayana səhnə ədaları ilə müvəffəqiyyətlə uzlaşdıran Bülbül bu sahədə Azərbaycan dinləyiciləri üçün həqiqətən də bir universitet (konservatoriya) rolunu oynamışdı. Bu universitetin yüz minlərlə məzunlarından biri kimi mən dərin iftixar duyğusu yaşayır və bu dahi sənətkarın parlaq xatirəsi önündə, onun nadir istedadının pərəstişkarı kimi, artıq ağarmış başımı əyirəm.

**PS.** Çox sevinir və fəxr edirəm ki, hələ 1967-ci ildə sənətşünaslıq doktoru, professor Əhməd İsazadənin yazmış olduğu «Bülbül» monoqrafiyasını redaktə etmək mənə nəsib olmuşdur.

***Bəkir NƏBİYEV,***
***akademik***
***29.09.1999***

## *BÖYÜK SƏNƏTKAR*

Təbiətin nadir nemətlərindən biri də gözəl səsdir. Gözəl səs hər xalqın mədəniyyət xəzinəsini bəzəyən ən qiymətli incilərdəndir. Bu gün anadan olmasının 90 illiyini qeyd etdiyimiz Bülbül nadir səs sahibi idi. Onun səsi də, oxuduğu mahnılar, təsniflər və romanslar da, yaratdığı obrazlar da əbədi şöhrət, sözün tam mənasında ölməzlik qazanmışdır. Bülbül səsini dinləmək həmişə hamı üçün xoş olmuşdur.

Bunun sirri təkcə təbiətin vergisi deyil, həmin səsin Bülbül sənətkarlığı, Bülbül ustalığı, Bülbül zəhmətsevərliyi ilə birləşməsində, vəhdətindədir. Bülbül nadir istedad olmuşdur. Öz səsini ustalıqla cilalamış, zəngin bir aləmə çevirmişdir. Elə bir aləmə ki, onun sehri hələ çox nəsilləri valeh edəcəkdir. Dediklərimizin özü də Bülbülün bir müğənni kimi böyüklüyünü, əzəmətini tam əhatə edə bilmir. Onun xidmətləri daha genişdir, miqyaslıdır.

Azərbaycan KP Mərkəzi Komitəsinin Bülbülün anadan olmasının 90 illiyi ilə əlaqədar qərarında deyilir ki, respublikamızda «Bülbül müasir vokal sənəti məktəbinin əsasını qoymuşdur».

Azərbaycanda vokal sənəti məktəbi Bülbül səsindən, Bülbül istedadından, Bülbül ürəyindən başlanğıc suyu götürmüşdür. Bülbül sənəti nəsil-nəsil vokalçılar üçün məktəb və örnək olmuşdur.

Bülbül 1897-ci il iyun ayında Şuşa şəhərində anadan olmuşdur. Şuşa Azərbaycanın görkəmli şair və musiqiçilərinin, adlı-sanlı xanəndələrinin, muğam ustalarının vətəni idi. Şuşa ab-havası Bülbülün də müğənnilik istedadının tez üzə



çıxmasına kömək etmişdir. Son dərəcə təbii səsi, bülbülləri bacarıqla təqlid etməsi indi də ecazkar bir əfsanə kimi danışılır.

Bülbül çox erkən şöhrətlənmiş, məşhur xanəndələrin məclislərində müvəffəqiyyətlə oxumuşdur. O özü gözəl xanəndə Cabbar Qaryağdıoğlunu həmişə xüsusi hörmətlə yad etmişdir.

İlk təhsilini mollaxanada alsa da, ilk müəllimi həyat olmuşdur.

1912-ci ildə məşhur şair Abbas Səhhətlə tanışlıq Bülbül üçün daha bir kəşf idi. Şair gənc müğənniyə kitablar bağışlamış, savadını artırmaqda, xüsusən rus dilini öyrənməkdə ona kömək etmişdir. Bülbül dahi rus şairləri A.S.Puşkinin və M.Y.Lermontovun şeirlərini ilk dəfə Abbas Səhhətin tərcümələrindən oxumuş, rus ədəbiyyatının zənginliyinə, humanizminə ömürlük vurulmuşdur. Abbas Səhhətlə görüşdən sonra Bülbülün yaradıcılığında və bir insan kimi həyat yolunda yeni məzmunlu səhifələr açılmışdır.

Oktyabr inqilabı bütün Azərbaycan mədəniyyətində yüksəliş və irəliləyiş üçün geniş yol açdı. Bülbül də yeni sosialist mədəniyyəti yolunun ən fəal iştirakçılarından biri oldu. Bülbülün ev-muzeyində rəngi bir qədər solmuş, lakin qiymətini heç vaxt itirməyəcək sənəd saxlanılır. Bu sənəd qəza komsomol komitəsinin üzvü Bülbülə verilmişdir. Bülbül Gəncədə və onun qəzalarında musiqi-teatr işlərinin təlimatçı-təşkilatçısı olmuşdur. Sonralar Gəncə incəsənət işçiləri şurasının sədri, incəsənət işçilərinin I Ümumazərbaycan qurultayının nümayəndəsi, incəsənət işçiləri şurası idarə heyətinin üzvü və şuranın rəyasət heyəti sədrinin müavini seçilmişdir.

Çox keçmədən Bülbül Bakıya, M.F.Axundov adına Azərbaycan Dövlət Akademik Opera Teatrında Üzeyir Hacı-

bəyovun «Əsli və Kərəm» operasında Kərəm rolunu ifa etməyə dəvət olundu. Müvəffəqiyyətli çıxışdan sonra o, xalq konservatoriyasında professor Polyayevin sinfində təhsil almağa başladı. Bülbül inadla çalışır, vokal sənətinin sirlərinə dərindən yiyələnmək naminə hər cür çətinliyə dözürdü. Tezliklə ona Qərbi Avropa operalarından ariyalar tapşırıldı. Lakin burada başqa bir çətinlik meydana çıxırdı. Bülbül adətən Şərq üslubunda muğam və xalq mahnıları oxuyardı – həm də tar və kamançanın müşayiəti ilə. Konservatoriyada isə başqa cür oxumalı idi. Müşayiət edilən alətlər də tamamilə başqa alətlər idi. Başqa xanəndələr bəlkə də tez ümidsizliyə qapılar, bu çətin yoldan geri çəkilərdi. Amma Bülbül istedadının gücünə inanırdı, beləliklə öz arzusu yolunda olmazın çətinliklərə qalib gəldi.

1927-ci ildə Bakı Konservatoriyasını bitirən Bülbülü Azərbaycan hökuməti o vaxt da, bu gün də opera musiqi sənətinin baş məktəbi sayılan Milan şəhərinə göndərdi. Milanda maestro Anselmi azərbaycanlı gəncin güclü səsinə və böyük istedadına vuruldu, onunla məşğul olmağa razılıq verdi. İtaliyada olarkən Bülbül həm də tanınmış opera müğənnilərini dinləyir, onların sənətkarlıq sirlərini öyrənməyə çalışırdı.

İtaliyadan Bakıya qayıtdıqdan sonra Bülbül bütünlüklə opera-vokal sənətinə bağlandı.

Üzeyir Hacıbəyov «Nalədəndir» ariyasını Bülbülün ifasında eşitdikdən sonra heyranlıqla demişdir: «Mən əsərimin belə səslənəcəyini heç təsəvvürümə gətirməzdim. Bu ifa məni belə bir fikrə yönəltdi: indi elə müğənni vardır ki, onun üçün opera yazmaq olar».

Həmin opera sonralar bütün Azərbaycan opera sənətinin tacı sayılan «Koroğlu» idi. 40 il səhnədən düşməyən əzəmətli «Koroğlu» operasında baş rolu – Koroğlu obrazını Bülbül nəinki respublikamızda, nəinki Ümumittifaq musiqi həvəskarları qarşısında, eləcə də dünyanın bir çox ölkələrində sevdirmişdir. Bu günədək «Koroğlu» dedikdə, hamının nəzərinə Bülbülün ölməz obrazı gəlir.



M.F.Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının böyük bir dövrü Bülbül yaradıcılığı ilə bağlı olmuşdur. O, «Traviata», «Cokonda», «Karmen», «Afrikalı qız», «Aleko» və başqa operalardan partiya və ariyaları təkrarsız ustalıqla ifa etmişdir.

Bülbül bir sıra Azərbaycan operalarında baş rolların ilk ifaçısı kimi şöhrət qazanmışdır. «Nərgiz», «Vətən», «Nizami» operalarında yaratdığı obrazlar heç vaxt unudulmayacaqdır.

Azərbaycan xalq mahnılarının və təsniflərinin yazıya alınması və bugünkü dinləyicilərə çatdırılması işi də Bülbülün adı ilə bağlıdır. O, xalq musiqi sənətini incəliklərinə qədər bildiyindən, xeyli mahnı və təsnifi məharətlə ifa edərək yaşatmışdır.

Bülbül Azərbaycan bəstəkarlarının romans və mahnılarının ilk və ən yaxşı ifaçılardan olmuşdur. Üzeyir Hacıbəyovun heç vaxt unudulmayacaq «Sevgili canan» və «Sənsiz» kimi romansları ilk dəfə Bülbül tərəfindən ifa edilmişdir.

Bülbül həm də mahir pedaqoq və müəllim idi. Əslində o, ilk milli vokal müəllimi olmuş, Azərbaycan Dövlət Konservatoriyasında böyük bir vokalçılar nəslini yetişdirmişdir.

Böyük Vətən Müharibəsi illərində Bülbül hərbi hissələrə və hospitallara mədəni xidmət göstərilməsi sahəsində yorulmaz və şərəfli iş aparmış, dəfələrlə ön cəbhələrə konsert səfərlərinə çıxmışdır.

Bülbül geniş ictimaiyyətçi idi. Onun Azərbaycan və sovet musiqisinin inkişafı sahəsində göstərdiyi xidmətlər partiya və hökumətimiz tərəfindən yüksək qiymətləndirilmişdir. Lenin, Qırmızı Əmək Bayrağı, «Şərəf Nişanı» ordenləri ilə,

medallarla təltif olunmuş, SSRİ Dövlət mükafatı laureatı adına layiq görülmüş, İtaliyanın «Haribaldi ulduzu»nu almış, ona SSRİ-nin xalq artisti fəxri adı verilmişdir. Bülbül respublikanın ali məclislərinə dəfələrlə xalq elçisi seçilmiş, öz deputat adını ləyaqətlə doğrultmuşdur.

Böyük sənətkarın əziz xatirəsi, ecazkar səsi qədirşünas musiqiçilər tərəfindən heç vaxt unudulmayacaqdır. O, musiqi salnaməmizdə böyük hərflə yazılacaq Musiqiçi və İnsan kimi yaşayır və daim yaşayacaqdır.

*Azər RZAYEV,*
*respublikanın xalq artisti*
*«Kommunist» qəzeti,*
*23 iyun 1987-ci il*



## XALQ ŞEİRİ XALQ MUSİQİSİ İLƏ BİRLƏŞƏNDƏ

*Azərbaycan xalq musiqisinin klassik ifaçısı, görkəmli incəsənət xadimi, xalq artisti Bülbülün lent yazıları ənənəvi olaraq hər ayın 26-da Azərbaycan radiosu vasitəsilə səsləndirilir. «Gözəl səslər» silsiləsindən efirə verilən bu məlahətli səs çoxlarını ovsunladığı kimi mərhum xalq şairi Xəlil Rza Ulutürkün də ruhunu oynatmış və öz gündəliyində bu sehrin təəssüratına xüsusi yer ayırmışdır. Oxuculara təqdim olunan bu yazı inanırıq ki, Bülbülsevərlərin və Xəlilsevərlərin ürəyindən olacaqdır.*

Aman Allah, görüm bu gün hansı möcüzə, hansı zövq və ilham qaynaqları qismətim olacaq. Yataqdan ayağa qalxar-qalxmaz yadıma düşür ki, bu gün ayın 26-dır, bu gün dahi müğənnimiz Bülbülün səsi efirdən yayılacaq, ürəkləri sevinc, şadlıq, zövq və ilham bulaqlarına döndərəcəkdir. Radionu – üstündə dahi Füzuli şəkli asılmış balaca radionun puçunu bururam ki, Bülbül səsinin, Bülbül möcüzəsinin bircə zərrəsi də qismətimdən kənarda qalmasın. Yatağımda uzanıb Bülbülümüzü dinləyirəm. Birdən yadıma düşür ki, necə insafsızam. Nə üçün gündəlik yazmaqdan ötrü qeydlər götürmürəm. «Sözləri Məmməd Səid Ordubadinindir». Bu cümləni eşidəndə dərhal qələmi, dəftəri qapıram. Yadıma uca boylu, qızılgül sifətli, ağ saçlı, ağır addımlı Məmməd Səid Ordubadi düşür. Mən onu – bu möcüzə kişini ilk dəfə haçan, harda görmüşəm? Universitetdə, birinci kursda oxuduğum və Yazıçılar İttifaqına təzə-təzə ayaq açdığım, onu mərmər pillələrdən enən gördüyüm çağda. Enirdi və bəlkə ömrünün qürubuna, enişinə doğru addımlayırdı. Əlində əsa vardı, gözlərində şairlik alovu. Gərək, bir azca mavi idi gözləri Məmməd Səid

Ordubadinin, yoxsa qonur. Hər halda mənə elə gəlir ki, Akademiyada illər boyu iş yoldaşımız olmuş, mavi gözlərini vurtut iki il bundan irəli qapamış gözəl alim qardaşımız Yəhya Seyidov ustad Məmməd Səid Ordubadiyə çox oxşayırdı və bu iki insan bəlkə də eyni soydan, eyni kökdəndir, eyni insan ağacının, eyni budağın meyvələridir. Məmməd Səid Ordubadi ilə kəlmə kəsmək mənə nəsib olmayıb, amma seyid nəslindən olan Yəhya müəllimlə Akademiya bağında xeyli müddət qoşa addımlamışıq, onun Azərbaycana və xüsusilə doğma Ordubad şəhərinə, onun əfsanəvi bağlarına, şirin, sulu meyvələr yetirən ərik ağaclarına, püstə, badam sərvətlərinə, alma, gilas mirvarilərinə necə sonsuz məhəbbətlə vurulduğunu söhbətindən bilmişəm. Yəhya Seyidovu yaxıbyandıran bu idi ki, indi Ordubad əriyi, Bakı badamı, Türkan xartutu, Bilgəh zəfəranı, Hövsan soğanı, Abşeron zeytunu, ümumən Azərbaycanın flora, fauna xəzinələri milli sərvət səviyyəsində qorunmur. Heyf!

*Aç zülfünü, qoy dan yeri*
*çöhrəndə sökülsün!*

Aman Allah, bu necə ilahi misradır və Bülbülümüzün ifasında şaqraq zənguləli nəfəsinin odunda görün hansı mərtəbəyə qalxır:

*Aç zülfünü, qoy dan yeri*
*çöhrəndə sökülsün!*
*Bal şəhdi-ləbindən süzülüb*
*şərə tökülsün.*

Təkcə bu beytinə görə Məmməd Səid Ordubadini böyük şairimiz adlandırmalıyıq. Ordubad əriyi, Ordubad alması, Ordubad qızılgülü kimi Ordubadi də möcüzədir, elmi, bədii təfəkkürün möcüzəsi!



*Aç zülfünü, qoy dan yeri*
*çöhrəndə sökülsün!*

Yalnız və yalnız böyük eşqdən, böyük məhəbbətdən y rana bilər bu ilahi misra və onun arxasında dayanan, sevil qız, sevən oğlan, yaxud Ordubadinin, Bülbülün gəncliy Məgər yalnız gəncliyimi? Burada söhbət, əlbəttə, ruhi gən likdən, mənəvi cavanlıqdan gedir. İtaliyadan musiqi təhsili dən qayıtmış və Azərbaycan vokal məktəbini yaratmış v SSRİ-nin musiqi mədəniyyətini təmsil edə biləcək s viyyəyə yüksəlmiş alim-xanəndə, dahi xanəndə gözümü önündədir. Bakının konsert salonlarında mən bu dahini neç yol, neçə dəfə dinləmişəm, nə üçün onda dərdini bilməm şəm. Nə üçün ardınca düşüb şəxsi katibi olmamışam, hər q dəmini, hər cümləsini, hər şuxluğunu qələmə almamışam yuyunmaq istəyəndə əlinə su tökməmişəm, yazdığı və bəzə bəyənmədiyi üçün cırıb atdığı məktubu yerdən götürüb q rumamışam? Beynimdən və ürəyimdən keçən fikrin alov içindəyəm. Mütləq və mütləq buna nail olmalıyıq ki, h gün, hər səhər, hər dan üzü Bülbülün məzarı üstə, Məmmə Səid Ordubadinin qəbri üstünə təzə çiçək bükümləri qoya Dahi Füzulimizin Dram Teatrı önündəki əzəmətli abidəsi ç çəksiz, bəzəksiz qalsın?

*Aç zülfünü, qoy dan yeri*
*çöhrəndə sökülsün,*
*Bal şəhdi-ləbindən süzülüb şərə*
*tökülsün.*
*Qurban diləsən, can da desən, can*
*desən, hər an da sənindir!*

Möcüzədir Bülbülümüz. Səsi elə bil adi insan boğazın dan axıb gələn saitlər, samitlər düzümü deyil, yüz min illik bəlkə milyard illik Savalan dağının bağrından, ən dərin qatla

rından süzülüb gələn bulağın təbii axarıdır. Bu axar bəzən şəlaləyə çevrilir, çırpılır sal qayalara, al günəşə qarışan zümrüd damcıları səpələnir ətrafa, düzülür çiçəklərin boynuna. Yayın cəhənnəm istisində səhranın və gülüstanın tən ortasından axıb gedən nəhr, dirilik suyu Xəzərəmi can atır, yoxsa təşnə ürəklərə barı bir azca sərinlik gətirməyə?!

*Gözlərim ol qara gözə bənd oldu,*
*Saçların boynuma bir kəmənd oldu.*
*Ağlasan, ağlaram, gülərəm gülsən,*
*Ömrümün yazında açan bir gülsən.*

Yenə sözləri Məmməd Səid Ordubadinin, musiqisi böyük bəstəçimiz Fikrət Əmir həzrətlərinin. Beli bükülsə də, əsaya söykənsə də, Ordubadi həmişə dimdik, məğrur gəzməyə can atardı. Yanından yalnız salam verib keçərdim. Əhval tutmağa, kəlmə kəsməyə cəsarətim çatmazdı. Çünki Ordubadi mənim üçün ülviyyət idi. Gözəllik yox, məhz ülviyyət. Sonralar filosof tənqidçimiz Asif Əfəndiyevin, bu xudbin və cəsur, mətin şəxsiyyətin belə bir cümləsini yadda həmişəlik saxladım ki, insan gözəlliyi sevir, onu görəndə şadlanır, onu özünə yaxın və doğma sayır. Ülviyyətdən isə deyəsən bir azca qorxur, heyrətlənir, çəkinir. Ülviyyətlə sərbəst qarşılaşmaq üçün özün ülvi olmalısan! Deyəsən, mən özüm ülviyəm. Azərbaycanda və ümumən cahanda heç kəsdən çəkindiyim yok! Bircə ondan qorxuram, o ülvi gözəlin vüsal məqamı umduğum çağda «Yok!» deyəcəyindən və ümumən gözəlimin əlçatmazlığından, ucalığından, hüsn və eşq günəşindən!

*Dərdimi söylərəm divara, daşa,*
*Hicran saatları yetməzmi başa?*
*Gəl, gedək, seyr edək biz qoşa-qoşa,*
*Bülbül sevgimizə nəğmələr qoşa.*



Aman Tanrı, ulu Tanrı, adi sözlər Bülbülümüzün dilində, cəh-cəhində, zənguləsində ülvi bir qata qalxır və ürəyimizi alov bələyi içərisinə alır. Biz dünyaya yenicə gəlmiş çocuğuq, Bülbülümüz musiqi anamızdır. O, bizi musiqi bələyimizə bələyir. Bizi adilikdən, yeknəsəqlikdən qurtarır.

Bu, hansı Bülbüldür? Təbiətin, yoxsa cəmiyyətin Bülbülü? Bəlkə hər ikisinin! Hansı üstündür? Dan söküləndə, yazağzı şehi süzülən qızılgülün qönçələrini gözəllik ilə yanaşı görən, vəcdə gələn, susa bilməyən İnsan – Bülbülün səsi! Demək çətindir. Hər halda İnsan – Bülbülə üstünlük verirəm. Çünki burda ilham fitriliyindən başqa insanın iradə gücü, zəka qüvvəsi də iştirak edir. Zilə qalxan Bülbülümüz elə bil günəşə qalxan durnadır.

Zəmanəmizin böyük dirijoru və bəstəkarı Niyazinin «Arzu» türküsü səslənir. Yenə ən adi sözlər Bülbülümüzün ifasında ülviləşir:

Çoxdur sözüm...necə dözüm Ayrılığa, gözəl yar? Hara getsəm, harda olsam, Könlüm səni arzular.

«Harada» əvəzinə mən «harda» yazıram və yadıma düşür böyük Rəsul Rzanın «Kommunist» qəzeti əməkdaşı Əfqan Əsgər adlı yazıçımıza göndərdiyi bir yığcam məktubu. Redaksiyaya məktub göndərən Rəsul Rza xahiş edirdi ki, yazısının imlasına heç kəs toxunmasın, məsələn, «burda» sözü Rəsul Rzanın istədiyi biçimdə yazılsın.

Əlbəttə, mən indi daha aydın şəkildə anlayıram ki, dildə yığcamlığa, səlisliyə və xəlqiliyə meyl də gözəlliyin atributlarındandır. Yenə düşür yadıma ala gözlü, türk sifətli alim qardaşımız Yəhya Seyid Ordubadlı və onun ilahi ərik ağacları yetirən klassik Ordubad bağbanları haqqında dedikləri. Yəhya Seyid Ordubadlı gileylənirdi ki, bu cür klassik bağbanların sayı ildən-ilə, gündən-günə azalır, yalnız Ordubadda yox, bütün Azərbaycanda azalır. Bu təhlükəni aradan qaldırmalıyıq. Klassik bağbanlar yetirməliyik. Axı nə üçün, nəyə görə dahi Üzeyir bəyin, fəxrimiz olan bir insanın məza-

rı hər gün dan üzü gülə, çiçəyə qərq edilməsin. Bunun üçün nə lazımdır? Üç gün bundan irəli dəvət olunduğu 8 saylı musiqi təmayüllü məktəbdə carçı çıxışı. Bu çıxışda Xəlil Rza elan etməli idi ki, hər məktəbli dahi Üzeyir bəyin xatirəsi qarşısında borcludur. O bizə sevinc, zövq qaynağı verib, biz də ona heç olmasa hər dan üzü bir dəstə gül verməliyik. Bakıda minlərlə şagird yaşayır, məktəbə gedir. Növbə ilə hərəsi məzara və abidə önünə gündə bir gül dəstəsi qoymağa çalışsalar, heç bilmirəm on mininci şəyirdə onuncunu bitirincəyədək vaxt çatarmı.

Tələsin, ey insanlar, bizə sevinc verənlərin barı ruhunu, barı heykəlini, barı məzarını şadlandıraq, barı bircə gül bükümü ilə yad eləyək onları! Əslində, biz dahi Üzeyir bəyin məzarını və abidəsini hər gün milyon-milyon çiçək bükümünə qərq etməliyik. Bunu bizim əlimizdən kim alır?

Yenə də yalnız klassik Azərbaycan şeiri, folklor möcüzəsi unutdura bilər bu zövqsüzlüyü. Doğrudan da, klassik Azərbaycanımız imdada gəlir və ulu Bülbülümüzün ciyərlərinə dolur:

*Dağlarda çiçək, ay Güləbətin!*
*Doldur, ver, içək, ay Güləbətin!*
*Hamıdan göyçək, ay Güləbətin!*

Xalq şeiri xalq musiqisilə birləşəndə və xalq ürəyindən qopmuş dahi Bülbülün ifasında səslənəndə yenidən qalxırıq ülviyyətə, yenidən qovuşuruq əbədiyyətə.

*Almanı atdım xarala,*
*Qaldı sarala-sarala.*

Yaxşı ki, dünyada belə müstəsna, belə diri, belə əbədi, ölməz şeir inciləri varmış və Bülbül ifasında bu qüdrət ikiqat bir möcüzəyə çevrilərmiş!



Bülbülümüzə dair veriliş bitir. Mən yenə Yəhya Seyid Ordubadlı həzrətlərini anıram, onunla yanaşı Akademiya bağında addımlayıram. Axsayır. Ancaq fikir və diləkləri əsla axsaq, ləng deyil, bəzən daşı, qayanı yarıb çıxan ərik ağacları, nar və üzümlüklər haqqında dedikləri varlığımda pöhrələnir. Qorumalıyıq bu gülüstan, bu yerüstü cənnəti!

*Gözəl Qarabağda, cavan yaşımda,*
*Bir gözəl sevdiyim yadıma düşdü.*

Bu şeirin Səməd Vurğunun eyni rədifli qoşmasına yamsılama olduğu şəksizdir. Bəs Bülbülü həmən qoşmaya əl atmağa vadar edən nədir? Yəqin «Qarabağ» adının çəkilməsi. Axı, Qarabağla Bülbülün ən əziz duyğuları, doğumu, çocuqluğu, yeniyetməliyi, ilk gəncliyi, deməli bütün həyatı bağlıdır. 1897-ci ilin iyun gecələrindən birində Xan bağında Şuşaya üz qoyan atası dabbaq Məşədi Rzanın arabasında əyləşmiş anası Gövhər xanımın bətnini təpikləyən, Şuşada ayın söndüyü, günün doğduğu məqamda dünyaya gələn Bülbül üçün «Qarabağ» sözündən əziz, müqəddəs nə ola bilər?

**Xəlil Rza ULUTÜRK,**
***xalq şairi***

## ƏFSANƏVİ SƏNƏTKAR

Bülbül təkrarolunmaz sənətkardır. O, Azərbaycan vokal sənətinin banisidir. Bülbül öz ifaçılıq məharəti ilə Azərbaycan xalqının qəlbində silinməz izlər buraxmışdır. Onun yaradıcılıq diapazonu olduqca geniş və çoxşaxəli idi. Azərbaycan muğamlarından, xalq mahnılarından tutmuş bəstəkarların əsərlərinə qədər (buraya romanslar, mahnılar, operadan parçalar və s. daxildir) ifa etdiyi musiqi əsərləri Bülbülün sözün əsl mənasında böyük sənətkar olduğunu bir daha sübut edir. O, hər hansı bir əsəri ifa edəndə ona elə möhür vururdu ki, ondan sonra heç bir müğənni həmin əsəri o səviyyədə ifa edə bilmirdi. Buna ən parlaq misal «Koroğlu» operasında Koroğlunun obrazıdır. Ü.Hacıbəyovun «Sənsiz», «Sevgili canan», A.Zeynallının «Ölkəm», eləcə də F.Əmirovun, T.Quliyevin, S.Ələsgərovun və bir sıra başqa sənətkarların mahnıları bu qəbildəndir.

Bülbül Azərbaycan muğamlarının və xalq mahnılarının çox dərin bilicisi idi. Yaradıcılığa xanəndə kimi başlayan Bülbülün yumşaq, gözəl tembrli səsi sanki doğulub böyüdüyü Şuşa təbiətinin bütün gözəlliyini özündə əks etdirirdi.

Bülbül yaradıcılığının ən böyük məziyyətlərindən biri də onun xanəndəlik sənəti ilə vokal sənətinin sintezini uğurlu şəkildə yaratması idi. Bu hala musiqi tarixində çox az-az rast gəlmək olur. Bax, elə buna görədir ki, Koroğlu obrazı ölməzdir. Çünki bu böyük və çətin obrazda o, aşıq, xanəndə və vokal sənətlərinin bütün sirlərindən böyük məharətlə istifadə edərək özünəməxsus nadir istedad ilə bütün ömrü boyu xalq tərəfindən sevilən nadir sənət nümunəsi yaratmışdır – Koroğlu olmuşdur.

Bülbül eyni zamanda böyük aktyor idi. O, nəinki Azərbaycan bəstəkarlarının, eyni zamanda Qərbi Avropa bəstəkarlarının opera qəhrəmanlarının obrazını böyük məharətlə yaradırdı.



Azərbaycan professional musiqisinin inkişafında Bülbülün rolu əvəzsizdir. Hələ 1932-ci ildən başlayaraq o, Azərbaycanın ayrı-ayrı regionlarına ekspedisiyalar təşkil edir, xalq musiqisinin toplanmasında, lentə köçürülməsində və bəstəkarlarımızın yaradıcılığında ondan istifadə olunmasında çox qiymətli məsləhətlər verirdi. Fikrət Əmirovun məşhur «Şur», «Kürd ovşarı» kimi simfonik muğamları Bülbülün məsləhəti ilə yazılmışdı. O, həmişə «Azərbaycan» simfoniyasının yaradılmasını arzulayırdı.

Mən bu böyük sənətkarla tələbəlik illərində tanış olmuşdum. Konservatoriyanın fortepiano şöbəsində oxuyurdum. Bir gün mənə dedilər ki, «maestro» səni görmək istəyir. Mən təbii ki, onun sinfinə böyük həyəcanla gəldim.

Onu da deyim ki, mən Bülbül sənətinin vurğunu idim. Hələ uşaq yaşlarımda onun Koroğlusuna tamaşa etmək ən böyük arzum olmuşdu. O zaman axşam tamaşalarına uşaqları buraxmırdılar. Mən atamdan xahiş elədim, o, məni bir axşam Bülbül oynayan tamaşaya apardı…

Bülbülün Koroğlusu məni ovsunlamışdı. Dahi Üzeyir Hacıbəyovun musiqisi, Bülbülün dahiyanə ifası indi də qulağımda səslənir. Ona görə də mən Bülbülün sinfinə daxil olanda böyük həyəcan keçirirdim. Məni çox səmimi qarşıladı, xeyli söhbət etdi. Dərslərimlə maraqlandı, hansı əsər üzərində işlədiyimi soruşdu. Dedi ki, vokal əsəri üzərində işləyəndə gətir mən də baxım. Sonra royalda bir əsər çalmağımı xahiş etdi. Mən Raxmaninovun prelüdünü çaldım. Xeyli fikrə getdi. Sonra Raxmaninov yaradıcılığından, onun üslubundan ətraflı söz açdı. Söhbətimizin sonunda onunla tez-tez görüşmək istəyimi bildirdim. Dedi ki, onun bütün bəstəkarlarla möhkəm dostluğu var. Bu dostların ən gənci mən oldum. Mən bu dostluqla öyünür, fəxr edirdim.

Sonralar professorla çox görüşlərimiz olub. Yaxşı yadımdadı, 1959-cu ildə Moskvada SSRİ Böyük Teatrının səhnəsində onun tarixi «Sevgili canan»ı necə də böyük maraqla, hərarətlə qarşılandı... Onun ifası bir möcüzə idi.

Biz onu təbrik etdik. Dedi ki, qismət oldu bu səhnədə 20 ildən sonra Koroğlu oxudum. Bülbülün Koroğlusunu Moskva da qəlbən sevmişdi. Qəzetlər onun tərifini göylərə qaldırmışdı.

Bülbül tayı-bərabəri olmayan əfsanəvi bir sənətkar idi. Yüz illər keçsə də o daim yaşayacaq. Qoca tarix Bülbül kimi dahi sənətkarı çətin ki, bir də yetirsin.

***Vasif ADİGÖZƏLOV,***
***xalq artisti, Dövlət mükafatı***
***laureatı, professor***
***2000-ci il***



## *HƏMİŞƏYAŞAR BÜLBÜL*

Təbiət Şuşanı elə bil ki, Azərbaycan musiqisi üçün isti beşik yaratmışdır. Bu beşikdə neçə-neçə dünya şöhrətli sənətkarlarımız pərvəriş tapıb və bu beşikdən pərvazlanaraq təkcə doğulduğu torpağın, mənsub olduğu xalqın mədəniyyətini, incəsənətini deyil, eləcə də digər xalqların mənəvi təşəkkülündə, inkişafında, xüsusilə də musiqi yaddaşında iz qoyub, hörmət, məhəbbət qazanıblar. Çoxlarına hələ əsl adının Murtuza olduğu bəlli olmayan Azərbaycan vokal sənətinin yaradıcısı Bülbül də məhz belə xoşbəxt bəşər övladlarından biridir.

Bülbül barəsində düşünərkən istər-istəməz onun bənzərsiz istedadı, zəngin və çoxcəhətli yaradıcılıq fəaliyyəti yada düşür. Gənc yaşlarından ömrünün sonuna kimi xalqımızın mənəvi tərəqqisinə, onun musiqi mədəniyyətinin təşəkkülünə xidmət göstərmiş bu nadir şəxsiyyət haqqında söhbət açmaq o qədər də asan deyil. Böyük müğənni, folklorçu, professional musiqi mədəniyyətimizin ardıcıl təbliğatçısı, musiqişünas, pedaqoq, yüksək səhnə mədəniyyəti olan artist kimi tanınan Bülbül tamamilə haqlı olaraq nəinki Azərbaycan, eləcə də çoxmillətli sovet mədəniyyətinin görkəmli nümayəndələrindən biri kimi şöhrət tapmışdır. Bülbülün Azərbaycanda formaca milli, məzmunca sosialist musiqi mədəniyyətinin yaranmasında, formalaşmasında müstəsna rolu olmuşdur. Belə ki, professional musiqimizin inkişafı yolunda qarşıya çıxan estetik mübarizələrdə Ü.Hacıbəyov, M.Maqomayev kimi görkəmli mədəniyyət xadimlərimizlə birlikdə Bülbül sosialist realizmi metodunu müdafiə edərək onun prinsiplərinin həyatiliyini, gücünü öz yaradıcılıq təcrübəsində sübut etməyə çalışırdı.

Xalq musiqimizin bitib-tükənməz xəzinəsindən bəhrələnən və onun imkanlarını gözəl bilən sənətkar Azərbaycanda milli professional musiqinin meydana gəlməsi və inkişafında xalq melosunun, onun zəngin bədii-emosional imkanlarını öz yaradıcılığında daha da zənginləşdirməyə çalışırdı. Sənətkar ömrünün sonuna kimi bu mühüm sosial-estetik prinsipə sadiq qalmış və öz yaradıcılığında milliliklə beynəlmiləlçiliyin dialektikası məsələsinin həllində musiqi folklorumuzdan yaradıcılıqla bəhrələnməyi üstün tutmuşdur. Xatırladaq ki, onun ifaçılıq sənətinin ecazkar təsir gücünü bir də xalq musiqi ifaçılığının, onun təsvir-ifadə imkanlarına yaradıcı surətdə müraciəti ilə izah etmək lazımdır. İstər iri həcmli sintetik səhnə əsərlərində, istərsə də romans və mahnı janrlarında müğənniyə misilsiz şöhrət gətirən də elə bu səciyyəvi cəhətlər olmuşdur. Məhz buna görə də onun səhnədə yaratdığı bədii obrazlar, həm də oxuduğu xalq mahnıları bu qədər canlı, emosional, anlaşıqlı, ürəyə yatımlı və xəlqidir. Bu baxımdan Aşıq Qəribin, Mərdanın, Koroğlunun ariyalarını, eynilə «Sənsiz» və «Sevgili canan» qəzəl-romanslarını misal çəkmək kifayətdir. Səlis diksiya, intonasiya təmizliyi, təkrarsız musiqi çalarlarından istifadə qabiliyyəti öz gücünə və tembrinə görə nadir səs və s. texniki-estetik xüsusiyyətlərlə yanaşı Bülbül yaradıcılığına, onun bədii təxəyyülünə müəyyən bir universallıq da xas idi. O, yalnız milli musiqi-intonasiya, həmçinin ifaçılıq üslub tərzi çərçivəsində qalan sənətkarlardan deyildi. Onun yaradıcılıq yolunu izləmiş olsaq görərik ki, Bülbül sadə el havalarından başlayaraq monumental vokal səhnə obrazları yaratmaq səviyyəsinə yüksələnədək öz milli üslubuna sadiq qalmışdır. Sənətkarın böyüklüyü bir də orasında idi ki, öz repertuar palitrasını genişləndirməklə, yeniləşdirməklə yanaşı heç bir vaxt əvvəl oxuduğu nümunələri də yaddan çıxarmırdı. Ömrünün son illərində sənətkarın böyük hərarət və emosionallıqla oxuduğu el havalarımız bu-



na misaldır. Ümumiyyətlə, Bülbülün el mahnılarımıza, musiqi folklorumuza olan münasibəti, sevgisi son dərəcə dərin və sönməz idi. Bu bir tərəfdən əsrlərin süzgəcindən süzülüb durula-durula gələn xalqın sağlam musiqi təfəkkürünə dərin ehtiramından, digər tərəfdən xalq musiqi nümunələrinin müasir həyatımızda oynaya biləcəyi böyük bədii-estetik, tərbiyəvi təsir gücünə inamından irəli gəlirdi.

Hələ gənc yaşlarından başlayaraq Bülbül Üzeyir Hacıbəyov, M.Maqomayev, sonralar F.Əmirov, Q.Qarayev, S.Rüstəmov, C.Hacıyev, Z.Bağırov, M.İsmayılov kimi musiqi mədəniyyətimizin tanınmış xadimləri ilə birlikdə el havalarımızın toplanması, nəşri işində yaxından iştirak etmiş, 30-cu illərdən başlayaraq xalq mahnılarını fonoqrafa yazmaqla bu sahədə ardıcıl fəaliyyət göstərmişdir (təəssüf ki, Bülbülün bir vaxtlar böyük həvəslə, məhəbbətlə başladığı bu xeyirxah, faydalı iş, indi çox ləng davam etdirilir).

Bülbülün ikinci respublika Aşıqlar qurultayında etdiyi parlaq çıxışı da bir daha böyük sənətkarın xalq musiqimizin, onun mühüm qolu olan aşıq-poetik musiqi yaradıcılığının inkişafı və təbliği yolunda ürək yanğısı idi.

Azərbaycanda professional opera sənətinin tarixi inkişaf mərhələlərində də Bülbülün yeri əvəzsizdir. Onun musiqi mədəniyyətimizin şah əsəri sayılan Ü.Hacıbəyovun qəhrəmani-epik ruhlu «Koroğlu» operasında əsas obrazı yaratması faktı mədəni həyatımızın əlamətdar hadisəsinə çevrilmişdir. Mürəkkəb və zəngin daxili aləmə malik Koroğlu Bülbülün ifasında olduqca canlı, emosional, cazibədar idi. Onun qəhrəmanı, lirik, yumoristik, sevən aşiq kimi keyfiyyətləri özündə cəmləşdirməklə yanaşı həm də ifa etdiyi partiyaları dərindən duyması, hadisələrin gedişi ilə əlaqədar qəhrəmanın ovqatının dəyişməsi kimi psixoloji halları ustalıqla, peşəkar artistlik məharətilə açıq bilməsi ilə seçilirdi. Mütəxəssislər hələ 1938-ci ildə Moskvada keçirilmiş Azərbaycan mədəniy-

yəti dekadası günlərində Bülbülün Koroğlu rolunda çıxışını o dövrün mərkəzi qəzetlərində yüksək qiymətləndirmiş, müğənninin təkrarsız oxu mədəniyyətini, məlahətli səsini, mürəkkəb obrazın psixoloji dərinliklərinə kimi nüfuz edə bilməsini, artistlik məharətini və s. xüsusi qeyd etmişlər. Məsələn, hələ dekada günlərinin təsiri altında Bülbül yaradıcılığına yüksək qiymət verən V.Qorodinski qeyd edirdi ki, Bülbül tərəfindən yaradılmış obraz bədii cəhətdən bitkindir. Bülbül gözəl oxuyur. Aşıq sifətilə saraya gəlib oxuduğu mahnılar xüsusilə gözəldir. Təsadüfi deyil ki, dahi bəstəkarımız Ü.Hacıbəyovun özü Bülbülü «...Koroğlu simasının misilsiz təmsilçisi...» adlandırmışdır.

Bülbül ölkəmizin sosial-mədəni, ictimai-siyasi həyatında daim fəal iştirak edirdi. Böyük Vətən müharibəsi illərində onun yüksək mənəvi keyfiyyətləri, sənətkarın sosial məsuliyyəti bir daha özünü aşkarlığı ilə göstərmişdir. Məlumdur ki, müharibə illərində yaradılmış xüsusi «cəbhə» qruplarından birinə rəhbərlik edən Bülbül Bryansk cəbhəsinin ön xəttində döyüşçülər qarşısında bir çox konsertlərdə şəxsən özü çıxış etmişdir.

Bülbül öz yaradıcılığında, həmçinin şəxsi həyatında əsl beynəlmiləlçi kimi çıxış etmişdir. O, dünya, rus və qardaş xalqların musiqi mədəniyyətinin geniş təbliği, milli mədəniyyətlərin qarşılıqlı zənginləşməsi yolunda məhsuldar çalışmışdır. Buna misal olaraq müğənninin İtaliya bəstəkarlarının əsərlərindən oxuduğu ariyaları, xalq mahnılarını xatırlamaq kifayətdir.

Digər xalqların musiqi mədəniyyətlərinə geniş maraq, öz tamaşaçı və dinləyicilərini dünya musiqisinin ən gözəl nümunələri ilə tanış etmək arzusu Bülbülü böyük işgüzarlığa, mütaliəyə, professional vokal sənətinin sirlərini daha dərindən öyrənməyə çağırmaqla yanaşı, son nəticədə onun repertuar palitrasını da genişləndirmişdir. «Traviata», «Karmen»,



«Toska» kimi məşhur operalarda yuxarıda qeyd etdiyimi kimi italyan vokal məktəbinin mütərəqqi cəhətlərinin təsirin duymamaq olmur. Bülbül rus musiqi mədəniyyətinə, həmç nin vokal məktəbinə də dərin maraq göstərir, onun mütərəc qi bədii prinsiplərindən yaradıcılıqla bəhrələnməyə çalışırd Milanda olarkən Bülbül «La Skala» teatrında görkəmli ru müğənnisi Şalyapinin ifasında «Boris Qodunov» tamaşasın baxmış və bu böyük müğənninin sənətkarlığından, səhn mədəniyyətindən son dərəcə təsirləndiyini bildirmişdir.

Bülbülün böyük rus müğənnisi Leonid Sobinov ilə tanış lığı, onun vokal sənəti ilə yaxından maraqlanması kimi fakı lar da müğənninin daim öz üzərində çalışması, sənətkarlığın təkmilləşdirmək, yaradıcılığında milliliklə beynəlmiləlçiliy vəhdət halında birləşdirmək arzusunu göstərir.

Bülbül gənc müğənnilər nəslinin formalaşması işinə d xüsusi diqqət yetirmişdir və bu baxımdan onun uzun müddə Azərbaycan Dövlət Konservatoriyasında vokal kafedrasın rəhbərlik etməsi uğurlu olmuşdur. Tanınmış müğənnilər mizdən Firəngiz Əhmədovanın, Firidun Mehdiyevin, Mob Əhmədovun, Adil Məlikovun və başqalarının bir müğənı kimi yetişməsində, formalaşmasında Bülbül vokal məktəb nin rolu böyük olmuşdur.

Gözünü dünyaya açandan Bülbülün xəmiri muğaml yoğurulmuş, muğamla pərvəriş tapmış bir xanəndə kimi Qa rabağın ən məşhur sənətkarları ilə adı qoşa çəkilmişdir. Bə kə də bu yolla getsəydi əvəzsiz bir muğam ustası kimi də ta rixdə qala bilərdi. Ancaq o, konservatoriyada oxudu. Avrc panın konservatoriyası adlandırılan İtaliyada təhsil aldı v sənət yolunu dəyişdi. Çünki o yaxşı bilirdi ki, Azərbayca musiqi mədəniyyətinə romanslar, ariyalar, daha mürəkkə mahnı janrları oxuyan, böyük Üzeyirimizin bənzərsiz bəstə lərini bütün əlvanlığı, əfsunu ilə duyan, dərk edən, onla heyrətamiz bir istəklə, məhəbbətlə xalqımıza və digər xalc

lara çatdıran Bülbülə ehtiyacı var. Belə bir sənət möcüzəsinə yiyələnmək üçün də Bülbül hökmən xalq müdrikliyinin ən dərin qatlarından, sağlam qaynaqlarından süzülüb gələn musiqi folklorumuzu, onun ən canlı nümunəsi olan muğamlarımızı mənimsəməli idi.

Bülbül şəxsiyyətinin böyüklüyü onda idi ki, o, dövrünün böyük sənətkarları, mədəniyyət xadimləri ilə yaradıcı ünsiyyət, dostluq əlaqələri saxlamaqla yanaşı, heç bir vaxt musiqi mədəniyyətimizin qabaqcıl nümayəndələri ilə də olan səmimilik münasibətlərini pozmurdu. Onun Ü.Hacıbəyov, M.Maqomayev, M.S. Ordubadi, R.Rza, C.Cabbarlı, S.Vurğun, M.İbrahimov, S.Rüstəm və başqa görkəmli sənət adamlarımızla yaradıcılıq və şəxsi dostluq əlaqələri, bir daha Bülbülün estetik mədəniyyətinin geniş hüdudlarını, şeirə, sənətə, öz doğma xalqına sönməz məhəbbətini göstərir. Həmin məhəbbəti böyük müğənninin bu gün də ilhamla, təravətlə səslənən, xalqımızın mənəvi həyatında yaxından iştirak edən, ürəklərdə ən dəruni, munis hisslər oyadan həmişəyaşar sənətində, mahnılar gülüstanında görürük, duyuruq və dərk edirik.

*Babək QURBANOV,*
*fəlsəfə elmləri doktoru,*
*professor*
*«Mədəni-maarif işi» jurnalı,*
*№2, 1987-ci il*



## *SƏSİN MÖCÜZƏSİ VƏ YAXUD HEYF SƏNƏ, ƏFSANƏ!*

### *«Bülbül əfsanəsi» kitabına ön söz*

Bülbülün səsi Azərbaycan adının ucalıq zirvələrindən biri idi… Mən yaşadığım yarım əsrdən artıq bir müddət ərzində çox səslər eşidib, çox avazdan qulaq kəsilmişəm. Bu səslər içərisində dadı-duzu, xüsusi məlahəti, tembr gözəlliyi və dolğunluğu ilə seçilənləri, yadda qalanları çox olub. Təkcə elə Rəşid Behbudovu, Şövkət Ələkbərovanı, Rübabə Muradovanı, bu rəhmətliklərin sırasında lap bu yaxınlarda əbədiyyətə qovuşmuş Yaqub Məmmədovu xatırlamaq nəyə desən dəyər. Yaxud bir qədər də uzağa gedib Cabbar Qaryağdıoğlu, Seyid Şuşinski, Xan Şuşinski kimi korifeyləri yada salsaq və ya canlı ifalarını, şükürlər olsun ki, bu gün də böyük ləzzət və məmnunluqla dinlədiyimiz Zeynəb Xanlarova, Arif Babayev tək səs incilərini ansaq, kifayətdir…

Ancaq, zənnimcə, bütün bu möhtəşəm səslər qalereyasında işıqlı günbəz altdakı ən ulu məskən unudulmaz və təkrarsız Bülbül səsinin məkanıdır…

Daşaltıda, Xəlfəlidə qıjıldayan çayın qayalarından birinin dibindəki çınqıllar arasında bir səs çınqısı qopdu, münbit Qarabağ torpağında toxum tək sürətlə cücərdi, qol-budaq atıb şaxələndi, səslər çoxluğu içərisindən ucalığa can atdı. Qırxpilləkən boyu Cıdır düzünə dırmaşdı. Bu yüksəkliklər də onu qane etmədi, Malıbəylinin xan çinarının başından aşıb Kirsi, Ziyaratı fəth etdi, o qəlbilikdən qəlbi dolu fərəhlə dönüb, Ərimgəldiyə, Çanaqqalaya, Sarıbabaya, Xan qızı bulağına, Topxanaya baxdı, sonra da çağlayan bu səsin yamyaşıl qübbəsi millər, muğanlar, haramılar aşıb, kəpəzlərin, şah-

dağların qaşına qondu, əzəmətli səsin nəhəng günbəzi altına o tay-bu taylı bütün Azərbaycan torpağını aldı.

Bir xalq səsinin, bir millət avazının fəzası darlıq etdi bu səsə. Ecazkar səs meridianlar aşıb, ekvatoru qurşaqladı, çox səslərlə yarışıb bütün dünyaya yaraşdı. Aləm qəbul etdi onu, bu dünyanın dörd cəhətində yaşayan insanlar dilindən, dinindən asılı olmayaraq anladı onu, hər bir adam gördü ki, onun, məhz onun ağrı-acısından, sevinc-fərəhindən, dərd-qəmindən bəhs edir bu səs, dil açıb çağlayır, göyüm-göyüm göynəyir...

Bax, beləcə bir səsin heyrətamiz möcüzəsi, əfsanəvi qüdrəti, hüdudsuz fəzasıyla genişlənib böyüdü Azərbaycan fəzası, bir adın, bir millətin ünvanının hüdudları genişləndi...

Haçansa bir dəfə yazılarımın birində demişdim, yenə deyirəm: Poeziya hər şairin, hər şeir yazan fərdin fəzanı öz başa düşdüyü tərzdə və zövqüylə yenidən qurmaq cəhdidir. Azərbaycan fəzası isə bayaq gördüyümüz kimi həm də Bülbülün, Bülbül səsinin fəzasıdır və elə buna görə də çağdaş Azərbaycan şeirinin yarandığı son bir əsrlik zaman kəsiyində Bülbül adına bu qədər şeir qoşulmuş, nəzm nümunələri bəstələnmişdir.

Hörmətli oxuculara təqdim olunan bu kitabda o böyük ədəbi irsin yığcam bir qismi toplanmışdır və biz burda şair tək adından-sanından asılı olmayaraq ən müxtəlif toplamağa cəhd etmişik.

...Böyük sənətkarın əbədiyyətin haqq qapısını açdığı tarixə ithaf olunur bu kitab. O ki qaldı başlanğıcda qoyduğumuz ada – Bülbülsüz Bülbüllə yaşadığımız günlərin qənaəti budur – bu gün o əfsanə də yaşayır, o möcüzə də!...

***Çingiz ƏLİOĞLU***
***26 avqust 2002-ci il***



## *QAYNAQLAR*

Böyük müğənninin çoxşaxəli yaradıcılıq fəaliyyətinin bir sahəsi də xalq musiqisinin öyrənilməsi ilə bağlıdır.

Xalq yaradıcılığı irsinin toplanması, tədqiqi və nəşri zamanın tələbiydi. Lakin bu sahədə görülən işlər fərdi xarakter daşıyırdı. Çünki xalq musiqisini ardıcıl şəkildə toplayan, onun təhlilinə, nəşrinə ciddi elmi istiqamət verən elmi mərkəz və ya təşkilat, elmi laboratoriya yox idi. Musiqi ictimaiyyəti qarşısında duran bu tarixi vəzifəni məhz Bülbül həyata keçirdi. 1932-ci ilin iyul ayında onun təşəbbüsü və rəhbərliyi ilə Azərbaycanda Elmi Tədqiqat Musiqi Kabineti (ETMK) yaradıldı.

Belə bir təşəbbüsün həyata keçirilməsi həm də respublika Xalq Maarif Komissarlığının xalq yaradıcılığı irsinə qayğı göstərilməsi haqqında qərarına əməli cavab oldu. Xalq yaradıcılığının mədəni quruculuqda heç bir ideya əhəmiyyəti olmadığını iddia edənlərin, onu köhnəlmiş düşüncə qalığı sayanların mövcud olduğu bir dövrdə musiqi folklorumuzu öyrənən elmi tədqiqat kabinetinin yaradılmasının böyük ideya-siyasi əhəmiyyəti var idi.

Kabinet öz işlərini ekspedisiyalarla və stasionar üsullarla aparırdı.

Xalq yaradıcılığı nümunələri fonoqraf və diktofonun köməyilə qeydə alınır və ənənəvi qaydada toplanırdı. Daha sonra nota salınmış nümunələr sistemləşdirilir, kataloqlaşdırılırdı. Bu qayda ilə külli miqdarda müxtəlif janrlı xalq mahnıları, instrumental havalar, xeyli aşıq musiqisi nümunələri, muğamlar (instrumental və dəstgah şəklində), zərbli muğamlar, həmçinin şifahi xalq ədəbiyyatı nümunələri – bayatılar,

atalar sözləri və zərb-məsəllər, tapmacalar, nağıllar, dastanlar toplanıb sənədləşdirilirdi.

Kabinet musiqi kadrlarının tərbiyə olunmasında əhəmiyyətli rol oynayırdı. Onun işlərində yaxından iştirak edən bəstəkar və musiqişünaslar xalq musiqisi ilə təmasda olur, yaradıcılığın xəlqilik, ideyalılıq prinsiplərini təcrübə ilə mənimsəyir, elm və bədii fəaliyyət üçün zəngin faktik materiallardan istifadə edə bilirdilər. O vaxtlar gənc bəstəkarlardan A.Zeynallı, Ə.Cavid, K.Nemətov, S.Rüstəmov, Q.Qarayev, F.Əmirov, Niyazi, C.Hacıyev, T.Quliyev, S.Ələsgərov, Z.Bağırov, musiqişünas M.İsmayılov və başqaları Bülbülün rəhbərliyi ilə Elmi Tədqiqat Musiqi Kabinetinin işinə cəlb olunmuşdular.

1937-ci ildə C.Qaryağdıoğlunun ifasından nota salınmış xalq mahnıları məcmuəsi nəşr olunur.

Həmin il S.Rüstəmovun «Azərbaycan rəqs havaları» çapdan çıxır. «50 Azərbaycan xalq mahnısı» adlanan növbəti məcmuə 1938-ci ildə işıq üzü görür. Mahnıları C.Qaryağdıoğlunun ifasından Bülbül fonoqrafa yazmış, onun rəhbərliyi ilə S.Rüstəmov nota köçürmüşdü. S.Rüstəmovun dörd dəftərdən ibarət «Azərbaycan aşıq mahnıları» məcmuəsi də həmin il nəşr olunmuşdur. Məcmuədəki aşıq havalarını müəllif aşıq Əsədin, aşıq Mirzənin, aşıq Fətullanın ifasından nota salmışdı.

S.Rüstəmov, F.Əmirov və T.Quliyevin notlaşdırdıqları mahnılar daxil edilmiş iki cilddən ibarət «Azərbaycan xalq mahnıları» məcmuəsinin tərtibi də Bülbülə məxsusdur.

Muğamların nota salınması və nəşr edilməsi işində də Bülbülün böyük xidməti var. 1936-cı ildə tarzən Mənsur Mənsurovun ifasında T.Quliyevin notlaşdırdığı «Rast» və «Zabul» dəstgahları, Z.Bağırovun nota köçürdüyü «Dügah» dəstgahı ilk çap nümunələri kimi indi nadir nüsxəyə çevrilmişdir.

Arxiv materiallarına nəzər salanda məlum olur ki, xeyli



folklor nümunələri, nota salınmış muğamlar hələ də çap üzü görməmişdir. Bu baxımdan, F.Əmirov və Ə.Cavid tərəfindən hazırlanmış rənglər məcmuəsini, Q.Qarayev, C.Hacıyev, M.İsmayılov və S.Rüstəmovun, habelə Ə.Bədəlbəylinin çapa hazırladıqları rəqslər məcmuələrini, Q.Qarayevin, Q.Pirimovun ifasından nota köçürdüyü «Şur» muğamını, xanəndə Bilal Yəhyanın oxumasından F.Əmirovun nota köçürdüyü «Şur» və «Segah» muğamlarını, C.Qaryağdıoğlunun ifasından Niyazinin notlaşdırdığı «Rast» və «Şur» muğamlarını, həmçinin bir sıra şifahi ədəbiyyat nümunələrini göstərmək olar.

Elmi-tədqiqat kabineti öz fəaliyyətində tədris məsələlərinə də geniş yer verirdi. O, tədris vəsaitlərini xalq musiqisi nümunələri ilə zənginləşdirir, metodik mühazirələr keçirir, xalq çalğı alətlərinin tədrisi üçün dərslik tərtib olunması, onun çap edilməsi qayğısına qalırdı. «Tar məktəbi», «Kamança məktəbi», «Balaban məktəbi» kimi ilk dərsliklərin meydana çıxmasında kabinetin də fəal iştirakı olmuşdur.

Hazırda Azərbaycan SSR EA Memarlıq və İncəsənət İnstitutunun xalq musiqisi şöbəsi, Azərbaycan Dövlət Konservatoriyasının xalq musiqisi kabineti görkəmli musiqi xadiminin başladığı şərəfli işi bu gün də davam etdirməkdədir.

***Ariz ABDULƏLİYEV,***
***musiqişünas***
***«Ədəbiyyat və incəsənət» qəzeti,***
***19 iyun 1987-ci il***

## *MİLLİ MUSİQİ İFAÇILIĞININ KOROĞLUSU*

Qərbi Avropada musiqi nəzəriyyəçilərindən biri vokalçıların taleyi barədə belə yazmışdır: «İnsan ömrü qısadır, artist ömrü isə daha gödəkdir. O, səhnəni həmişəlik tərk edən andan ölür. Çox keçmir ki, onun özü, dinləyiciləri məftun qoyan səsi də unudulur. Qalan isə keçmiş xatirələr – tənqidi etüdlər, memuarlar və qəzet resenziyaları olur. Musiqi tarixçiləri bu sənədlər üzərində səylə çalışsalar da, əfsuslar olsun ki, əbədiyyətə qovuşanları dirildə bilmirlər». Dünyanın onlarla, bəlkə də yüzlərlə əvəzsiz istedad sahibləri öz gözəl səslərini özləri ilə aparmış, sonrakı nəsillərə qalan isə həqiqətə yaxın, yaxud həqiqətdən uzaq söyləmələr olmuşdur. Lakin bu qismət Azərbaycan vokal məktəbinin yaradıcısı, bənzərsiz müğənni, musiqi nəzəriyyəçisi, pedaqoq və ictimai xadim Bülbüldən yan keçmişdir. Vaxtilə lentə aldırdığı müxtəlif xarakterli ariyalar, romanslar, xalq mahnıları Bülbülü hələ öz sağlığında vokal mülkünün sultanı etmişdir. O, dünyasını dəyişəndən sonra Azərbaycanın musiqi mədəniyyəti tarixində vokal sənətinin klassiki mövqeyində möhkəmlənmişdir, ölməzlik qazanmışdır. Bülbül sənət səmasında parlaq ulduza çevrilmişdir. Bülbül yaradıcılığı onu dünyanın vokal fatehləri sayılan Enriko Karuzo, Benyamino Cili, Mario Lansa, Mario del Monako, Franko Kornelli, Leonid Sobinov, Fyodor Şalyapin, Sergey Lemeşev kimi opera müğənniləri səviyyəsinə qaldırmışdır.

SSRİ xalq artisti İrma Yaunzen yazmışdır: «Bülbülün səsi məni heyran etdi. Öz diapazonu və gözəlliyinə görə bu səs nadir səsdir».

SSRİ xalq artisti Akaki Xorava Bülbülü vokal sənətində bir hadisə adlandırmışdır. O, demişdir ki, Bülbül xalq yaradıcılığının dərinliklərindən dünya incəsənətinin ən yüksək zirvəsinə qalxmışdır. SSRİ xalq artisti Niyazi Fyodor Şalyapini rus operasının novatoru, Bülbülü isə Azərbaycan operasının novatoru hesab etmişdir.

SSRİ xalq artisti İ.Tumanov Bülbülü opera mədəniyyətinin yüksəlişini müəyyən edən, adı teatr tarixinə qızıl hərflərlə yazılan çox gözəl müğənni adlandırmışdır.

Bülbül səsinin sehri ilə musiqili təbiət mənzərələri yaratmağı bacaran sənətkar idi. Azərbaycan musiqi tarixində romans janrının banisi sayılan Asəf Zeynallının Cəfər Cabbarlı qələmindən çıxmış «Ölkəm» şeirinə bəstələdiyi eyni adlı musiqi əsəri Bülbülün təfsirində necə də füsunkarlıqla səslənir. Bülbülün zildən «Ölkəm» çağırışı adamda səmanın ənginliklərində süzən qartal surətini canlandırır. Bu ecazkar səs dinləyiciyə Azərbaycan sənətinin gözəlliklərini duydurur.

Dahi bəstəkarımız Üzeyir Hacıbəyov «Sənsiz» və «Sevgili canan» romans-qəzəllərini məhz Bülbülün səs imkanlarını nəzərə alıb yazmışdır. Bülbülün geniş diapazonlu və zəngin çalarlı lirik-dramatik tenor səsi, mükəmməl vokal texnikası və həmin romans-qəzəllərə özünün qoşma notlarını daxil etməsi sayəsində hər iki əsər həmişəyaşarlıq zirvəsinə qalxmışdır. Bülbülün aydın diksiyası Nizami şeir aləminin dinləyicilərə tam cazibədarlığı ilə çatdırılmasını təmin etmişdir.

Üzeyir Hacıbəyovun dəfn mərasimində Bülbülün yanıqlı nəfəslə oxuduğu «Sənsiz» romansı hüznlü mərasim iştirakçılarını çox kövrəltmişdi. Hətta özünün sərtliyi ilə ad çıxarmış Mircəfər Bağırov da qəhərləndiyini gizlətməyi bacarmamışdı. «Sənsiz»i həmin kədərli gündə ancaq Bülbül kimi canyanğılı sənətkar belə nüfuzediciliklə oxuya bilərdi.

Bülbül Azərbaycan xalq və bəstəkar mahnılarının ustad təfsirçisi idi. Onun ifasında «Yaxan düymələ», «Süsən sünbül», «Bəri bax», «Girdim yarın bağçasına», «Çal oyna», «Kəklik», «Dedim bir busə ver», «Qalanın dibində» «Almanı atdım xarala» və bu kimi bir çox sayda xalq mahnısı, Füzulinin sözlərinə hazırladığı «Füzuli təsnifləri» və s. orijinallığı

ilə seçilən təsniflər, Tofiq Quliyevin, Fikrət Əmirovun, Cahangir Cahangirovun, Ağabacı Rzayevanın, Niyazinin, Süleyman Ələsgərovun, Səid Rüstəmovun və başqa bəstəkarların bir-birindən gözəl romansları ustad sənətkarın boğaz xırdalıqları, heyranlıq doğuran səs tembri, registrdən-registrə gözlənilməz keçidləri, yuxarı registrlərdə gəzişmə məharəti, zəngin emosional aləmi, səsini bacarıqla idarə edə bilmə qabiliyyəti sayəsində yeni-yeni çalarlarda səslənir. Radioda və televiziyada oxuyan müğənnilərin çoxunun üzünü görməsən, bilməzsən ki, kim oxuyur. Çünki onların vokal simaları yoxdur. Amma Bülbül oxuyanda bilirsən ki, Bülbül oxuyur. Çünki Böyük tanrı bu məlahətdə səsi Bülbülə ona görə verib ki, o, dinləyiciləri ovsunlamaqla gözəlliklər aləminə çəkib aparsın, onlarda insani keyfiyyətləri gücləndirən ovqat yaratsın. Bülbül Azərbaycan opera sənətinin iftixarıdır. Onun yaratdığı obrazlar xalqımızın yaddaşına birdəfəlik həkk olunub. Sanki Bülbül dahi Üzeyir bəyin ölməz «Koroğlu» operasında baş qəhrəman rolunda çıxış etmək üçün dünyaya gəlmişdi. O, bu rolda 400 dəfədən artıq çıxış etmişdi. Koroğlu partiyası çox mürəkkəb vokal özülündən ibarətdir. Bu obrazı yaratmaq üçün səslə birlikdə gözəl rəqs texnikası, dramatik aktyor məharəti tələb olunur. Sevimli opera solistimiz Bülbül bütün bunların öhdəsindən məharətlə gəlirdi. O, Koroğlunu aşıq kimi təqdim edirdi və buna görə də səsinin yuxarı notlarda koloratura imkanlarından ustad sənətkar kimi istifadə edirdi. Bunsuz Koroğlu tamaşaçı qarşısında Koroğlu kimi görünməz.

Bülbül çox güman ki, Gəncədə xanəndəlik edən dövrlərdə aşıqların oxumasına və rəqs etməsinə dərindən bələd olduğundan səhnədə inandırıcı aşıq obrazı yarada bilirdi. SSRİ xalq artisti, Rusiya Böyük Teatrının baş dirijoru S.Samosud yazmışdır: «Uzun illər ərzində mən birinci dəfədir ki, gözəl oxuyan, rəqs edən və xalq qəhrəmanını səhnədə parlaq surətdə yaşada bilən artistə rast gəlirəm. Koroğlu partiyasının ifasının çətinliyini heç bir opera partiyası ilə – nə Boris Qodunovun, nə Germanın, nə də Otellonun partiyaları ilə



müqayisə etmək olmaz. Burada rəqsləri, tullanmaqları, at sürməyi və bir çox müxtəlif ritmik hərəkətləri oxumaqla uyğunlaşdırmaq lazım gəlir. Bülbül bu çətinliklərin öhdəsindən parlaq surətdə gələ bilmişdir».

Böyük vokal sənətçimiz Bülbül təkrarolunmaz səs qüdrəti ilə elə yüksək zirvə fəth etmişdi ki, elə indi də Koroğlu deyəndə hamının sənət yaddaşında Bülbül surəti canlanır.

Özbəkistanın Milli Opera və Balet Teatrının solisti Nemət Sin-Həbibi məşhur rejissor Firudin Səfərovun yaxından köməyi ilə Koroğlu partiyasını hazırlayıb Bakıya qastrol səfərinə gəlmişdi. Qonağın Koroğlu rolunda çıxışı müsbət qarşılandı. Onu həvəsləndirmək üçün «lap Bülbül kimi oxuyursan» – dedim. Artist gülümsəyərək: – «Bülbül kimi oxumaq üçün Bülbül olmaq gərəkdir» –deyə cavab verdi, sonra da əlavə etdi: «Bülbül Koroğlu etalonudur. belə müğənni yüz ildə bir dəfə dünyaya gəlir».

Bülbülün çətin opera partiyalarından biri də Əfrasiyab Bədəlbəylinin «Nizami» operasında Nizaminin partiyasıdır. Burada musiqi nömrələri müğənnidən güclü, zil və çevik səs tələb edir. Hələ indiyə kimi heç bir opera müğənnisi Nizaminin ariyalarını oxumağa cürət etməmişdir. Bu ariyaları Gürcüstanın xalq artisti, Beynəlxalq müsabiqələr laureatı Teymuraz Ququşvili dinləyəndən sonra özünün çox qısa xarakteristikasını verdi: «Mən belə səs eşitməmişəm. Bu ilahidən verilmiş səsdir». Bu ariyaları belkanto (italyanca – gözəl oxumaq) sirlərinə bələd olan Bülbül kimi müğənni oxuya bilərdi. O, orta tessituralı yerlərdə səsinin xeyli müddət uzadılması, lap zəiflədilməsi və sonradan dərhal gücləndirilməsi üçün qolları vasitəsi ilə diafraqmasını bu işə xidmətə cəlb etməyi necə də gözəl bacarırdı.

Bülbül Azərbaycanda notlu baş partiyaların qüdrətli ifaçısı olub. Onun konsert repertuarında Qərbi Avropa bəstəkarlarının da opera ariyaları geniş yer tuturdu.

Operadan tutmuş operettalara və populyar mahnılara qədər müxtəlif janrlı bir çox əsərlərdən ibarət geniş repertuar

ifaçısı Bülbül daha çox Azərbaycan musiqisi ilə yaxınlıq edirdi. Artistin özünün etiraf etdiyi kimi, Azərbaycan mahnıları və romansları onun ən sevimli musiqisidir, o, bu musiqiyə bütün istedadını, ürəyinin bütün hərarətini vermişdir. Məşhur italyan vokal məktəbinin nailiyyətlərindən çox gözəl istifadə məharəti ona Azərbaycan bəstəkarlarının mahnı və romanslarını, eləcə də xalq mahnılarını yeni, orijinal traktovkada səsləndirmək imkanı vermişdir.

Azərbaycan musiqi tarixində heç bir səs sənətçisi Bülbül keçən enişli-yoxuşlu axtarışlar yolunu keçməmişdir. O, istəsəydi yaddaşlarda bir xanəndə kimi qalardı, amma istəmədi. Rəsul Rza belə demişdi: – Bülbül Azərbaycanda heç kimin getmədiyi cığırla tək getməyə başlamışdır. O, Azərbaycan incəsənəti üçün naməlum yollarla, çətinlikləri aradan qaldıraraq getmiş və cəsarətlə yeni yol açmışdır. Azərbaycan vokal sənətində Bülbül inqilab etmişdir.

Murtuza Məşədi Rza oğlu Məmmədov (Bülbülün əsl adı və soyadı belədir) hələ kiçik yaşlarından şaqraq və sürəkli zəngulələrinə görə Bülbül adı almışdır. O, 1909-cu ildə, yəni 12 yaşı olanda Gəncəyə getmiş və orada «Şamaxı» mehmanxanasının həyətindəki çayxanada xanəndəlik həyatına başlamışdır. Hədsiz dərəcədə gözəl, tarın ən aşağı pərdələrinə gedib çıxan zil səsi onu dinləyicilərin sevimlisi etmişdi. Bülbülün şöhrəti Gəncədən uzaqlara da yayılmış və onu Zaqafqaziyanın mədəniyyət mərkəzi Tiflisə dəvət etmişdilər. Bu, 1911-ci ildə olmuşdu. O, ictimai məclisin yay binasında müvəffəqiyyətlə konsert verəndən sonra gənc xanəndənin şərəfinə şam yeməyi verilmişdi. 1912-ci ildə Bülbülün oxumasına qulaq asan məşhur xanəndə Cabbar Qaryağdıoğlu böyük məmnunluq hissi duyduğundan onun təhsil almaq üçün Bakıya getməsini tövsiyə etmişdi.

1920-ci ildə Bakıya gələn Bülbül Türk teatrı səhnəsində Üzeyir Hacıbəyovun «Əsli və Kərəm» operasında Kərəm partiyasını oxumaq dəvətini almışdı. Tamaşanın uğurlu alınmasına baxmayaraq, Bülbül öz oyunundan razı qalmamışdı. Və buna görə də aktyorluq məharətinə yiyələnmək qərarına gəlmişdi. İtalyan bəstəkarlarının Bakıda tamaşaya qoyulan operalarını bir neçə dəfə dinlədikdən sonra düzgün qərara gəldiyini yəqin etmişdi. Bülbül təzəcə açılmış Azərbaycan Dövlət Konservatoriyasının vokal sinfinə daxil olandan sonra Avropa musiqi mədəniyyətinə yaxından bələdlik naminə çox çalışmışdır. O, konservatoriyada vokal təhsili alan ilk və yeganə azərbaycanlı tələbə idi. Bülbül Türk teatrı tamaşalarında İbn Salam («Leyli və Məcnun») partiyasını müvəffəqiyyətlə oxumuşdur. Onun Hüseyn Cavidin «Şeyx Sənan» dramında oynadığı Kor ərəb rolunda oxumaq yerlərinə qulaq asmaq üçün Bakının ucqar məhəllələrindən də çoxlu tamaşaçı gəlirdi. Bülbülün səsi muğam-sevər Bakı camaatını sehrləmişdi.

1924-cü ildə konservatoriya tələbəsi Bülbül açıq konsertdə ilk dəfə çıxış edərək fransız bəstəkarı Kleman Filiber Leo Delibin «Lakme» operasında Geraldın ariyasını oxudu. 1924-cü ildə Bülbül İtaliyaya gedir. Milan şəhərində maestro Anselmi Bülbülün oxumasına qulaq asandan sonra razı qaldığını bildirib demişdi ki, o, italyan vokal manerasını öyrənməkdən ötrü heç olmazsa altı il dərs keçməlidir. Bülbülün İtaliyada belə uzun müddət qalmaq imkanı, əlbəttə ki, yox idi. Gənc müğənnini dinləyən başqa bir müəllim xanım Delli-Ponti onun texniki çətinliklərin öhdəsindən asanlıqla gəlməsinə heyranlığını bildirib demişdi: –»Siz ki, yetkin artistsiniz, daha oxumaq nəyinizə gərəkdir?» Bülbül: «Opera teatrında böyük Karuzo, Sobinov kimi gözəl oxumaqdan ötrü» – deyə cavab vermişdi. Bülbülün İtaliyaya gedib «La Skala» opera teatrının müəllimlərindən belkanto sənətinə yiyələnməsi məsələsi 1927-ci ilin oktyabr ayında həll olundu. Bülbülün İtaliyada olma müddəti cəmi iki il nəzərdə tutulmuşdu. Delli-Pontidən dərs alan Bülbül qısa vaxt ərzində italyanca sərbəst danışmağı da öyrənmişdi. Delli-Ponti ilə məşğələlər gözlənilən nəticəni vermədi. Şərq və Avropa oxu manerasını uyğunlaşdırmaq mümkün olmamışdı. Təcrübəli

müəllim Rafaello Qranı isə Bülbülə demişdi ki, onun italyan ifa manerasına tam yiyələnməsi üçün daha iki il lazımdır.

1927-ci ilin noyabrından 1931-ci ilin oktyabrınadək Milanda qalan Bülbül italyan ifa məktəbinə mükəmməl yiyələnərək Vətənə qayıtdı. O, təkcə səhnə fəaliyyəti ilə kifayətlənməyib, pedaqogika, folkloristika, musiqi tarixi sahəsində elmi araşdırmalarla da məşğul olmağa başladı. Bülbülün 1931-ci ilin dekabr ayında konservatoriyadakı məruzəsində milli vokal sənətinin gələcək inkişaf yolları göstərilməklə Azərbaycan ifaçılıq məktəbinin özülü qoyulmuş oldu. O, Şərq və Avropa oxu məktəblərinin qovuşdurulmasının mümkünlüyünü əsaslandırdı. Üzeyir Hacıbəyov yazmışdı: «Avropa vokal məktəbini mənimsəyən və həm də Şərq üslubunda oxumağı bacaran Bülbül opera səhnəsi üçün qiymətli tapıntıdır». Bülbül yaradıcılıq və müəllimlik fəaliyyəti ilə yanaşı, Elmi Tədqiqat Musiqi Kabinetinin yaradılması təşəbbüsünü irəli sürdü. 1932-ci ildə Bülbülün arzusu həyata keçdi. Görkəmli müğənni Zaqafqaziyada birinci olaraq Elmi Tədqiqat Musiqi Kabineti yaratdı.

Azərbaycanın unudulmaz bəstəkarı Asəf Zeynallı ilə birlikdə Qarabağa ilk ekspedisiyaya yola düşən Bülbül Elmlər Akademiyası Leninqrad folklor şöbəsinin əldə etdiyi «Edison» fonoqrafı ilə topladıqları zəngin materialla gələcək tədqiqatlar üçün özül yaratdı. Avropa vokal sirlərini dərindən öyrənmiş Bülbül Azərbaycan musiqi folklorunun tədqiqinə daha böyük maraq göstərirdi. Elmi Tədqiqat kabineti musiqi folklorunu toplamaq, nota köçürmək və fonovallara yazmaq üçün Şəki-Zaqatala, Quba-Xaçmaz, Gəncə-Şəmkir, Lənkəran-Masallı, Şuşa, Basarkeçər, Borçalı zonalarına elmi ekspedisiyalar göndərmişdi. Bu kabinetin topladığı materiallar əsasında Üzeyir Hacıbəyov «Azərbaycan xalq musiqisinin əsasları» əsərini yazmağa başlamışdı. O, çapdan çıxmış kitabının titul səhifəsində belə bir avtoqraf yazmışdı: «Bu əsərin yaradılmasının təşəbbüsçüsünə və təkrarolunmaz Koroğluya».

Azərbaycanın xalq artisti bəstəkar Cövdət Hacıyev yazmışdır: «Əgər Bülbül olmasaydı, çətin ki, biz xalq yaradıcılığını belə mükəmməl, belə dərindən öyrənə bilərdik».



Bülbül konservatoriyanın hazırlıq kursunda təhsil alan gələcəyin böyük bəstəkarı Fikrət Əmirovu Elmi Tədqiqat Musiqi Kabinetində işə cəlb etmişdi.

F.Əmirovun bütün dünyada şöhrət qazanmış «Şur», «Kürd ovşarı» simfonik muğamlarının yaradılmasının təşəbbüsçüsü və təşkilatçısı da Bülbül oldu. 1949-cu ildə 27 yaşlı Fikrət Əmirova Stalin mükafatı veriləndə Fikrətdən çox, Bülbül sevinirdi, çünki onun ideyası həyata keçmişdi.

Sonralar Azərbaycan Elmlər Akademiyasının İncəsənət və Memarlıq İnstitutunun yaradılması üçün bir baza olmuş Elmi Tədqiqat Musiqi Kabinetində professor Bülbül çox böyük işlər görmüşdür. Xalq mahnıları və rəqslərinin not yazılarının toplusu nəşr olunmuş, Azərbaycan musiqi terminləri və Azərbaycanın musiqi tarixinə və nəzəriyyəsinə həsr edilən materiallar xüsusi səylə toplanmış, tarın temperasiyası barədə elmi iş yazılmış, tütək dərsliyi və Azərbaycanca-rusca-italyanca musiqi lüğəti tərtib edilmiş və s.

Bülbülün təşəbbüsü ilə opera studiyası, səsyazma kabinetləri, not nəşriyyatı, solo oxumaq üçün xüsusi sinif təşkil olunmuş, parlaq istedadların aşkara çıxarılması üçün birinci musiqi olimpiadası keçirilmiş, aşıqlar qurultayı olmuşdur.

Professor Bülbül (ona bu elmi ad 1940-cı ildə verilmişdir) pedaqogikaya xüsusi diqqət yetirirdi. O, operamızın gələcək inkişafını istedadlı gənc kadrların layiqincə hazırlanmasında görürdü. Bülbülün italyan ifaçılıq məktəbinin üsullarına əsaslanan pedaqoji metodları var idi. Professor sübut edirdi ki, Azərbaycan dilində sait səslərin ideal harmoniyası vardır. Bu səslər Azərbaycan dilinə xüsusi musiqililik verir, nitqin rəvanlığını artırır. Samitlərin harmonikliyinə görə Azərbaycan dili italyan dilindən müəyyən qədər üstündür. Vokal ifaçılığı üçün bu vacib məsələdir, oxumaq bunun üzərində qurulmuşdur. Buna görə də, Azərbaycan dilinin fonetikası məsələsinin işlənib hazırlanmasına, beləliklə də Azər-

baycan vokal məktəbi haqqında elmi əsaslandırılmış əsər yaradılmasına çalışırdı. Öz dərslərində Azərbaycan dilinin fonetik xüsusiyyətlərini əsas götürürdü.

Bülbül bilirdi ki, Azərbaycanın musiqi məkanında milli kadrlar böyük azlıq təşkil edir. Professor ona xas olan gənclik ehtirası ilə orta məktəblərə də baş çəkir, istedadlı gənclər axtarırdı, kiçik səs diapazonu olanları da təhsilə cəlb edirdi ki, musiqi nəzəriyyəsinə yiyələnmiş milli kadrlar sayca artsın.

Bülbül Azərbaycan Respublikasının ictimai həyatında da fəal iştirak edirdi. O, Azərbaycan Respublikası Ali Sovetinin 1937-ci ildən başlayaraq bütün çağırışlarının deputatı olmuşdur. Bülbülün memorial muzeyində onun seçicilərə qayğısını ifadə edən çoxlu sənəd vardır.

Əbədiyyətə qovuşmuş nəğməkar Bülbülün Azərbaycanın musiqili teatr səhnəsində yeri görünür. Onun səviyyəsinə nə vaxtsa, kiminsə çatacağını zaman özü göstərəcəkdir. Çünki, doğrudan da, Bülbül kimi dühalar yüz ildə bir dəfə dünyaya gəlir. Xalqın böyük məhəbbətini qazanmış Bülbülün adı xalqın iradəsi ilə əbədiləşdirilmişdir.

Bülbülün 100 illik yubileyi ərəfəsində Azərbaycan Milli Akademik Opera və Balet teatrının böyük vokalçının şərəfinə adlandırılması da sənətsevərlərin ürəyincə olardı. Çünki milli opera deyəndə Bülbül, Bülbül deyəndə isə milli operamız yada düşür.

*Arif HÜSEYNOV*
*«Xalq qəzeti»,*
*26 oktyabr 1997-ci il*



## PARLAMENT TRİBUNASI – BÜLBÜLÜN SƏSİ

***Bülbül, onun yaradıcılığı Azərbaycan mədəniyyətinin tarixində nadir, parlaq bir hadisədir.***

*Heydər ƏLİYEV*

Bülbül Azərbaycan Respublikasının birinci seçkiləri keçirilən və Ali Sovetin 1938-ci ildə yarandığı gündən ardıcıl olaraq 5 çağırış, yəni 30 ilə yaxın deputatı seçilmişdir. Şamxor (Şəmkir – N.H.) rayonunun Yenikənd seçki dairəsindən namizədliyi göstərilən Bülbül növbəti keçirilən seçkilərdə də etimada layiq görülmüş, 64 il yaşadığı ömrünün yarısını deputat olmuşdur. Bacarıqlı ictimai xadim kimi özünü tanıdan Bülbül Baş Sovetin 18-22 iyul 1938-ci ildə keçirilən birinci sessiyasından incəsənət sahəsinin nümayəndəsi kimi geniş nitq söyləmiş və ilk addımlarını atan parlamentə uğurlar diləmişdir. O, demişdir:

«Deputat yoldaşlar! Təkcə bizim teatrda M.F.Axundov adına Lenin ordenli Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında SSRİ və Azərbaycan SSR Baş Sovetlərinin 4 nəfər deputatı işləyir. Bu fakt onu deyir ki, artistlərə xalq olduqca böyük etimad göstərir və onları sevir. Xalqın bizə olan bu məhəbbəti, bu qayğısı və diqqəti incəsənət işçiləri qarşısında böyük vəzifələr qoyur. Azərbaycan artisti xalq üçün yaşayır və işləyir. Biz artistlər xalqımızın məhəbbətini, etimadını doğrultmalıyıq...».

Bülbül parlamentdəki çıxışında Moskvada keçirilən Azərbaycan İncəsənəti Ongünlüyünü qeyd etmişdir. Bu dekada bir növ incəsənətimizin SSRİ paytaxtında nümayişi ilə yanaşı hesabatı idi. Bu tədbirə bütün respublika, onun par-

tiya, sovet rəhbərləri, mədəniyyət sahəsinin məsul işçiləri və bir sözlə, incəsənətdəki ən istedadlı şəxslər çox məsuliyyətlə hazırlaşırdı. Bu münasibətlə Azərbaycanın «Kommunist» qəzetində Bülbülün məqaləsi verilmişdi.

O dövrdə deputatlığa namizədlərin təbliğat kampaniyası başlayarkən xüsusi avtobioqrafik məlumat Kommunist Partiyasının Mərkəzi Komitəsi tərəfindən hazırlanıb çapa verilir və yayılırdı. Diqqət yetirin, görün Bülbül haqqında plakatda hansı sözlər yazılıb: «Bülbül 1897-ci ilin iyun ayının 22-də Azərbaycanın ən gözəl guşələrindən biri Şuşa şəhərində anadan olmuşdur. 10 yaşı olduğu zaman bir xanəndə kimi yalnız Şuşada deyil, bütün Qarabağda məşhurlaşmış, 15-16 yaşında ikən Qafqazın bütün şəhərlərində çıxış etmişdir. Hər yerdə o, məhəbbət və səmimiyyət hissi ilə qarşılaşmışdır.

Təbiətən böyük istedada malik olan Bülbülün yaradıcılığında yeni və böyük çiçəklənmə dövrü 20 yaşından sonra başlamışdır. O, gənclikdən məlahətli bir səsə malik olub, Qarabağın adlı-sanlı xanəndələrinin yolu ilə getməyə başlamışdır.

Bülbül xanəndəliyi ilə klassik Azərbaycan musiqi aləminə yeni bir səs gəlmişdi. Bu səs hər cür yabançı təsirdən uzaq, Azərbaycan xalqının adət və ənənələrindən, onun nəcib ruhundan doğan bir səs idi. Bu səs xalq və musiqi yaradıcılığını getdikcə inkişaf etdirirdi. Bülbülü musiqi aləmində yüksəklərə qaldıran və xalqa sevdirən əsas cəhətlərdən başlıcası da bu olmuşdur.

1997-ci ilin dekabrında Azərbaycan professional vokal sənətinin banisi, görkəmli müğənni, pedaqoq, musiqişünas-alim və ictimai xadim Bülbülün anadan olmasının 100 illiyinə həsr edilmiş təntənəli yubiley gecəsində Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev demişdir: «...Azərbaycanın gözəl guşələrindən biri olan, canımız qədər istədiyimiz Qarabağ torpağında, müqəddəs Şuşa şəhərində dünyaya gəlmiş Bülbül öz fitri istedadı ilə, fədakarlığı ilə Azər-



baycan mədəniyyətinin parlaq ulduzuna çevrilmiş və bizim milli iftixarımızdır... Bülbül Azərbaycan xalqının həyatında yeni bir bəşəri mədəniyyət nümunəsinin yaranmasının banisi olaraq, eyni zamanda xalqımıza bu sahədə çox uğurlu yollar açmışdır.

...Bülbülün yaradıcılığının zirvəsini «Koroğlu» operasında ifa etdiyi Koroğlu rolu təşkil edir... Bu operanın yaranmasında Ü.Hacıbəyovun nə qədər böyük yaradıcılıq səyləri olmuşdursa, o qədər də Bülbülün varlığı və Bülbülün ifaçılıq sənəti kömək etmişdir.

...Üzeyir Hacıbəyov «Koroğlu» dastanını musiqiyə çevirdi, opera əsərini yaratdı. Bülbül isə Koroğlunu yaratdı... Koroğlu obrazını görən kimi, Bülbülü görən kimi hamı hesab edir ki, Koroğlu bax bu imiş. İndi Koroğlunun hər yerdə şəkilləri var. Bu, Bülbülün şəkilləridir, Koroğlu obrazında, Koroğlu libasında.

...Ü.Hacıbəyov «Koroğlu» operasının müəllifidirsə, Bülbül isə onun musiqisini səsə çevirən və onu mahnıya çevirən müəllifidir.

Bülbül kimi hörmətli və istedadlı insanın həyat yolu indiki və gələcək nəsillər üçün bir örnəkdir. Onun keçdiyi həyat yolunu hamı yaxından bilməli, onun hərtərəfli yaradıcı, elmi, ictimai və siyasi fəaliyyətindən agah olmalıdır. Bir çox sessiyalarda vacib məsələlərin deputatlara çatdırılması və bəzi təkliflərin verilməsi deputat kimi Bülbülə həvalə edilirdi. Bu sessiya protokollarında və stenoqrafik sənədlərdə açıq görünür ki, bunun səbəbi ən əvvəl Bülbülün deputatlar arasında çox böyük nüfuza malik olmasıyla izah edilə bilər. Onun bir çıxışını yada salmaqla bu fikri təsdiqləmək olar.

1939-cu il iyulun 8-də Azərbaycan SSR Baş Sovetinin II sessiyasının iclasında deputat Bülbül Məmmədovun çıxışı 60 il bundan əvvəl edilsə də, bu günün özündə belə onun bir sıra fikirləri çox vacib olub böyük əhəmiyyət kəsb edir. Bülbülün bu çıxışını proqram xarakterli çıxış hesab etmək olar. Burada

ıcəsənət işçilərinin mədəniyyətinə və məsuliyyətinə, kadr azırlığına və kənddə mədəni yaradıcılıq işlərinə, kənd və əhər teatrlarının tənqid edilməsinə, istedadların axtarılması-a, dramaturq, bəstəkar və aktyorların birgə fəaliyyətinə və ir çox məqamlara toxunulmuşdur. Ona görə də həmin çıxı-ın tam mətni oxucu üçün daha maraqlı olardı. Parlament ürsüsündən deputat Bülbül demişdir:

«Deputat yoldaşlar! Baxmaq üçün bizə təqdim edilmiş lan dövlət büdcəsi çiçəklənən Azərbaycanın təsərrüfat, siy-si və mədəni cəhətdən xalqımızın tarixində misli görün-nəmiş dərəcədə artmasını güzgüdə olduğu kimi əks etdirir. 939-cu il büdcəsi ilə maarif, mədəniyyət və incəsənət üçün 50 milyon manatdan artıq pul buraxılması iftixarımıza və ıədsiz şadlığımıza səbəb olur».

Böyük Vətən Müharibəsinin ilk aylarında Azərbaycan ncəsənət işçilərinin bir dəstəsi Cənubi Azərbaycana getmiş ə Təbrizdə böyük müvəffəqiyyətlə çıxış etmişlər. İran səfə-indən qayıdandan sonra Mirzə Fətəli Axundov adına Opera ə Balet Teatrı işçilərinin Bakı ziyalıları ilə görüşü olmuşdur.

Bülbülün 1942-ci il 26 dekabrda o görüşdəki çıxışındakı əzi məqamlar çox maraqlıdır:

«...Biz Təbrizə daxil olarkən bütün camaat vağzal qa-ağına toplaşmışdı. Təbrizlilər bizim gəlişimizə sevinir, bu-ada Azərbaycan dilində hansı tamaşalar verəcəyimizlə, qa-lın rolunda kişilərin oynayacağı ilə maraqlanırdılar. Təbriz əhalisi arasında belə sözlər eşitmək olardı: «Can, dilinə qur-ban... Can azərbaycanlı qardaşlarımız...». Axırıncı görüş zamanı Mirzə İbrahimovun «Faşistlər mədəniyyətin qəddar düşmənidir» mövzusunda məruzəsindən sonra böyük konsert lə oldu. Həmin gecə böyük tarixi gecə idi. Süleyman Rüstəm lə ürək çırpıntısı ilə burada öz şeirini oxudu. Salondakılar yenə də «can, can» deyə səsləyirdilər. Şövkət Ələkbərovanı ia böyük alqışlarla qarşıladılar. O gecə biz – Azərbaycan ncəsənət işçiləri təbrizli qardaşlarımızın hər bir cəhətdən



irəliləməsinə kömək edəcəyimizə söz verdik. Bu, biz vicdan borcumuzdur. Gəlin təbrizli qardaşlarımızın məı niyyətinin yüksəlməsində fəal iştirak edək...».

XX əsrin axırıncı onilliklərində Azərbaycanda vətəı layiqli, şöhrətli övladlarının xidmətlərini və işini yüks qiymətləndirmək məqsədi ilə xeyli işlər görülmüşdür. Mə böyük şəxsiyyətlərin, ədəbiyyat və incəsənət xadimləri yaradıcılıq irsini geniş təbliğ etmək məqsədi ilə Azərbay nın şəhərlərində, rayon mərkəzlərində və Bakı şəhərin yeni muzeylər yaradılmasına başlanmışdır.

Hörmətli Heydər Əliyevin birbaşa təşəbbüsü ilə tək 1976-cı ildə Azərbaycanın görkəmli şəxsiyyətlərinə – Mə mməd Səid Ordubadi, Cəfər Cabbarlı, Cəlil Məmmədquluza və Bülbülə xatirə muzeyləri yaradılmışdır.

1982-ci ilin iyun ayında Bakıda Bülbülün memorial m zeyinin təntənəli açılışı olmuşdur. Muzeyin açılışında iştir edən Heydər Əliyev cənabları muzeyin ekspozisiyasına ba dıqdan sonra demişdir: «Bülbülün xatirə muzeyinin açıl mədəni həyatımızda böyük hadisədir. Şübhə yoxdur ki, m zey Azərbaycan musiqi sənətinin, bütün çoxmillətli sov musiqi sənətinin görkəmli nümayəndəsi Bülbülün yaradı lığını layiqincə təbliğ edən mərkəzə çevriləcəkdir. Bülb özünün bütün parlaq ilhamlı yaradıcılığı ilə gözəl həyatı, z ngin bədii irsi ilə ümumxalq məhəbbəti və hörmətini qaza mışdır. Ona böyük ehtiram bəslənir. Onun parlaq istedad gözəl obrazı Azərbaycan xalqının bütün insanlarının qəlbin əbədi yaşayacaqdır».

Hazırda Bülbülün yaradıcılığını təbliğ edən mərkəzd yəni Bakı muzeyində müşavirələrin, müzakirələrin, Bülbül çıxışlarının stenoqramları, deputat nişanları, elmi əsərləı parlament qeydləri, seçici məktubları və digər zəngin mater allar nümayiş etdirilir. Muzeydə Bülbülün yaradıcı, elmi təı qiqat, pedaqoji, ictimai fəaliyyətini əks etdirən 9 minə yax sənəd toplanmış və geniş ictimaiyyətin müzakirəsinə veri

mişdir. Müğənni və artist, pedaqoq və musiqişünas, alim olan Bülbülün ev muzeyi 1983-cü ildə vətəni olan Şuşa şəhərində də açılmışdır. Əfsuslar olsun ki, hazırda muzey erməni işğalçılarının əlindədir və onun müqəddəratı bizlərə məlum deyil. Musiqi təhsilini 1907-ci ildə Şuşa mollaxanasında başlayan və 1931-ci ildə İtaliyanın Milan şəhərində tamamlayan dövrlərdəki ekspozisiyalar Bülbülün vətəni Şuşa şəhərindəki muzeydə xeyli ətraflı nümayiş etdirilmişdi.

...Bülbülün deputatlıq tərcümeyi-halı saxlanan arxiv sənədləri ilə tanış olarkən belə bir cümləyə rast gəldim: «...Müharibə günlərində o, dəfələrlə cəbhələrə getmiş, ordu hissələri qarşısında, hərbi xəstəxanalarda əsgərlərə xidmət etmiş, alovlu mahnıları ilə əsgərlərimizi düşmən üzərində qələbə qazanmaq üçün ruhlandırmışdır...».

Ali Sovetə seçkilər zamanı deputatlıq sənədlərində onun haqqında belə yazı da vardır: «...Bülbül müharibə illərində müharibənin ən qaynar nöqtələrinə getmiş, müharibənin qızğın günlərində qəhrəman döyüşçülərimizin qarşısında dəfələrlə çıxış etmişdir. O, böyük vətənpərvərlik hərəkəti nümayiş etdirərək müharibədə döyüşən əsgərlərə maddi yardım göstərmiş, öz şəxsi vəsaiti hesabına xeyli miqdarda bağlamalar yola salmış və iki dəfə Stalindən təşəkkür teleqramı almışdır...».

Parlament üzvü Bülbül müharibə illərində öz siyasi və vətənpərvərlik borcunu yaxşı başa düşmüş və onun öhdəsindən məsuliyyətlə gələ bilmişdir. Müharibə dövrünün informasiya vasitələrinin materiallarında Bülbülün müharibəyə və əsgərlərin yanına getməsi barədə xeyli böyük materiallar vardır. 1941-1943-cü illərdə, yəni müharibənin ən ağır illərində hər il bir neçə dəfə Bülbül qastrollarda, hərbi hissələrdə, cəbhələrdə yüzlərlə konsertlər vermiş, döyüşçü və komandirləri ruhlandırmışdır. Alman işğalçılarının Bakıya can atdığı vaxtda Bülbül bədii konsert briqadasına başçılıq etmiş, briqada üzvləri Səid Rüstəmov, Qurban Pirimov, Ələsgər



Ələkbərov, Zülfü Adıgözəlov, Leyla Bədirbəyli, Sara Qədimova, Əlibaba Abdullayev və digərləri ilə Zaqafqaziya Cəbhəsinə, 416-cı diviziyaya səfərlər etmişlər. Ordu hissələri, Hərbi Dəniz Donanması və Xalq Daxili İşlər Komissarlığı qoşunları üzərində mədəni hamilik fəaliyyətinə görə aldığı çoxlu fərman və təşəkkürnamələr Bülbülün xatirə muzeyində saxlanılır.

1943-cü ildə Moskvanın bir çox qəzetləri yazırdı:

«...Moskvaya Bakıdan incəsənət ustalarından ibarət briqada gəlmişdir. SSRİ Xalq artisti Bülbül, aşıq Mirzə Bayramov və başqaları onların arasındadır... Artistlər Moskvadan döyüşən orduya, döyüşçü və komandirlərə bədii xidmət göstərmək üçün Bryansk cəbhəsinə yola düşəcəklər...».

...Arxiv sənədləri ilə tanışlıqdan görünür ki, Bülbül üçün qurultay və yaxud parlament tribunası, opera və yaxud konsert səhnəsi, seminar və yaxud konfrans zalı – hara olursa-olsun fərq etməzmiş. O öz bacarığı və istedadı ilə hamını valeh edə bilmişdir. Maraqlıdır ki, incəsənət sahəsindən olan deputatların sessiyalardakı çıxışlarını araşdırarkən ən çox tribunada görünən Bülbül olduğunu hiss etdim. belə qərar qəbul etdim ki, parlamentdəki natiqlərin çıxışları ilə tanış olum. Bülbülün parlament tribunasında belə tez-tez görünməsinin səbəbləri mənə bəlli oldu.

Bülbülün təşkilatçılığı, bacarığı və qabiliyyəti ilə yanaşı, Süleyman Rəhimovun bir yazısına rast gələndən sonra mənim üçün məsələnin başqa tərəfi də daha aydın göründü.

O, yazır: «Həmişə olduğu kimi Bülbülün xalq qarşısında çıxışı böyük müvəffəqiyyətlə keçirdi və o, elə aydın danışırdı ki, ondan sonra, düzünü desək, biz yazıçılara çıxış etmək çətin olurdu. Saraylardan birində mən açıqca dedim: Yoldaşlar! Bülbüldən sonra mən sizi nə ilə təəccübləndirə bilərəm? ...Bülbülə qulaq asanda elə bilirsən ki, sözlər musiqiyə çevrilir, musiqi isə insan nitqi kimi səslənir...».

Dahi şəxslərin Bülbül haqqında dediklərini yazmalı ol-

saq bu bir kitaba yerləşməz. Ali Baş Komandanın göndərdiyi teleqramı qeyd etməyi lazım bilirəm: «Yoldaş Bülbül, Qızıl Ordunun zirehli tank qüvvələrinə qayğınıza görə salamımı və qızıl ordunun təşəkkürünü qəbul edin. İ.Stalin».

Bakının ən gözəl küçələrindən biri olan Bülbül prospekti ilə addımlayarkən müğənni Bülbüldən çox, vətənpərvər Bülbül mənim xatirimdə canlanır. Kaş Bülbülün adını daşıyan məktəbdə vətənpərvərlik, qəhrəmanlıq və mərdlikdən tədris planını Bülbül özü tərtib edəydi. Alovlu mahnılar, cəngavərlik marşları, Koroğlu nərəsi gənclərimizi ruhlandırmasa, qəhrəmanlığa çağıran zəngulələr olmasa, torpaqlar düşmən tapdağından təmizlənməz. Zəmanəmiz Koroğlular istəyir, Koroğlu yetişdirənlər ehtiyacındadır, Məcnun da, Kərəm də daim bizimlədir.

Xalq ona yüksək etimad göstərmişdi: Bülbül bütün çağırışlarda Azərbaycan SSR Ali Sovetinin deputatı olmuşdur. O, xalq elçisi kimi yüksək bir adı həmişə şərəflə doğrultmuşdur.

Bülbül bütün həyatı boyu xalqa, Vətənə ilhamla xidmət etmək nümunəsi göstərmişdir. Musiqi yaradıcılığının görkəmli ustası, geniş qəlbli insan, öz Vətəninin ləyaqətli oğlu Bülbülün parlaq obrazı xalqın qəlbində daim yaşayacaqdır.

***Maksim MUSAYEV***



### *BÜLBÜLÜN ELMİ FƏALİYYƏTİ*

Azərbaycan professional vokal sənətinin banisi, SSR xalq artisti, Stalin mükafatı laureatı, professor Bülbülün Memorial muzeyində 20 ildən artıqdır ki, elmi işçi vəzifəsində çalışıram. Bu illər ərzində muzeyin fondunda saxlanılan 9000-dən artıq sənəd və materiallarla tanış olmuşam. Bir daha bu qənaətə gəlmişəm ki, professor Bülbülün Azərbaycan musiqi incəsənətinin ayrı-ayrı sahələrinə aid geniş şaxəli yaradıcılığı hələ də bütünlüklə öyrənilib üzə çıxarılmamışdır.

Bülbülün fəaliyyətindən danışmaq – dahi bir sənətkarın fəaliyyətindən danışmaq deməkdir.

Professor Bülbülün yaradıcı, pedaqoji, ictimai fəaliyyətindən çox yazılıb. Mən oxucuların diqqətini professorun elmi tədqiqat sahəsindəki fəaliyyətinə yönəltmək istəyirəm.

Hamımız bilirik ki, dünyada yaxşı müğənnilər az deyildir. İtaliyada oxumaq, yaxşı müğənni olmaq, öz vətəninə qayıdıb ilk opera ifaçısı olmaq və öz sənətində, vokal ustalığında nəyə nail olduğunu göstərmək mümkündür. Amma…

… Amma Bülbül sadəcə mahir müğənni deyil!

Bülbül, hər şeydən əvvəl, kəşfedəndir. O, Azərbaycanda heç kimin getmədiyi cığırla tək getməyə başlamışdı. O Azərbaycan incəsənətinin yüksəlişi naminə çətinlikləri aradan qaldıraraq irəli getmiş və sənətdə cəsarətlə yeni yol açmışdır. Azərbaycan vokal sənətində Bülbül inqilab etmişdir.

1931-ci ildə Bülbülün İtaliyadan qayıtması, onun Konservatoriyadakı ilk məruzəsi ilə Azərbaycan musiqi sənətinin inkişafında yeni mərhələ başlamışdır. Yeni tipli musiqili dramaturgiya yaradılması və bundan ötrü lazımlı kadrların hazırlanması kimi mürəkkəb iş başlandı. Bu, Azərbaycan Konservatoriyası tarixində həmin qəbildən ilk məruzə idi

Ü.Hacıbəyov Bülbülün məruzəsini dönüş nöqtəsi adlandırmışdı: «Bülbülün məruzəsi ona görə olduqca qiymətlidir ki, məsələn, şəxsən mən Konservatoriyada bizim tələbələrimizi, ümumiyyətlə, necə tərbiyə etməyimiz barədə müəyyən təsəvvür aldım».

Respublikanın digər musiqi xadimləri, professorlar N.İ.Speranski, İ.S.Aysberq, A.M.Kolotova, Y.Qrossman və başqaları Bülbülün məruzəsini yüksək qiymətləndirmişdilər.

1931-ci ilin dekabrında Xalq Maarif Komissarlığındakı müşavirədə Bülbül yeni opera, romans və mahnıların yaradılması barədə çıxış etmişdir. Həmin çıxışında Bülbül demişdi: «Azərbaycanda yeni tipli operaların yaradılmasını zaman özü inadla tələb edir. Lazımdır ki, Ü.Hacıbəyov və M.Maqomayev müasir Azərbaycan klassik operalarının yazılmasını öhdələrinə götürsünlər. Onların «Leyli və Məcnun» və «Şah İsmayıl» muğam operaları Azərbaycan milli opera sənətinin ilk addımlarıdır. Muğamatın misalında xalq yaradıcılığı bəstəkarlara musiqi tikməsi vermişdir, həmin operaların təksəsli musiqisi məhz muğamların növbə ilə sıralanmasıdır. Operanın üslubu muğam-improvizasiya üslubudur. Hər bir ifaçının partiyasında muğamlar adi solo opera formalarını (ariya, ariozo, monoloq, reçitativ) əvəz etməlidir. Yeni Azərbaycan operaları hamılıqla qəbul olunmuş rus və Avropa formalarında yazılmalıdır. Bəstəkarlarımız Avropa klassik opera formalarını mənimsəməlidirlər ki, təksəsli oxuma əvəzinə Avropa çoxsəsliliyindən (polifoniyasından) istifadə edə bilsinlər. Hər bir artistinsə improvizasiya əvəzinə nota yazılmış partiyası olsun. Xalq melodiyalarından, muğamlardan yeni operalarda da istifadə etmək olar, bir şərtlə ki, onlar klassik Avropa operaları ruhunda yazılsınlar. Özü də sadəcə iqtibas etmək yox, folklor materialı əsasında öz orijinal motivləri bəstələnməlidir».

Azərbaycan musiqi sənətinin inkişafı sahəsində Bülbülün çoxtərəfli və çoxcəhətli fəaliyyəti başlandı. Yaradıcı və pedaqoji fəaliyyəti ilə yanaşı Bülbül, həm də Elmi Tədqiqat



Musiqi Kabinetinin yaradılmasının təşəbbüsçüsü və təşkilatçısı olmuşdur.

Bülbül Respublika Maarif Komissarlığına yazırdı: «...Azərbaycan musiqi mədəniyyətinin bizə lazım olan istiqamətdə inkişafı məsələsi, bütövlükdə mahnı yaradıcılığı məhsuluna əsaslanır ki, bunun da öyrənilməsi və tənqidi təhlili musiqi problemlərinin elmi cəhətdən əsaslı şəkildə işlənib hazırlanması yolunda ilk addım sayılır. Elmi Tədqiqat Musiqi Kabineti Azərbaycanın bütün musiqi-elmi və musiqi-yaradıcı qüvvələrini cəmləşdirəcək bir mərkəz olmalıdır».

ETMK-nin yaradılması haqqında respublika Maarif Komissarlığına yazdığı məlumat məktubundan sonra Bülbül Elmi Tədqiqat Musiqi Kabinetinə aid smeta hazırladı, ətraflı iş planı, həmçinin ilk elmi ekspedisiyanın marşrutunu müəyyən etdi. Bütün bunlar Maarif Komissarlığı tərəfindən bəyənildi və təsdiq edildi, lazımi vəsait ayrıldı və ETMK öz fəaliyyətinə başladı.

Azərbaycan SSR XMK-nın elmi şöbəsi nəzdində 21 avqust 1932-ci il tarixli müşavirənin protokolu:

İştirak edirdilər: Əli Kərimov, Bülbül, M.Ekmənçi, Əli Nəzmi, Panteleyev, A.Zeynallı, Bulatov, M.Rəfili, Ə.Bədəlbəyli, Səttarov.

Sədr – A.Bukşman

Katib – R.Gülməmmədova

EŞİDİLDİ: 1. Respublika Elmi Tədqiqat Musiqi Kabinetinin vəziyyəti.

2. Azərbaycanda xalq musiqisi nümunələrinin toplanması və öyrənilməsi ekspedisiyasının planı.

QƏRARA ALINDI: Ekspedisiyanın planı və tərkibi təsdiq edilsin. Bülbül – rəhbər, M.Ekmənçi, A.Zeynallı.

O illərin maraqlı bir sənədini də Sizin diqqətinizə çatdırmaq istəyirəm.

XASİYYƏTNAMƏ

M.F.Axundov adına Azərbaycan Dövlət Operasının artisti Bülbül incəsənət cəbhəsində ən yaxşı ictimai işçilərdən biridir. Opera Teatrında opera artisti kimi iştirakından əlavə yol. Bülbül Azərbaycan SSR XMK-nın elmi tədqiqat musiqi kabinetinə rəhbərlik edir. Yol.Bülbül yeni türk operalarının yaranması və Azərbaycanın yerli millətlərindən olan kadrların hazırlanması uğrunda fəal mübarizə aparır.

Maarif komissarı M.Cuvarlinski

XMK Kollegiyasının katibi

Z.Səfərov

Bülbül ölkənin görkəmli musiqişünasları ilə – Kvitko, Belyayev, Xubov, Pasxalov, Vinoqradovla əlaqə saxlayır, yazışır, Elmi Tədqiqat Musiqi Kabinetinin işinə məsləhət vermək üçün onları Bakıya dəvət edirdi.

Sonra Bülbül Leninqrada – Elmlər Akademiyasının folklor bölməsinə gedir, orada iki «Edisson» fonoqrafı və onlar üçün vallar əldə edir. Demək lazımdır ki, kabinet yaradılması Bülbülün çoxdankı arzusu idi. Hələ 1926-cı ildə o, Moskvaya getmiş, paytaxtda təzəcə yaradılmış Musiqi Elmləri İnstitutu ilə ciddi maraqlanmışdı. Həmin İnstitutda Bülbül məruzədən sonra konsert ilə çıxış etmişdi. Konsert zamanı zal ağzına qədər dolu idi. Buraya toplaşan musiqişünaslar üçün hər şey təzə və orijinal idi. Bülbülün çıxışı hamını heyran etmişdi. Daha sonralar Azərbaycan musiqisinin mühazirə və konsertləri Musiqi Elmləri İnstitutunun etnoqrafiya bölməsində də təşkil olunmuşdu.

«Muzıka i Oktyabr» jurnalı 1926-cı ildə Bülbülün idarəsi ilə ilk Azərbaycan vokal instrumental ansamblının çıxışı barədə L.Koltatın məqaləsini dərc etmişdi. Bülbül SSRİ Dövlət Musiqi Elmləri İnstitutunda fonoyazılarla, tədqiqat işləri ilə tanış olmuş və Azərbaycanda elmi musiqi kabineti yaratmağı



qəti qərara almışdı. Bu kabinet Azərbaycan musiqi folklorunun ən yaxşı nümunələrini toplamaq, öyrənmək və çap etməklə məşğul olmalı və öz kökləri ilə uzaq keçmişə gedib çıxan xalq mahnılarını bütün rəngarəngliyi ilə üzə çıxarmalı, Azərbaycanın hər yerinə səxavətlə səpələnmiş bu xəzinəni geniş ictimaiyyətin sərvəti etməli idi. Bu fikirlə Bülbül Bakıya qayıtdı. Özü də Musiqi Elmləri İnstitutunun yüksək rəy və təşəkkürü ilə: «Dövlət Musiqi Elmləri İnstitutunun etnoqrafiya bölməsi öz açıq iclasında Azərbaycan Akademik Teatrının artisti yoldaş Bülbülün idarəsi ilə vokal-instrumental ansamblının ifalarını dinləyərək belə bir qənaətə gəldi ki, Azərbaycan milli musiqisinin təqdim olunmuş nümunələri bədii və elmi baxımdan fövqəladə dərəcədə qiymətlidir. Şərq koloraturasına mükəmməl yiyələnmiş və yüksək registre, midə Azərbaycan falset oxumalarının səciyyəvi nümunələrini göstərən Azərbaycan Akademik Opera və Balet Teatrının artisti yoldaş Bülbül öz vokal sənəti ilə adamı heyran qoyur. O, bir sıra Azərbaycan xalq mahnılarını 7 nəfərdən ibarət heyəti olan, adını çəkdiyimiz ansamblın müşayiəti ilə, təkrarsız təsir gücü ilə ifa etmişdir. Etnoqrafiya şöbəsi Azərbaycan musiqi ansamblının yaradılmasına xalqların inqilabdan sonra bədii muxtariyyətə can atmağının nəticəsi kimi, öz incəsənətinin ehtiraslı təbliği üçün ayrılıqda hər bir xalqın ürəyindəki arzunun nümunəsi kimi baxır. Bölmənin fikrincə, xalqların bu şəkildə bədii ziyarəti sosial və mədəni baxımdan əhəmiyyətli hal kimi müttəfiq hökumətlər və elmi təşkilatlar tərəfindən hər cür həvəsləndirmələrə layiqdir. Dövlət Musiqi Elmləri İnstitutunun etnoqrafiya bölməsi bu bölmənin vəzifələrinə ideya münasibəti üçün və bölmənin açıq iclasının konsertlərində təmənnasız iştirakına görə Bülbülə dərin minnətdarlığını yetirməyi özünə borc bilir... Sədr V.Pasxalov».

1931-ci ildə İtaliyadan qayıtdıqdan sonra Bülbül öz arzusunu həyata keçirir.

1932-ci ildə Bülbül İncəsənət İşləri İdarəsinin nəzdində Zaqafqaziyada ilk Musiqi elmi tədqiqat kabineti yaratdı. Bülbül opera studiyasının, səsyazma kabinetinin, not nəşriyyatının, parlaq istedadlar aşkara çıxarmaq üçün Azərbaycanda ilk musiqi olimpiadasının keçirilməsinin, SSRİ-nin ən yaxşı musiqişünaslarının müşavirəsinin çağırılmasının təşəbbüsçüsü və bilavasitə iştirakçısı olmuşdur.

Muzeyin fondunda saxlanılan, professor Bülbülün Azərbaycan Xalq Maarif Komissarı yoldaş Cuvarlinskiyə göndərdiyi iki məlumat məktubu ilə oxucuları tanış edirəm:

Az.SSR Xalq Maarif Komissarlığı
Yoldaş CUVARLİNSKİYƏ

BÜLBÜLDƏN

Məlumat məktubu

Azərbaycanda not nəşriyyatının təşkili haqda.

...Az.SSR-in musiqi mədəni həyatının yüksəlişi, elmi-tədqiqat və pedaqoji, bədii repertuar kimi bir sıra nəşrlərə zəruri tələbatın yaranması ilə əlaqədar olaraq, həmçinin ikinci beşillikdə incəsənət üzrə öhdəmizə düşən planın reallaşması üçün nəhəng vəzifələrin yerinə yetirilməsi naminə bizdə – Azərb.SSR-də xüsusi nəşriyyatın təşkilini zəruri və məqsədəuyğun hesab edərdim...».

Məlumat məktubu

Azərbaycanda opera studiyasının təşkili haqda.

Türk və rus operası üçün kadrların: rejissor, xor artisti, orkestrdə çalanların, dirijor, suflyor, konsertmeysterlərin hazırlanması, həmçinin rus və türk operası üçün kütləvi ixtisasların təkmilləşdirilməsi məqsədilə ADK nəzdində Opera studiyası təşkil edilir...

Bülbül – 1933-cü il»



Bülbül Elmi Tədqiqat Musiqi Kabinetinə işləməyə dəvət etdiyi ilk Azərbaycan romanslarının müəllifi, bəstəkar A.Zeynallı ilə bərabər Qarabağa və Kürdüstana elmi ekspedisiyalara gedir. Onların topladığı zəngin material kabinetin fəaliyyətinin əsasını təşkil etdi.

Avropa vokal mədəniyyətinə yiyələnməsi Bülbülün Azərbaycan musiqi folklorunun tədqiqinə olan marağını nəinki azaltdı, əksinə daha da artırdı.

Elmi Tədqiqat Musiqi Kabineti və Azərbaycan musiqi-mahnı folkloru nümunələrinin toplanması, yazılması, öyrənilməsi və nəşri sahəsində Bülbülün gördüyü iş Azərbaycan bəstəkarlarının yaradıcılığının inkişafında əhəmiyyətli və səmərəli rol oynadı. Hərgah Azərbaycan bəstəkarlarının adlarını sadalasaq, onların arasında bir nəfərini də tapmaq çətindir ki, Bülbül ona kömək etməmiş olsun. Onlardan bəzilərini xalq yaradıcılığını öyrənməyə, digərlərini konkret bir əsəri yaratmağa ruhlandırır, faydalı məsləhətlər verirdi, bir başqaları da onun topladığı, tərtib etdiyi məcmuələrdə çap olunmuş mahnılardan istifadə edirdilər. Məcmuələrin nəşri respublikanın mədəni həyatında qeyri-adi əhəmiyyətə malik hadisə olurdu. Bu məcmuələrdə Azərbaycan musiqisinin heyrətamiz xəzinəsinin, xalq dühasının əsl inciləri, müxtəlif dövrlərdə Azərbaycanın müxtəlif guşələrində yaranmış mahnılar toplanmışdı. Müxtəlif janrlarda yaranmış saysız-hesabsız əsərlər bu və ya digər dərəcədə, birbaşa və ya bilavasitə bu məcmuələrdən «çıxmışdır». Həmin məcmuələr qardaş respublika bəstəkarlarının yaradıcılığına da çox böyük təsir göstərmişdir.

Bülbül Ü.Hacıbəyovu, S.Rüstəmovu, Q.Qarayevi, C.Hacıyevi, T.Quliyevi, F.Əmirovu, Niyazini, Z.Bağırovu, S.İsmayılovu Elmi Tədqiqat Musiqi Kabinetində əməkdaşlığa dəvət etmişdir.

Musiqi folklorunun toplanması və yazılması məqsədilə Elmi Tədqiqat Musiqi Kabineti Azərbaycanın Şəki-Zaqatala,

Quba-Xaçmaz, Gəncə-Şamxor, Lənkəran-Masallı, Şuşa-Xankəndi zonalarına, Basarkeçər və Borçalı rayonlarına elmi ekspedisiya təşkil etmişdi. Bu zaman musiqi, mahnı və rəqs yaradıcılığının nota köçürülməsindən əlavə, xeyli miqdarda fonoyazılar hazırlanmış, qocaman və görkəmli musiqiçilərin ifasında muğamlar yazılmışdır. Xanəndə Cabbar Qaryağdıoğlu və tarzən Qurban Pirimov canlı folklor «ensiklopediyası» idilər. Musiqi Kabinetinin tapşırığı ilə bəstəkar Ü.Hacıbəyov «Azərbaycan xalq musiqisinin əsasları» əsərini yazmağa başlamış, kabinetin topladığı hədsiz-hesabsız materialları araşdırmışdır. Ü.Hacıbəyov Bülbülə bağışladığı həmin kitabın titul vərəqində belə bir avtoqraf var: «Bu əsərin yaradılmasının təşəbbüskarına və əvəzsiz Koroğluya – SSRİ xalq artisti Bülbülə!».

Azərbaycan professional vokal sənətinin banisi Bülbül haqda – dünya şöhrətli bəstəkar, Sosialist Əməyi Qəhrəmanı, akademik Q.Qarayev yazırdı: «Maestro Bülbülə Azərbaycan bəstəkarları borcludurlar. O, yaradıcılığımızın ehtiraslı təbliğatçısı, musiqimizin carçısı, onun müvəffəqiyyəti və tanınması uğrunda mübariz idi. O, nəinki müdrik məsləhətçi-müəllim, həm də sadə, kütləvi mahnıdan iri, indi şöhrət qazanmış simfonik əsərlərə və operalaradək ən müxtəlif janrlarda bir çox əsərlərin yaradılmasının təşəbbüsçüsü olmuşdur. Onun tələbkarlığı, işimizə yüksək qiymət verməsi, ən xırda nöqsanları dərhal həssaslıqla duyması və bunlara qarşı barışmazlığı yaradıcılıq işində bizim üçün meyar idi. Elmi Tədqiqat Musiqi Kabinetinə professor Bülbül məni xalq musiqisi üzərində işləməyə cəlb etdi. Mən aşıq yaradıcılığındakı nümunələri, xalq mahnı və rəqslərini yazır, xalq mahnılarını yenidən işləyirdim. Beləliklə, mən xalq musiqisi ilə yaxından təmasda olduqca xalq yaradıcılığının zənginliyindən heyrətə gəldim. Mən elmi ekspedisiya ilə Nuxada (indiki Şəki – red.) oldum. Bu səfər gözəl bəhrə verdi: eşitdiyim bir xalq havasından «Könül nəğməsi» adlı ilk simfonik əsərim dünyaya gəldi».



Azərbaycan SSR xalq artisti, bəstəkar Cövdət Hacıyev də Bülbülün elmi fəaliyyəti haqqında dərin minnətdarlıq hissi ilə danışır: «Əgər Bülbül olmasaydı, çətin ki, biz xalq yaradıcılığını belə mükəmməl, belə dərindən öyrənə biləydik. Folkloru bütün incəliklərinədək bilən musiqişünas musiqi folklorunun öyrənilməsi məsələlərinə dair məqalələri və şifahi çıxışlarının böyük elmi əhəmiyyəti olan Bülbül bizə – həyata yenicə qədəm qoymuş gənc musiqiçilərə xalq musiqisinə xüsusi məhəbbət aşılayırdı, onun sayəsində biz musiqi folklorunu xüsusi bir qüvvətlə, həssaslıqla duyurduq.

O, bizi Elmi Tədqiqat Musiqi Kabinetində işləməyə cəlb edir, Azərbaycanın müxtəlif uzaq rayonlarına elmi ekspedisiyalara göndərirdi. Bizim qarşımızda valehedici zənginliklər aşkara çıxırdı. Bunlar qeyri-adi qüvvəyə malik, zövqlərimizi, yaradıcılıq yollarımızı həmişəlik müəyyən edən təəssüratlar idi. Bizim yaradıcılığımız üçün, bir bəstəkar kimi yetişməyimiz üçün bu fəaliyyətin əhəmiyyəti olduqca böyükdür. Bülbül xalq poeziya dünyasını, təkrarolunmaz gözəllik aləmini bizim üçün kəşf etdi».

Saratov konservatoriyası vokal kafedrasının müəllimi, elmi tədqiqat musiqi kabinetinin keçmiş elmi katibi Y.Milovanova yazırdı: «Elmi tədqiqat musiqi kabinetində professor Bülbül çox böyük işlər görmüşdür. Bir sıra görkəmli xanəndə və musiqiçilərin səsi yazılmış, xalq mahnı və rəqslər toplusu nəşr edilmiş, Azərbaycan musiqi terminləri və Azərbaycan musiqisinin tarixindən və nəzəriyyəsindən bəhs edən materiallar xüsusi səylə toplanmış, xalq mahnıları çap edilərək Y.Fidler tərəfindən rus dilinə tərcümə edilmişdir. Tarın temperasiyası barədə elmi iş yazılmış, tütək dərsliyi və Azərbaycanca-rusca-italyanca musiqi lüğəti tərtib edilmiş, S.Rüstəmovun «Tar məktəbi», D.Həsənovanın «Kamança məktəbi» dərslikləri çapdan çıxmış, Bülbülün təşəbbüsü və redaktəsi ilə tərtib olunmuş «XVIII-XX əsrlər Azərbaycan xalq vokal musiqisi yaradıcılığının icmalı» əsəri nəşrə hazırlanmışdır. Maestro Bülbül mahnı oxumada Azərbaycan dilinin

fonetik xüsusiyyətlərinin öyrənilməsinə ayrıca diqqət yetirirdi. O, «Azərbaycan dilinin fonetikası» əsərinin yazılmasını sifariş etdi. Əsərin müəllifləri Dəmirçizadə və Gerşqornu məsləhət üçün Leninqrada, akademik Meşşaninovun və professor Şerbanın yanına göndərdi. Bu əsərin çapdan çıxması Bülbülü çox sevindirdi. Professor Bülbül bu əsərin yaranmasını ona görə vacib sayırdı ki, «...çünki dilçilik mədəniyyətimizin bütün sahələrində bizə kömək edəcək. O cümlədən fonetika Maarif Komissarlığı məktəblərinin tədris proqramına da daxil edilməlidir. O teatr məktəbinin proqramında, həmçinin dram artistləri arasında da tətbiq edildikdə xüsusi rol oynayacaq...».

Professor yorulmadan çalışır, öz fikirlərini həyata keçirməyi bacarırdı. O, özünə xas olan aydınlıqla diktə edir və bu zaman nə fikrinə başlamaqda, nə də ümumiləşdirməkdə çətinlik çəkirdi. Saatlarla diktə edirdi, rəvan gözəl nitqi vardı, təki yazıb çatdırmağı bacarasan. Professor Bülbüllə işləmək son dərəcə xoş idi. Daha sonralar Y.Milovanova yazırdı: «Mən Bülbülün elmi tədqiqat musiqi kabinetində gördüyü işlərin cüzi bir hissəsini demişəm. Bircə o kifayətdir ki, yaradıcısı Bülbül olan Elmi Tədqiqat Musiqi Kabinetinin bazası əsasında Elmlər Akademiyası nəzdində Azərbaycan İncəsənət və Memarlıq İnstitutu yaradılmışdır».

Bunu təsdiq edən sənədlər Bülbülün Memorial muzeyinin fondunda saxlanılır. Həmin arayışı olduğu kimi Sizə çatdırmaq istəyirəm:

### ARAYIŞ

Azərbaycan SSR Elmlər Akademiyası Memarlıq və İncəsənət İnstitutundakı arxiv məlumatlarına əsasən, SSRİ Xalq artisti, SSRİ Dövlət mükafatı laureatı, professor Bülbülün təşəbbüsü ilə 1931-32-ci illərdə Azərbaycan SSR İncəsənət İşləri İdarəsi nəzdində Elmi Tədqiqat Musiqi Kabineti təşkil edilmişdi, onun da vəzifəsinə Azərbaycan musiqi yaradıcılığı, həmçinin peşəkar musiqiçilərin yaradıcılığını toplamaq, öyrənmək və nəşr etmək daxildir.

1944-cü ildə Azərb. SSR Xalq Komissarları Şurasının qərarı ilə Elmi Tədqiqat Musiqi Kabineti SSRİ Elmlər Akademiyasının Azərbaycan filialı sisteminə keçirilmiş və onun bazasında incəsənət sektoru yaradılmışdı.

1945-ci ildə Respublika Elmlər Akademiyasının təşkili ilə əlaqədar olaraq sektor Azərbaycan İncəsənəti İnstitutuna çevrilmişdi.

Elmi Tədqiqat Musiqi Kabinetinə rəhbərliyi illərində professor Bülbül tərəfindən Azərbaycan xalq musiqisi, xalq mahnı nümunələrini toplamaq, yazdırmaq, öyrənmək və nəşr etdirmək sahəsində nəhəng işlər görülmüşdür. Azərbaycan musiqisinin tarixini və nəzəriyyəsini işıqlandıran materialların toplanması xüsusi qeyd edilməlidir...

Elmi Tədqiqat Musiqi Kabinetində Bülbül tərəfindən keçirilən müşavirə, disput, məruzələrin stenoqramları Azərbaycan xalq musiqisi və professional musiqinin tarixi və nəzəriyyəsinin işlənib hazırlanması üçün zəngin material verir.

Bülbülün eksperimentlərlə əsaslandırılmış məruzələri elmi cəhətdən sanballı əsərlərdir.

Bülbülün yaratdığı və daim rəhbərlik etdiyi Elmi Tədqiqat Musiqi Kabinetinin məhsuldar fəaliyyəti onun rəhbərinin yorulmaz və məqsədyönlü elmi işçi kimi böyük istedad sahibi olmasına parlaq nümunədir.

Memarlıq və İncəsənət İnstitutunun
direktoru, Azərb. SSR Elmlər
Akademiyasının həqiqi üzvü,
professor M.HÜSEYNOV
Musiqi və teatr şöbəsinin rəhbəri,
tarix elmləri namizədi, dosent
Q.QASIMOV
Bakı, 8 mart 1956-cı il

Y.Milovanova Saratova köçəndən sonra ETMK-nın katibi Q.Qasımov oldu.

Bülbül Azərbaycan xalqının incəsənətlə müntəzəm ünsiyyət bağlamasına, yeni musiqi mədəniyyətinin qavranılmasına, zəngin musiqi irsinin xalq tərəfindən mənimsənilməsinə böyük qayğı göstərirdi. Q.Qasımov yazır: «Hörmətli professor Bülbül, Sizin təşəbbüsünüzlə «Azərbaycan musiqi mədəniyyəti Nizami dövründə (XII əsr)» adlı əsərin yazılması qərara alınmışdır. Siz bu işi mənə tapşırmısınız. Elə həmin vaxtdan sizinlə birgə bu işin ümumi planı və konspekti tərtib olunmuşdu. Həmin işi görərkən həmişə sizin məsləhətlərinizə əməl edirdim».

Bülbül aşıq yaradıcılığına da böyük sevgi ilə yanaşmışdır. O, aşıq yaradıcılığı nümunələrini qayğı ilə toplamış, respublikanın müxtəlif rayonlarına xüsusi ekspedisiyalar təşkil etmişdir. Bu zaman Fətulla Allahverdiyevin, Qurban Sadıqovun, Mirzə Bayramın, Əsədin və başqalarının ifasında aşıq havaları lentə yazılmış, 25 aşığın iştirakı ilə müşavirə çağırılmış, şifahi aşıq yaradıcılığı materiallarının toplanması üçün briqada yaradılmış, külli miqdarda dastan, nağıl, qoşma və aşıq musiqisi nümunələri yazılmışdır. Elmi Tədqiqat Musiqi Kabinetinin topladığı aşıq yaradıcılığı barədə 250 çap vərəqindən ibarət material əsasında Əminə Eldarova kitab yazmışdır. Bu onu bir daha təsdiq edir ki, ETMK-dakı stenoqramlar, məruzələr Azərbaycan xalq və professional musiqi tarixinin öyrənilməsi üçün zəngin materiallardır. Aşıq yaradıcılığına çox böyük əhəmiyyət verən Bülbül aşıqlar qurultayının çağırılması məsələsini irəli sürmüşdür. O, aşıq yaradıcılığının daha aktual məsələlərini nəzərə almış, qurultayın bütün gələcək işlərinin geniş və ətraflı layihəsini hazırlamışdır. 1938-ci ildə Azərbaycanda – Bakıda respublika aşıqlarının 2-ci qurultayı çağırıldı. Qurultayda xalq musiqisi yaradıcılığının Sovet hakimiyyəti illərində coşğun inkişafı geniş müzakirə olundu. Bülbülün xalq yaradıcılığının inkişafına



göstərdiyi diqqət də onun xalqa yaxınlığından doğurdu 1938-ci ildə Bülbül respublika İncəsənət İdarəsinə yazırd «...Milli musiqi mədəniyyətinin yüksəlişi ilə əlaqədar olara kadrlar hazırlanması vəzifəsi qarşıya qoyulur, bu isə tədris pedaqogika vəsaiti, ümumi metodiki təlimatlar buraxılmasın tələb edir. Azərbaycanın tükənməz muğamlarının, aşıq yara dıcılığının öyrənilməsi xüsusilə vacibdir. Azərbaycanın mu siqi tarixinə dair əsərlər yazılmalıdır. Bütün bunlar bizi Elm Tədqiqat Musiqi Kabinetini – Azərbaycan Musiqi İnstitutun çevirmək zərurəti qarşısında qoyur».

Ömrünün sonuncu ilində o, aşıqların 3-cü qurultayının t təşəbbüsçüsü oldu. 1961-ci ilin aprelində Bakıda Azərbayca aşıqlarının 3-cü qurultayı keçirildi. Bu nüfuzlu məclisin bütü məzmun və istiqamətini müəyyənləşdirən iş proqramının tə tibatçısı da məhz Bülbül idi. Bülbül qurultayda geniş məruz söyləyərək fəxr və hörmətlə qeyd etdi ki, aşıq yaradıcılı Azərbaycan professional musiqisinin inkişafında az rol oy namayıb və respublikanın müasir bəstəkarlarından ötr tükənməz ilham çeşməsi olaraq qalır. Bülbül musiqi obrazla rının zənginliyi və aşıq yaradıcılığının rəngarəngliyini açı göstərərək, onların həm güclü, həm də zəif cəhətlərini təhl etdi. O müasir dövrün aşıq mahnılarına böyük təsir göstərdiy indən, onların musiqi dilinin genişləndirilməsindən danışa kən, həm də bir çox aşıqların oxumalarının yekrəngliyin bəzən melodiya və mahnıların məzmunu arasında təza müşahidə edildiyini xüsusi nəzərə çatdırırdı. Azərbayca musiqi folklorunun hərtərəfli və dərindən öyrənilməsi pro blemlərindən, aşıq yaradıcılığı nümunələrinin toplanmas öyrənilməsi barədə müasir şəraitdə bu yaradıcılığı xeyli təb liğ etmiş Elmi Tədqiqat Musiqi Kabinetinin məhsuldar işin dən danışmışdır. Onun son dərəcə məzmunlu məruzəsi nəin ki aşıqları, eləcə də bir çox bəstəkarlarımızı, yazıçılarımı düşünməyə məcbur etdi.

Yeni Azərbaycan musiqi əsərlərinin yaradılmasında professor Bülbülün rolunu xüsusilə qeyd etmək lazımdır. O, qeyd etdiyimiz kimi muğamlardan böyük simfonik əsərlərin yaradılmasının təşəbbüsçüsü olmuş, gənc bəstəkarları bu ciddi yaradıcılıq sınaqlarına sövq etmişdir. Yeni iri simfonik əsər formalarının – simfonik muğamların doğulmasına görə biz Bülbülə borcluyuq. O, musiqi xəzinəsini bəzəyən «simfonik muğamların» yaradılmasının təşəbbüsçüsü və bilavasitə iştirakçısı olmuşdur. Azərbaycan muğamları əsasında simfonik əsərlərin yaradılması Bülbülü çoxdan narahat edirdi. O, Moskvaya – SSRİ Bəstəkarlar İttifaqının birinci katibi T.Xrennikova yazırdı: «Bu əsl qiymətli daş-qaşdır və bacarıqlı usta tərəfindən cilalandığı təqdirdə parlaq şəkildə bərq vuracaq, gözlərimizi qamaşdıracaq. Təbiət etibarilə təksəsli və material baxımından qeyri-adi dərəcədə gözəl folklor əsərləri dinləyicilər qarşısında polifonik qiyafədə canlanacaq. Simfonik muğamların meydana gəlməsi təksəsli musiqi əsasında yetişmiş azərbaycanlıların mürəkkəb çoxsəsliliyə, simfonik musiqi mədəniyyətinə, onlar üçün daha doğma musiqi düşüncəsi formaları vasitəsilə ünsiyyət bağlamalarında böyük rol oynayacaq. Simfonik muğamla son dərəcə maraqlı bir vəzifə – harmonizasiya, orkestrləşdirmə, muğamların polifoniyası həll olunacaq, həm də muğamatın ölçülərə (traktlara) bölünməsinin və onun ritmlərinin düzgün müəyyənləşdirilməsinin qeyri-mümkünlüyü barədə nəzəri mülahizələrin yanlışlığı əslində sübut ediləcək...».

«Şur» və «Kürd ovşarı» simfonik muğamları üzərində işləmək üçün Bülbül bəstəkar F.Əmirovu dəvət edir. Həmin əsərlərdən az sonra Niyazinin «Rast» və daha sonra isə S.Ələsgərovun «Bayatı-Şiraz» simfonik muğamları yazılır. Bülbülün əsrlərin dərin qatlarından qaldırıb çıxardığı milli musiqi yaşadığımız əsrə öz anlaşıqlı, parlaq qədəmlərini basmış və həmin musiqinin inkişafında geniş üfüqlər açılmışdır. «Simfonik muğamlar» Bülbülün əvvəlcədən söylədiyi kimi, nəinki ölkəmizdə, eləcə də bütün dünyada şöhrət taparaq öz zəfər yürüşünü davam etdirir.



Sosialist Əməyi Qəhrəmanı, Lenin mükafatı laureatı, SSRİ Xalq artisti bəstəkar Qara Qarayev «Bakinski raboçi» qəzetində yazmışdı: «Gənc, istedadlı bəstəkar Fikrət Əmirovun yeni simfonik əsərlərinin – «Şur» və «Kürd ovşarı» kimi Azərbaycan muğamlarının ifa edilməsi respublikamızın musiqi həyatında gözəl hadisə olmuşdur. Fikrət Əmirovun yeni əsərlərinin əsasını professor Bülbülün rəhbərliyi ilə onun Azərbaycan musiqi folklorunun bilicilərinin oxuma və çalğısından Azərbaycan muğamlarını dəqiq yazıya alması təşkil edir. O, materialların seçilməsinə kömək edir, qiymətli və elmi məsləhətlər verərək F.Əmirovun axtarışlarında fəal iştirak edirdi. Azərbaycan musiqi folklorunun böyük bilicisi professor Bülbülün istedadlı gənc bəstəkarlarla yaradıcılıq əməkdaşlığı yeni gözəl simfonik əsərlərin doğulmasını təmin etmiş, musiqi xəzinəsini zənginləşdirmişdir».

Təbiidir ki, SSRİ Xalq artisti, Dövlət mükafatı laureatı, Sosialist Əməyi Qəhrəmanı F.Əmirov yazırdı: «Ömrümün çox hissəsini mən əziz Bülbülümün evində keçirmişəm. Bu evdə böyüyüb boya-başa çatmışam, bu evdə bəstəkarlıq yaradıcılığımın zirvələrinə çatmışam. Bülbül mənə ata əvəzi olub, həmişə qayğımı çəkib, müstəqil həyata qədəm qoyduqdan sonra da nəzəri üstümdə olub. Yaradıcılıq yüksəlişimi daim böyük diqqətlə izləyib. Mən Bülbül barədə çox, lap çox yaza bilərdim: görüşlərimiz, söhbətlərimiz, birgə işimiz haqda, mənə ata məhəbbətilə yanaşması və s. o, hücum və məzəmmətlərdən məni daim qoruyurdu. Simfonik muğamlar üzərində işləmək üçün Bülbül məni evlərinə dəvət etdi. Biz bütün günü gecəyədək işləyirdik. Mən Bülbülün qarşısında baş əyirəm: bütöv bir milli vokal məktəbinin yaranması onun adı ilə bağlıdır, bu böyük sənətkarın yaradıcılıq taleyi doğma torpağın taleyi ilə qırılmaz tellərlə bağlıdır və mənim də yaradıcılıq taleyimdə onun silinməz izi qalmışdır. Musiqi sahə-

sindəki yüksəlişimlə, neçə-neçə əsərimin meydana gəlməsilə mən ona borcluyam. «Şur», «Kürd ovşarı» simfonik muğamlarımın yaranmasında təşəbbüskar və məsləhətçi, bizim Azərbaycan xalq musiqimizin ən gözəl bilicisi kimi, onun ən yaxşı ənənələrini özündə yaşatmış ustad kimi mən sənə borcluyam, əziz Bülbülüm. Mənim bütün yaradıcılıq həyatım Bülbüllə sıx bağlıdır. Onu Azərbaycan musiqisi haqqında yazılmamış müdrik, dərin məzmunlu canlı kitabla müqayisə etmək olar.

Azərbaycan musiqisinin incəliklərini duymaq üçün mən tez-tez bu misilsiz kitaba müraciət edirdim. Azərbaycan musiqiçilərinin böyük bir nəslinin yetişib boya-başa çatmasında Bülbülün xidməti son dərəcə dəyərli və ölçüyəgəlməzdir. Bülbül nadir hadisədir, böyük şəxsiyyətdir. Tarix bu cür ləl-cavahiratı insanlara tez-tez bəxş eləmir. O, böyük hərflərlə yazılan Musiqiçi və İnsandır. Bülbülü fikirləşəndə gözlərim önündə yaradıcılıq həyatımın ən yaxşı lövhələri canlanır, bu həyat daim gümrah, həyatsevər, mənə müdrik məsləhətlər verən, böyük ürəkli, səxavətli müəllimimlə qırılmaz tellərlə bağlıdır».

Sənədlərlə tanış olduqca Bülbülün qeyri-adi dərəcədə çoxtərəfli fəaliyyətinin, Azərbaycan musiqi mədəniyyətinin bəlkə də bütün cəhətlərini əhatə edən fəaliyyətinin əsl miqyasını görürük. Müğənni və artist, pedaqoq və musiqişünas-alim, sənət fədaisi və yenilikçi olan Bülbül musiqi sənətimizdə mütərəqqi və yeni nə vardısa hamısının alovlu təbliğatçısı idi.

Bütün bu yazılanlardan görmək olar ki, Bülbül incəsənət problemlərinə nə qədər düzgün, həqiqi, qabaqcıl mövqedən baxırdı, ənənə və novatorluq məsələlərini necə dərindən başa düşürdü. O, bütün həyatını Azərbaycan musiqi incəsənətinin inkişafına, onun durmadan yüksəlməsinə həsr etmişdir.

Bülbül bütün həyatını Azərbaycan musiqi sənətinə, onun daimi irəliləyişinə həsr etmişdir.



Mən fikrimi Sosialist Əməyi Qəhrəmanı, Azərbaycan xalq yazıçısı, akademik M.İbrahimovun sözləri ilə bitirmək istəyirəm: «İncəsənətdə xəlqiliyə, realizmə hədsiz sadiq olan Bülbül kimi sənətkarların fəaliyyəti heç vaxt birtərəfli olmur, heç vaxt sənətin nisbətən dar çərçivəsi ilə məhdudlaşmır. Azərbaycanda vokal sənətini inkişaf etdirən Bülbül də xalq musiqisinin toplanması və öyrənilməsinə, yeni musiqi əsərlərinin yaranmasına, gənc bəstəkar və vokalçıların yetişdirilməsinə, musiqinin geniş yayılmasına, geniş xalq kütlələrində yüksək estetik zövqün tərbiyə edilməsinə böyük diqqət yetirirdi.

Bülbül Azərbaycanda mədəniyyətin gur çiçəklənməsi yolunda mübarizədə qüvvə və əməyini əsirgəmirdi. Böyük müğənninin, yorulmaz musiqişünas-pedaqoq və ictimai xadimin həyat və yaradıcılığı böyük sənətin, doğma incəsənətin inkişafı uğrunda mübarizə aparan bütün insanlar üçün gözəl məktəbdir».

***Rəhilə BÜNYADOVA,***
***Bülbülün Memorial Muzeyinin***
***elmi işçisi***

## ECAZKAR SƏSƏ MALİK SƏNƏTKAR

Azərbaycan xalqının böyük müğənnisi, SSRİ xalq artisti, Dövlət mükafatı laureatı professor Bülbülün ifa etdiyi ariya, romans və xalq mahnıları hər bir dinləyicidə həmişə xoş əhval yaradır. Qüdrətli nəğməkarın bu ülvi sənəti insanın qəlbini həyat eşqilə doldurur, gümrah edir, ona nikbin bəşəri hisslər aşılayır. Lakin bu əsərlərin ifasını ekranda görmək və dinləmək bu estetik təsiri ikiqat artırır. Bu baxımdan sənədli kino ustalarımızın Bülbülə həsr etdikləri kino çəkilişləri illər keçdikcə nadir sənət nümunələrinə çevrilir, daha böyük qiymət kəsb edir. Bu gün, sevimli müğənnimizin anadan olmasının 90 illiyi günlərində onun kino salnaməmizi zənginləşdirən nadir kino çəkilişləri ilə oxucularımızı tanış etmək istərdik.

1935-ci ildə Azərbaycanda Sovet hakimiyyətinin qurulmasının 15-ci ildönümü böyük təntənə ilə qeyd edilərkən respublikamızın qabaqcıl adamlarına ordenlər təqdim edilmişdi. Onların içərisində görkəmli sənətkar Bülbül də var idi. Bu hadisəni göstərən və onu kino tariximizdə abidələşdirən kinoxronika el sənətkarımız haqqında hələlik bizə məlum olan ilk kino sənədidir.

1938-ci il. Moskvada böyük müvəffəqiyyətlə keçən Azərbaycan incəsənəti dekadasının xoş sədaları hər yerə yayılmışdı. Azərbaycan xalqı ləyaqətli elçilərinin qayıtmasını səbirsizliklə gözləyirdi. Bu münasibətlə Azərbaycan incəsənət xadimlərinin Bakı dəmiryolu vağzalında təntənə ilə qarşılanmasını təsvir edən kinoxronikaya bu gün hədsiz maraqla baxılır. Budur, qatar sürətlə irəliləyir, vaqonların pəncərələri qarşısında Qəmər Almaszadə, Şövkət Məmmədova, Mirzə İbrahimov, Adil İsgəndərov, Qurban Pirimov, Niyazi və başqa nümayəndələri görürük. Onlar sevinc içərisindədirlər. Vağzalda toplaşanlar onları sonsuz məhəbbətlə qarşılayırlar. Sonrakı planlarda Ş.Məmmədova və Bülbül çıxış edir, Azərbaycan artistlərinin paytaxtdakı müvəffəqiyyətləri haqqında fərəhlə danışırlar Bu hadisəni, eləcə də M.İ.Kalinin yoldaşın dekada iştirakçılarını ordenlərlə təltif etməsini göstərən kinoxronika nadir kino sənədi hesab edilir. Həmin gün Bülbülə SSRİ xalq artisti adı və «Şərəf nişanı» ordeni verilmişdi.

Bülbül ictimai mədəniyyət xadimi kimi geniş fəaliyyət göstərən bir sənətkar idi. Bu cəhətdən də o sənədli kino tariximizdə özünə layiq fəxri yer tutmuşdur. «Azərbaycan SSR Ali Sovetinin II sessiyası» (1939), «Yazıçıların konfransı» (1942), «Böyük yol» (1949) və bir çox sənədli filmlərdə Bülbülü kinooperatorlarımız böyük məhəbbətlə lentə çəkmişlər.

Bülbül deyəndə hər birimizin nəzərinə ilk növbədə xalqımızın yenilməz qəhrəmanı Koroğlu surəti gəlir. 1938-ci ildə Moskvada keçirilmiş Azərbaycan incəsənəti dekadası günlərindən başlamış bu günə qədər ölməz bəstəkar Ü.Hacıbəyovun «Koroğlu» operasının dünya şöhrəti davam edir və yeni nəsillərə çatdırılır.

Azərbaycan kinematoqrafçıları Bülbülün «Koroğlu» operasında yaratdığı əvəzsiz xalq qəhrəmanının surətini diqqətlə izləmiş, onu dəfələrlə lentə çəkmişlər.

Azərbaycanda Sovet hakimiyyəti qurulmasının 20-ci ildönümünə həsr edilmiş «20 bahar» (1940, rej. M.Mikayılov), «İran haqqında oçerk» (1942, rej.-operator M.Mustafayev), dahi bəstəkar Ü.Hacıbəyovun anadan olmasının 60 illiyi («Ordenli Azərbaycan» kinojurnalı, №25-26, 1945), «Sovet Azərbaycanı» (1950, rej. M.Dadaşov), Ü.Hacıbəyov və M.Maqomayevin anadan olmasının 80 illiyi («İncəsənət» kinojurnalı, №1, 1966), Azərbaycan bəstəkarları plenumu iştirakçılarının Ü.Hacıbəyovun qəbrini ziyarət etmələri («İncəsənət» kinojurnalı, №4, 1967), «Bülbül» (1968, rej. M.Ba-

ğırov), «Ü.Hacıbəyov» (1976, rej. X.Muradov) kimi sənədli filmlər və kinojurnallarda «Koroğlu» operasından Bülbülün Koroğlunun ariyasını ifa etməsi, bu unudulmaz səhnə əsərinin Təbrizdə göstərilməsi, Bülbülün sədaqətli dostu Qıratın belində səhnəyə gəlməsi, onun qəhrəman dəlilərinin məşhur cəngi rəqsini ifa etmələri və başqa epizodları göstərən səhnələr böyük məhəbbət və ustalıqla təsvir edilmişdir. Bunların içərisində «Doğma xalqımıza» filmi xüsusilə qeyd edilməlidir. Buradakı «Koroğlu» epizodunun çəkilişinin mən də şahidi olmuşam. Keçmiş xatirələrimi təzələmək üçün filmdə Nigar rolunda çəkilmiş Azərbaycan SSR əməkdar artisti, tanınmış müğənni Sona Aslanovanın işlədiyi Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasına getdim, 3-cü mərtəbəyə qalxdım. Nəzərimi divara vurulmuş bir lövhə cəlb etdi. Orada yazılmışdı: «SSRİ xalq artisti, Dövlət mükafatı laureatı, professor Bülbül bu sinifdə məşğul olmuşdur». Qapını açdım, nə qəribə təsadüf. Sona xanım məhz bu otaqda tələbələrilə dərs keçirdi. Görüşdük, məqsədimi ona bildirdim. O, çox məmnun halda nəzərlərini ustadının divarda vurulmuş portretindən ayırmadan danışmağa başladı: «Böyük, unudulmaz ustadım Bülbül ilə bir yerdə işlədiyim günləri mən həyatımın ən xoşbəxt çağları hesab edirəm. Hər dəfə o günləri xatırladıqca ürəyim fərəh hissi ilə dolur və sevinirəm ki, əziz müəllimlə olan bu yaradıcılıq ünsiyyəti hörmətli kinorejissorumuz Hüseyn Seyidzadənin «Doğma xalqımıza» filmində lentə çəkilib. Filmdə Bülbül Ü.Hacıbəyovun «Koroğlu» operasında Koroğlu rolunda, mən isə Nigar rolunda çəkilirdim. O günlər mən çox həyəcan keçirir və məsuliyyət hissi ilə bu rol üzərində çalışırdım. Bu çəkiliş günləri indi mənim gözlərimin qarşısındadır.

Böyük nəğməkarımız Bülbülün həyat və yaradıcılığı biz ifaçılar üçün həmişə böyük və uğurlu yaradıcılıq məktəbi olmuşdur. Zəngin bir xəzinəsi, sonsuz axan bir el çeşməsini



xatırladan Bülbül yaradıcılığı, Bülbül məktəbi gələcək nəsillər üçün də tükənməz ilham mənbəyi olacaqdır».

Biz səmimi ayrıldıq.

Bülbül deyəndə yadımıza böyük Nizaminin sözlərinə bəstələnmiş Ü.Hacıbəyovun «Sənsiz» və «Sevgili canan» əsərləri düşür. İnsan qəlbinə hakim kəsilən, ürəkləri riqqətə gətirən, ecazkar təsir qüvvəsinə malik olan bu romansları dinləyəndə onun əvəzsiz ifaçısı, ustad sənətkar Bülbülün surəti, ülvi insani keyfiyyətləri, unudulmaz şəxsiyyəti gözlərimiz qarşısında canlanır. Kinooperatorlarımız Bülbül ilə bağlı olan bu sənət incilərini dönə-dönə lentə çəkmiş, gələcək nəsillər üçün sonsuz qiymətə malik olan nadir kino sənədləri xəzinəsini yaratmışlar.

1940-cı illərin əvvəllərində, Azərbaycanın böyük şairi Nizami Gəncəvinin anadan olmasının 800 illiyinə hazırlıq dövründə Ü.Hacıbəyovun qaynar ürək və ülvi hisslərlə yazdığı bu əsərlər şairin xatirəsinə ən gözəl və unudulmaz hədiyyə oldu. Budur, «Xalq şairi» (1947, rej. Ş.Şeyxov) və «Sovet Azərbaycanı» (1948, rej. M.Mikayılov) sənədli filmlərində biz böyük el nəğməkarının «Sənsiz»i yüksək emosional ruhda və xüsusi şövqlə ifa etməsini görürük.

«Nizami» (1958, rej. M.Mikayılov) sənədli filmində bir kinoxronika materialı diqqəti xüsusilə cəlb edir. Burada dahi bəstəkarımız Ü.Hacıbəyovun «Sənsiz» romansı üzərində işləməsi və bu əsərin Bülbül tərəfindən ilk dəfə ifa edilməsi göstərilmişdir. Bu gün son dərəcə qiymətli və nadir hesab edilən bu kadrlarda Üzeyir bəyin musiqi dühası ilə əzəmətli nəğməkar Bülbülün böyük sənətkarlığı qırılmaz bir vəhdətdə verilmişdir.

Bülbülün «Sənsiz» romansının əvəzsiz ifaçısı olması Üzeyir bəyin vəfatı günündə onu son mənzilə yola salmağa gələnlərin yaxşı xatirindədir. Bu unudulmaz və ağır hadisənin iştirakçısı kimi həmin gün Bülbülün göz yaşları içərisində, böyük kədər və hüznlə bu ülvi sənət əsərini necə böyük

bir ürəklə oxuması mənim də xatirimdə silinməz izlər buraxmışdır. Həmin gün bu musiqi sədaları Azərbaycan xalqının nəhəng bir dühadan ayrılması himni kimi səslənirdi («Ordenli Azərbaycan» kinojurnalı, №37, 1948).

Bir sıra sənədli filmlər də vardır ki, onlarda Bülbülün ifasında başqa mahnılar səsləndirilmişdir. Belə filmlərdən biri də «Məktuba cavab».(1944, rej. İ.Əfəndiyev) filmidir. «Axşam müsamirəsi» (1948, rej.-operator Muxtar Dadaşov) filmində isə unudulmaz müğənnimiz bəstəkar Asəf Zeynallının «Ölkəm» romansını ifa edərkən təsvir edilmişdir. M.Dadaşov Bülbülü axşam vaxtı, Xəzərin qoynunda, gəmidə gəzinti vaxtı çəkmişdir.

Bəzi sənədli filmlər də vardır ki, tamaşaçı burada Bülbülü görmür, ancaq onun ecazkar səsini eşidir. Bu filmlərdə təsvir olunan hadisələr sevimli nəğməkarın mahnıları ilə müşayiət olunur. Buna misal olaraq «Sovet Azərbaycanı» (1950), «Xoşbəxtlik yolu ilə» (1957), «Bülbülün xatirə abidəsinin açılışı» («Sovet Azərbaycanı» kinojurnalı, №11, 1969), «Neftçi Qurban» (1970), «Solmaz bir bahar kimi» (1979) sənədli filmləri göstərmək olar.

«Sovet Azərbaycanı» filminin rejissoru M.Dadaşov Bakının gözəlliyini, onun geniş küçə və meydanlarını təsvir edərkən bədii ifadə vasitəsi kimi Bülbülün oxuduğu mahnılardan istifadə etmiş, xoşbəxt balalarımızın həyatını tərənnüm edərkən təsvirlərin fonunda bəstəkar S.Rüstəmovun «Mən sülhə səs verirəm» mahnısını səsləndirmişdir. Daha sonra yenə də Muxtar Dadaşovun «Xoşbəxtlik yolu ilə» filmində Sosialist Əməyi Qəhrəmanı, adlı-sanlı pambıqçı Süreyya Kərimovanın əmək nailiyyətlərini göstərən epizodlar Bülbülün ifasında S.Rüstəmovun «Sürəyya» mahnısı ilə müşayiət edilmişdir.

Rejissor-operator M.Mustafayev «Neftçi Qurban» sənədli filmində məşhur neft ustası, Sosialist Əməyi Qəhrəmanı Qurban Abbasovun fədakar əməyini Bülbülün ifasında bəstəkar Ağabacı Rzayevanın «Neftçi Qurban» mahnısı ilə əlaqədar bir şəkildə montaj etmişdir. Gözəl nəğməkar bu mahnı ilə Qurban Abbasovun mənəvi zənginliyini açmağa çalışır, neftçiləri qəhrəmanlıq epopeyasına səsləyir.



Sevimli bəstəkarımız, əməkdar incəsənət xadimi Ağabacı Rzayevanın ev arxivində mühafizə olunan bir sənəddə yazılmışdır: «Mənim əsas mahnılarımın, o cümlədən «Neftçi Qurban» mahnısının ilk ifaçısı böyük müğənnimiz Bülbül olmuşdur. Mən yeni yazdığım hər bir əsərimi ustad-sənətkarımıza göstərmiş, ondan həmişə dəyərli məsləhətlər almışam. Mənim «Gözlə məni», «Gözləyirəm, sevgilim», «Gözlərin», «Oxuma, gözəl», «Çoban Qara» adlı mahnılarımı və romanslarımı Bülbül yüksək vokal ustalığı ilə ifa edərək, onları xalqımıza sevdirmiş və uzunömürlü etmişdir. Mən böyük sənətkarımızla həmişə fəxr etmiş, onu özümə ustad, yaxın və etibarlı məsləhətkeş hesab etmişəm».

Gənc kinorejissorumuz C.Zeynalov Azərbaycan sovet dramaturgiyasının banisi Cəfər Cabbarlıya həsr etdiyi «Solmaz bir bahar kimi» sənədli filmində Azərbaycanın füsunkar təbiətini təsvir edərkən Bülbülün böyük məlahətlə ifa etdiyi «Ölkəm» mahnısından bacarıqla istifadə etmişdir. Bu filmdə Bülbülün əzəmətli səsi ilə təbiətin cazibədar gözəllikləri elə ahəngdar, elə qarşılıqlı surətdə montaj edilmişdir ki, respublikamız tamaşaçı qarşısında möhtəşəm bir ölkə kimi canlanır.

«Qarabağ yollarında» (1968, rej.-operator Ə.Ələkbərov) və «Qarabağ Bülbülləri» (1977, rej. X.Muradov) sənədli filmlərində Qarabağın keçmişi və bu günündən söhbət gedərkən Vaqif, Natəvan, Ü.Hacıbəyovla yanaşı Bülbül haqqında da danışılır, onun anadan olduğu ev, həyət-baca, divara vurulmuş xatirə lövhəsi, qədim musiqi yurdunun gələcək xanəndələri göstərilir.

Həmin ildə rejissor M.Bağırovun çəkdiyi «Bülbül» sənədli filmi diqqəti cəlb edir. Hər şeydən əvvəl, bu filmin məziyyəti ondan ibarətdir ki, rejissor indiyə qədər Bülbül

haqqında olan bir çox kino çəkilişlərini yığcam və səlis şəkildə, bir yerdə cəmləşdirmişdir. Burada Bülbülün dövrümüzün böyük və unudulmaz sənətkarları Ü.Hacıbəyov, Niyazi, Ə.Bədəlbəyli, Q.Qarayev, S.Vurğun, S.Rüstəm və b. mədəniyyət xadimləri ilə yaradıcılıq əlaqələri, eləcə də onun sovet opera incəsənətinin inkişafındakı xidmətləri, Azərbaycanın musiqi tarixindəki şərəfli rolu ətraflı göstərilmişdir.

İllər keçəcək... yeni-yeni kino əsərləri yaradılacaqdır. Onların müəllifləri kino arxivlərimizdə böyük diqqət və qayğı ilə mühafizə olunan sənət xadimlərimizin nadir kinokadrlarına dönə-dönə müraciət edəcəklər. Bülbülün də fəaliyyətini göstərən kinokadrlardan yeni tərzdə, yeni baxımda istifadə ediləcək. Bülbül haqqında, Bülbül sənətinə layiq daha maraqlı filmlər yaradılacaqdır.

Bu məqaləni Bülbülün həyat yoldaşı, sənətkarın ev-muzeyinin direktoru A.Məmmədovanın «Bülbül» (Azərnəşr, 1964) kitabından götürülmüş bu sözlərlə bitirmək istəyirəm: «...kinematoqraf Bülbülü olduğu kimi əks etdirmişdir. O, xoşbəxt adam idi. Bülbül tam, parlaq və dolğun həyat yaşamış nikbin bir insan idi. Bülbül özünə məxsus vokal sənətində inqilab etmiş elə bir adam idi ki, xalq onun adını və səsini həmişə heyranlıqla və fəxrlə yada salacaq, fərəh və ehtiramla dinləyəcək. Mən bu məhəbbətin qüdrətinə inanıram. Bilirəm və inanıram ki, bu məhəbbət Bülbülün sovet incəsənətinə olan əbədi və sonsuz sədaqəti qədər böyük və əbədidir».

***Məsuma RZAYEVA,***
***sənətşünaslıq namizədi***
***«Azərbaycan qadını» jurnalı,***
***1987-ci il, № 6***



## *QIZIL SƏSİN NAĞILI*

Bu səsin nağılının tarixi ta qədimdən, ağıla, təsəvvürə sığışa bilməyəcək bir vaxtdan başlayır. Bu səsin əzəlliliyi gedir lap uzaqlara – xalqın öz keçmişinə, qədimliyinə. Səs haradansa uzaqdan, lap uzaqdan, zaman və əsrlərin köksündən qopub gəlir. Səs elə bil özüylə o illərin, o əsrlərin ətinəqanına hopdurulmuş sevinc və kədəri, bu xalqın başına gələn neçə-neçə ictimai və siyasi sarsıntıları, dirçəlişi, bir sözlə, sevinməyə, fəxr eləməyə onun nəyi varsa hamısını, hamısını gətirir. Səs elə o əzəl, həmişəyaşar təravətini qoruyub saxlayıb. Min-min illərin dolanbac yollarındakı əzab-əziyyətlər, irili-xırdalı zədələnmələr, sarsıntılar – bütün bunların heç biri onun qəddini, qürurunu əyməyib. Onun şaqraqlığına, ağayanalığına xələl gətirməyib.

Bir də bu səsdə dağ qüdrəti, bulaq şəffaflığı var. Bəlkə də bu ona görə belədir ki, bu səsin yiyəsi gözünü açandan dağlara baxıb. Dağlar qoynunda boya-başa çatıb. Üzüaşağı baxırsan, dağlar, dərələr, şaqqaşaraq axıb gedən çaylar görünür – adamın xəyalı qanadlanır – onu sirli, soraqlı bir aləmə çəkib aparır. Bu genişlik, bu ucalıq adamı genişürəkli, gözü-könlü tox eləyir. O harada uca, harada ali mətləblər var, elə oraya can atır. Oraya ün tutur. Səs get-gedə böyüyür, ipə-sapa yatmır.

Bəlkə də bu xalqın öz baxtıymış, xalqın qismətiymiş. Bəlkə də elə o, bu xalqın mənəvi arzusu kimi dünyaya gəlib. Xalqın mənəvi ehtiyaclarının xoş təsadüfü, nadir payı idi. O, dünyaya gəlməyiylə də çiyninə böyük bir yük düşüb. Artıq o bu andan, bu dəqiqədən Məşədi Rza kişinin, Gövhər xanımın oğlu olmaqdan savayı, həm də böyük bir xalqın, çox iş görmək istəyən bir xalqın ümidinə, fərəhinə çevrilirdi...

Kimin ağlına gələrdi... Kim idi o isti yay günündə tutun, şaftalının bol vaxtında, Qarabağın müxtəlif səmtlərinə uzanan o dörd yolayrıcında dünyaya göz açan uşaq barəsində fikirləşən?! Kimin ağlına gələrdi ki, bu uşaq böyüyüb axırda gəlib Bülbül olacaq!...

Uşağın doğulduğu dərənin yan-yörəsinə baxırdın – gözlərin dincəlirdi. Yaşıl meşələrin pıçhapıçı ətrafı başına götürmüşdü. Qarqarçayın hərdən gur, hərdən də sakit axmağı bu tərəflərə xoş bir ovqat gətirirdi. Nanənin, yarpızın ətri, meşədəki cır almaların, cır armudların ətrinə qarışır, ha tərəfdən əsdiyi məlum olmayan sərin dağ mehi də bunu göydə «qapıb» bütün Qarabağa yayırdı. Bu meh, bu ətir «küllü Qarabağı» başına götürür, çay boyu kənd-kəsəyi, Gülablını, Abdalı, Xocalını, İsmayılbəylini, hələ o tərəfdən – Ağoğlan tərəfdən Məşədkəndi, Duanalları, Qanlıgədiyi, Vərəndəlini, Ağbaşlını, Tola düzünü gəzib-dolaşırdı.

Elə bil Bülbül olmaq onun alnına yazılmışdı. Ətrafda nə vardısa – çaylar, dərələr, meşəliklər və onların min səsli aləmi – yeni doğulanı bu ovqatda, belə bir ab-havada böyüdürdü. Dünyanın ən şirin, ən ləzzətli təbii qidalarıyla mayalanan körpə özünün qeyri-adi taleyini sanki elə indidən görürdü. İsti yay gecələrinin birində, gecənin zil qaranlığının lal sükutunu pozan uşaq pıçıltısı elə indidəncə özünü tanıtmaq, elə indidəncə özünü göstərmək istəyirdi.

Bu uşağın baxtı da varmış: o, dünyanın o yerində böyüməliydi ki, burada, demək olar ki, hamı çalıb-oxuyurdu. Hansı qəlibdə istəsən, hansı avazda istəsən çalan, oxuyan tapılardı. Elə bil hansı bir xeyirxah qüvvəysə harada yaxşı, özündən deyən musiqiçi – tarzən, xanəndə vardı, hamısını yığıb-toplamışdı Şuşaya! Çalan, çağıran Şuşada istənilən qədərdi. Hətta o qədər çox idilər, hətta o qədər usta və məşhur idilər ki, onların səsi-sorağı gedib Şirvana, Gəncəyə də çatmışdı. Qarabağ musiqiçilərinin şan-şöhrəti bütün Azərbaycana yayılmışdı. Bu da sözsüz ki, balaca Bülbülə, onun uşaq



ürəyinə təsir etməyə bilməzdi. Keçəçi oğlu Məhəmmədin, Segah İslamın, Cabbar Qaryağdıoğlunun ecazkar sənəti Bülbülü də riqqətə gətirir, onun ürəyini xoş duyğular, xoş arzular məskəninə çevirirdi. Bülbülün məlahətli səsi «Qayabaşı»na, «Qırx pilləkən»ə, «Cıdır düzü»nə yayılırdı. Bu təzə səsə, avaza ətraf da öyrəşməyə başlamışdı. İndi-indi dağlar, dərələr bu səsə uyğunlaşır, onun qəfilliyinə, qeyri-adiliyinə alışırdılar. Şuşa camaatını nə ilə təəccübləndirmək olardı? Şuşa camaatı nə qədər desən özündən deyən, ipə-sapa yatmayan səsə, avaza qulaq asmışdı. Daha nə qalmamışdı şuşalılar eşitməsin, dinləməsinlər? Amma Bülbül avazı, amma Bülbül nəfəsi heyrətə gətirmişdi şuşalıları! Onları o qədər heyrətə gətirmişdi ki, bilmirdilər bu balaca uşağa nə desinlər, onu o cür çalan-çağıranlar qabağına çıxartsınlarmı, çıxartmasınlarmı? Axı, Şuşada adət idi hər yetəni el məclisinə, el toyuna çıxartmırdılar. Hər oxuyan el arasına çıxammazdı!

Səsin pərvazlanmasında təkcə ayrı-ayrı xanəndələrin, çalanların təsiri olmayıb. Şuşada proqramının zənginliyiylə hamını vəcdə gətirən musiqi məclisləri vardı.

Bu musiqi məclisləri, musiqi gecələri elə təkcə «Rast»ın, «Şur»un, «Bayatı-kürd»ün ixtiyarında deyildi. Bu gözəlliyə qoşa qanad kimi poeziya da qoşulurdu. Nizaminin, Füzulinin, Natəvanın, Vaqifin dühası məclisdəkiləri dünyanın ən yaxşı hiss və duyğuları ab-havasında kökləyirdi. Onlar sənətin yaratdığı o əbədi, o həmişəyaşar aləmində itib-batırdılar. Cavanların ürəyində göyərə biləcək ən kiçik arzular belə, ən adi ümidlər belə bu gecələrdə eşidilən söz-söhbətlərdən sonra ətə-qana gəlir, ifadə olunmağa münasib bir yer, meydan axtarırdı.

Xalqın öz sənətini, xalqın söz hikmətini yaşadan, sevdirən qocalar vardı o məclislərdə! Onlar təkcə qocalar deyildilər, onlar xalqın yaddaşı, bu yaddaşı bütün təravəti, bütün incəliyiylə qoruyub saxlayan idilər. Təkcə bircə dəfə də iştirak etməyinlə insan taleyinin ən xoş, ən yaddaqalan anı he-

sab edilən belə məclislər bəzən saatlarla, bəzən hətta bütün gecə Füzuli dühasına, Füzuli qəzəlinə, Füzuli qəzəlinin ecazkarlığına həsr edilirdi.

*Can vermə ğəmi-eşqə ki, eşq afəti-candır.*
*Eşq afəti-can olduğu məşhuri-cahandır.*
*Yaxşı görünür surəti məhvəşlərin, əmma*
*Yaxşı nəzər etdikdə sərəncamı yamandır.*
*Eşq içrə əzab olduğun ondan bilirəm kim,*
*Hər kimsə ki, aşiqdir, işi ahu fəğandır.*

Bu tədbirlər Şuşa məclislərinin təkcə bir bəndi, necə deyərlər, böyük bir proqramın bir nömrəsiydi, o qaynar həyatın ancaq bir tərəfiydi. Adamlar vardı, ustadlar vardı, təkcə onlar elə nağıl, rəvayət və əhvalat söyləməklə ad-san qazanmışdılar. Bu ustadlar xalqın dühasıyla yaradılan folklor nümunələrinə özlərini, öz «mən»lərini əlavə eləyirdilər. Şirin və duzlu el sözlərinin gözünə öz şəkərlərini, öz duzlarını qatırdılar.

Deyilənlərin, söylənilənlərin janrı, forması, üslubu və təhkiyə tərzi də müxtəlifdi, cürbəcürdü. Adam vardı söz qoşan, rəvayət toqquşdurandı, adam da vardı hikmətli, sanballı mətləblərdən danışırdı. Əməlli-başlı onun zehninə-hafizəsinə heyran qalırdın, oxuduqlarının, eşitdiklərinin ümumi mənzərəsini təsəvvürünə gətirəndə, o adam gözündə min qat ucalır, böyüyürdü.

Şuşa toyları isə ümumxalq mədəniyyətinin, oturuş-duruşunun nümayiş yeriydi, xalq mədəniyyəti, xalq istedadı bu yerlərdə sözün həqiqi mənasında bütün incəlikləriylə, bütün çalarlarıyla göstərilirdi. Yox, Şuşa toyları tək bir nəfərin, təkcə Bülbülün həyat məktəbi, sənət örnəyi deyildi. Bu yerlərdə səs sözə, qaravəllilər əhvalatlara, nağıllar dastanlara qarışırdı. Qəddi-qamətli Qarabağ gözəllərinə bir balaca him elədikdə, bir balaca ürək-dirək verdikdə onlar göyərçin tək



«ağ qanadlarını» geniş açır, mağarın bu başından o başına süzürdülər. Kəpənək qanadlı xalq rəqsləri el gözəllərinin ifasında əzilir, haldan-hala düşür, sonra da yaydan çıxan ox kimi süzürdülər. «İnnabı», «Naz eləmə», «Tərəkəmə», «Heyvagülü», «Vağzalı», «Turacı» kimi xalq rəqsləri xoş ovqat, ılıq nəfəs kimi qız-gəlinin qəlbinə dolur, onları yalnız sənətin yarada biləcəyi qəribə bir aləmə çəkib aparırdı. Mağarları döyrəmə bəzəyən allı-güllü gəbə və kilimlər, palazlar, fərməc və tikmələrin qırmızılığı, min rəngli gözoxşayan gözəlliyi qızların gözəlliyinə qarışırdı. Neçə-neçə qız-gəlinin, ana və bacılarımızın ildən-ilə, nəsillərdən nəsillərə keçib gələn incəliklərinin – xalq gözəlliklərinin bir nöqtədə, el şənliklərinə toplanması güclü bir hissə, təsiredici bir qüvvəyə çevrilirdi. Mağardan beş-on addım o yana isə... başlayırdı dağların, dərələrin fil yatımı... Sıldırım qayaların uca zirvəsinə, yol-yamacın yastı təpəsinə gül-çiçək səpələnmişdi. Elə bil hansı bir sehrli qüvvəysə bunu qəsdən belə eləmişdi. Qəsdən belə eləmişdi ki, insanları, dünyanı heyrətləndirsin...

Bülbül xalq yaradıcılığına, xalq havalarına bir məbəd, bir abidə kimi baxırdı. Ümumiyyətlə, xalq sərvətinə qarşı belə bir istək, belə bir meyl onda hələ uşaq ikən yaranmışdı, ətinə-qanına hopmuşdu. Bülbül tədqiq etmir, təkcə onları zərrə-zərrə, bənd-bənd öyrənmir, o həm də xalq havalarının, xalq ritmlərinin nazını çəkir, qoyur gözlərinin üstünə. Xalq havaları Bülbülün ifasında, Bülbül mərhələsində ətə-cana gəlir, qanadlanır.

Səsin ritminə dözəmmirsən. Səsin dalınca elə bil atlı gəlir, səsin dalınca elə bil qoşun gəlir. Səs qıy vuran qartal təki buradan vurub oradan çıxır, mavi səmada belədən elə, elədən belə şığıyır. Bülbül havaları istədiyi hala, istədiyi şəklə sala bilir. Xalq havaları onun ifasında muma dönür, üzüyola uşağa çevrilirdi. Səs hiss eləyəndə ki, o meydanda təkdi, hiss eləyəndə ki, o qüdrətlidi – səsin sevincinin həddi-hüdudu olmur.

Səs çalıb-çağırır, səs dünyanın ən xoşbəxt anı kimi, xoş saatı kimi haray qoparır. Səs ətrafa meydan oxuyur.

Xalq havaları Bülbülə elə-belə, hazır şəkildə, not kağızları üstünə köçürülmüş halda verilmirdi. Şəhərdə o qədər işi-gücü olan sənətkar Azərbaycanı kəndbəkənd gəzir, xalq havalarını, folklor nümunələrini toplayırdı. Onun Quba və Xaçmaz, Şamxor və Qazax, Masallı və Lənkəran, Qarabağ kimi tərəflərə elədiyi səfərlər neçə-neçə xalq rəvayətlərinin, nağıllarının, mahnılarının, nəğmələrinin, oyun havalarının, aşıq dastanlarının gün işığına çıxmasına səbəb olmuşdur. Başqa sözlə desək, xalq incilərini o özü tapır, onu cilalayır, ağlının, sənətinin, təbiətin ona bol-boluna verdiyi səs süzgəcindən keçirib, təzədən onu xalqa, xalqın özünə qaytarırdı. O bu yolda nəyə desən dözür, haraya desən gedir, təki «Güloğlan»lar, «Kəklik»lər, «Kürd qızları», «Ovşarı»lar, «Keşişoğlu»lar itib-batmasın, unudulmasın.

Sənətkar xalq havalarının ifasında zərgər incəliyinə can atırdı. Bu incəlik bütöv halda deyil, hətta ayrı-ayrı hissələrə, bənd və notlara da aiddir. Adama elə gəlir ki, Bülbül bu havaları xalqda necədirsə, hansı səpgidədirsə, elə heylə, elə o şəkildə də oxuyur. Bu, bəlkə ilk təəssürat, dinləyicinin ilk qənaətidir. Bülbül öz ifasıyla fəth elədiyi xalq havalarında qeyri-adi bir bitkinlik var. Bəlkə də heç «Ay dilbər», «Küçələrə su səpmişəm», «Girdim yarın bağçasına», «Üçtelli durna» kimi xalq inciləri biz onları indi eşitdiyimiz kamillikdə, biz onları indi eşitdiyimiz tamlıqda deyilmiş. Haradasa, hiss eləyirsən ki, Bülbül bu havalara əməlli-başlı «əl gəzdirib», onu səsinin səmtinə doğru yönəldibdi, onu öz malı eləyibdi. Bu cürə təkmilləşdirmələr, havanı «özümləşdirmə» halları bir də ona görə Bülbül üçün belə asan, belə rahat olubdur ki, o xalq havalarını, bu havaların hardasa gizlənmiş, dinləyici qulağına çox çətinliklə gəlib çata biləcək zərrəciklərini görüb, onlara nəfəs, həyat veribdi. Həm də bu cürə dəyişmələr, səsin hava üstündə bu cürə at-oynatmaları yalnız Bülbülə, Bülbül sənətinə ram ola biləcək şeylərdi. İlahi, səs nə qalmır eləməsin!... Səs incəlir, səs durulur, get-gedə şəffaflaşır, səs bir anlığa səsliyindən, özünün birbaşa vəzifəsindən kənara çıxır, o gözlə görülə biləcək obraza çevrilir. Səs dinləyici gözləri qarşısında yaratdığı o əsrarəngiz, o cah-cəlallı aləm tək şirin, əfsanə tək sirli-soraqlıdı.

İllah da səs eşq və məhəbbət notlarını ifa eləyəndə bir aləm çiçəyə, bir aləm həvəsə dönür. Səs yerindən götürülən təki o saat oda-alova dönür. O get-gedə artır, şişir və nəhayət bəzən nazilib-nazilib o hala düşür ki, lap istəyirsən iynə gözündən belə keçsin. Bülbül bu yerlərdə əvəzsiz improvizator, əvəzsiz aşiqdir. Səs cavanlaşır. İnsanın ən əziz, ən ülvi hisslərini, duyğularını tərənnüm eləyir. Səs qarşısıalınmaz dağ çayına, selə dönür. Ha istəyirsən səs nəfəs alsın, ha istəyirsən səs heç olmasa bir yerdə, bir anlığa dincəlsin – mümkün deyil. O baş alıb gedir. Bu dünyanı, gəncliyi, məhəbbəti tərənnüm eləyir. Aşiq-məşuq gözəlliyindən, onun paklığından danışır. Səsdə fiziki cavanlıqdan savayı, həm də mənəvi cavanlıq var. Səsin necə cavanlaşmasını, səsin necə haldan-hala, təbdən-təbə düşməsini dinləyici az qala görür. Bu həm də elə bil eşidilmək, dinlənilmək üçün deyil, görünmək üçündür, baxılmaq üçündür. Bülbül bu yerlərdə artıq ifaçı deyil, xanəndə deyil. O bu yerlərdə qarşısına daha ali, yalnız Bülbül istedadının gücü çata biləcək sənət qalalarını fəth eləmək məqsədi qoyur. Bülbül səsi üçün, Bülbül sənəti üçün «alınmaz qala», «tilsimli qala» ifadələri yoxdu – Bülbül sənəti yolunda qarşısına çıxan bütün maneələri dəf eləyir, sirli-soraqlı qapılar taybatay açılır, yüz illərdən, min illərdən bəri gün işığına həsrət qalan nəmli divarlar işıq çələnginə bürünür.

Bülbül anamın, analarımızın «Almanı atdım xarala» mahnısını elə oxudu, yaxşı ifasızlıq ucundan az qala elə xarallarda saralacaq o almanı elə üzə çıxartdı ki, bir az dolayı desəm, bir

də o alma çətin ki, sarala-sarala qala! Bülbül, XX əsrin Azərbaycan dinləyiciləri ordusuna ən böyük hədiyyə, töhfədir. Ürək kimi döyünən bulaqlarımızın zümzüməsi, min bir səsli meşələrimizin nəğməsi hopub Bülbülün səsinə. Anam tez-tez deyərdi ki, yüz bulaqdan biri sərin, yüz quyudan biri dərin, yüz çiçəkdən biri ətir, yüz buluddan biri çətir…

Mən mahnı, nəğmə ifaçılığı barədə fikirləşəndə nəsə anamın heç bura dəxli olmayan quraşdırmasını xatırlayıram və Bülbülü həmin o yüzdən biri sanında görürəm. Bülbülün xalq mahnılarını eşidəndə adama elə gəlir ki, Bülbül anadan mahnı üçün doğulub. Deməli Bülbül, səsiylə bağlı hər şey üçün doğulub.

Fikirləşirəm ki, əgər bizim xalq mahnılarımız, muğamlarımız indiyə qədər bəzi yüngülməcaz zövqlü dinləyicilərin, ifaçıların ümidinə qalsaydı, biz çox şey itirmiş olardıq. Nə yaxşı ki, bizim Bülbülümüz olub, Cabbar Qaryağdıoğlumuz və neçə-neçə başqaları olub!

Bülbül düşündüklərini sübut eləməkdən ötrü dağa, daşa düşmürdü. Fikrinə havadar axtarmırdı. O bunu elə özü eləyirdi, deyirdi, fikir irəli sürürdü və başlayırdı dediklərini də həyata keçirməyə.

O, folklora, dilin musiqililiyinə həddindən artıq həssasdı. O bu işə bütün varlığı ilə bağlı idi. Bülbülə görə əgər biz «musiqimizdən danışırıqsa, dilimiz haqqında» da danışmalıyıq. Dil, Bülbülün fikrincə təkcə qrammatik qayda-qanunlardan ibarət deyil. Dil özündə daha geniş mətləblər gizlədir. Bayatılarımız, nağıllarımız, rəvayətlərimiz – bir sözlə, ifadəylə, mənayla bağlı nə varsa, bütün bunların hamısı dillə, dilin adıyla bağlıdır.

* * *

Axtarmaq narahat adamın işidir. O mənada axtarmağı deyirəm ki, sən daxilən, qəlbən narahatsan. Bəlkə də heç



sənin bu narahatlığın, götür-qoyların çoxlarına çatmır, bunu onların hiss eləməsi çox çətindir. Amma çoxlarının adi hal hesab elədikləri mətləblər arxasında sən gecə-gündüz fikirləşir, götür-qoy eləyirsən. Həm də bu axtarış anbaan artır, genişlənir, sənə olmazın əzablar verir. Və ən çox adamı yandıran da odur ki, hələlik bütün bunlar yalnız sənin özünə aiddir. Bu sarsıntılar, bu əzablar ancaq sənin, sənin özünündür. Və qalırsan çabalaya-çabalaya. Ona görə çabalayırsan ki, ona görə özünə yer tapa bilmirsən ki, bütün bunlar hələlik təkcə sənin qəlbində yurd-yuva salıb. Bunun nə olacağından, necə olacağından yalnız sən özün agahsan, bu yalnız sənə məlumdur. Ayrı heç kimə. Bülbülün də düşündükləri ancaq özünə, yalnız Bülbülə məlum idi. O bu hərəkətiyləmi deyək, o bu addımıylamı deyək, təkcə özünü yox, təkcə ona qarşı neçə-neçə mübahisəli, belə demək mümkünsə, çoxları tərəfindən incə ironiya, incə eyhamla işarə edilən neçə-neçə məsələləri həll eləməliydi, neçə-neçə suallara cavab verməliydi. Bu mərhələ Bülbül üçün əzablı mərhələydi… Burada hər şey ola bilərdi… Ola bilərdi ki, heç onun düşündüklərini, fikirləşdiklərini dinləyicilər duymasınlar, qəbul eləməsinlər. Düşünülənlərin dinləyici tərəfindən yaxşı qarşılanacağına kim zəmanət verə bilərdi, kim idi belə bir peyğəmbərliyi eləyən? Bülbül üçün dünyada bundan da böyük, bundan da əzablı sarsıntılar olmazdı ki, o bunu çəkirdi. Bülbül addasanda bir sənətkarın, özü də o vaxtkı, o vədəki Bülbül haqqında, onun sənəti barəsində mübahisələr gedirdi, onu yad nəfəsə meyl eləməsində, guya bizim dinləyicilərin qulağına yad olan ünsürlərə üstünlük verməsində günahlandırırdılar, deməli belə bir məqamda, belə bir mərhələdə Bülbülün sənət uğursuzluğu, bir növ onunçün əbədi sarsıntıya, mənəvi sarsıntıya çevrilə bilərdi. Hələ bütün bunlar bir yana, o vədə Azərbaycan milli musiqisinin inkişaf perspektivlərini aydın təsəvvür eləyə bilməyən və yaxud bunu aydın təsəvvür elə-

mək istəməyən bir sıra mətbuat orqanları Bülbül barəsində ara-sıra qərəzli materiallar dərc eləyir, onun sənətini gözdən salmağa çalışırdılar. Bülbülünsə o qədər arzuları vardı, Bülbül o qədər iş görmək istəyirdi, istəyirdilər bütün bunlar elə onun ürəyindəcə qalsın, işıq üzü görməsin! Buna gücləri çatmasa da hər halda çalışırdılar ki, onun düşündükləri ləngisin, axsasın. Amma, əksinə, qızıl səs dinləyicilərə yeni çalarda, yeni donda təqdim edildi, özü də necə?

Bu an Bülbül yalnız sənətin insan qəlbində yarada biləcəyi sevinclə yaşayırdı. O sənət üfüqlərinə boylanır, orada işıq ucu ola biləcək uğurlar sorağıyla alışıb yanırdı. Yaddaşını, indiyədək gördüklərini xatırlayırdı. Keçdiyi o şirin, o acı xatirələri təzədən yad eləyir, Qarabağda, Gəncədə, Tiflisdə görüb-götürdüklərini, eşitdiklərini təzədən yaşayırdı. Ürəyində mürgü döyən, ancaq Bülbülün təkidiylə təzədən oyanan, bir iş görməyə, bir şeyə yaramağa hazır ola biləcək nəyi vardısa – hamısını qaldırmışdı ayağa. Onlar da Bülbül havasına qoşulur, onun nazıyla oynayırdılar. Sanki Bülbül özü-özünə, fikirləşdiklərini həyata keçirmək üçün ab-hava yaradır, onun ilk təməlini qoyurdu. Dünyada yaşadığı bu az müddət ərzində yad eləməyə yaxşı nə vardısa – Qarabağı, Şuşanı, Gülablını, orada gördüyü neçə-neçə maraqlı hadisə və əhvalatları, xatirələri, toyları, allı-güllü geyinmiş qız-gəlini xatırlayırdı. Xatırladıqca da fikri, düşüncələri aydınlaşırdı. Və birdən ona elə gəlirdi ki, onunçün qaranlıq ola biləcək, dumanlı görünə biləcək elə bir düyün, sənət burulğanı yoxdur. O bunu hiss eləyən təki, işıq ucu görən təki başladı düşündüklərini həyata keçirməyə. Bu işdə Bülbülə kömək eləmək istəyənlər də tapıldı. Onlar Bülbülə nəinki kömək eləyirlər, nəinki onunla gecə-gündüz məşq eləyirlər, hətta onun fikirləşdiklərinin ab-havasına uyğunlaşır, onun yandırmaq istədiyi ocaqdan qızınır, alovlanırdılar. Müxtəlif dövrlərdə Qurban Pirimov, Bəhram Mənsurov, Əhsən Dadaşov və Əlağa Quliyev kimi təcrübəli tarzənlərimiz böyük



müğənniyə düşündüklərini həyata keçirməkdə kömək eləyir, onun bu həvəsinə həyat işığı verirlər...

...Az keçmir musiqi həvəskarları Bülbülün ifasında «Mahur» və «Müxalif» təsniflərini, «Azərbaycan xalq mahnı və təsniflərindən ibarət konsert-kompozisiyası»nı və nəhayət, «Füzuli təsnifləri»ni eşidirlər. Dinləyicilər birdən-birə bu qədər musiqi çələnginin ətrindən məst olurlar, heyrətlənirlər.

Bülbül bu ərəfədə qəribə bir fənd işlədir. O hələ siftə-siftə bu cürə iri musiqi lövhələrini dinləyicilərə təqdim eləməzdən qabaq, necə deyim, bir az nəfəsini dərir. Bu səpgili mövzular ətrafında başlayır fırlanmağa, dövrə vurmağa. Özünü nisbətən asan musiqi əməliyyatlarında sınayır, yoxlayır. Başlayır Azərbaycan oyun havaları, «İnnabı», «Naz eləmə», «Şalaxo» kimi rəqslərin üstündə oxumağa. Bizcə, bu Azərbaycan musiqi tarixində, ifaçılıq sənətində yeniydi, yeni addımdı. Dinləyicilər bu qəfillikdən bir növ diksinən kimi olurlar. Amma, Bülbülün bu qəfilliyi, düşüncə və ifaçı orijinallığı onlara xoş gəlir, get-gedə bu onları sevindirir, həyəcanlandırır. Və illərdən bəri, əsrlərdən bəri yalnız çalıb-oynamaqdan ötrü yaradılan havalar Bülbül mərhələsində mahnıya, nəğməyə dönür, başqa bir çalarda, başqa bir şəkildə dinləyicilərə çatdırılır.

Qayıdaq bayaqkı söhbətimizin üstünə – təsniflərə.

...Tar Bülbülə hava yaradır. Bu istilik, bu meh get-gedə artır. Və birdən Bülbül səsi, Bülbül avazı adamı ovsunlayır. O birdən qabağı çoxdan kəsilmiş, göllənmiş çay kimi aşıb-daşır, çala-çuxuru, yal-yamacı basır. Yer var səs yaz yağışına dönür. Adama elə gəlir ki, Bülbül tək oxumur, o haray, o nərilti tək bir adamın, tək bir səsin gücündən kənar olan şeydi. Elə bil neçə-neçə istedadlı səs, məlahətli səs, neçə-neçə Bülbül elə birdəncə, xorla oxuyurlar. Səs düzənliyə buraxılan cilovsuz köhlən təki kişnəyir, haray qoparır. Sürətli qaçı-

şıyla, cürbəcür sıçrayışlarıyla nə var, hamısını arxada qoyur. Dinləyici Bülbül səsinin gedişini əməlli-başlı izləyəmmir. Səs ritmini, ahəngini o qədər tez, özü də o qədər usta, müxtəlif texniki və vokal fəndlərlə dəyişdirir ki, adam buna heyran qalmaya bilmir. Bir musiqi keçidinin ustalığı barədə fikirləşdiyin halda, bir də görürsən səs başqa bir yerə ilmə atır. İlmə get-gedə genişlənir, cilalanır və dinləyicilərin heç gözləmədiyi bir guşədə möcüzəyə çevrilir. Səs qalxır, səs enir, səs dünyada nəyi arzulayıbsa, nəyi arzulayırsa, onların hamısını eləməyə qadirdi. İstədiyi yerə enir, istədiyi yerə qalxır, rəqs havalarının üstündən keçir xalq havalarına, xalq havalarından keçir muğamlara, «Şur»a, «Şur»dan çıxır «Rast»a, sonra da başlayır rənglərlə «əlbəyaxa» olmağa, rənglərdən sonra keçir yenə xalq havalarına... Bir an, bir dəqiqədən sonra Bülbül səsinin nə eləyəcəyini, hansı yol gedəcəyini biləmmirsən. Bülbül bu yollara, bu gedişlərə o qədər bələddir, o bu yollarda özünü o qədər rahat aparır ki, hətta onun haradasa elədiyi cüzi yanlışı da tutammırsan. Bülbül elədiyi cüzi yanlış da naxışa, gülə çevrilir, elə belə, oxuya-oxuya, yol gedə-gedə təzə bir hava, bir mahnı yaranır.

Onu bu yerlərdə izləmək, müşayiət eləmək də çətindi! Gərək həmişə sərvaxt olasan. Gərək həmişə barmağın tətiyin üstündə ola – yoxsa ov əlindən çıxa bilər. Gərək ovunu birədə vurasan – vurammasan – Bülbül səsi başqa döngəyə, başqa dərəyə enir. Bülbülü müşayiət eləmək üçün təkcə mahir musiqiçi olmaq hələ azdı. Bülbülü müşayiət eləməkdən ötrü gərək Bülbülü hiss eləyəsən, onu bir işarədən anlayasan.

* * *

Böyük sənətkarın «Füzuli təsnifləri» adlanan incisi təkcə elə «Leyli və Məcnun» poeması əsasında yaranmayıb. Başqa sözlə desək, bu musiqi kompozisiyasının mətni bütünlüklə Füzuli poeziyasından ibarətdi. Qəribədi, Bülbül bu musiqi



parçasını yaratmaqda hansı sənət məqsədi güdmüş, o bu yeni işiylə nə demək istəmiş, yoxsa elə adi maraq, adi həvəs onu bu işə təhrik eləyib – məlum deyil. Amma, o bu cürə addımları, bu cürə təcrübələri əvvəllər də eləmişdi. «Vaqifi», «Azərbaycan xalq mahnıları və təsniflərdən ibarət konsert-kompozisiyası» da, təqribən bu səpkili, bu quruluşlu əsərlərdi.

Amma, Bülbül «Füzuli təsnifləri»nə xüsusi bir məhəbbət, xüsusi bir həvəslə yanaşmış, onu sənətin qaldıra biləcəyi bir zirvəyə qaldırmağa çalışmışdı. Ümumiyyətlə, Bülbül Füzuli sənətinə, Füzuli poeziyasına həmişə maraq göstərmiş, ona səcdə etmişdi. Bülbül böyük şairə həsr elədiyi məqalələrin birində yazır:

«Yaradıcılığımın ilk illərindən böyük Füzulinin qəzəlləri könlümdə dərin kök salmışdır. Hələ gənc yaşlarımda Cabbar Qaryağdıoğlunun oxuduğu «Şəfayi vəsli qədrin hicr ilə bimar olandan sor» qəzəli məni bu ecazkar sənətə məftun etmişdi.

Cavan yaşlarımda böyük söz ustadının əsərlərindən ilk dəfə oxuduğum «Bağa gir, bülbülə ərzi-gülü-rüxsar eylə» misrası ilə başlayan qəzəl idi. İndi o vaxtdan çox aylar, illər ötüb keçmişdir. Mən də Füzulinin qəzəllərini oxuyan bir çox xanəndələr kimi yaşa dolmuşam. Ancaq ölməz Füzulinin qüdrətli sənəti həmişə cavan, füsunkar və təravətli qalmışdır. Bu gözəl sənətkarın yaradıcılıq dühasına dərin minnətdarlıq hissiylə mən bu gün də eyni gənclik həvəsi ilə oxuyuram:

*Bağa gir, bülbülə ərzi-gülü-rüxsar eylə»...*

Kompozisiyasının elə əvvəlindən dinləyicini ələ alan qəribə hiss, yapışıqlı bir melodiya var. Dinləyici özünü nəsə yaxşı bir musiqi ab-havasına hazırlayır. Bu ab-hava get-gedə qızışır, iliq bir nəfəsə dönür. Yer var səs yay kimi dartmır – elə bil hansı bir zirvəyə sıçramağa, qalxmağa hazırlaşır. Səs möcüzə yaratmazdan əvvəl bir az yığılır, cəmlənir və birdən

var gücüylə, o gözəlliyilə dinləyici qəlbinə axır.

O, «Leyli və Məcnun» poemasından da qəribə istifadə eləyir. Yer var qəzəl oxuyur, muğam üstə qəzəl oxuyur. Yer də var adi danışığa, adi qiraətə keçir. Bülbül nəfəsi burada indiyədək dinləyicilərə çatdırılmamış başqa bir çalarda, başqa bir formada təqdim edilir.

Kompozisiyada əsərin əvvəliylə sonunu və kompozisiyanı bütün ifa boyu nizama salan, bir yerə yığan qəribə bir not, çox şirin bir nəqərat var. Və bu nəqərat növbəti gedişindən, növbəti keçiddən sonra təkrar-təkrar səslənir beləcə axıracan, axıra kimi...

Kim bilsin, bəlkə də elə «Füzuli təsnifləri» Bülbülün yalnız özünə məlum olan sənət sirləriydi. Bəlkə də elə bu, böyük müğənninin böyük şairə öz töhfəsi, öz hədiyyəsiydi. Vacib deyildi ha, o elə Füzuli əsrində yaşamış olaydı, onun müasiri olaydı. Bülbül «Füzuli təsnifləri»ni yaratmaqla bu məsafəni, bu zaman fərqini aradan qaldırdı, hər iki böyük sənətkar bir sənət nöqtəsində, əbədiyyətə qovuşdular. Burada sözlə səs əbədi bir ilqara, əbədi bir məhəbbətə qovuşdular – dünyanı, insanı xoşbəxt elədilər.

* * *

*Hər gecəm oldu kədər, qüssə, fəlakət sənsiz,*
*Hər nəfəs çəkdim hədər getdi o saət sənsiz!*
*Sənin ol cəlb eləyən vəslinə and içdim, inan*
*Hicrinə yandı canım, yox daha taqət sənsiz!*
*Başqa bir yarı necə axtarım, ey nazlı mələk,*
*Bilirəm, sən də dedin: «Yox yara hacət sənsiz»!*

Gərək bu dünyada hər şeyin bəxti ola! Gərək elə sözün, səsin də bəxti ola. Bu barədə «Sənsiz»in bəxti gətirib. «Sənsiz»i böyük şairimiz Nizami Gəncəvi yazıb. «Sənsiz»i böyük bəstəkarımız Üzeyir nəğməyə çevirib. «Sənsiz»i böyük



nəğməkarımız Bülbül öz ifası, öz hünəriylə əlçatmaz bir zirvəyə qaldırıb. Birdən-birə üç sənətkarın, üç dahi sənətkarın bir nöqtədə birləşməsi möcüzə yaradıb. Sənət möcüzəsi. Azərbaycanın söz tarixində, Azərbaycanın musiqi tarixində parlaq ulduz olan bu üçlük müxtəlif əsrlərdə yaşasalar da elə bil nə vaxtsa, hardasa bir yerdə olacaqlarını, bir yerdə qovuşacaqlarını elə əvvəlcədən biliblərmiş. Biliblər və elə buna görə də həvəslərinin üstünə əlavə ilham, onsuz da təbiətin onlara bol-boluna bəxş elədiyi istedadlarının üstünə əlavə istedad gətiriblərmiş. Yaxşı ki, bu üçlük xoş vaxtda dünyaya gəlib. Ona görə xoş vaxtda dünyaya gəlib deyirik ki, hələ «Sənsiz» yaranmazdan əvvəl dünyada Nizami vardı, Üzeyir vardı, Bülbül vardı. Onlar da bu səsə, bu sözə ilahi yanaşıblar, yaratdıqlarına əbədi uğur diləyiblər. Üç sənətkarın yaradıcılıq təfəkkürü olan «Sənsiz» sonralar bütün xalqın sevincinə, heyrətinə səbəb oldu. İndi «hamı «Sənsiz» oxuyur, indi hamı Sizsiz oxuyur»...

***HAŞİYƏ:***

Bəzən biz musiqimizdə Bülbül nəzarətini, Bülbül ifasındakı «Sənsiz»i unuduruq. Adama elə gəlir ki, nə bizim Cabbar Qaryağdıoğlumuz, nə Məşədi İsimiz, nə Mirzə Məmmədhəsənimiz, nə şəkili Ələsgərimiz, nə də Xanımız olub. Bunların heç birisi olmayıb. Nə o musiqimiz; o musiqimiz ki, bizdən çox-çox əvvəl dünyanı, insanları heyrətləndirib, onlara nə qədər xoş saat, xoş an bəxş eləyibdir. Beləysə bəs nə üçün bəzən bizim musiqimiz baş alıb gedir. Bayağılığı, dayazlığı ilə bir sıra müğənnilərimiz, ifaçılarımız, musiqi kollektivlərimiz əsrlərdən bəri bizi tərbiyə eləyən, əsrlərdən bəri bizim ürəyimiz, beynimiz üstündə əsən, bunu qorumağa çalışan ulu sənətkarlarımızın bizə qoyub getdikləri o incəlikləri, o xoş duyğuları zədələyirlər. Bizi tamamilə başqa, bayağı meyllərə çəkirlər. Adama elə gəlir ki, ancaq musiqisi olmayan, musiqi ənənəsi, musiqi məktəbi olmayan bir xalq bax belə, ağına-bozuna baxmadan, hara gəldi oradaca – toylarda,

məclislərdə, hətta belə çox təəssüf ki, mavi ekranlarda, efirdə də oxuyar. Beləlnəri heç nəyi hiss eləmirlər. Belələrinin yaddaşı, hafizəsi yoxdur. Belələri ulu sənətkarlarımızın «eyheyi»ni unudublar. Biz hər dəfə dahi Üzeyirin «Sevgili canan»ını, yaxud «Sənsiz»ini Bülbülün oxumasında dinləyəndən sonra bu günümüzün bəzi ifaçılarını da xatırlayırıq. Həmin ifaçıların xalqımızın ovqatı ilə, havası ilə uyuşmayan avazları, daha çox qonum-qonşudan gəlmə xalları xəyalımızda əks-səda verir. Sonra həmin səsləri, yad avazları maqnitofon lentlərinə yazıb və necə deyərlər, çiyinlərinə keçirib küçələrdə, avtobuslarda, vaqonlarda fasiləsiz oxudan bugünkü bəzi gənclər gəlib durur gözümüzün önündə. Başlayırsan fikirləşməyə: həmin gənclərimiz belə oxumaları yenilikmi sayır, təzəlik, müasirlikmi hesab eləyir. Ona qalsa Bülbül özü İtaliya məktəbi, Avropa məktəbi görmüşdü və əgər o da indinin bəzi müğənniləri kimi dırnaqarası yenilikçiliklə dinləyicilərinin sayını artırmaq, guya onlarla ayaqlaşmaq fikrinə düşsəydi, məlumdur ki, heç vaxt əlimyandıda qalmazdı.

Bu nə böyük istəkdir?... Biz istəyirik ki, ifaçılar öz üzərilərində ən azı Bülbül nəzarəti hiss eləsinlər. Ancaq bəzən əksinə olur. Bir də görürsən vaxtı ilə Bülbülün ifa elədiyi bir mahnını müasir bir ifaçı oxuyub elə pis kökə salır ki, ləzzət əvəzinə təəssüf hissi keçirirsən. Əgər təzəni gözəl şəkildə yarada bilmirsənsə, gəlin heç əvvəlkilərin gözəlliyinə toxunmayaq. Bəzən mətbuatda, efirdə, ekranda belə mülahizələrə təsadüf edirik ki, hər kəsin öz yolu, öz nəfəsi olmalıdır. Düzü bu olsa daha yaxşı. Ancaq bu keyfiyyətlər əslində dahilərə müyəssər olur. Bunu hər kəsdən ummaq bəlkə də düzgün deyil. Ancaq hər kəs, hər ifaçı ən azı bunu bilməlidir ki, addımladığı yolda Bülbül kimi nəhəng olub! Oxuduqları mahnıların, romansların, ariyaların «Bağçada güllər», «Sənsiz», «Sevgili canan», «Koroğlunun ariyası» kimi kökü, sələfləri olub!



Bunlardan ötrü heç dağa-daşa düşmək də lazım deyil. Bunları bilmək üçün çox demirəm, heç olmasa adi vətəndaş olmaq gərəkdi. Bülbülü, onun qızıl səsini yad eləmək, ona təkrar-təkrar qayıtmaq lazımdı.

Bülbül səsində daxili bir ehtiras, təpər var... Xanəndə o şeylərə girişir ki, bu həndəvərə hərlənməyin özü elə sənətkardan cəsarət tələb eləyir, hünər tələb eləyir. Bir də Bülbül şəxsiyyətini adamın gözündə ucaldan odur ki, o heç vaxt mənəvi sarsıntıdan, bir azda köntöy desək, sənətdə başının daşa dəyə biləcəyindən ehtiyat eləməyib. Əksinə, o bu işə eşqlə, həvəslə yanaşıb. Bülbülə elə gəlib ki, başladığı bu iş elə onun son əsəridir, son ifasıdır. Sənətdə nəyə qadir idisə, sənətdə gücü nəyə çatırdısa hamısını qoyub ortalığa... Təkrar edirəm, hamısını...

Adamı vahimə basır... Düşünürsən ki, Nizami dühasına, Nizami sənətinə daha nə əlavə etmək olar? Ümumiyyətlə, Nizami sənətinin heç əlavəyə ehtiyacı varmı? Nizami özü buna yer qoyubmu?... Sözün yaxşı mənasında, Bülbül Nizami sənətinə, Nizaminin «Sənsiz»inə, «Vəslin həvəsi»nə, «Sevgili canan»ına əlavə yar-yaraşıq verdi. Üzeyirin Nizamiyə layiq musiqisinə, layiqli də ifaçı, yaradıcı oldu. Hətta deyilənə görə, böyük bəstəkar Nizami Gəncəvinin gözəllərinin yeddisinə də ayrı-ayrılıqda hərəsinə bir romans bəstələmək niyyətindəymiş. Özü də bəstəkarın ən böyük istəyi, ən böyük arzusu buymuş ki, bütün bunlar ancaq Bülbülün ifasında, Bülbülün avazında sənətsevərlərə çatdırılsın. Qəribədi, deyilənlər niyə həyata keçirilməyib, nə olub ki, bəstəkarın düşündükləri yarımçıq qalıb, dinləyicilər yalnız «Sənsiz»i, «Sevgili canan»ı eşidiblər. Əlbəttə, bütün bunlar bizə məlum deyil. Bu sırf yaradıcılıq sirləriydimi, yoxsa böyük bəstəkarın başı daha ayrı yaradıcılıq axtarışlarına qatışmışdı, yoxsa elə ömrü buna imkan verməyib – bilinmir. Amma Üzeyir Hacıbəyov təkcə elə bu romans-qəzəllərilə də musiqi həvəskarlarına əbədi bir hədiyyə qoyub getmişdir.

Kimlər idi Bülbülün müraciət elədiyi söz ustaları? Nizami, Füzuli, Vaqif, Məmməd Səid Ordubadi, Cəfər Cabbarlı, Səməd Vurğun... bu siyahını uzatmaq da olar. Bülbül o şeyə qol qoyurdu ki, burada ifaçı əl-qol ata bilsin, o şeyləri eləyə bilsin ki, bu ifaçıya, sənətinə müyəssər ola bilsin. O şeylər ki, söz sənətinə aiddir, o ünsürlər ki, bəstəkarın özünə aiddir – artıq Bülbül bu yerlərdə ehtiyatlı olur, ifa eləyəcəyi mahnınımı deyək, romansımı deyək, neçə dəfələrlə götür-qoy edir və bütün bunlardan sonra özü bu işə girişirdi. Bülbül sənəti təsadüfi söz düzənlərdən, həvəskar bəstəkarlardan həmişə uzaq olub – Bülbülün «sərçə uçuşlardan» həmişə zəhləsi gedib, o sənətdə həmişə «qartal qanadlılara» xeyir-dua verib, onların uçuşundan fərəhlənib. Bu bəlkə də ona görə beləydi ki, Bülbül özü də sənətdə qartal idi, o hər şeydə bir tamlıq, ucalıq axtarırdı. Bülbül bəzən tək bir mahnını ifa etməsiylə də qartal səviyyəsinə ucalır, ona əbədi bir həyat vəsiqəsi verirdi. Adama elə gəlir ki, Bülbül tək bircə mahnı ifa etsəydi belə, onun repertuarı tək bircə, deyək ki, elə təkcə «Ölkəm» romansından ibarət olsaydı da, o yenə musiqi tariximizdə, ifaçılıq sənətində iftixarla yad ediləcəkdi. Bülbül öz ifasında bir mahnının dinləyiciyə bol-boluna təsir eləyə biləcəyi imkanından da qat-qat qabağa gedir, onu ifaçıya ram ola biləcək ilahi bir zirvəyə qaldırır.

* * *

Elə gəlin qayıdaq bayaq adını çəkdiyim «Ölkəm» romansının üstünə. «Ölkəm» Bülbülün ifasında Vətənin tərənnümünə çevrilir. Adam Bülbülün ifasında «Ölkəm»i dinlədikdə bütün Azərbaycan – kəndləriylə, şəhərləriylə, çayları, gölləri, yamaclarıyla gəlib durur gözləri önündə! Bülbül «Ölkəm»i Vətənin, Azərbaycanın obrazı səviyyəsinə qaldırır, «Ölkəm» dinləyici gözlərində Vətənə dönür, Azərbaycana dönür.



Qəribədi, cürbəcür adamlardan onun barəsində müxtəlif mülahizələri eşidirsən və başlayırsan bir insan, bir vətəndaş kimi Bülbül ətrafında fikirləşməyə. Bülbülün gördüyü, elədiyi işlər o qədər çoxdur ki, o qədər genişdir ki, fikirləşəndə də onun barəsində dərin düşünməyə məcbur olursan. Bülbül bu tərəfdən baxılıb, o tərəfdən asanlıqla dərk edilən, görünən sənətkar deyil. Bülbül təkcə bir sahədə çalışmayıb ha, deyəsən hə, mən bu sahəni öyrənmək istəyirəm, bu sahəni tədqiq etmək istəyirəm. Bülbül sözün həqiqi mənasında yenilikçidi, yeni yol açandı. Bu yolun neçə-neçə cığırları var – bir sözlə Bülbülü bir ifaçı, bir xanəndə kimi öyrənməkdən ötrü gərək gecəni-gündüzə qatasan. Bu sahədə istənilən qədər fikir irəli sürə bilərsən – Bülbül bu sahədə tükənməzdi, anbaan maraqlıdır!

Bundan əlavə, Bülbül həm də böyük musiqi tədqiqatçısıdır, böyük musiqişünasdır. O, Azərbaycanı kəndbəkənd gəzib, 500-dən artıq el havaları, təsniflər, dastanlar toplayıbdır. Ümumittifaq əhəmiyyətli, respublika əhəmiyyətli neçə-neçə musiqi məclislərinin ilk təşəbbüskarı, qabağa düşəni olub.

Bülbülün musiqiyə aid çıxışları, məqalələri, məruzələri də onun ifaçılığı kimi maraqlıdı, orijinaldı. Həm də bütün bunların xüsusi tədqiqata, xüsusi təhlilə ehtiyacı var. Əgər Bülbül müğənni olmasaydı belə, o musiqiyə aid istər Azərbaycan, istərsə də Ümumittifaq mətbuatında dərc edilən yazılarıyla da musiqi tariximizdə qalardı. Hələ mən onun tərtib elədiyi, redaktorluq elədiyi ikicildlik «Azərbaycan xalq havaları» kitabını demirəm. Adam Bülbül məqalələrinin, məruzələrinin dilinə, elmi dərinliyinə heyran qalmaya bilmir. Bülbül bu məruzələrində incə bir musiqişünas, həssas bir tədqiqatçı kimi meydana çıxır. Hətta, cəsarətlə onu demək olar ki, Üzeyir Hacıbəyovdan sonra Bülbül bir musiqişünas kimi, bir musiqi tədqiqatçısı kimi görkəmli yer tutur.

Hələ mən onun müəllimlik fəaliyyətindən, pedaqoqluğundan danışmıram. Görünür, istedadlı adam elə hər yerdə

istedadlıdı. Adi toylarda xanəndəlikdən başlayan tale, gəlib konservatoriyanın professorluğunadək ucalmışdı və sözsüz, bu tərcümeyi-hal Şuşa, Şirvan, Tiflis, İrəvan və nəhayət, Moskva, Milan, Qərbi Avropada daha da zənginləşmişdi. belə bir tərcümeyi-hala sahib olan insanın tələbələrinə deməyə nə qədər sözü varmış, söhbəti varmış. Bülbül bu yollarda kimləri görməmişdi, məşhur ifaçıları, bəstəkarları, dirijorları? Elə hərdən eşitdiyi bir sözü, bir kəlməni tələbələrinə danışsaydı da bu tələbələr üçün ən böyük xoşbəxtlikdi.

Təzədən bayaqkı mətləbə qayıdıram. Bülbül bir tərəfdən görünən, görünən kimi də aydın olan, yaradıcılıq palitrasında tək bir rəngdən istifadə eləyən sənətkar olmayıb. Bülbülün sənəti min rəng, min bir çalarda təsvir edilib. Başqa sözlə desək, Bülbülə tək bir nöqtədən yanaşmaq mümkün deyil. Bülbül bütün nöqtələrdən baxılır. Bülbül yaradıcılığı təkcə bir səhifəsiylə yox, bütün səhifələriylə, küll halında maraqlıdı, məzmunludur.

İndi adi hal alıb xanəndələrin, ifaçıların zavod və fabriklərə, kolxoz və sovxozlara getməyi, fəhlə və qulluqçuların, torpaq adamlarının qabağında çıxış eləmələri. Lakin 30-40-cı illərdə, Bülbülün vaxtında bu tədbirlər, musiqinin bu cürə təbliği hələ indi-indi formalaşır, özünə yol açırdı. Yenə də xalq mahnılarıyla, milli musiqi nümunələriylə el arasına çıxmaq, camaat arasında görünmək bir o qədər də çətin deyildi. Ətrafına adam toplaya bilərdin, oxuduqlarını başa düşənlər, sevənlər tapılardı. Amma deyək ki, bunu simfonik əsərlərin, bəstəkar mahnılarının ifası haqda söyləmək çətindi. Burada məsələ söz-söhbətsiz, izahsız keçinmirdi.

Bülbülə də elə belə bir məqam lazım idi. Bülbül xalq içindən çıxmışdı. Xalqı iliyinədək tanıyırdı. Bundan əlavə Bülbül xalq havalarının, təsnif və muğamların mahir ifaçısıydı, o bunu dəfələrlə göstərmiş, sübut eləmişdi. Bülbülün danışmağa sözü vardı, təcrübəsi vardı. Və ən nəhayət, əsaslı, proqramlı musiqi təhsili, konservatoriya təhsili vardı. Bülbül



səslə sözün, dedikləriylə elədiklərinin vəhdətiydi. O, camaat arasına istədiyi sovqatla – bu istər xalq mahnıları olsun, istərsə də təsnif, muğamat, bəstəkar mahnıları, simfonik əsərlər olsun – çıxa bilərdi! Və onu istədiyi ovqatda, istədiyi səviyyədə dinləyicilərə çatdırardı.

* * *

Bülbül sənəti Azərbaycan musiqisinin inkişaf eləyib müəyyən bir zirvəyə qalxdığı nöqtədən başlayır. O nöqtədən ki, bu nöqtə hərəkət etməliydi, iş görməliydi. Özü də gərək elə hərəkət eləyəydi ki, elə iş görəydi ki, bu işi, bu hərəkəti hamı təsdiqləyəydi, onun yaxşılığını, yeniliyini hamı – bütün dinləyici ordusu bəyənməliydi. Deməli, bu yerdə Bülbül səsi daha geniş üfüqlərə boylanmalıydı. Bülbül sənətinin bu məqamı hələ irəlidəydi, qabaqdaydı. Bu sənətin böyüklüyü, qol-qanadlı olması onun istər Azərbaycan, istər qardaş sovet xalqlarının, istərsə də xarici bəstəkarların əsərlərini ifa etdiyi zaman meydana çıxdı, bu daha aydın göründü. Sənət bu yerdə şaxələnmiş budağı bir kök, bir gövdə üstündə saxlamaq, pərvazlandırıb sonra da göyün bir qatına qaldırmaq... Çətin idi, ona görə ki, hər qolun, hər budağın öz istəyi, öz arzusu vardı. Hərə bir tərəfə baş alıb gedirdi. Budaq vardı, ulduz həsrətindəydi, qol vardı bulud. Eləri də vardı o ipə-sapa yatmır, səmanın ənginliklərinə doğru, hətta Günəşə, Aya can atırdılar.

...Kökdə bu güc, bu hünər vardı. Kök yerin yeddi qatına lağım atmış, o harada sərin, harada şəffaf sular, çeşmələr vardı – elə ordanca, o gözdən qidalanır, yerin dərin-dərin qatlarında şirin, təravətli nə vardısa elə o cür də dərdi-səri, sayı-hesabı bilinməyən sərvəti vardı. Bayatılar, nağıllar, rəvayətlər, dastanlar, meşə və sularımızın zümzüməsi, nə isə, torpaqla, onun xalqıyla bağlı nə vardısa – bütün bunların hamısı Bülbüldə, Bülbül sənətində cəmləşmişdi, toplanmışdı.

Bülbül sənəti elə bir kök, elə bir gövdəydi ki, bütün bu dediklərimizi o çox asanlıqla üstündə saxlayır, onun ağırlığını belə hiss elətdirmirdi.

Azərbaycan professional musiqisi, xüsusilə də mahnılarımız Bülbül simasında özünün orijinal ifaçısını, yaradıcısını tapdı. Bülbülü Bülbül eləyən o idi ki, o təkcə not vurğunu, not ifaçısı deyildi. Bülbül ifasında bir yanğı, bir pərvanəlik, bir aşiqlik var. O mahnıları oxumur ha, o alışıb-yanır, o avaz, nəfəs dinləyicini anbaan ovsunlayır, fikrinə, düşüncəsinə hakim kəsilir. Musiqi cilalanır, qidalanır və beləcə axıra kimi, mahnı qurtaranacan davam eləyir.

Qəribədi, mahnılar var bəstəkarın, söz yazanın adıyla yox, Bülbülün adıyla xatırlanır, tanınır. Özü də burada mahnının başqa yaradıcılarına qarşı nə bir ögeylik, nə bir saymamazlıq var. Əksinə, mahnının o biri yaradıcıları Bülbülün fonunda daha da ucalır, şöhrətlənir. O, hətta istedadla bəstələnmiş əsərləri də, lap belə başqa müğənnilər tərəfindən uğurla ifa edilmiş mahnıları belə səsinin gücüylə, əlavələriylə özününküləşdirir, onu öz malı eləyir. Ona əbədi, heç kimin qarışa bilməyəcəyi, heç kimin şərik çıxa bilməyəcəyi bir sənət möhürü vurur. Adamın ağlına da gəlmir ki, «Ala gözlü»nü, «İntizar»ı, «Gözlərin»i, «Göy göl»ü, «Gözəldir»i ayrı bir müğənni oxuya bilə, bu mahnılar başqasının adıyla tanına. Deyirsən bunlar elə təkcə Bülbülündü, təkcə Bülbülün ifasında səslənməlidir, ayrı heç kəsin...

Bəstəkar da var, onun tək bir mahnısını, təkcə bir nəğməsini belə Bülbül ifa etdiyinə görə özünü xoşbəxt sayır. Bunu sənətinin təntənəsi hesab edir.

İndi çoxlarının «əmək mahnılarıdır», «istehsalat mövzusudur», «əmək qabaqcılıdır» deyə başını girləyən, mövzunu, mahnını dinləyici malı eləyə bilmədiyinə görə, müxtəlif bəhanələrə əl atdığı bir vaxtda, görün, hələ neçə il bundan əvvəl bu cür mövzular Bülbülün ifasında necə qanadlıdır, necə sənət vüsəti kəsb eləyir.



Böyük sənətkar təkcə istedadına, musiqi biliyinə arxalanmayıb fəhlə və kolxozçularla, əmək qabaqcıllarıyla bərbəzəkli konsert salonlarında deyil, böyük-böyük iclaslarda deyil, pambıq tarlalarında, iş üstündə görüşür, bu aləmə bir uşaq marağıyla, uşaq gözləriylə baxır... Göy suların qovhaqovuna, «qara qızıl» ustalarının asan olmayan işlərinə öz gözüylə baxır. Gördüklərinə, eşitdiklərinə öz gördüyünü, öz eşitdiklərini əlavə eləyirdi – yuxusuz gecələri sayəsində, bitib-tükənməyən həvəsi sayəsində – bu cür mahnılar get-gedə kamilləşir, hamının xoşuna gələn bir musiqi parçasına çevrilirdi. Əslinə qalsa, heç Bülbül bütün bunları eləməyə də bilərdi. Bülbülün tərcümeyi-halı, görüb-götürdükləri o qədər çox idi ki, o qədər zəngin idi ki, buna onun ehtiyacı da yox idi. Amma, böyük sənətkarlara xas olan keyfiyyətlər – sənətə bütün varlığıyla bağlılıq, sənətdə böyük, kiçik mövzular yoxdur, hər şey sənət üçündür – keyfiyyətləri Bülbüldə də vardı. Elə buna görədir ki, az keçmir o, «Sürəyya», «Neftçi Qurban» mahnısı, «Əmək mahnısı» kimi nəğmələri lentə yazdırır.

Bunların coğrafiyası da genişlənir. «Bakı haqqında mahnı», «Ukraynaya salam» dostluq və qardaşlıq çələnginə çevrilir. Bu mahnılar musiqi tariximizin müəyyən dövrünü əhatə edir, zamanın fərəhini, quruculuq işlərinin sevincini özündə yaşadır. Bu illər neçə-neçə insanın, böyük bir xalqın – Sovet xalqının arzu və əməllərinin, istək və duyğularının ifadəsi, hayı-harayıydı. İllər keçib, neçə-neçə uğurlu işlər görülüb, mahnılar da o illərin, o dövrün ən əziz xatirəsi tək, ifadəsi tək elə bu gündəcə əhəmiyyətlidir, gərəklidir.

Sözün düzü, adam siftə-siftə Bülbülün böyüklüyünü, onun bizim musiqimizdə, vokal sənətimizdə yerini bir o qədər də görəmmir, hiss eləyə bilmir. Adi dinləyici olasan, özü də təkdənbir, düşəndən-düşənə Bülbülü dinləyəsən – bu hələ Bülbülü sevmək, öyrənmək demək deyil. Deyilənlər, bir dinləyici, bir musiqi həvəskarı kimi mənim özümə də aiddir. Qabaqlar Bülbüldən söz düşəndə mənə elə gəlirdi ki, Bülbü-

lü, Bülbül sənətini əməlli-başlı bilirəm. Hər halda ürəyimin lap dərinliklərində buna bir az şübhəm olsa da, bunu üzə vurmurdum. Mən də camaat kimi Bülbüldən söz düşən kimi deyirdim: «Bülbül böyük sənətkardı». Amma «bu böyük sənətkar» nəyə görə, hansı keyfiyyətlərinə görə böyükdü, bu mənimçün aydın deyildi. Bülbülü bir dinləyici, bir musiqi həvəskarı kimi özünçün aydınlaşdırmaq da çətindi, mürəkkəbdi. Bu həm adamdan çoxlu vaxt, səbir və təmkin tələb eləyir, həm də gərək bu işə həvəslə yanaşasan, ürəklə yanaşasan. Çünki Bülbül bir musiqiçi kimi, musiqi tədqiqatçısı, vokal ustası kimi və ən nəhayət, böyük ifaçı kimi o qədər yeniliklərin, fikir və mülahizələrin təşəbbüskarı olub ki, Azərbaycan musiqisinin inkişafına aid o qədər uğurlar onun adıyla bağlıdır ki... bilmirsən Bülbülə hayandan, hansı səmtdən yanaşasan, sənətkarın keçdiyi həyat yoluna, onun gördüyü işlərin izinə düşəsən – heyrət adamı bürüyür... Qalırsan məəttəl, o istirahətini necə qurub, nə vaxt yatıb, nə vaxt durub – bu həyatın mənası elə başdan-başa işdən ibarət imiş... Qalırsan od ilə su arasında. Görəsən heç Bülbül ailəsinə, uşaqlarına vaxt ayıra bilirmişmi?...

* * *

Bülbül Azərbaycan bəstəkarlarının mahnı və romanslarını hansı həvəs və məhəbbətlə oxuyurdusa, başqa xalqların mahnı və romanslarını da o həvəslə, o ustalıqla oxuyurdu. Müğənni üçün dərdin, kədərin, sevinc və fərəhin özgəsi, doğması yoxdur. Bu istər Ukrayna xalq mahnısı «Qaş qaralanda» olsun, istərsə də Neapol mahnısı «Sənə ancaq dost ola bilərəm» olsun – fərqi yoxdur. Bülbül bu melodiyaları ətəqana gətirir, onları yeni-yeni dinləyici ordusuyla tanış eləyir, hiss edilsə də ki, bu mahnıları Bülbül oxuyur, Azərbaycan müğənnisi oxuyur, amma bütün bunlara qarşı heç də dinləyici marağı azalmır, əksinə bu mahnılar yeni-yeni keyfiyyətlər qazanır, şirin bir musiqi lövhəsinə çevrilir.



...Səs tamam başqa aləmdi... Onun həzinliyi, melodizmi dinləyici qəlbinə axır. Bu yerlərdə Bülbül bəlkə də ona görə belə ifadəlidir ki, o bir növ illərlə ifa elədiyi, öyrəşdiyi Azərbaycan musiqi aləminə bir az yadırğayıb, yeni bir melodik aləmə düşüb. Bu mahnılar başqa xalqların dilində olduğuna görəmi, yoxsa o xalqların hiss və duyğularını, məhəbbət çalarlarını ifadə elədiyinə görəmi belədi, yoxsa elə mahnıların vokal imkanları, Bülbülün zəngin ifaçılıq imkanlarıyla qovuşub, yeni keyfiyyətlər kəsb eləyib – deyəmmərəm! Amma Bülbül bu mahnıların ifasında həddən-ziyadə emosionaldı, təsirlidi. Dinləyici özünü bir anlığa Ukrayna çöllərində, Dnepr sahillərində hiss eləyir. Ukrayna gecələri, bu gecələrdə oxunan xalq havaları, haylı-küylü nəğmələr bütün təfərrüatı ilə, bütün varlığıyla adamın qulaqlarında səslənir. Səs birdən fəvvarə tək havaya qalxır, göy üzünü min bir xətli su qurşağına çevirir və birdən də qəfil kəsilən səs kimi elə o yüksəklikdən, elə o qəlbilikdən təpəsi üstə enir aşağı – bayaqkı ucalıqdan əsər-əlamət belə qalmır.

Mahnıları bu cür yüksək estetik səviyyədə dinləyicilərə çatdırmaqçün təkcə sənətkarlıq azdı. Bülbül ifasında mahnının mənsub olduğu xalqa qarşı məhəbbət var. O xalqın folklor və vokal sərvətlərinə qarşı bir vurğunluq var. Bülbül özgə dərdini öz dərdi-sərinə, başqasının ağrı və acısını öz ağrısına çevirir. Adam bir anlığa bu mahnıların Bülbülün ifasında səsləndiyini unudur – elə bil İtaliya müğənnisini, Ukrayna müğənnisini dinləyirsən.

Tək bir nəfərin qəlbində başqa millət və xalqların ən gözəl hiss və duyğularına o qədər yer verilib ki, onlara o qədər naz, qəmzəylə yanaşılıb ki – bilmirsən özününkü hansılardı, özgələrinki hansılar... Bülbül bunların hamısını öz övladları tək, öz əzizi tək dinləyicilərə çatdırır.

Bu eyniylə də onun opera əsərlərinə münasibətində belədi, onların ifasında belədi...

*İKİNCİ HAŞİYƏ.* Bizim kənddəki – Veysəllidəki evimizin eyvanından baxırsan – Kirs dağı görünür... Uşaqlıq illərindən ağzı bəri o dağın mənim qəlbimdə oyatdığı o qədər söz-söhbətlərim var ki, bunları söyləməklə qurtarmaq olmaz. Sözümün canı başqadı, demək istədiyim mətləb ayrıdı. Doğrudur, görünməyə qalsa, dağ görünür. Amma, evimizlə, eyvanımızla Kirs arasındakı məsafədə görünəsi, baxılası o qədər başqa gözəl yerlər var ki... Elə ən maraqlısı, elə ən baxımlısı da burada olannardı... Siftə-siftə başlayır üzüm bağları, alma, armud bağları... Bağlar gedib dirənir narrığa, o da təbii meşələrə... Dağların, dərələrin, qobu və yarğanların ümumi mənzərəsi, bir yerdə görünməsi – insan qəlbində, insan gözlərində qeyri-adi bir gözəlliyə çevrilir. Dağ beliylə bulana-bulana gedən yollar, bu yollarda arxasınca toz qoparan maşınlara baxırsan – mütəəssir olursan. Hayana baxsan, qəlbinə, gözlərinə doğmalıq gətirən bir şeyi görürsən. Məsələ təkcə baxmaqla da bitmir ha?! Baxdığın hər dağın, hər gədiyin arxasında uşaqlıq vaxtından ta bu günəcən ata-babaların sənə söylədiyi neçə-neçə nağıl və rəvayətlər, mahnı və dastanlar yatır. Qanlı gədiyə baxırsan gədik barəsində əsrlərdən bəri söylənilən əfsanə yadına düşür. Baxa-baxa fikirləşirsən ki, kaş elə indi Qaya bulaqda,-Tək çinarın yanında olaydım. Onun göz yaşı kimi duru, sərin suyundan doyunca içəydim. Fikrən, xəyalən Ağoğlanı, Duanalları, tut bağlarını gözdən keçirirsən. Sonra da uşaqlığını, nə vaxtsa buralarda əlataş olduğunu yadına salırsan. İndi yeri itib-batan, izi-tozu belə qalmayan su dəyirmanlarını – Süleyman kişinin, Soltanalı kişinin dəyirmanını yad eləyirsən – ürəyin göynəyir. Deyirsən elə bu ögeylik, bu soyuqqanlılıq təkcə bulaqlarımıza, kəhrizlərimizə, dəyirmanlarımıza qarşı deyil, elə bu ögeylik, elə bu saymamazlıq uşaqlığımıza, xatirələrimzə qarşı da belədi, deməli insanın dünyada yad eləyə biləcəyi əziz nə varsa – hamısına qarşı belədi.



Sonra da fikrində, xəyalında aydınlıq yaratmaq üçün özünü verirsən Xəzəyin meşəsinə... Əsəblərin dünyanın lal sakitliyindən dincəlir. Yarpaq pıçıltısından, quş civiltisindən savayı heç nə eşitmirsən. Və belə bir məqamda, fikrin, düşüncələrin aydınlaşdığı bir vaxtda Kirs dağı bütün əzəmətiylə, bütün vüqarıyla gəlib durur gözləriyin qabağında. Bu görkəm, bu əzəmət o qədər təsiredici və güclüdür ki... İndiyədək gördüklərin onunla müqayisədə heç nədi...

Demək istədiyim odur ki, Bülbül, xüsusilə də onun operaya münasibəti, musiqinin bu çətin və mürəkkəb janrındakı fəaliyyəti həmişə mənə o Kirs dağını, o dağın uzaqlığını, əlçatmazlığını xatırladıb. Həmişə mənə elə gəlib ki, Bülbülün opera sahəsindəki uğurları Kirs dağı təki qəlbi, insan gücündən kənar, sirli-soraqlı bir aləmdi. Və heç bir vaxt, heç bir zaman, heç bir ins-cins bu aləmə qədəm basa bilməyəcək, bu heç kəsə müyəssər ola biləcək sənət zirvəsi deyil... Bülbül sənəti uzaqdan görünən, elə bu uzaqlığıyla da hamını daim heyrətləndirən, intizarda qoyan əbədiyyət qalasıdır – hamı oraya can atır, hamı oraya səcdə edir, amma heç kəs bu arzuya, bu istəyə çatammır...

Otuzuncu, qırxıncı illər Azərbaycan operası üçün məhsuldar illər olub. Qliyerin «Şahsənəm», Müslüm Maqomayevin «Nərgiz» operaları, xüsusilə də 1937-ci ildə «Koroğlu»nun meydana gəlməsi musiqi aləmində hadisəydi, yeni bir dövr idi. Bülbülün bu dövrdəki fəaliyyəti, onun bu operalardakı iştirakı isə xüsusi qiymətə layiqdi. Bu əsərlərin yaranması, səhnə həyatı Bülbülün elə bir xoş vaxtına, ömrünün elə bir yetkin dövrünə düşmüşdü ki, buna ancaq sevinmək, bununla ancaq fəxr eləmək olardı.

Az keçmir onun opera səhnəsində yaratdığı – Kərəm, Aşıq Qərib, Xosrov, Əlyar, Əsgər, Aslan, Nizami, Hersoq, Kavaradossi kimi obrazlar geniş tamaşaçı auditoriyasında şöhrət qazanır.

«Şahsənəm» operasında Bülbülün yaratdığı Aşıq Qərib obrazı bəzi lirik-romantik operaların inləyən, sızlayan, daim əzab çəkən qəhrəmanlarından tamam fərqlənirdi.

Xalq mahnılarını və klassik musiqini gözəl bilməsi və bunların hər ikisini yüksək səviyyədə ifa etməsi Bülbülün oyununa qeyri-adi füsunkar vüsət gətirdi. Sanki Aşıq Qərib əfsanəvi bir aşıq yox, məhəbbətin qanadlarında gerçək dünyada yaşayan bir quş idi.

«Şahsənəm» operası bir də ona görə əhəmiyyətliydi ki, o Bülbül üçün, Bülbülün başqa iri həcmli əsərlərə keçməsi üçün körpü oldu, buna zəmin yaratdı. Əlbəttə, İtaliyada təhsil almış, Avropanın ən yaxşı operalarıyla tanış olan bir sənətkar uzun müddət bir yerdə qala bilməz, o təkcə süjeti eşq, məhəbbət və əfsanələrlə bağlı əsərləri oynaya bilməzdi. Həqiqətən də bu səpgili əsərlərdə mürəkkəb musiqi dramaturgiyasına, simfonizmə üstünlük verilmirdi. O bir növ Bülbülə çoxdan məlum olan xalq melodiyalarını təzədən xatırladır, hər üzünə bələd olduğu muğamları yada salırdı.

Müslüm Maqomayevin «Nərgiz» operası məhz bu sənət boşluğunu, bu mənəvi ehtiyacı aradan qaldırdığına görə maraqlıydı. Vaxtında yaranmış əsərdi. Doğrudur, «Nərgiz» də «Şahsənəm» kimi Azərbaycan xalq musiqisindən istifadə əsasında qurulmuşdu. Lakin, bu, adicə olaraq musiqi toplusu deyildi, iqtibas demək deyildi. Bu, folklor materialı əsasında bəstəkarın təxəyyülündən süzülüb gələn əsər idi.

Bülbülün ifasında Əlyar obrazı üsyankardı, Azərbaycanın üsyankar kəndlisiydi. Adama elə gəlir ki, yerin, göyün sahibi elə Əlyardı, bu çaylar, bu göllər, bu ormanlar elə hamısı onundu, ona tabedi. Əlyar Nərgizə məhəbbətini, istəyini izhar eləyəndə daha maraqlıdı, daha insanidi. Bu an Əlyar ipək kimi yumşaq, kövrək hisslər, göyərən duyğular aləmiylə yaşayan bir insandı. İllah da duet zamanı, o vədə ki, hər ikisi hiss və duyğularına qol-qanad verir, onun pərvazlanmasına şərait yaradırlar. Sevənlər üçün dünyada heç nə yoxdu. Ayrı



cür desək, onlar bu geniş, bu ucu-bucağı görünməyən dünyada özlərindən savayı, özlərindən başqa heç kəsi görmür, eşitmirlər. Dünya, bu dünyanın naz-neməti var, bu dünyada nə qədər gözəlliklər var – hamısı onlarındı, onlardan savayı heç kəs buna sahib ola bilməz. Hiss, duyğu, xoş ovqat baş alıb gedir – sevənlər bu ab-havanın təsiriylə yaşayırlar.

Bülbül eyni bir mövzuya, eyni bir mətləbə dönə-dönə, təkrar-təkrar qayıdan və hər qayıtmağıyla da bu mövzuda yeni-yeni mətləblər, çalarlar axtaran, tapan sənətkardı. Bülbül sənətinin ümumi mənzərəsinə bələd olmayan dinləyiciyə elə gəlir ki, o, böyük mütəfəkkir şairimiz Nizami Gəncəvi haqqında nəyi bacarıbsa, Nizami Gəncəviyə layiq nə varsa – bütün bunların hamısını eləyib. Onun sözlərinə yazılmış «Sənsiz», «Sevgili canan» romanslarını sənət zirvəsinə qaldırıb, onlara əbədi bir həyat bağışlayıb. Qəribədi, deyirsən daha bundan da artıq nə eləmək olar, bir halda ki, sənətin fəth eləyə biləcəyi nə varsa, bunların hamısını Bülbül eləyib.

Görünür, Bülbül kimi sənətkarlar üçün sənətin, axtarmağın sonu yoxdu. Onun kimi ifaçılar ömrü boyu axtarır, ömrü boyu öyrənir.

Məmməd Səid Ordubadinin librettosu əsasında Əfrasiyab Bədəlbəylinin «Nizami» operası da Bülbülün həyatında belə bir rol oynamışdır. Böyük nəğməkarın həyat yoldaşı Adilə Məmmədova ona həsr elədiyi kitabında yazır: «Operada Nizaminin partiyasını Bülbül ifa edirdi. O bu mürəkkəb rolu böyük həvəslə, böyük səylə hazırlayırdı. Onun yaradıcılıq laboratoriyasının qapıları həmişə açıq olurdu, sanki Nizami əsərləri keşməkeşlərdən keçərək, ona qonaq gəlmişdi. O, Nizami dövrünü dərindən-dərinə öyrənir, gözəl söz ustasının poemalarını, qəzəllərini dönə-dönə oxuyur, böyük sənətkarın şəxsiyyətinə, həyatına, dövrünə aid olan hər bir məsələ ilə maraqlanır, çox sevdiyi Nizaminin səhnə obrazını ləyaqətlə yaratmaq üçün gecəni-gündüzə qatırdı.

Nizami – Bülbül hər şeydən əvvəl mütəfəkkir, filosof

idi. Onun gözlərində ağıl, şair – mütəfəkkirin zəngin daxili aləmi əks olunurdu. Hərəkətləri təmkinli və əzəmətli idi. Ən çətin vokal partiyalarını, xüsusən ikinci pərdədə böyük diapazon tələb edən gözəl ariyanı Bülbül asan və təbii ifa edir, ümumi həyəcan doğururdu. O, qəhrəmanın hər sözünü aydın, sonsuz dramatik ifadə ilə oxuyurdu. Vokal texnikasına mükəmməl yiyələndiyindən çox asanlıqla zilə qalxırdı».

O, bu illərdə təkcə Azərbaycan operalarıyla məşğul olmur, həm də Qərbi Avropa klassik operalarından nümunələr seçir, onu yüksək ustalıqla həmyerlilərinə çatdırırdı. Bir növ o, Azərbaycan musiqi aləmində indiyədək elədikləriylə kifayətlənmir, yeni-yeni əsərlərə, bəstəkarlara müraciət edirdi. Onun «Toska» və «Marta» operalarından oxuduğu ariyalar, xüsusilə də Kavaradossinin ariyaları – dinləyicilərə ən yaxşı hədiyyəydi. Bülbül sənəti, Bülbül ifası burada da misilsizdi. Bu sənətə xas olan yüksək ton, ağayanalıq, yerlə-göylə əlləşmək meylləri – bu yerdə tamam başqa ab-havada, çalarda səslənir. Səs bu yerdə həzindi, qəmlidi, hətta yer var səs iniltiyə, hıçqırığa çevrilir. Bu hıçqırıq adamın ürəyini göynədir, qəlbini sıxır. Bülbül bu ağrını, bu acını dinləyici kədərinə çevirə bilir.

Dinləyici heç bunun hansı dildə olduğuyla da maraqlanmır, hansı dildə səslənməsinə də əhəmiyyət vermir, o bunların heç birinə fikir vermir. O səsin, obrazın sarsıntılarına, əzablarına o qədər dərindən, varlığıyla bağlanır ki, heç bunlar barəsində fikirləşməyə, düşünməyə belə onda heç vaxt olmur, hiss və duyğuların burulğanından ayrıla bilmir, elə oradaca, sənətin yaratdığı ecazkar aləmdə itib-batır...

Bülbül Azərbaycan xalq havalarını, muğam və təsnifləri, milli operalarımızdan ariyaları, bəstəkar mahnılarını oxuyanda, necə deyərlər, buna təbii, adi hal kimi baxırsan və onun haradasa, nə vaxtsa təhsil aldığı ilə də maraqlanmırsan.

Yox, elə ki, Bülbül xarici operalardan ariyalar oxuyur: bolqar, fars, Ukrayna və italyanca oxuyur, o saatda onun xa-



ricdə, Milanda təhsil aldığı adamın yadına düşür. O saat da o illəri, o səfərlərin bəhrəsini, nəticəsini açıq-aydın görürsən.

* * *

Yazdığına, oxuduğuna hamı layiq ola bilmir, yaratdıqlarınla sənətkar şəxsiyyəti, sənətkar fərdiyyəti arasında bir uyğunsuzluq, qeyri-mütənasiblik olanda, nədənsə bundan dinləyici qəlbinə, oxucu qəlbinə xal düşür, eşitdikləri, oxuduqları o gözəllikdə olmur.

Bülbül oxuduqlarına, yaratdığı obrazlara layiq müğənniydi, sənətkardı. O bir növ musiqimizin, hər yeni təşəbbüsün, hər yeni ideyanın Koroğlusuydu. Hər şeydən əvvəl Üzeyir Hacıbəyovun istedadının, günün xoş vaxtında yaradılmış Koroğlu obrazının layiqli ifaçısı, layiqli yaradıcısıydı.

Elə bil Koroğlu obrazı Bülbülün boyuna-buxununa biçilib. Bülbüldə əfsanəvi xalq qəhrəmanının surətini yarada biləcək bütün keyfiyyətlər vardı; yüksək və zəngin səs, ifaçılıq mədəniyyəti, vokal ustalığı və nəhayət, xarici görkəm.

Bülbül operada təkcə aktyor deyil. O təkcə usta ifaçı deyil. O, cavanlıq hərarətiylə alışıb yanan, deyən, gülən, valeh eləyən el aşığıdı, el nəğməkarıdı. Üzeyirin ritmik, aktyor üçün hər cürə şərait yarada bilən musiqisi də buna şərtdi.

Bülbül yenidən cavanlığına, cavanlıq illərinə qayıdır. Qarabağ toyları, bu toylarda çalıb-çağırdığı illər, Gəncədə, Şuşada keçirdiyi, təşkil elədiyi musiqi gecələri, bu gecələrdə Füzulinin qəzəlləri, poemaları əsasında hazırlanan ədəbi-bədii kompozisiyalar, musiqili səhnəciklər yenidən öz təsirini göstərir. Gəncliyində, cavanlığında nə öyrənmişdisə – bütün bunların hamısı yenidən kara gəlir, «Koroğlu» operasında olan mürəkkəb musiqi partiyalarını oxumaqda ona əsaslı kömək olur. O bu çətin musiqi parçalarını böyük müvəffəqiyyətlə ifa eləyir.

Sənətkar operanın sonuncu – beşinci pərdəsində, Çənli-

bel səhnəsində daha uca, daha əzəmətlidir. Musiqi monumentallığı ifaçı sənətkarlığıyla qovuşur. Bu qovuşma, bu birləşmə ümumxalq fərəhinin, sevincinin təntənəsinə, tərənnümünə çevrilir. Xalq qalib gəlib. Bu qürur dağlara, daşlara hopub. Bülbül səsi haray qopardır, bu hay, bu haray yeri, göyü başına götürüb. Bülbül səsinin əzəməti, ağayanalığı son nərə kimi dinləyici qulağından getmir, onu əbədi, qəhrəmanlıqlarla dolu bir aləmə çəkib aparır. Bu səs dağlarımız, çaylarımız, elimiz, yurdumuz qədər həmişəyaşar və əbədidir!

Bülbül adı, Nizami, Füzuli, Məmməd Səid Ordubadi, Üzeyir Hacıbəyov, Səməd Vurğun kimi mütəfəkkirlərlə yanaşı çəkilir, Qarabağ, Mil, Muğan, Gəncə və Şuşa tək tez-tez yad edilir. Bu adla bağlı sevinməyə, fəxr eləməyə, qəmlənib kədərlənməyə aid nəyimiz varsa, o xatırlanır, o yad edilir...

Bu səsin nağılı ta qədimdən başlayır. Keçmişlə bu gün, bu günlə gələcək qaynayıb qarışıb bir yerə; Bülbül də vaxtında gəlib dünyaya, bu səsin xalq üçün, torpaq üçün nə demək olduğunu dərk eləyib, illərlə götür-qoy eləyib, səsə hopdurulan sevinc və kədəri, fərəh və qüruru özününküləşdirib, cilalayıb qaytarıb xalqın özünə. Özünü də, səsini də əbədiləşdirib. Olub xalqın əbədi, həmişəyaşar Bülbülü!

***Nemət VEYSƏLLİ,***
***jurnalist***
***«Qobustan» №2, 1981***



## *BÖYÜK MÜĞƏNNİNİN ARZUSU İLƏ*

Bu yaxınlarda Leninqradda elmi ezamiyyətdə olarkən A.A.Jdanov adına Leninqrad Dövlət Universitetinin tanınmış professoru, dilçi kadrların hazırlanmasında respublikamıza yaxından kömək göstərən L.R.Zindler ilə görüşməli oldum. Söhbət əsnasında alim müharibə ərəfəsində unudulmaz müğənnimiz professor Bülbül ilə tanışlığından, onunla məktublaşmasından danışdı. Sonra professor öz şəxsi arxivindən Bülbül tərəfindən yazılmış iki qiymətli məktubu tapıb bizə təqdim etdi. Məktublardan biri 1941-ci il fevralın 26-da ölkəmizdə ilk eksperimental fonetika laboratoriyalarından birinin banisi, Leninqrad filoloji məktəbinin yaradıcısı akademik L.V.Şerbanın adına yazılmışdı. Məktubda deyilir: «15.11.41-ci il tarixli məktubunuza cavab olaraq bildiririk: Azərbaycan SSR Elmi Tədqiqat Musiqi Kabinetində Azərbaycan dilinin tələffüz normalarının müəyyənləşdirilməsi, italyan və Azərbaycan dillərinin səs tərkiblərində bəzi uyğunluqların aşkar edilməsi üçün müqayisəli tədqiqat işi aparılır.

...Xahiş edirik ki, bizə qısamüddətli istifadə üçün fonetikaya aid dərslik və italyan dilində yazılmış vallar göndərəsiniz. Onların vaxtında qaytarılmasına əmin ola bilərsiniz. Eksperiment işi ilə tanış olmaq üçün əməkdaşlarımızı Leninqrada göndərəcəyik.

Azərbaycan Elmi Tədqiqat Musiqi Kabinetinin rəhbəri prof. Bülbül».

İkinci məktub isə 1941-ci il mayın 19-da o vaxt laboratoriyanın müdir müavini işləmiş L.R.Zindlerin adına göndərilmişdir. Bülbül L.R.Zindlerə yazırdı: «Hörmətli yoldaş Zind-

ler! Azərbaycan SSR Elmi Tədqiqat Musiqi Kabineti xahiş edir ki, «Azərbaycan dilinin fonetikası» mövzusunda iş yazmağı öz öhdələrinə götürmüş E.Z.Gerşqorn və Ə.M.Dəmirçizadə yoldaşlara elmi məsləhətlər verməkdən və işin yerinə yetirilməsi üçün bilavasitə kömək göstərməkdən imtina etməyəsiniz, bununla yanaşı xahiş edirik ki, kabinetimiz üçün müvafiq aparatların əldə edilməsinə səy edəsiniz və bizim dəvətimizlə Bakıya elmi ezamiyyətə gələsiniz.

Salamlarla

ETMK-nın rəhbəri prof. Bülbül».

Professor Şerba və akademik Meşşaninovla bir neçə yaradıcı görüşlərindən aldıqları məsləhətlərdən sonra Dəmirçizadə və Gerşqorn tərəfindən «Azərbaycan dilinin fonetikası» işi çapdan çıxdı.

Bu sənədlərdən məlum olur ki, hələ qırxıncı illərdə Bülbül nəinki musiqimizin, incəsənətimizin inkişafı, tərəqqisi qayğısına qalır, eyni zamanda doğma ana dilimizin nailiyyətlərindən istifadə etməklə dil səslərinin akustik-artikulyator əsaslarının eksperiment üsulu ilə araşdırılıb lazımi dəqiq elmi nəticələr əldə edilməsinin vacibliyini dərindən başa düşürdü.

Qeyd etmək istərdik ki, professor Bülbülün arzuları arzu olaraq qalmadı. 70-ci illərin əvvəllərində respublikada ilk dəfə olaraq eksperimental fonetika laboratoriyası yaradıldı. Qısa müddətdə laboratoriya dil vahidlərinin tədqiqi üçün lazım olan ən yeni müasir elektroakustik aparatlarla təchiz olundu.

Artıq 10 ilə yaxındır ki, SSRİ-nin 50 illiyi adına Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutunda eksperimental fonetika laboratoriyası fəaliyyət göstərir. Laboratoriyada Azərbaycan dilinin dil vahidlərinin akustik-artikulyator xüsusiyyətləri institutda tədris edilən xarici dillərlə – ingilis, alman, fransız dilləri ilə müqayisəli şəkildə tədqiq edilir.

Nəzərdə tutulmuş beş cildlik «Eksperimental fonetika» kitabının 1980-81-ci illərdə «Maarif» nəşriyyatında çap edilmiş birinci və ikinci cildləri laboratoriya əməkdaşlarının apardığı tədqiqat işinin bəhrəsidir. Gənc olmasına baxmayaraq, eksperimental fonetika laboratoriyası dilçiliyin bu sahəsində elmi mərkəzə çevrilmişdir. Laboratoriyada ona qədər namizədlik və bir doktorluq dissertasiyası hazırlanıb müvəffəqiyyətlə müdafiə edilmişdir. Elmi işlərini laboratoriyada yerinə yetirən mütəxəssislər yalnız bizim institutun işçiləri deyildir. Mütəxəssislər arasında respublikamızın başqa müəssisələrinin də nümayəndələri vardır. Fərəhli haldır ki, laboratoriyamızın sorağı respublikamızın sərhədlərini aşmışdır. 70-ci illərin axırında qardaş Özbəkistan respublikasının nümayəndəsi – Karşi Pedaqoji İnstitutunun dosenti T.Nurmatov məqsədli aspiranturanı laboratoriyamızda başa vuraraq namizədlik dissertasiyasını müdafiə etmişdir.

Son zamanlar A.A.Jdanov adına Leninqrad Dövlət Universitetinin tədris işləri üzrə prorektoru, filologiya elmləri doktoru, professor L.A.Verbitskaya, filologiya elmləri doktoru, professor L.V.Bondarenko, dosent M.V.Qordina və başqa mütəxəssislər bizim dövlətimizlə laboratoriyanın qonağı olmuş, fonetika və fonologiyanın aktual problemlərinə dair maraqlı mühazirələri ilə tədqiqatçılara dəyərli məsləhətlər vermişdir.

Göründüyü kimi, professor Bülbülün uzaqgörənliklə söylədiyi fikirlər həyata keçirilir. Lakin qeyd etmək lazımdır ki, böyük sənətkarın görmək istədiyi işlərin bir qismi hələ də arzu olaraq qalır. Xalq musiqimizin, muğamlarımızın, klassik və müasir bəstəkarlarımızın yaratdığı mahnıların, ümumiy-

yətlə, vokal sənətimizin ritmik-melodik, prosodiya və intonasiya xüsusiyyətləri müasir tədqiqat metodları baxımından öyrənilmir. Konservatoriyamızın müvafiq kafedraları respublikada eksperimental fonetika laboratoriyasının imkanlarından geniş istifadə edərək müəyyən problemləri elmin son nailiyyətləri baxımından tədqiq edə bilərlər.

***Fəxrəddin VEYSƏLOV,***
***filologiya elmləri doktoru,***
***professor***
***Mütəllif SƏFƏROV,***
***filologiya elmləri namizədi,***
***dosent***
***«Kommunist» qəzeti***
***16 aprel 1985-ci il***



## OXU, BÜLBÜLÜM, OXU!

***«Öz dilində elə oxumalı ki, o dili***
***başa düşməyənlər belə ləzzət alsınlar,***
***sənin dilində oxumağı arzulasınlar»***
***Bülbül***

«Sevindirici olsa da, kədərləndim. Sözümə gülə də bilərsən. Mən Ayı həmişə on altı yaşlı bir qız kimi təsəvvür etmişəm, gözəl, utancaq, heç kimlə danışmayan, isməti, toxunulmaz və əlçatmaz bir qız kimi. İndi eşidəndə Aya insan gedib, Aya ləpir düşüb…».

Bülbüldən yazacağımı biləndə yoldaşımın bu sözlərini xatırladım.

Jurnalistliyin də çətinliyi var. Bəzən bir adamı görmək üçün günlərlə, bəzənsə aylarla axtarmalı, gəzməli olursan.

Dörd nəfərlə görüşməli idim. Özü də tanınmış, işləri başlarından aşan sənətkarlarla. Doğrusu, onların mənimlə görüşməyinə, söhbət eləməyinə o qədər də inamım yox idi. Gözlədiyimin əksi oldu. Kimə zəng edib xahişimi bildirirdimsə: «İstəyirsən elə indi gəl görüşək», – söylədi.

Kimlə görüşürdümsə mehriban-mehriban söhbət edirdik. Təəccüblü nə var ki, axı biz böyük Bülbülümüzdən danışırdıq.

«Dünən SSRİ xalq artisti Bülbül»…

O qara xəbəri radio ilə iki dəfə elan etdilər. Üzümü sürətlə irəliləyən qatarın pəncərəsinə söykəyib səssizcə ağlayırdım. Ağaclar qaçırdı, teleqraf dirəkləri qaçırdı. Hər şey, hər şey, elə bil zaman da qatardakıların əksinə qaçırdı. Sanki hər şey Bakıya qaçırdı. İrəli şütüyən təkcə bu qatar idi. Hardansa Ağanənəm yadıma düşdü. Onun bircə sevimli oxuyanı vardı. Təkcə bir səs tanıyırdı, sevirdi. Bir də görər-

dim fikirli-fikirli çəliyinə dayanıb gülümsünür. «Ağanənə, oxuyan kimdir?» Üzümə baxmazdı, harasa uzaqlara baxardı. Bəlkə də eşitdiyi səsi görürdü. Sevinə-sevinə: «Odur... mənim oxuyanımdı...» deyərdi.

İndi çəliyinə söykənib kədər, qüssə içində gülümsəyən Ağanənəm də teleqraf dirəklərinə, ağaclara toxuna-toxuna bizim əksimizə qaçırdı.

İlk dəfə Bülbülü bir yaz axşamı eşitmişdim. Bütün dağları ağappaq badam çiçəkləri bürümüşdü. Günəş təzəcə batmışdı. Tünd, ancaq tər-təmiz mavi bir səma qalmışdı. Ağappaq badam çiçəkləri də, mavi səma da bir səsin içində əriyib itirdi:

*«Hər gecəm oldu kədər, qüssə fəlakət sənsiz,*
*Hər nəfəs çəkdim hədər getdi o saət sənsiz».*

Bu xəbər bir yana,... məni yandıran qatardakılar idi. Elə bil heç nə olmamışdı. Həmişə olduğu kimi bir qız yenə də başını pəncərədən çölə çıxarıb saçlarını, çılpaq qollarını küləyə verirdi. Adamlar həmişəki kimi yenə də iştaha ilə yeyirdilər. Qonşu kupedə yenə də şaqqıltı ilə nərd oynayırdılar, ucadan danışıb-gülürdülər.

Elə ötən axşam kupedə yatana macal Karuzodan, Şalyapindən, Cilidən nə qədər danışdılar. (Onda bu adları təzə eşidirdim). Sonra Bülbüldən söhbət düşdü. O qədər mübahisə oldu ki! Bircə mən danışa bilmirdim. Mübahisəyə qoşula bilmirdim. Ancaq hamıdan çox mən sevinirdim.

İndi həmin axşamdan neçə-neçə illər keçir. Bülbül haqqında yazmalıyam. Xatırlayıram: o vaxt qatarda kimsə mənim ağladığımı görüb ehmalca soruşdu: ölən adam qohumunuzdu, nəyinizdi?

Cavab verə bilmədim. İşə bax ki, on il sonra həmin sorğuya oxşar sualla respublikamızın tanınmış sənətçilərinə, Bülbülə doğma, yaxın adamlara müraciət etdim:



– Bülbül sizin üçün kimdir?

***ADİLƏ MƏMMƏDOVA (həyat yoldaşı):*** Hər şey – marağım, uşaqların atası, müəllimim... Öləndə elə bildim həyat qurtardı. Bəlkə də məni yaşadan uşaqları böyütmək borcu, qayğısı oldu.

***C.CAHANGİROV (bəstəkar):*** İncəsənət xadimi, bəstəkarların məsləhətçisi və böyük müəllim. Təmiz, aydın, məntiqi danışığına hamının həsəd apara biləcəyi adam.

***AZAD MİRZƏCANZADƏ (akademik):*** İdeal müğənnimdi. Danışığı da, hərəkətləri də, münasibəti də qeyri-adi idi. Bunları heç bir müğənnidə, artistdə görmək olmaz.

***TOFİQ QULİYEV (bəstəkar):*** Müəllimim və sənət yoldaşım. Yox, biz təkcə sənət yoldaşı deyildik. Aramızdakı yaş fərqinə baxmayaraq, yaxın, mehriban idik. Özünü dartanları sevməzdi. Onun kimi sadə və böyük sənətkar bir də olacaqmı?

26 sentyabr 1961-ci ildən bu günə qədər Fəxri xiyabana hər gün bir qadın gəlir. Həmişə qara geyimdə. Əlində gül dəstəsi.

– Bülbül gülü çox sevərdi...

Hər gün qəbir daşının tozunu alır, ayrıca xidmətçi olsa da. Hər gün gedir ki, tək qalmasın, darıxmasın. Ona elə gəlir ki, hər gün Bülbül onun yolunu gözləyir.

**– Adilə xanım, Bülbülün son sözü yadınızdamı?**

– Unutmaqmı olar!? Gecəydi. Öskürdüyünü eşitdim. «Güc-bəla ilə nəfəs alıram», – dedi. Tələsik pəncərənin pərdəsini açdım ki, hava gəlsin. Birdən qolumdan bərk-bərk yapışıb kədərlə dedi: «Bağışla Adinka,... səni tək qoyub gedirəm...». Sonra həkim gəldi. Şəfqət bacısı oksigen balıncını hazırlayanda o ümidsiz-ümidsiz dedi: «Artıq gecdi, həkim, mən gedirəm». Hələ də ağlıma gətirə bilmirdim ki, hər şey

belə asanlıqla bitəcək. «Gözlərini aç, gözlərini aç», deyə qışqırdım. O, gözlərini açıb təbəssümlə dedi: «Qorxma... qorxma... mən gedirəm...».

Araya sükut çökdü. Bu ağır, kədərli sükutu pozmağı günah bilirdim. Ondan soruşacağım suallar da yadımdan çıxmışdı. Nəhayət, soruşdum:

– **Adilə xanım, onunla ilk görüşünüzü xatırlayırsınızmı?**

– Onu yaddan çıxarmaq olmaz.

– **Onu qısqanırdınızmı?**

– Yox. Mənsiz heç yana getməzdi. Qısqanmağa əsasım olmurdu. Bəzən küçədə gözəl qızları ona göstərirdim. Zarafatla deyirdi ki, bax e, camaatın arvadı gizlətməyə çalışır, sənsə özün mənə göstərirsən.

Mənim bir yana tək çıxmağımı istəməzdi. Konsertinə gedəndə həmişə bir bilet artıq alardı ki, yanım boş olsun.

– **Onda ən çox xoşunuza gələn və gəlməyən cəhətlər?**

– Ürəyi geniş idi. Olduqca. Uşaqlarla, ailəliklə birgə gəzməyə çıxmaq onun üçün xoşbəxtlik idi.

Əliaçıq idi. Mağazaya, bazara gedəndə gördüklərinin ən yaxşısını alardı. Deyirdi ki, qoy uşaqlar bolluq içində böyüsünlər, hər yeri görsünlər, hər şeydən yaxşısını yeyib dadsınlar, yaxşı geyinsinlər ki, gözləri tox olsun... Bir şey alanda çox vaxt pulun qalığını verməzdilər. Deyəndə ki, gör nə qədər aldadırlar, niyə dinmirsən, yavaşca qulağıma pıçıldardı: «Sən allah, dinmə, məni də aldatmayıb, bəs kimi aldatsınlar?».

Sözü üzə deyərdi. Bir nəfər gəlib səsini yoxladırdı. Bülbül onu axıra kimi dinləyib sonra dedi: «Sənə kim dedi səsin var? Get özünə başqa sənət tap. Nə istəyirsən seç, ancaq yaxşı sənətkar ol. İncimə ha!».

Mehriban idi... evimizdə bütün qayda-qanun, davranış, rejim, hər şey, hər şey onun istəyincə, rahatlığı üçün uyğunlaşdırılmışdı.



– **Siqaret çəkərdimi?**

– Əvvəllər çəkərdi. Deyəndə ki, xoşum gəlmir, tərgitdi.

– **Ən çox nədən şikayətlənərdi?**

– Heç nədən.

– **Hirslənəndə...**

– Bir nəfər yersiz danışanda, vurğunu düzgün deməyəndə bərk əsəbiləşərdi. Lap çox hirslənəndə «axmaq» deyərdi. Deyərdi ki, İtaliyada söyüş yoxdur. Adamlar söyüş söyməkbacarmırlar.

– **Hansı yeməyi xoşlardı? Deyərdimi filan xörəyi bişir?**

– Ən çox aşı və yarpaq dolmasını sevərdi. Cücə qızartmasını, ala-sütül, qanlı-qanlı kababı xoşlardı. Deyərdi ki, «Sənin dəmlədiyin çaydan olmaz».

– **Boş vaxtlarında nə edərdi?**

– Şeir oxuyardı. Lap çox Füzulidən, Nizamidən, Ömər Xəyyamdan, Xaqanidən, Hüseyn Caviddən, bayatılardan. Poeziyanı çox sevirdi... Radioya qulaq asardı. Küçədə gördüyü körpə uşaqların çoxunu əzizləyə-əzizləyə danışdırardı. Maşını çox sevirdi. Həmişə istəyirdi ki, təzə, yaraşıqlı maşınımız olsun, ailəliklə gəzək. Bir yerə gedəndə dostlar, tanışlar bizə «kvartet gəldi» deyərdilər. Hamımız sevinərdik.

– **Sizi necə çağırardı?**

– Adinka...

## *BÜLBÜL HAQQINDA SƏNƏTKARLARLA SÖHBƏT*

Bəstəkar Tofiq Quliyevlə evlərində görüşdük. İçəri girəndə royalın arxasından qalxdı.

– Bağışlayın, Tofiq müəllim, mane oldum, işinizdən ayırdım.

– Buyurun, buyurun xoşdur. Bülbüldən həmişə, hər yerdə söhbət eləməyə dəyər.

Tofiq müəllim gəzinə-gəzinə həvəslə danışırdı.

– Bülbül! Nəyindən danışasan? Bülbül Bülbül idi də... O, mahnılarla doğuldu, tanındı. İtaliyaya gedib vokal sənətini öyrəndi. Dünyada tanınmış bir çox operalarda partiya və ariyaları təkraredilməz bir sənətkarlıqla oxudu. Səhnəni tərk edəndən sonra yenidən mahnılara qayıtdı. Gəncliyində oxuduğu xalq və Azərbaycan bəstəkarlarının mahnılarını yenidən ifa etdi. Daha gözəl və ustalıqla.

Bülbül xalq mahnılarının ilk müəllifidir. Onun ifaçılıq yolu var... İndiki müğənnilər onun xallarından istifadə edirlər. Bu yoldan çıxcaq ifaçılıq o dəqiqə itir.

Bülbülün sadə ifaçılığında nə qədər ustalıq, gözəllik, nə qədər incəlik var!... Yox, bizdə heç bir müğənni onun kimi yüksək səviyyədə oxumayıb. Yorulmaz, tükənməz həvəsi vardı. Xalqını onun kimi sevən tapılardımı?!

Operada işləyirdi. Konservatoriyada dərs deyirdi. Musiqi Elmi Tədqiqat Kabineti açmışdı. Otuzuncu illərdə. Cabbar Qaryağdıoğlunu, Seyid Şuşinskini, Mənsur Mənsurovu və başqa gözəl ifaçıları çağırıb oxudurdu. Səslərini vala yazırdı. Mahnıları Qara Qarayevə, Cövdət Hacıyevə, Fikrət Əmirova, mənə verib nota köçürməyimizi tapşırırdı. Rayonlara gedib xalq mahnılarını toplayırdı...

– Tofiq müəllim, Bülbüldən sizə nəsə qalıbmı? Məsələn, onun bir ifadəsi, adəti və yaxud...

– Məni mahnı janrı daha çox maraqlandırır. Bu janrı seçməyimdə Bülbülün böyük təsiri olub. «Vətən», «Neftçilər», «Azərbaycan» və bir sıra mahnıları bəstələyəndə Bülbülü nəzərdə tutmuşam.

Yeni mahnı yazcaq evlərinə gedərdim. Çalardıq. Bəzi yerlərini onun zövqünə görə düzəldərdik. Qonaqsevərdi. Evləri müğənnilərin, bəstəkarların, musiqiçilərin yaradıcılıq guşəsi idi. Onunla bir yerdə olmaq, işləmək adama ləzzət verirdi. Onu həmişə təbəssümlü, xeyirxah görmüşəm...

Bax, təsbeh çevirməyim ondan qalıb. Ancaq onunku kəhrəbadan idi, mənimki plastilindən.



Öləndən sonra bəzi ifadələrini hikmətli sözlər kimi öz aramızda işlədib, hərəkətlərini hörmətlə təkrar edirdik. Çox sadə olduğundan, bizimlə birgə oturub-durduğundan onun böyüklüyünü sağlığında hiss etmirdik. Dahiliyini öləndən sonra bildik.

Təəssüf ki, indiyə qədər Bülbülün sənətkarlığı barəsində dəyərli bir kitab yazılmayıb.

Azad Mirzəcanzadəni görməsəm də, haqqında çox eşitmişdim. Bilirdim ki, o alim kimi təkcə ittifaqda deyil, xarici məmləkətlərdə də tanınır. Eşitmişdim ki, musiqinin, incəsənətin bilicisidi.

Kafedralarına getdim. Yanında çoxlu adam vardı. Danışığı, hərəkətləri rəvan və sərbəst idi. Mənə elə gəldi ki, indiyə qədər ona verilmiş bütün suallara həmişə sərrast cavab verib. Özü də çox asanlıqla. Sanki bilmədiyi bir şey olmayıb.

– Bülbül sizin üçün kimdi? – deyə soruşduqda o, uzun müddət nəzərlərini məndən çəkmədi. Sonra başını əlləri arasına alıb xeyli fikrə getdi. Deyəsən cavab verməkdə çətinlik çəkirdi.

– Azad müəllim, Sizə Bülbül haqda sual verməyəcəyəm. Ancaq onun barəsində çoxlu-çoxlu danışmağınızı istərdim.

O, aramla, düşünə-düşünə danışırdı.

– Bülbül Azərbaycan incəsənətində bir epoxadır. Onunla 1957-ci ildə şəxsən tanış oldum. Operada 60 illiyinə həsr edilmiş gecədə.

...Mən Bülbüllə bir dövrdə yaşadığım üçün xoşbəxtəm. Çox-çox sevinirəm ki, Bülbül Azərbaycan müğənnisidir.

Kafedramızda tez-tez onun mahnılarına qulaq asırıq. Xaricdən gəlmiş qonaqlarla birlikdə. Başqa ölkələrə gedəndə də tanış olduğum adamlara Bülbülün vallarını verirəm.

Bülbülü yalnız dinləməklə tanımaq olar. Ona həmişə qulaq asmaq istəmişəm və yenə də istəyəcəyəm.

– Azad müəllim, sizin uşaqlarınız Bülbülü siz qədər sevib qulaq asacaqlarmı? İndiki gənclərin musiqiyə meyli, zövqü bir az başqa cürdü…

– Əvvəla, mənim uşağım yoxdu. Əgər olsaydı, Bülbülü hökmən sevərdilər. Xoşlarına gəlməsəydi, mütləq tərbiyə edib sevdirərdim və sonradan onlar Bülbülə də, mənə də rəhmət oxuyardılar.

– Bülbülün səsini dinləyəndə nəyi xatırlayırsınız? Sizdə hansı duyğular oyanır?

– Çox şey. Hamısı da gözəl, nəcib, hamısı da insanlıq üçün zəruri olan şeylər. Bir də bülbüllər yadıma düşür.

– Adətən böyük adamlar barəsində qəribə rəvayətlər söylənilir. Bülbül haqqında belə şeylər eşitmisinizmi?

– Eşitməmişəm. Və əgər Bülbül mənim üçün ideal sənətkardırsa, heç vaxt imkan vermərəm ki, yanımda onun haqqında rəvayət danışsınlar.

***C.CAHANGİROV (bəstəkar):*** – O təkcə xanəndə deyil, bizim ziyalılarımızın ən qabaqcıl nümayəndələrindən idi. Sənətimiz və xalqımız üçün böyük şəxsiyyət idi. Onunla həmişə, hər yerdə sənət, xalqımızın adət-ənənəsi və ümumiyyətlə, həyat məsələləri barəsində məsləhətləşmək olardı.

Açığını demək lazımdı. İtaliya ifaçılıq məktəbi dünyada birincidi. Bülbül Şərq aləmində ilk vokalçıdı. O, Azərbaycan ifaçılıq məktəbini Avropa və rus ifaçılıq məktəbilə birləşdirmişdi. Məncə, bu, incəsənətdə müqəddəs işdi, ixtiradı, kəşfdi.

İfaçılıqda vokal sənəti ən çətin, sintetik yoldu. Burada rəssamlıq, bəstəkarlıq, xoreoqrafiya, artistlik və xanəndəlik sıx birləşib. Bütün bunları nəzərə alıb ötkəm səslə deyə bilərik ki, Bülbül Azərbaycanda professional vokal məktəbinin banisidi.

Hamıya məlumdur ki, Şuşa gözəl səslər yetirən diyardı. Mən istərdim ki, orada konservatoriyanın filialı yaradılsın. Özü də Bülbül adına. Xüsusilə vokal sinfi açılaydı. İttifaqdan, lap başqa ölkələrdən bu sənətin biliciləri buraya dəvət ediləydi. Axı gözəl ifaçılar bəstəkarlar üçün də əsasdı.



– Cahangir müəllim, Bülbülün ifasında mahnı yazmaq fikrində olmusunuzmu?

– Bəli. O vaxt «Koroğlu» filmindəki aşıq Cünunun mahnılarını yazanda yalnız Bülbülü nəzərdə tutmuşdum. Ancaq bəzi səbəblərə görə Bülbül oxumadı. Sonra «Gül camalın» (sözləri Nizaminindir), «Nazənin» (sözləri Xaqaninindir) mahnılarını da yazanda onu nəzərdə tutmuşdum. Məncə, hazırda Bülbülün ifasında o mahnılar yoxdu. Çox təəssüf. Təkcə mən yox, hər bir bəstəkar sevinərdi ki, Bülbülün ifasında mahnısı olsun.

– Onun yoxluğu, ən çox harada hiss olunur?

– Opera sənətimizdə, ifaçılıq məktəbində.

– Vətəndaş və sənətkar kimi Bülbülü kimlə müqayisə etmək olar?

– Üzeyir bəy Hacıbəyovla, Səməd Vurğunla, rus müğənnisi Sobinovla, xalq ifaçılığını İtaliya musiqi mədəniyyəti ilə sintez şəklində birləşdirən Şalyapinlə…

– Onun ən çox sevindiyini haçan görmüsünüz?

– Bəstəkarlar yaxşı, müvəffəqiyyətli əsərlər yazanda Bülbül çox sevinərdi.

Dörd nəfərlə söhbətimiz burada qurtardı. Ancaq, məncə, sevimli müğənnimiz barəsində ürəkdən danışa bilmədik. Nə mən, ürəyimi sakitləşdirən suallar verə bildim, nə də müsahiblərim sözlərini, istədiklərini deyib qurtara bildilər. Mənə elə gəldi ki, onların hamısının sözü yarımçıq qaldı. Yenə, nəsə demək istəyirdilər. Bacarmırdılar. Azad Mirzəcanzadənin «Bülbülü yalnız dinləməklə tanımaq olar» sözlərini xatırlayıram. Gözəl deyilib. Ancaq yox, bu da bəs etmir.

**PS.** Sonuncu sualı özümdən soruşdum:

– Bülbül sənin üçün kimdi?

– Yer üzündə hərənin başı bir şeyə qarışdığı vaxt milyon kilometrlərlə məndən uzaqda olan dan ulduzuna baxıb tək-

tənha sevinmişəm. Elə bilmişəm ki, o mənimdi. Deyəndə ki, Bülbül mənimdi, bir kəs məni qınamasın.

...Üzümün ağlığı, alnımın açıqlığı, başımın ucalığı.

...Hardasa elimin, obamın, xalqımın, vətənimin ünvanı.

Bülbülün şən ovqatlı mahnılarını dinləyəndə belə kədərlənirəm. Belə həzin və işıqlı kədəri həmişə arzulayıram.

Bəzən üzümü küləyə tuturam, əllərimi yağışa uzadıram. Torpağa əyilib kəklik otlarını qoxulayıram. Məni hissəciklərə ayırsanız ilk növbədə Bülbülün səsini taparsınız.

Yağış yağır torpağa, daşa, dənizə, maviliyə. Dağlara toran çökər, günəş hopar. Yaşıl yarpağa, çiçəklərin tozuna bulanar anların qanadları. Yayılar dünyaya bir səs, bir səsdə əriyər dünya. Titrəyər adamların ürəkləri.

Haçansa şəhərimizin üstündəki səmada ulduzlardan nəçəsi əskik olacaq bilmirəm, adamlar hansı dəbdə geyinəcəklər, Xəzər Qız qalasından nə qədər uzaqda olacaq bilmirəm, ancaq Bülbülü yenə də dinləyib işıqlı bir kədər içində sevəcəklər.

Bir səsə oyanaydım. Səma hələ tünd mavi olanda gülə-gülə ağlayaydım, çaşıb qalaydım, nə sevindiyini biləydim, nə kədərləndiyini. Ovuclarımı tutaydım göz yaşlarının altına, ancaq əllərim islanmayaydı. Sonuncu ulduz batıncan ağlayaydım gülə-gülə. Elə biləydim göydəki ulduzlar qopub düşüb ovcuma. Tünd mavi səmanın altında hələ də çaşıb qalaydım, sevinirsənmi, yoxsa kədərlənirsən?...

Bülbül oxuyanda qərib, kimsəsiz, yazıq adamları və özümün tənha olduğum anları xatırlayıram. Bülbül hamınındı, ancaq onu dinləyəndə elə bilirəm o da tənhadı. Oxuduğu mahnıların hamısı da tənhalığa və kimsəsizliyə üsyandı.

**_Azər ABDULLA_**

**_«Qobustan» incəsənət toplusu_**

**_№ 1 (9), 1971-ci il_**



## *DÜNYANIN ƏN GÖZƏL NƏĞMƏKARI*

### *(Bülbülün ömür-gün yoldaşına məktub)*

**_Hörmətli Ədilə xanım!_**

Tədqiqat işimlə əlaqədar bir məsələni dəqiqləşdirmək məqsədilə Sizin «Bülbül» kitabınızı əvvəldən yox, axırdan vərəqləməyə başladım. Kitabı vərəqlədikcə ara-sıra oxuduğum cümlələr məndə elə bir təəssürat oyatdı ki, müəllif Adilə Məmmədova kimdirsə, o, ya Bülbülü çılğın bir məhəbbətlə sevən aspirantdır, ya da onunla eyni cəbhə mücahidlərindən biridir. Kitabın «Ailədə» fəslini və Mirzə İbrahimovun həmin əsərə yazdığı müqəddiməsini oxuyandan sonra Sizin Bülbülün vəfalı ömür yoldaşı olduğunuzu bildim. İnanıram ki, Bülbülün şəxsi həyatı haqqında ətraflı məlumata malik olmadığıma görə məni əfv edərsiniz.

Əsərinizi oxuyandan sonra açığını deyim ki, çox mütəəssir oldum. İfaçılıq sənətində nadir bir şəxsiyyət olan Bülbül sən demə, həm də xoşbəxt bir ər və xoşbəxt bir ata imiş. Bülbül bir insana lazım olan bütün gözəl keyfiyyətlərə malik idi. Sizin böyük xidmətiniz o olmuşdur ki, obyektiv olaraq bu keyfiyyətləri məftunedici şəkildə üzə çıxarmaq üçün səyinizi əsirgəməmisiniz.

Sizin ifadənizdə Bülbülün gözəllik haqqında fikirləri də orijinaldır və gözəldir. Həyatda xoşa gələn nə varsa, yaradan və yaradılan gözəldir. Zahiri gözəllik şairlər demişkən «üzə pərdədir, əsil gözəllik ürəklərdədir».

Bülbül dünyanın ən gözəl nəğməkarı idi. Çoxları buna görə onu xoşbəxt hesab edirdi. Məncə o, gözəl bir ailə başçısı olduğuna görə də bəxtəvər olmuşdur. Həyatdır da, ola bilərdi ki, belə olmasın. Xoşbəxtlikdən tale ona yar olmuşdur.

Özlüyündə gözəl olan bir daha bəxtiyar olmuş, öz ömrünü özündən sonra uzadan vəfalı bir qadınla həyat qurmuşdur. Kitabınızı oxuyandan sonra, əlbəttə, ailəvi məhəbbətinizə qibtə etdim. Məncə əsil gözəllik budur. Yalnız belə hallarda yaratmaq və yaşatmaq gözəl olur, həyat daha mənalı olur.

Sizin kitabınız həmişə yazı stolumun üstündədir. Günün hər hansı vaxtında mən onu ələ alıb oxuyarkən, sözün tam mənasında demək olar ki, yorğunluğum çıxır. Kitab haqqında yüksək fikirdə olduğuma obyektiv nəzərlə baxmağınızı xahiş edirəm.

Sizin hansı ixtisasa malik olduğunuzu bilmirəm. Ancaq kitabın bütün səhifələrində müasir musiqi mədəniyyətinə bələd olmağınıza heç bir şübhə ola bilməz.

Əsəriniz mənim üçün Bülbülün özü kimi cazibədar olmuşdur. Oradakı dərin məntiq, fikir aydınlığı, səlis və rəvan ədəbi dil insanı heyran edir.

Bəlkə də tanınmış yoldaşlardan biri Bülbül haqqında bir monoqrafiya yazsaydı, heç şübhəsiz Sizə yazdıqlarımı ona yazmazdım, sadəcə ona qəlbən təşəkkür etməklə kifayətlənərdim. Çünki, Bülbül kimi sənətkarları yaşatmaq hər birimizin vətəndaşlıq borcudur. Bülbül xalqımızın mənəviyyatında elə bir yer tutmuşdur ki, kim bilir, bir də nə vaxt onu o yerdə əvəz etmək mümkün olacaqdır. Məncə heç vaxt və heç zaman. Sözlərimə dialektik mənada yanaşsanız da unutmayın ki, aylar, illər keçdikcə, nəsillər bir-birini əvəz etdikcə, heç şübhəsiz hər dövrün öz ötən bülbülü olacaqdır. Lakin onlar heç zaman bizim Bülbülə oxşamayacaq, onun insanı həm ağladan, həm güldürən əsrarəngiz səsini oxşada bilməyəcəklər.

Onun özü məharətli bir kompozitorun bəstələdiyi və hələ heç kəsin ifa etmədiyi və edə bilmədiyi bir nəğmə idi. Ellər-obalar yaşadıqca bu nəğməni dinləməkdən həzz alacaqlar.

Mən yoxsul bir kəndli oğluyam. Fərəhsiz günlərim az olmamışdır. Lakin bunun üçün heç də qüssələnməmişəm.



Bir-birinin ardınca çox qiymətli adamlarımı itirmişəm, demirəm kədərlənməmişəm. Ürək daşdan deyil. Lakin istər Bülbülün vəfatı günündə, istərsə indi hər dəfə onun lentə yazılmış səsini dinləyərkən açığını deyim ki, iradəmi cilovlaya bilməmişəm. Onun yüzlərlə pərəstişkarları kimi mənim də gözlərim yaşarmış, qəlbimdə başqasının eşidə bilmədiyi hıçqırıqlar baş qaldırmışdır.

Elə zənn etməyin ki, bəlkə də mən musiqi vurğunuyam, ona görə belədir. Mən təbiət etibarı ilə heç bir şeyin çılğın vurğunu deyiləm. Əhəmiyyətli budur ki, Üzeyir bəy və Bülbül kimi ictimai xadimlərin xidmətlərinə göz yummaq olmur, onlar üçün heyfsilənməmək olmur.

Bülbül haqqında Sizin əsəriniz hələlik kiçik bir təşəbbüsdür. İnanıram ki, əsərin sonrakı nəşrlərini daha da təkmilləşdirmək üçün səyinizi əsirgəməzsiniz. Bu da Sizin Bülbülə bəslədiyiniz məhəbbətin ən gözəl yadigarı kimi onu həmişə yaşadacaqdır.

Siz bunu etməsəniz də qəm çəkməyin, çünki Siz müəyyən dərəcədə istədiyinizə nail olmuşsunuz. Bu əsəri oxuyan hər kəs aydın şəkildə başa düşür ki, Siz Bülbül üçün sadəcə adi bir həyat yoldaşı deyil, onun məslək dostu, onun sevinci ilə sevinən, kədəri ilə kədərlənən bir əqidə yoldaşı olmuşsunuz. Sizin ona bəslədiyiniz məhəbbət bir məşəl kimi bu balaca kitabın vərəqlərini yandırır. Sizin böyük faciənizi hiss edən hər birimiz eşqinizə afərin deyir! Eşq olsun vəfalı qadınlara! Eşq olsun sevərək yaşayanlara, yaşayaraq sevənlərə!

***Qulamhüseyn ƏLİYEV,***
***filologiya elmləri namizədi***

## «HƏR GECƏM OLDU KƏDƏR...»

Baxışlar bunu deyirdi dünən. Qüssəli, həyəcanlı, həsrətli, vüqarlı, gözəl gözlər. Dil oxuyurdu, «Sənsiz» deyib fəryad qoparırdı. Dahi sənətkarın həyat yoldaşı Adelaida Məmmədovanın ocağına yığışmışdı Bülbülsevərlər dünən onun ruhunu anmaq, Azərbaycan musiqi tarixində qoyduğu izdən bir daha söhbət açmaq üçün.

Onsuz keçən 41 ilin əbədi hicran yükü Bülbül ocağının daşına, divarına elə hopmuşdu ki, bu məkanda etinasız oturmaq qeyri-mümkün idi. Axı bir zamanlar dünyanı riqqətə gətirən o ecazkar səs məhz bu mənzildə əbədi susub...

## BİR BÜLBÜLÜN ƏFSANƏSİ

Azərbaycan musiqi tarixində, ən şərəfli səhifədə qızıl hərflərlə tək bircə söz həkk olunub – Bülbül. Ona nə təntənəli titullar ehtiyacdır, nə də gəlişi gözəl ifadələr. Mədəniyyətimizə göstərdiyi xidmətlərə gəlincə Bülbül ilk növbədə Azərbaycan professional musiqi sənətinin banisidir. Bülbül ilk azərbaycanlı tələbə vokalçıdır, müsəlman aləmində birinci vokalçıdır ki, Şərq musiqisi ilə Qərb musiqi məktəbini sintez edib, yeni Azərbaycan vokal məktəbinin binasını qoyub. O məktəbin ki, yaranışı ilə bütün Yaxın və Orta Şərq ölkələri üçün kifayət qədər əhəmiyyətli oldu, bu ölkələrin ən məşhur musiqiçiləri bu məktəbdən bəhrələndilər.

Bülbül – Qafqazda ilk musiqi elmi araşdırma kabinetinin yaradıcısıdır. Azərbaycanda ilk not istehsalı, opera studiyasının yaranması, səsyazma kabinetinin və solo oxumanın professional sinfinin yaradılması da Bülbülün əməyidir. Bülbül Azərbaycan Aşıqlar Birliyinin təşəbbüskarıdır.



## BİR ADIN TARİXÇƏSİ...

1897-ci il isti yay günündə, iyunun 22-də Şuşada bir oğlan uşağı dünyaya gəlir. Bu torpağın qeyri-adi havası, əsrarəngiz təbiəti balaca Murtuzanı gözəl səs sahibi edir. 8 yaşlı uşağın əzəmətli səsi Şuşa sakinlərini elə heyrətə salır ki, balaca Murtuzanın əsl adı unudulur. Qarabağ bülbüllərini ustalıqla təqlid edən bu uşağı hamı Bülbül deyə çağırır.

Musiqinin ilkin sirlərini Bülbül Şuşa mollaxanasında öyrənir. Bu hələ ki, istedadlı uşağın həvəskar təhsili hesab olunurdu. Mollaxanada ancaq dini mahnılar öyrədilirdi.

Tezliklə Bülbül bütün Şuşa xanəndələrinin dostuna çevrilir, muğamın sirlərini bacardıqca dərindən öyrənməyə başlayır, yavaş-yavaş onun şöhrəti Qafqaz dağlarını da adlayır.

1909-cu ildə məşhur xanəndə Gəncəyə köçür. Gənc musiqiçinin başgicəlləndirən uğurları bu şəhərdə bir-birini əvəz edir. 1911-ci ildə onu Tiflisə, mötəbər bir tədbirə dəvət edirlər. Burda Bülbül məşhur gürcü müğənnisi Vano Saracişvili ilə tanış olur.

Bundan sonra Bülbül Tiflisə tez-tez gedib-gəlməyə başlayır, konsert və operalara tamaşa edir. O, gürcü operasına həmişə həsəd aparırdı. Və bir zamanlar özünün də belə möhtəşəm səhnədə opera oxuyacağını ürəkdən arzulayırdı. O özünün keçdiyi xanəndə məktəbi ilə klassik opera sənəti arasındakı kəskin fərqi aydın görürdü. Hələ ki, italyanlar kimi oxumaq, İtaliyada təhsil almaq ən əlçatmaz arzu olaraq qalırdı.

1912-ci ildə gənc Bülbül Azərbaycanın məşhur şairi Abbas Səhhətlə tanış olur. Bu tanışlıq onun bir ziyalı kimi formalaşmasında böyük rol oynayır. Bülbülün yaradıcılığının Gəncə dövrünün göstəricisi olan tarixi sənədlər təsdiqləyir ki, Bülbül Gəncə xanəndələrindən və musiqiçilərindən ibarət xor təşkil edib, Gəncənin musiqili teatr işinin təşəbbüskarı olub.

1920-ci ildə tale Bülbülün üzünə gülür. Çoxdan bəri ürəyində saxladığı arzular yavaş-yavaş reallığa çevrilir. Bülbül Bakıya Üzeyir Hacıbəyovun «Əsli və Kərəm» operasında Kərəm rolunu oynamaq üçün dəvət olunur. Gözəl muğam bilicisi olan Bülbül məşhur tarzən Qurban Pirimovun müşayiəti ilə Kərəm rolunu yüksək səviyyədə ifa edir. Kərəm obrazı Bülbülün yaradıcılığında dönüş olur. Həmin gün Bakı sakinləri Bülbülün məlahətli səsinin, aydın nitqinin, qeyri-adi ifasının əsiri olurlar. Hər musiqili ifadədən sonra sürəkli alqışlar binanı az qala lərzəyə gətirir.

1921-ci ildə Bülbül Bakıya köçür və elə həmin il də Konservatoriyaya qəbul olunur. Burda da nadir istedad bütün mədəni kollektivin diqqətini üzərinə toplaya bilir.

Konservatoriyanı bitirəndən sonra Bülbül İtaliyaya təhsil almağa gedir.

## *ECAZKAR SƏSİN SEHRİNDƏ...*

...İtaliyadan vətənə dönən sənətkar artıq italyanca sərbəst danışırdı. O, yüksək səviyyədə «Traviata», «Cokonda», «Karmen», «Riqoletto», «Toska» və s. operalardan ariyalar ifa edir. Onun bu nailiyyətinin sədası ildırım sürəti ilə yayılır. Bülbül artıq dünyanın ən məşhur opera artistləri sırasında idi. Bülbülün Kavaradossinin partiyasını rus və italyan dilində ifa etməsi artistin yaradıcılığında yeni mərhələ hesab olunur. Amma onun haqqında mübahisələr hələ də var idi. Çoxları hələ də Bülbülün xalq mahnılarını oxuyub-oxuya bilməyəcəyinə şübhə edirdilər.

Lakin növbəti konsert proqramında Bülbül çox ustalıqla muğam ifa edir. 1934-cü ildə ilk Azərbaycan klassik operası Qliyerin «Şahsənəm»i yaranır. Qeyri-adi, misli görünməmiş ustalıqla Bülbül Qərib rolunu oynayır. Bununla da, Azərbaycan musiqisi simfonik musiqi ilə sintez olunur və Azərbaycan opera sənətində yeni və şərəfli səhifə açılır.



1937-ci ildə dahi bəstəkar Üzeyir Hacıbəyovun «Koroğlu» operasının premyerası olur. Bu qəhrəmanlıq operasının librettosunu M.S.Ordubadi yazmışdı.

Musiqişünas və bəstəkar Əfrasiyab Bədəlbəyli Bülbülün Koroğlunu oynaması haqqında yazırdı: ««Koroğlu»da Bülbülün daxili ehtirasları var idi. Tamaşaçının qarşısında əfsanəvi xalq qəhrəmanı, şair ruhlu haqq aşiqi durmuşdu. Onun səsi heyrətə gətirirdi».

Bülbülün bu ifası Azərbaycan opera tarixində hələ də təkrarsız hesab olunur.

Bülbül aşıq sənətinə də sonsuz məhəbbətlə yanaşırdı. O aşıq yaradıcılığının nümunələrini diqqətlə toplayır, rayonlara xüsusi elmi ekspedisiyalar təşkil edirdi.

1938-ci ildə «Azərbaycan SSR-in opera sənətinin inkişafında göstərdiyi müstəsna xidmətlərinə görə» Bülbül SSRİ xalq artisti adına layiq görülür.

Bülbül bir şəxsiyyət kimi də onu sevənlərin xatirəsində yaşayır. Onun gənc ifaçıların, cavan istedadların aşkara çıxarılmasında müstəsna xidmətləri var. Bu gün Azərbaycan mədəniyyətini təmsil edən bir çox görkəmli sənətkarlar məhz onun səyi nəticəsində professional sənətə gələ biliblər.

Xalq muğamlarımızın toplanması və nota alınması da Bülbülün incəsənətimizə verdiyi əvəzsiz töhfədir.

«Kürd ovşarı» və «Şur» simfonik muğamlarının müəllifi də Bülbüldür.

Ümumiyyətlə, Bülbül Tanrının Azərbaycan xalqına bəxş etdiyi misilsiz incidir.

Bülbülə məxsus olan əşyalar onun xatirə muzeyində qorunub saxlanılır.

Ona aid olan 9 min eksponat böyük sevgi və qayğı ilə sənətkarın ömür-gün yoldaşı Adelaida Məmmədovanın rəhbərlik etdiyi muzeyin sərvəti hesab olunur.

## *RUHU ŞAD OLSUN!*

Dünən bu şərəfli ömrün ən mənalı anlarını bir daha xatırladılar. O adamlar ki, Bülbül heyranıdırlar, Bülbül sehrindədirlər. Vəfatının 41-ci ilində Bülbülü anmağa gələnlər tarixi bir gün yaşadılar – Bülbülün hüzrü münasibətilə təşkil olunmuş ehsan məclisində iştirak etdilər. O gün Bülbülün ruhu da o evdə idi, «Sənsiz» oxuyurdu. Yəqin ki, düşmən tapdağı altında qalan doğma torpağına, 40 il ayrı düşdüyü sevimli həyat yoldaşına, ona əbədi vurğun olan bütün Azərbaycan xalqına qovuşmuşdu.

*Ülviyyə ƏSƏDZADƏ*
*«Yeni Azərbaycan» qəzeti,*
*27 sentyabr 2002, № 183 (1411)*



# Xatirələr

## *BÜLBÜL – BÖYÜK NƏĞMƏKAR*

Xatirələr yolu ilə ötən günlərə, illərə qayıtmaq, olmuşları bir daha yaşamaq inciklidir. Hadisələr, mənzərələr, sözlər, baxışlar, gülüşlər yenidən canlanıb insanı heç bir qüvvə, heç bir möcüzə ilə geri dönməyəcək aləmə aparır. Xatirələr yolunun sevincli anları keçib getdikləri, geri dönməz olduqları təəssüf doğurur, acılı, ağrılı olanları bir daha qəlbimizi göynədir.

Xatirələrimiz həmişə bizdən gənc olur. Onlar keçmiş günlərdən dinlədiyimiz tanış səslərdir.

Bu xatirələr səhifəsində bizim sevinc, kədər, ümid, intizarla dolu ömrümüzün saatlar, günlər, illər deyilən bu hissəsi qalmışdır. Bəli, biz həmişə öz xatirələrimizdən yaşlıyıq. Biz onlara bu günümüzdən baxırıq. Bəlkə elə buna görə kövrək hisslərdən ayrıla bilmirik.

Bülbül haqqında düşünmək, xatirələr yolu ilə keçmişə qayıtmaq məndə daxili bir ehtiyac olsa da, ağırdır. Bu xatirələr, təəssüf ki, bir yoxluqda başlayır. Bülbül bu gün sıramızda yoxdur. Nəğməkar Bülbül, sözü-söhbəti duzlu sənətkar Bülbül, nəğmələri, ariyaları, zümzümələri, səsinin təravəti, aydın sözlərinin xüsusi ahəngi ilə birlikdə əbədi həsrətini də, göynəyini də bizə verib gedən Bülbül.

Məni həmişə həyəcanlandıran, heyran qoyan Bülbül sənətinin təbiiliyi, bu sözün ən yüksək mənasında adiliyi idi.

Bülbülün ifası nəfəs almaq, görmək, eşitmək, isti-soyuğu duymaq kimi təbii idi. Bülbül sənətinin sadəliyi, təbiiliyi arxasında dinləyicinin görüb hiss etmədiyi gərgin yaradıcılıq zəhməti, yuxusuz gecələr, nigaran günlər vardı.

Bülbül barədə düşünmək, xəyalən keçmişə qayıtmaq mənim üçün daxili tələbata çevrilib. Fəqət bunun özü çox

ağırdır. Heyf ki, onun haqqında fikirləşəndə ürək ağrısı ilə dərk edirsən ki, Bülbül bu gün aramızda yoxdur – müğənni Bülbül, hazırcavab Bülbül!... O, ariyalarını, mahnılarını, təsniflərini, büllur kimi saf səsini, aydın sözlərini, səsindəki qeyri-adi harmoniyanı kədər və yanğını bizim üçün qoyub, bizi tərk etmişdir.

Biz müasir texnikanın köməyilə istədiyimiz vaxt onun səsinə qulaq asa bilərik. Ötən illərdə olduğu kimi, nəfəs dərmədən, dərin sükut içində biz nəğmələr beşiyi Qarabağda böyümüş canlı Bülbülü – zəmanəmizin ən böyük müğənnilərindən birini, təbiətin heyrətamiz, sirli möcüzəsini dinləyə bilirik. Lakin heç bir mahnı, heç bir intonasiya, musiqi dönümü ürəkdə onun yoxluq kədərini azalda bilməz.

Bülbül sənətindəki təbiilik, sözün ən yüksək mənasında sadəlik məni həmişə həyəcanlandırıb, heyrətə gətirib. Maestro Bülbül quş kimi oxuyurdu. Quşlar üçün oxumaq necə təbii ehtiyac idisə, Bülbül üçün də oxumaq onun təbii halı idi.

Hər dəfə yaşıl budaqda cəh-cəh vuran bülbülə qulaq asanda onun sevincini duyuram. Sanki baharın gözəlliyindən vəcdə gələn bu kiçicik sehrkar müğənni sevincini izhar eləmək, fərəhini bildirmək üçün zəngulə vurur. Maestro Bülbül də bu cür idi. O oxuyanda insanların ürəyi sevinc, şəfqət hissi ilə dolurdu.

Bülbülün ifası nəfəs almaq, görmək, eşitmək, istini, soyuğu duymaq kimi təbii idi.

Oxuyanda rəngi qızaran, üzündə gərginlik aydın hiss olunan, bir sözlə, «əziyyət çəkən» müğənnilərə adam qulaq asa bilmir. Mənə elə gəlir ki, bu cür oxumaq sevinc, zövq, tələbat deyil, ağır zəhmətdir.

Poeziya da elədir. Hərgah şeirdə alın təri, ağır nəfəs, müəllif əzabı duyulursa, bu, xoşa gəlmir. İncəsənətin təsir gücü çətinliklər, əziyyətlər, yaradıcılıq əzabları ilə ölçülmür,



əsl incəsənət əsərlərilə təmasdan insan qəlbində yaranan həyəcan, düşüncə, məhəbbət, nifrətlə ölçülür.

Bülbül sənətinin sadəliyinin, təbiiliyinin arxasında dinləyicilərin görmədiyi gərgin yaradıcı əmək, yuxusuz gecələr, narahat günlər dururdu. Lakin onun mahnıları bulaq suyu tək duru idi, təbii səslənirdi və insanlara sevinc bəxş edir, zövq verirdi.

Mən Bülbüllə şəxsən tanış olmazdan onun adını eşitmişdim. Şöhrətinin hər yana yayıldığını bilirdim. Tanışlığımız Bakıda oldu. Bülbül İtaliya səfərindən yenicə qayıtmışdı. Mən də Bakıya yeni gəlmişdim. O zaman şair Süleyman Rüstəm İşçi Teatrında ədəbi hissə müdiri işləyirdi. Bülbüllə məni teatrda o tanış etdi.

Sonralar Bülbüllə tez-tez görüşürdük. Yaxın olduq, dostlaşdıq. 1938-ci ildə Azərbaycan SSR Ali Sovetinə seçkilər zamanı mən Tovuz rayonuna seçicilərlə görüşə getmişdim. Görüşlərdən sonra yazıçı Mirzə İbrahimov və Bülbüllə birlikdə Göy gölə getdik. Bütün yol boyu Bülbül oxuyur, məzəli əhvalatlar danışırdı, zarafat eləyirdi. Onun çox yaxşı yol yoldaşlığı vardı.

Göy gölün səfalı mənzərəsi Bülbülü çox həyəcanlandırmış, riqqətləndirmişdi. O, Göy gölün hər an dəyişən, rəng verib rəng alan mənzərəsindən gözlərini çəkə bilmirdi.

Sakitlik, səssizlik içində birdən xəfif zümzümə başladı. Bülbül yerində dayanmışdı. Onun dodaqları tərpənmirdi. Lakin bu xəfif, bu füsunkar zümzümə Bülbül zümzüməsi idi: get-gedə dalğalanıb ətrafa yayılırdı. Gözlərimin qarşısında bütün ətraf mənzərə sanki canlanır, titrəyir, nəğmənin axarına uyğun nəfəs alırdı. Zümzümə qüvvətlənir, zilə qalxır, tanış bir nəğmənin sözləri aydın eşidilirdi:

*Qara tellər, qara tellər,*
*Yar könlünü qarət eylər...*

Bülbül oxuyurdu. Sanki o, hər şeyi unutmuşdu. Bülbülün üzündə dərin bir heyranlıq, dünyanın bütün qayğısından ayrılıq ifadəsi vardı. Mən heç bir zaman, heç kəsi belə ilhamlı, belə nadir ifadəli oxuyan görməmişdim.

...İllər keçdi. Bir gün şair Nazim Hikmət bizdə qonaq idi. Bu dostlar məclisinə Bülbülü də dəvət etmişdim. Qonaqlar bir-bir, ikibir gəlirdi. Bülbül nədənsə gecikirdi. Pilləkəndən səs eşidib qapıya getdik. Bülbül pillələri cavan oğlan kimi yeyin-yeyin, iki-iki qalxırdı. Nigar: «Bülbül qardaş! Maşallah, kim deyər ki, siz cavan deyilsiniz?» – dedi. Bülbül bu sözləri eşidib tez pillələri endi və yenidən yüyürə-yüyürə yuxarı çıxdı. Pilləkən başında dayanmış adamlar gülüşdülər. Əl çaldılar. Hamı «Afərin! Afərin!» dedi. Sonralar, Bülbülün qara xəbərini eşitdiyim gün bu epizodu xatırladım. Bu ölüm xəbərinə inanmağım gəlmədi. Axı, Bülbül nəğmələri kimi sağlam, gənc, həyat enerjisi ilə dolu idi.

Bülbüllə bağlı bir epizodu da xatırlayıram. Bakıda növbəti aşıqlar qurultayı çağırılmışdı. Qurultayda aşıqların yaradıcılıq yolları haqqında qızğın mübahisə gedirdi. Qurultay iştirakçılarından bəziləri aşıq sənətini ancaq müəyyən rayonla bağlayır, Azərbaycanın ancaq bir-iki rayonundan əsil aşıq çıxa biləcəyini əsaslandırmağa çalışırdılar. Bu fikrin məhdudluğu, primitivliyi, qeyri-elmiliyi, ən ümdəsi, həyat həqiqətinə uyğun olmadığı gün kimi aşkar olsa da, inadkar şəxslər fikirlərini bütün qurultaya bəyəndirməyə çalışırdılar.

Mən qurultayın bir iclasında sədrlik edirdim. Növbəti sözü Bülbülə verdim. Bülbül həqiqi, böyük bir sənətkar kimi sadə, inandırıcı sözlərlə, misallarla aşıq sənətinin bütün Azərbaycan xalqına xas olduğunu isbat etdi. O, sözlərini tribunadan məharətlə oxuduğu parçalar, müxtəlif aşıq havaları ilə təsdiq edirdi. Bütün salon sükuta qərq olmuşdu. Hamı sənətkar Bülbülü, doğma xalqının musiqi folklorunu gözəl bilən, tədqiq edən alim Bülbülü dinləyirdi. Bülbül sözünü bir aşıq nəğməsi ilə bitirdi. Bu nəğmə guya yeganə aşıq vətəni



sayılan tərəflərdən deyildi. Lakin onun ürəyə yatımlı bəstəsi, ahəngi, oynaq ritmi, gözlənilməz dönmələri, qalxmaları, enmələri hamını valeh etdi. Natiq kürsüdən çəkiləndə salon bir an sükuta daldı, sonra bəndini qırmış sel kimi alqış gurultusu salonu titrətdi.

Uzun bir müddət davam edən bu alqışlar bütün mübahisələrə son qoydu... O zaman mən beynimdə dolanan bir fikri deməyi lazım bildim. O fikir bu idi: «Çox zaman elə olur ki, bizimlə bir gündə, bir yerdə yaşayan adamın böyük istedad, nadir bir sima olduğunun fərqinə varmırıq. Onu tez-tez görür, ona alışırıq, düşünmürük ki, yanımızda olan, bizimlə deyib-gülən bu adam klassikdir. Bir sənət möcüzəsidir. Nadir istedaddır.

Bizim Bülbül, nəğməkar Bülbül belə canlı klassikdir».

O vaxtdan illər keçib. İndi, bu gün Bülbülün son canlı nəğməsindən xeyli zaman sonra bu sözlərin həqiqəti daha aydın duyulur.

***Rəsul RZA, xalq şairi***
***«Ədəbiyyat və incəsənət»***
***qəzeti, 29 may 1971-ci il***

## *DOST VƏ MÜƏLLİM*

Əvvəlcə tanışlığım ustadın canlı sənətilə başlayıb.

...İtaliyada təhsilini başa vurub doğma respublikamıza qayıtdıqdan sonra M.F.Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında Bülbülün ilk konserti oldu. Geniş şöhrət qazanmış böyük müğənnimizin bu konserti indi də mənə əsrarəngiz görünür.

Axı, vaxtilə Vətəndə xanəndə kimi məşhurluğuna, hamı tərəfindən sevilməyinə baxmayaraq, onlara etina etmədən nə üçün birdən-birə, uzun müddətə yad diyara, oxumağı da başqa cür olan bir ölkəyə getmişdi? Doğma yurdunda nəyi çatışmırdı? Məşhurluqmu? Xeyir, kifayət qədər tanınırdı! İfaçılıq sənətimi? O da ən yüksək səviyyədə idi. Bəlkə kiminləsə rəqabət aparırdı? Həmin vaxtlar, hətta sonralar da, onunla bir sırada dayana biləcək, sənətdə yarışmağa qabil olan ikinci bir məşhur adam yox idi.

Bəs onu bu addımı atmağa – uzaq ölkəyə getməyə vadar edən nə idi? Bu sual hamını düşündürürdü. Onun cavabını sonralar tapdıq: həmişə yenilik axtarışında olan dahinin sənət narahatlığı.

Bu, Bülbülün Vətənə qayıtdıqdan sonra bir növ, hesabat konserti idi. Bilet tapmaq, əlbəttə ki, mümkün deyildi. Lakin necə olmuşdusa atam iki bilet əldə etmişdi və məni də özü ilə konsertə aparmışdı.

Bax, özünü musiqiyə həsr etməyə hazırlaşan, musiqini özü üçün həyat qayəsi seçən bir gəncin, haqqında o vaxta kimi çox eşitdiyi böyük ustadın sirli-sehrli sənəti ilə ilk görüşü belə oldu...

Qəribədir, həmin gecə bütün təfərrüatı ilə yadımda qalmışdır. İşıqlı salon, konsert proqramı, hətta Bülbülün frakda iti addımlarla səhnəyə gəlişi...



Proqram əsasən klassik opera əsərlərindən tərtib olunmuşdu. Yalnız konsertin sonunda Bülbül bir neçə xalq mahnısı oxudu. Konsert mənə böyük təsir bağışladı, həm də təkcə mənəmi?! Salondakı bütün musiqiçilərə. Düşünülmüş proqramı, bütün registrlərdə səsi sərbəst idarə etməsi, əsərləri orijinal dildə oxuması, incə musiqi ibarələri – bütün bunlar yadımdadır.

Lakin Bülbülü İtaliyaya getməmişdən əvvəl fanatikcəsinə sevənlər, toylarda oxumağını eşidənlər onu təmkinlə, ehtiyatla qarşıladılar. Çox ehtimal ki, onlar belə hesab etmişdilər ki, proqramda ancaq muğam və xalq mahnıları olacaq. Bülbül İtaliya təhsilindən əvvəl də muğam və xalq mahnıları oxumağı gözəl bacarırdı. Təəssüf edənlər oldu ki, müğənni bundan ötəri, ümumiyyətlə, gərək İtaliyaya getməyəydi.

Xatırlayıram, bütün bunlar məni, o cümlədən musiqiçiləri narahat etmişdi. Lakin biz gənclər nə edə bilərdik ki?!

Bülbülə praktik olaraq Azərbaycan xalqının qəlbini təzədən «fəth etmək» lazım gəlirdi. Buna parlaq şəkildə, özü də tez bir zamanda nail oldu.

Bülbül İtaliyadan təkcə Azərbaycan xanəndəsinə mənsub oxuma manerasını Avropa vokal məktəbi ilə birləşdirən, ifaçılıqda valehedici melizmatikanı (incəlikləri) qoruyub saxlayan böyük ustad kimi deyil, həm də milli musiqi mədəniyyətinin gələcək inkişaf yollarını nəzərdə tutan görkəmli musiqi xadimi kimi qayıtdı.

Həmin sənət xətti ancaq Bülbülün özünə xas olan emosionallıq və enerji ilə həyata keçirildi. Əlbəttə, bir məqalədə Azərbaycan musiqi mədəniyyətinin inkişafı üçün Bülbülün gördüyü işlərin təhlilini vermək mümkün deyil.

Zənnimcə, bu, geniş, əhatəli monoqrafiyanın mövzusudur ki, belə bir tədqiqat öz xoşbəxt müəllifini gözləyir.

Mən Bülbülü Elmi Tədqiqat Musiqi Kabinetinin (ETMK) təşəbbüsçüsü və təşkilatçısı kimi xatırlayıram. Buraya o, həm Azərbaycan xalq musiqisinin yaşlı bilicilərini,

həm də gəncləri, musiqiçi tələbələri cəlb etmişdi. Bu işdə onun iki qlobal məqsədi vardı: əvvəla, xalq musiqisi incilərini nota aldırıb gələcək üçün, tarix üçün saxlamaq (axı indiyədək xalq musiqisi nəsildən-nəslə şifahi şəkildə əmanət verilirdi). Nə qədər ki, C.Qaryağdıoğlu, S.Şuşinski, Q.Pirimov sağ idi, bunu etmək çox vacib idi.

İkincisi, gənc musiqiçiləri bu yazılma vasitəsilə doğma musiqinin saf çeşməsindən su içməyə alışdırırdı. Bu da onların sonralar yaratdıqları irihəcmli əsərlərdə özünü daha aydın surətdə büruzə verdi. Xalq inciləri təkcə ETMK-də nota yazılmırdı. Onları yerindəcə nota almaq üçün gənc musiqiçilərin respublikanın rayonlarına ekspedisiyaları təşkil olunurdu. Bu gün bu nadir nümunələrin dönə-dönə nəşr olunduğu bir vaxtda Bülbülün uzaqgörənliyinə, dahiyanə duyumuna heyran qalmaya bilmirsən.

Axı, o zaman onun özü də hələ cavan idi. Bülbülün enerjisi aşıb-daşırdı. O, xalq mahnıları və rəqslərlə yanaşı, xalq musiqisinin bünövrəsi – təməli olan muğamların nota köçürülməsi ideyası ilə yaşayırdı. Bu barədə dəfələrlə söhbətimiz olmuşdu.

Mən 1935-ci ildə bəstəkar Zakir Bağırovla musiqi tariximizdə ilk dəfə olaraq Bəhram Mansurovun tarda ifa elədiyi üç Azərbaycan muğamını – «Rast», «Dügah» və «Segah-zabil»i nota köçürəndə onun sevincinin həddi-hüdudu yox idi. Bu muğamlar elə həmin il çap olundu və nadir tapıntıya çevrildi. Bu, Bülbülün coşğun fəaliyyətində yeni bir mərhələ idi.

Təkcə onu nəzərə alsaq ki, Ü.Hacıbəyov özünün «Azərbaycan xalq musiqisinin əsasları» adlı zəngin əsərini yaradarkən istifadə etdiyi əsas material Bülbülün rəhbərliyi ilə fəaliyyət göstərən Elmi Tədqiqat Musiqi Kabinetinin arxivində qorunan musiqi folkloru nümunələridir, onda aydın olar ki, Azərbaycan musiqi mədəniyyəti bir çox mərhələlərdə öz inkişafı üçün ona borcludur.

Bülbül xalq mahnılarını, muğamları nota köçürmək təşəbbüsünü ortaya atanda, bu işə bir çox gənc musiqiçiləri A.Zeynallını, Niyazini, S.Rüstəmovu, Q.Qarayevi, C.Hacıyevi, F.Əmirovu, eləcə də məni cəlb etmişdi. Səmərəsi də gö qabağındadır. Bu, Bülbülün coşğun fəaliyyətinin ancaq növbəti mərhələsi idi. Muğamlar nota köçürüldükdən sonra onları simfonik tərzdə eşitməyi çox arzulayırdı. Bəstəkar Fikrət Əmirov onun təşəbbüsü, yaxından iştirakı və məsləhəti ilə «Şur» və «Kürd ovşarı» simfonik muğamlarını yazmayınca Bülbül rahatlıq tapmadı.

Bu böyük sənətkar olduqca ünsiyyətli və həyatsevər insan idi. O, harda olurdusa olsun, dərhal aktyorlar, ədəbiyyatşünaslar, musiqiçilər başına toplaşır, onu əhatəyə alırdılar.

Bülbülün gənc bəstəkarlarla dostluğu səmimi idi – yaradıcılıq dostluğu idi. O, gəncləri yeni əsərlər yazmağa həvəsləndirər və onların ilk ifasında iştirak edərdi.

Biz tez-tez onun evinə yığışar, maraqlı söhbətlər edər «antrakt»larda musiqi çalar, gecənin bir aləmi dağılışardıq. Yadımdadır, bir dəfə səhər saat altıya kimi oturduq. Bu SSRİ Ali Sovetinə seçkilər ərəfəsində idi. Bülbül təşviqat məntəqələrinin birində səsvermə zamanı seçicilər qarşısında çıxış etməliydi. O, bu çıxışa çox məsuliyyətlə hazırlaşırdı.

Biz bəstəkarların ürəyindən keçirdi ki, nə olaydı Bülbül bizim mahnılarımızı və ya romanslarımızı oxuyaydı. İftixarla və minnətdarlıq duyğuları ilə xatırlayıram ki, təbiətən xeyirxah olan Bülbül mənim bir sıra mahnılarımın ilk ifaçısıdır. Bu mahnılar ustad müğənninin sənətkarlığı sayəsində geniş şöhrət qazanmışdır.

Bülbülün ürək səxavətinin bəhrəsi onun ecazkar səsilə Azərbaycan bəstəkarlarının mahnıları yazılmış və «Melodiya» firması tərəfindən buraxılmış vallar dəstində əbədiləşmişdir.

Bu misilsiz hədiyyəni Azərbaycana dahi sənətkarın oğlu Polad Bülbüloğlu bəxş etdi. O, 40-50-ci illərdə yazılmış köhnə, texniki cəhətdən o qədər də mükəmməl olmayan valları

yığaraq, onları lazımi səviyyəyə çatdırmaq üçün iki il gərgin, inadlı iş aparıb.

Bülbülün ifa etdiyi əsərlərin siyahısına ötəri bir nəzər salsaq, onda ustadın necə nəhəng işlər gördüyünü aydın təsəvvür edə bilərik.

Bülbül – nəinki musiqiçilər üçün, hətta hər bir azərbaycanlı üçün tükənməz bir mövzudur.

Bülbül – Azərbaycan sovet musiqisinin bir çox inkişaf mərhələlərinin başlanğıcıdır.

Bülbül – nəinki bəstəkarların, musiqiçilərin, eləcə də milyon-milyon sənətsevərlərin bitib tükənməyən sevgisini qazanan bir dahidir.

Bülbül – Üzeyir Hacıbəyovun ölməz «Koroğlu» operasının ölməz qəhrəmanıdır. Müəllif «Koroğlu»nu məhz Bülbül üçün yaratmışdır.

Bülbülün yaradıcılığı xalqımızın musiqi mədəniyyətinin əfsanəyə çevrilmiş canlı tarixidir.

***Tofiq QULİYEV,***
***bəstəkar, xalq artisti***
***«Ədəbiyyat və incəsənət»***
***qəzeti, 19 iyun, 1987-ci il***



## ONUN HƏR ÇIXIŞI BAYRAM İDİ

***«SSRİ xalq artisti Bülbül «Koroğlu» simasının misilsiz təmsilçisidir».***

***Ü.Hacıbəyov***

Bülbül, sözün həqiqi mənasında xalq sənətkarıdır. O, Azərbaycan xalq musiqi yaradıcılığını dərindən bilən və onu böyük qayğı ilə dinləyicilərə çatdıran sevimli müğənnidir.

Bülbül Azərbaycanın milli musiqi xəzinəsinin incilərini göz bəbəyi kimi qoruyur, bu xalq incilərinə öz məlahətli ifası ilə dərin məna və gözəllik verir.

Bülbülün rəhbərliyi ilə Azərbaycan xalq mahnılarının, rəqslərinin və muğamlarının nota yazılması incəsənətimizin tarixində görkəmli bir hadisədir.

Azərbaycan operasının fəxri olan «Koroğlu»dan söhbət düşəndə gözümüzün önündə Bülbül dayanır. Bülbül xalq sənətkarlığı ilə professional vokal sənətkarlığını birləşdirmiş, onu bir vəhdət halında cəmləşdirmiş və Koroğlunun monumental obrazını yaratmışdır.

Məlahətli səs, böyük diapazon, rəngarəng boyalar, bədii diksiya... Bütün bunlar Bülbül yaradıcılığının əlamətdar xüsusiyyətləridir.

Mən yaradıcılığa başladığım ilk günlərdən Bülbülün qayğıkeşliyini hiss etmişəm. Yadımdadır, 1938-ci ildə Gəncədən anamla Bakıya Bülbülgilə gəldik qısaca imtahandan sonra məni böyük bəstəkar Üzeyir Hacıbəyovun yanına aparıb, musiqi məktəbinə qəbul etdirdi. O günü mən həmişə minnətdarlıq hissilə xatırlayıram.

...Mən ömrümün çox hissəsini əziz Bülbülümün evində keçirmişəm. Bu evdə böyüyüb boya-başa çatmış, bu evdə ya-

radıcılığımın zirvələrinə yüksəlmişəm. Bülbül mənə ata əvəzi olub, həmişə qayğımı çəkib, müstəqil həyata qədəm qoyduqdan sonra da nəzəri üstümdə olub, yaradıcılıq yüksəlişimi daim böyük diqqətlə izləyib.

Mən Bülbül barədə çox, lap çox yaza bilərdim – görüşlərimiz, söhbətlərimiz, birgə işimiz barədə, onun ata məhəbbəti, hücum və məzəmmətlərdən məni daim qoruması barədə.

«Şur» və «Kürd ovşarı» simfonik muğamları üzərində çalışarkən, Bülbül, eləcə də xalqımızın muğam sənətinin görkəmli ifaçıları olan Cabbar Qaryağdıoğlu, Seyid Şuşinski, Qurban Pirimov mənə öz dəyərli məsləhətləri ilə böyük köməyini əsirgəməmişdilər.

Biz bütün günü gecəyədək işləyirdik. Müharibədən sonrakı vaxtlar idi, güzəran ağır keçirdi. Anamı, bacılarımı da mən saxlayırdım. Evdəki doğma adamlarım üçün narahat olduğumu hiss edən Bülbül, biz işlədiyimiz müddətdə qulluqçu Mariyanı ərzaq dolu səbətlə bizə göndərirdi ki, mən rahat işləyə bilim.

Simfonik muğamlar yazılıb qurtarandan sonra Moskvaya uçmalı idim, dirijor G.Rojdestvenski məni gözləyirdi. O, Bülbülə söz vermişdi ki, «Şur» və «Kürd ovşarı» muğamlarını Moskvada və Leninqradda ifa edəcək. Təyyarəyə minməyə hazırlaşanda gördüm ki, notlar qoyulmuş çamadan yoxdur. Ümidsiz bir halda səhər tezdən aeroportdan birbaş Bülbülgilə gəldim. O, məni görəndə heyrətlə: «Sən burada nə gəzirsən, axı indi Moskvada olmalı idin?!» – dedi.

Səbəbini biləndə o dəqiqə beynində götür-qoy etdi və özü üçün aydınlaşdırdı ki, bu kimin işidir.

Bülbül tez bizim not üzü köçürənimizə zəng vurdu. O, dedi ki, buna bir neçə gün vaxt lazım gələcək. Bülbül tapşırdı ki, nə qədər adam lazım olacaqsa, hamısını yığsın, notun qaralamaları bizdə qalıb, onlara ən yüksək zəhmət haqqı verəcək. Nə olur-olsun notlar sabah Moskvaya çatdırılmalıdır. G.Rojdestvenski bütün işlərini təxirə salıb, məşq üçün Fikrəti gözləyir.



Altı nəfər notköçürən bütün günü və gecəni işlədi. O biri gün səhər artıq hər iki partitura hazır idi. Bülbül notköçürənlərə böyük məbləğdə pul verdi, həm də işi yaxşı və tez gördükləri üçün onlara təşəkkür etdi. Mən rahatca Moskvaya uçdum. Bülbülün dediyi kimi oldu: simfonik muğamların bütün dünyada zəfər yürüşü başladı.

Mən Aida ilə evlənəndə maddi imkanım hələ kifayət qədər deyildi. Bülbül bizə qiymətli hədiyyə bağışladı və toyun bütün xərcini çəkdi. Toydan sonra bizim şərəfimizə banket verdi, bütün qohum və dostlarımızı ora dəvət etdi. Onun xeyirxahlığını, səxavətini, səmimiyyət və alicənablığını heç vaxt unutmaram.

Bir neçə kəlmə də «Koroğlu» operası haqqında. Mən Bülbüldən başqa ayrı Koroğlunu təsəvvür etmirəm. Onun bu rolda hər çıxışı bayram idi.

Bülbül «Koroğlu» operasında 400 dəfədən çox çıxış etmişdir. 1957-ci il fevralın 16-da Azərbaycan Opera və Balet Teatrında «Koroğlu»nun növbəti tamaşası gedirdi. Bu tamaşa onunla əlamətdar idi ki, Koroğlu rolunda bu obrazın gözəl ifaçısı Bülbül 400-cü dəfə səhnəyə çıxırdı.

Deməliyəm ki, Koroğlunun partiyası vokal cəhətdən çox mürəkkəbdir. Operanın müəllifi bu partiyanı yazarkən geniş diapazonlu lirik-dramatik tenorun vokal imkanlarını nəzərə almışdı ki, Bülbül də bu imkanlara malik idi. Bülbülün bu partiyada uğuru onun və ümumiyyətlə, bütün opera sənətimizin ən böyük nailiyyəti idi.

Mən Bülbülün qarşısında baş əyirəm: bütöv bir milli vokal məktəbinin yaranması onun adı ilə bağlıdır. Bu böyük sənətkarın yaradıcılıq taleyi doğma torpağın taleyi ilə qırılmaz tellərlə bağlıdır. Mənim də yaradıcılıq taleyimdə onun silinməz izi qalmışdır. Musiqi sahəsindəki yüksəlişimlə, neçə-neçə əsərimin meydana gəlməsilə mən ona borcluyam.

«Şur» və «Kürd ovşarı» simfonik muğamlarımın yaranmasında təşəbbüskar və məsləhətçi kimi bizim xalq musiqimizin ən gözəl bilicisi və onun ən yaxşı ənənələrini özündə yaşatmış ustad kimi mən sənə borcluyam, əziz Bülbülüm!

Mənim bütün yaradıcılıq həyatım Bülbüllə sıx bağlıdır. Onu Azərbaycan musiqisi haqqında yazılmamış müdrik, dərin məzmunlu canlı kitabla müqayisə etmək olar. Azərbaycan musiqisinin incəliklərini duymaq üçün mən tez-tez bu misilsiz kitaba müraciət edirdim. Azərbaycan musiqiçilərinin böyük bir nəslinin yetişib boya-başa çatmasında Bülbülün xidməti son dərəcə dəyərlidir, ölçüyəgəlməzdir.

Bülbül sənətdə nadir hadisədir, böyük şəxsiyyətdir. Tarix belə ləl-cavahiratı insanlara tez-tez bəxş eləmir. O, böyük hərflərlə yazılan Musiqiçi və İnsandır.

Bülbülü fikirləşəndə gözlərim önündə yaradıcılıq həyatımın ən yaxşı lövhələri canlanır. Bu həyat daim gümrah, həyatsevər, mənə müdrik məsləhətlər verən, böyük ürəkli, səxavətli müəllimimlə qırılmaz tellərlə bağlıdır.

...Azərbaycan mədəniyyətində Bülbülün xidməti yalnız onun ifaçılıq qabiliyyətindən ibarət deyildir. O, eyni zamanda incəsənətimizin ehtiyat mənbəyi olan gənc musiqişünasların da yetişdirilməsində böyük fəaliyyət göstərir.

Bülbül özünün sənətkarlığı ilə Sovet İttifaqının hər tərəfində məşhurdur. Onun ifa etdiyi mahnılarda sovet adamının fədakar əməyi, parlaq gələcəyi ən incə boyalarla təcəssüm olunur. Bu mahnılar isə uzun illər boyu dildən-dilə düşəcək və sevimli sənətkarımızı daha çox sevdirəcəkdir. Xalq musiqi yaradıcılığı çeşməsindən su içmiş sənətkar xalq durduqca yaşayacaqdır.

***Fikrət ƏMİROV,***
***bəstəkar,***
***SSRİ xalq artisti***



### *BÖYÜK USTAD*

Sənətkar və vətəndaş, pedaqoq və məsləhətçi, gözəl müğənni və xalqın sevimlisi... Azərbaycan professional vokal sənətinin banisi Bülbül mənim xatirimdə belə həkk olunmuşdur.

O vaxtlar bir gənc müğənni kimi «Koroğlu» operasında iştirak etmək mənim üçün böyük mükafat idi.

Mən Nigarın partiyasını ifa etməli idim. Qızğın iş başladı. Bu partiyanı hazırlamaqda görkəmli dirijor Niyazi mənə çox kömək göstərdi. Bülbülə layiq tərəf-müqabil olmaq istəyirdim.

O həyəcanlı gün gəlib çatdı. Səhnədə ilk çıxışımı başa vurub, səbirsizliklə Koroğlunun gəlişini gözləyirdim. Qəhrəmanın Nigara müraciətən mehribanlıq, səmimiyyət ifadə edən ilk frazasını eşidəndə qanadlandım, özümü çox rahat və inamlı hiss etdim. Bu, məni ruhlandırdı.

O, bütün tamaşa boyu razılıq ifadə edən baxışlar ilə məni təqdir edirdi. Mən ona dünyalar qədər minnətdar idim!

1959-cu ildə Moskvada keçirilən Azərbaycan Ədəbiyyatı və İncəsənəti ongünlüyü zamanı SSRİ Böyük Teatrının səhnəsində göstərdiyimiz «Koroğlu» tamaşası heç zaman yadımdan çıxmaz.

Tələbkar Moskva tamaşaçıları qarşısında biz böyük məsuliyyət hissilə çıxış edirdik. Bülbül səhnədə görünəndə gurultulu alqış sədaları qopdu. Bülbül kimi ustadla bu sevinci bölüşdüyüm üçün özümü xoşbəxt sayırdım.

Bülbül ilə respublikamızın, eləcə də Sovet İttifaqının bir sıra şəhərlərində tamaşalarla, konsertlərlə çox çıxış etmişəm. Bunlar hamısı unudulmazdır.

***Firəngiz ƏHMƏDOVA,***
***SSRİ xalq artisti***

## *O GÜNÜ UNUDA BİLMƏRƏM*

İran... Təbriz... 1943-cü il... Mənim 11 yaşım var.

Qəzetsatan uşaqlar səhər-səhər pozuq rus dilində çığırırlar: «Son saatda! Bugünkü!». Onlar yoldan ötənlərin ovcuna Sovinformbüronun xəbəri olan xırdaca kağızlar basırlar. Təbrizdə konsulluqdan, ticarət nümayəndəliyindən, müxtəlif xarici ticarət təşkilatlarından xeyli adam, eləcə də hərbçilər var.

Bir axşam ticarət nümayəndəliyində işləyən atam dedi ki, yaxın günlərdə şəhər parkında gəzinti olacaq, SSRİ-dən gələn artistlər konsert verəcəklər. O, bir neçə artistin familiyasını sadaladı. Onların arasında Bülbül familiyası qeyri-adi səslənməyilə xatirimdə qaldı.

Bu konsertdən, lotereya və suvenir satışından yığılacaq pul Stalinqrad uşaqları üçün göndəriləcəkdi.

Lotereya biletlərini satmağı anama tapşırdılar. Qayda belə idi ki, hər adam bir və ya bir neçə bilet üçün istədiyi qədər pul verə bilərdi. Bu məsələ anamı çox narahat edirdi: o qorxurdu ki, pul az yığıla bilər.

Həmin gün gəlib çatdı. Biz Xiyaban adlanan baş küçəyə çıxmışdıq ki, qəribə bir mənzərənin şahidi olduq: parka doğru hərəkət edən böyük bir dəstə təbrizli, bir adamı əlləri üstə aparırdılar. Atam soruşdu: «Onlar kimi aparırlar?» Cavab verdilər:

– Necə, bilmirsən? -- deyə ortayaşlı kişi əlini yuxarı qaldırdı. – Müğənnidir, özü də çox böyük müğənni! Bu, Bülbüldür!

Məlum oldu ki, onu mehmanxanadan əlləri üstə gətirirlər. Mən belə mənzərəni ilk dəfə idi ki, görürdüm. Bu məni heyrətə gətirdi. Onu başları üstə elə-belə qaldırıb aparmırdılar, çox təntənə ilə, hörmətlə, ehtiramla aparırdılar.



Mən başa düşmədim ki, oxuyanı, lap elə böyük oxuyan olsun, niyə gərək əlləri üstündə aparsınlar?

Atam məni başa saldı ki, bu çox böyük məhəbbət və hörmət deməkdir.

Park çıraqban idi. Hərbi orkestr çalırdı. Anam, mənim gözəl anam, içi pul ilə dolu podnosla camaat arasında gəzirdi. Tacirlər bir-birinin bəhsinə, podnosa dəstə-dəstə pul atır, lotereya biletləri alırdılar.

Konsert başladı. Yenə o qəribə familiyanı eşitdim: Bülbül. Aparıcı onun adını çəkər-çəkməz alqışlar qopdu. Yox... Mən estradanın qabağında oturmuş adamların başı üstündən keçən o tufanı təsvir edə bilmirəm. Bülbül hələ heç oxumağa başlamamış səhnəyə gül-çiçək yağdırmağa başladılar. Camaat qəribə bir əhval-ruhiyyədə idi.

O, oxumağa başladı. Azərbaycanca oxuyurdu. Mən sözləri başa düşmürdüm, bilmirdim o, nə barədə oxuyur. Amma konsertə gələnlərin sifətindən başa düşdüm ki, nəsə qeyri-adi bir hadisə baş verir. Bəzi adamlar ağlayırdılar. Yaşlılar əfsanəvi nağıl sehrinə düşmüş uşaqlar kimi ovsunlanmış halda, nəfəs dərmədən Bülbülü dinləyirdilər.

Yenə alqışlar, heyrət səsləri, səhnəyə atılan çiçəklər! O yenə, yenə oxudu! Onu səhnədən buraxmırdılar. O, azərbaycanca nəsə dedi. Son sözləri alqışlar içində eşidilməz oldu. Atam dedi ki , müğənninin çox gözəl, həm də çox güclü səsi var. Bu məsələdə mən heç nə anlamırdım. Mən sadəcə olaraq bu sehrlənmiş adamlara baxırdım...

İndi başa düşürəm ki, Bülbül adlı bu şəxs ikiyə bölünmüş Azərbaycanın nadir bir sənətkarıdır. O, həmin gecə mahnılarını illərdən bəri onun yolunu gözləyən dinləyicilərinə səxavətlə, həm də böyük məhəbbətlə bəxş edirdi.

***Vitali NEXAYEV,***
***SSRİ Dövlət Teleradiosunun***
***xüsusi müxbiri***

## *BÜLBÜL OXUDU*

Əlli birinci ildə, o vaxt yenicə istifadəyə verilmiş Neft daşlarında işləyən gənc neftçi Qurban Abbasovun hünərindən mətbuatda tez-tez yazırdılar. Naxçıvanın Payız kəndindən gəlmiş bu zirək, diribaş oğlandan neftçilər ağızdolusu danışırdılar. Mən Qurban haqqında bir şeir yazdım. Onu bəstəkar Ağabacı Rzayevaya göstərdim, xoşuna gəldi, çox tez də musiqi bəstələdi. Biz qonşuluqda olurduq. Onlara getdim. Ağabacı mahnını çalıb zümzümə ilə oxudu, yaxşı çıxmışdı. O dedi ki, «Neftçi Qurban»ı böyük müğənnimiz Bülbülün səsini nəzərdə tutub yazmışam. Bülbül bu mahnını oxusa gözəl olar. Ağabacı bunu da qeyd etdi ki, Bülbül ürəyinə yatmayan musiqini oxumur. Ona mahnı bəyəndirmək çətin məsələdir, çox tələbkardır. Bu qərara gəldik ki, Ağabacı «Neftçi Qurban»ı Bülbülə göstərsin. Oxumağa razılıq verməsə də, heç olmasa öz fikrini deyər.

Ağabacı Bülbülün evinə zəng vurub, onunla danışdı. belə sözləşdilər ki, hər üçümüz konservatoriyada görüşək. Bu xəbərdən çox şad oldum. Mənim üçün xalqımızın böyük sənətkarı ilə şəxsən tanış olmaq xoşbəxtlik idi.

Konservatoriyada bildirdilər ki, Bülbül məşğələdədir. Professor orda vokal fənnindən dərs deyirdi. Gözlədik. Tezliklə bizi sinifdə qəbul elədi. Ağabacıdan mahnının notunu alıb baxdı, sözlərlə tanış oldu.

– Xoşuma gəlir, – dedi.

Ağabacı Bülbülün bu sözlərindən çox şad oldu, pianonun arxasında oturdu, mahnını çalıb zümzümə elədi. Professor qulaq asa-asa razılıq əlaməti olaraq hərdən başını tərpədirdi:

– Ağabacı xanım, mahnı ürəyimə yatır. Mən bunu oxuyacağam. Ancaq qoyun qalsın məndə. Evdə arxaymlıqla ona bir də baxaram, bəlkə bəzi dəyişiklik elədik.



Biz konservatoriyadan kefi kök çıxdıq. Ağabacı dedi:

– Bülbülün mahnını götürməsi nə yaxşı oldu…

İki gündən sonra yenə Bülbüllə konservatoriyada görüşdük. Onun qaynar gözləri gülürdü, bizi xoş sözlərlə qarşıladı, zarafat elədi. Mahnının musiqisini öyrənmişdi, mətni də əzbərdən bilirdi. Professor dedi ki, «Neftçi Qurban» populyar mahnılardan biri olacaq. Mənə elə gəlir ki, onu daha oynaq, ürəyəyatımlı eləmək lazımdır. Buna görə də gərək, mahnıda bəzi düzəliş edilsin.

O, Ağabacıya nəqəratın axırında ritenuta (ağırlaşma) və fermato (uzatma) eləməyi məsləhət gördü. Növbə mənə çatdı. Bülbül dedi:

– Mən şairlik eləmək iddiasında deyiləm, ancaq, əziz Hüseyn, ikinci bəndi bu şəkildə dəyişməyi məsləhət görürəm.

O özünün yazdığı dörd misra şeiri mənə göstərdi.

– Əgər etiraz etmirsənsə mən istərdim ki, ikinci bəndi belə olsun.

Bülbülün yazdığı bəndi alıb oxudum. Şeirdə vəzn qırıqlığı vardı. Doğrusu bu düzəliş heç ürəyimcə deyildi, lakin sevimli sənətkarın sözünü yerə salmağı rəva görmədim. Elə oradaca təzə bənddə bir-iki dəyişiklik elədim. Bülbül, indi «Neftçi Qurban» mahnısında musiqi həvəskarlarına yaxşı tanış olan aşağıdakı bəndi yazmışdı:

*Neftçi Qurban çıxartdığı qara neft,*
*Bu qüdrətli ölkəmizə gərəkdir.*
*Onun işdə qazandığı hər zəfər,*
*Xalqımızın sülh işinə köməkdir.*

Mənim variantımda isə həmin bənd belə idi:

*Xəzər üstə doğan günəş, əsən yel,*
*Səhər-səhər salamlayır Qurbanı.*

*Məhəbbətlə böyütmüşdür bizim el,*
*Bu qüdrətli, məharətli ustanı.*

Hər ikimiz – Ağabacı da, mən də «Neftçi Qurban»da Bülbülün arzuladığı dəyişikliyi elədik. Mahnı hazır oldu. O zaman Oktyabr inqilabının qırx doqquzuncu ildönümünə bir neçə gün qalırdı. Bülbül dedi:

– Təntənəli bayram gecəsinin konsertində çıxış edəcəyəm və orada «Neftçi Qurban» mahnısını ifa edəcəyəm. Yeni mahnı dinləyicilərə olar bayram hədiyyəsi.

Ağabacı narahat oldu. Qayda üzrə gərək hər bir yeni mahnı ifa üçün ya Bəstəkarlar İttifaqında, ya da Radio Komitəsinin bədii şurasında qəbul ediləydi. O, dedi:

– Professor, axı mahnı hələ qəbul edilməyib, onu consertdə ifa etmək necə olar?

Bülbül Ağabacıya təskinlik verdi:

– Eybi yoxdur, Ağabacı xanım, – dedi, – mən oxuyaram, hörmətli komissiya üzvləri qulaq asarlar. Sonra qoy öz qərarlarını çıxarsınlar.

Böyük müğənni dediyi kimi də elədi. «Neftçi Qurban» ilk dəfə M.F.Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında bayram konsertində səsləndi. O gün Bülbül elə gözəl, elə hərarətlə oxudu ki, salondakılar böyük sənətkarı uzun sürən alqışlarla qarşıladılar.

Bu yolla «Neftçi Qurban» üzə çıxdı. Daha onu heç yerdə müzakirə eləməyə ehtiyac qalmadı. Tezliklə mahnı dillərə düşdü. Bülbüldən sonra onu Məmməd Salmanov, Gülağa Məmmədov və başqa müğənnilər ifa etdilər. Lakin Ağabacı Rzayevadan və məndən başqa heç kim bilmədi ki, mahnının ikinci bəndinin sözləri Bülbülündür.

«Neftçi Qurban» həmin bəndlə, musiqi nəşriyyatında çap edildi. Bülbülün ifasında qrammofon vallarına yazıldı. Hətta başqa dillərə də tərcümə edildi. Mən isə əlli dördüncü ildə



Azərnəşrdə buraxılan «Silah yoldaşları» kitabıma «Neft Qurbanın» ikinci bəndini özüm yazdığım kimi daxil elədim.

O vaxtdan xeyli keçsə də, indi hərdən radioda Bülbülü ifasında «Neftçi Qurban» səslənəndə böyük sənətkarla il görüşümüz yadıma düşür.

***Hüseyn ABBASZADƏ,***
***xalq yazıçısı***

## *MÜHACİRİN BİR XATİRƏSİ*

20-30-cu illərdə «Yeni Qafqasya», «Azəri-türk», «Odlu yurd», «Bildiriş», «Azərbaycan yurd bilgisi» (İstanbul), «İstiqlal», «Qurtuluş» (Berlin), 50-ci illərdən sonra «Azərbaycan» (Münhen), «Azərbaycan» (Ankara) və başqa nəşrlərdə mühacirlər Azərbaycan ədəbiyyatının, mədəniyyətinin sovet rejimi və ideologiyasına yox, millətin, Vətənin mənafeyinə xidmət edən qisminə dair yüzlərlə məqalə, resenziya, xatirə və başqa janrlarda yazılar həsr etmişlər.

Bu cəhətdən 1955-ci ildən Ankarada Azərbaycan mühacirlərinin nəşr etdikləri «Mücahid» də diqqəti çəkir. Jurnalda Azərbaycanın sənət korifeylərindən bəhs edən ciddi analitik yazılarla bərabər, həzin, kövrək xatirələr də dərc olunurdu. belə yazılardan birini oxucularımızın diqqətinə təqdim edirəm («Mücahid» № 43-44, 1961-ci il, səh. 18-19, Ankara).

***Abid TAHİRLİ,***
***filologiya elmləri namizədi***

## *AZƏRBAYCANIN BÜLBÜLÜ*

«Mücahit» dergisinde onun ölümüne dair yazıyı okuduk-ta gözlerime bir türlü inanamıyordum. Fakat Bülbül ölmüştü. Ara-sıra onun sesini Baku radyosunda dinlerken ona ait bütün hatıralarım canlanır, onun genc və dinc siması gözlerimin önüne gelirdi. İlk defa onu 1927 de Tifliste dinlemiştim. Ününü, adını çokdan bildiğim Bülbülü ilk defa görüyordum. Onun genc, yakışıklı vücudu, güler yüzlü sempatik çehresi, hoş, latif sesi herkes gibi bana da büyüleyici tesirini yapmıştı.



Ben onu daima genc olarak görür, bir türlü ona ihtiyarlığı yakıştıramıyordum. Geçen sene Ankaraya gelen Azerbaycan ses sanatkarları Bülbülün çok yaşlandığından bahsettiklerini yine «Mücahit»de okuduğum zaman, bu söze de inanamıyordum ama, Bülbül de ihtiyarlarmış!.. Diye düşünmekten de kendimi alamadım.

1927 de Azerbaycanın tiyatro yazarlarından Abdurrahim Beyin, ilk eserini Tifliste yazdığı için edebi faaliyetinin 35 inci yılını kutlamak için jübilesi Tifliste yapılıyordu. Tiflisin büyük caddesi Rostaveli'de Büyük Gürcü Tiyatro binasının önünden geçerken Türkce yazılmış bir afişte iri harflerle Bülbülün adını okudum. Aradığımı bulmuşdum. O, Abdürrahim Beyin jübilesine halk türküsü söylemek və Karabağlı hemşerisi olan yazarın bu tantanalı gününü canlandırmak için özel olarak davet edilmişti. Tifliste bulunan bütün Türkler akın-akın o gece için bilet alıyorlardı. Geceye gelenler yazardan ziyade Bülbülü görmek ve onu dinlemek için geliyorlardı. Ben de o gece Tiflis Türk ögretmen okulu ögrençileriyle beraberdim. Hepimiz Bülbülü hayranlıkla bekliyorduk. Nihayet alkış tufanı içinde bir erkek süslü süslün gibi seke-seke sahneye gelişiyle seyirçileri kendisine bağlıya bildi. Güler yüzü, cazip sesiyle ilk defa söylediği ve herkesi hayran ettiği, iyi hatırlıyorum, «Ben bir ahu ceylan olup» türküsü idi. Artık Bülbülü, seyirçileri bırakmazdı, bir çok kere sahneye dönmeğe mecbur olan Bülbül her defasında halkı hayran bıraktı. Eger imkan olsaydı sabaha kadar hiç yorulmadan onu dinler ve alkışlardık. Salon hıncahınç dolmuştu, lojalarda Gürcü büyükleri yer almış, Türklerden başka, Ermeni, Gürcü, Küzey Kafkasyalı gibi Tifliste yaşıyan çeşitli milletlerden seyirçiler vardı. Seyirçiler tam bir saat onu sahneden bırakmadılar. Abdurrahim Bey unutulmuş, hayranlık Bülbüle yonelmişti. O gece hayatımın en neşeli gecesi olmuştu, hiç unutmadığım o gecede Bülbüle hayran olup şöyle demiştim: «Hakikaten o bülbül, güllü bahçesi de Azerbaycan!».

Mehmetzade Bülbül Karabağlı olmasına rağmen, çocukluğu ve gencliği Gence'de geçmiştir, Gence'de evlenmiştir. (Ona göre de her zaman kendisini Genceli sayardı). Onu ikinci defa yazın Gence'de Üzeyir Hacıbeyli'nin Koroğlu operasında Koroğlu rolünde seyrettim. Çevikliği ve gür sesiyle Koroğlu rolünü tam yaratmış, herkesi hayran etmişti. Hele «Sevdim seni ey nigarım» diye başlıyan aryayı öyle bir ses, öyle bir ahenkle söyledi ki, herkesi mest etti. O yazın Bakü-den Gence'ye gelen artistlerden, «Asli Kerem» operasında Kerem rolünü Bakülü Hüseyin-Ağa Hacıbaba-beyli, «Leyla Mecnun» operasında Mecnun rolünü Şekili Ali-Evsat Sadıkoğlu ifa ettiler, fakat Bülbülün Koroğlu rolü harika idi. O İtalya'da okuyup döndükten sonra modern operaların artisti olmuştu. O, yalnız Azerbaycan degil Kafkasya'da hatta bütün Sovyetler Birliğinde tanınmış sanatkardı. İtalya'da bile ondan hayranlıqla bahseden kimselere rastladım.

Azerbaycanın gür sesli bülbülü sustu, çünki Bülbül öldü. Fakat onun sesi ölmedi, o ses asırlarca Azerilerin kulağında çalıyacaktır. Onun plaklardaki o hoş sesi yine zevkle dinlenecektir ki, yegane tesellimiz de budur. Bülbülün cazip sesi onu ölümden kurtardı, onun sesi dinlendikce Bülbül yaşıyor demektir. Onun sesindeki sanatkarlığı ölümü yenmiştir, ama onun sempatik simasını yalnız resimlerinde görebiliriz. Tanrının rahmetiyle mezarı nurla dolsun!

***Nebi TURAPLI***



## *BÜLBÜL DƏRSLƏRİ*

...1945-ci il fevralın 4-də mənim 17 yaşım tamam oldu. Həmin gün Binəqədidən evə gəldim. Anam bu münasibətlə halva bişirmişdi. Kamala teatrdan maaş vermişdilər. O mənə hədiyyə almaq istəyirdi. Dedi ki, indi Bülbülün dərsinə getməliyəm. Sonra sənin üçün hədiyyə alacağam. Soruşdu:

– Sənin üçün nə alım?

Dedim ki, əgər məni Bülbülün dərsinə aparsan, bu, mənim üçün ən böyük hədiyyə olar. Kamal bilirdi ki, mən lap uşaqlıqdan Bülbülün böyük pərəstişkarıyam. Bundan başqa bizim evdə Bülbülün ifasında «Süsən sünbül» və «Yaxa düymələ» xalq mahnılarının qrammofon valları var idi. Biz onlara səhərdən axşama kimi patefonda qulaq asırdıq. Bir neçə gündən sonra Kamal məni Bülbülün dərsinə aparmağa razılıq verdi.

Azərbaycan Dövlət Konservatoriyasının binasında hərbi xəstəxana yerləşirdi. Ona görə də dərslər Asəf Zeynallı adına Musiqi Məktəbinin bir hissəsində keçirilirdi. Bülbül tələbələri ilə evində (indiki Xaqani küçəsində yerləşən memorial ev muzeyi) məşğul olurdu. Bu binada Azərbaycanın görkəmli ədəbiyyat və incəsənət xadimləri yaşayırdılar.

Kamal ilə ikinci mərtəbəyə qalxdıq. O, qapının zəngini çaldı. Qarşımıza Bülbülün evindəki qulluqçu olan yaşlı rus qadını Mariya çıxdı. O, bizi içəri dəvət etdi. Həyəcandan ürəyim döyünürdü. Fikirləşirdim ki, qarşıma əzəmətli Koroğlu çıxacaq.

Paltolarımızı çıxarıb böyük qonaq otağına keçdik. Uzun miləmil ev xalatı geymiş Bülbül royalın arxasında oturub pianoçu-konsertmeyster Vladimir Kozlovla söhbət edirdi. Kamal onlarla salamlaşıb dedi:

– Professor, bu mənim qardaşımdır. Əgər icazə versəniz, oturub dərsə qulaq asar.

Bülbül ayağa qalxıb, əlini uzadaraq:

– Xoş gəlmisən, – dedi, – Neçə yaşın var? Cavab verdim ki, on yeddi.

O, mənə diqqətlə baxıb;

– Kişilərin səsi elə on yeddi yaşında formalaşmağa başlayır, – dedi, – Gəl bir səsini yoxlayım, görək tenorsan, yoxsa bariton. Bülbül üç notdan ibarət bir akkord çalıb, həmin səsləri oxumağımı təklif etdi. Mən oxudum. Sonra akkordu hər dəfə yarım ton qaldıraraq yenə oxutdurdu.

Səsimi yoxladıqdan sonra:

– Səsin tenordur, – dedi, – açılıb genişlənər. Bir də hökm deyil ki, mütləq müğənni olasan. Əgər musiqini sevirsənsə, Musiqi texnikumuna daxil ol, sonra bilinər, kim olacaqsan. Hər halda bizə musiqi təhsilli adamlar çox lazımdır. Musiqi redaktoru da ola bilərsən, mühazirəçi musiqişünas da.

Sonra Bülbül Kamala tapşırdı ki, o məni Musiqi texnikumunda hazırlıq kursu aparan assistenti Nina Qriqoryevna Lifşisin sinfinə yazdırsın. Bülbül stolun üstünə qoyulmuş ləbləbi-kişmişlə dolu üç böyük büllur qabı göstərib:

– İndi, bala, – dedi, – otur bunlardan ye, məşğulat et, mən də Kamalla dərs keçim. Bax gör müğənnilik necə əziyyətli işdir.

Mən kənarda əyləşdim və Bülbülün dərsinə böyük maraqla qulaq asmağa başladım. Bülbül səsaçma texnikasına əsasən Kamalla yarım saat qamma keçdi. Sonra da onun dərs proqramında olan əsərləri oxutdurdu.

Kamal Musiqili Komediya Teatrında Üzeyir Hacıbəyovun «O olmasın, bu olsun» musiqili komediyasında Sərvər rolunu məşq edirdi. Buna görə də Bülbül onunla Sərvərin ariyasını keçirdi. Məlumdur ki, Üzeyir Hacıbəyov bu ariyada Füzulinin «Şəfai-vəsli qədrin hicr ilə bimar olandan sor» qəzəlindən istifadə etmişdir. Bu qəzəlin mənasını, sözlərini nə



Kamal başa düşürdü, nə də ki mən. Çünki biz rus məktəbində oxumuşduq. Orada bizə Füzulini keçməmişdilər. Bülbül Kamala nəinki notların düzgün oxunmasını, eyni zamanda hər sözün mənasını və onların əruz vəznində düzgün tələffüzünü də öyrədirdi. Bülbülün dərsi çox maraqlı idi. Kamalın dərs proqramında Azərbaycan bəstəkarlarının əsərləri ilə yanaşı, rus və Qərbi Avropa bəstəkarlarının əsərləri də vardı. «Karo mio ben» mahnısını italyan dilində oxuyanda belə, Bülbül ona hər sözün mənasını başa salırdı. O, italyan dilini də çox yaxşı bilir və sərbəst danışırdı.

Sonralar mən öyrəndim ki, Bülbül gənclik illərində xanəndə olub. Azərbaycan Dövlət Konservatoriyasında professor Speranskinin sinfini bitirib və təhsilini İtaliyada – Milan Konservatoriyasında davam etdirib. Burada o, məşhur professor Qraninin sinfində oxumuşdu. O vaxtlar Milanda çıxan «Arte-Nostra» musiqi jurnalında bir italyan rəssam Bülbülün başında çalma, əynində isə ağ əba olan portretini dərc etdirmişdi. Bu portretin altında böyük hərflərlə: «İlk dəfə müsəlman dünyasından Milana gəlmiş və italyan belkantosunu mənimsəmiş Azərbaycan xanəndəsi Bülbül» sözləri yazılmışdı.

Belkanto üslubunda oxumaq italyan vokal məktəbinin əsasını təşkil edir. Bülbül nəinki onu öyrənmiş, həm də oxumağını Azərbaycan xanəndələrinin ifaçılıq sənəti ilə üzvi surətdə birləşdirib, milli vokal məktəbi yaratmışdır.

Uzun illər Azərbaycan Konservatoriyasının vokal kafedrasının professoru olan Bülbül vokal sənəti üzrə bir sıra elmi-metodiki əsərlər yazmışdır. Bununla yanaşı, M.F.Axundov adına Azərbaycan Dövlət Akademik Opera Teatrının səhnəsində oynanılan bütün milli operalarımızda baş rolların ifaçısı olmuşdur.

Bülbül klassik rus və Qərbi Avropa bəstəkarlarının əsərlərini də çox gözəl ifa edirdi. Onların içərisində ən yaddaqalanı Puççininin «Toska» operasındakı Kavaradossinin ariyalarıdır. Bu ariyaları Bülbül əsl italyan belkanto məktəbinin

parlaq nümayəndəsi kimi oxuyurdu. Opera janrı ilə yanaşı, Bülbül Azərbaycan romanslarının da klassik ifaçısı idi. O, Asəf Zeynallının «Ölkəm», «Sual», Üzeyir Hacıbəyovun «Sənsiz», «Sevgili canan», Fikrət Əmirovun «Gülüm», «Gülərəm, gülsən», Tofiq Quliyevin «Bəxtəvər oldu», Ağa-bacı Rzayevanın «Oxuma, gözəl» və bir çox başqa romansların ilk ifaçısı olmuşdur. Lakin Bülbül xalq mahnı və təsniflərini də unutmurdu.

O, Azərbaycanda Elmi Tədqiqat Musiqi Kabineti açmışdı. Tez-tez rayonlara musiqi ekspedisiyalarına gedib xalq mahnılarını toplayar, həmin mahnılar üzərində işləyərək, onları özü də oxuyardı.

Bəli, mən böyük Bülbülün evində oturub onun Kamalla keçdiyi dərsi müşahidə edirdim...

O gün özümü, həqiqətən çox xoşbəxt hesab edirdim, çünki bu gün həm böyük müğənni ilə tanış olmuşdum, həm də o mənə Musiqi texnikumuna daxil olmaq üçün xeyir-dua vermişdi.

...1956-cı ilin axırlarında həyatımda əlamətdar bir hadisə baş verdi. Bakıda televiziya studiyası açıldı. Orada işləmək üçün radionun təcrübəli kadrlarından istifadə etdilər. Məni də televiziyanın musiqi verilişləri redaksiyasının məsul redaktoru vəzifəsinə keçirdilər. Azərbaycan televiziyasının ilk musiqi verilişləri yaxşı yadımdadır. Xüsusilə, böyük Bülbülün televiziyada ilk çıxışını ibrət dərsi kimi həmişə xatırlayıram.

Günlərin bir günü proqramda Bülbülün on beş dəqiqəlik solo konserti nəzərdə tutulmuşdu. Həmin gün o, konsertdən qabaq pianoçu konsertmeyster Vladimir Kozlovla studiyaya gəlib məşq edirdi. O vaxt konsertlər televiziyanın 20 kvadratmetrlik kiçik studiyasından iki kamera ilə göstərilirdi.

...1961-ci il avqust ayının əvvəllərində Bülbül zəng vurub dedi ki, Qarabağ bölgəsinə konsert səfərinə getmək istəyir. Təklif etdi ki, mən də onunla gedim və konsertlərin



əvvəlində giriş sözü ilə çıxış edim. Dedim ki, böyük məmnuniyyətlə gedərəm. Ancaq Teleradio rəhbərliyindən icazə almaq lazımdır.

Bülbül dedi ki, bu məsələni Komitənin sədri Teymur Əliyevlə razılaşdırıb. Biləndə ki, Bülbül anadan olduğu Şuşa şəhərinə də getmək istəyir, fikirləşdim ki, özümüzlə bir kinooperator aparıb, onu tarixdə yadigar qalmaq üçün doğma yurdunda lentə alaq. Bülbül haqqında yaxşı bir film çəkməl mənim çoxdankı arzum idi. Bu fikri Teymur müəllimə bildirəndə o mənimlə razılaşdı və dedi ki, Şuşaya getməzdən qabaq ona telefonla xəbər verim, o da operatoru lazım olan yerə göndərər.

Beləliklə, mən ilk dəfə Bülbül ilə səfərə yola düşdüm. Bizimlə Azərbaycan Dövlət Simfonik Orkestrinin kollektivi də gedirdi. Orkestrin dirijoru Əhəd İsrafilzadə idi. Konsertin birinci hissəsində Bülbül Koroğlunun ariyalarını, «Sevgili canan», «Sənsiz» və «Ölkəm» romanslarını oxumalı, ikinci hissədə isə özünün təsniflərini ifa etməli idi. Onu tarzən Əhsən Dadaşov, kamançaçı Fərhad Dadaşov, dəfçalan Əzizağa Nəcəfzadə və pianoda oğlu Polad müşayiət edirdi.

Biz əvvəlcə Gəncə, Mingəçevir, Şəki, Naftalan, Yevlax və Ağdam şəhərlərində çıxış etdik. Bütün konsertlərin axırında Bülbül Poladı tamaşaçılara fərəhlə təqdim edir, oxudururdu. Poladın o vaxt on beş yaşı var idi. Bülbül onun oxumağını sevinclə dinləyirdi. Elə bil hiss edirdi ki, bir neçə ildən sonra Polad Sovet İttifaqının ən populyar estrada müğənnilərindən biri olacaq. Polad o vaxt indiki Bülbül adına Onillik Musiqi Məktəbinin fortepiano sinfində təhsil alırdı, onun çox gözəl improvizasiya bacarığı vardı və Bülbülün təsniflərini üçlüklə müşayiət edəndə özündən maraqlı əlavələr edirdi.

Polad bu səfərə təzəcə buraxılmış «Yunost» markalı kiçik maqnitofon götürmüşdü, Bülbülün bütün konsertlərini lentə yazırdı. Deyəsən, o mənim də bir neçə çıxışımı yazmışdı. Onu da deməliyəm ki, biz bu səfərə Bülbülün «Vol-

qa»sında getmişdik. Maşını Polad sürürdü. Bülbül onun yanında əyləşmişdi.

Mən arxada əyləşib, ürəyimin içini yeyirdim, çünki Polad maşını nadinc bir uşaq kimi çox iti sürətlə sürürdü. Atası isə buna əhəmiyyət vermir, şirin söhbətlər edirdi. Döngələrin birində Polad az qaldı ki, maşını dərəyə uçursun. Qorxudan nəfəsim çəkilmişdi. Amma Bülbül ona bir söz demədi. Ağdama çatanda mən istədim ki, arxamızca gələn musiqiçilərin avtobusuna keçib oturum. Bülbül dedi:

– Qorxma, bala, insanın alnında nə yazılıbsa, o da olacaq.

Nəhayət, biz sağ-salamat Xankəndinə (o vaxtkı Stepanakert) gəlib çatdıq. Mehmanxanada bizi televiziyanın kinooperatoru Nəriman Şıxəliyev iki gün idi ki, gözləyirdi. Həmin gün konsert Dram teatrının binasında olmalıydı. Ertəsi gün səhər tezdən Bülbül ilə Şuşaya gedib çəkiliş aparmalıydıq. Musiqiçilər isə oraya axşamüstü gəlməli idilər.

Axşam Xankəndi Teatrının zalı tamaşaçılarla ağzınacan dolu idi. Birinci sırada Vilayət Partiya Komitəsinin birinci katibi və şəhərin bütün rəhbər işçiləri öz ailə üzvləri ilə oturmuşdular. Bülbül pərdə arxasından zala baxıb dedi ki, bu gün tamaşaçılarla özü söhbət edəcək. Mən sevindim. Çünki hələ tələbəlik illərindən onun mənalı və duzlu çıxışlarını dinləməyi çox sevirdim.

Axşam Bülbül səhnəyə çıxaraq tamaşaçıları Azərbaycan dilində salamladı və çıxışını rus dilində davam etdirdi. O dedi ki, 150 il bundan qabaq ermənilər İrandan Qarabağa köçəndə biz onları torpağımızın ən səfalı yerlərindən biri olan Xankəndində məskunlaşdırdıq. Azərbaycan xalqı böyük qonaqpərvərlik göstərib, onlara öz adət-ənənələrini, dadlı xörəklərini, gözəl musiqisini, qədim muğamlarını öyrədərək bu torpaqda xoşbəxt və firavan yaşamalarına imkan yaratdı. Sonralar ermənilər Xankəndinin adını dəyişib Stepanakert qoydular. Burada Azərbaycan Respublikasının hesabına gözəl evlər, məktəblər, bir çox mədəniyyət ocaqları və nəhayət, Er-



məni Dram Teatrının binasını tikdirdilər. Bu gün mən ilk dəfə teatrın binasına gələndə gördüm ki, onun yaraşıqlı foyesində Qarabağda anadan olmuş görkəmli yazıçıların və musiqiçilərin portretləri vurulmuşdur. Bu, çox yaxşıdır ki, siz Qarabağın görkəmli adamlarının xatirəsini yad edirsiniz. Amma çox təəssüf ki, o xadimlərin arasında heç bir nəfər də azərbaycanlının portreti yoxdur. Bəs hanı Qarabağın yetirdiyi Vaqifin, Xurşudbanu Natəvanın, Üzeyir Hacıbəyovun, Əbdürrəhim bəy Haqverdiyevin, Cabbar Qaryağdıoğlunun portretləri? Bəs onlar qarabağlı deyillər? Biz həmişə dostluqdan, beynəlmiləlçilikdən danışırıq, amma bu gün səhər şəhərə gələndə gördük ki, küçələrdəki bütün yazılar erməni və rus dillərindədir. Siz unutmamalısınız ki, bura Azərbaycan şəhəridir...

Bülbül bu sözləri özünəməxsus yüksək mədəniyyətlə, incə yumorla və yumşaq məlahətli səsi ilə deyirdi. Tamaşaçılar başlarını aşağı salıb, sakitcə dinləyirdilər. Onlar bilirdilər ki, məşhur artistin bütün sözləri acı həqiqətdir. belə giriş sözündən sonra o, bütün şəhərlərdə olduğu kimi gözəl konsert verdi.

Səhər Şuşaya yola düşdük.

Bülbülün çox gözəl əhval-ruhiyyəsi var idi. Mən Nərimanla maşının arxa oturacağında oturub dünənki konserti müzakirə edirdim. Bülbülə dedim ki, onun cəsarətli çıxışı hamımızın ürəyindən oldu. Bülbül dedi ki, hərdənbir onların dərsini vermək lazımdır ki, bilsinlər kimin torpağında yaşayırlar. Sonra Bülbül bütün yol boyu Şuşanın tarixindən, onun musiqi ənənələrindən, bu şəhərin dünyaya bəxş etdiyi şəxsiyyətlərdən fərəhlə danışırdı. Deyirdi:

– Şuşa Azərbaycanın milli xalq konservatoriyasıdır. Burada görkəmli musiqişünas Mir Möhsün Nəvvab, tarın atası Sadıqcan, məşhur xanəndələr – Keçəçi Məhəmməd, Əbdül Baqi, Şahnaz Abbas, İslam Abdullayev, Məcid Behbudov, bəstəkarlardan Üzeyir və Zülfüqar Hacıbəyovlar, Məşədi Cəmil Əmirov və başqa görkəmli musiqiçilər yaşayıb-yaratmışlar.

Biz Şuşanın mərkəzi küçələrindən birinə daxil olanda gördük ki, burada keçmiş Sovet İttifaqının ağır sənaye naziri İvan Tevosyanın büstü qoyulub. Ondan bir az aralı evin divarına mərmər lövhə vurulmuşdu. Orada erməni və rus dillərində yazılmışdı: «Görkəmli sovet dirijoru Aleksandr Şamiloviç Məlik-Paşayev 1906-cı ildə bu evdə anadan olmuşdur».

Bülbül anadan olduğu ev ilə görüşə gəlmişdi. O, həyəcanla yolu göstərərək Polada dedi ki, birbaşa «Qurdçular» məhəlləsinə gedək, doğma evimizi çəkək.

Sonra Cıdır düzünə getdik, orada Bülbülü gözəl təbiət mənzərələri fonunda çəkdik. Bu vaxt Şuşa rayon Partiya Komitəsinin birinci katibi Bülbülün şəhərə gəldiyindən xəbər tutaraq Cıdır düzünə gəlib bizi evinə qonaq aparmaq istədi, bildirdi ki, axşamkı konsertə Şuşanın bütün ziyalılarını dəvət edib.

Katibin evinə gələndə gördük ki, həyətdə manqal yandırıb kabab bişirirlər. Qonaq otağında isə gözəl bir süfrə açılmışdı. Biz böyük iştahla yeyib-içməyə başladıq, Bülbül isə kababdan bir tikə də götürmədi. Qan təzyiqi qalxmışdı, baş ağrısından şikayət edirdi. Polad dedi ki, bəlkə axşamkı konserti təxirə salaq, birbaşa Bakıya gedək. Bülbül etiraz edib dedi ki, axşamkı konserti mütləq keçirəcək. Bunun üçün bir az istirahət etməlidir.

Nahardan sonra katibə və onun ailə üzvlərinə təşəkkürümüzü bildirib, bəstəkar Süleyman Ələsgərovun Şuşadakı ikimərtəbəli gözəl evinə qonaq getdik.

Hər il yay aylarında Süleyman müəllim öz ailəsi ilə burada istirahət edirdi. Bülbülü öz evində görəndə sevindiyindən bilmədi ki, nə etsin. İstədi ki, müğənninin ayaqları altında quzu kəsdirsin. Bülbül razı olmadı. O dedi ki, bu saat çörək yeyib gəlmişik. Burada ancaq çay içib, konsertə qədər istirahət edəcəyik.

Axşam Şuşanın internat məktəbinin böyük zalında Bülbülün son konserti oldu. Burada minə qədər tamaşaçı toplaşmışdı. Onların arasında Bakıda məsul vəzifələrdə işləyən –



Mərkəzi Komitənin və Nazirlər Sovetinin bir neçə şöbə müdiri, respublika maliyyə nazirindən tutmuş baş prokurora qədər bir çox tanınmış şuşalı var idi. Onlar yay aylarında öz ailələri ilə Şuşaya gəlib ancaq və ancaq burda istirahət edirdilər. Lakin bu şəhərin abadlaşması və mədəni-iqtisadi inkişafı üçün bir iş görmürdülər. Bülbül bunu yaxşı bilirdi və ona görə də mənə dedi ki, axşam sən çıxış etmə, özüm danışacağam. Qərara gəlmişdi ki, bir saata qədər danışacaq, sonra da ancaq simfonik orkestrlə oxuyacaq. Onun şuşalılara deməyə çox sözü var idi. Bu gecə Bülbül ilk dəfə olaraq iki Lenin ordeni, iki Qırmızı Əmək Bayrağı, «Şərəf Nişanı» ordenlərini və bir neçə medalını döşünə taxmışdı. Səhnəyə çıxanda tamaşaçılar ayağa qalxıb onu on dəqiqə alqışladılar. Onlar sakit olub, yerlərinə oturandan sonra Bülbül həyatındakı son nitqinə başladı.

– Əziz həmyerlilərim! – dedi. – Çoxdandır ki, mən doğma şəhərim olan Şuşadan çıxmışam. Bu illər ərzində adi bir xanəndədən SSRİ xalq artisti adına qədər yaradıcılıq yolu keçmişəm. Bu şərəfli adı və ordenləri mən sizlərə görə almışam, doğma Şuşamı şöhrətləndirmişəm.

Səhər Şuşaya daxil olanda, ermənilərin öz adamlarının xatirəsini necə yad etdiyini gördüm. Şəhərin bir çox evlərinin divarına xatirə lövhələri vurublar. Onları görəndə fikirləşdim ki, bəs haradadır bizim görkəmli adamların abidələri, evləri və onların üstündəki xatirə lövhələri? Nə üçün bizim yaddaşımız korşalıb? Nə üçün yüksək vəzifə tutan adamlarımız bu şəhərin abadlıq işlərinə fikir vermirlər? Nə üçün belə məsələlərə biganəlik göstərirlər?

Bülbülün o gecə dediyi sözlərin hamısı yadımda deyil. Axırda dediyi sözləri isə yaxşı xatırlayıram. O dedi ki, əgər millət bu biganəlik yuxusundan oyanmasa, sonralar ermənilər deyərlər ki, Şuşa bizimkidir və bütün Qarabağ əldən gedər... Bülbülün böyük ürək ağrısı ilə dediyi bu acı həqiqət xalqımızı gözləyən faciələr haqqında ilk həyəcan təbili idi. Bülbülün bu tarixi sözlərini Polad lentə yazmışdı.

Həmin gün konsertin axırında Bülbül Ü.Hacıbəyovun «Sənsiz» romansını oxudu.

Biz Bakıya qayıdanda Bülbül bütün yol boyu danışmırdı. Bikef halda, doğma yurdu ilə vidalaşırmış kimi maşının pəncərəsindən Qarabağ mənzərələrinə tamaşa edirdi. Müğənniyə onun haqqında çəkiləcək filmin ssenarisini danışırdım. O, filmi oxuduğu «Ölkəm» mahnısı ilə başlamağı və onun müşayiəti ilə Azərbaycanın gözəl mənzərələrini göstərməyi məsləhət gördü. Xahiş etdim ki, sentyabrın əvvəllərinə vaxt təyin etsin, biz Nəriman ilə gələk, onu konservatoriyada tələbələri ilə dərs keçəndə çəkək. Bülbül dedi ki, bu çəkilişi oktyabr ayına keçirək, çünki onun tələbələrinin çoxusu bu vaxt pambıq yığımına gedir. Beləliklə, biz çəkilişi oktyabr ayına təyin etdik.

1961-ci il sentyabrın 26-da səhər tezdən qardaşım Kamal həyəcanlı halda zəng vurub dedi ki, bu gün gecəyarısı Bülbül qəflətən vəfat etmişdir. Bu xəbəri eşidəndə göz yaşları içində televiziya studiyasına qaçdım. Kinooperator Nərimanı tapıb, Şuşada çəkdiyi kinomaterialların taleyi ilə maraqlandım. O, lentləri hələ laboratoriyadan almamışdı. Kinostudiyaya gedib xahiş etdik ki, lenti təcili hazırlasınlar.

Həyəcan keçirirdik, çünki çəkiliş zamanı hava tutqun idi. Bilmirdik ki, kadrlar necə alınıb. Xoşbəxtlikdən çəkilişlərin hamısı keyfiyyətli idi. Mən filmin ssenarisini və çəkilmiş kinokadrları istedadlı kinorejissor Kamil Rüstəmbəyova verdim. O da beləcə, «Xalq nəğməkarı» adlı sənədli televiziya filmini yaratdı. Həmin vaxtdan çox illər keçib. Bu film hər il Bülbülün vəfatı günü – sentyabrın 26-da televiziya ilə göstərilir.

***Kərim KƏRİMOV,***
***respublikanın xalq artisti***



## «MƏNİ DƏRDƏ SALAN DİLBƏR»...

Lent yazısı Bülbülün səsilə o oynaq, şövqlü mahnının sədalarını ürəklərə, hisslərə, duyğulara yetirir:

*Sallanıban gələn dilbər,*
*Yaxan düymələ, düymələ...*
*Məni dərdə salan dilbər...*
*Yaxan düymələ, düymələ...*

Bülbülün oxuduğu o gözəl xalq mahnısı yalnız bir lirik qəhrəmanın hisslərinin, məhəbbətinin ifadəsi deyil, Bülbülün nəfəsi, vurduğu xallar o qədər doğma və məhrəmdir ki, elə bil, Azərbaycan məhəbbət dastanlarının bütün qəhrəmanları – Qərib də, Şah İsmayıl da, Kərəm də, Abbas da xalqın ruhu ilə yaşayan bir vahid obrazda ümumiləşdirilərək əvvəli və sonu olmayan, həyatı yaradan və yaşadan sevgidən, vurğunluqdan söhbət açır.

*Kətan köynək, nazik bədən*
*Gördüm, bihal oldum,*
*Bihal oldum, bihal oldum, bihal...*

Bülbülün səsi, ifa tərzi bu sadə sözləri də yalnız bir lirik qəhrəmanın yox, xalqın dilindən söylənən məhəbbət nəğməsi səviyyəsinə ucaldır, yaxud başqa bir xalq mahnısında:

*Sən güləndə gülür yaşıl çəmənlər,*
*Heyran olur avazın eşidənlər,*
*Görən varmı sənin kimi bəxtəvər...*

– deyə oxuyanda Bülbülün öz səsi çəmənləri güldürür, könüllərə bir bəxtəvərlik gətirir…

«Xumar oldum», «Ay bəri bax», «Süsən sünbül», «Qadan alım», «Almanı atdım xarala», «Qara tellər», «Qalada yatmış idim»… Bu qədim el mahnıları müxtəlif zamanların hər cürə keşməkeşlərinə sinə gərib, əsrlərin sınağından çıxıb bu günümüzə gəlmiş (və sabaha gedəcək!) ümumxalq hissəyəcanlarının, xalq mənəviyyatının ifadəsidir və Bülbül sənəti məhz bu cəhəti təcəssüm etdirəcək bir səviyyəyə qalxdığı üçün xəlqi sənətdir.

Bir sənətkar, bir lirik-dramatik tenor kimi Bülbülün tembri, elə bil ki, özündə bütün Azərbaycan təbiətini, Azərbaycan məişətini, xalqın psixologiyasını, xarakterini rəsm eləyir.

Şuşanı Qafqazın təbii konservatoriyası adlandırırlar və bu da, əlbəttə, təsadüfi deyil. Üzeyir Hacıbəyov və Cabbar Qaryağdıoğlu, Seyid Şuşinski və Fikrət Əmirov, Sadıqcan və Qurban Pirimov, Niyazi və Rəşid Behbudov, Xan Şuşinski və Zülfüqar Hacıbəyov, Zülfi Adıgözəlov və Soltan Hacıbəyov, onlarca digər böyük bəstəkarlar, xanəndələr, ifaçılar Şuşada anadan olmuş, Şuşada böyümüş, onların gələcəkdə bəşəri mahiyyət əldə edəcək böyük sənətləri öz başlanğıcını Şuşa təbiətindən, Şuşa ab-havasından, Şuşa mühitindən almışdır.

Bülbül də 1897-ci ilin yay günlərindən birində Şuşada anadan olmuşdu, atası dabbaq Məşədi Rza ona Murtuza adı qoymuşdu, lakin səkkiz yaşından sonra Şuşa camaatı o oğlan uşağını Bülbül deyə çağırmağa başladı və illər keçdikdən sonra o bütün Azərbaycanın Bülbülü oldu.

* * *

Qara Qarayev məqalələrindən birində yazır ki, «millidən kənarda musiqi sənəti ola bilməz, yaradıcılığı bütün xalqların və bütün dünya mədəniyyətinin sərvətinə çevrilmiş musiqi



dahiləri dərin köklərlə öz vətəninə, öz xalqına, onun mədəniyyətinə, tarixinə, doğma torpaqlarının təbiətinə və nəhayət doğma xalqlarının musiqi dilinə bağlıdırlar».[1]

Bülbülün bütün yaradıcılıq yolu, bütün fəaliyyəti, sənətkar taleyi bu fikrin əyani, həm də mənalı, əlamətdar təcəssümündən ibarətdir və Bülbülün də sənətini «dünya mədəniyyəti sərvətinə» çevirmiş ən ümdə vasitə, səbəb onun doğma xalqına bağlılığıdır.

Bülbül yeniyetməlik dövründə, ilk gənclik çağlarında klassik Azərbaycan xanəndəlik məktəbinin nümayəndəsi, xalq müğənnisi idi və onu professional vokal sənətinin gələcək ən uca bədii-estetik zirvələrinin fəthinə aparıb çıxaran yolun başlanğıcı isə Gəncə ilə bağlıdır.

1920-ci ildə Bülbül Bakıya köçür. Üzeyir Hacıbəyovun muğam operalarında – «Əsli və Kərəm»də Kərəmi, «Leyli və Məcnun»da İbn Salamı, Zülfüqar Hacıbəyovun «Aşıq Qərib»ində Qəribi oynayır. O, 1921-ci ildə əvvəlcə professor F.Polyayevin sinfinə daxil olur, 1924-cü ildə İtaliyaya ilk yaradıcılıq səfərinə gedir, La Skalanın tamaşalarına baxır, 1925-ci ildən etibarən Bakı Konservatoriyasında professor N.Speranskinin sinfində təhsilini davam etdirir. Lakin həmin Kərəm milliliyi, Qərib milliliyi həmişə Bülbüllə birgə olur.

1927-ci ildə Bakı Konservatoriyasını bitirdikdən sonra Bülbül yenidən İtaliyaya, bu dəfə uzun müddətli yaradıcılıq ezamiyyətinə gedir.

Bülbül İtaliyaya hələ birinci səfəri zamanı tanış olduğu görkəmli müğənni qadın Delli Pontidən dərs alır. Milan musiqi məktəbinin Dotti Ambrozi, Rafaelo Qrani kimi dünya şöhrətli müəllimlərindən dərs alır, A.Toskanininin idarə etdiyi tamaşalara baxır, La Skalanın Cilini, A.Pertele, Dotti Dalmonteni, Effini, Qallini kimi müğənnilərinə qulaq asır, Fyodor Şalyapinin La Skala qastrollarına tamaşa edir, xüsusən

[1] *Bax: «Советская культура», 29 noyabr 1962.*

Modest Musorqskinin «Boris Qodunov» operasında Şalyapinin Borisin partiyasını oxuması ona dərin təsir bağışlayır, nəhayət, dörd ildən sonra İtaliya vokal məktəbinin tam kursunu keçib, «Karmen» (C.Bize), «Traviata», «Luiza Miller» (C.Verdi), «Cokonda» (A.Panikyelli), «Toska» (C.Puççini), «Afrikalı qadın» (C.Meyerber), «Məhəbbət içkisi» (Q.Donisetti) səpkili klassik operalardan ariyaların mahir ifaçısı kimi vətənə qayıdır, Bakıda, Moskvada, başqa şəhərlərdə konsertlər verir, Loenqrinin (R.Vaqner, «Loenqrin»), Levkonun (N.Rimski-Korsakov, «May gecəsi»), gənc qaraçının (S.Raxmaninov, «Aleko») ariyaları, Şumanın, Şubertin romansları, Neapol mahnıları onun repertuarında əsaslı yer tutur, Hersoqun (C.Verdi, «Riqoletto»), Verterin (C.Masne, «Verter») və Avropa bəstəkarlıq məktəbinin yaratdığı digər parlaq surətlərin partiyaları onun ifasında ürəklərə yol tapır, lakin bütün bu böyük yaradıcılıq müvəffəqiyyətləri heç zaman milli musiqinin, milli ruhun bahasına əldə edilmir, əksinə, Bülbül professional vokal sənətinin zirvələrinə ucaldıqca, elə bil ki, bir sənətkar kimi öz doğma xalqına daha da yaxınlaşır, Azərbaycan xalq mahnıları, təsniflər onun ifasında daha yüksək bir koloritlə səslənir.

Bülbül İtaliyadan qayıtdıqdan az sonra, Azərbaycan folklorunun toplanması, öyrənilməsi, xalq mahnılarının, təsniflərin, oyun havalarının, rənglərin nota alınması ilə bağlı böyük və coşğun vətəndaşlıq hərəkatına qoşulur və bu sahədə əməli iş görən aparıcı xadimlərdən birinə çevrilir.

Bülbül bir tərəfdən Azərbaycan musiqi folklorunun nəzəri əsaslarını işləyir, müxtəlif və nüfuzlu elmi-nəzəri məclislərdə məruzələrlə çıxış edirdi, məşhur Azərbaycan müğənnilərinin, xüsusən Cabbar Qaryağdıoğlunun ifasında bir çox mahnıları fonoqrafa alır[1], bu mahnıları, havaları fonoqrafdan nota köçürməkdə bəstəkarlara köməklik göstərir, tərtibçi və redaktor kimi ciddi iş aparır, təxminən 300 xalq rəqsi, Fikrət Əmirovun, Səid Rüstəmovun, Tofiq Quliyevin 250 xalq mahnısı Bülbülün redaktəsi ilə çap olunur,[1] Fikrət Əmirovun və Ərtoğrul Cavidin hazırladıqları rəngləri ayrıca məcmuə kimi tərtib edir, digər tərəfdən isə folklorla bağlı əldə olunmuş bu elmi-nəzəri nailiyyətləri, maarifçilik qayələrini bir vokal ustası kimi, bilavasitə təcrübəyə tətbiq edirdi, Azərbaycan xalq mahnılarını, təsnifləri xalqın ürəyindən xəbər verən bir hərarətlə oxuyurdu (elə buna görə də xalqın ürəyinə yol tapırdı!), bir çox unudulmuş vokal incilərinə, əslində, yeni həyat verirdi, onları yenidən xalqın müasir mənəvi dünyasına daxil edirdi.

Bülbül dörd illik təhsildən sonra İtaliyadan qayıtdığı elə həmin 1931-ci ildə, misal üçün Azərbaycan Dövlət Konservatoriyasında «Səsin diafraqma üsulu ilə verilməsinin Azərbaycan xalq mahnısına tətbiqi» mövzusunda məruzə edir. Bu fakt bizim üçün ona görə əlamətdardır ki, Bülbülün bir sənətkar kimi milli mədəniyyət ilə dünya mədəniyyətini birləşdirmək, yəni milli mədəniyyətin ifadəsində dünya mədəniyyətinin əldə etdiyi nailiyyətlərdən istifadə etmək cəhdini və beləliklə də, Bülbül sənətinin metodoloji prinsiplərini, bu sənəti bədiilik baxımından yüksək milli-bəşəri zirvələrin fəthinə aparıb çıxaran estetik təmayülü əyani şəkildə yaxşı nümayiş etdirir.

Yalnız muğamatın, xalq mahnılarının, el havalarının yox, aşıq sənətinin də öyrənilməsində və inkişafında Bülbülün həm elmi-nəzəri, həm də sırf təşkilati baxımdan xidmətləri böyükdür. Azərbaycan aşıqlarının 1938-ci ildə keçirilmiş II qurultayının təşəbbüsçüsü və təşkilatçısı olan Bülbül «Aşıq musiqi yaradıcılığının tədqiqi» adlı məruzə edib və bu zəngin xalq yaradıcılığına bağlılıq, bu yaradıcılığı öyrənmək və öy-

---

[1] *50 Azərbaycan el mahnısı, Bakı, 1938.*

[1] *Bu barədə ətraflı məlumat üçün bax: Əhməd İsazadə, Böyük müğənni, Bakı, 1967. səh. 36-37.*

rətmək, onu təbliğ etmək, sevdirmək ömrünün sonuna qədər Bülbül fəaliyyətinin tərkib hissəsi olub.

Ölümündən düz beş ay əvvəl, yenə də onun təşəbbüs və təşkilatçılığı ilə 1961-ci ilin 27 aprelində Azərbaycan aşıqlarının III qurultayında da Bülbül «Aşıq musiqisi haqqında» məruzə etdi və bütün ədəbi ictimaiyyət, aşıqların özündən tutmuş nəzəriyyəçilərəcən hamı o məruzəni yüksək qiymətləndirdi.

Bülbül folkloru toplamaq, onun nəzəriyyəsini işləməklə bərabər, həm də bir pedaqoq, Azərbaycan Dövlət Konservatoriyasının professoru kimi, xalq arasından çıxmış istedadlı cavanların seçilib üzə çıxmasında, onların təhsil almasında, gələcəkdə Azərbaycan mədəniyyətinin görkəmli xadimləri kimi yetişməsində çox iş görmüşdü.

Bu yerdə ilk növbədə unudulmaz Fikrət Əmirov yada düşür. Fikrət Əmirov yazırdı: «Konservatoriyada kiçik bir yoxlamadan sonra Bülbül məni Üzeyir Hacıbəyovun kabinetinə aparıb dedi: «– Üzeyir bəy, bu, Məşədi Cəmilin oğludur. İstedadlı uşaqdır». O gündən etibarən mən bu iki böyük şəxsiyyətdən atalıq qayğısı görməyə başladım».

Daha sonra: «Bu vaxtadək az-çox yazdığım əsərlərin ən yaxın dostu, məsləhətçisi və köməkçisi bizim Bülbül olmuşdur. «Şur» və «Kürd ovşarı» simfonik muğamlarının yaranması Bülbülün təşəbbüsüdür»[1].

«Şur» da, «Kürd ovşarı» da dünyanın ən böyük və nüfuzlu konsert salonlarında səsləndi, Fransada, Türkiyədə, ABŞ-da, İngiltərədə, İsveçdə, Çexoslovakiyada, Misirdə, ADR-də, Rumıniyada, İranda, İraqda, Polşada, bir çox başqa ölkələrdə Azərbaycan xalqının mənəvi dünyasından söhbət açdı, L.Stokovski, G.Rojdestvenski, Niyazi, G.Abendrot, Ş.Münş kimi böyük dirijorların repertuarında xüsusi yer tutdu və bütün bu böyük yaradıcılıq qələbəsinin, təntənənin başlanğıcında isə... Bülbülün təşəbbüsü dayanırdı.

[1] ***Fikrət Əmirov.*** *Musiqi düşüncələri, Bakı, 1971, səh. 137-138.*



* * *

1934-cü ilin yazında R.Qliyerin Azərbaycan xalq musiqisindən istifadə yolu ilə yazdığı «Şahsənəm» operası M.F.Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet teatrında tamaşaya qoyuldu və Bülbül bu operada Qərib rolunda çıxış etdi. Azərbaycan milli musiqi ənənələri ilə köklənmiş bu partiyada məhz millilikllə bəşərinin vəhdətini yaratmış bir sənətkar kimi parlaq yaradıcılıq qələbəsi qazandı, lakin bu böyük müvəffəqiyyətə baxmayaraq bir opera artisti və ümumiyyətlə, bir vokal ustası kimi Bülbül sənətinin əldə edəcəyi zirvə – «Koroğlu» hələ irəlidə idi.

Xalqın mədəniyyətinin hərtərəfli inkişafı, əlbəttə kollektiv yaradıcı əməyin bəhrəsidir, lakin bununla bərabər, mədəniyyət tarixində bəzən elə fərdi yaradıcılıq nailiyyətləri meydana çıxır ki, bütün mədəniyyətin inkişafında mərhələ rolu oynayır.

Üzeyir Hacıbəyovun «Koroğlu» operası yalnız Azərbaycan musiqisinin deyil, ümumiyyətlə Azərbaycan mədəniyyətinin inkişafında mərhələyə çevrildi, xalqın qədim və zəngin ənənələrə malik bədii-estetik özünüifadəsində ən görümlü və effektli faktlardan biri səviyyəsinə qalxdı.

Fikrət Əmirov yazırdı ki, «Azərbaycan operasının fəxri olan «Koroğlu»dan söhbət düşəndə gözümüzün önündə Bülbül dayanır». Daha sonra Fikrət Əmirov metodoloji baxımdan dəqiq müşahidəsini söyləyir: «Bülbül xalq sənətkarlığı ilə professional vokal sənətkarlığını birləşdirib bir vəhdət halına gətirmiş və əfsanəvi xalq qəhrəmanının monumental obrazını yarada bilmişdir»[1].

Bülbül yaradıcılığındakı çoxcəhətlilik, bu yaradıcılığın xalq mahnılarından, təsniflərdən, hətta muğamatdan tutmuş

[1] ***Fikrət Əmirov.*** *Musiqi düşüncələri, Bakı, 1971, səh. 8.*

dünya opera sənətinin ən mürəkkəb partiyalarınacan, operetta rollarınacan ilk baxışda bir-biri ilə uyuşmayan vokal müxtəlifliyini eyni yüksək bədii-estetik səviyyədə ehtiva etməsi adi dinləyicilərin də, böyük sənətkarların da həmişə çox yüksək qiymətləndirdikləri bir cəhət olmuşdu.

Hələ 1938-ci ildə Üzeyir Hacıbəyov «Arşın mal alan» haqqında qeydlərim» məqaləsində Bülbülün Əsgərin rolunu ifa etməsinin «amplua cəhətcə bir az qəribə» görünə biləcəyini yazır (Koroğlunun partiyası hara, Əsgər hara?!), lakin əslində isə «Bülbül ustalıqla böyük formalı opera səhnəsindən musiqili komediya roluna keçə bilmişdir» – deyə xüsusi razılığını bildirir[1].

Ümumiyyətlə, Ü.Hacıbəyovun məqalələrində, çıxışlarında biz Bülbülün adına tez-tez təsadüf edirik və hər yerdə də söhbət Bülbül sənətinin ucalığından, qadirliyindən irəli gedir. Bu baxımdan bir faktı xüsusi qeyd etmək istəyirik.

Biz artıq yazdıq ki, iyirminci illərdə, otuzuncu illərin əvvəllərində Azərbaycan mədəniyyətinin, o cümlədən Azərbaycan musiqisinin inkişaf yolları barədə qızğın mübahisələr getmiş, vulqar sosioloji təmayüllər, bir-birinə zidd maksimalist fikirlər kəskin müzakirələrin əsasında dayanmışdır. belə müzakirələrdən biri 1931-ci ilin dekabr ayında Azərbaycan Dövlət Konservatoriyasında keçirilmişdir və həmin müzakirədə Bülbül yuxarıda göstərdiyimiz kimi, «Səsin diafraqma üsulu ilə verilməsinin Azərbaycan xalq mahnısına tətbiqi» adlı məruzə ilə çıxış etmişdir.

Həmin məruzə ətrafındakı müzakirədə Üzeyir Hacıbəyov da iştirak etmişdir və onun çıxışı bizim üçün əlamətdar görünən aşağıdakı sözlərlə başlanır: «Yoldaşlar, Bülbülün bugünkü məruzəsi olduqca qiymətlidir, ona görə ki, məsələn, şəxsən mən konservatoriya tələbələrinə ümumiyyətlə

[1] ***Üzeyir Hacıbəyov.*** *Əsərləri, on cilddə, ikinci cild, Bakı, 1965, səh. 291.*



necə tərbiyə verəcəyimiz haqqında müəyyən bir qənaətə gəldim»[1].

34 yaşlı (bizim indiki meyarlarla yanaşsaq, gənc!) bir müğənninin məruzəsi Üzeyir Hacıbəyov kimi bir sənətkarı, böyük nəzəriyyəçini və böyük də pedaqoqu «konservatoriya tələbələrinə ümumiyyətlə necə tərbiyə verəcəyimiz haqqında müəyyən bir qənaətə» gətirirsə, bu, əlbəttə, həmin 34 yaşlı müğənninin böyük istedadından, yüksək nəzəri savadından xəbər verir.

Bülbül isə öz tərəfindən Üzeyir Hacıbəyov sənətinin qüdrətini belə bir meyarla müəyyənləşdirirdi: «Üzeyir sənətinin qüdrəti orasındadır ki, bəstəkarımız Azərbaycan xalq musiqisinin, muğamlarımızın bütün incəliklərini bilir, onun məlahətini duyur, öyrənir və xalqın sevəcəyi yeni əsərlər yaratmaq üçün geniş axtarışlar aparırdı»[2].

Bülbül professional bir səriştə ilə bu fikrini Üzeyir Hacıbəyov yaradıcılığının musiqi təhlili ilə əyani şəkildə sübuta yetirir və bu cəhət də bizim üçün ona görə əlamətdar görünür ki, eyni fikir bir sənətkar kimi Bülbülün özünün sənətinin qüdrətini səciyyələndirir. Təsadüfi deyil ki, bir az sonra Bülbül elə həmin xatirəsində Üzeyir bəylə dostluğunu «xalqımıza olan məhəbbətimizin əks-sədası»[3] kimi qiymətləndirir.

«Koroğlu»nun ilk tamaşası 1937-ci ilin 30 aprel günündə M.F.Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet teatrında göstərildi və həmin gün Bülbül ilk dəfə Qıratın belində səhnəyə çıxdı; bundan sonra Bülbül səhnəyə çıxıb-çıxmamasından asılı olmayaraq heç zaman Qıratın belindən düşmədi, hətta ölümündən sonra keçən bu onilliklərdə də Bülbül həmişə Qıratın belində oldu və nə qədər ki, Azər-

[1] ***Üzeyir Hacıbəyov.*** *Əsərləri, on cilddə, ikinci cild, Bakı, 1965, səh. 161.*
[2] *Bəstəkarın xatirəsi, Bakı, 1976, səh. 14.*
[3] *Yenə orada.*

baycan xalqı, Azərbaycan dili, Azərbaycan sənəti yaşayacaq, həmişə də belə olacaq, çünki o Qırat yüksəkliyi, əslində, Üzeyir Hacıbəyovla bərabər, Bülbül sənətinin də ucalığıdır.

1938-ci ildə Moskvada Azərbaycan incəsənəti ongünlüyü keçirildi və Böyük teatrın səhnəsində Üzeyir Hacıbəyovun və Bülbülün «Koroğlu»su Azərbaycan sənətinin qadirliyindən, Azərbaycan xalqının qəhrəmanlığından xəbər verdi, «Koroğlu»nun təntənəsi, əslində, xalqın təntənəsinə çevrildi...

...Mənim ən unudulmaz uşaqlıq xatirələrimdən biri Bülbülün Koroğlu rolunda Qıratın belində səhnəyə çıxması ilə bağlıdır. O zaman Bülbül mənim təsəvvürümdə heç cürə artist, müğənni deyildi, həqiqətən Koroğlu, həqiqətən el qəhrəmanı idi. Mən uşaqlıq, yeniyetməlik çağlarında «Koroğlu» dastanını ən azı on dəfə əvvəldən axıracan oxumuşdum və Bülbül də mənim təsəvvürümdə məhz həmin dastanın qəhrəmanı qoç Koroğlu idi.

Bir dəfə məni elə bir təəccüb hissi, elə bir heyrət bürüdü ki, o heyrətin həmin günkü həyəcanını indi də hiss edirəm. Atamla birlikdə Bakının mərkəzindəki «Kitab pasajı» deyilən yerdən keçirdik, birdən Bülbüllə üz-üzə gəldik. Atamla Bülbül dayanıb səmimi görüşdülər, hal-əhval tutdular və o ayaqüstü söhbətin bir hissəsi – həmin məni heyrətə gətirən hissəsi indiki kimi hafizəmdədir.

Atam:

– Professor, – dedi, – maşallah, həmişəki kimi gümrahsınız, cavansınız!...

Bülbül istər opera, istər estrada səhnəsində adicə oynamırdı, adicə oxumurdu, səhnədə də yaşayırdı və buna görə də həyatda da, səhnədə də eyni səmimi, xeyirxah təbəssümlə gülümsəyirdi və bu dəfə də həmin təbəssümlə (unudulmaz Bülbül təbəssümü ilə) gülümsədi:

– Yox, İlyas, – dedi, – istəsən də, istəməsən də, yaş yaşdı!



Atam yarızarafat:

– Neçə yaşınız var, professor? – soruşdu.

Bülbül bu dəfə gülə-gülə:

– Soruşma! – dedi.

– Yenə də?

Mən böyük bir maraqla altdan-yuxarı Bülbülə baxırdım. Bülbül atama baxdı, mənə baxdı və:

– Mən keçən əsrin adamıyam! – dedi.

O zaman «Mən keçən əsrin adamıyam» sözləri məni üçün dünyanın ən qədim zamanlarından, az qala dinozavrl dövründən xəbər verirdi və Qıratın belində səhnəyə çıx Koroğlunun əslində «keçən əsrin adamı» olması məni tama sarsıtmışdı.

Mən əvvəllər bir dəfə də bu ifadəni eşitmişdim: yenə c atamla birlikdə yazıçıların dostu və etibarlı həkimi İsmay Haqqı Veysovgilə getmişdik və o vaxt həkim Veysov həl inqilabdan əvvəl Şamaxı ziyalıları ilə birlikdə (hərgah səh etmirəmsə, onların arasında Abbas Səhhət də var idi) çəkdi diyi fotoşəkilləri bizə göstərə-göstərə demişdi:

– Eh, mən keçən əsrin adamıyam!...

Lakin həkim Veysovun sözlərinə mən o vaxt təəccü etməmişdim, çünki ağır, təmkinli, həmişə pəs səslə danışar həmişə asta addımlarla yeriyən bu adam, elə bil ki, doğruda da qədimlərin yadigarı olmalıymış...

Lakin Bülbül...

Mənim uşaqlıq təsəvvürümdə Bülbülün şəsti və şövq ilə «keçən əsrin adamı» anlayışı arasında heyrətamiz, ağla sığmaz bir uçurum var idi...

Söhbət təxminən 1955-56-cı illərdən gedir və o vax Bülbülün cəmi 58-59 yaşı var idi. Mən ona görə bu təxmin tarixi söyləyirəm ki, həmin görüşdən xeyli müddət sonra mən Bülbülün anadan olmasının altmış illiyinə həsr edilmi «Koroğlu» tamaşasında onu yenidən Qıratın belində səhnəd gördüm və altmış yaşlı Bülbül Koroğlunun partiyasını oxu-

duqca, əlindəki misri qılıncı, toppuzu oynatdıqca, şövqlə uzun bığlarını eşdikcə, mən yenə də əsl el qəhrəmanına, əsl Koroğluya tamaşa edirdim, «keçən əsrin adamı»na yox...

Bülbül «Koroğlu»dan sonra da Azərbaycan milli operasının inkişafında mühüm rol oynamışdır, bu inkişaf prosesinin ən fəal iştirakçılarından biri olmuşdur, Xosrovun (Niyazi, «Xosrov və Şirin»), Aslanın (Q.Qarayev, C.Hacıyev, «Vətən»), Nizaminin (Ə.Bədəlbəyli, «Nizami»), bir az əvvəl isə Əlyarın (M.Maqomayev, «Nərgiz») parlaq bədii-vokal surətlərini yaratmışdır, lakin Koroğlu Bülbül sənətində, Bülbül mənəviyyatında həmişə (bu gün də!) əvəzsiz Koroğlu olaraq da qalmışdır.

Koroğlu 1937-ci il aprel ayının 30-dan etibarən həmişə Bülbüllə birgə olmuşdur. Mən Bülbülün Koroğlunun hər hansı bir ariyasının sonuncu dəfə nə vaxt, yəni hansı ayın hansı günündə ifa etdiyini bilmirəm, lakin bir an belə şübhə etmirəm ki, «Koroğlu» 1961-ci il sentyabr ayının 25-dən 26-na keçən gecəyədək – Bülbülün həyatdan getdiyi dəqiqələrəcən onunla birgə olmuşdur.

Bülbül opera səhnəsində Koroğlu rolunda 400 dəfədən artıq çıxış edib... Saysız konsertlərdə, görüşlərdə, efirdə Koroğlunun ariyalarını oxuyub... Lakin mənə elə gəlir ki, bütün bu rəqəmlərin hamısı bir yerdə belə, Bülbül-Koroğlu bağlılığını tam təcəssüm etdirmir, çünki bu bağlılıq adi sənətkar – rol bağlılığı deyil, qat-qat artıq dərəcədə mənəvi bağlılıqdır.

* * *

Xatirə məni az qala otuz il bundan əvvələ, 1959-cu ilin isti yay günlərinə aparır. O zaman mən orta məktəbin onuncu sinfinə keçmişdim və yay tətili günlərində atamla birlikdə Moskvaya getmişdim. Atam Moskvada keçirilən Azərbaycan İncəsənəti və Ədəbiyyatı Ongünlüyünün (ikinci ongünlüyün) iştirakçısı idi və mən də dəvətnamə, bilet tapdıqca bir tama-



şaçı, dinləyici kimi ongünlüyün görüşlərinə, konsertlərinə, müzakirələrinə gedirdim.

Həmin günlərin mənim üçün ən unudulmaz təəssüratı Azərbaycan incəsənət ustalarının Böyük Teatrdakı yekun konserti ilə bağlıdır. O konsert zamanı mən orta lojalardan birində, yaşlı bir rus qadını ilə yanaşı oturmuşdum və bu qadın böyük bir maraqla, necə deyərlər, nəfəsini dərmədən səhnəyə tamaşa edirdi, musiqini dinləyirdi.

Bülbül səhnəyə çıxdı və həmin yaşlı rus qadını əlində tutduğu kiçik, zərif binoklla səhnəyə baxdı, sonra o kiçik, zərif binoklu üzündən kənara çəkdi, məhəbbət və təəssüf (elə bil onun içindən bir «heyhat!...» keçdi) dolu gözlərini qıydı və öz-özünə pıçıldadı (o sözlər indiki kimi hafizəmdədir):

– Kak on postarel...

Mən bu pıçıltıda ötüb getmiş və əbədi bir keçmişdə qalmış illərin (güman ki, otuzuncu illərin əvvəllərinin) nisgilini, əlçatmazlığını, ünyetməzliyini duydum, hətta mənə elə gəldi ki, o qadının gözləri də doldu, sonra...

Sonra Bülbül «Sevgili canan»ı oxumağa başladı və həmin anlarda bütün Böyük Teatrın necə bir sükuta qərq olması da həmişəlik mənim hafizəmə hopub qalıb.

Bülbül oxuduqca, mənim yanımda oturmuş o yaşlı rus qadınının da gözlərindəki təəssüf, elə bil ki, yox olurdu, elə bil ki, Bülbülün bir gənclik ehtirası ilə oxuduğu o romans keçmiş günləri geri qaytarırdı, o günlər əbədi bir keçmişdə qalmamışdı, yox, Bülbül səsi, nəfəsi, şövqü yenə də gənclikdən, məhəbbətdən, sədaqətdən xəbər verirdi.

Sonra alqış qopdu və əlbəttə, çox alqışlar, çox sənət təntənələri görmüş Böyük Teatr yeni bir sənət təntənəsinin – Azərbaycan sənəti təntənəsinin şahidi oldu. Mənim yanımda oturmuş o rus qadını da elə bil ki, illərin yükünü çiyinlərindən atıb bir cavanlıq şövqü, həvəsi ilə Bülbülə əl çalmağa başladı və o qadının bayaqkı təəssüf dolu pıçıltısı indi:

– Bravo!... Bravissimo!... – alqışları ilə əvəz olundu...

Üzeyir Hacıbəyovun bəstələdiyi iki dahiyanə romans – «Sevgili canan» və «Sənsiz», bizcə, Bülbül yaradıcılığında yeni, ikinci mərhələnin yaranmasına səbəb oldu. Bu ikinci mərhələni daha artıq bir müdriklik səciyyələndirirdi, dünyanın bədii-estetik dərki ilə bərabər, fəlsəfi dərki də bu mərhələdə özünü qabarıq şəkildə büruzə verir.

*Hər gecəm oldu kədər, qüssə, fəlakət sənsiz...*

Nizaminin «Sənsiz» rədifli qəzəli yalnız bu dahi şairin yaradıcılığında, hətta yalnız zəngin şərq ədəbiyyatında yox, ümumiyyətlə dünya poeziyasında məhəbbət lirikasının ən parlaq nümunələrindən biridir.

Lakin Üzeyir Hacıbəyovun «Sənsiz» romansı, xüsusən Bülbülün ifasında daha artıq dərəcədə dünyəvi kədərin, insani gəldi-gedərliyin, min illər boyunca «Dədə Qorqud»da insanı düşündürən, mütəəssir edən «Gəlimli, gedimli, dünya, son ucu ölümlü dünya» müdrikliyinin ifadəsidir, buradakı «sənsizlik» adı məşuqə həsrətindən qat-qat artıq, ümumiyyətlə təkliyin, haçansa köçüb getmək əlacsızlığının həzin, lirik fəryadıdır və Bülbülün ifasında bu romansın bədii-estetik xüsusiyyətləri ilə onun fəlsəfəsi arasında üzvi bir bağlılıq var.

Bülbülün tembri «Sənsiz» romansında lirik qəhrəmanın keçirdiyi psixoloji hiss-həyəcanları o qədər dəqiq və təbii ifadə edir ki, burada lirik qəhrəman ənənəvi aşiqlikdən, dünyanın vəfasızlığını təcəssüm etdirən, itkinin ağrısı ilə için-için yanan bir obraz səviyyəsinə qalxır.

*Hər gecəm oldu kədər, qüssə, fəlakət sənsiz...*

Elə bil ki, mən yenə də Bülbülün səsini eşidirəm və iyirmi altı il bundan əvvəlki 1961-ci ilin acı sentyabr səhəri gözlərimin qarşısında canlanır...



Onda mən Azərbaycan Dövlət Universitetinin filoloji fakültəsinin ikinci kursunda oxuyurdum və hər gün səhər tezdən mühazirələrə gedirdim. Həmin 26 sentyabr günü də mən tələsə-tələsə Xaqani küçəsi ilə dərsə gedirdim və Bülbül yaşayan binanın yanından keçəndə (indi o binaya zövqlə hazırlanmış xatirə lövhəsi vurulub) həyətdə, küçə girişinin qarşısında xeyli adam yığıldığını gördüm və ağır, çox ağır bir xəbər soyuq külək kimi mənim bütün içimdən keçdi» həmin gecə Bülbül qəflətən vəfat etmişdi.

O zaman mənim on səkkiz-on doqquz yaşım var idi və nəzəriyyəyə görə ölüm qorxusu, ölüm xofu məndən çox uzaq olmalı idi, lakin bu gözlənilməz xəbər məni o dərəcə sarsıtdı ki, mən o adamlardan uzaqlaşdım və yolun ardını yeriyə bilmədim, xeyli müddət elə-eləcə küçənin ortasında dayandım.

Sonra 26-lar bağına gəldim və bir müddət burada özüm özümlə tək qaldıqdan sonra, universitetin Nizami küçəsində yerləşən filoloji fakültəsinə getdim.

Birinci dərsimiz rus dili idi. Rus dilini bizə mərhum dosent Mövsümzadə keçirdi, çox savadlı, sadə, dərsinə tələbkar, eyni zamanda mədəni, ziyalı bir adam idi. Mən birinci dərsə gecikmişdim və yalnız saatlararası fasilə zamanı gəlib çıxmışdım. Auditoriyadan çıxan Mövsümzadə ilə üzbəüz gəldim, Mövsümzadə acıqla:

– Haradaydınız, cavan oğlan? – soruşdu, sonra çeşməyinin girdə şüşələri arxasından diqqətlə mənə baxdı və bu dəfə mülayim bir səslə: – Nə olub? – soruşdu.

Mən:

– Bülbül vəfat edib... – dedim.

Əlbəttə, mən gərək o ağır xəbəri o cür qəflətən deməyəydim.

Mövsümzadə diksindi, qoltuğundakı qəhvəyi meşin qovluq yerə düşdü və Mövsümzadə qeyri-iradi:

– Vay... – dedi və həmin «vay» da indiyə kimi mənim hafizəmə həkk olub qalıb.

Bilmirəm, Mövsümzadə Bülbül ilə şəxsən tanış idi, yoxsa yox, lakin o «vay»da elə bir ağrı, elə bir acı təəssüf, elə bir sarsıntı var idi ki, insan yalnız çox əziz bir adamını itirəndə o cür təsirlənə bilər.

Bülbül bütün xalqın əziz adamı idi.

Bülbülün ölümü Azərbaycan dilində danışan, Azərbaycanı sevən hər hansı bir adam üçün şəxsi və əvəzsiz itki idi, çünki Bülbül sənəti Azərbaycan xalqının məişətinə, mənəviyyatına daxil olmuşdu, onun sirdaşına çevrilmişdi (və bu gün də belədir, sabah da belə olacaq!).

*Hər gecəm oldu kədər, qüssə, fəlakət sənsiz...*

Bülbülün ifasında «Sənsiz»ə yüz dəfələrlə qulaq asmışam, lakin bu «Sənsiz»lərin içində bir «Sənsiz» heç vaxt unudulmayacaq, o «Sənsiz» indi də yada düşəndə sarsıdır, hansı ovqatda olursansa ol, bir dəruni pərişanlıq hissi sənin bütün daxilini əlinə alır...

Həmin matəmli sentyabr günü – ayın 27-si bütün Azərbaycan Bülbüllə vidalaşırdı.

Bülbülün cənazəsi Akademiyanın binasında qoyulmuşdu və o vida saatlarının, dəqiqələrinin ən dözülməzi lent yazısında Bülbülün özünün oxuduğu «Sənsiz» oldu...

Ümumiyyətlə mənə elə gəlir ki, hətta Füzuli də dünyadan köçəndə Bülbül Üzeyir bəyin «Sənsiz»ini oxuyub. O «Sənsiz» həmişə olub. Dünyadan köçmüş doğmaları, yaxınları xatırlayanda da, elə bil ki, hər dəfə Üzeyir bəylə Bülbülün «Sənsiz»ini eşidirəm. Mənim üçün doğmaların, yaxınların yoxluğunu heç bir söz, heç bir sənət o «Sənsiz» kimi ifadə edə bilmir...

Düzdü, bu iki böyük sənətkarın «Sənsiz»i həyatın vəfasızlığından deyir, tənhalıqdan, həsrətdən söz açır, amma eyni zamanda o «Sənsiz»dəki hisslər, həyəcan insan xislətinin aliliyindən, sənətin əldə etdiyi ən yüksək bədii-estetik zirvədən də xəbər verir...



Bir görüşü və Bülbül haqqında deyilmiş bir sözü də xatırlayıram...

1973-cü ilin yanvar ayı idi, unudulmaz Fikrət Əmirov bizi evinə qonaq dəvət etmişdi və həmin axşam Bülbüldən söz düşəndə Fikrət Əmirov əli ilə geniş alnını ovuşdurdu, onun iri göy gözləri uzaqlara dikildi:

– Bülbül bizim mədəniyyətimiz üçün kim idi – bunu indi hələ axıracan başa düşməmişik. Əlli ildən sonra biləcəyik... -dedi.

Mən o vaxt bu sözləri dəftərçəmdə qeyd etdim.

Niyə belə dedi? Bülbülü ki, sevməyən yoxdu... Azərbaycan mədəniyyətində ki, Bülbül hadisəsini inkar edən yoxdu...

Fikrət Əmirovun bu sözlərində bir ağrı var idi və mən indi fikirləşirəm ki, bu ağrını yalnız Azərbaycan mədəniyyətinin təəssübkeşliyi yaratmamışdı, bu ağrı, eyni zamanda, sırf insani hisslərin ifadəsi idi, vaxtsız getmiş yaxının, doğmanın əbədi ayrılığından doğurdu: Bülbül həyatda yox idi.

İndi Fikrət Əmirov da həyatda yoxdur. Yalnız yeni-yeni nəsillərin, xalqın ürəyinə yol tapan (və xalqın ürəyindən xəbər verən!) sənət qalıb: Bülbül sənəti... Fikrət sənəti...

Bir də xatirələr, yazılar qalıb (yazıya pozu yoxdur!) və o yazılarda Fikrət Əmirov da, onun böyük müəllimi Üzeyir Hacıbəyov da, Qara Qarayev də, Niyazi də həmişə Bülbülü hörmətlə, məhəbbətlə, minnətdarlıqla yad ediblər...

Biz sənətin əbədiliyi, sənətkarın ölməzliyi barədə çox yazmışıq, çox eşitmişik, lakin yenə də bu sözləri dönə-dönə təkrar edirik, yəqin ona görə ki, təskinlik yalnız bundadır...

1961-ci ilin həmin 26 sentyabr gecəsi altmış dörd yaşlı Bülbül əbədiyyətə qovuşdu...

Nəsillər bir-birini əvəz edir.

***ELÇİN***
***Bakı, 1987***

## *DAHİ SƏNƏTKAR*

Otuzuncu illərin axırlarında Üzeyir Hacıbəyovun «Koroğlu» operasının yaranması və tamaşaya qoyulması respublikamızda əsl sənət hadisəsinə çevrilmişdi. Xalqımız bu gözəl sənət incisini, eləcə də Bülbülün Koroğlu rolunda ifasını böyük rəğbətlə qarşıladı. Bakıda elə bir adam tapılmazdı ki, «Koroğlu» tamaşasına baxmağa can atmasın. Dahi Bülbülün şöhrəti xalq qəhrəmanı dərəcəsinə yüksəlmişdi. Tamaşadan sonra yüzlərlə adam onun teatrdan çıxmasını gözləyir və onunla görüşməkdən, avtoqraf almaqdan xüsusi sevinc, fərəh duyurdu. Musiqisevərlər tez-tez radioya məktub yazır, «Koroğlu» operasından ayrı-ayrı musiqi parçalarının təkrar verilməsini xahiş edirdilər. Ümumiyyətlə, konsertlərdə Bülbülün hər çıxışı bayrama çevrilirdi.

1938-ci ildə Moskvada keçirilən Azərbaycan Ədəbiyyatı və İncəsənəti Ongünlüyü zamanı SSRİ Böyük Teatrında göstərilən «Koroğlu» operası böyük əks-səda doğurdu. Stalinin bu operaya, xüsusilə də Bülbülün ifasına yüksək qiymət verməsi ildırım sürəti ilə bütün ölkəyə yayılmışdı.

Mən o vaxtlar orta məktəbdə oxuyurdum. Bu fərəhli hadisə məni də ürəkdən sevindirirdi. Musiqiyə çox həvəsim olduğu üçün Koroğlu operasını demək olar ki, əzbər bilirdim. Bülbülün oxuması məni heyran edirdi...

Teatr texnikumunu bitirdikdən sonra Əzizbəyov adına Azərbaycan Dövlət Dram Teatrında aktyor olsam da, musiqiyə, vokal sənətinə olan maraq ürəyimdə get-gedə daha da güclənir, qarşısıalınmaz bir qüvvəyə çevrilirdi. Odur ki, 1947-ci ildə Asəf Zeynallı adına Musiqi texnikumunun vokal şöbəsinə, professor Kolotovanın sinfinə daxil oldum. O, musiqini tez qavramaq qabiliyyətimi görüb, mənə konservatoriyada oxumağı məsləhət gördü və məni professor Bülbülün yanına apardı.



Nəhayət, çoxdan bəri arzu etdiyim bir sənətkarla görüşə bildim. Mən ona italyan mahnısı oxudum, bəyəndi. İlk tanışlığımız qəlbimi sevinclə doldurdu. O, məni öz sinfinə götürməyə razılıq verdi. 1948-52-ci illərdə Bülbülün vokal sinfində oxudum. O zaman bizim sinifdə əməkdar artistlərdən Kamal Kərimov, Mirzə Babayev, Əmir Məmmədov, bizdən sonra Firidun Mehdiyev, Adil Məlikov, Mobil Əhmədov və bir çox başqaları təhsil alırdılar.

Professor Bülbülün dərsləri çox maraqlı keçirdi. Adətən hər adam 45 dəqiqə dərs keçməli idi. Bülbülün dərsləri o qədər məzmunlu olurdu ki, biz dərs başlayandan axıracan gəlib oturub professorun şirin söhbətlərinə və necə dərs keçməsinə qulaq asardıq. O bizə bir ata kimi yanaşırdı.

Böyük həyat təcrübəsi keçmiş, həddən artıq ağıllı və müdrik insan olmaqla yanaşı, Bülbül həm də geniş biliyə malik bir şəxsiyyət idi. Çox maraqlı, məzəli söhbətləri vardı. Xüsusilə də İtaliyada təhsil alarkən onun maestrosu olmuş Qranidən çox danışar, musiqinin incəliklərindən, vokal sənətinin sirlərindən söhbət açardı. Deyərdi ki, əsil opera müğənnisi elə bil hardasa bədbəxt adamdır. O, dünya ləzzətindən əl çəkməli, öz aləminə qapılmalı, ciddi rejim saxlamalı, sağlamlığına fikir verməli, istidən-soyuqdan qorunmalı, bir sözlə, elə etməlidir ki, səsinə, sənətinə xələl gəlməsin. Çünki klassik operalarda elə olur ki, bir neçə dəfə «si», «do» götürməli olursan. Əgər onların birində səsin büdrəsə, sonra aylarla bunun əzabını çəkər, xalq arasında hörmətdən düşə bilərsən...

Ona görə də vokalist, xüsusilə də opera müğənnisi dünyanın həm xoşbəxt, həm də bədbəxt adamıdır. Xoşbəxtdir, ona görə ki, Allah ona gözəl səs bəxş edib. O öz səsi ilə milyonları heyran edir, xalq arasında populyar olur, tanınır, sevilir. Ona görə bədbəxtdir ki, bir növ dünya ləzzətindən

məhrum olur. Kim bu şərtlərə əməl etsə, ömrünün axırına qədər oxuyacaq…

Bu barədə söhbətlərini həmişə xüsusi maraqla dinləyərdik. Professor həmişə onu da deyərdi ki, musiqinin dərinliklərinə getmək lazımdır. Bir əsəri oxumaq istəyirsənsə, onu özününkü etməlisən. Deyərdi: «Mən Üzeyir Hacıbəyovun «Sənsiz» və «Sevgili canan» romanslarını pianoçu Kozlovla düz səkkiz ay məşq elədim. Qonşular bu romansları o qədər eşitmişdilər ki, əzbər bilirdilər. Mənimlə qapıbir qonşu olan böyük yazıçı Məmməd Səid Ordubadi bir gün soruşdu ki, ay Bülbül, oxuduğun bu əsərləri niyə bu camaat arasına çıxarmırsan? Dedim, hələ tezdir.

Mən hələ «Koroğlu» operasının yaranmasını demirəm. Koroğlu obrazının musiqisini demək olar ki, Üzeyir bəylə birlikdə işləmişik».

Dərs zamanı maestro Qranidən tez-tez söhbət salır, deyirdi: «O, bizdən həmişə musiqinin incəliklərinə fikir verməyimizi tələb edirdi. Vokal sənətində piano oxumaq və filirovkadan, yəni üç pianodan, falsetdən səsə keçib, forteyə düşmək və güclü oxumaq müğənni üçün ən çətin və əlçatmaz məsələdir. Böyük miqyaslı müğənnilər belə bu məsələdə çətinlik çəkirlər».

Bülbül sənəti ona görə təkrarolunmazdır ki, dediyim çətinlikləri o, Allah vergisi olan gözəl səsi ilə asanlıqla, sənətkarlıqla dəf edirdi. Onu da deyim ki, Bülbülün falsetdən səsə keçərkən beş forte edib, fermato saxlaması, bəlkə də dünya miqyaslı məşhur müğənnilərin heç birində yox idi.

Vokalçının nəfəsi çox saxlaması və nəfəs almadan bir neçə frazanı oxuması onun böyük sənətkar olmasından xəbər verir. Bu cəhətdən dünya miqyasında Bülbülə çatan sənətkar çox az tapılar.

Bülbül İtaliyada oxuduğu vaxtlardan danışanda deyirdi: «İtalyanlar qadına gül bağışlamağı çox sevirlər. Orada yaşayarkən maddi vəziyyətim o qədər də yaxşı deyildi. Lakin buna



baxmayaraq maestrogilə gedərkən ordan-burdan kəsib onun xanımına gül aparmağı unutmazdım…».

Vokalı yaxşı qavradığıma görə məni həmişə sinifdə nümunə göstərərdi. Bunları deməkdə məqsədim odur ki, Bülbül vokal sənətinin çox əzablı yolları olduğunu söylər, bunun bütün incəliklərini bizə başa salmağa çalışardı. Deyərdi:

«Əsl vokalçı – opera, operetta müğənnisi vokal məktəbi keçməlidir».

…Mən 1953-cü ildə Bülbülün sinfini bitirib, ikinci dəfə Konservatoriyaya daxil oldum – bəstəkarlıq şöbəsinə. Lakin hörmətli müəllimimlə əlaqəmi kəsmədim. Tez-tez yanına gedir, ondan məsləhət alırdım. O, mənə deyirdi ki, bəstəkar tarixdə, yaddaşlarda qalmaq istəyirsə, gərək səhnə musiqisi, yəni opera, operetta, bir sözlə, melodik vokal musiqisi yazsın. Mən demirəm ki, simfonik janra fikir vermək lazım deyil, yox, lazımdır. Burası var ki, opera sintetik janrdır. Simfonik dramatizmlə opera yazırsansa, bütün janrlardan gərək istifadə edəsən.

Bülbül bunları deyərkən italyan bəstəkarlarını misal göstərirdi. Deyirdi ki, Verdinin, Puççininin operaları əvvəldən axıra qədər simfonizmlə doludur. Müasir bəstəkar hər janrı yaxşı bilməlidir. Onun bu nəsihətləri heç zaman yadımdan çıxmaz.

O, mənə deyirdi ki, sən vokalı yaxşı duyursan. Mənim yanımda vokalın sirlərini öyrəndin, gələcək yaradıcılığın isə özündən asılıdır. Bəstəkar həyatda nə isə öyrənməli və öz yaradıcılığında onu təcrübədən keçirməlidir…

Onun tövsiyələri bir bəstəkar kimi mənə həmişə istiqamət verib.

…Bülbülün sinfinə daxil olduğum 1948-ci ildən Respublika Radio Verilişləri Komitəsinin xor kollektivində əvvəl xormeyster, 1957-ci ildən isə həmin kollektivin baş dirijoru və bədii rəhbəri vəzifəsində işləməyə başladım. Bunu ona

görə deyirəm ki, Bülbülün vaxtilə mənə verdiyi məsləhətlər xorda həm dirijor, həm də xormeyster işləməkdə mənə çox kömək edib. Bunun nəticəsidir ki, mən sonralar operalar, kantatalar, operettalar, oratoriyalar yaza bildim.

1930-cu ilin axırlarında «Koroğlu» operasının yarandığı vaxtlar S.Vurğunun «Vaqif» pyesi də səhnəyə gəldi. «Koroğlu» operası kimi «Vaqif» pyesi də böyük maraqla qarşılandı, dillər əzbəri oldu.

Sonralar mən həmin pyes əsasında opera yazdım. 1960-cı il iyun ayının 23-də «Vaqif» operasının ilk tamaşası oldu. Tamaşaya böyük müğənnimiz Bülbülü də dəvət etmişdim. O, həyat yoldaşı Adilə xanım və oğlanları Çingiz və Poladla birlikdə gəlmişdi. İlk tamaşa müvəffəqiyyətlə keçdi. Bülbül məni bağrına basıb təbrik etdi.

Səhərisi gün teatr ictimaiyyəti, yazıçılar, bəstəkarlar, müğənnilər, teatr xadimləri operanı müzakirə etmək üçün teatra yığışdılar. Onu da deyim ki, tamaşadan bir gün sonra – iyunun 24-də «Bakı» qəzetində «Vaqif» operası barədə Bülbülün böyük bir resenziyası dərc olunmuşdu. Peşəkar opera bilicisi, böyük maestro «Vaqif» operasındakı xalq səhnələrinin monumentallığını, ariyaların melodik axıcılığını, reçitativlərin simfonik xarakterlərlə inandırıcı olduğunu rus bəstəkarları Musorqski ilə, Borodinlə müqayisə edirdi. Bu, Bülbül tərəfindən operaya verilmiş ən böyük qiymət olduğu üçün, məni qanadlandırdı.

Müzakirədə digər çıxış edənlər də «Vaqif» operasının müvəffəqiyyətlərindən danışdılar.

Bəstəkar Soltan Hacıbəyov da əsər haqqında öz müsbət fikirlərini söylədi və operanın tarixi əsər olduğunu qeyd etdi. O, sözünü yekunlaşdırarkən:

– Amma, – dedi, – yaxşı olardı ki, müasir mövzuda operalar yazılaydı.

Bu zaman Bülbül söz alaraq üzünü Soltan Hacıbəyova tutub dedi:



– Ay mənim əziz bəstəkarım, neçə illərdir qəzetlərdə, çıxışlarda elan edirlər ki, bəstəkar Soltan Hacıbəyov «Vəziri-xani Lənkəran» operasını yazır, Səid Rüstəmov «Aynalı» operasını yazır, Tofiq Quliyev «Ləpələr» operasını yazır... Amma, ay camaat, bəstəkar Ramiz Mustafayev heç bir elansız, qəzetsiz-filansız «Vaqif» operasını yazıb, bəli, «zıb», «zır» yox, yəni daha sizin kimi «yazır» yox, artıq «yazıb»... İndi ki, deyirsiniz müasir opera yazmaq lazımdır. Bəs, elanlar vermişdiniz, neçə illərdir ki, xalq sizdən bu operaları gözləyir. Hərçənd «Vəziri-xani Lənkəran» da müasir deyil. Yazın də. Adam üç şahının qarşısına bir abbası çıxardar, sonra danışar. Bu cavan bəstəkar (Ramiz Mustafayev – red.) bu nəhəng məsələni həll edib, özü də yaxşı həll edib. Operanın ilk tamaşasını da dünən gördük. Xalq necə də gözəl qarşıladı!...

Bülbülün bu sözləri müzakirənin gedişinə çox böyük təsir göstərdi. Mən Bülbülün necə həssas bir ürək sahibi, necə obyektiv bir insan olduğunu bir daha hiss etdim. Ona görə də mən Bülbülə ömrüm boyu borcluyam.

...Bülbül tenor səsi çox qiymətləndirərdi. Deyərdi ki, tenor səs Allah vergisidir. Misal çəkərdi ki, bir sınıq tenor üç baritona dəyər. Mənim əzizlərim, səsinizin qədrini bilin. Səsi, xüsusilə də tenor səsi qaydasında saxlamaq üçün kişi gərək özünü yormasın, gücünü saxlasın. Çünki oxumaq nəfəslə, diafraqma ilə əlaqədardır. Buna görə də əgər müğənni nəfəsi alıb saxlamağı bacarmırsa, onda yaxşı oxuya bilməz...

O vaxtlar tələbələrin maddi vəziyyəti bir o qədər də yaxşı deyildi. Müharibənin yaraları təzə-təzə sağalırdı. Bülbül çox vaxt bizi evinə çağırar, dərsi evdə keçərdi. Onu da deyim ki, Bülbülün evində stolun üstü həmişə mer-meyvə və şirniyyatla dolu olardı. O, bizə həmişə qonaqpərvərlik göstərərdi. Deyərdi ki, buyurun, ürəyiniz nə istəyirsə, utanmayın, yeyin.

Biz isə utanar, çəkinərdik, baxmayaraq ki, bəzən yarıac, yarıtox olardıq. Özümüzü o yerə qoymayıb, deyərdik:

– Çox sağ olun, müəllim, elə indicə yeyib gəlmişik… Günlərin birində professor üzünü o yana çevirəndə tələbələrdən biri əlini atıb meyvə götürmək istədi. Bu zaman Bülbül çönüb mehribanlıqla dedi:

– A bala, utanma, götür çək dişinə də…

Uşaqlar gülüşdülər. O tələbə də:

– Yox, professor, – dedi, – elə baxmaq istəyirdim ki, görüm necə almadır.

…Bülbül dahi sənətkar kimi sadə, mehriban insan kimi, hamıya qayğı ilə yanaşırdı. Xalqını, vətənini, millətini, el-obasını ürəkdən sevirdi. Mən böyük ustadı həmişə böyük minnətdarlıq və ehtiram hissi ilə xatırlayıram.

***Ramiz MUSTAFAYEV,***
***xalq artisti, bəstəkar***
***1998-ci il***



## *SƏNƏTDƏ BÜLBÜL CAHANGİRLİYİ*

Bülbülü dönə-dönə görən bizlər, bu ağrılı-acılı günlərimizdə igid sənətkarı – nur ələnən sifəti, gülər baxışları ilə deyil, şər qüvvələrə qarşı vuruş məqamlarında olan Koroğlu zəhmində-zabitəsində göz önünə gətiririk.

*Hoydu, dəlilərim, hoydu!*
*Yeriyin düşmən üstünə!*

Hər halda mən belə düşünürdüm: Bu – ötəri, təsadüfi xatırlama deyil. Axı, xalqın iradəsini və amalını özündə təcəssüm etdirən dahilər zaman-məkan ölçüsü bilmirlər, lazım gəldikdə əsrlərin üstündən adlayıb elinin xoşbəxtliklərinə xeyir-dua verir, çətin anlarda, dar ayaqda çıxış yolu göstərir, şücaətə və rəşadətə çağırırlar onu.

Yox, bu cismani gəliş də deyil, ruhani möcüzə də hesab etmək olmaz bunu. Hər birimiz bunu öz varlığımızda, «ənəlhəqqi»mizdə duyuruq. Uğurlu amalımızda, uğurlu sözümüzdə, uğurlu əməllərimizdə təcəssüm edir bunlar. Üzeyir bəysiz azərbaycanlı necə yaşaya bilərdi; Səməd Vurğunun «Azərbaycan, Azərbaycan» şeirini Ana südü ilə birgə əmmiş olmasa, necə Odlar yurdunun övladıyam deyə bilərdi. Bülbülün Koroğlusunu Qıratın belində nəzərinə gətirməsə, necə şəhidlik mərtəbəsinə yüksələ bilərdi… Bax, dahilərin ululuq xislətləri qeyrətli azərbaycanlını belə nəcibləşdirir, igidləşdirir, xalqla, torpaqla min bir məhəbbət telləri ilə belə qovuşdurur.

İndi biz, dahilərimizi cismən itirdiyimiz, müdriklik qıtlığı çəkdiyimiz bir zamanda – onların içimizdə bəslənən və

millǝti mübarizǝyǝ çağıran, ruh düşkünlüyünǝ qoymayan dǝyǝrlǝrini inadla yaşatmalıyıq.

Ǝlbǝttǝ, hǝr kǝs öz ömrünün salnamǝçisidir, qismǝtinǝ çıxanlarla qane olur. Bizim nǝslin payına düşǝn ǝn qiymǝtli mǝnǝvi nemǝtlǝr, mǝhz bu dahilǝrlǝ müasir olmaq, onların ünsiyyǝt halǝsindǝ böyümǝk, fǝzilǝtlǝrindǝn bilavasitǝ vǝ bilavasitǝ faydalanmaq olub.

Mǝn bunlardan danışacağam. Dahi müğǝnni vǝ gözǝl insaniyyǝt mücǝssǝmǝsi olan şǝxsin – Bülbülün artıq hǝyatının fövqünǝ qalxıb ǝfsanǝ-nağıla çevrilmiş hekayǝtlǝrindǝn qismǝn söz açacağam. İndinin özündǝ dǝ dǝrk edǝ bilmǝdiyim sǝnǝt müǝmmalarının sirrini ondan soruşacağam... Böyük müasirimiz Mirzǝ İbrahimov necǝ sǝrrast deyib: Bülbülün qranit heykǝli xalqın ürǝyindǝdir.

Mǝn ürǝyimdǝki Bülbüllǝ söhbǝtlǝşǝcǝyǝm.

## 1

Bülbülün adını mǝn Koroğlu ilǝ birgǝ eşitmişǝm. Uşaqlıq yaşımda – gözümǝ görünǝnlǝrin, qulağıma dǝyǝnlǝrin «niyǝ»sini öyrǝnmǝk üçün hamını bezdirdiyim bir dövrdǝ, kǝndimizdǝ dünyagörmüş ahıl adamların da sirrinǝ matmǝǝttǝl qaldığı bir möcüzǝ ilǝ rastlaşdım. Bakıda hǝkimliyi bitirmiş qardaşım Novruz ilk maaşından sovqat kimi qrammofon alıb gǝtirmişdi kǝndǝ. O zaman qrammofonun nǝ olduğundan heç bir anlayışımız yox idi. belǝ gördük onu: şabalıdı rǝngdǝ sandıqça, qara zurnaya bǝnzǝr, ancaq min dǝfǝ ondan iri sarı samovar rǝngindǝ boru vǝ bir neçǝ boş-qab, sini boyda qara val. Nǝ üçün idi bunlar, bilmirdik. Kǝndimiz, rayon mǝrkǝzinin qulağının dibindǝ olsa da, çoxlarımız heç radionun üzünü görmǝmişdik. Tǝk-tǝk Bakıya yolu düşǝnlǝr dǝ belǝ bir şey olduğundan, yǝni qutuda – sandıqçada xanǝndǝ oxumasından danışmamışdılar. Olsa-olsa, dǝmirin üzǝrindǝ yeriyǝn arabadan, kerosinsiz lampadan, neçǝ mǝrtǝbǝ üstǝ evlǝrdǝn qǝribǝ tǝǝssüratlarını söylǝyǝrdilǝr. Bir dǝ axı, xanǝndǝlǝr barǝdǝ bizlǝri heyrǝtlǝndirǝcǝk nǝ danışmaq olardı?! Yaşlılar, elǝ biz özümüz Cabbar Qaryağdıoğlunu, bizim qonşu kǝnddǝn olan Seyid Şuşinskini, yerlimiz Ağabala Abdullayevi... kǝnd toylarında dönǝ-dönǝ görmüşdük. Doğrudur, onlar ancaq axşam düşǝndǝn sonra oxuyardılar, bu zaman mağarda yer olmazdı. Biz mağar «divarını» – keçǝni aralayıb baxar, ağacların budaqları üstündǝ oturub dinlǝyǝrdik onları. Boy-buxunlu kişilǝr idi... İndi, qrammofon quraşdırıldı, val çarxın üstünǝ qoyuldu, gümüşü dǝstǝ fırladıldı... içǝridǝn xanǝndǝnin gur sǝsi çıxıb, ǝtrafı ram etdi, kiçik «mağarda» isǝ heç kǝs gözǝ görünmǝdi.

*Çünki oldun dǝyirmançı, çağır gǝlsin*
*dǝn Koroğlu!...*

İlahi, bu nǝydi?! Sandıqçanın yan-yörǝsinǝ göz gǝzdirdik, borunun toran çökmüş içinǝ baxdıq. Qutunun üstündǝki qıvrım saçlı, göygöz qız şǝklindǝn başqa insan naminǝ heç nǝ nǝzǝrǝ çarpmırdı.

Qardaşımın izahları da bizi bu sirdǝn agah etmǝdi. Ancaq hǝr sirrin bir sehr qapısı olduğu kimi, mǝn dǝ «dǝyirmançı» qapısından bu alǝmǝ girmǝli oldum. Kǝndimizin dǝyirmançısı xǝtirli adam idi. Elǝ ki, tǝpǝnin üstünǝ qalxıb, üzü kǝndǝ sarı «hay dǝn!», «hay dǝn!» deyǝ haraylayardı, anamdan, qardaşımdan tez mǝn ǝl-ayağa düşǝrdim. Dǝyirmana üyütmǝyǝ dǝn aparılacaqdı, mǝn dǝ onlara «quyruq» olacaqdım, nǝ illah elǝyib mǝni geri qaytarmaq istǝsǝlǝr dǝ! Bilirsiniz, bu maraq haradandı: üyütmǝyǝ dǝn gǝtirǝnlǝr növbǝ gözlǝmǝli olardılar. Astan ǝmi – dǝyirmançı bizi növbǝsiz buraxardı, ǝn ümdǝsi isǝ o idi ki, deyicilik elǝyǝnlǝrin ağzından vurardı: öz atalarının dǝyirmanıdır, bunu da çox görürsünüz Ǝdil bǝyin uşaqlarına!

Nǝ oxuduğum mǝktǝbdǝ, nǝ kǝnd yığıncaqlarında ata-

mın adını belə hörmətlə çəkməzdilər, bizi qulağa (kulak) salmışdılar, səsimizi almışdılar, arabir də rayon qəzetində atamın adının qarşısında bir «düşmən» sözü də işlədərdilər.

Dəyirmançıya rəğbət bununla bağlıydı. Elə ki, qrammofonu artırmaya qoyub oxutduq, qonum-qonşu yığılıb gəldi tamaşaya, qardaşım bu zaman üç-dörd valda səsi olan Bülbül haqqında danışmağa başladı. Yadımda qalan bunlar olub: Bülbül Şuşa qalasındandır. Yaxşı oxuduğuna görə Bülbül adı veriblər. Bu iri valda Koroğludan oxuyur, Koroğlu, Nəbi kimi qəhrəman olub, dağlara qaçıb, zülmkarlarla ucqac olub, döyüşüb. «Koroğlu» teatrdır. Onu da Şuşa qalasından olan Üzeyir bəy Hacıbəyov yazıb...

Üzeyir bəy haqqında bizim məlumatımız var idi. Hətta kəndin dram dərnəyində «Arşın mal alan»ı oynayırdılar. Ancaq çox şeyi bizə onun qohumu danışmışdı. Onlar qaladan köçüb gəlmişdilər bizim kəndə, babamgilin evində yaşayırdılar. Ana tərəfimin qalalı Əliverdibəyovlarla qohumluğu var idi. Onlar da Hacıbəyovlarla simsar idilər. Oğlanları xəstələnmişdi, Şuşadan çıxmalı olmuşdular...

Bax, Üzeyir bəylə, Bülbüllə tanışlığımız belə başlamışdı və iki dahi ucqar Dədəli kəndinə belə ayaq açmışdı və «Dəyirmançı» Bülbül mənim xəyalımda qəhrəman simasında belə-belə ucalmağa başlamışdı.

Yaxşı deyiblər ki, sən saydığın qoy dursun, gör fələk nə sayır. Birdən hər şey dəyişdi. Dava düşdü, bütün sevinclər ərşə çəkildi, qrammofon sandıqçası kəfrəmə bükülüb yükün altına qoyuldu, borusu uşaq oyuncağına çevrildi, «Koroğlu»dan, «Evlərinin dalı qaya»dan, «Süsən sünbül»dən... dodaqlarımızda zümzümə qaldı. O da hərdənbir. Onu da yaxşı deyiblər ki, su gələn arxdan, bir də gələr. Qırx üçüncü ildə üç qardaşımdan biri şikəst olub cəbhədən qayıtdı. İşləmək üçün Araz qırağındakı kəndə köçməli olduq. Bu köç də mənim qol-qanadımı qırdı və uşaqlıq dövrümdə əlimdən çıxan bir xətanı heç vaxt unuda bilmirəm.



Öküz arabasında yol gedəndə, təkərlər qəflətən çalaya düşdü, ehtiyatlanıb qucağımda saxladığım iri valın – «Dəyirmançı» valının qırağı qopdu. Və bəlkə də taleyimin sonrakı gedişləri olmasaydı, mən nə Koroğlunu, nə Bülbülü özümdə indiki qədər ehtiva edə bilməyəcəkdim, nələrdən məhrum olacağımı təsəvvürümə gətirə bilirəm...

Bu, ona görə məni belə mütəəssir etmişdi ki, bədbəxt qardaşımın yeganə yadigarını itirmişdim. Ona görə məyus olmuşdum ki, atamın adı ilə bağlı «dəyirmançı» sözü unudulacaqdı, bir də ona görə pərt idim ki, bu qrammofonu Araz qırağına üzümüzə tutub aparırdıq ki, baxın, biz bura möhtac kimi gəlməmişik... Və əmin idim ki, Araz qırağında Koroğlu hərarətlə qarşılanacaq. Axı, bu kəndin az qala yarısı qaçaq idi, İrana keçmişdi. Araz qırağında qaçaq Süleyman o vaxtlar adla deyilərdi. Bu o qaçaq Süleyman idi ki, görkəmli yazıçımız İlyas Əfəndiyev sonralar onu əbədi salnaməmizə saldı, gözəl bir povest yazdı haqqında.

Bəlkə də bu da bir sehr idi. Valın sınması ilə qrammofon alan qardaşımın itkin düşmə xəbəri bir-birini izlədi. Və ailə belə qəti qərara gəldi ki, mən oxumağa getməliyəm! Ali təhsil almalıyam! Onun sənətini yaşatmalıyam!

## 2

Və Bakıya gəldim... canlı Bülbülü gördüm: opera səhnəsində – Qıratın belində, döyüş meydanında zabit rolunda, konsert səhnəsində – qatarlanan zəngulələsi, şirin xalları ilə bənzərsiz guşələrdə gəzişdiyi məqamlarda... bu, böyük sənətkarın ancaq nağılçı fantaziyası ilə yarada bildiyi həqiqət idi. Bir ayağı Qalada, digəri Tiflisdə, bir təkanla İtaliyaya sıçrayışda, başqa səfərdə Moskvada və Azərbaycanın hər yerində: hər yeri də o, sıravi əsgər kimi yox, cahangir-sərkərdə kimi fəth edirdi, irqindən, milliyyətindən, baxışlarından asılı

olmayaraq bütün ürəklərə yol tapırdı, mən bunların canlı şahidi oldum.

Həm də sadəcə qeydçi, seyrçi deyildim. Dayım Səttar dramaturq idi, Respublika Mədəniyyət Nazirliyinin İncəsənət İşləri İdarəsində şöbə müdiri işləyirdi.

Bəstəkar Soltan Hacıbəyovgilnən bizim həm qohum, həm də Qaryagində (Füzulidə) və Bakıda qonşu qismətimiz olmuşdu. Tez-tez görüşərdik. Bir dəfə mübahisəmiz düşdü. Opera üstündə. Mən, hələ «opera» kəlməsində heca vurğusunun haraya düşdüyünü bilməyən gənc – «opera» əvəzinə «opeera» deyən musiqi naşısı, klassik operaları tənqid edirdim. İsnad yerim də «Koroğlu» idi. «Bülbül sözləri elə aydın deyir ki, sanki imla yazdıran müəllimdi». Soltan – xasiyyətcə çox mülayim, mehriban və hətta deyərdim ki, sanbalı ilə avamlığı təzad yaradan bir şəxs idi. Bülbül böyüklüyünü mənə belə izah edirdi. «Hardan alaq o operalar üçün Bülbülü?!» Üzeyir bəyin Koroğlunun ifaçısı haqqında dediklərini də mən ilk dəfə onun ağzından eşitdim: «Koroğlu»nun uğuru şərq muğamları, bir də Bülbüllə bağlıdır.

Deməli, Tanrı Koroğlunu Bülbül simasında bizim nəsil və ondan sonrakılar, məşhur dastandan uzaq düşməmək, igidlik kodumuzu saxlamaq üçün dünyaya gətirmişdi. Təkcə buna görəmi? Həm də… milli təəssübkeşliyimiz üçün!

1957-ci il. Azərbaycan Bülbülün altmış yaşını təntənə ilə bayram edir. Bayram edirdik, ancaq içimizdə bayram ovqatından çox xof, qorxu, hədə kabusu dolaşırdı. Moskva Azərbaycana, tüstüsü göylərə qalxan, yanğısı-göynərtisi indinin özündə də getməyən odlu damğa vurmuşdu: millətçi! Böyük yazıçı Mirzə İbrahimovun – Ali Sovetin Rəyasət heyəti sədrinin Azərbaycan dilini dövlət dili kimi konstitusiyaya salmaq, hər yerdə rəsmi dil kimi işlətmək təşəbbüsü millətçilik kimi qiymətləndirilmişdi və başımızın üstündə yenidən Domokl qılıncı oynadılırdı. Sözümüzü geri götürməyə, «səhvimizi» düzəltməyə məcbur edirdilər… Biz qəzetçilərin halını təsəvvür edin.

Təntənəli yubiley gecəsində son akkord – yubilyarın çıxışı oldu. Yox, Bülbül üsyankar, çılğın millətçi sayağı bəyanat verib, dilimizi qorumaq haqqında bəlağətli sözlər demədi, o, millətimizin varlığından – onun qədim və yeni mədəniyyətinin müəyyən cəhətlərindən elə şirin ləhcə ilə, elə məlahətli, dadlı-tamlı, elə şirəli, yağlı ifadələrlə danışdı ki,… dünən qorxuya düşüb, səsini içəri çəkən biz qəzetçilər də bu dilin yaşaması üçün özümüzü oda-alova atmağa hazır olduq.

Mən, yazının əvvəlində dərk edə bilmədiyim sənət müəmması eyhamını təsadüfi işlətməmişdim. Böyük sənət meyarları itdiyindən gileylərimi Bülbülün ruhu ilə bölüşmək istəyirəm.

İstedadlı sənətkar bu bəşərin yaşıdı olan musiqi sənətinə necə məsuliyyətlə, zəhmətkeş fədakarlığı ilə yanaşmışdı. Şərq musiqi məktəbinin sirlərinə kamil yiyələnmək, onun üçün kifayət etməmişdi. Peşəkar musiqi beşiyinə getmiş – orada nəinki Qərbin məşhur opera ifaçılarından dərs almışdı, həm də natiqlik sənətinin sirlərini mənimsəmişdi. Onun parlaq nitqi bir daha bunu təsdiqlədi…

Bəs indi?! Böyük sənət mədəniyyəti səviyyəsindən kütləvi tamaşaçı marağı səviyyəsinə enmək, qazandığımız ümumdünya uğurlarından neçə addım geri qalmaq… milyonların baxdığı səhnəni meydan başıpozuqluğu ovqatına endirmək… məgər sənət azadlığı bu cür başa düşülməlidirmi?! Yenə Üzeyir bəyin Bülbül zirvəsi haqqında söylədiklərini xatırlamalı olacağam: o demişdir: Bülbülün üstünlüyü ondadır ki, o, – hələ sinədən, boğazdan oxuması bir yana qalsın, hər şeydən əvvəl, ifaçılıq mədəniyyətinə yiyələnmişdir.

Bülbülə çağdaş ifaçılardan edəcəyimiz giley-güzarımız bir də bunlarla bağlıdır.

Zaman – yaz buludu kimidir – ağ yağışı da var, dolusu

da. İkincinin ağrısını biz Üzeyir bəyi itirəndə hiss etdik. Və o təziyədə iştirak edənlərə bu fəlakətin dəhşətini, əndazəsini Bülbül növhəsi təlqin etdi. Cənazə Akademiyanın mərkəzdəki binasında qoyulmuşdu. Biz, sənətkara axırıncı vida borcumuzu verib küçədə dayanmışdıq. Bu zaman Bülbülün səsi ucaldı. «Sənsiz»i oxudu, oxudu yox, minor yanğısı ilə iliklərə qor doldurdu.

*Hər gecəm oldu kədər, qüssə, fəlakət sənsiz,*
*Hər nəfəs çəkdim, hədər getdi o saət sənsiz…*

Küçədəki insan seli, təziyə əhli kədər seli axıtdı gözlərindən…

Bax, Bülbülün, «valın o üzünü» necə çevirdiyinin – major ovqatlı məhəbbət mahnısını necə mərsiyə ovqatında səsləndirdiyinin sirləri barədə hələ də düşünürəm. Və düşündükcə də onu ilahiləşdirirəm…

3

Bir hadisəni də danışacağam. Yağı düşmən Bülbülün vətəninə əl uzatmışdı. Xalq sarsıntı, dəhşət içərisində idi. Ancaq buz hələ sınmamışdı, güclü dalğalar buz qatlarının altındaydı. Bu zaman biz Şuşadan bir məktub aldıq. Şuşalılar və burada dincələn qonaqlar həyəcanlarını bildirirdilər. Məzmunu belə idi. Şuşa şəhərinin qənşərində Topxanada ermənilər qızğın tikinti işləri görür, özlərini bu torpağın sahibi kimi, saymazyana aparırlar.

Yazını çapa hazırladıq. Ancaq başlıq tapa bilmirdik. Mənim təklifim bəyənildi: «Topxananın harayı!» Və şuşalıların bu harayı xalqı meydanlara, küçələrə çıxartdı. Sonradan başlığın uğurlu seçilməsi barədə jurnalist təhlili zamanı bunun mənbəyinə gedib çıxdıq…

…Bülbülün Şuşa səfərində iştirakımla bağlıyıdı bu. Bəlkə də Şuşada, Bülbülün vəfatından bir neçə ay əvvəlki son görüşümüz olmasaydı, Bülbül haqqında təsəvvürlərimdə bir yarımçıqlıq hiss edərdim. Axı, dahilər bizə təkcə müdriklik dərsi demirlər, ən ümdəsi onlar Allahın vergi hikməti ilə – öz sənət imkanları ilə bunu idrakımıza, duyğularımıza həkk edirlər.

1961-ci ilin yazında Şuşadaydım, neçə il idi ki, ailəlikcə yayı orada keçirirdik. Hər il, öz bəxşişi ilə Şuşanın gözəlliyinə əlavələr edirdi. Şuşadan çoxdan çıxanlar doğma yurda gəlirdilər. Bu il… dedilər ki, Bülbül Qarabağ səfərinə çıxıb, Şuşaya gələcək.

Gəldi. O zaman Şuşada böyük mədəniyyət sarayı yox idi. Konsert məktəb zalında təşkil olunmuşdu. Bülbülsevərləri hər hansı bir nəhəng zala yerləşdirmək də mümkün olmazdı, ancaq xoşbəxtlikdən təbiət bu zalı çoxdan hazırlamışdı – Şuşa amfiteatrı bütün şəhəri konsert zalına çevirmişdi. Çox dəqiq söylənilmişdir: Şuşa – Qafqazın konservatoriyasıdır. Və bunun üçün də bu şəhər, gərək elə bütünlükdə dinləyici auditoriyası olaydı. Elə də var idi.

Bülbül Poladla gəlmişdi. Bundan əvvəl, biz müğənninin yubileyində onun ifasını görmüşdük, Polad respublika gənclərinin rəhbər orqanına üzv seçilmişdi. Onun Bülbülə bənzərliyindən hər görüşdə məmnunluq duyurduq. Ancaq bu dəfə onun üzərinə, bilərəkdən və bilməyərəkdən çox ağır bir etimad düşmüşdü. Bülbül oxuyur, Polad pianoda onu müşayiət edirdi.

O görüşdən iki hiss isə artıq ömür tariximə gerçəkliklə düşdü. Birincisi fərəh idi. Şuşanın dilbər guşələrinə biz indi təzə gözlə baxmağa, çılğın sevgi ilə yanaşmağa başladıq. Min bir çətinliklə enib-qalxdığımız Qırx pilləkəni də, Şamil bağının cəngəlliklərini də, Topxananı, Daşaltı çayının zümzüməsini, İsa bulağının mamırlı daşlarını da ilk məhəbbət duyğusu ilə təzədən sevdirmişdi Bülbül bizə…

Biri də qüssə idi. O idi ki, Bülbül qocalmışdı: alnı qırçın-

laşmış, gicgahlarındakı topa saçlar gümüşləşmişdi, yaxınlaşa biləcək Bülbülsüzlük dərdi çulğamışdı bizi.

Səməd Vurğun əcəb deyib: Vətən sənətkara qocaldın deməz.

Bülbülün yüz illik yubileyinin nəinki Azərbaycanda, neçə-neçə xarici məmləkətlərdə necə böyük təntənə, möhtəşəm, əzəmətli əhval-ruhiyyə ilə keçirildiyindən duyduğumuz məmnuniyyət kimi...

Biz bir təntənənin də intizarındayıq.

Düşmən torpaqlarımızdan qovulsun, canavar öz məkrli qurd yuvasında cəzasını alsın, Qala qapısının ən uca zirvəsində, lap «Ərimgəldi»də Bülbülün heykəli qoyulsun. O, sənət cəngavəri kimi bizi döyüşə yox, yenə bəşər mədəniyyətinin geniş üfüqlərinə səsləsin. Biz isə, Bülbülü təkcə sənətkar ucalığında deyil, abidəsi gülləyə tutulmuş bir döyüşçü-şəhid kimi də xatırlayaq... və deyək: tale bu cahangir dahiyə döyüş zəfəri də qismət etdi.

Axı, dahilər üç şeylə yaşayırlar: yaratdıqları ilə, bizə verdikləri idrak dərsi ilə, bir də onların müqəddəs işlərini davam etdirən övladları ilə...

***Cəmil ƏLİBƏYOV,***
***1988-ci il***



## *BÜLBÜL SƏNƏTİ ÖLMƏZDİR*

Moskvada ali rəssamlıq təhsilimi başa vurub, bir neçə il SSRİ Böyük Teatrında məşhur rəssam Rınbelin assistenti kimi işlədim və sonra doğma şəhərimizə – Bakıya qayıtdım. İş yeri barədə o qədər də fikirləşmədim. Çünki Moskvada böyük məktəb keçmişdim. M.F.Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında quruluşçu rəssam kimi fəaliyyətə başladım.

1957-ci ildə Cahangir Cahangirovun «Azad» operası tamaşaya qoyuldu. Əsər Mirzə İbrahimovun eyni adlı hekayəsi əsasında hazırlanmışdı. Libretto müəllifləri Şıxəli Qurbanov və Aslan Aslanov idi.

Baxış tamaşasına nə qədər adam gəlmişdi! Özü də sayılan, seçilən sənət adamları. Əsərin meydana gəlməsində xüsusi xidməti olan sənətkarların – Cahangir Cahangirov, Mirzə İbrahimov, Şıxəli Qurbanov və Aslan Aslanovun sevinci yerə-göyə sığınırdı. Operada Rübabə Muradovanın ifa etdiyi «Fars qızının mahnısı» sonralar çox məşhur oldu, dildə-ağızda gəzdi. Tamaşa haqqında çox qiymətli fikirlər deyildi.

Quruluşçu rəssam olduğum üçün mən intizarla bədii tərtibat barədə fikir gözləyirdim. Ancaq hamı əsərin musiqisindən, artistlərin ifa məziyyətlərindən danışırdı. Nəhayət ki, Bülbül söz aldı. Hər tərəfə sükut çökdü. Mən fikirləşirdim ki, yəqin Bülbül də əsas rolların iştirakçıları barədə söz açacaq. Ancaq belə olmadı. O, uzun baxışlarla adamları süzdü və səhnəni göstərərək:

– Mən burada, bu səhnədə, – dedi, – neçə illərdir ki, çıxış edirəm. Siz də görürsünüz ki, bu səhnə həcmcə o qədər də böyük deyil. Amma görün rəssam bu kiçik məkanda necə bir genişlik yaradıb. Yəqin ki, həmin rəssam indi burada –

bizim aramızdadır. Mən ona dərin təşəkkürlərimi, həm də ən böyük arzularımı yetirmək istəyirəm. Zaldakılardan kimsə dedi:

– Rəssam ayağa qalxsın, bir boyunu görək.

Ətrafı xoş bir uğultu bürüdü. Mən sıxıla-sıxıla ayağa qalxdım. Böyük sənətkarımız xoş bir təbəssümlə:

– Oğlum, halal olsun! – dedi.

Bülbülün bu sözləri mənim həyatımda ən böyük mükafat oldu. Sevincdən uçmağa qanadım yox idi. Hələ də inana bilmirdim ki, bu sözlər mənim barəmdə deyilir. Özü də xalqın sevimlisi Bülbül kimi bir sənətkar deyir.

Həmin hadisədən sonra aramızda xoş bir ünsiyyət yarandı. Hər dəfə Bülbülü görəndə səmimi-qəlbdən onunla salamlaşırdım. O isə bir ata nəvazişi ilə mənim halımı soruşurdu:

– Necəsən, oğlum? Nə üzərində işləyirsən?

Ürəyimdən qəribə bir hiss keçirdi. Deyirdim: «Nə olaydı, Bülbülün oynadığı tamaşalardan birinə bədii tərtibat verəydim»...

Bir gün oturub işləyirdim. Qapı açıldı. Bülbül içəri daxil oldu, yerimdən dik atıldım. Gözlərimə inana bilmirdim. Mən tezcə yaxınlaşıb, salam verdim. Bülbül çox mehribanlıqla:

– Oğlum, – dedi, – yəqin ki, xəbərin var, «Koroğlu» da dekadanın repertuarına daxil olub...

– Bəli, var, – dedim.

– Biz bu tamaşanı yeni quruluşda göstərəcəyik. Gərək «Koroğlu» ilə Moskvanı fəth eləyək.

– Allah qoysa fəth edərik, – dedim.

– Allah öz yerində, – deyə Bülbül gülümsədi. – Gərək biz bəndələr gecə-gündüz çalışaq.

Gördüm ki, söhbət uzanacaq. Stul gətirdim, oturdu. Rəssamlıq sexinə, burada olan dekorasiyalara göz gəzdirdi.

– Tamaşa bir-iki adamın zəhməti ilə başa gəlmir, – dedi, – «Koroğlu»nun musiqisinə, librettosuna söz ola bilməz. Baş rolun – Koroğlu rolunun sevilocəyinə, qələbəsinə də mən



sidq-ürəkdən zəmanət verirəm. Quruluşçu rejissor da Mehdi Məmmədov kimi bir əjdahadı. Qalır rəssam işi, o da sənin boynunadır. «Azad» operasında sənin işini çox bəyəndim. İndi gərək burada bir tufan eləyəsən.

Mən bilmədim ki, ustadın bu sözlərinin müqabilində nə deyim. O, mənim çaşbaş qaldığımı hiss edərək:

– «Koroğlu» tamaşası həmişə sevilib, – dedi. – Çox böyük uğur qazanıb. «Koroğlu» – opera sənətimizin zirvəsidir. «Koroğlu» mənə də qanad verib, məni ucaldıb, xalqa sevdirib. Ancaq «Azad» operasını görəndən sonra beynimdə belə bir fikir dolaşır ki, «Koroğlu»nun bədii tərtibatı Üzeyir musiqisinin əzəmətinə cavab vermir. Bu bəlkə də tamaşanın rəssamı Saqiyanın qara xislətindən xəbər verir. Sən fırça götürüb bu tamaşanın tərtibatı üzərində işləyərkən gərək bizim əzəmətli, quşqonmaz dağları göz önünə gətirəsən. O, ani olaraq sözlərinə ara verib:

– Nə üçün uzağa gedək, – dedi. – Əsərin özündə rəssam üçün zəngin material var. Yəqin ki, Saqiyan Çənlibel səhnəsini işləyəndə erməni xisləti ona imkan verməyib ki, Üzeyir musiqisini, Ordubadi şeiriyyətini duyaraq əzəmətli bir mənzərə yaratsın. Burada Amerika kəşf eləmək lazım deyil. Sadəcə olaraq əsərin özünə müraciət etmək lazımdır. Gör bir Koroğlu nə deyir.

Ürəklənmişdim. Gülə-gülə:

– Ustad, nə deyir? – dedim.

Bülbülün şirin səsi, avazı rəssamlıq sexini başına götürdü. Bülbül özünü unudaraq var səsi ilə oxuyurdu:

*Çənlibel – ölkəm,*
*Hər yeri möhkəm, möhkəm.*
*Quş keçə bilməz*
*Bu səngərlərin üstündən.*
*Qəsd edə bilməz bu yerlərə*
*Heç bir düşmən...*

O, ariyanı oxuyub, diqqətlə üzümə baxdı. Cavab gözləyirdi. Mən isə tərəddüd edirdim. Dedi:

– Bax, bu misralar sənin Çənlibel səhnən üçün gözəl ədəbi materialdır, daha doğrusu, sənin üçün bir eskizdir. Saqiyan Çənlibel səhnəsini çəkərkən bilərəkdən, bəlkə də bilməyərəkdən kasıbyana bir qala çəkib. Tamaşaçı bu qalanın alınmazlığına heç cür inana bilməz.

Ariyada deyilir ki, «quş keçə bilməz bu səngərlərin üstündən». Yəni Çənlibel alınmaz bir istehkamdır, qaladır. Düşmən onun həndəvərinə belə ayaq basa bilməz. Bax, mən istəyirəm ki, sən Çənlibel səhnəsini yaradarkən bu fikri, bu ideyanı diqqət mərkəzinə çəkəsən. Əgər mənim dediklərim ağlına batsa, inanıram ki, işin uğurlu olacaq. Səni inandırıram ki, quruluşunu burada da, Moskvada da bəyənəcəklər. Bülbül söz deyəndə bilir nə deyir.

Həmin gündən rahatlığımı, yuxumu itirdim. Neçə variantda eskiz çəkdim. Ancaq Bülbülə göstərməyə ürək eləmirdim. Gecəmlə gündüzüm qarışmışdı. Nəhayət, özümdə cəsarət tapıb, çəkdiyim bir variantı – öz aləmimdə ən mükəmməl saydığım eskizi ustada göstərdim.

Alıb diqqətlə baxdı, baxdı... Mən həyəcan içindəydim; «Görəsən bəyənəcəkmi?». Nəhayət ki, ustad dilləndi:

– Əyyub, oğlum, – dedi, – eskizlərin ürəyimcədir. Bax, bu əsil mən deyən Çənlibeldi. Bədii şurada da çalışacam ki, elə bu variant təsdiq olunsun.

Bülbül necə demişdisə, elə də oldu. Bədii şurada eskizi təqdir etdilər. Sevincim yerə-göyə sığmırdı...

Tamaşanı hazırladıq. Bakıda «Koroğlu» böyük uğur qazandı. Sonra da Moskva... Mənim bir vaxtlar çalışdığım Böyük Teatrda «Koroğlu»nun triumfu... Mərkəzi qəzetlərin, xüsusən də «Pravda»nın «Koroğlu» tamaşasını, Bülbülün ifasını göylərə qaldırması... Bütün bunların hamısı mənim yaddaşıma yazılan, yaddaşımda ömürlük qalan unudulmaz günlər, sevinclərdir.



Azərbaycan Ongünlüyü sona çatdığı bir vaxtda «SİDRİ»də – Mərkəzi İncəsənət İşçiləri Evində ziyafət verilirdi. Bir dəstə adam – Opera və Balet teatrının direktoru Fikrət Əmirov, baş dirijor Niyazi, quruluşçu rejissor Mehdi Məmmədov və bir neçə başqa adam şirin-şirin söhbət edirdi. Onların arasında tanımadığım bir şəxs də vardı. Sonra bildim ki, həmin adam pribaltikalı rəssamdır. Mən istədim ki, salam verib keçim. Bülbül məni yanına çağırıb qonağa təqdim etdi:

– Bizim tamaşanın uğur qazanmasında bu cavan oğlanın da böyük zəhməti var, – dedi. – Bizim quruluşçu rəssamdır.

Qonaq əlimi bərk-bərk sıxıb rus dilində aydın sezilən bir ləhcə ilə:

– Zdorovo, zdorovo, velikolepno! – dedi və əlavə etdi: – Ya vas ot vsey duşi pozdravlyayu!

Beləcə, «Koroğlu» tamaşası Bülbüllə məni dostlaşdırdı, doğmalaşdırdı. Bülbül nadir bir sənətkar, həm də nadir bir şəxsiyyət idi. Onun böyük sənəti ölməzdir, əbədidir, Azərbaycan incəsənətində əbədi yaşayacaq bir zirvədir.

***Əyyub FƏTƏLİYEV,***
***rəssam,***
***əməkdar incəsənət xadimi***
***1998-ci il***

## *QƏLBİMDƏ YAŞAYIR*

Mən bir neçə il dalbadal Bakıya qastrola gəlir, «Karmen» və «Seviliya bərbəri» operalarında oxuyurdum. Maestro Bülbül mütləq mənim iştirak etdiyim bütün tamaşalara baxırdı.

Mənə də maestronun konsertinə və «Koroğlu» operasındakı partiyasına qulaq asmaq səadəti nəsib oldu.

Bu, insanı heyrətə gətirən çox güclü bir səs idi. Misilsiz gözəllikdə geniş diapazonlu nadir lirik-dramatik tenor! Bütün registrlərdə rəvan, təkrarolunmaz, ilahi bir səs! Mən hələ səsin gücləndirilib, sonra zəifləndirilərək uzadılmasını (filirovka) demirəm! Dünyanın heç bir tenoru səsi maestro Bülbül kimi filirovka etməyi bacarmırdı.

Mən bir neçə dəfə bu gözəl, ürəkaçan ailənin qonağı oldum, dərin biliyə, geniş dünyagörüşə malik maestro ilə müxtəlif mövzularda söhbət etdim. Bakıdan ayrılarkən mən öz şəklimi belə bir avtoqrafla ona bağışladım: «Əziz maestro Bülbül! Mən Sizin sehrli səsinizi qəlbimdə aparıram. Siz də, bu səs də həmişə mənimlə olacaq».

Maestronun ölüm xəbərini Amerikada eşitdim. Amansız ölümün dahi müğənnini, gözəl insanı aramızdan belə tez aparması məni hədsiz kədərləndirdi.

Bu gün mən yenidən Bakıdayam, lakin təəssüf ki, ürəkdən bağlandığım maestronu görməyəcəyəm.

Mən ilk növbədə Fəxri xiyabana yollandım və onun məzarı üstünə bir dəstə gül qoydum. Sonra qərara aldım ki, maestronun evinə gedim, xanımına və oğlanlarına başsağlığı verim.

Qapını böyük oğlu Çingiz açdı. Stol arxasında kiçik oğlu Polad və Adilə xanım məşhur Kanada tenoru Riçard Vero və



onun xanımı ilə söhbət edirdilər. Mən də onların söhbətinə qoşuldum. Riçard Vero canlı Bülbülün səsini eşidə bilmədiyinə çox təəssüflənirdi. O, dedi ki, Romadan və Amerikadan verilən radio verilişlərində Kavaradossinin, Federikonun və Nizaminin ariyalarına qulaq asmışdır. O, heyrətini gizlədə bilmirdi: «Nə ecazkar səs! Nə gözəl ahəngdarlıq (kantilena)! Nə gözəl eniş, necə ağlasığmaz nəfəs!».

Biz söhbətdən sonra maestronun ifasında ariya və romanslara, xalq mahnılarına və maestronun üçüncü oktavanın «do» və «re» notlarını götürdüyü muğam yazılmış lent yazılarına qulaq asdıq.

Riçard yerindən sıçrayıb, ucadan dedi: «Ağlasığmazdır! Bu lent yazıları böyük ustadın əyani məktəbidir, bu, dünyanın bütün tenorlarının dərs almalı olduğu əyani vəsaitdir. Belə diapazon nadir hadisədir!»

Biz bütün günü bu evdə onun lent yazılarına qulaq asdıq.

Artıq gec idi. Lakin onun unudulmaz səsinin sədaları ilə dolu olan bu evi tərk etmək istəmirdik. Riçard «Fəxri qonaqlar kitabı»na ürək sözlərini yazdı və biz maestronun ailəsi ilə mehribancasına vidalaşdıq.

Yol boyu Riçardla təəssüratımızı bölüşürdük. İlk dəfə maestro Bülbülün səsini eşitdiyim zaman bu səs məni necə valeh etmişdisə, indi onu da eləcə heyran qoymuşdu.

***Nikolaye XERLE,***
***rumın baritonu***

## *BÜLBÜLÜ XATIRLAYARKƏN...*

Bu ad ona çox yaraşırdı. Təqribən qırx il dəyişməz səslə oxumaq az adama müyəssər olur.

Ölməz müğənni yeni ifaçılar yetirmək işinə xüsusi qayğı göstərirdi.

Bir hadisə heç yadımdan çıxmaz. Bülbül vokal sənətinin məsələlərinə dair böyük bir müşavirə çağırılmasına təşəbbüs göstərmişdi. Vokal sənəti professoru kimi onu bəzi məsələlər maraqlandırırdı. Onlardan biri də səs, onun formalaşması idi.

...Atam konservatoriyanın direktoru Ü.Hacıbəyovun müavini işləyirdi. Mən musiqi məktəbində oxuyurdum. Skripka sinfində. Ancaq səsim də pis deyildi. Bilmirdik hansını seçək. Rəhmətlik Bülbül dedi ki, qoyun hələlik çalsın, vaxtı gələndə səs sinfində oxuyar. Hələ tezdir. Yaxşı yadımdadır. Bir konsertə hazırlaşırdıq. Böyük ustad, tarzən Qurban Pirimov da, pianoçu V.Kozlov da mənimlə məşq edirdilər. Mən «Şahnaz» muğamını, «Çalpapaq» mahnısını və «Koroğlu»nun III pərdəsindən «Sevdim səni mən...» ariyasını hazırlayırdım. Opera teatrında bu mənim ilk unudulmaz çıxışım oldu.

Bir gün Bülbül müəllim dedi ki, atanla axşam bizə gəlin. Burada qoca bir kişi də vardı. Demə, bu, məşhur el xanəndəsi Cabbar Qaryağdıoğlu imiş.

Cabbar əmi Bülbülə bərk-bərk tapşırdı ki, bu uşağı hələ qoymayın oxusun. Məni isə pionerlər evində, sonra radioda, filarmoniyada elə hey oxudurdular. Ona görə də səsim dözmədi. Demə, əslində 15 yaşa qədər belə çox oxumaq düzgün deyilmiş.

Bülbül şair qəlbli nəğməkar idi. Onun fikrincə, xanəndə



şeirin poetik xüsusiyyətlərini duymalıdır. Klassik və müasir poeziyanı yaxşı bilirdi. Füzuli qəzəllərindən tərtib etdiyi proqramı kim unudar? Zəngin folklor irsindən öyrənməsinə, ona yeni təravət vermək qabiliyyətinə nə deyərsiz? Musiqi ilə sözün əlaqəsinə onun kimi nail olan yox idi. Yeniliyə güclü meyl onu qətiyyən xalq musiqisinə qarşı qoymurdu. Mahnılarımızı zəngin boyalarla bəzəyir, yenidən canlandırırdı.

Professor Mir Cəlal haqlı yazır: «Saz ilə sözün, musiqi ilə şeirin qüdrətli və təbii birliyini dərindən duyan və ecazkar bir sənətlə ifa edən nadir bir xanəndə soruşsanız, mən dərhal Bülbülün adını çəkərəm. Bülbül sənətin ləyaqətini, ictimai mənasını layiqincə dərk edən və bunu yüksək tutan sənətkardır. Onu dinləyənlər yalnız musiqi yox, Azərbaycan xalqının zəngin sərvətinin, mədəniyyətinin, şeiriyyətinin, incə, həssas zəngin mənəviyyatının səsini dinləyir və sevirlər».

Onun ifası nə qədər dinlənilməli idisə, söhbətləri də bir o qədər mənalı olardı. Bu söhbətlərin əsas məğzi musiqi mədəniyyətinin inkişafı yolları barədə düşüncələrlə bağlı idi. O öz narahatlığını tanınmış yazıçılardan M.S.Ordubadi, H.Cavid, Cəfər Cabbarlı, Əhməd Cavad, S.Vurğun, R.Rza və başqaları ilə bölüşərdi.

Musiqi məclislərinin yaraşığı idi. Bəziləri vokal məktəbi istilahını lazımınca dərk etmədiklərindən bu xidməti başqasına aid edirlər. Şübhəsiz, klassik xanəndələrimizin xidmətləri böyükdür, unudulmazdır. Lakin professional vokal sənəti və məktəbindən söhbət gedirsə, bu xidmət böyük ifaçı və nəzəriyyəçi Bülbülə aiddir. Yadımdadır, Cabbar Qaryağdıoğlu özü ona nə qədər hörmət hissilə yanaşır, təqdir edirdi.

Bülbül savadlı nəzəriyyəçi idi. Təkcə onun «Məruzə və məqalələr» kitabını oxusanız fikrimizin gerçək olduğuna inanarsınız.

İtaliyada – dahi bəstəkarlar Rossini, Verdi, Puççininin vətənində oxuyub təhsil alan, oranın musiqiçilərini heyrətə salan Bülbül böyük nəğməkar-alim idi.

Koroğlu obrazının misilsiz təmsilçisi, muğam və el mahnılarının əvəzsiz ifaçısı kimi Bülbül tək gəldi, tək getdi.

Qəflətən sanki bir yel əsdi, nəğməkarı çəmənzarından qopardı, lakin o öz cəh-cəhini aparmadı, cəh-cəhi qəlbimizdədir.

Yetər dərəcədə toplayıb çap etdirdiyi xalq mahnıları, dastanlar, aşıq və xanəndə yaradıcılığına dair tərtib etdiyi 25 çap vərəqi həcmindəki xülasə-oçerk, lent yazıları, vallar zəngin irs kimi mühafizə edilir. Bülbüldən yadigar qalan elmi-tədqiqat musiqi kabinəsi yenidən konservatoriyamızda bərpa edilib. Bu yaxınlarda bir qrup musiqi folklorçusu Şirvan zonasından ekspedisiyadan qayıtmışdır, yaxşı hədiyyələrlə. Gələcəkdə yenə bu nəcib iş davam etdiriləcək. Bu da unudulmaz Bülbülün xatirəsinə ən yaxşı hörmətdir.

Xalq musiqisi ilə professional musiqini bir vəhdətdə birləşdirən müğənninin yaradıcılığı sanballı bir tədqiqata möhtacdır. Bülbülü musiqimizin dərin mənalı bir kitabı adlandırmaq doğrudur...

Kamillik, yetkinlik nümunəsi sayıla bilən ifadan söhbət düşəndə böyük müğənnimiz Bülbülü xatırlayırıq. Bülbül zəngin erudisiyalı bir müğənni idi. Lakin o, təkcə müğənni deyildi. Şair ürəkli, bəstəkar təbli xanəndə idi. O, hər hansı bir şeiri götürüb ona münasib musiqi bəstələməyi bacarırdı. Melodiyaya söz də qoşa bilirdi. Bülbül eyni zamanda yaxşı alim idi. Onun çap olunmuş «Məruzə və məqalələr» kitabını oxuyanda qarşımızda Azərbaycan musiqisinin indisinə, keçmişinə, gələcəyinə can yandıran bir alim, ictimai xadim dayanır.

Bülbül – bülbül idi demək azdır. O, Azərbaycanda həqiqi mənada ilk opera solisti, professional vokal müəllimi idi.

Vokal sahəsində ilk professorumuz olan Bülbülə qədər müğənnilik sənəti empirik yolla inkişaf edirdi. Keçmişdə bu sahədə fəaliyyət göstərən xanəndələr gənclərə muğam ifaçılığını öyrətməklə kifayətlənirdilər. Bülbül tapdanmış yolla



getməyərək, yeni bir mütərəqqi üsulla ifaçılıq məktəbimizi formalaşdırdı; səs təmizliyi, intonasiya, aydın tembr gözəlliyi, ifaçılıq parlaqlığı ilə nümunə göstərdi.

Əsrlər boyu Azərbaycanda, eləcə də Yaxın Şərq ölkələrində oturan halda oxuyurdular. Bu ənənəni bəziləri indi də davam etdirir. Aydındır ki, bu vəziyyətdə sərbəst nəfəs almaq olmur, tənəffüs çətinləşir, diafraqmanın hərəkəti və s. təbii ifa üçün maneçilik törədir, səsin özünə də ziyan dəyir. Xüsusilə zil pərdələrdə gəzişmək üçün ayaq üstə dayanmaq çox sərfəlidir. Bu məsələləri Bülbül öz məruzə və çıxışlarında dönə-dönə qaldırmış, əsaslandırmışdı. Çıxışlarının birində o deyirdi: «Həyat, gerçəklik vokal sənətində iki cərəyanı birləşdirmək vəzifəsini qarşıya qoyur. Bu, çox çətin, lakin əyləndirici, maraqlı və perspektivli vəzifə olub, ciddi, gərgin iş tələb edir. Həmin iş rus və Qərbi Avropa vokal məktəblərinin ənənələrini, digər tərəfdən isə Azərbaycan xalq mahnı yaradıcılığını, xanəndə və aşıqların yaradıcılığını birləşdirmək məqsədilə öyrənməkdən ibarətdir».

Müğənni ifaçılıq imkanlarını genişləndirdi, xanəndələrimizi toyxanadan səhnəyə, estradaya, operaya çıxardı. Onların sənətinə daha geniş ictimai bir mahiyyət gətirdi. Bülbül ifaçılıqda təbiiliyə, realizmə, sözlərin düzgün tələffüzünə xüsusi əhəmiyyət verirdi. Rus və Avropa vokal məktəbinin ən gözəl xüsusiyyətlərini Azərbaycana gətirən və inkişaf etdirən Bülbül oldu. Yeniliyə güclü meyl, müasir ruh heç də onu xalq musiqisinə qarşı qoymurdu. O, eyni zamanda milli irsin qabaqcıl cəhətlərini qavrayır, ondan öyrənirdi. Böyük müğənni öz müasirlərindən ifadəli musiqi obrazı yaratmağı tələb edirdi. Repertuar seçməkdə də Bülbül mahir idi. Müğənni çoxcəhətli və rəngarəng proqramında qəhrəmanlıq mahnılarına xüsusi əhəmiyyət verirdi. Təkcə bəstəkarların yeni mahnıları ilə kifayətlənmir, yeri gəldikdə özü də mahnı bəstələyir və təkraredilməz bir ustalıqla oxuyurdu. Həmin mahnı və təsniflərin sözlərini klassik ədəbiyyatdan, bayatılardan götürür, bəzən isə özü qoşurdu.

Xalq yaradıcılığı məsələləri Bülbülü çox düşündürürdü. O, festivallarda, musiqi baxışları və ongünlüklərdə münsiflər heyətinin fəal üzvü kimi nümunə göstərirdi. Onun müğənniliyi və artistliyi dərin xalq ruhu və xəlqilik mayası ilə aşılanmışdı. Bülbül xalq mahnı ənənələrini xalqın malı etmək eşqilə yaşayırdı. Rəhbərlik etdiyi Elmi Tədqiqat Musiqi Kabineti bu sahədə çox faydalı işlər görmüşdü. Təəssüf ki, bu kabinə sonralar bağlandı. Bülbülün fikrincə, musiqişünasların da öz akademiyası olmalıdır. Bu, musiqi mədəniyyətinin yüksəlişinə böyük təkan verərdi. Görkəmli sənətkar çıxışlarında həmin məsələni dərindən əsaslandırırdı.

Müğənni ifaçılıq mədəniyyətini yüksəltmək lüzumunu dönə-dönə irəli sürürdü. Bülbülün fikrincə, xanəndə yüksək savada malik olmalı, ədəbiyyatı bilməlidir. Xanəndə istedadlıdırsa, şeirin poetik xüsusiyyətlərini düzgün duyursa, onun ifası təbii, səmimi olmalıdır.

Bülbül muğamları diqqətlə öyrənməyi tövsiyə edirdi. İfa zamanı təhriflərə yol verməməyə çağırırdı. Elə bir məruzəsi, çıxışı yox idi ki, bu xüsusda maraqlı fikirlər söyləməsin. «Sovet musiqiçilərinin böyük bir nəsli üçün nümunə olan Bülbül» (Qara Qarayev) sehrkar musiqimizi aləmə yaymaqla bərabər, nəzəri fikirləri ilə də misilsiz xidmət göstərirdi. «Muğamları öz forma və məzmununa görə yalnız simfonik əsərlərlə müqayisə etmək olar» – deyirdi. Bu müddəa tamamilə doğrudur. Xalq xanəndələrinin repertuarında əsas yeri muğamlar və el havaları tutduğuna görə Bülbül onlardan «ürəklə oxumağı» tələb edirdi. Çünki xalq eşqlə, həvəslə, səmimiyyətlə oxuyan müğənnini sevir. Çünki müğənni ifa zamanı özü yanmırsa, yandıra da bilməz. O, yazırdı: «...Ürəksiz oxuyan, yəni eşqsiz, həvəssiz oxuyan bir şəxsi sənətkar saymaq olmaz. Odur ki, sözü səsdən, səsi sözdən, səsi və sözü sazdan (yəni musiqidən) ayırmamaq, yəni bütün bu elementləri yaratmaq və təmsil etmək ən istedadlı xalq aşıqlarının (həm də müğənnilərin – A.M.) qabiliyyətli yaradıcılığının ana xətti olmuşdur».



Bülbülün bu tezisini heç bir xanəndə unutmamalıdır. Təəssüf ki, «Sözü səsdən, səsi sözdən...» prinsipi bəzən pozulur, buna lazımınca əməl edilmir.

Muğamların nota yazılmasının ilk təşəbbüsçüsü Bülbül olmuşdur. Bu məsələyə baxan hökumət komissiyasının sədri kimi o, çox əmək sərf etmiş, F.Əmirova yaxından kömək göstərmişdir. Bəziləri simfonik muğamların yaradılmasına şübhə ilə baxırdılar. Elə hesab edirdilər ki, dinləyicilər simfonik muğam formasını başa düşməzlər. Lakin indi hamıya bəllidir ki, istedadla yazılmış simfonik muğamlar nələrə qadir imiş. İndi onların sorağı dünyanın bir çox konsert salonlarından gəlir. Bu müvəffəqiyyətlərdən fərəhlə söz açan Bülbül belə hesab edirdi ki, aşıq yaradıcılığını da simfonikləşdirmək olar.

Bu barədə yazırdı: «Əgər bəstəkarlarımız bunu dərk etsələr, onların qarşısında böyük bir perspektiv açılar. Çünki böyük və əzəmətli simfoniya yaratmaq üçün beş ünsürdən ibarət olan aşıq yaradıcılığı zamanın nəbzi ilə vurur». Bu, çox maraqlı bir tezis idi. Aşıq yaradıcılığında simfonik elementlər görən müğənni hesab edirdi ki, bu sənətin açılmamış düyünləri hədsizdir, ondan tükənməz bir örnək kimi istifadə olunmalıdır.

Bu xüsusda unudulmaz müğənnimizlə söhbətim yadıma düşdü. 1961-ci ilin mayında «9 Yanvar» bağında ona rast gəldim. Söhbət aşıqlar qurultayından, müğənni sənətindən, saz ustadlarından düşdü. Ölməz sənətkar şirin söhbətləri, yeri gəldikcə zümzümələri ilə məni bir daha valeh etdi. Söhbət əsnasında gözəl naxış ustası Əli Kürdüstani gəlib çıxdı və ahəstə oxuduğu yerdə şəklimizi çəkdi. Həmin rəsmi əziz xatirə kimi saxlayıram.

***Arif MƏMMƏDOV,***
***professor***

## *MİLANDA GÖRÜŞ*

Dərsin başlamasına hələ iki saat qalırdı. Bülbül gəzintidən sonra bir az dincəlmək üçün kiçik «Serenada» restoranına girdi. Yerini rahatlayan kimi qoca ofisiant onun stoluna yaxınlaşdı.

– Sinyor, sizə spagetti təklif etmək istəyirəm. Bu bizim gözəl yeməyimiz hesab olunur.

Bülbül gülümsündü, çünki Milanın bütün restoranlarında bu məşhur yeməyi beləcə reklam edirdilər.

Milan! Bülbül qəribə gözəlliyə malik olan bu şəhərə vurulmuşdu. Vokal sənətini məhz burada təkmilləşdirdiyinə və ona respublika hökuməti belə bir imkan yaratdığına görə özünü xoşbəxt hesab edirdi.

Gənc müğənni qısa vaxtda Milana yaxşıca bələd olmuşdu. O, əzəmətli, ağ mərmər kilsəyə – San-Vinsenso in Prato kilsəsinin özünəməxsus memarlığına heyranlıqla tamaşa etmiş, Sfors qəsrinin divarları yanında və Santa-Mariya della Qrasio monastırında olmuşdu. Öyrənmişdi ki, uzaq keçmişdə Leonardo da Vinçi bu monastırda özünün «Gizli axşam yığıncağı» əsərini yaratmışdı.

Bülbülün həvəsi, iş qabiliyyəti onun yeni dostlarını heyrətləndirirdi. Sovet tələbəsi italyan dilini uğurla öyrənir, çox kitab oxuyur, tez-tez muzeylərə, görkəmli müğənnilərin konsertlərinə gedirdi.

Bülbül adətən, nahardan sonra aktyorların, müğənnilərin, musiqiçilərin, səhnə sənətini sevənlərin toplaşdığı Milan qalereyasına gedirdi. Burada bir çox yenilikləri öyrənmək, maraqlı insanlarla tanış olmaq mümkün idi.

Lakin Bülbül üçün müqəddəs hesab olunan vaxt vokal dərslərinin keçirildiyi saatlar idi...

1928-ci il də gərgin əmək şəraitində ötdü. Artıq müəllimləri onu o qədər də qane etmirdilər. O, məşhur maestro



Rafaelo Qraniyə müraciət etdi. Qrani çox bahalı sayılan pedaqoq idi, yalnız və yalnız İngiltərə və Amerikadan gələn sənətçilərlə məşğul olurdu.

...Bülbül həyəcanlı idi. Sınaq necə keçəcək? Bu şıltaq pedaqoq onunla məşğul olmağa razılıq verəcəkmi?

Maestro başını azca yana əyib, tələbəyə diqqətlə qulaq asırdı...

Bülbül bir neçə mürəkkəb ariya oxudu.

Qrani:

– Pis deyil, – dedi, – ancaq Azərbaycan mahnısı da oxuyun. Mənə deyiblər ki, siz bunu pis bacarmırsınız.

Bülbül oxudu. Qrani kresloda dikəldi. O, müğənnini heyrətlə süzürdü. Sanki ilk dəfə görürdü onu.

Sonra astadan dedi:

– Mənim indicə eşitdiyim dahiyanə ifa idi, – dedi. – Lakin bu ayrı məktəb, başqa ifa tərzidir. Siz cəsarətli adamsınız, yeni tərzdə oxumağa qərar verməklə böyük riskə getmisiniz. Ancaq indi bundan danışmağın nə mənası?! Mən əlimdən gələn hər şeyi edəcəyəm, sinyor. Cümə günündən məşğələyə başlayaq.

...Həmin qoca ofisiant Bülbülü yenə xəyallardan ayırdı.

– Bu da spagetti, sinyor. Bu, gözəl yeməkdir. İnsanın gümrahlığını artırır. Biz onun yanında şərab da veririk. Mən xoşbəxtəm ki, siz bizim restorana təşrif gətirmisiniz.

...Qrani şagirdini həmişəki kimi xoş üzlə qarşıladı. Məşğələlərə ənənəvi vokal məşqləri ilə başladılar. Sonra Bülbül Puççininin «Toska» operasından Kavaradossinin ariyasını maestroya təqdim etmək istədi. Bu ariyanı o, müstəqil olaraq öyrənmişdi. Maestro heyrətlə:

– Əzizim, – dedi, – siz böyük uğurlar qazanırsınız. Doğrudur, hələ çox işləmək lazımdır, lakin siz istədiyinizə nail olacaqsınız. Bunu mən deyirəm – Rafaelo Qrani!

Sonra maestro soruşdu:

– Bu axşamı necə keçirmək fikrindəsiniz? Bülbül həyəcanlı halda cavab verdi:

– Milanın bütün musiqi ictimaiyyəti kimi – La Skalada Şalyapinə qulaq asmaqla.

– Çox gözəl! – Sonra: – Sizi Spolantsini soruşurdu, – dedi. – Deyəsən onun sizə cəlbedici təklifi var.

– Bilirəm. Amma mən imtina etmişəm.

– E-eh! Bu adamlar yaman inadcıldı. Ehtiyatlı olun, mənim gənc dostum!

Məşhur «La Skala» teatrı Milanın başqa binalarından zahirən çox da seçilmirdi. O yalnız binaya yapışıq sadə sütunlu eyvanın yanındakı meydanda axşamlar yaranan canlanma ilə və iri afişalarla fərqlənirdi.

Neçə gün idi ki, Milan öz sevimlisi Fyodor İvanoviç Şalyapinlə qarşıdakı görüşün sevinci ilə yaşayırdı...

Bülbül bu teatrın daimi tamaşaçılarından idi, onun hətta yuxarı yarusun yeddinci sırasında «öz» yeri də vardı. Burada adətən vokalçı tələbələr yer tuturdular. Bu yerlər ucuz idi, burada frak geymək məcburi deyildi, həm də öz fikrini açıq bildirmək olurdu. Bülbül bu gün, İtaliyada tələbə olduğu müddətdə ilk dəfə idi ki, parterə bilet almışdı.

İşıqlar yavaş-yavaş sönür, təkcə lojaların al məxmər örtükləri bərq vurur. Musiqi səslənir. Pərdə qalxır... Tamaşa salonu Şalyapini gurultulu alqışlarla qarşılayır.

O, Borisin partiyasını rus dilində oxuyacaq.

Şalyapinin misilsiz səsi, həm də əlçatmaz aktyorluq sənəti onu heyrətə gətirmişdi. Şalyapin, törətdiyi cinayətin bütün ağırlığını ürəyində gəzdirən çarın getdikcə artan əzablarını necə incəliklə açırdı! Boris tamaşaçıların gözü qabağında qocalır, gücdən düşürdü. Elə bil səhnədən – səhnəyə gicgahları ağarır, sifəti dərin qırışlarla örtülürdü.

Salon nəfəs çəkmədən rus artistini dinləyirdi. Həyatı sönən Borisin son pıçıltısı – «Bağışlayın» sözü coşğun, sonu görünməyən alqışlara qərq oldu...

Bülbül də milanlı gənclərlə birlikdə xidməti qapının ağzında rusiyalı artisti gözləyirdi. Ucaboy, yaşına görə cavan görünən Şalyapin qapıda göründü, avtoqraflar verməyə başladı. Bülbülə də növbə çatdı.

Fyodor İvanoviç italyanca soruşdu:

– Sizə nə arzulayım?

– Mən Rusiyadanam...

– Siz russunuz?

– Yox, Azərbaycanlıyam. Bakıdanam...

– Bakı?! – Şalyapin gülümsündü. – Mən sizin şəhərə bələdəm...

O bir dəqiqəliyə susdu. Fyodor İvanoviç bəlkə fransız operettasının xorunda oxuduğu, «neft şəhərinə» qastrola gəldiyi o uzaq cavanlıq çağlarını, bəlkə də 1897-ci ili – Bakıda Verstovskinin «Askold məzarı» operasında naməlumun partiyasını oxuduğu günləri xatırladı. O vaxtlar onu çox az adam tanıyırdı.

Şalyapin:

– Milanda yaşayırsınız? – deyə soruşdu.

Bülbül cavab verdi:

– Yox, oxuyuram. Opera artisti olmaq istəyirəm.

– Vətəndə sizə xoşbəxtlik arzulayıram, – Fyodor İvanoviçin səsində yüngül bir kədər hiss olundu.

O, teatrın yanında dayanmış avtomobilə tərəf addımladı. Bülbül xeyli müddət teatr meydanından ayrıla bilmədi.

– Sinyor Bülbül, Nə xoş təsadüf! Mən əlamətlərə inanıram, bizim yollarımız mütləq qovuşacaq!

Bülbül geri döndü.

Gülümsəyən tosqun Spolantsini özünü ona yetirdi.

Şalyapinə qulaq asırdınız? Nəhəngdir! Mən də onu deyirəm: gərək yalnız dahi artist olasan. Bizim Karuzomuz var, sizin Sobinovunuz. Başqa tenorlar neyləməlidir? Gərəksiz niyyətinizi bir kənara atın. Sizin öz gözəl janrınız var – Azərbaycan xalq mahnıları. Bu, Avropa ölkələrində, elə Amerikada da sensasiya yaradar. Siz milyoner olarsınız. Müsəlman aləmindən çıxmış vokalçı! Möcüzədir! Bu cür imkanı əldən vermək olarmı?! Kontraktı imzalayın!

– Mən sizin təklifinizi qəbul edə bilmərəm. Axı, siz neyçin belə canfəşanlıq edirsiniz?

O, Bülbülə sözünü bitirməyə imkan vermədi.

– E-eh, sinyor, Allah mənə istedad verməyib, cavanlıqda «klaki» idim. Bilirsiniz bu nə deməkdir? Biz pula görə artisti fitə də basar, ona böyük uğur da qazandıra bilərdik. Biz sinyor Şalyapindən alqışlara görə dörd min frank istədik. Bu, onun Milana ilk gəlişi idi.

O bizə «rədd olun!» dedi. Biz onu fitə basmaq istədik. O zaman biz «La Skala»da çox idik. Buna baxmayaraq Şalyapin öz sənəti ilə «klaki»ni də özünə məftun etdi…

Bax beləcə… Mən teatrın həndəvərində yaşayıram. Hərənin öz qisməti var. Həyat çoxlu pul tələb edir. Zənnim məni aldatmır, sinyor Bülbül. Mən işgüzar adamların nümayəndəsiyəm. Bir qərara gəlin!

– Sizə kömək edə bilməyəcəm. Sağ olun!

Bülbül evə səhərə yaxın gəldi. O, yazı stoluna yaxınlaşdı, sonra kresloya əyləşib ağ vərəq götürdü. Bir az fikirləşdi. Yazmağa başladı: «Şalyapinə qulaq asdım. Heyrət doğuran ifa! Mən çox şeyi başa düşdüm. İndi bildim opera müğənnisi, əsl artist necə olmalıdır. Həm də onu başa düşdüm ki, hər bir insan üçün Vətən nə deməkdir.

Tezliklə evə qayıdacağam. Ah, milli operamızın olmasını necə arzulayıram!»

Məktub Bakıya göndəriləcəkdi…

O zaman gənc artist hələ bilmirdi ki, arzusu yerinə yetəcəkdir. Bilmirdi ki, Azərbaycan Opera teatrının səhnəsində Koroğlunun partiyasını oxuyacaq və bu onun zəfər günü olacaqdır. Məhz həmin gün o, Fyodor İvanoviç Şalyapinin Milanda dediyi sözləri xatırlayacaqdır: «Sizə Vətəndə xoşbəxtlik arzulayıram».

***Natan ZORİN,***
***jurnalist***



## *ONUN SƏNƏTİ QARŞISINDA BAŞ ƏYİRƏM*

Bülbülün müğənniliyi Allah vergisidir. Tanrı vokalın bütün məziyyətlərini ona səxavətlə bəxş etmişdir.

Heyrətamiz dərəcədə rəvan, bəmdən zilə asanlıqla keçən geniş diapazonun yuxarı registrində dolğun, parlaq və sanki sonu görünməyən, nəhayətsiz, qeyri-adi, misilsiz bir səs…

Onun ideal intonasiyası və hər musiqi ifadəsi təkrarsızdır. O həmişə çevrələnmiş və tamamlanmış olur. Tembrin nadir orijinallığı və məlahəti heyrətamizdir. Yüksək vokal texnikası, dərin emosional dolğunluq, gözəl diksiya, qeyri-adi nəfəs…

Onun oxumağı insana rahatlıq gətirir, qulağı oxşayır. Bu səs mülayim çalarlarla, işıq-kölgələrlə doludur.

Belə ki, akademik ifa tərzinin ciddiliyi dərin hisslərlə qovuşur və beləcə, gözəllik, həqiqi harmoniya kamillik nümunəsinə çevrilir. Mən böyük müğənninin sənəti qarşısında baş əyirəm. Qəbri nurla dolsun!

***Riçard VERO,***
***məşhur Kanada tenoru***

## BÜLBÜL
## BÖYÜK VƏTƏN MÜHARİBƏSİ İLLƏRİNDƏ

Mən Bülbülün Xatirə Muzeyinə tez-tez gedirəm. Bülbül ilə görüşlərim, onunla çoxillik ünsiyyətim kino lenti kimi gözlərim önündən keçir.

Bülbülün Xatirə Muzeyinin fondlarında qəhrəman Qızıl Ordu hissələri, Hərbi-Dəniz Donanması və Xalq Daxili İşlər Komissarlığı qoşunlarına mədəni hamilik sahəsindəki işinə görə aldığı fəxri fərmanlar, təşəkkürnamələr, eləcə də sənətkarın Böyük Vətən Müharibəsi illərində arxada və cəbhədə göstərdiyi fəaliyyətini əks etdirən qiymətli sənədlər saxlanılır.

Mən fəxr edirəm ki, o, döyüşçülər qarşısında çıxış etməkdən heç vaxt imtina etməmişdir. Bülbül bütün ömrü boyu Sovet Ordusu ilə qırılmaz tellərlə bağlı olub. O, döyüşçülər qarşısında çıxış etməyi xoşlayır və onlar üçün böyük məmnuniyyətlə oxuyurdu. Bülbül yalnız konsertlər vermirdi, həm də onların qarşısında yaradıcılıq hesabatı verirdi.

Bülbül Böyük Vətən Müharibəsi illərində döyüşçülərə mədəni xidmət kimi şərəfli işini müntəzəm davam etdirirdi. Məhz müharibədə insanların qəhrəmanlığı və mənəvi dəyanəti aydın şəkildə üzə çıxırdı. Bütün ölkə faşizmlə ölüm-dirim mübarizəsinə qalxmışdı. Bu illərdə incəsənət xalqın mənəvi səfərbərliyində əvəzsiz bir vasitəyə çevrilmişdi.

Bülbül müharibənin ilk günlərindən ön cərgədə idi. Sənətkarın silahı onun sənəti idi. O, hospitallarda, hərbi hissələrdə, arxada və ön cəbhədə yüzlərlə konsert vermişdir.

Bülbül 1941-ci ilin iyul-avqust aylarında çağırış məntəqələrində çıxış edir, həmin ilin sentyabr ayında Azərbaycan Opera Teatrı ilə Qızıl Ordu hissələrinə xidmət göstərmək



üçün İrana gedir. 1942-ci ilin ağır iyul günlərində, alman qəsbkarları Bakıya can atdığı bir vaxt Bülbül Zaqafqaziya cəbhəsinin 44-cü Ordusunda, 416-cı atıcı diviziyasında bədii konsert briqadasının rəhbəri kimi fəaliyyət göstərir. Briqadanın tərkibinə Səid Rüstəmov, Qurban Pirimov, Ələsgər Ələkbərov, Zülfi Adıgözəlov, Leyla Bədirbəyli, Sara Qədimova, Əlibaba Abdullayev daxil idi.

416-cı atıcı diviziyanın siyasi şöbə rəisinin SSRİ xalq artisti Bülbül Məmmədovun çıxışları haqqında 288 №-li rəyi:

«9 avqust 1943-cü il.

Azərbaycan SSR Xalq Komissarları Soveti yanında İncəsənət İşləri İdarəsi tərəfindən: batalyon komissarı R.Məcidovun siyasi şöbənin rəisi olduğu qoşun birləşməsinə mədəni xidmət üçün ezam olunmuş SSRİ xalq artisti Bülbül Məmmədov burada olduğu müddətdə döyüşçülər, komandirlər və siyasi işçilər qarşısında çıxış etmişdir.

SSRİ xalq artisti Bülbül Məmmədovun bədii kollektivə rəhbərliyini və çıxışlarını xüsusi qeyd etmək lazımdır.

Diviziya hərbi komandiri, briqada komissarı».

1943-cü ilin avqust-sentyabr aylarında Azərbaycan incəsənəti ustaları briqadasının rəhbəri Bülbül Bryansk cəbhəsinə yola düşdü. Bryanska yol Moskvadan keçirdi. Qəzetlər yazırdı: «Moskvaya Bakıdan briqada gəlib. Onların arasında SSRİ xalq artisti Bülbül, aşıq M.Bayramov, respublikanın əməkdar artisti S.Quliyeva, G.Həsənova, V.Şirye, T.Dəmirov, F.Mehrəliyeva, V.Feldman, xalq çalğı alətləri ifaçıları və başqaları vardır. Artistlər Moskvadan döyüşən orduya döyüşçü və komandirlərə bədii xidmət göstərməyə gedəcəklər».

Artistlər döyüşçüləri qəhrəmanlıq mahnıları, odlu-alovlu sözlərlə ruhlandırırdılar. Bülbül özü həddən çox, özü də aramsız oxuyur, bir hissəni, bircə səhra hospitalını belə ötürmürdü. Döyüşçülər, zabitlər artistlərə böyük səmimiy-

yətlə minnətdarlıq edir, onlar barədə ürək sözlərini yazırdılar.

Budur onlardan bir neçəsi:

«Konserti dinləyərkən biz ağrılarımızı unuduruq. Bizə göstərdiyiniz diqqət üçün çox sağ olun, yoldaşlar!

222 və 217-ci atıcı diviziyaların, 82-ci atıcı diviziyanın hospitallarının zabitləri, Oryol istiqamətində hücumun iştirakçıları».

«SSRİ xalq artisti Bülbülün rəhbərliyi ilə Azərbaycan artistləri briqadasının çıxışları böyük bayramdır. Konsert briqadasının tərkibi, onun repertuarı çoxmillətli sovet xalqının birliyini təcəssüm etdirir. Uzaq, günəşli Azərbaycanın pambıq və «qara qızıl» diyarının səsi, qəhrəman şəhər Bakının vətənpərvərlik mahnıları və şeirlərdə ifadə olunan səsi bizə gəlib çatdı, özünəməxsus melodiyası, ritmi ilə ruhumuza hopdu. SSRİ xalq artisti Bülbülün operalardan (milli və Avropa) oxuduğu parçaların səmimi, gözəl ifasını xüsusi qeyd etmək istəyirik.

Tamaşaçılar adından baş leytenant
Sosinski K., Döyüşən ordu, 1943-cü il».

General-mayor, Bryansk Cəbhəsi Siyasi İdarəsinin rəisi Piqurnov briqadanın işini təfsilatı ilə belə səciyyələndirib:

«SSRİ xalq artisti Bülbülün iştirakı və bədii rəhbərliyi altında Azərbaycan SSR-in artistlər briqadası Bryansk Cəbhəsi hissələrində 25-dən artıq konsert verdi. Konsertin proqramı öz milli koloritinin üstünlüyü ilə, yüksək mədəniyyəti və ifaçılıq məharəti ilə fərqlənir.

Briqadanın bütün çıxışları Hitler Almaniyasına qarşı azadlıq müharibəsində SSRİ xalqlarının böyük birliyi və qardaşlığını əks etdirən mitinqlərə çevrilirdi. Çətin səhra iş şəraitinə baxmayaraq kollektiv onun qarşısında qoyulmuş vəzifələri yaxşı yerinə yetirdi. Bizim cəbhənin hissələrinə yaxşı bədii xidmət göstərdiklərinə görə bütün briqadaya təşəkkür elan edirəm».



Briqadanın nəzərdə tutulmamış konsertləri də olurdu. Öz həmyerlilərini görəndə, azərbaycanlı döyüşçülər olan hissələrdə onlar öz təşəbbüsləri ilə konsertlər verirdilər.

Başqa konsertlərə bənzəməyən bir konsert növü də var idi. Cəbhəyə gedən döyüşçülərlə dolu qatarların bir vaqonunda Azərbaycan artistləri gedirdilər. Döyüşçülər bundan xəbər tutdular və onlardan oxumağı xahiş etdilər.

Əlbəttə, vaqonda oxumaq bir qədər çətinlik yaradırdı. Bu bir az da müşayiətçi yoxluğu ilə bağlı idi. Ancaq bu o qədər də vacib deyildi. Bu bəlkə də dünyada yeganə auditoriya idi ki, Vətən müdafiəçiləri səndən oxumağı xahiş edirdilər...

Döyüşçülər mümkün qədər aralanıb, onlar üçün yer ayırdılar. Əvvəlcə Bülbül oxudu. Özü də çox oxudu, həvəslə oxudu. Düşməni məğlub edən döyüşçülər haqqında oxudu, Vətənə sonsuz məhəbbət, müqəddəs vətənpərvərlik, azadlıq və müstəqillik haqqında, qalibiyyətlə qayıdacaq əsgəri gözləyən qız haqqında, Vətəni qorumağa gedən oğluna xeyir-dua verən ağsaçlı ana haqqında oxudu...

Qatar gedir, dayanır, yenə gedirdi, lakin vaqonda heç kəs bunu hiss etmirdi. Vaqon öz həyatı ilə yaşayırdı, burada gözəl əfsanə qəhrəmanlıqla dolu gerçəkliklə qaynayıb-qarışırdı. Döyüşçülər vəcdə gəlmişdilər. Onlar yalnız incəsənətin bəxş edə biləcəyi xoş dəqiqələr yaşayırdılar. Döyüşçülərin fərəh dolu səsləri xeyli vaxt kəsilmədi. Bülbülün mahnıları qəhrəman vətən övladlarına qarşıdakı döyüşlərə xeyir-dua kimi, uğur diləmək kimi səslənirdi.

Onların «Pesoçnaya» stansiyasında çox maraqlı görüşü oldu. Burada briqada üzvləri bir sıra görkəmli söz-sənət adamları ilə – K.Simonov, K.Fedin, B.Pasternak, A.Serafimoviç və V.Serova ilə görüşdü, onlara döyüşçülərlə, komandirlərlə görüşlərdən, cəbhədəki vəziyyətdən danışdı. Bütün günü bir yerdə oldular.

Budur, yenə Moskva! Qəhrəman şəhər Azərbaycan artistlərini öz mərdanə gözəlliyilə qarşıladı. Şəhər öz dolğun həyatını yaşayır, dinc vaxtlarda olduğu kimi yenə də incəsənətə dərin maraq göstərirdi.

Moskva qəzetlərinin birində vacib cəbhə xəbərlərilə yanaşı bu sətirləri oxuyan briqada üzvləri riqqətə gəldilər. Burada yazılmışdı: «Başda SSRİ xalq artisti Bülbül olmaqla, cəbhədən gəlmiş Azərbaycan konsert briqadası rəngarəng, maraqlı proqram göstərdi».

Sonra briqada İttifaqlar Evinin sütunlu salonunda, İncəsənət İşçilərinin Mərkəzi Evində, Alimlər Evində, Qızıl Ordu Evində, Moskvanın müxtəlif təşkilatlarında və Tula şəhərində saysız-hesabsız konsertlər verdilər. Böyük uğurla keçən çıxışlar, görüşlər, cəbhə ilə bağlı sorğu-suallar...

Bryansk cəbhəsindən qayıdan artistlər briqadasına bakılılar da böyük maraq göstərirdilər. Artistlərin də öz həmyerlilərinə deməyə, danışmağa sözləri çox idi: Vətən müharibəsi qəhrəmanları ilə görüşlər, Vətən müdafiəçilərinin can atdıqları böyük hücum arzusu, döyüşən ordunun döyüşçü və zabitlərinin onlara göstərdiyi mehriban münasibət və əlbəttə ki, Moskva haqqında söhbətlər...

Bülbül Qızıl Ordu hissələri və bölmələrində verdikləri konsertlər barədə danışırdı. «Bakinski raboçi» qəzeti yazırdı: «Oktyabrın 18-də Füzuli adına Ziyalılar evində Bakı ziyalılarının cəbhədən qayıtmış Azərbaycan artistləri ilə görüşü oldu. İzdihamlı iclası əməkdar incəsənət xadimi, şair Süleyman Rüstəm açdı. Briqadanın rəhbəri, SSRİ xalq artisti Bülbül Bryansk cəbhəsinin döyüşçüləri və zabitləri qarşısındakı çıxışları, Vətən müharibəsi qəhrəmanları ilə gözəl görüşləri barədə danışdı.

Sonda briqada üzvləri öz cəbhə çıxışlarının proqramını təkrarən ifa etdilər. Konsert böyük müvəffəqiyyətlə keçdi».

1943-cü ildə Qızıl Ordu hissələrinə mədəni xidmət göstərmək üçün Bülbülün İrana daha bir səfəri oldu. Xalq artisti Həqiqət Rzayeva, Çarski, Leyla Bədirbəyli, Hacı Məmmədov, Tərlan Əliyeva, X.Babayev və B.Atababayev bu səfərə onunla bərabər getmişdilər.



Bülbül müharibənin ağır illərində yalnız cəbhəyə, ön xəttə getməklə kifayətlənmir, həm də öz qəhrəman əməklərilə faşist qəsbkarları üzərində qələbəni yaxınlaşdıran arxa cəbhənin zəhmətkeşlərini ruhlandırırdı.

O, 1944-cü ildə Azərbaycan rayonlarına və Zaqafqaziya şəhərlərinə üç aylıq səfərə çıxdı.

Bülbül müharibənin sonuna yaxın – 1944-cü ildə Tiflisdə keçirilən Zaqafqaziya respublikalarının musiqisi Ongünlüyündə iştirak etdi. Bu böyük tədbirə hazırlıq zamanı Bülbül bəstəkarlarla çox gərgin işləyirdi. Onun vokal və simfonik əsərlərin yaradılmasında məsləhətləri və bilavasitə köməyi öz gözəl bəhrəsini verdi.

Ongünlükdə Azərbaycan musiqiçilərinin konsertləri ölkənin görkəmli sənət xadimləri və geniş ictimaiyyət tərəfindən çox yüksək qiymətləndirildi.

Nəhayət, Bülbül doğma Bakıdadır. Teatr, konservatoriya, gərgin iş günləri... Axı, cəbhələrə səfərlər Bülbülü teatrdan müəyyən müddətə ayırırdı. Ağır müharibə illərində Opera Teatrı öz işini nəinki dayandırmır, hətta yeni tamaşalar da hazırlayırdı.

Qara Qarayevlə Cövdət Hacıyevin hərbi-vətənpərvərlik mövzusunda yazdıqları operada Bülbül sovet zabiti – Sovet İttifaqı Qəhrəmanı Aslanın rolunu ifa edirdi. «Vətən» operası müharibə hadisələrinin canlı əks-sədası, onun igidlik pafosu idi.

Bülbül işinin çoxluğuna baxmayaraq 1943-cü ildə «Azərbaycan bəstəkarlarının vokal əsərləri Böyük Vətən Müharibəsi günlərində» məcmuəsini tərtib etdi.

Müharibə illərində Bülbül də bütün ölkə kimi «Hər şey cəbhə üçün, hər şey qələbə üçün!» devizi ilə yaşayıb-yara-

dırdı. Vətənin o ağır günlərində o, Müdafiə fonduna, tank dəstəsi fonduna və cəbhəçi ailələrə yardım fonduna öz şəxsi vəsaitindən 200 min manat pul köçürmüşdü.

Bununla yanaşı o, İranda verdiyi konsertlərdən yığılmış vəsaitdən Stalinqrad uşaqlarına kömək fonduna 250 min rial yardım etmişdi.

Ali Baş Komandandan Bülbülün adına iki teleqram gəlmişdi:

«Yoldaş Bülbül, zirehli tank qüvvələrinə qayğınıza görə mənim salamımı və Qızıl Ordunun minnətdarlığını qəbul edin.

İ.V.Stalin».

«Yoldaş Bülbül, cəbhəçi ailələrinə göstərdiyiniz qayğıya görə Sizə və xanımınıza təşəkkür edirəm. Mənim salamımı və Qızıl Ordunun minnətdarlığını qəbul edin.

İ.Stalin».

O ağır müharibə illərində Bülbülün iş günləri gərgin idi. O, gecə-gündüz bilmədən işləyirdi: «Faşizm üzərində Qələbəyə hər gün, hər saat real töhfə vermək lazım ikən qüvvəni əsirgəmək mümkündürmü?!».

Bülbülün Böyük Vətən Müharibəsində əməyi iki medalla qeyd olunmuşdur: «Qafqazın qəhrəman müdafiəsində iştirakına görə» və «Böyük Vətən Müharibəsi dövründə şərəfli və fədakar əməyə görə». Bu medallar onun üçün çox əziz idi.

Muzey Bülbülün ənənələrini davam etdirir. Bu müqəddəs ocaqda çalışan insanlar tez-tez məruzə, sərgi və Bülbülün «səsi» ilə hərbi hissələrdə olur. Muzey əməkdaşları eyni zamanda əsgərləri Muzeydə keçirilən rəngarəng tədbirlərə dəvət edirlər.



...Ürəyim sıxılanda maqnitofonu açıb, Bülbülü dinləyir, onun misilsiz ifasında ariyalara, romans, mahnı və təsniflərə qulaq asıram.

Bu nadir səsi, bu məxmər kimi yumşaq tembri qəmsiz-qüssəsiz dinləmək olmur. Lakin bu qəm-qüssə ilə bərabər məni güclü bir iftixar duyğusu bürüyür. Çünki bu səs bizim həmvətənimizin, bizim doğma Bülbülümüzün səsidir.

Qəbri nurla dolsun!

***Rizvan ZEYNALOV,***
***tarix elmləri doktoru,***
***qvardiya polkovniki***

## İFAÇILIQ SƏNƏTİMİZİN KORİFEYİ

1922-ci ildə Gəncədə məşhur pedaqoq Paşa müəllimin müdir olduğu məktəbdə oxuyurdum. O zaman Çingiz Cuvarlı (Milli Akademiyanın akademiki) və Məmməd Şuşalı (Məmmədov) ilə bir sinifdə təhsil alırdıq. Biz o zaman Fikrət Əmirovun atası, gözəl xanəndə və yaxşı tarçalan kimi tanınan Məşədi Cəmil bəy Əmirovla qonşuluqda yaşayırdıq...

Bülbül haqqında ilk söhbətləri də Məşədi Cəmilgilin evində eşitmişdim. Bir gün Cəmil dayı (ona belə müraciət edirdik) dedi ki, Şuşadan bir nəfər xanəndə gəlib, o qədər gözəl oxuyur ki, xalq ona Bülbül adı verib. Sonradan öyrəndik ki, Bülbül Gəncənin toy məclislərində oxuyur və Bala Seyid adlı bir nəfərin mehmanxanasında qalır. Yeri gəlmişkən, Fikrət Əmirovun Bakıya gəlməsində və böyük Üzeyir bəylə tanışlığında da Bülbülün xüsusi rolu olmuşdu.

Bülbüllə ilk əyani tanışlığım 1943-cü ilə təsadüf edir.

Bir gün komsomolun Mərkəzi Komitəsinin 2-ci katibi Bağır Seyidzadə məni öz kabinetinə dəvət etdi. Otağa daxil olanda orada daha bir nəfər var idi. O məni həmin adamla tanış edərək dedi ki, yəqin Bülbül haqqında eşitmisən, o, əsl sənətkarlardandır. Bülbüllə ilk əyani tanışlığım belə başladı və sonralar bu tanışlıq yaxın dostluğa çevrildi. Bülbüllə maraqlı görüşlərimizdən biri 1957-ci ildə Bərdə rayon Partiya Komitəsinin birinci katibi işlədiyim dövrdə olmuşdu. Bir gün Bülbülün yaxın dostlarından olan Hacı Sadıqov mənə zəng edib dedi ki, Bülbül Şuşaya gedir, yolüstü görüşməyimiz yaxşı olar. Adətən, Bülbül Şuşaya dincəlməyə ailəsi ilə gedərdi. Bu dəfə isə o, tək idi. Söhbət zamanı başa düşdüm ki, Bülbülün bu dəfəki səfərinin məqsədi tamam başqadır.

O, xüsusi vurğuladı ki, muxtar vilayətin başqa yerləri ilə



müqayisədə Şuşanın sosial-iqtisadi inkişaf məsələlərinə kifayət qədər diqqət yetirilmir və bu onu çox narahat edir. Bülbüllə söhbətimizin maraqlı bir məqamı da yadımdadır. O deyirdi: əgər məsul şəxslərin hamısı Şuşanın inkişafı naminə lazımi işlər görsələr, Qafqazın musiqi mədəniyyətinin konservatoriyası sayılan, Azərbaycanın qədim tarixə malik olan bu şəhəri qısa müddətdə böyüyüb ittifaq əhəmiyyətli bir kurort zonaya çevrilə bilər.

Dağlıq Qarabağın o vaxtkı rəhbərliyi Şuşada sosial və mədəni obyektlərin tikilməsinə hər cür maneçilik törədirdi. Xatirimdədir, o illərdə məşhur neftçi Süleyman Vəzirovun köməkliyi ilə Şuşanın Köçəri məhəlləsində Azneft Birliyinin hesabına bir sanatoriya binası tikilib təhvil verilmişdi. Həmin sanatoriyanın müalicə suyu ilə təchiz olunması məqsədilə Şuşa yaxınlığındakı Şırlan kəndində çıxan Turş suyu Şuşaya çəkmək məsələsi ortaya çıxmışdı. Bu məsələni eşidən ermənilərin müraciət etmədikləri yer qalmamışdı. Onlar deyirdilər ki, guya Xankəndinin içməli suya ehtiyacı var və həmin suyun oraya çəkilməsi daha məqsədəuyğundur. Nazirlər Sovetinin o zamankı sədri Sadıq Rəhimovla birlikdə bu məsələ ilə əlaqədar Xankəndinə getməli olduq. O, iclasda Xankəndində sanatoriya tikilməsi və Turş suyun oraya çəkilməsi tələbi ilə çıxış edən ermənilərdən soruşdu: Yaxşı, tələbinizə əməl etdik, Şuşanın havasını necə, onu da buraya gətirməliyik? Şuşada sanatoriya tikintisi onun təbii şəraiti ilə əlaqədardır axı.

Bülbüllə maraqlı görüşlərimizdən biri də 1960-cı ilə təsadüf edir. Bir gün mənə Goranboy rayonundan zəng edib xəbər verdilər ki, MK katibi və bir qrup ziyalı sizin rayona gəlir. Onları qarşılamaq üçün hazırlıq işləri gördük. Nümayəndə heyəti səhər saat 8-də gəldi. Azərbaycan Yazıçılar Birliyinin o vaxtkı sədri Mehdi Hüseyn, yazıçı Süleyman Rəhimov, xalq artisti Bülbül də gələnlər arasında idi. Bir az dincələndən sonra nümayəndələr kəndləri gəzməyə çıxdılar. Qonaqları hər yerdə yüksək hörmət və ehtiramla qarşılayır-

dılar. Həzi Aslanov adına kolxozun yerləşdiyi kənd qonaqların daha çox xoşuna gəldi. Doğrudan da, kəndin abadlığı göz oxşayırdı.

O gün bir çox təsərrüfatları gəzəndən sonra axşamüstü rayonun mədəniyyət sarayında əmək qabaqcılları ilə geniş bir yığıncaq keçirildi. S.Rəhimov və M.Hüseyn çıxış edəndən sonra Bülbül tribunaya qalxdı, özünəməxsus tərzdə bir muğamat oxudu. Camaat onu alqışlarla qarşıladı. Sonra o, «Güləbətin» mahnısını ifa etdi. Qurtarandan sonra camaat ondan «Qarabağ şikəstəsi» oxumasını xahiş etdi. O gün camaat Bülbülü səhnədən buraxmaq istəmir, onu ehtiramla alqışlayırdı.

Bülbüllə son görüşümüz 1961-ci ildə onun yaxın dostlarından birinin – Sosialist Əməyi Qəhrəmanı Məmməd Orucovun yas məclisində oldu. Yorğun görünürdü. Xeyli söhbətləşdik. Şuşadan, onun füsunkar təbiətindən, gözəlliklərindən, inkişaf perspektivlərindən və problemlərindən danışdıq. Bu görüşdən az sonra böyük insan, gözəl şəxsiyyət, XX əsr ifaçılıq sənətimizin korifeyi olan Bülbül dünyasını dəyişdi.

Bu gün Dağlıq Qarabağın digər əraziləri kimi Şuşa da Ermənistanın işğalı altındadır. Ermənilər azərbaycanlılara məxsus yüzlərlə maddi-mədəniyyət abidələrini məhv ediblər. Ü.Hacıbəyovun, Bülbülün və digər məşhur mədəniyyət və incəsənət xadimlərimizin ev-muzeyləri və abidələri dağıdılıb talan edilmişdir. Ancaq inanıram ki, tezliklə ermənilərə layiqli cavab veriləcək, işğal olunmuş torpaqlarımız azad ediləcək və o zaman biz Bülbülün həyat yoldaşı Adilə xanımla, oğulları Çingiz və Poladla Şuşada onun ev-muzeyində görüşəcəyik.

*Xosrov AĞAYEV*



## *XALQ ONA BÜLBÜL ADI VERDİ*

Onun ecazkar səsi daim bizimlə yaşayır. Ölümündən 30 il keçsə də, onun səsini bir dəfə dinləyənlərin ürəyində indi də bu səs cəh-cəh vurur. «Sevgili canan», «Sənsiz» romanslarını, müxtəlif ariyaları, Azərbaycan bəstəkarlarının mahnılarını, eləcə də rus və Avropa klassiklərinin əsərlərini Bülbülün necə ilhamla ifa etdiyini unutmaq olarmı?!

O, yaratdığı obrazlarla – Aşıq Qərib, Xosrov, Kavaradossi, Aslan, Hersoq, Saro, Əlyar, Nizami və əlbəttə ki, unudulmaz Koroğlu ilə necə də qaynayıb qarışırdı.

Bülbülün həyatı, yaradıcılığı haqqında çox məqalələr, resenziyalar, monoqrafiyalar yazılıb, ona kitablar, kinooçerklər həsr olunub. Çoxlu sayda vallar, lent yazıları onun füsunkar səsini dinləmək üçün bizə geniş imkan yaradır. Lakin bütün bunlar Bülbülün Azərbaycan vokal sənətinin inkişafında göstərdiyi nəhəng xidməti lazımınca qiymətləndirmək üçün hələ çox azdır.

Professor Bülbül Azərbaycan klassik ifaçılıq sahəsində ilk yolaçan sənətkar idi. Adi xanəndəlikdən Avropasayağı mükəmməl müğənniliyə qədər çətin yol keçmiş Bülbül Azərbaycan Dövlət Konservatoriyasında öz vokal məktəbini yaratmağa nail oldu. Azərbaycan, rus klassik və Avropa ifaçılıq məktəbinin sintezinə əsaslanan bu məktəb misilsiz uğurlar qazandı. Musiqişünaslar, böyük mütəxəssislər, görkəmli vokal professorları Bülbül məktəbinin xidmətlərini, onun əla sintezini dönə-dönə qeyd etmişlər.

Sonralar səhnə ustaları kimi yetişmiş, eləcə də bizim konservatoriyada, respublikadan uzaqlarda musiqi məktəblərinin aparıcı vokal pedaqoqları olmuş bütöv bir müğənni nəslinin hazırlanmasında Bülbülün müstəsna xidməti vardır.

Vokalın bütün çalarlarına bütövlükdə yiyələnmiş Bülbül öz parlaq ustalığı ilə ölkədə və xaricdə Azərbaycan milli ifaçılıq üslubunun gözəlliyini, şirin, ahəngdar koloritini daim sübuta yetirirdi. O, hər yerdə səhnədə, konservatoriyada söhbətlərdə rus və Avropa klassikasına məhəbbət aşılamağa çalışırdı. Bülbülün Azərbaycan dilinə tərcümə etdiyi bir çox ariya və romanslar onun öz redaktorluğu ilə buraxılmışdır.

Mənə Opera və Balet Teatrına gəldiyim ilk günlərdən Bülbülün oxuduğu opera tamaşalarında iştirak etmək nəsib olmuşdur.

İndi, üstündən 30 il keçdikdən sonra teatrın gənc artistlərinə əfsanə kimi görünəcək bir əhvalatı yada salmaq, danışmaq istəyirəm. Tamaşalarda həddindən çox yüklənməyimizə, yorğunluğumuza, doyunca yemədiyimizə (müharibə illəri idi) baxmayaraq hər dəfə «Koroğlu» tamaşası gedəndə tamaşanın quruluşçu rejissoru və teatrın bədii rəhbəri İ.Hidayətzadədən xahiş edirdik ki, üçüncü pərdədəki «Yallı»dan sonra bizə səhnədə qalmağa icazə versin, çünki Koroğlunun – Bülbülün ilk çıxışını görmək istəyirdik. Biz «Çənlibel» xoruna qoşulur və sevimli müğənnimizin at belində səhnəyə gəlişini sevinclə, heyranlıqla qarşılayırdıq. Bu, bizim üçün bir bayram idi!

Mən onu heç vaxt öz rolunu «ifa edən» görməmişdim, o həmişə öz qəhrəmanının həyatı ilə yaşayır, bizim hamımızı səmimiyyəti, temperamenti, güclü səsi, gözlərindəki gənclik şövqü ilə həvəsləndirirdi.

Bülbülün bir marağı da var idi – o, hər yerdə istedad axtarırdı. Gənclərin səsinə yorulmadan qulaq asırdı. İlk dəfə bu sözləri ondan eşitmişəm: «Ay qız, səndə istedad var, sən vokal təhsili almalısan».

Mən də oxumağa başladım. Əlbəttə, o vaxt heç ağlıma da gəlməzdi ki, çox keçmədən pərəstiş etdiyimiz o böyük Bülbülün tərəf-müqabili olacağam.

Bu, Azərbaycanın öz sərkərdə oğlunu – general Həzi Aslanovu son mənzilə yola saldığı gün oldu. Həmin gün Ü.Hacıbəyovun ölməz «Koroğlu» operasının tamaşası onun xatirəsinə həsr olunmuşdu. Bu tamaşada mən ilk dəfə səhnəyə Nigarın partiyasının ifaçısı kimi çıxırdım. Bülbüllə yanaşı oxumaq! Möcüzə, sehrli bir yuxu! Çox həyəcanlı idim.

Həyəcanımı təsvir edə bilmirəm. Lakin Bülbülün səhnəyə gəldiyi ilk dəqiqədən, mənə səmimi, mehriban müraciətindən sonra qorxu hissi keçib getdi. Onun şəfqətlə nurlanmış gözləri məni ruhlandırır və elə bil deyirdi: «Qorxma, Nigarın nəyə qadir olduğunu göstər».

Mənim dizlərim titrəyir, ürəyim bərk döyünürdü. Bu, çox çəkmədi. Ürəyim sakitləşdi, rahat nəfəs aldım, sevindim... İstəyirdim ki, Koroğlu kimi bir insanın xatirinə igidlik göstərim. Mən həqiqətin və sevdiyim xalq qəhrəmanının yolunda canımdan belə keçməyə hazır idim.

Teatrda «Koroğlu» operasının yazılışı yaxşı yadımdadır. Hamı çox həyəcanlı idi, təkcə Bülbül zarafat edir, ətrafdakıları ruhlandırırdı. Onunla işləmək çox asan, rahat və maraqlı idi. Bülbül ürəkdən oxuyur, biz isə, ovsunlanmış kimi onun şəlalə kimi çağlayan fövqəladə güclü səsinin sehrinə düşürdük...

Oxumaq – Bülbül həyatının mənası idi. Onun iş qabiliyyəti, dözümlülüyü insanı heyrətə gətirirdi. O, teatrdakı işindən, böyük pedaqoji fəaliyyətindən başqa konsert fəaliyyətinə də çox vaxt ayırırdı, neft mədənlərində fəhlələr, tarlalarda kolxozçular qarşısında çıxış edirdi. Həmişə də böyük, kiçik, fərqi yoxdur, bütün konsertlərdə eyni ilhamla səmimi-qəlbdən oxuyurdu. Xalq ona Bülbül adını nahaq verməmişdi.

***Tatyana BƏDİROVA,***
***respublikanın əməkdar artisti***

## *USTADIM, MƏNƏVİ ATAM*

Öz müəllimimi – professor Bülbülü ürəkdən sevir və ona dərin hörmət bəsləyirdim.

Bülbülün səsinə heyranlığım teatr texnikumunda oxuduğum vaxtlardan başlamışdı.

1947-ci il... Bülbül tamaşaçılar qarşısında tez-tez çıxış edir, həm də Azərbaycanın rayonlarına gedirdi. O, öz tamaşaçılarını məftun eləmişdi. Mən istər radioda, opera tamaşalarında, istərsə də filarmoniyadakı konsertlərində ona qulaq asmaq üçün hər imkandan istifadə edirdim.

Teatr texnikumunu təzəcə bitirmişdim. Məni Quba Dövlət Dram teatrına göndərmişdilər. Sevimli bəstəkarımız Fikrət Əmirov da o vaxtlar tələbə idi. O da Qubaya gəlmişdi – bizim teatra. Özünün «Gözün aydın» operettasını tarda bizə öyrədirdi. Mənim səsim onun xoşuna gəldi.

– Sənin gözəl səsin var. Mən səni ilk tamaşadan sonra aparacam Bülbülün yanına.

Elə də elədi. Gətirdi məni Bülbülün sinfinə.

Bülbül diqqətlə məni süzüb:

– Ay oğul, nə bilirsən? – deyə soruşdu.

– Fikrət Əmirovun «Gülüm»ünü. Başladım. «Aşiqəm, əmrini ver»...

– Hə, mən səni götürürəm öz sinfimə, – dedi.

– Axı mən Quba teatrında artistəm, – dedim.

Professor Mədəniyyət nazirliyinə zəng vurdu, tapşırdı ki, məni Quba teatrındakı işimdən azad etsinlər. Bu, 1948-ci ilin əhvalatıdır.

Professorun sinfində tələbə çox idi. Buna baxmayaraq, o, tələbələrin hər birini ayrı-ayrılıqda dinləyir, vokal sistemini ətraflı başa salırdı. Mən sakitcə oturub əziz müəllimimin



bütün dediklərini, göstərişlərini həvəslə dinləyirdim, bu da mənim gözlərimi klassikaya açdı. Başa düşdüm ki, klassik vokal təhsili çox çətindir. 1952-ci ildə mən Asəf Zeynallı adına Musiqi məktəbini bitirib, Azərbaycan Dövlət Konservatoriyasının vokal şöbəsinə daxil oldum. Bülbül məni öz sinfinə götürdü. Mən özümü dünyanın xoşbəxti sayırdım. Professor məşğələyə gündüz saat 3-də başlayırdı. Hər tələbənin öz məşğələ saatı var idi. Lakin tələbələrin hamısı eyni vaxtda gəlir və saatlarla onu dinləyirdi. Onun dərsləri maraqlı keçirdi. Bülbül hər yarımtonu ayrılıqda təhlil edir, hər şeyi ətraflı izah edirdi. O, səsi necə formalaşdırmağı, bütövləşdirib tamamlamağı, tədricən gücləndirib, sonra yavaş-yavaş zəiflədərək uzatmağı bizə çox dəqiqliklə başa salırdı. Kimsə səs gücləndirəndə, sürətləndirəndə xoşu gəlmirdi. O, tələbəni dayandırır, yenidən izah verir, notu necə götürməyi əyani surətdə göstərirdi. Professor deyirdi ki, səs dupduru bulaq suyu kimi axmalıdır, güc verilmədən, gərginlik olmadan. «Ürəklə oxumaq, yenə və yenə ürəklə oxumaq!» – bu, onun sənətkar devizi idi. O, bizə ariya, romans, mahnı oxutdururdu. Amma qabaqca bunları özü ifa edir, hər bir əsərin çalarlarını, xarakterini, ruhunu ustalıqla nümayiş etdirirdi. O, öz dərslərinə çox ciddi və tələbkarlıqla yanaşırdı. Bülbül yorulmaq bilmirdi. Həmişə işini nəticədən tam razı qalandan sonra bitirirdi. Professor dərslərinin hamısında özü var səsilə oxuyurdu.

O, tələbələrinə deyirdi ki, vokalçı möhkəm vokal-texniki əsasa yiyələnməlidir. O, yalnız bundan sonra öz hisslərinə münasib ifadə verə bilər. Maestro bizə öyrədirdi ki, zəngulə, kadensiya, passaj və qammaları texniki dərslər zamanı işləyib cilalamaq lazımdır.

Professorun dərs üsulu Azərbaycanın çoxəsrlik vokal sənətinin ən yaxşı cəhətləri ilə rus və ümumavropa üslubunun ən yaxşı cəhətlərinin sintezindən ibarət idi.

Bülbül Azərbaycan vokal sənəti nəzəriyyəsini və azər-

baycanlılara müğənniliyi öyrətmə təcrübəsini işləyib hazırlayır, Azərbaycan dilində tapşırıqlar tərtib edirdi. Bu tapşırıqlarda bir-birini əvəz edən sait səslərdən yaranan fonemlər üstünlük təşkil edirdi. Təbii ki, həmin saitlər yüksək vəziyyət yaradır və səs hissəsinin tamamlanmasına kömək edirdi. Azərbaycan dilində sait səslərin tam harmoniyasına malik sözlər çoxdur, bu da dilə xüsusi məlahət və ahəngdarlıq verir. Professor müxtəlif məşğələ və təlimlərin tətbiqilə ona nail olurdu ki, biz şagirdlər döş registrindən baş registrinə, baş registrindən isə döş registrinə asanlıqla keçirdik. O da registrləri vaxtında zəiflədir (yumşaldır), çarpazlaşdırır, keçid tonlarını möhkəmlətmək üçün aşağı 8-9 tonların əsaslı təməlini qoyurdu. Bu, yuxarı üçyarım tonu möhkəmlətməyə imkan verirdi. Repertuara gəlincə, professor həm Moskvadan göndərilən proqrama riayət edir, həm də özünün ali məktəb üçün hazırladığı, çətinlik dərəcəsi üzrə və səslərə görə – Azərbaycan bəstəkarlarının əsərlərindən ibarət əsərləri və vəsaiti də proqrama əlavə edirdi. Diafraqmanı nəfəsin əsas komponenti sayırdı, səsin lazımi vəziyyətə düşməsi üçün çətinlik dərəcəsi üzrə gündəlik təlim məşqləri yolu ilə düzgün nəfəsi inkişaf etdirirdi.

O, ifada milli koloriti və dilin fonetik xüsusiyyətlərini saxlamaqla, bəstəkarın əsərindəki ideyanı açmağı ifaçı müğənnilərin və pedaqoqun əsas vəzifəsi hesab edirdi. Səsin təsiri və ifanı gözəlləşdirən hər cür bəzək isə əsərin ideyasının tamaşaçı tərəfindən yaxşı qavranılmasına xidmət etməlidir. O, Azərbaycan dilinin fonetikasını öyrənmək məsələsinə böyük əhəmiyyət verirdi.

Azərbaycan dilində 9 sait var, professor bütün bu doqquz sait fonemi ifa məşğələlərinə daxil etmişdi. O bizə həmişə xatırladırdı ki, müğənni özünün bütün diapazonu boyu səsinin zil hissəsini, səsinin ahəngdarlığını – biz buna yüksək vəziyyət duyumu deyirik – öz musiqi duyumu ilə nəzarətdə



saxlamağı bacarmalıdır; vokal sənəti ustaları üçün bunlar çox vacib və zəruridir .

Professor düzgün nəfəs tələb edirdi. O deyirdi: «Nəfəs səsin hərəkətverici qüvvəsidir, bu əsas üzərində oxumağa çalışın».

O, diafraqma nəfəsini nəzərdə tuturdu. Vokalçı tələbə öz fermatosuna arxayın olmayanda bu, professorun heç xoşuna gəlmirdi, onda o, dinməzcə şəhadət barmağını qaldırır və tələbəni səssiz-səmirsiz başa salırdı ki, səsin hissəsini zilə qaldırmalıdır. Lakin yüksək notu lazımınca zildə saxlamaq hər adamın hünəri deyildi. Bəzi vokalçılar zilə qalxanda boğazlarına güc verir, süni titrəyiş yaradırdılar. Bülbül bunun qəti əleyhinə idi. Professor da, onun musiqini kamil qavrama qabiliyyəti olan konsertmeysteri də tələbələrin musiqi duyumu təmiz, mükəmməl ifası üçün çalışırdılar. Əgər tələbə çalışqan, zəkalı olurdusa, professorun bütün tələblərini yerinə yetirirdi. Təvazökarlıqdan uzaq olsa da deyim ki, çalışqan tələbələrdən biri də mən sayılırdım. Professor mənə hörmət edir, hazırlığımı həmişə qiymətləndirirdi. Mən onu işarədən başa düşürdüm. Çalışırdım onun dediyinə dəqiqliklə əməl edim. Hər şeyi dəqiq yerinə yetirəndə mənə deyirdi: «Bunu ömürlük möhkəm-möhkəm yadında saxla. Tələbələrimdən Kamal Kərimov və sən vokalda mənim davamçılarım olacaqsınız». Vokalın peyğəmbəri kimi məni öz vokal məktəbinin davamçısı bilirdi.

Professorun hələ sağlığında 1957-ci ildə Konservatoriyanı bitirəndən sonra Asəf Zeynallı adına musiqi məktəbinin vokal sinfində dərs deməyə başladım. Mənim sinfimdə oxuyanlar məktəbi bitirəndən sonra yalnız professor Bülbülün sinfinə daxil olurdular. Onlar Bülbül vokal məktəbinin üsulunu davam etdirmək istəyirdilər.

O, hər dərsin qədrini bilir, heç vaxt, hətta nasaz olanda belə dərs ötürmürdü. Elə vaxtlarda tələbələrilə evdə məşğul olurdu. Onun evində dərs keçdiyim belə günlərin birində çox

maraqlı bir telefon zənginin şahidi oldum. Yaz vaxtı idi, məşğul olanların axırıncısı mən idim. Telefon zəng çaldı. Professor dəstəyi qaldırdı və o dəqiqə də ucadan: «Ah, əziz Səməd! Nə yaxşı zəng vurdun!» – dedi. Professor ani olaraq susdu, sonra dedi: «Yaxşı, eşidirəm, danış» O, Səməd Vurğunu xeyli dinlədi. Görünür, Səməd Vurğun nədənsə şikayətlənirdi, Bülbül də onu sakitləşdirirdi: «Əzizim, sakit ol, əsəbiləşmə, xırda şeylərə fikir vermə, axı, sən Səməd Vurğunsan. Ondansa bir havaya bax, gör necə günəşli, aydın yaz havasıdır. Geyin, çıx dəniz qırağına, nasaz olsam da, yarım saatdan sonra mən də ora gələrəm. İndi isə qulaq as». Professor telefon dəstəyinə «Yenə yaz gəlir» aşıq mahnısını oxumağa başladı. Mahnı qurtarandan sonra o, yenə Səməd Vurğuna qulaq asır və gülümsəyirdi. Görünür, Səməd Vurğun mahnıya və professorun səmimiyyətinə, mehribanlığına görə minnətdarlıq edirdi.

Professor cavabında dedi: «Əzizim, lazım deyil, axı, biz səninlə dostuq!»

Mən çoxdan bilirdim ki, onlar köhnə dostdurlar. Bu telefon danışığı da onların səmimi münasibətinə dəlalət edirdi. Professor Bülbül və xalq şairi Səməd Vurğun kimi insanlar yüz ildə bir dünyaya gəlir.

Mən çox xoşbəxtəm ki, görkəmli müğənni, professor Bülbülün tələbəsi olmuşam və xalq şairi Səməd Vurğunu şəxsən tanımışam. Böyük şair mənim oxumağımı xoşlayırdı. Mənə hətta onun evində oxumaq xoşbəxtliyi də nəsib olub. Hər dəfə böyük şairlə rastlaşanda ona baş əyirdim, o isə gülümsünüb, mənə deyirdi: «Oxu, Firidun, tez-tez oxu, sən yaxşı oxuyursan! Öz müəllimindən səylə öyrən, onu dərk elə, sən yaxşı əllərdəsən». Həqiqətən, sadə fəhlədən tutmuş ən istedadlı adamlara kimi hamı professor Bülbülü sevir, ona hörmət bəsləyir, pərəstiş edirdi.

Mən professor Bülbülün evində SSRİ xalq artisti, Dövlət mükafatı laureatı, Sosialist Əməyi Qəhrəmanı Rəşid Behbudovu tez-tez görürdüm. Dünya şöhrəti qazandığına, böyük istedadına, təcrübəsinə və qabiliyyətinə baxmayaraq, Rəşid vokal barədə məsləhət almaq üçün professor Bülbülə tez-tez müraciət edirdi.



Mən Bülbüldən təkcə sənət dərsi yox, həm də həyat dərsi almışam. Mənə doğma münasibəti vardı. Səsimə böyük maraq göstərirdi. O ki qaldı həyati məsələlərə, bu sahədə də öz məsləhətlərini, tövsiyələrini əsirgəmirdi.

Nə vaxtsa səhv bir işim olanda, hər hansı bir anlaşılmazlıq yarananda qolumdan tutur, bir ata kimi mənə yol göstərirdi. İstəyirdi ki, həyatda heç vaxt büdrəməyim.

Yaxşı oxumaq, dinləyicilərin, tamaşaçıların hörmətini qazanmaq üçün nələrin vacib olduğunu, oxuyan zaman müğənninin özünü necə aparmasını, bir sözlə hər şeyi bizə səbrlə, təmkinlə öyrədirdi. Hətta bizə məsləhət verib deyirdi ki, oxuyub qurtaran kimi birdən-birə soyuq havaya çıxmaq olmaz. Çünki oxuyan zaman nəfəs qızır və birdən-birə soyuq havaya çıxmaq səsə çox pis təsir göstərir. Musiqi ilə, səslə, oxumaqla bağlı bütün incəlikləri bizə həvəslə öyrədirdi.

Bütün bu insani keyfiyyətlərinə görə ona mənəvi ata deyir, özümü onun övladı hesab edirdim.

...Soyuq qış günlərindən biri idi. Kasıb ailədən olduğumdan istədiyimi alıb geyinə bilmirdim. Konservatoriyaya dərsə gələndə bəstəkar Süleyman Ələsgərov üst-başımı süzüb:

– Ə, sən bu soyuğa necə dözürsən? – dedi. – Oxuyan adam da qışda pencəklə gəzər?

Tutulsam da özümü sındırmayıb:

– Palto sifariş vermişəm, – dedim. – Sabah gedib alacağam.

Amma əslində nə palto sifariş vermişdim, nə də onu almağa pulum var idi. Canımı dişimə tutub Bülbülə müraciət etdim:

– Professor, – dedim, – havalar çox soyuq keçir. Bir palto sifariş vermişəm. Amma ...

Nə demək istədiyimi elə ilk sözümdən aldı:

– Hə, dayan, bu saat, – deyə, keçdi yazı stolunun arxasına.

Cibindən bloknot çıxarıb bir vərəq cırdı. Sonra nəsə yazıb kağızı mənə verdi ki, Adilə xanıma çatdırım.

Sinifdən çıxanda kağızı oxudum. Gördüm ki, yazıb: «Ada, Firiduna 750 manat pul ver, qoy gedib paltosunu alsın...».

Ədilə xanım məni mehribanlıqla qarşıladı. Verdiyim kağıza baxdı, gördü ki, Bülbülün xəttidir. Getdi, tez də qayıtdı. Mənə bir zərf uzatdı.

Zərfi sevincək alıb, tez qaçdım mağazaya. Bir palto, üstəlik də bir şərf aldım. Əynimdə təzə palto, boynumda təzə şərf sinfə gəldim.

– Hə, bu başqa məsələ, – sevinclə dedi Bülbül.

– Professor, – dedim, – çox sağ olun! İmkanım olan kimi qaytaracağam.

– Oğul, – dedi, – heç bir şey lazım deyil. Mən sənə bu paltonu hədiyyə elədim.

Bülbülün misli-bərabəri yox idi. Çətinə, dara düşənlərə əl tutmağı özünə borc bilirdi.

Əgər milyonçu adamlar kimi, məsələn, elə Tağıyev kimi var-dövlət sahibi olsaydı, hamısını xalqına sərf edərdi, kasıbkusuba əl tutardı.

Bax, o, belə əliaçıq, ürəyitəmiz, mehriban və istiqanlı bir adam idi!

Dediyim kimi, xəstələnəndə, dərsə gələ bilməyəndə bizi evə çağırtdırırdı. Otağın divarına uzunsov güzgü vurulmuşdu. Həmin güzgü piano ilə üzbəüz idi. Otaqla üzbəüzdə balaca bir dəhliz vardı. Dəhlizin otağa açılan yerində hündür bir trümo da (bədənnüma güzgü) qoyulmuşdu. Məşğələ zamanı



Bülbül zalda oturar, bir-birini əks edən güzgülər vasitəsilə oxuyanı xeyli aralıdan dinləyərdi.

O, divarın o üzündə otursa da, həmin güzgülərin köməyi ilə oxuyanın üzünü, hərəkətlərini də görürdü. Məşğələlərimiz beləcə səmərəli, çox məzmunlu keçirdi. Biz isə Bülbülün müşahidəsi altında müxtəlif ariyalar və romanslar oxuyurduq. O da kənardan bizə baxır, oradan öz sözünü deyir, yeri gəldikcə məsləhətlərini bildirirdi.

Yeri gəlmişkən deyim ki, bizim məşğul olduğumuz zalda – pianonun qarşısında uzun bir stol qoyulmuşdu. Stolun üstündə nələr yox idi! Bir qayda olaraq həmin stolda paxlava, şorqoğalı, digər şirniyyat, üzüm və əncir qurusu, ləbləbikişmiş və başqa löyün-löyün nemətlər düzülərdi. Bayram günlərində stol daha zəngin olurdu. Məqsəd də bu idi ki, evə bir adam gələndə, daha əl-ayağa düşüb, hazırlıq görməyə ehtiyac qalmasın.

Mən hələ bu evdən bir adamın ac yola salındığını görməmişəm. Bülbül çox qonaqpərvər, süfrəsi də ürəyi kimi açıq adam idi.

O, çox vətənpərvər, xalqını, millətini sevən adam idi. Bunu tələbələrinə də aşılayırdı.

Bir gün biz – bütün tələbələr oturmuşduq sinifdə, dərs keçirdik. Ustad gözləmədiyimiz halda birdən qayıtdı ki:

– Uşaqlar, Tretyakov kim olub?

Öz sualına dərhal özü də cavab verdi:

– Tretyakov rəssam olub, milliyyətcə rusdur. Çəkdiyi rəsmləri həm qalereyada nümayiş etdirib, həm də surətlərini çıxartdırıb satıb. Bu yolla pul qazanırmış. Xalqı ona böyük ehtiram bəsləyir, hər il ad gününü qeyd edir. Adını uca tutur...

Bu sözlərini deyib qurtaran kimi yenə də bizə üz tutub soruşdu:

– Bəs Zeynalabdin Tağıyev kim olub?

Biz yenə də dinmədik, təəccüblə bir-birimizin üzünə

baxdıq. Düzü, bu qəfil suallar bizi təəccübləndirmişdi: «Axı musiqi dərsi hara, belə-belə suallar hara?»

Bülbül Tağıyevin adını çəkəndə, düzü, bir qədər diksinən, xoflanan kimi olduq. Ürəyimizdə dedik: «Bu nə sualdır verir bizə?». Axı, Mircəfər Bağırovun qan-qan dediyi, asıbkəsdiyi bir vaxtda kimin həddi nə idi ki, belə sözləri dilinə gətirəydi?

Buna görə daxili bir həyəcan keçirirdik. Bülbül yenə susduğumuzu görüb sual dolu nəzərlərlə bir daha bizi süzdü.

– Niyə bilmirsiniz? – dedi.

O, yana-yana verdiyi sualın cavabını özü izah etməyə başladı. – O, bütün millətin atası olub. Amma Mərkəzi Komitədə bir adam tapılmadı ki, Tağıyev kimi xeyirxah bir adamın adını təmizə çıxarsın. Sovet hökuməti onun yaxşılığını itirib, adını düşmən qoyub. Onu biz qaldırmalıyıq.

Onu tutmayıblar, o, öz əcəli ilə ölüb. Amma onun adını çəkmək yasaq olub. Bu, insafsızlıqdır. Axı, o öz var-dövlətini xalqının, millətinin dirçəlməsinə, maariflənməsinə sərf edib. Neçə-neçə azərbaycanlı balası onun himayəsi ilə savad alıb, elm öyrənib. Axı, bunun harası düşməndi?...

Birdən tələbələrdən kimsə həyəcanla:

– Ay müəllim, – dedi, – qorxmursunuz, belə sözlər danışırsınız? Birdən gedib yuxarıların qulağına çatar...

Bülbül acı-acı gülümsündü:

– Qoy desinlər, oğul, qoy desinlər. Mən özümü yaxşı tanıyıram...

Bülbül mərd, cəsarətli, həqiqəti deməyi bacaran, son dərəcə vətənpərvər bir insan idi.

Ot kökü üstə bitər, deyiblər. Oğlu Polad da Moskvada – SSRİ Ali Sovetinin Sessiyasında Ermənistan-Azərbaycan münaqişəsi müzakirə olunarkən erməniprəst mövqe tutan Mixail Qorbaçova çox kəsərli, sərrast sual verdi, həm də ona irad tutdu ki, siz yaxşı eləmirsiniz, siz ermənilərin tərəfini saxlayırsınız. Siz belə mövqedə durmamalısınız...



Qorbaçov çaşbaş qaldı, bilmədi nə cavab versin... Bu sözləri demək böyük risk və cəsarət tələb edirdi...

...Dahi Bülbül xalqımız üçün çox iş görüb. O, Azərbaycan musiqisində Avropa vokal sənətinin bünövrəsini qoyub. Mən deyərdim ki, təkcə bu xidmətinə görə, yəni Azərbaycan musiqisində vokalın özülünü qoyduğuna görə Bülbülə qızıldan heykəl qoymaq lazımdır. Çünki Azərbaycanda vokal sənətini yüksəklərə qaldıran məhz onun məktəbidir.

...Moskvada «Koroğlu» operası sözə, təsvirə gəlməyən bir maraqla qarşılandı. Bülbül çox böyük məharətlə oynadı.

«Koroğlu» tamaşası onun təkrarolunmaz sənətkarlığını, böyük istedada və son dərəcə yüksək səs tembrinə malik olduğunu bir daha Moskva tamaşaçılarına nümayiş etdirdi.

Tarixdə Bülbülün Koroğlusu bir dənədir, Azərbaycan incəsənətində qızıl səhifədir.

Bülbülün güclü, məlahətli səsinin sirri onda idi ki, o, diafraqma ilə nəfəs alırdı. Ona görə də nəfəsi çox mükəmməl idi. O, pedaqoq kimi əvəzsiz idi. O, İtaliya məktəbini Azərbaycanda uşaqlara, o cümlədən də mənə öyrədən yeganə müəllim idi. Sinə səsi ilə beyin səsinin birləşməsini ondan başqa heç kim bilmirdi. Xoşbəxtəm ki, bunu mənə də öyrədib. İndi mən də o böyük sənətkarın həmin yolunu tələbələrimə öyrədirəm.

– Beyin səsi müvəqqəti səsdir, – deyirdi. – Yaşa dolandan sonra itib gedir. Beyin səsi sinə səsi ilə birləşəndə isə itmir...

Bu, onun kəşfi idi. Bu kəşfi ilə o, gələcək müğənnilərin yetişməsi üçün bünövrə qoydu.

Bülbül böyük düha, əvəzsiz sənətkar idi. belə şəxsiyyətlər yüz ildən bir doğulurlar. Onun ifa etdiyi mahnı və romansları, ariyaları mən də oxumuşam, bir çox başqaları da oxuyub, bizdən sonra da oxuyacaqlar. Amma heç biri Bülbülün yerini verməyəcək. Bülbülün ifası ancaq və ancaq özünə məxsus idi. Mən buna Allah vergisi deyərdim.

O, yaradıcılığı vokal sənətinin zirvəsində olduğu bir vaxtda həyatdan getdi. Şair Sergey Vasilyevin dediyi kimi, vokal sənətinin kosmik yüksəkliyində olduğu vaxtda. Professor əsl italyan məktəbi keçmişdi. İtalyan vokal məktəbi ilə klassik muğam məktəbinin sintezində Azərbaycan vokalı üçün yeni vokal çalarları tapırdı.

Bülbül ilə bağlı ayları, illəri ömrümün ən xoşbəxt çağları sayır, bu dahi sənətkarı həmişə böyük hörmət və ehtiramla xatırlayıram…

***Firidun MEHDİYEV,***
***respublikanın əməkdar artisti***
***1998-ci il***



## GƏNCLİYİMİN BÜLBÜLÜ

Böyük müğənnimiz Bülbülün məlahətli səsi, şirin və nikbin ifası qəlbimdə yuva salıb. O, mənim gənclik sevgimin dilmancı, ömür yollarımda ən səmimi müsahibim, uzaq-yaxın səfərlərdə sevinc və kədərimin sirdaşı, qürurlu anlarımda könlümün zirvələri dolanan sədası olub.

«Mən onun səsini-mahnısını ilk dəfə nə zaman dinlədim?» – deyə düşündükdə xəyalım əllinci ilin bir yaz gününə qayıdır; gəncliyimin yenicə tumurcuqlanan çağları, evə-eşiyə sığışmayan qaynar həvəsimlə üz-üzə dayanıram – çiçəklərin arasında çiçəklərdən daha gözəl olan qonşu qızının bütün varlığımı gözünə yığdığı bir günə. Səhərim o gözlərlə açılır, axşamım o gözlərlə düşürdü. Tez-tez onların evinə gedirdim. O ailə məni kitab həvəskarı, yaxşı oxuyan bir gənc kimi tanıyırdı. Qonşu qızının qardaşı ilə oturub, kitab-dəftərə baxar, çay içərdik.

Bizim qarşımıza çay gətirən o qızın ayağını yerə necə basması, kirpiyinin kölgəsi belə nəzərimdən qaçmırdı. O, mənim baxışlarımdan gözlərini yayındırırdı…

Radioda nə haqdasa söhbət gedirdi. Birdən Bülbülün səsi otağa yayıldı. Palaz üstə oturub yun didən anası oğluna radionun səsini qaldırmağı işarə etdi. Təmiz dağ yerinin səssizliyində Bülbülün səsi qəlbimizdən keçib sanki iliklərimizə süzülürdü. Yun didən xalanın əlləri sanki birdən-birə donmuş kimi dizinin üstündə qalmış, gözləri radioya dikilmişdi.

*«Oxlayır sinəmi, alır əqlimi*
*Oğrun-oğrun baxan ala gözlərin…».*

«Göz var ki, aşiqin ilk dəvasıdır, Könül hıçqırığı, təmənnasıdır. Eşqin əlçatmayan bir dünyasıdır, Qoy gəlib canımı ala gözlərin...».

Mahnı ürəyimin deyə bilmədiklərini deyirdi. Qonşu qızı mahnı qurtaran kimi gülümsünüb üzümə baxdı. Elə bil ki, mənim ürəyimin bütün sözlərinə bu oğrun təbəssümlə cavab verdi. Beləcə həmin gündən Bülbül səsinin məlahəti, sehri ürəyimdə yuva qurdu. O, mənim ilk sevgimin söz elçisi idi. Böyük Bülbüllə ilk tanışlığım beləcə başlandı...

İki ildən sonra mən artıq Bakıda idim. Böyük Bülbülün yaşadığı evin yaxınlığındakı ali məktəbdə oxuyurdum – Azərbaycan Dövlət Pedaqoji Universitetində. Günlərin birində fakültəmizin tələbələri sevimli müğənnini Universitetimizə qonaq dəvət etdi. Biz bu görüşü böyük bir sevinc və həyəcanla gözləyirdik. Dahi sənətkarın keçdiyi sənət yolundan, sənət dünyasından geniş danışıldı. Onun barəsində hərarətli sözlər deyildi, sənətkara maraqlı suallar axını başladı...

Həmin gecənin təşkilatçılarından və ön cərgədə oturanlardan biri də mən idim. Tələbə dostlarımdan Musa Həsənov, Sərdar Əsədov, Həsən Mirzəyev, Ənvər Hacıyev dekanımız Sədi Əfəndiyevin göstərişi ilə zalı gül-çiçəklə bəzəmişdilər. Biz bu xoş görüşün ömrünü uzatmaq istəyirdik. Bülbülün söhbəti də mahnıları kimi mənalı və hərarətli idi.

Böyük sənətkar:

– İgid oğullar, ceyran gözlü qızlar! – deyə zala müraciət etdi. – Xalqımızı, onun qəhrəmanlarını sevin! Onlara layiq olun; fəxr edin ki, siz Koroğlu yurdunun övladlarısınız!...

Söhbətin dalınca düzüm-düzüm xalq mahnıları qanad açdı.

O, hər bir mahnını oxuyub bitirəndə alqış daşqını zalın divarlarını titrədirdi. Ucaboylu, üzügülər müğənni bir neçə dəfə təzim edib, tələbələri sakit etməyə çalışırdı. Lakin biz böyük müğənnini əllərimiz yoruluncaya qədər alqışlayırdıq...

İllər keçdi. Bülbülün məhəbbəti ürəyimdə daha dərin



kök atdı. Bu məhəbbət hərarətli misralara çevrildi. 1966-cı ildə sevimli şairimiz Bəxtiyar Vahabzadənin redaktorluğu ilə çap edilmiş «Bir eşqin şimşəyi» kitabımdakı şeirimin biri bu misralarla başlayırdı:

*Üzeyirin «Sənsiz»i,*
*«Sevgili canan»ı –*
*Bülbülün nəfəsi*
*Bir şəfa dərmanı...*

Məktəblilərlə bir görüşümdə uşaqlar sual verdilər:

– Böyük müğənni Bülbüllə görüşmüsünüzmü?

Mən:

– Görüşmüşəm, – deyə iftixarla cavab verdim.

Onlara böyük müğənniyə olan sonsuz məhəbbətimdən danışdım. Həmin söhbətdən sonra uşaqlar üçün bu şeirimi yazdım:

*Açılıb gülür –*
*Gül güldən gözəl,*
*Oxuyur Bülbül*
*Bülbüldən gözəl.*

*Bülbül cəh-cəhi*
*Vardı Bülbüldə,*
*Bülbül adıyla*
*Tanındı eldə.*

*«Sənsiz»i bizi*
*Heyrətə salır,*
*Nənəmin əli*
*Üzündə qalır.*

*Deyir: «Bülbülə*
*Mən gül vermişəm,*

*Şirin səsinə*
*Könül vermişəm...».*

Bizim evdə, ailədə də həmişə Bülbül mahnılarına, Bülbül adına böyük hörmət, tükənməz sevgi olub.

Bülbül adı Azərbaycan, onun sənətsevər övladları üçün əbədi yaşayacaq mənəvi ehtiyacdır.

Son zamanlarda, bəzən ekranlarda, yaxud sadəcə konsert salonlarında, müxtəlif ifaçıları dinləyən ziyalıların dilindən ürəklə deyilən belə bir söz qopur: «Hanı Bülbül ifası – sənət ucalığı?!». «Yenə doğul, Bülbülüm!» şeirimi on beş il öncə yazmışam. Əziz və unudulmaz, böyük sevgi və ucalıq timsalı Bülbülün sənəti yazdırdı bu şeiri. Onun ay işığı kimi dağlarıma, düzlərimə yayılan, məhəbbət yağışı kimi torpaqlarıma yağan, yaşıl-yaşıl duyğulara həyat verən əbədiyaşar səsi yazdırdı bu şeiri. «Sən yenə doğulmalısan, Bülbülüm!» yazdım.

İllər keçəcək, nəsillər dəyişəcək, Bülbülün səsi yenə zirvələrdən gələcək!

***İlyas TAPDIQ***
***10.04.1999***



## BÜLBÜL KUTAİSİDƏ

Bülbülün adı mənə uşaqlıqdan tanış idi. Onun barəsində atamdan eşitmişdim. O, danışırdı ki, Bülbül Gürcüstanı, onun təbiətini, musiqisini çox sevir, gürcü ifa tərzi, xalq musiqisi, musiqi alətləri, folkloru onu xüsusilə maraqlandırır.

Gürcüstanda Bülbülün çoxlu dostları var idi. Atam deyirdi ki, Bülbülün ömür-gün yoldaşı Ada xanım Tbilisidəndir, anası gürcü qızı Vəzirişvili Ketevanna Konstantinovnadır, atası isə azərbaycanlıdır.

Bülbül ildə bir neçə dəfə Gürcüstana gəlir. Burda onu çox sevirlər. Onun konsertlərində zal həmişə dolu olur. Biletlər bir göz qırpımında satılır.

Tbilisi Opera və Balet Teatrının tarixində onun giriş qapısını iki dəfə sındırıblar. Birinci dəfə inqilabdan qabaq – italyan müğənnisinin konserti zamanı, ikinci dəfə isə Bülbülün konserti olanda.

Bilet ala bilməyənlər hücum edib qapını yerindən çıxarmış, zala girmişdilər.

Atam Bülbüllə görüşlərindən danışmağı çox xoşlayırdı.

Sonuncu dəfə onunla Tbilisinin 1500 illik bayramında – Bülbül hökumət nümayəndə heyətinin tərkibində Tbilisiyə gələndə görüşmüşdü.

Atam qədim musiqinin böyük həvəskarı idi – Gürcüstanda buna «Köhnə Tbilisi» musiqisi deyirlər. Muğamı da başa düşürdü. Hətta özü də oxuyur, dəfdə də çalırdı. Mən də musiqiyə həvəs göstərirdim, yavaş-yavaş dəfdə, akkordeonda, salamuridə, tütəkdə çalmağı öyrəndim. «Köhnə Tbilisi» musiqisi yazılmış valları həvəslə toplamağa başladım.

Bülbül məndə olan çoxlu vallar vasitəsilə qiyabi müəllimimə çevrildi. Lakin heç xəyalıma da gəlməzdi ki, nə vaxtsa onunla rastlaşacağam. Bu görüş qəfildən, heç gözlənilmədən, 1952-ci ilin yayında Kutaisidə, Baqrat məbədinin yanında, şair B.Qabaşvilinin (Besiki) keçmiş evində – ilk gürcü kinorejissoru Vasili Amaşukelinin ailəsində oldu. Vasilinin o vaxt Tbilisidə yaşayan qardaşı Mamuka Bülbülün dostu idi. Buna görə Sxaltuboda istirahətdə olan Bülbül dostunun qardaşına baş çəkməyə gəlmişdi.

Mən uşaqlarla istidən qorunmaq üçün dağa qalxıb, bu tarixi evin həyətindəki qoz ağacının altında bir az dincəlmək, həm də tütək çalmaq istəyirdim. Amaşukelinin evinə yaxınlaşanda darvazanın qabağında qəhvəyi rəngli «Pobeda» maşını gördük. Sonradan məlum oldu ki, bu, Bülbülün maşını imiş.

Həyətdə heç kim yox idi. Birdən qarğıdalı sahəsindən ev sahibinin çıxdığını gördük. Məni görən kimi ucadan dedi: «Hə, salam! Buxuti! Mən indi səni elə bir adamla tanış edəcəyəm ki, bu tanışlığa çox sevinəcəksən».

Onun arxasınca gələn kişini görəndə də heç nə başa düşmədim. Həmin adamın yanında iki qadın var idi. Onlardan biri Bülbülün ömür-gün yoldaşı Ada xanım idi. Demə, onlar bağı gəzirlərmiş.

Qarşımdakı canlı, əfsanəvi Bülbül olduğunu biləndə necə hisslər keçirdiyimi sözlə ifadə edə bilmirəm!... Təbii ki, məndə Bülbülün səsini eşitmək arzusu oyandı. Ancaq necə? Məlum oldu ki, o gürcü dilini bilmir. Mən də nə azərbaycanca, nə də rusca danışa bilirdim, hərçənd təhsilimi Moskvada davam etdirmək istəyirdim.

Tərcüməçi vasitəsilə danışmalı olduq. Bu işi ev sahibi üzərinə götürdü. Biz Bülbülün canlı səsini dinləməyi çox arzulayırdıq. Biz, cavan uşaqlar Bülbülü nə ilə heyrətləndirib, onu oxumağa məcbur edə bilərdik?



Əgər ondan elə-belə, bizim üçün oxumasını xahiş etsəydik, təbii ki, heç nə alınmayacaqdı. Bizim bircə şansımız vardı: Bülbülü necə deyərlər, öz ansamblımızın iştirakçısına çevirmək! Buna görə Quram Tevdoradzedən xahiş elədim ki, kitelinin altında kəmərinə keçirdiyi tütəkləri çıxarsın. Bunu görən Bülbül təəccüblə: «Tütək!» – dedi və ikiqapaqlı, bas səsli tütəyi alıb diqqətlə baxıb, sonra soruşdu: «Qapaqlar nə üçündür?»

Mən tərcüməçi vasitəsilə qapaqlı alətin nə məqsədlə düzəldildiyini izah etdim. Bundan sonra Bülbül həm əli ilə göstərdi, həm də «dəf» sözünü işlətdi. O vaxt mən hələ bilmirdim ki, Bülbül öz fəaliyyətinə dəflə başlayıb və bu alətdə ustalıqla çalır. Bizdə dəf yox idi. O, xahiş etdi ki, biz nəsə bir şey çalaq. Mən o vaxt Gürcüstanda məşhur olan «Sürəyya» mahnısını seçdim.

Mahnının müqəddiməsi səslənən kimi Bülbül ayağa durub oxumağa başladı. Güclü, misli-bərabəri olmayan bir səs! Mənə elə gəldi ki, bu səsin təsirilə ətrafda hər şey hərəkətə gəldi. O, xeyli oxudu. İndi yadımda deyil ki, hansı havaları çaldıq. Ancaq biz nə qədər çaldıqsa, o da o qədər oxudu – düz axşam düşənə kimi. Özü də çox ilhamla, ürəkdən oxuyurdu.

Mənə elə gəldi ki, onun oxumağı yalnız bizə – ətrafdakılara deyil, özünə də zövq verir.

Beləcə, musiqinin köməyilə dil baryerini keçdik.

Təbii ki, biz Bülbüldən ayrılmaq istəmirdik. Hiss olunurdu ki, o da getməyə tələsmir. O, mənimlə maraqlandı. Dağ-mədən texnikumunu qurtardığımı, Moskva Dağ-Mədən İnstitutunda təhsilimi davam etdirmək istəyində olduğumu bildirdim. Məsləhət gördü ki, dağ-mədən işindən əl çəkib, musiqi ilə ciddi məşğul olum. Dedi ki, səndən yaxşı musiqiçi çıxacaq.

O unudulmaz gündən sonra mən Moskva Dağ-Mədən İnstitutunu bitirdim, şaxtada işlədim, aspiranturanı qurtardım, namizədlik dissertasiyası müdafiə etdim, doktorluq dissertasiyası yazdım, dağ-mədən işlərinə aid 50-dən artıq məqalə və monoqrafiya çap etdirdim. İndi 15 kəşfin, o cümlədən musiqi alətləri üzrə üç kəşfin (müxtəlif registrli tütək alətlərinin, dolinin yeni quruluşunun) müəllifiyəm. Başqa işlərim də olub. belə ki, 25 çap vərəqi həcmində nəfəs alətlərinin tarixi üzrə monoqrafiya yazmışam (muğamın və tütəyin mənşəyinə qədər gedib çıxmışam). Özüm də Moskvada yaşayıram.

...Biz evin ikinci mərtəbəsinin eyvanında idik. Birdən ev sahibi Vasili mənə dedi ki, aşağı bax.

Mən arxası həyətə tərəf oturmuşdum, aşağıda nələr olduğundan xəbərim yox idi. Üzümü döndərəndə hündür daş hasar üstündən uzanmış adam başlarını gördüm. Həyətin ətrafına nə qədər adam yığışmışdı. Camaatı aldatmaq mümkün deyildi. Adamlar oxuyanın kim olduğunu bilmirdilər, ancaq bir şeyi bilirdilər ki, burada əsl bülbül oxuyur.

Qaş qaraldı. Ayrılıq zamanı çatdı. Biz Bülbülü musiqi ilə yola salırdıq. O, darvazaya sarı gedərək, əllərini yuxarı qaldırıb bizimlə vidalaşırdı.

Ertəsi gün bu görüşün sədası Kutaisinin bütün xalq musiqiçilərinə, eləcə də şəhər camaatına çatdı. Sonra isə Tbilisinin xalq musiqiçiləri bundan xəbər tutdular. Biz bu görüşü indiyə kimi xatırlayırıq. Bu yaxınlarda Moskvanın Arbat küçəsində «Mziuri» gürcü evinin açılışında tbilisili tütəkçalan Zaur Merebaşvili o görüşü xatırlayıb:

– Böyük müğənni ilə görüşümüz yadındadır? – dedi.

Mən indi, Bülbülün o zamankı yaşında olduğum bir vaxtda başa düşürəm ki, Bülbül biz cavan uşaqları əllərində tütək görəndə nə hisslər keçirirmiş. Xalq arasından çıxmış bu



sənətkar xalq musiqisini, folkloru çox sevirdi, xalq musiqi alətlərinin taleyi üçün narahatlıq keçirirdi. Çünki Böyük Vətən Müharibəsindən sonra Avropa musiqi alətləri bu alətləri sıxışdırırdı. Birdən bu tütəkləri görməsi onu necə də sevindirmişdi! Bir-birimizin dilini bilməsək də, tərcüməçi vasitəsilə ünsiyyət yaratsaq da, bizim ifaçılıq ustalığımız kamil olmasa da, ən əsası o idi ki, bizi xalq musiqisinə, musiqi alətlərinə, qədim Şərq musiqi mədəniyyətinə ümumi sevgi birləşdirirdi.

Bülbül öz səmimiyyəti, sadəliyi, mehribanlığı ilə bizdə ilk dəqiqədən özünə rəğbət hissi oyatmışdı. O bizim bəsit ansamblımıza qoşulmağı nəinki özünə sığışdırdı, əksinə, hətta, istədi ki, biz sıxılmadan bacardığımız kimi çalaq.

Ona görə də bizə bircə irad da tutmadı. Yəqin ki, çalğımızın pozulacağından ehtiyat edirdi. Əlbəttə, Bülbül kimi ciddi opponent, musiqişünas, böyük təcrübəsi olan pedaqoq, professor bizim zəif cəhətlərimizi görməyə bilməzdi.

Ən təcrübəlisi mən idim, bir neçə il idi ki, çalırdım. Mənim yaşıdım Cumberi Baqaturiya cəmi-cümlətanı bir neçə melodiya çala bilirdi. Aramızda ən cavanı Quram Tevtoradze idi. O, bu aləti əlinə bir neçə dəfə almışdı.

Məlumdur ki, tütəyin diapazonu məhduddur. Tütəkdə zildən bəmə, bəmdən zilə fasiləsiz keçid çox zəruridir. Bu, böyük texniki ustalıq və təcrübə tələb edir. Adətən musiqiçilər müğənninin səsinə uyğunlaşaraq çalırlar. Bülbül bizim çalğımıza uyğunlaşaraq oxuyurdu.

O unudulmaz görüşdən nə qədər vaxt keçib. Çox şeyi indi daha yaxşı dərk etdiyimdən, Bülbülün obrazı təsəvvürümdə daha ucalara qalxır. İndi Bülbülün səsi yazılmış vallara yalnız həzz almaq üçün deyil, həm də onun cilaladığı, simfonizə etdiyi qədim və zəngin musiqini öyrənmək, daha yaxşı dərk etmək vəsaiti kimi dinləyirəm.

Bülbül mənim yaddaşımda əsl beynəlmiləlçi kimi qalmışdır. Onun yaradıcılıq irsi indi Gürcüstanda itib-batmaq təhlükəsində olan qədim xalq musiqisinin dirçəlişi üçün öyrənilmə və tətbiq obyektidir.

Muğamları Bülbülün təfsirində bərpa etmək lazımdır. Burada, əlbəttə müasir dinləyicilərin başa düşdüyü simfonik muğamlar nəzərdə tutulur.

Ölkənin musiqi ictimaiyyəti Bakıda Azərbaycan professional vokal sənətinin banisi, SSRİ xalq artisti, Stalin Mükafatı laureatı, professor Bülbülün Xatirə muzeyinin açılışı xəbərini böyük sevinclə qarşıladı.

***Buxuti ŞALAMBERİDZE,***
***texnika elmləri doktoru***



## *UNUDULMAZ SƏS*

Mənə dəfələrlə Bülbül ilə şəxsən görüşmək qismət olub. Redaksiyamız adından bizim qəzetdə çıxış etməyi həmişə ondan xahiş edirdim. Hər dəfə də təklifi məmnuniyyətlə qəbul edirdi. Təyin olunan vaxtda dərin məzmunlu, gözəl, ifadəli və səlis dillə yazılmış məqaləsini redaksiyaya təqdim edirdi. Biz onun sözə həssas münasibətinə, fikri mükəmməl ifadə etməsinə heyran qalırdıq. Axırıncı dəfə də redaksiyanın tapşırığı ilə hörmətli professora müraciət etmişdim. Telefona özü cavab verdi, həmişəki kimi zarafat elədi. Dedi ki, səfərə hazırlaşır. Sonra soruşdu:

– Utanma, de görək nə istəyirsən?

– İstəyirik ki, – dedim, – insan gözəlliyi haqqında məqalə yazasınız. Özü də mümkün qədər tez.

Ani pauzadan sonra onun doğma səsi eşidildi:

– Bizim şanlı gəncliyimizin qəzeti üçün yazaram. Səhəri gün telefon zəng çaldı. Dəstəyi qaldırdım. O idi – bizim dostumuz, məsləhətçimiz, səsinə və qələminə vurğun olduğumuz insan! Salam verib, dedi:

– Kağız-qələm götür, indi məqaləni sənə diktə edəcəyəm.

Mən onun dediklərini yazırdım. Ətrafıma toplaşmış qələm dostlarım onun dediklərini sevinc və heyranlıqla oxuyurdular.

Bülbül insan gözəlliyinin sirlərini açırdı. Onun fikrincə insan gözəlliyi hər şeydən əvvəl onun mənəvi aləminin zənginliyində, əqidəsində, seçdiyi idealda, bütün həyatını, fəaliyyətini yüksək, nəcib məqsədlərə tabe etdirməyi bacarmasındadır.

Böyük sənətkarın məqaləsi bu sözlərlə bitirdi: «Bülbül

kiçicik, zərif bir quşdur. Təbiətdə belə gözəl quşlar çoxdur. Ancaq təkcə bülbülün zəngulısi böyükdən-kiçiyə hamının ruhunu oxşayır. Çünki bülbülün səsi, avazı insanda həyat eşqi oyadır».

Xalqımız qəlbimizdə həyat eşqi oyadan sevdalı Bülbülünü itirdi. Biz jurnalistlər füsunkar səs, gözəl qələm sahibi olan dostumuzu itirdik. Fəqət onun unudulmaz səsi ürəklərdə daim həyat eşqi oyadacaq, nəsil-nəsil insanları sehrləyəcəkdir.

*Zeynal BABAYEV,*
*jurnalist*



### SƏNƏT CƏNGAVƏRİ

Ağlım kəsəndən Bülbülün səsini eşidib, ondan ilham almışam. Onunla yaxından tanışlığım 1942-ci ildə başlayıb.

Bülbül Gəncəyə konsert verməyə gələndə özü ilə çalğıçı gətirməzdi. Bilirdi ki, Gəncə Filarmoniyasında xalq çalğı alətləri ansamblının bədii rəhbəri və konsertmeysteriyəm. O, bizim ansamblın müşayiətilə oxumağı çox sevirdi.

Konsertlərdən birində səhnənin arxasına bir nəfər gəlib, onunla çox səmimi görüşdü. Sonra həmin şəxs soruşdu:

– Bülbül, məni tanıdın?

Bülbül azca geri çəkilib, onu başdan-ayağa süzdü və birdən irəli atıldı:

– Dübəndi, Dübəndi İdris!

Onlar qucaqlaşdılar.

İdris məşhur çəkməçi idi, Bülbülə həmişə dübəndi tikib. Məlum oldu ki, onlar 25 ildir bir-birini görməyiblər.

Dostu ilə görüşü Bülbülü qəlbən sevindirmişdi. Həmin axşam çox ilhamla oxudu. O, bununla dostuna, eləcə də bütün gəncəlilərə öz sevgisini bildirirdi. Konsertin axırında zala üz tutaraq:

– Gəncə mənim ikinci vətənimdir, – dedi, – mən sənətə burada göz açmışam. Bundan sonra doğma Gəncəyə daha tez-tez gələcəyəm.

Bir dəfə Jdanov rayonunda (indiki Beyləqan) qastrolda idik. Oğlu Poladı da özü ilə gətirmişdi. O zaman Poladın 13-14 yaşı olardı. Hərdən o da bir-iki mahnı oxuyurdu.

Konsertlərdən birində camaat çox olduğundan klub darlıq edirdi. Bayırda xeyli adam qalmışdı. Hamı Bülbülü yaxından görmək, səsini eşitmək, oxuduğu bir-birindən gözəl mahnıları dinləmək istəyirdi.

Aprel ayı idi. Havalar soyuq keçirdi. Buna baxmayaraq konsertə gələnlər arasında narazılıq olmasın deyə, kolxozun sədri istəyirdi ki, konsert açıq havada keçsin. Artistlərdən bəziləri buna etiraz edirdilər. Axırda Bülbülün fikrini öyrənməli oldular:

– Maestro, bu işə Siz nə deyirsiniz?

Onlar güman edirdilər ki, soyuğa görə Bülbül razılıq verməyəcək. Amma belə olmadı. Onlar gümanında yanılırmış. Bülbül dedi:

– Bəli, bəli, bayıra çıxmaq lazımdır. Soyuqdan niyə qorxursunuz? Əsl səsə soyuq neyləyər ki? Heç nə eləməz...

Bülbülün fikri ilə hamı razılaşdı. Başqa cür də mümkün deyildi. Axı, onun bir sözünü iki eləməzdilər.

Konsertə on-on beş nəfər uşaqlı qadın da gəlmişdi. Körpələr ağlayır, səs salır, konsertin gedişinə mane olurdular.

Kolxozun sədri uşaqlı qadınları oradan uzaqlaşdırmaq istəyəndə Bülbül qoymadı.

– Böyüklər sakit olsun, – dedi, – körpələr sarıdan nigaran qalmayın. Bu saat mən onları yatızdıracam.

Bülbül öz gözəl səsilə, mülayim avazla elə oxudu ki, uşaqlar da susdu, böyüklər də. Bir az sonra analarının qucağında uşaqlar şirin yuxuya getmişdilər. Bu əsl möcüzə idi...

Səhəri gün Polada körpə bir quş balası gətirdilər. Polad çox sevincək quşu alıb, bir qutuya qoydu ki, Bakıya aparacam. Ancaq iki saatdan sonra məlum oldu ki, zavallı quş balası ölüb. Demə, hava üçün qutunun böyründən deşik açmaq lazım imiş...

...Saatlı rayonunda idik, «Qonaq evi»ndə qalırdıq. Rayon partiya komitəsinin birinci katibi Bülbülün görüşünə gəldi. Xeyli söhbətləşdi onunla. Söz Koroğlu obrazından düşdü. Koroğlu ilə bağlı söhbətin şirin yerində Bülbül birdən ayağa qalxıb gərnəşdi, nəfəs dərdi, yavaş-yavaş böyüdü, nəhəngləşdi. Beləcə, o, gözümüzün qabağında Koroğluya çevrildi...



Sonra uzun bir nərə çəkdi. Bu, əsl Koroğlu nərəsiydi. Biz hamımız heyran qalmışdıq. Bülbül gülümsəyərək dedi:

– Siz elə bilirsiniz Koroğlu obrazı tək oxumaqla bitir? Xeyr, əsl Koroğlu olmaq lazımdır. Mən bu obraz üzərində işləməyə başlayarkən neçə pəhləvanla məsləhətləşmişəm. Koroğlunun oxumağı ilə qəhrəmanlığı bir vəhdət təşkil etməlidir.

...1957-ci ildə bütün respublika rəhbərliyinin iştirakı ilə M.F.Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında böyük sənətkarın 60 illiyi keçirilirdi. Təntənəli yubiley konsertində mən də çalırdım. Ölməz müğənnimiz Rəşid Behbudov Hindistandan gətirdiyi musiqi alətini ustadına hədiyyə etdi və onun şərəfinə gözəl bir mahnı oxudu.

Axırda yubilyara söz verildi. Bülbül ürəkdən gələn bir sevgi ilə salondakıları salamladı. Yubiley iştirakçılarına, eləcə də xalqımıza dərin minnətdarlığını bildirdi. Birləşmiş orkestrin müşayiətilə bir neçə mahnı oxudu.

Zaldakılar xalqımızın nəhəng sənətkarını dönə-dönə alqışladılar.

Onlar böyük sevinc içində idilər. Sonra Qurban Pirimov tarı sinəsinə basdı, Bülbül başladı, nə başladı! Onlar bir-birinə rövnəq verirdi. Bu iki ustad əsl sənət cənginə girmişdi. Salondakılar bu sənət cəngavərlərini alqışlayır, vaxtın necə ötdüyünün fərqinə varmırdılar...

Bülbülün mənim həm yaradıcılığımda, həm də şəxsi həyatımda böyük rolu olub.

1946-cı ildə mən Gəncə Dövlət Filarmoniyasının xalq çalğı alətləri orkestrinin bədii rəhbəri işləyərkən Bülbül yenə bizim şəhərə gəlmişdi. Burada mənim müşayiətimlə konsertlər verdi. Sonra Qarabağa getdik, orada on-on iki konsert verdikdən sonra yenə Gəncəyə qayıtdıq. Bu ötən günlər ərzində bir-birimizə çox isinişmişdik. Bülbül şəhər rəhbərliyilə razılaşıb məni özü ilə Bakıya gətirdi. Onun köməyilə Azərbay-

can Dövlət Filarmoniyasına işə qəbul olundum və xalq çalğı alətləri orkestrində solist tarzən kimi çalışmağa başladım.

Bülbül həmişə deyirdi: «Sənətdə zirvəyə çatmaq çətindir. Zirvədə dayanmaq ondan da çətindir. Bunun üçün çalışmaq, çalışmaq, yenə də çalışmaq lazımdır».

Bülbülün şəxsiyyəti sənətini, sənəti də şəxsiyyətini tamamlayırdı. O, əsl sənət cəngavəri, həm də dahi bir insan idi!

***Firidun ƏLƏKBƏROV,***
***respublikanın əməkdar artisti,***
***tarzən***
***1998-ci il***



## *UNUDULMAZ MÜƏLLİM*

Asəf Zeynallı adına musiqi məktəbini bitirəndə diplom işi kimi Üzeyir Hacıbəyovun «Arşın mal alan» əsərini səhnələşdirdik. Mən Əsgəri oynayırdım. O vaxt Azərbaycan Dövlət Musiqili Komediya Teatrı olmadığından bu tamaşaları Opera və Balet Teatrının səhnəsində oynayırdıq. Və elə o tamaşa demək olar ki, həyatımda dönüş yaratdı. Bilirsiniz, niyə?

Məhz o tamaşada əvəzsiz müəllimim Bülbülün diqqətini cəlb etmişəm. Tamaşadan sonra Süleyman Ələsgərova deyib ki, «Məmmədə deyin gəlsin yanıma, onu öz sinfimə götürəcəyəm».

Beləliklə Bülbülün tələbəsi oldum. Bilirsiniz, Bülbülün sağlığında belə onun tələbəsi adını qazanmış sənətçilərə böyük hörmət bəslənilirdi. Bir növ onun üçün bütün yollar açıq idi. Mənim üçün də belə oldu. Təhsil ala-ala Mahnı və rəqs ansamblının, sonra isə Azərbaycan Dövlət Filarmoniyasının solisti oldum. Ara-sıra konsertlərə dəvət alırdım. Televiziyanın, radionun qapısı üzümə açıq idi. Heç yadımdan çıxmaz, Bülbül universitetin tələbələri ilə görüş keçirirdi. Tədbirin aparıcısı Cəfər Xəndan idi. Bülbül biz tələbələri auditoriyaya təqdim edirdi. Növbə mənə çatdı. Bülbül qalxdı ayağa:

– Tanıyırsınız da bu oğlanı, – dedi, – tez-tez radioda oxuyur, Məmməd Salmanovdur. Məsələ qaldırmışıq, onu Konservatoriyadan xaric edək.

Ölməz sənətkar bu sözləri o qədər ciddi dedi ki, zala sükut çökdü. Mən özüm də onun sözlərinə məəttəl qalmışdım.

Birdən Cəfər Xəndan soruşdu:

– Axı niyə?

Dedi:

– Başı qastrollara o qədər qarışıb ki, Konservatoriyanın tələbəsi olduğunu yaddan çıxarıb.

Bir sözlə, bəxtimin üzümə gülən vaxtları idi. Sənət aləmində parlayırdım.

Çox gözəl dövrümüz var idi. Özü də indiki kimi cavan sənətçilər saysız-hesabsız deyildi. Biz barmaqla sayılırdıq. Hər hansı məclisdə böyüklərdən – yaşlı xanəndələrdən biri iştirak edirdisə, ondan icazəsiz oxumurduq, yadıma gəlir, yazıçı Hüseyn Abbaszadənin toyu idi, Bülbül də məclisdə idi. Mən professordan icazə alıb, məclisi aparmağa başladım.

***Məmməd SALMANOV,***
***respublikanın əməkdar artisti***
***1998-ci il***



## BÜLBÜL HAQQINDA XATİRƏLƏRİM

Deyirlər ki, silinməz yeganə bir şey varsa, o da xatirədir. Doğrudur, illər çox şeyi unutdursa da, ancaq hər şey yaddan çıxmır. Xoş xatirələr də olur, hətta xoş-kədərli xatirələr də. Elə qəribə hadisələr var ki, uzun illər yaddaşı ovur və qorxursan ki, onlar səninlə bərabər yox olar, dünyada izi-tozu qalmaz. Bu, adama çox ağır gəlir. Elə indi, yaşımın bu çağında fikirləşirəm ki, çox şey arxada qaldı və elə əhvalatlar var ki, onları mən özümlə apara bilmərəm.

Mən həkiməm, ancaq tale məni professor Bülbüllə rastlaşdırıb. Mən bu xoş, bəzən də ağır, kədərli xatirələrdən bir iz qoymalıyam.

Bülbül ilə ilk dəfə 1938-ci ildə Moskvada – Azərbaycan Mədəniyyəti və İncəsənəti Ongünlüyü zamanı tanış olmuşdum.

Mən o vaxt Moskvada yaşayır, diş həkimi işləyirdim. Həmin illərdə orada azərbaycanlıların sayı çox deyildi. Biz incəsənətimizin nümayəndələrinin Moskvaya hər gəlişini böyük həyəcanla gözləyirdik. Xüsusilə ona görə həyəcanlanırdıq ki, bizdən əvvəl Gürcüstan və Ukrayna Ədəbiyyatı və İncəsənəti Ongünlüyü olmuşdu. Ongünlüyün əsas hadisəsi o idi ki, bütün premyera və yekun konsertində o vaxt İ.V.Stalin və Siyasi Büro üzvləri iştirak edirdi. Onlar Ongünlük iştirakçılarını alqışlayırdılar. Buna görə bizi də maraqlandırırdı ki, görəsən, Stalin və Siyasi Büro bizim respublikanın da premyera və yekun konsertlərində olacaqlarmı? Bizim artistləri necə qarşılayacaqlar?

O zaman Moskvada həkim işlədiyimi ona görə xüsusi olaraq qeyd edirəm ki, bu mənə Böyük Teatrın kassalarının

müdiri məşhur Mixail (Mişa) Laxtmanı müalicə etməyə imkan vermişdi.

Deməliyəm ki, Moskvada Böyük Teatra düşmək həmişə çox çətin olub, bu məlumdur, dekada vaxtı isə az qala heç mümkün deyildi. Mixail Lazareviçlə tanışlığım bütün premyeralarda və yekun konsertlərində iştirak etməyə mənə imkan verdi.

Əvvəldən başlayım. Ongünlük iştirakçıları arasında çoxdankı tanışım tarzən Bəhram Mənsurov da var idi. Bəli, Ongünlük iştirakçıları Moskvaya gələn kimi mehmanxanaya qaçıb:

– Bəhram, bura bax, – dedim, – Moskvaya tutarlı bir şey gətirmisiniz, yoxsa gürcülərin qabağında qızarmalı olacağıq?

Deyim ki, çox həyəcanlı idim. O mənə dedi:

– Biz at belində Koroğlunu gətirmişik, o hamını kölgədə qoyacaq.

– Bura bax, zarafat eləmirəm, – dedim, – mən narahatam.

– Olduğunu deyirəm.

Boynuma alıram ki, o vaxt bizim incəsənətin nümayəndələrini o qədər də yaxşı tanımırdım, dediyim kimi Moskvada yaşayırdım.

Soruşdum:

– Əsas qəhrəmanın partiyasını kim oxuyacaq?

Dedi:

– Oxumağına Bülbül oxuyacaq, ayaq üstə alqışlayan da sizinkilər olacaq.

O, «Sizinkilər» deyəndə Siyasi Büroya işarə edirdi.

O vaxtlar adi məsələlərdə, xüsusən də ayaq üstə alqışlamaq məsələsində Stalinin adını çəkmək olmazdı. Bu, təhlükəli idi.

Budur, mənim üçün narahat, həyəcanlı gün gəlib yetişdi. Böyük Teatrda – «Koroğlu». Salon ağzınadək tamaşaçı ilə dolu idi. Xarici ölkə səfirliklərinin nümayəndələri də gəlmişdilər. Onlar Böyük Teatrı çox xoşlayır, xüsusən ayrı-ayrı xalqların nümayəndələrinin çıxışlarına baxmağı sevirdilər. «Koroğlu»nun uvertürası salondakıları heyrətə gətirdi. Mənim həyəcanım daha da artdı: «Sonrası necə olacaq?».

Mən tamaşaçılara nəzər salır, xüsusilə də dönüb hökumət lojasına baxırdım. Düşünürdüm: «At belində Koroğlu nə vaxt səhnəyə çıxacaq? Bəhramın dediyi o dahiyanə səs nə vaxt eşidiləcək?».

Bülbül at belində səhnəyə gəlib «Sevdim səni mən, ey Nigarım» ariyasını heyrətamiz səslə oxumağa başlayanda fərəhdən, qürur hissindən çoxlarımızın gözü yaşardı. Biz nə qədər xoşbəxt idik! Stalin və Siyasi Büro Bülbülü, bütün artistlərimizi hərarətlə alqışlayırdı. Adətən Stalin sakit-sakit əl çalırdı. Bizimkilər onun hərarətli alqışlarını qazandılar. Fərəhlə onu da qeyd etməliyəm ki, yuxarıdan verilən göstərişə əsasən «Koroğlu» Böyük Teatrın səhnəsində təkrar göstərildi. Nadir hallarda belə olur. Bax, bu xatirə yaddaşdan silinmir. O vaxt bizi düşündürən bir məsələ də vardı: «Siyasi Büro və «Sahib» özü o biri tamaşalara da baxacaqdılarmı?

Stalin başda olmaqla Siyasi Büro tam heyətdə bizim bütün premyeralarımıza gəldi. Mən bunun canlı şahidiyəm.

Moskvalı tanışlarım mənə deyirdilər: «Sizin o atlı qəhrəman nə qiyamət eləyir», «Sizin Bülbülünüzün səsinə səs çatmaz».

Məni hamı təbrik edirdi. O vaxt cavan idim, sevincdən qanadlanır, xalqım üçün, onun incəsənəti üçün duyduğum qürur hissindən bilmirdim nə edim.

Bütün Ongünlük ərzində Bəhram Mənsurovdan, onun dəstəsindən ayrılmadım. Əsas onu demək istəyirəm: mən o vaxt görürdüm ki, Bülbül bu incəsənət bayramının çarpan ürəyi, düşünən beynidir. Hamı onunla məsləhətləşirdi. O, necə deyərlər, dekadanın «atası» sayılırdı. O, moskvalıları, xarici ölkə səfirliklərinin nümayəndələrini məftun etmişdi.

Kremldə yekun konsertində Bülbül «Sandığa girsəm neylərsən» xalq mahnısını oxudu.

Uşaqlıqda o, gözəl qaval çalırdı, onu yuxarı atır, oxuya-oxuya fırladırdı. O vaxtdan 20 il keçirdi. Risk böyük idi, amma qaval indi də ona asanlıqla tabe oldu.

Mahnı sona çatmamış bütün salon ayağa qalxdı, gurultulu alqışlar divarları titrətdi. Bu alqış seli onu təkrar səhnəyə çağırırdı. Təsəvvür edin ki, birdən qaval əlindən yerə düşsəydi, nə ola bilərdi? Ancaq o, qavalı çox məharətlə, necə deyərlər, sirk ustası kimi atıb-tuturdu. Bu mənzərə çox cəlbedici idi və ona bənzəyirdi ki, təyyarə göydən üzüaşağı şığıyır, sanki indicə yerə çırpılacaq, təyyarəçi də ona tabe olan təyyarəsini qəfildən qürurla yenə zenitə qaldırır. Bülbülün də səsi ləngər vuraraq gah zilə qalxır, gah da bəmə enirdi.

Bu konsertdə belə zilə qalxıb, bəmə enmək hallarının sayı anbaan artırdı. Onun misilsiz səsini, çox böyük artist istedadını, hamının ondan məsləhət almağını ömürlük unutmaram. Bu xatirələrdən məqsəd onun sənətkarlığının böyüklüyünü nəzərə çatdırmaq deyil.

Heyf ki, bu barədə az fikir yürüdürlər. Məncə, Üzeyir Hacıbəyovla Bülbül incəsənətimizin tarixidir və allah belə istedadları insanlara nadir hallarda bəxş edir. Mənim məqsədim sonda açıqlanacaq.

Sonrakı illərdə, daha doğrusu, 1941-ci ildən, Bakıya köçdüyüm vaxtdan mən Bülbülün dişlərini müalicə edən həkim olmuşam, sonralar isə ömrünün axırınadək onunla dostluq eləmişik. O, təbiəti çox sevirdi və biz tez-tez bir-birimizin bağına gedirdik. Hər dəfə bağa gələndə, təbiətlə təmasda olanda onun əhvalı da gül kimi açılırdı. Qızılgülü çox xoşlayırdı, ona baxmaqdan doymurdu. Bağda onu heç məşğul etmək də lazım gəlmirdi, o özü özünə bir iş tapır, gəzib-dolaşır, tənəklərin arasında qurdalanırdı.

Mən bu təfərrüatı ona görə yazıram ki, bunlar xatirələrimin sonluğu ilə bağlıdır. O, bağda heç vaxt oxumurdu, çox



vaxt zümzümə edirdi, səsi heç eşidilmirdi də. Mən onların bağında qonaqlıqlara yox, elə-belə, çay süfrəsi başında söhbət üçün gedirdim. Çox gözəl həmsöhbət idi. Günlərin birində o məni nahara qonaq çağırdı. Həmin gün mənim üçün unudulmaz gündü. Üç nəfər hörmətli gürcü qonağı da vardı. Mənə dedilər ki, onlardan biri incəsənətin böyük rəisi, Gürcüstan MK-nda şöbə müdiridir, qalan ikisi də general və podpolkovnikdi. Rəşid Behbudovla Fikrət Əmirov da qonaqlar arasında idilər. Deməliyəm ki, həmişə olduğu kimi, burada da Ada xanım hökmranlıq edirdi. Yeməkləri Ada xanımın anası hazırlamışdı, ona görə də isti, soyuq yeməklər, gürcü və Azərbaycan xörəkləri bol-bol süfrəyə gəlirdi. Amma sözümün canı bu deyil. Məlumdur ki, gürcülər içməyi bacarırlar. Yeyib-içmək başlandı. Rəşidlə, Fikrət tez-tez «ofsayd»da qalır, içməkdən boyun qaçırırdılar. Cavanlığımın ucbatından onların «cəfa»sını mən çəkirdim. Bülbül içmirdi, amma yoldaşlıq edirdi. Nəhayət, qonaqlıq axşamının elə xoş çağı gəlib çatdı ki, içənlər də, içməyənlər də xoşhal oldular və gürcü yoldaşlar Bülbüldən oxumağı rica etməyə başladılar.

O, mülayimliklə, amma inadla boyun qaçırırdı. Onda qonaqlar Rəşidi yola gətirdilər, o da oxumaq istəmirdi, amma sonra razılıq verdi. Deməliyəm ki, mən Rəşidin oxumağını, onun bu sahədəki ilk addımlarından və çox illər sonra da çox dinləmişəm, amma bu axşam o tamam dəyişdi, xüsusi ustalıqla öz repertuarından bir neçə mahnı oxudu. Səsinə elə bil yeni nəfəs gəldi. Gürcülər heyran olmuşdular. Rəşidlə məsələni qurtarandan sonra qonaqlar yenə Bülbülə üz tutdular. Etiraf edirəm (incəsənət adamı olmadığımdan) fikirləşirdim ki, Bülbülün işi çətin olacaq. Buradaca qeyri-adi nəsə görməli və eşitməli oldum. Lirik-dramatik tenor səsə malik Bülbüldən zil səs tələb edən muğam! Bülbül muğam oxudu və onun səsi fəzaya qalxdı. Bülbül səsinə güc vermirdi, bu səs sonu görünməyən çay kimi axırdı, elə bil onun daxilində əlavə səs ehtiyatı vardı, çünki bir səs kifayət eləməzdi. Bu axşamın

əsas hadisəsi o idi ki, «Daisi» operasından «Tavo-Çemo»nu gürcücə oxudu, sonra rus mahnısı, ondan sonra isə «Toska» operasından Kavaradossinin ariyasını italyanca ifa etdi. Elə təəssürat yaranırdı ki, Bülbül öz boğazında müxtəlif janrlı bir neçə vokalist gizlədib. Mən belə geniş diapazonlu səslərə rast gəlməmişəm. Ən yaddaqalan əhvalat isə o idi ki, Bülbül oxuyub qurtaran kimi gürcülər onu öpürdülər, Kavaradossinin ariyasını oxuyub qurtarandan sonra isə gürcülər onun boğazını öpüşlərə qərq etdilər və heyrətdən nə deyəcəklərini bilmədilər. Bu coşğun sevinc uzun çəkdi. Gürcü qonaqlar yenə qədəhləri doldurdular, Bülbülün şərəfinə içdilər. Onlar heyrət edirdilər: axı muğamın yüksək notları ilə italyan Kavaradossini bir səsdə necə sığışdırmaq olar?! Həmin axşam Bülbülü də, Rəşidi də fortepianoda Fikrət müşayiət edirdi. Yadımda qalan bir də o oldu ki, Fikrət öz «Sevil» operasını qurtarmaq üzrə idi və indiki kimi xatirimdədir, melodiya və ariyaları çala-çala Bülbüllə məsləhətləşir, Bülbülün düzəlişləri ilə razılaşırdı.

Qonaqların yola düşmək vaxtı yaxınlaşırdı, onlar isə bu səsin sehrindən hələ də çıxa bilmirdilər. O mehriban, səmimi, yaradıcı axşam elə gözəl keçdi ki, qatarın yola düşməyinə on dəqiqə qalmış qonaqları zorla stansiyaya çatdırmaq mümkün oldu; vidalaşanda da onlar Bülbülün boğazını öpürdülər. Amma, dediyim kimi, xatirələrimin canı bu deyil.

Zaman keçirdi. Bülbül oxuyur, işləyir, yaradır, Konservatoriyada tələbələri ilə məşğul olurdu. 1959-cu ildə Moskvada ikinci dekada keçdi. Böyük Teatrın səhnəsində Koroğlu rolunda yenə də Bülbül hamını heyran qoydu.

Böyük Teatrda yekun konsertində yenə həmin görünməmiş müvəffəqiyyət.

Biz əlaqəmizi kəsmirdik, bir-birimizin evinə gedib gəlirdik. Günlərin birində Bülbül zəng vurdu, dedi «gedək bağa». Mən məmnuniyyətlə razılaşdım. O, oğlanları Çingiz və indi Mədəniyyət naziri olan Poladla bizim bağa gəldi. Bu



onun vəfatından düz bir həftə əvvəl idi. Bu dəfə bağda şən deyildi, zarafat etmək əhvalında da deyildi. Bağı gəzib-dolaşdı, sonra iri bir daşın üstündə oturdu və oxumağa başladı (bu daşı əziz xatirə kimi yadigar saxlayıram). Oxuyurdu, sanki dünya ilə vidalaşırdı. Ancaq muğam oxuyurdu. Mən Bülbülə çox qulaq asmışdım, amma bu cür oxumağını eşitməmişdim. Bu, ürəyinin sakit harayı idi. Elə bil Paqanini Stradivarinin hazırladığı skripkada çalırdı. Düz bir həftə sonra, gecə saat 2-də mənə zəng vurub dedilər ki, artıq Bülbül yoxdur. Dəhşətli xəbər idi. O vaxtdan çox illər keçib (35 il), lakin Böyük Ustad və Böyük Vətəndaşın işıqlı, gözəl xatirəsi, dediyim kimi, hafizəmdən silinmir. Xüsusən hər dəfə bağa gələndə o yadigar daş mənə onu, onun son oxumağını yada salır.

Çox heyf ki, Bülbül həyatdan belə tez, yaradıcılığının kamil, gözəl çağında getdi.

Onun xatirəsi daim yaşayacaq!

*Əliağa ƏHMƏDOV,*
*tibb elmləri doktoru, professor,*
*əməkdar elm xadimi*

## *USTADIMIN XEYİR-DUASI*

Uşaqlıq və gənclik illərində hərənin bir sənətə marağı olur. Orta məktəbdə oxuyarkən mənim rəssamlığa və müğənniliyə böyük həvəsim vardı. Elə bir bayram olmazdı ki, divar qəzetləri mənsiz çıxsın və elə bir bayram gecəsi olmazdı ki, məni oxutmasınlar. Orta məktəbi bitirmək ərəfəsində iki yol arasında qalmışdım. Bilmirdim rəssamlığa gedim, yoxsa müğənniliyə.

1955-ci ilin yay ayları idi. Uşaqlıq dostum Xəlil qaça-qaça gəlib söylədi ki, Bakıdan adamlar gəlib, səsi olan uşaqları yoxlayıb məktəbə yazır. O məni çəkə-çəkə Gəncə mahud fabrikinin klubuna gətirdi. Burda söylədilər ki, Bakıdan gələnlər iki bəstəkardır. Biri konservatoriyanın rektoru, bəstəkar Əşrəf Abbasov, ikincisi isə bizim həmyerlimiz bəstəkar Fikrət Əmirov.

Bizi içəri buraxdılar. Soruşdular ki, hansınız oxuyacaqsınız? Xəlil dümsükləyib məni göstərdi. Mən bir xalq mahnısı oxudum. Xoşlarına gəldi. Birini də oxutdular. Əşrəf Abbasov, Fikrət Əmirovla nə isə danışıb razılığa gəldilər və mənə dönə-dönə tapşırdılar ki, avqust ayının əvvəlində mütləq Bakıya gəlib musiqi məktəbinə daxil olum.

Mən orta məktəbi bitirib Bakıya gəldim. Məqsədim Üzeyir Hacıbəyov adına Konservatoriyaya daxil olmaq idi. Gələrkən həvəslə çəkdiyim iki etüdümü də özümlə götürmüşdüm. Özüm də bilmədən birbaşa Əzim Əzimzadə adına rəssamlıq məktəbinə gəlib çıxdım. İşlərimi göstərdim. Mənə dedilər ki, sənin tabloların komissiyanın çox xoşuna gəldiyi üçün, səni birbaşa ikinci kursa qəbul edirik. Sevincimin həddi-hüdudu yox idi. Həmin gün mənə yataqxanada yer də verdilər.

Gecə-gündüz Bakının küçə və bulvarlarını gəzib etüdlər çəkir, axşamlar isə gecə yarısına kimi işləyirdim. Artıq altı



ay idi ki, rəssamlıq məktəbinin ən ümidli tələbələrindən idim.

Qış tətili günlərində Gəncəyə gəlməyə hazırlaşırdım. Qatarın vaxtına xeyli var idi. Vaxtı «öldürmək» üçün vağzal yaxınlığında gəzirdim. Bir binanın yanından keçəndə (sonralar bildim ki, bu bina konservatoriya binası imiş) qulağıma musiqi səsi gəldi. Pəncərədən içəri boylandım. Gördüm bir qadın piano çalır, bir cavan oğlan da oxuyur. Mən burnumu pəncərənin soyuq şüşəsinə dirəyib xeyli qulaq asdım. Mahnı bitmişdi, ancaq mən gözlərimi içəridən çəkə bilmirdim. İçəridən mənə işarə etdilər ki, nə istəyirəm. Əlimi qulağımın dibinə qoyub işarə etdim ki, mən də oxumaq istəyirəm. Məni içəri dəvət etdilər. Vokal müəlliməsi (sonra öyrəndim ki, bu müəllimə Pəri xanımdı) məndən soruşdu:

– Nə oxuya bilirsən?

Dedim:

– «Evləri var xana-xana».

– Oxu görüm.

Mən pianonun müşayiəti ilə ən çox sevdiyim həmin mahnını oxudum.

Pəri xanım çox sevindi və tələsik yır-yığış edərək:

– Arxamca gəl, – dedi.

O, məni həmin binanın üçüncü mərtəbəsinə çıxarıb iri bir otağa apardı. Bura rektorun otağı idi. Mən Əşrəf Abbasovu görən kimi tanıdım. İçəri girən kimi:

– Müəllim, mən Sizi tanıyıram, – dedim.

– Hardan tanıyırsan?

– Siz Fikrət müəllimlə Gəncəyə gəlmişdiniz. Klubda mən oxudum, bəyəndiniz.

– Bəs niyə gəlmədin oxumağa?

– Nə bilim, – deyib başımı aşağı saldım.

Sonra məni Bülbülün sinfinə apardılar.

Mən böyük müğənnini ilk dəfə idi görürdüm. Onun bütün hərəkətlərinə, geyiminə, danışığına heyranlıqla tamaşa

edirdim. O, məsələnin nə yerdə olduğunu öyrənəndən sonra üzünü mənə tutaraq:

– Gəncəli balası, nə oxuya bilirsən? – dedi. Mən özüm də bilmədən:

– Koroğlunun ariyasını, – dedim.

Ustad uğundu.

– Bala, konservatoriyanı bitirənlər Koroğlunun ariyasını oxuya bilmirlər, sənə ariya oxumaq hələ tezdi. Bəlkə bir xalq mahnısı oxuyasan?

«Evləri var xana-xana» oxuyummu?

– Oxu, gülüm, – dedi («gülüm» ifadəsi onun müraciət forması idi).

Mən böyük həvəslə və həyəcanla oxudum, hamı susub durdu və professorun nə deyəcəyinə qulaq kəsildi. Əlbəttə, ən çox həyəcan keçirən mən idim.

Professor üzünü Əşrəf müəllimə tutaraq:

– Onda təbi-talant var, – dedi, – ancaq musiqi təhsili yoxdur. Mütləq oxumalıdır. Mən məmnuniyyətlə onu öz sinfimə qəbul edərəm.

Əşrəf müəllim:

– Hayıf ki, nə az, nə çox, düz altı ay gecikib.

Professor:

– Bu asan məsələdir, – dedi. – Gəlin biz bunu hazırlıq kursuna götürək, oxusun. Sentyabrda qəbul edək konservatoriyanın birinci kursuna. Çünki bunu indi əldən buraxsaq, bir də Allah bilir neçə ildən sonra gəlib çıxacaq.

Belə də razılığa gəldilər. Həmin gecə qatara aldığım bilet cibimdə qaldı. Rəssamlıq məktəbi ilə vidalaşıb səhərisi günü müğənni Firidun Mehdiyevlə məşğul olmağa başladım.

Hazırlıq kursunda oxuyarkən demək olar ki, hər gün gözəl müğənni, xeyirxah insan olan ustad Bülbüllə üz-üzə gəlir, salamlaşırdım.

Günlər, aylar beləcə tez gəlib keçdi. Bir də gözümü açıb gördüm ki, ustadımın sinfindəyəm, həmin vaxtdan onun qayğısını, səmimiyyətini, insanlığını daha yaxından hiss etməyə başladım.



1961-ci il iyunun 7-də professor Bülbül sinfində çalışan tələbələri bir yerə toplayaraq dedi:

– Radio dalğalarında mənim sinfimdən veriliş gedəcək. Verilişin adı belədir: «Oxuyur Bülbülün sinfi». Kim hansı əsərləri oxumaq istəyir?

Hərə oxuyacağı əsərin adını çəkir və müəllimin razılığını alırdı. Mən bir küncə çəkilib dinməz dayandım.

– Müqbil, bala, sən nə oxumaq istərdin? – deyə, Bülbül müəllim həzin bir səslə mənə müraciət elədi.

Sıxıla-sıxıla dedim ki, professor icazə versəydiniz, Sizin repertuardan iki əsər oxuyardım. Dedi:

– O hansı əsərlərdi?

Mən pörtmüş halda:

– «Ölkəm» romansı və Koroğlunun ariyası, – dedim.

Dedi:

– Lap yaxşı. Heç olmasa səlis bilirsənmi?

Dedim bilməyinə bilirəm. Ancaq zapis vaxtı gərək yanımda olasınız. Sizi görəndə ürəkli oluram.

– Mən onsuz da orada olacam.

Biz səhərisi günü saat 4-də Fioletov küçəsində yerləşən Səsyazma studiyasına gəldik. Bizi studiyada verilişin müəllifi, radionun əməkdaşı Rəhim müəllim və səsyazma ustası Nazarov qarşıladı.

Tələbələr səslərini lentə yazdırıb, sevincək çıxırdılar. Növbə çatdı mənə. Mən mikrofonun qarşısında qurumuş kimi dayanmışdım. Həyəcandan nə oxuyacağımı belə unutmuşdum.

Bülbül müəllim səsyazma kabinəsində tələbələrin oxumalarına qulaq asırdı. Sinfimizin konsertmeysteri Valeri Qordeyev «Ölkəm» romansının ilk akkordunu səsləndirdi. Məndən səs çıxmadı. Bülbül müəllimin səsi eşidildi:

– Neyçin oxumamağının səbəbini bilmək olar?

Dedim:

– Bülbül müəllim, studiyaya gəlməsəniz mən oxuya bilməyəcəyəm.

Hamı bir nəfər kimi gülüşdü. Bülbül müəllim iri, qamətli addımlarla studiyaya daxil oldu. Yaxınlaşıb mənə gülə-gülə dedi:

– Sabah teatrda işləyəsi olsan, ondadamı məni çağırtdıracaqsan yanına? Cəsarətli ol. Pianonun yanındayam.

Dedim:

– Yox, müəllim, xahiş edirəm elə dayanın ki, mən Sizi görüm. Onda məsuliyyətim artır.

Bülbül müəllim düz mənimlə üz-üzə dayandı. Ancaq elə oxudum ki, qulaq asandan sonra dedi:

– Yaxşı deyiblər ki, ilan ulduz görməsə ölməz. Sağ ol, dəydi əziyyətə.

Biz verilişin vaxtını öyrənib ayrıldıq.

Veriliş radioda axşam saat 6-nın konsertində səslənəcəkdi. Nəhayət, gözlənilən vaxt gəlib çatdı. Lent yazısını tamam-kamal dinləməyə başladıq. Axıra yaxın birdən Rəhim müəllimin səsi eşidildi:

– Professor, Sizə ənənəvi bir sualla müraciət edirik. Tələbələrinizin çıxışlarından razı qaldınızmı?

– Bəli, hərə öz imkanı dairəsində yaxşı oxudu. İndi eşidəcəyiniz oğlan isə artıq tələbə yox, püxtələşmiş müğənnidir. Adı da Müqbil Əhmədovdur. O da öz imkanı dairəsində oxuyur. Onda olan o musiqi duyumu, musiqinin obraz həlli, özünə məxsus ifa dəst-xətti, səlis tələffüzü onu başqalarından fərqləndirir. Müqbilə inanmaq olar. O, bizim ifaçılıq sənətimizə layiqli davamçıdır. Ancaq gərək çox işləyə, istedad zəhmətlə inkişaf edər, parlayar, ona bu çətin yolda uğurlar arzulayıram.

***Mobil ƏHMƏDOV,***
***xalq artisti***
***«İncəsənət» qəzeti,***
***23 yanvar 1992-ci il***



## O, SAĞLIĞINDA KLASSİK İDİ

Misilsiz vokal ustası Bülbülün ecazkar səsini uşaq ikən Qarabağın dilbər guşəsi olan Turşsuda dinləmişəm. 1940-cı ilin yayında Göy bulağın yaxınlığında, qoca palıdın altında alaçığımız qurulmuşdu. Hər axşamüstü patefon oxudardıq. Patefon üçün alaçığın kənarında xüsusi yer düzəldilmişdi. Cəmi iki-üç qrammofon valı vardı. Birinə Bülbülün səsi yazılmışdı. Ən çox onu oxudardıq. Niyazinin «Vətən» mahnısının musiqisi dağ şəlaləsi kimi çağlayır, Bülbülün məlahətli səsi bu axına qoşulub ecazkar ahəng yaradırdı...

Görkəmli sənətkarı ilk dəfə 1948-ci ildə kəndimizdə (Ağdam rayonu, Qaradağlı kəndi – V.M.) əməkçilər qarşısında oxuyarkən gördüm. «Sürəyya» mahnısını, Sosialist Əməyi Qəhrəmanı Sürəyya Kərimovanın iştirak etdiyi yığıncaqda oxuyurdu. Bülbül tarla düşərgələrində də yüksək coşğunluqla çıxış edərdi.

Mən kənd kitabxanasının müdiri olarkən (1951-1952), hazırda kəndimizdə müəllim işləyən Zahid Ağaməmmədovla birlikdə tarla vərəqələri hazırlayıb, iş üstünə apardıq. Bir gün dedilər ki, Bülbülün iştirakı ilə konsert briqadası gəlib. Ertəsi gün kənd klubunda incəsənət ustalarının çıxışlarını böyük maraqla dinlədik. Bülbül səsi, Bülbül sənəti dinləyicilərin zövqünü oxşayır, onların qəlbinə yol tapırdı...

Fəxrlə deyirəm ki, Bülbül ilə şəxsi tanışlığım 1957-ci ilin yay aylarında Respublika, Ümumittifaq və Ümumdünya festivallarında oldu. Bakıda keçirilən festival tədbirlərində uğurlu çıxışlarımı ustad müğənnilərdən Seyid Şuşinski, professor Şövkət Məmmədova, Xan Şuşinski, bəstəkarlardan Səid Rüstəmov, Tofiq Quliyev rəğbətlə qarşıladılar və mənə birinci dərəcəli diplom və laureat adı verilməsini qərara aldılar.

Ustad tarzən Əhsən Dadaşovun müşayiətilə konservatoriyanın zalında Moskvadan gələn nümayəndə heyəti qarşısında da çıxış etdim. Heyətin başçısı, festivalın təşkilinə və keçirilməsinə məsul şəxs oxumağımı təqdir etdi. Və bir parça kağıza ad-familiyamı yazdı, bəstəkar Səid Rüstəmova verib dedi:

– Bu oğlanı Ümumittifaq festivalında iştirak edənlərin siyahısına daxil edin.

Beləliklə, mən MK-nın göstərişi ilə dövlət imtahanlarını vaxtından əvvəl (ekstern) verib, iyun ayının 19-da qatarla Moskvaya yola düşdüm.

Bülbüllə Moskvada görüşdük. Bizə «Ostankino» mehmanxanasında yer verdilər. Bir neçə gündən sonra Ali Partiya Məktəbinin mehmanxanasında məskunlaşdıq.

Yaxınlıqda bir neçə göl var idi. Ətrafı sıx meşə tutmuşdu. Burada iyul ayının sonlarınadək qaldıq. Hər gün qızğın məşqlər gedirdi. Bülbül arabir gəlib məşqlərə qulaq asır, dəyərli məsləhətlər verirdi.

Bir dəfə o, bizimlə xeyli söhbət etdi. Sənətə, sənətkara aid məsələlərdən danışaraq dedi:

– Gərək müğənni səsini həmişə formada saxlaya bilsin, sözə-qəzələ fikir versin, bir muğamı, ya da mahnını təkrar-təkrar oxuyub mənimsədikdən, öz sənət süzgəcindən keçirəndən sonra dinləyici qarşısında oxusun.

Ustadın tövsiyələri hər birimiz üçün meyar idi.

Çox keçmədi ki, müsabiqələr başlandı. Tovuz aşıqlarından İmran Həsənov, Əkbər Cəfərov, Mahmud Məmmədov və balabançı Abbas İsmayılov, operanın solisti Qulu Əsgərov və mən üç turdan müvəffəqiyyətlə keçib, qaliblər sırasına çıxdıq. Bütün turlar üzrə hər ifaçının müəyyən olunmuş repertuarı vardı.

Mən «Kürd-şahnaz», «Heyratı» muğamlarını, «Girdim yarın bağçasına» xalq mahnısını oxudum.

Ümumittifaq və Ümumdünya festivallarında Şərq xalqlarının mahnı və musiqisi üzrə komissiyanın sədri Bülbül idi. Komissiyanın üzvləri sırasında rus bəstəkarı Xrennikov da vardı.

Aşıqlar, mən və bir neçə musiqiçi qızıl medala və Ümumittifaq festivalının laureatı adına layiq görüldük. Bu qələbədən iki-üç gün sonra Səid Rüstəmov qaldığımız yerə gəlib, festival iştirakçılarını bir-bir təbrik etdi və əlində tutduğu «Kommunist» qəzetini açaraq:

– Bax, – dedi, – burada sənin haqqında məqalə verilib, təbrik edirəm. Məqalənin sərlövhəsi belə idi: «Qarabağ bülbülü».

Günlərimiz maraqlı keçirdi. Ümumittifaq radiosundan və Mərkəzi televiziyadan, qəzetlərdən reportyorlar, jurnalistlər gəlir, qeydlər götürür, çıxışımızı, səsimizi lentə yazırdılar.

Azərbaycan jurnalistləri də tez-tez bizimlə görüşürdülər. Bir səhər çağı görkəmli yazıçı-jurnalist Seyfəddin Dağlı yanımıza gəlmişdi. O zaman Seyfəddin müəllim Radio və Televiziya Komitəsində işləyirdi. O, Qulu Əsgərovu və məni yaşıl ağacların fonunda lentə aldı.

Ümumittifaq festivalı iyul ayının axırlarında başa çatdı. Biz Bakıya qayıtdıq. Vağzalda təntənə ilə qarşılandıq. Adamların arasında böyük qardaşım Məzahir Məmmədovu, qohumumuz Əmir Məmmədovu görəndə sevincim aşıb-daşdı. Məni gül-çiçək dəstələrilə təbrik etdilər.

Biz 10-12 gün Bakıda qaldıq. Festival iştirakçılarını konsertlərə dəvət edirdilər. Bir növ dinləyicilər qarşısında hesabat verirdik.

Baba Salahovun ansamblı ilə televiziyada konsertim oldu. Əvvəlcə festival barədə təəssüratlarımı danışdım. Sonra «Mirzə Hüseyn segahı» və «Qarabağ şikəstəsi»ni ifa etdim.

...Şahmalı Kürdoğlu ilə «Torqovı» küçəsində gəzərkən Bülbül ilə rastlaşdıq. Xoş söhbətimiz oldu. O, bizi bağına dəvət etdi.

Bülbül mənə dedi:

– Sən «Girdim yarın bağçasına» xalq mahnısını yaxşı oxuyurdun. Mahnının arasında bir-iki ağız «Qatar» oxusan ifan daha canlı çıxar.

Nəhayət, Tələbə və Gənclərin Ümumdünya Festivalına yola düşdük. Biz Moskvanın kənarında Çeryomuşkino deyilən rayonda, mehmanxanada yerləşdik.

İndi gənc müğənni və musiqiçiləri daha məsul sənət müsabiqələri gözləyirdi. Ertəsi gün məşqlərə başladıq. Bir neçə gün ərzində üç turdan müvəffəqiyyətlə keçdik. Məşhur sənətkarımız Bülbül yenə də Şərq xalqları musiqisi və nəğmələri üzrə münsiflər heyətinin sədri idi. Rusiya, Çin, İran, Orta Asiya və s. ölkələrin musiqişünasları bu heyətə daxil idi.

Moskvaya 114 ölkədən nümayəndələr və musiqiçilər gəlmişdi. Kremldə, Sokolniki və Qorki adına mərkəzi parklarda kütləvi axşam gəzintiləri təşkil edilirdi. Burada müxtəlif ölkələrin müğənniləri, rəqqasları, caz və estrada orkestrləri rəngarəng proqramlarla çıxışlar edirdi. Deyirdilər ki, Moskvada belə təntənə və şənliklər nadir hadisədir.

Azərbaycan musiqiçilərinin ifalarına böyük maraq var idi. Həsrət Hüseynovun çaldığı qara zurnanın səsi, aşıqların çıxışı əcnəbi ölkə nümayəndələrini cəlb edirdi. Bu, əsl meydan tamaşalarını xatırladırdı.

Axırıncı sınaq gəlib çatdı. İndi Ümumdünya Festivalı laureatı adı uğrunda mötəbər musiqi xadimləri qarşısında sənət imtahanı verirdik. Aşıqlardan sonra səhnəyə mən çıxdım. İstedadlı tarzən Sərvər İbrahimovun müşayiətilə «Kürd-şahnaz», «Heyratı» muğamlarını və «Girdim yarın bağçasına» xalq mahnısını oxudum. Mahnı arasında «Qatar» muğamına keçəndə gördüm Bülbül gülümsəyir. Axı, onun məsləhətinə əməl etmişdim.

Festival yekunlaşdıqdan sonra hamımız sütunlu bir salona toplaşdıq. Ümumittifaq komsomolunun rəhbərlərindən biri (adı yadımda deyil) çıxış edərək festival iştirakçılarını təbrik etdi, VI Ümumdünya Festivalının yüksək səviyyədə



təşkil edildiyindən, uğurla keçirilməsindən, münsiflər heyətinin səmərəli fəaliyyətindən geniş söhbət açdı. Sonra bir-bir qaliblərə festivalın diplomlarını və medallarını təqdim etməyə başladı.

Növbə Qulu Əsgərova çatdı. Həmin şəxs uca səslə dilləndi:

– Əsgərov Qula.

Qulu qalxmadı, öz-özünə: «Bəyəm mən Qulayam?» – dedi. Lakin o, Bülbülün işarəsindən sonra ayağa qalxıb, ucadan dilləndi:

– Deyəsən məni qulak saldılar!

Rəyasət Heyətində anlaşılmazlıq yarandı. Bülbülün izahı ilə iş öz axarına düşdü. Elə oradaca Qulunun adı diplomda düzəldildi.

Bakıya yola düşmək ərəfəsində Bülbül mənə dedi:

– 1959-cu ildə Moskvada Azərbaycan Ədəbiyyatı və İncəsənəti Ongünlüyü keçiriləcək. MK-də sənin barəndə danışmışam. «Leyli və Məcnun» operasında Məcnun rolunu hazırlamalısan. Lazım olan kömək göstəriləcək. Ongünlükdən sonra sənə əməkdar artist adı və mənzil verilməsi nəzərdə tutulub.

Dinmədiyimi görüb:

– Hə, nə deyirsən? – dedi.

– Fikirləşərəm, – dedim.

Əslində ağsaqqallarımızın bu işə necə baxacaqlarını bilmirdim.

Bakıya qayıtdıq. Respublika Ali Sovetində festivalın təşkilatçılarını və fəal iştirakçılarını qəbul etdilər. Böyük müğənni ilə yanaşı düşmüşdüm. Bülbülün sol tərəfində tanınmış şair, jurnalist, Azərbaycan SSR Dövlət Radio və Televiziya Komitəsinin sədri Teymur Elçin əyləşmişdi.

Bülbül məni ona tapşıraraq:

– Bu oğlanın məlahətli, zil səsi var. Onun ifasında muğam və mahnıların lentə alınmasına qayğı göstərin.

– Gəlsin yanıma, nə lazımdır edərik, – deyə Teymur Elçin dilləndi.

Həmin gün yığıncağa dəvət edilənlər Ali Sovetin fəxri fərmanları ilə təltif edildi. Bizə – festivalın qaliblərinə də fəxri fərman verildi.

İki-üç gün sonra Şuşaya istirahətə getdim. Xan əmi də ailəsi ilə burada dincəlirdi. Bir gün dedilər ki, Xan Şuşinskinin, İldırım Həsənovun və sənin iştirakınla yay klubunda konsert olacaq. Təklifi razılıqla qəbul etdim. Çünki Xan kimi sənətkarla bir yerdə çıxış etmək həm məsuliyyətliydi, həm də şərəfli.

Neçə gün əvvəl afişalar vurulmuşdu. Konsertin sorağı ətraf rayonlara da yayılmışdı. Ağdamdan atam, əmim və yaxın adamlar gəlmişdilər.

Zalda yerlər tutulmuşdu. Ətraf binaların eyvanları adamla dolu idi. Uşaqlar ağacların budaqlarında qərar tutmuşdular. Xülasə, konsert başlandı. İldırım Həsənov «Çahargah» oxudu, mən isə «Mirzə Hüseyn» segahını, bir də «Qarabağ şikəstəsi»ni.

Axırda səhnəyə Xan əmi çıxdı. Ustad sənətkar «Zabil», «Arazbarı» muğamlarını və iki xalq mahnısını özünəməxsus məlahətlə ifa etdi. Alqış sədaları qopdu.

Şuşa dinləyiciləri konsertdən sonra mənə «bala Xan» deməyə başladılar.

Atam, əmim Xanla görüşdü. «Xan həmişə Xandı!» – dedilər. Atam muğamata dərindən bələd idi və mənim yaxşı oxuduğumu görüb, Xan Şuşinskiyə dedi:

– Xan, nə məsləhət görürsən, şagirdin oxumağın dalınca getsin?

Xan əmi:

– Gözəl səsi var, yaxşı da oxuyur. Tutalım oxudu, oldu mən. İndi bizə nə qiymət qoyurlar?! Universitet qurtarıb, savadlı oğlandı, öz sənətinə getməyi məsləhətdi. Səsini lentə, vala yazdırar, hərdəh konsertlərdə də oxuyar.



Bu sözlər mənim üçün qanun hökmündə idi.

Sentyabr ayı gəldi, Bakıya getdim.

Böyük alim, o zaman Universitetin rektoru, akademik Yusif Məmmədəliyev məni universitetin çoxtirajlı qəzetinə redaktor təyin etmişdi. Təzə işə başlamışdım. Kadrlar şöbəsindən bildirdilər ki, Mədəniyyət Nazirliyindən məktub gəlib, nazir müavini İsrafil Nəzərovun yanında olmalısan.

Nə üçün çağırıldığımı duymuşdum.

Tanınmış jurnalist İsrafil müəllimin qəbulunda oldum. O, məni tanıyırdı: həm jurnalist kimi, həm müğənni kimi. Qızının toyunda da oxumuşdum.

O, dedi:

– Bülbülün zəmanətilə səni operada işləməyə dəvət edirik. Nə deyirsən?

Yadıma Xan əmi ilə atamın söhbəti düşdü, tutuldum. Dinmədiyimi görüb:

– Jurnalistliyi qurtarmısan, eləmi?

– Bəli, – dedim.

– Universitetdə nə işlə məşğulsan?

– Çoxtirajlı qəzetin redaktoruyam.

– Təbrik edirəm! – dedi. – Bir-iki yazını da oxumuşam, xoşuma gəlib. Jurnalist yaxşı peşədir. Hə, nə deyirsən, jurnalistlik, yoxsa opera sənəti?

– Jurnalistlik, – dedim.

– Jurnalist yaxşıdır! – İsrafil müəllim gülümsədi.

...Qəzetin yeni il nömrəsini hazırlayırdım. Görkəmli elm və sənət adamlarından bir neçəsi haqqında yoldaşlıq şarjları verməyi müəyyənləşdirdim. Əvvəlcə ustad Bülbülün evinə zəng etdim. Dəstəyi özü götürüb:

– Buyurun! – dedi.

– Sizinlə danışan universitet qəzetinin redaktoru Vəli Məmmədovdur.

– Nə lazımdı? – Bülbül soruşdu.

– Qəzetimizdə yoldaşlıq şarjları veririk...

...1958-ci ilin mayı idi. Ali Sovetin binasının qabağında Bülbüllə qarşılaşdım.

Ona operaya getməməyimin səbəbini dedim. Təəssüfləndi:

– Səhv etmisən, özün bilərsən, – dedi.

Unudulmaz sənətkarı xatırlayarkən onun insani keyfiyyətləri, parlaq şəxsiyyəti gözlərim qarşısında canlanır. Bülbül təmkinli, ağır təbiətli bir şəxs idi. Onunla dəfələrlə görüşsəm də, söhbətini dinləsəm də, bir dəfə də olsun güldüyünü görməmişəm. Oxuyanda da, danışanda da onun çöhrəsi xoş təbəssümlə nurlanırdı.

O, ömrünün ötən çağlarını xatırlayanda təəssüflənərdi. Bu cəhəti Böyük Teatrın boş salonuna bizi dəvət edəndə də hiss etmişdim.

Mötəbər sənət məbədinə girəndə şlyapasını çıxarıb, əlinə aldı. Lojalara, geniş səhnəyə heyranlıqla baxaraq başını asta-asta tərpətdi və olub keçənləri bir-bir yada saldı:

– 1938-ci ildə Moskvada Ongünlük zamanı «Koroğlu» operası böyük uğur qazandı. «Koroğlu» sözün əsl mənasında böyük əks-səda doğurmuşdu.

Bəli, Bülbül misilsiz sənətkar, Şərq-Qərb ifaçılıq sənətinin sintezini yaradan nəhəng vokal ustadı idi. O, eyni zamanda Azərbaycan dilinin, onun səs bəhsinin incəliklərinə dərindən bələd idi. Xüsusilə sait səslərin ifaçılıq sənətilə qarşılıqlı əlaqəsini qüdrətli bir duyumla, elmi dəlillər əsasında tədqiq etmişdi.

Bülbül vokal oxuma sənətinin özülünü qoymuş, Şərq-Qərb üsullu ifaçılıq məktəbini yaratmışdır. Onun vaxtilə təşkil etdiyi Musiqi kabineti ifaçılıq sənətinin, musiqi folklorunun öyrənilməsi sahəsində böyük iş görmüşdür. Təəssüf ki, sonralar, indinin özündə də Bülbülün bu qiymətli yaradıcılıq işi, topladığı zəngin ifa nümunələri işıqlandırılıb, geniş təhlil olunmamışdır.

Dahi şairimiz Füzulinin 400 illik yubileyi münasibətilə



yaratdığı təsniflər Bülbülün klassik şeirimizə dərindən bələdliyini, böyük sevgisini əyani şəkildə göstərirdi. Habelə onun ifa etdiyi «Rast» təsnifləri, «Sənsiz», «Sevgili canan», «Ölkəm», «Qara tellər», «Süsən sünbül», «Gülə-gülə» və s. kimi romans və mahnıları hərarətlə qarşılanırdı.

Bülbül öz sağlığında klassiklər sırasında dayanırdı.

Onun III Respublika Aşıqlar Qurultayında geniş məruzəsi məzmununa, formasına görə çox orijinal idi. O, danışdıqca keçmiş xanəndələrin, aşıqların səsini-zənguləsini öz ifasında canlandırırdı. Bülbül sözünü bitirərək dedi:

– Təəssüf ki, mənim bugünkü nitqim yazıya alınmadı.

Böyük sənətkarla axırıncı dəfə 1960-cı ilin yayında kitab passajında görüşdük. Kiçik oğlu yanında idi.

Həmin oğlan indi məşhur bəstəkar-müğənni, respublikamızın Mədəniyyət naziri Polad Bülbüloğlu idi.

Bu anlarda Bülbül çox qürurlu görünürdü. Övlad istedadı onun yüz-yüz nəğmə kanı – yuvası olan geniş sinəsini qabartmışdı. Sanki cavanlıq şövqü ilə indicə oxuyacaqdı Bülbül. Sənətkarın bu halı nəzərimdə tuncdan tökülmüş əzəmətli heykəli xatırladırdı...

***Vəli MƏMMƏDOV,***
***xanəndə,***
***filologiya elmləri namizədi***

## O GÜNLƏRİ XATIRLAYANDA...

Mənim haqqında söhbət açacağım xatirə Ağstafa dəmiryol parkı ilə bağlıdır. Daha doğrusu, bu parkın yay kinoteatrında isti yay günlərinin birində olan konsertlə.

Xalqımızın nəğməkar oğlu Bülbül həmin parkın yay kinoteatrında konsert verirdi.

Ağstafanın, yalan olmasın, bəlkə yarısı bu parka toplaşıb Bülbülə qulaq asırdı.

Cəmi bir neçə yüz nəfərlik olan yay kinoteatrı, əlbəttə, böyük Bülbülün sehrli səsinə qulaq asmaq, onun üzünü yaxından görmək istəyənlərin hamısını tuta bilməzdi.

Kinoteatrın ətrafında yığışan minlərlə adam bu gur, məlahətli səsi, kənardan da olsa, dinləyə bilirdi.

Həmin axşam kinoteatrın içinə keçib Bülbülü lap yaxından görmək, onun gözəl səsinə qulaq asmaq xoşbəxtliyi nəsib olanlardan biri də mən idim. Bəli, mən! Orta məktəbin altıncı sinif şagirdi üçün bu unudulmaz bir hadisə, sonsuz bir sevinc idi...

Konsertin şirin yerində, Bülbülün ecazkar səsinin lap zilə qalxdığı bir vaxtda səhnədəki böyük elektrik lampası partladı, ətrafa qaranlıq çökdü, zalda narahatçılıq yarandı. Mən və mənimlə yanaşı oturan şagirdlərdən bir neçəsi cəld səhnəyə qalxıb, böyük sənətkarın ətrafında hazır olduq. Məqsədimiz ona kömək etmək, səhnəyə dağılan lampa şüşəsinin qırıqlarını təmizləmək, bir sözlə, ustada öz xidmətimizi göstərmək idi.

Bülbül və onu müşayiət edən musiqiçilər səhnə arxasındakı otağa keçdilər. Montyorun gəlib yeni elektrik lampası taxması və səhnədə səliqə-sahman yaradılması bir neçə dəqiqə çəkdi. Bu müddət ərzində Bülbül səhnə arxasında bizimlə söhbət edir, necə oxumağımızla maraqlanır, müxtəlif suallar verirdi.



Bir qədər sonra hər şey qaydasına düşdü və Bülbülün konserti gecədən xeyli keçənədək davam etdi...

İndi hər dəfə bu böyük nəğməkardan söhbət düşəndə və ya radio dalğalarında onun gözəl səsini eşidəndə, mən o günləri xatırlayıram.

Bülbülün ilk konsertində olduğum həmin yay günü, Ağstafadakı o unudulmaz görüş yaddaşıma həmişəlik həkk olunub.

Bülbüllə ikinci görüşüm isə Bakıda, mən Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində oxuyarkən olub. O zaman Azərbaycan Dövlət Dram Teatrının binasında (indiki Dövlət Musiqili Komediya Teatrının binası) Cəfər Cabbarlının yubileyi ilə əlaqədar böyük konsert təşkil olunmuşdu. Həmin konsertdə Bülbül də iştirak edirdi. Yadımdadır, o, səhnəyə oğlu Poladla çıxıb dedi ki, Polad bu gün komsomola keçib, gəlin onu təbrik edək. Salondakılar bu xəbəri gurultulu alqışlarla qarşıladılar və sonra o, oğlunun müşayiəti ilə bir neçə xalq mahnısı, romanslar oxuyub, yenidən salonun gurultulu alqışlarını qazandı.

Yeri gəlmişkən qeyd edim ki, Bülbülə mənim böyük sevgim bir də onun atama oxşarlığı ilə bağlıdır. İndinin özündə də, hər dəfə onun şəklini görəndə atam yadıma düşür və mən dostum Poladın 50 illiyində yazdığım bir şeirdə ona ata yolu getməyi, atasına oxşamağı tövsiyə etmişəm.

Sözümü ataya və oğula həsr etdiyim iki şeirlə bitirir, böyük Bülbülə rəhmət, onun oğluna isə yeni sənət uğurları arzulayıram.

## BÜLBÜL

**Xalqımızın böyük nəğməkar Bülbülünün anadan olmasının 100 illiyi münasibətilə**

*Unudulmaz nəğməkarın*
*Adı Bülbül, özü Bülbül.*
*Neçə ildir tərk eləyib,*
*Məyus edib bizi Bülbül.*

*Fəqət, səsi qulaqlarda,*
*Obalarda, oymaqlarda.*
*Düşməz adı dodaqlardan,*
*Haqlasa da yüzü Bülbül.*

*Sevindi, həm sozaldı o,*
*Sənətilə ucaldı o.*
*Öz yurdundan güc aldı o,*
*Uca tutdu sözü Bülbül.*

*Dərə keçdi, dağlar aşdı,*
*Çiçəklərlə pıçıldaşdı.*
*Mahnılarla hey dolaşdı,*
*Bu yolları, izi Bülbül.*

*Vəsf eylədi ellərini,*
*Xalqın qızıl əllərini.*
*Mərd yaşadı illərini,*
*Qatlamadı dizi Bülbül.*



*Başdan-başa hərarətdi,*
*Düz ilqardı, sədaqətdi.*
*Koroğluydu, cəsarətdi,*
*Gözəl çaldı sazı Bülbül.*

*Vurğunuyuq zil səsinin,*
*Hər sözünün, kəlməsinin.*
*Azərbaycan nəğməsinin,*
*Gur ocağı, közü Bülbül,*
*Şah pərdəsi, sözü Bülbül.*

## POLAD KİMİ

**Polad Bülbüloğlunun 50 illiyi münasibətilə**

*Yarım əsri etdin tamam,*
*Dağıt duman-çəni, Polad.*
*Ad günündə Azərbaycan,*
*Alqışlayır Səni, Polad!*

*Əlli yaşlı nəğməkarsan,*
*Şah nəğməni oxu, dostum.*
*Ömrün hələ azı gedib,*
*Qarşıdadır çoxu, dostum.*

*Elə oxu bu nəğməni,*
*Qoy eşitsin Şuşa səni.*
*Tarix yazsın yaddaşına,*
*Ustadlarla qoşa səni.*

*Bülbül oğlu olmaq azdır,*
*Bülbül kimi sənətkar ol.*
*Bu obalar, ellər desin,*
*Bülbül oğlu Polad, var ol!*

*Dost-tanışın gözü yolda,*
*Hər görüşə həsrət kimi.*
*Səsin gəzir düz-dünyanı,*
*Xoş səda, həm fəryad kimi.*

*Qoy kükrəyib ilham daşsın,*
*Şan-şöhrətin dağlar aşsın.*
*Bülbülə bülbül yaraşsın,*
*Möhtəşəm qol-qanad kimi.*

*Unut dostum, dərdi-qəmi,*
*Kökdən salma sarı simi.*
*Dinlədikcə zili-bəmi,*
*El tanısın ustad kimi.*

*Uca tut el qiymətini,*
*Qoru onun sərvətini.*
*Yaşat gözəl sənətini,*
*Sədaqətli övlad kimi.*

*Bir əllidə düşdün dilə,*
*İki əlli durur hələ.*
*Mahnıların eldən-elə,*
*Qanadlansın Qırat kimi.*

*Zəhmət olsun sənə sirdaş,*
*Dağlara qalx, zirvələr aş.*
*Ata yolu yeri, qardaş,*
*Bülbül oğlu Polad kimi!*



*Həmid Abbas deyir yenə:*
*Qoyma sənət odu sönə.*
*Çox yaraşır bu ad sənə*
*Bir əbədi həyat kimi,*
*Əyilməz ol polad kimi!*

**Həmid ABBAS,**
**şair**
**1997-ci il**

## *BİZİM BÜLBÜL – DÜNYANIN BÜLBÜLÜ*

Təqvimdə son yarpaq...

Bir əlimiz köhnə ilin əlində, bir əlimiz təzə ilin əlində... Son akkordları çalınır 2000-ci ilin...

Qəlbimizdə isə gələn ilin – gələn əsrin sevinci, həyəcanı, ümid işığı. Çırpınır ürəklərimiz...

Bu hisslər, duyğular içində filarmoniyanın yanından keçərək özüm də bilmədən ayaq saxlayıram. Elə bil kimsə yavaşca qulağıma deyir: «Get ustadları ziyarət elə, hal-əhval tut. Onlar hələlik burada qonaqdırlar, doğma yurd üçün qəribsəyiblər, xiffət çəkirlər».

Bir zaman ata-baba elində – Şuşanın köksündə yurd salıb, qayım-qədim olmaq üçün Bakıdan gedən bu heykəl-büstlər Bakıya köçkün kimi yaralı qayıdıb...

Bu mənzərə sözlə təsvirə gələsi deyil. Gərək ürəyi daş olasan ki, o qəmli-qınaqlı baxışlara duruş gətirəsən. Allah, Allah, nələr deyir o baxışlar?

Onların üçü də ulu torpağımız Qarabağın ürəyindən – Şuşadan pərvazlanıb, üçü də Azərbaycanımızın adını yaxın-uzaq üfüqlərə yazıb.

...Mən uşaqlıq illərimdən Xan qızını kövrək, yanıqlı qəzəllərinə, Üzeyir bəyi ecazkar və qüdrətli musiqisinə, Bülbülü Allah vergisi olan bənzərsiz səsinə görə sevmişəm.

Natəvan bizdən bir əsr, Üzeyir bəy yarım əsr qabaq yaşayıb. Bülbülü isə həm görmüş, həm də dinləmişəm. Mən hələ onunla keçirdiyim dəqiqələri, saatları, aramızda olan dürlü-dürlü səmimi ürək söhbətlərimizi demirəm.

İndi, üzü Yeni ilə gedən bu vida axşamında Bülbüllə neçə illər qabaq olduğu kimi üz-üzə dayanıb, ürək söhbəti eləyir, məhrəmliklə düşüncələrimizi bölüşdürürük.



Sanki onun yaralı, tarimar baxışları, küskün, qəhərli səsi sinəmin başını lay-lay sökürdü.

Bülbül məni sual yağışına tutmuşdu. Elə bil hər sözü köz olub sinəmi dağlayırdı...

«– Mənim balam, aylar ötdü, il dolandı. Bəs harada qaldı deyilən sözlər, verilən vədələr? İki mininci il də beləcə gəldi, beləcə getdi. Yenə qayıda bilmədik öz yurd-yuvamıza, gözü yolda, qulağı səsdə qalan Şuşamıza».

Aramızda sükut anları axıb gedir.

«– Mənim balam, yoxsa çətin sualdı mənim sualım?»

«– Çətindən də çətindi, ustad!»

«– Səbrin də bir hüdudu var. Kükrəyəndə heç nəyə baxmır. Yaman olur qəzəbi, nifrəti!»

«– Elədir, ustad!»

«– Bəs onda kimi, nəyi gözləyirik? Niyə göylərimiz şaqqıldayıb tökülmür? Niyə dağlarımız yerindən oynamır, çaylarımız yatağından çıxmır?

Zəngəzuru, Göyçəni, qürbətdən həsrətlə Vətənə boylanan, bir vaxt qeyrət qalası sayılan Laçını, Kəlbəcəri, Qarabağı, Arazqırağı obaları, neçə-neçə elləri, elatları düşmən caynağında çırpınan bir millətin bu gün gərək daşı da, torpağı da, günəşi, ayı da vuruşsun!»

«– Ustad, bəlkə yenə bir Koroğlu nərəsi çəkəsən. Qoy, babalarımızın ruhu misri qılıncla səs-səsə verib, düşmən üstünə yerisin».

«– Nərədən keçib, mənim balam. Ya xalq öz içindəki mütiliyi, itaəti, get-gedə vərdişə dönən «dözüm» şakərini ayağı altında dikəltməli, ya da taleyi ilə barışıb, köks ötürə-ötürə Allahdan imdad diləməlidir».

Biz zamanın sehrindəyik, çətin-çətin suallar qarşısındayıq: «Neyləyək, necə eləyək?» Bu suallara canımızla, qanımızla, taleyimizlə cavab verməliyik».

...Yadıma 1945-ci ilin güllü-çiçəkli yazı gəlir. İlk dəfə Bülbülün səsini qələbə sevincinə bürünmüş həmin o günlər-

də davadan sağ-salamat qayıtmış Qənbər kişinin özü ilə gətirdiyi və bütün kənd camaatının möcüzə kimi baxdığı patefondan eşitmişdim. Bülbül necə də şövqlə oxuyurdu:

*«Kətan köynək, bəndi gümüş,*
*Yaxan düymələ, düymələ...»*

Bu ilahi səs elə həmin anlardan qəlbimə köçdü, pöhrə verdi, gül-çiçək açdı...

Tələbəlik çağlarımda ilk getdiyim tamaşa da – «Koroğlu» operasında böyük Bülbülü yaxından gördüm. Bu, həyatımın zirvə sevinclərindən biri idi.

Bülbül səhnədə Allahlıq eləyirdi. O əzəmət, coşğun təb, dağ şəlaləsi kimi çağlayan dupduru səs nələr deyir, nələr danışırdı?!

Dastandan sevdiyim, vurğunu olduğum Koroğlunun qiyafəsində böyük Bülbülün zalı titrədən çağırış səsi tamaşaçıların ürəklərini bir-birinə qoşmuşdu:

*«Hoydu, dəlilərim, hoydu,*
*Yeriyin düşmən üstünə!»*

Hərdən qəribə bir hiss keçir ürəyimdən. Deyirəm nə olaydı, bir möcüzə baş verəydi, Koroğlu – Bülbül yel qanadlı Qıratını yurdun bu başından o başına çapıb, misri qılıncı ilə göylərimizə «QƏLƏBƏ» sözünü yazaydı...

Bu ümid neçə vaxtdır ki, ürəyimdə yurd salıb.

Xalqımızın müdrik sözü var: «Ümid öldü – insan öldü».

Elə bizi yaşadan da, gələcəyə aparan da ümiddi – heç vaxt öləziməyən, ölməyən ümid.

...1959-cu il... Mən o zaman universitetin əyani şöbəsində oxumaqla yanaşı, həm də radioda çalışırdım.

Yadıma gəlir, radioda ərəb dilində verilişlərin yayımına başlanmalıydı.



Baş redaktorumuz Muxtar Hacıyev bu münasibətlə bi neçə sənət adamının təbrikini lentə almağı mənə tapşırmışdı.

Bülbül ilə onun iş yerində – Konservatoriyada görüşdüm Ustad məni xeyli sorğu-suala tutdu. Sözünün əvvəli də, sonı da musiqimiz idi, dilimiz idi.

O, Azərbaycanın ayrı-ayrı bölgələrinə təşkil etdiyi ekspedisiyalardan, topladığı xalq mahnılarından, bu sahədə gələcəkdə görəcəyi işlərdən çox həvəslə danışırdı.

Yadımda belə qalıb ustadın sözləri:

«Bizim dilimiz başdan-başa musiqidir, poeziyadır. Bı mənada italyan dili də onun gözəlliyi qarşısında baş əyə bilər.

Sənətkar öz dilində elə oxumalıdır ki, bu dili başa düşməyənlər belə ləzzət alsınlar, bu dildə oxumağı arzulasınlar.

Mənim Moskvada 150-yə qədər Azərbaycan dilində ifam var ki, Moskva vasitəsilə bütün dünyaya verilir.

Dilimiz bizə əmanətdir, əmanətə xəyanət ola bilməz. Biz onu zərif çiçək kimi qorumalıyıq, ürəyimizi, göz bəbəyimizi qoruduğumuz kimi qorumalıyıq!

Şadam ki, dilimizin qanadları möhkəmləndikcə üfüqləri də genişlənir. Bu gündən belə mahnılarımız qızmar Ərəbistan çöllərində, Dəclə və Fərat sahillərində yaşayan insanların da qəlbindən yol salacaq, o yerlərdə seviləcək, uca tutulacaq».

Dilimizlə, onun qorunması ilə bağlı ziyalılarımızın bugünkü narahatçılığı, həyəcan təbili böyük Bülbülün 40 il qabaq dediklərilə həmahəng səslənir.

Mənim ölməz sənətkarımızla başqa bir unudulmaz görüşüm 1961-ci ilin aprel günlərinə təsadüf edir.

...İlk bəşər övladı – sovet vətəndaşı Yuri Qaqarin kosmosa qalxmışdı. Dünya bu sevinci yaşayırdı.

Mən bir radio jurnalisti kimi səsyazan aparatımı çiynimə alıb, Bülbülün çoxdan tanıdığım mənzilinin zəngini basdım.

Qapını özü açdı, evdə tək idi. Çay təklif eləyib, sonra şirin bir söhbətə başladı.

O, birdən dayanıb üzümə baxdı və gülümsəyərək:

– Bir gün boş vaxtınızda geniş söhbət eləyərik, – dedi. – İndi isə əsas işimizi görək.

Mən sevincək halda «reportyor»u işə saldım.

Bülbül bir insan kimi, sənətkar və filosof kimi danışırdı, böyük ürəklə danışırdı. Fikrini belə bir istəklə sona çatdırdı: «Arzum budur ki, bizim Azərbaycan mahnıları kosmosa qalxsın, kosmos ənginliyindən, o ucalıqdan dünyamızı salamlasın. İndi necə ki, Qaqarin göydən bizi salamlayır, biz də yerdən onu...»

İki-üç ay qabaq qəzetlərdən birində oxudum ki, Amerika kosmik gəmisində bir Azərbaycan mahnısı dünya xalqlarının mahnı karvanına qoşulub.

Ürəyimdən bir səs qopdu: «Ustad, gözlərin aydın, arzun çin oldu!»

Bülbül Azərbaycanımızın qəlbindən qopub gələn, ürəklərdə yuva quran bir sənətkardır. Onu sadə insanlar da, dahilər də, hətta tiranlar da sevirdi.

Stalinin bağ evindəki vallar kolleksiyasında Bülbülün də valı olub.

Onun silsilə dağlar kimi sıralanan zirvələri var: Koroğlu zirvəsi, «Sənsiz» zirvəsi, «Ölkəm» zirvəsi...

Əlçatmazdı bu zirvələr!

Bunu illər, nəsillər deyir, axıb gedən zaman deyir.

...Bir neçə il qabağın söhbətidir. Fransa paytaxtında ezamiyyətdə idim.

Ölkənin radio və televiziyalarının təcrübəsi ilə tanış olmalı idim.

Şəhərin lap mərkəzində – Eyfel qülləsindən bir azca aralıda yerləşən «Le Biera» otelində qalırdım. Bir axşam nömrəyə lap gec qayıtdım. İkinci mərtəbəyə qalxıb, qapını açmaq



istərkən qulağıma tanış, doğma bir səs gəldi. Bülbül «Sənsiz»i oxuyurdu...

*«Hər gecəm oldu kədər, qüssə, fəlakət sənsiz...»*

Donub yerimdə qalmışdım. Bir təşnə kimi «Sənsiz»i içir, içirdim. Fikirləşirdim: «Bülbülün səsi necə gəlib çıxıb bu uzaq diyara? Kimdir onu oxutduran?»

Bilmirəm neçə dəqiqə beləcə qapı ağzında «əsir» oldum. Düşünürdüm: «Döyüm bu qonşu qapını, görüm kimdi bu. Nəçidi, hansı məmləkətdəndir?»

Düzü tərəddüd elədim. Yad yerdə bu, bəlkə də qəbahət sayıla bilərdi. Ancaq maraq üstün gəldi...

Tanış olduq. Üç qardaş idi. İsinişdik, doğmalaşdıq.

Əsilləri Təbrizdən idi. Parisə qardaşların hərəsi bir şəhərdən gəlmişdi – Londondan, Frankfurt-Mayndan və Madriddən. Böyük qardaşın adı Savalan, ortancılınkı Araz, kiçiyinki Xəzər.

Zarafatla dedim:

– Vətən adlarından buket bağlamısınız.

Xəzər doluxsundu:

– Ancaq nə yazıqlar ki, pərən-pərən olmuşuq, Təbrizə qayıda bilmirik. Vətən üzünə həsrətik.

Araz onun fikrinə qoşuldu. Savalan əlini çiynimə qoydu:

– Neçə ildir ki, qismətimizə qürbət düşüb. Yaxşı ki, siz varsınız, Bakı var, Bülbül kimi dünyanı mat qoyan sənətkarlarımız var.

O, başının işarəsi ilə maqnitofon kasetlərini göstərərək:

– Hamısı Bülbülün mahnılarıdır, – dedi. – Amerikada çox baha qiymətə almışam. Tutya kimi qoruyuram. Bircə gün Bülbülə qulaq asmasam, bəlkə də Vətən xiffətindən ölərəm. Bülbül hər gün məni mahnıları ilə Təbrizə, Bakıya aparır, ovundurur bu zəngin Avropada.

Araz qəfildən yanıqlı bir bayatı çəkdi:

*Arazı ayırdılar,*
*Qum ilə doyurdular,*
*Mən sizdən ayrılmazdım,*
*Zülm ilə ayırdılar.*

Araya qəm sükutu lələk saldı. Kövrəldik. Savalan yenə maqnitofonunun düyməsini basdı, Bülbül cəh-cəh vururdu. Mən özümü unutmuşdum. Xəyalən Cıdır düzündən doğma üfüqlərə baxırdım. Necə də təsirli anlar idi!

Savalan dərindən ah çəkərək dedi:

– Bizə bəzən bədbəxt xalq deyirlər. Mən sizin hər birinizdən soruşuram: Bülbül kimi dahini yetirən xalq bədbəxt ola bilərmi?

Dördümüz də eyni vaxtda ahənglə cavab verdik:

– Yox!

Savalan qanadlandı. Baxışlarındakı bulud bircə anda əriyib getdi, sifəti nurlandı. Elə bil indi o başqa bir adam olmuşdu. Ürəkdən gələn səslə:

– Bizim Bülbül dünyanın Bülbülüdür, – dedi. – Dünya durduqca Bülbül də duracaq, Azərbaycan da!

Ürəyimdə qürur, fərəh qarışıq bir hiss çırpındı, Savalanın sözləri bir işıq kimi qəlbimə axdı: «Bizim Bülbül – dünyanın Bülbülü!» bu sözlər ürəyimin dərinliklərində bir nəqərata, nidaya döndü. Öz-özümə deyirdim: «Bülbül doğrudan da dünyanın Bülbülüdür». Onun özü də, mahnıları da ölməzdir, əbədidir. Bülbül kimi dahini bəşər aləminə bəxş edən xalq xoşbəxt olmalıdır!

Bəs niyə onun taleyinə bu qədər ağrılar, acılar yazılıb?».

***Nahid HACIZADƏ***
***1998-ci il***



## *YENİ İL NAĞILI*

Siz Azərbaycanda olmusunuzmu? Hərgah olmamısınızsa, mütləq ora gedin. Bura günəşli, bol meyvəli, ılıq dənizi, qonaqpərvər insanları olan məkandır. Bakı şəhəri isə gözəl memarlığına görə ən yaxşı dünya paytaxtları ilə bəhsə girə bilər. Bu, qədim qüllələr və nadir metro stansiyaları, inci səpələyən fəvvarələr və uca minarələr, neft buruqları və liman kranları, muzeylər və abidələr şəhəridir.

Şəhər deyil, külək notları üstə köklənmiş musiqidir.

Azərbaycan şeir sənətinin inkişafı üçün çox iş görmüş görkəmli sovet şairi Vladimir Luqovskoyun yazdığı kimi: şəhər deyil, Şərq yollarının ilğımıdır. Bakının əsrarəngizliyi yeni il ərəfəsində xüsusilə duyulur. Qarın heç izi-tozu da yoxdur. Yalnız səhərlər adda-budda, künc-bucaqda qısılmış şimal tülküsünün dərisinə oxşayan bir ovuc qar görürsən. Günortaüstü onlar da yox olur. Yalnız limanda uçan qağayılar ağarır. Dəniz havadan mülayimdir. XII əsrin memarlıq möcüzəsi olan Qız qalası əzəmət mücəssəməsi kimi əsrlərin keşiyində dayanıb. Bir az aralıda kiçik bağ var. Mənim sevimli bağım, qədim evin şəbəkəli eyvanları, məhəccərləri fonunda keçən əsrin görkəmli şairəsi, şərqin dahi qızı, daşdan yonulmuş Natəvan şahanə görkəmlə əyləşib. Ətraf hər yer – səbətlər, vitrinlər gül-çiçəklə bəzənib. Yeni ili çiçəklə, mahnı ilə, rəqslərlə, açıq havada, tar-qavalla qarşılayırlar.

Natəvan oturacağında daşa dönüb. Bəlkə o, şeir aləmindədir, əyləşdiyi taxt da səs-küylü şəhərin mərkəzində deyil, ətirli şeir bağçasındadır. Bircə ənənəvi bülbülün, qızıl-gülə aşiq olmuş bülbülün cəh-cəhi çatmır. Amma qızılgül var, budur. Mən al-qırmızı qızılgülü alıb, Natəvanın soyuq, hərəkətsiz qolunun üstünə qoyuram.

Qəfildən əl tərpəndi və cana gəldi. Mən də elə hiss etdim ki, o, minnətdarlıqla yüngülcə əlimi sıxdı. Ağır daş libasın ipək qatları xışıldadı. Natəvan taxtından qalxıb mənə tərəf addımladı. Heyrətdən ağzım açıla qaldı. Natəvan isə halını pozmadan, qızılgülü yellədə-yellədə mənə xitabən dedi:

– Sən şeiriyyətin həmişəyaşıl bağında bülbülün cəh-cəhini eşitmək istəyirsən? Gedək mənimlə.

Budur, biz al-əlvan çılçıraqlarla bayramsayağı bəzənmiş gur şəhər küçəsilə gedirik. Xaqani küçəsi. Uca bina. Divara xatirə lövhəsi vurulub. Böyük Azərbaycan müğənnisi Bülbülün profili. Pilləkənlə yuxarı qalxırıq. Natəvan zəngin düyməsini basır. Melodiyalı zəng səsi eşidilir. Qapı açılır. Biz bülbül cəh-cəhinə oxşayan qədim xalq mahnısının üstümüzə qəfil səpələnən ətrindən bihuş halda girəcəkdə yerimizdən tərpənə bilmirik.

Bülbül bizim Azərbaycan bülbülümüzdür. Onun səsi burada özünə əbədi məskən salıb. Ekskursiyaçı, xoşsimalı cavan qız bizə izah edir ki, Bülbül müsəlman Şərqindən İtaliyada məşhur ustad Rafaelo Qranidən dərs almış ilk vokalçıdır.

Otaqlara keçirik. Burada hər şey Bülbülün sağlığında olduğu kimidir. Hətta köhnə «Bekker» pianosunun qapağı da açıqdır, elə bil ev sahibi indicə içəri girəcək və tanış melodiyaları çalacaq.

Mən Natəvana deyirəm:

– Mənim gənclik çağlarımda Bülbülün səsi bütün reproduktorlardan süzülürdü, vallarda eşidilirdi, onu bütün dünya dinləyirdi. O, bütöv bir nəslin sevimli müğənnisi idi.

Natəvan sevincək deyir:

– Axı, o mənim həmyerlimdir. O, əslən Şuşadandır, orada əsrlər boyu şairlər, musiqiçilər doğulub. Sehrli Bülbül, qızılgülə aşiqliyindən oxu.

Yenidən Bülbülün səsi dalğalanır. Dönüb baxıram. Stolun üstündə SSRİ-İtaliya Cəmiyyəti Rəyasət Heyətinin üzvü Bülbülə dostluq əlaqələrini inkişaf etdirməkdə fəal iştirakına görə verilmiş Haribaldi ulduzu bərq vurur.



Onunla yanaşı zərif bir nişan – uçan quşun silueti görünür. Bu, Misir prezidenti Nasirin Bülbülə bağışladığı sülh göyərçinidir. Teleqraf vərəqində sülh uğrunda böyük mübariz şair Nazim Hikmətin təbrik sözləri yazılıb. Müğənni, rəssam, şair və bəstəkarların qardaşlıq birliyi ideyalarının hopduğu bu evin sirli və gözəl atmosferi var. Bu evin devizi dostluqdur.

Ev muzeyinin suyuşirin Adilə xanımı buradakı qeyri-adi görüşlərdən söhbət açır.

– Bizim muzeyə dünyanın hər yerindən gəlirlər. Elə indicə, Sizin gəlişinizdən qabaq bir dəstə bolqar tələbəsi, bolqar yazıçısı Nikola İnçev, doktor Petraşova gəlmişdilər. Bolqar bəstəkarı Nikola Dimitrov da bura qonaq gəlib. Bülbülün oğlu, tanınmış Azərbaycan bəstəkarı və öz mahnılarının ifaçısı Polad Bülbüloğlu isə bolqar-sovet dostluğu gənclər klubunun təşkil etdiyi görüşlərin dəfələrlə iştirakçısı olmuşdur. Polad Bülbüloğlu Bolqarıstanda öz əsərlərini – «Simfonik poema»nı, kinofilmlərə yazdığı musiqini, yeni mahnılarını və kamera pyeslərini dinləyicilərə təqdim etmişdir.

Mən ucadan:

– Polad Bülbüloğlu necə də yaraşıqlıdır! Atasına necə də oxşayır, – deyirəm.

– Bizim Şuşada yaraşıqlı olmayan adam yoxdur. Ağıl və istedad sahibi olan hər adam öz sənəti ilə xalqa xidmət edir, deməli, gözəldir, – sözlərini ciddiyyətlə deyən Natəvanın gözəl, nurlu çöhrəsi yenidən daşa dönür.

Al-qırmızı qızılgül Bülbülün büstü yanına qoyulur. Natəvanın daş əli məni küçəyə tərəf çəkir. O yenidən daş taxtına əyləşir. Yoldan ötənlər onun yoluna qızılgüllər səpirlər.

Yeni il nağılı davam edir.

***Marqarita NOQTEVA***
***Moskva, 1987-ci il***

## MƏNİM USTADIM

Əsgəri xidmətimi başa vurduqdan sonra yenidən A.Zeynallı adına Musiqi texnikumuna qayıtdım.

Bülbülün ən sevimli tələbəsi Firidun Mehdiyev mənə dərs dedi. Məni Bülbülün yolu ilə apardı.

Bir gün o, Bülbülə dedi ki, maestro, sizi imtahana dəvət edirik. Bülbül gəldi. Mən serenadalar oxudum. İmtahandan sonra maestrodan soruşdular ki, Oqtay necə oxuyur. Bülbül dedi: «Onun bir parça çörəyi var. Çörəyin üstünə çəkilən yağı özü qazanmalıdır».

Məncə, Bülbül Azərbaycanın bir nömrəli müğənnisidir. O, çox orijinal insan idi.

Olduqca enerjili adam idi. O, Rəşid Behbudovun və Müslüm Maqomayevin müəllimi olub. Müslüm onun evində böyüyüb. Məhz bu insanlar xalq musiqisini klassik səviyyəyə ucaltdılar.

Bülbül sözün əsl mənasında ustadlar ustadı idi.

***Oqtay AĞAYEV,***
***xalq artisti***



## BÜLBÜL İLƏ GÖRÜŞLƏRİM

Azərbaycan xalqının böyük müğənnisi Bülbül Məmmədov ecazkar səs sahibi idi. Onun ilahi səsi dağ şəlaləsi kimi saf, şaqraq, günəş kimi atəşli idi.

Zəngin mənəviyyatlı, hərtərəfli istedad sahibi olan bu insanın böyük ürəyi var idi. Bülbülü bir dəfə görənlər, səsini eşidənlər onu yenə görmək, səsini yenə eşitmək istəyirdilər.

Bakıda fəhlə fakültəsində oxuduğum illərdə yataqxanada yaşayan kurs yoldaşlarımla onun konsertlərinə gedirdik. Biz hətta onun özünəməxsus bir ədа ilə oxuduğu «Sandığa girsəm neylərsən» mahnısını əzbərləmişdik.

Biz – bir otaqda qalan dörd dost hər ay təqaüdümüzdən müəyyən məbləğ ayırırdıq ki, Bülbülün oynadığı tamaşalara bilet alaq. O illərdə heç ağlıma da gəlməzdi ki, belə böyük ustadla nə vaxtsa yaxından tanış olacağam.

Bülbülün Azərbaycan SSR Ali Sovetinə deputatlığa namizədliyinin irəli sürülməsi şərəfi Quba zəhmətkeşlərinə nəsib olmuşdu. Bizim rayon üzrə Azərbaycan SSR Ali Sovetinə altı nəfərin namizədliyi verilmişdi. Bülbülün adı siyahıda birinci idi. Redaktoru olduğum «Qızıl Quba» qəzetinin əməkdaşları seçkiqabağı tədbirlərin işıqlandırılmasına xüsusi diqqət yetirirdilər. Qəzetimiz başqa namizədlərlə yanaşı, rayon zəhmətkeşlərini Bülbülün həyatı və yaradıcılığı ilə yaxından tanış etməyə çalışırdı.

Fəal müxbirimiz, rayon ziyalılarının nümayəndəsi Əbumüslüm Babayevin, Sona Əhmədovanın, həmçinin Digah kolxozunun üzvü Daşdı Daşdıyevin «Bizim layiqli namizədimiz», «Xalqın layiqli elçisi», «Xalqın sevimli müğənnisi» məqalələrini oxucular sevinclə qarşılamışdı.

Bülbülün Azərbaycan SSR Ali Sovetinə deputatlığa na-

mizədliyi Quba rayonunun Alpan seçki dairəsini əhatə edən kəndlərin zəhmətkeşləri tərəfindən irəli sürülmüşdü...

Bülbül Qubaya seçicilərlə görüşə gəldi. Rayon partiya komitəsində onun büro üzvlərilə görüşü oldu. Alpan seçki dairəsində deputatlığa namizədlə görüş vaxtı müəyyən edildi. Bülbül ilə yaxın tanışlığım da elə buradan başladı.

Xoşbəxtlikdən deputatlığa namizədlə görüşlərin təşkili və keçirilməsi, büro üzvü kimi mənə tapşırılmışdı.

Gündüz saat 11 idi. Deputatlığa namizədin, eləcə də onu müşayiət edənlərin maşınları Qudyalçay üstündəki körpünü keçərək Qırmızı Qəsəbə yüksəkliyinə qalxdı və Digah yolu ilə Alpan kəndinə üz tutdu.

Camaat hörmətli qonağı yolboyu hərarətlə, mehribanlıqla qarşılayırdı. Lalələr, nərgizlər və al qızılgüllər bu təntənəyə özgə bir gözəllik verirdi!

Zurnaçılar dəstəsi ürəklə çalır, öz ustalıqlarını göstərmək istəyirdi. Onu qarşılayan adamların səmimiyyəti, sevinci, at çapan igidlər Bülbülün ürəyində öz xalqına, doğma yurduna, Vətəninə böyük məhəbbət hissi oyadırdı.

O, öz sevincini gizlədə bilmir, hey gülümsəyirdi. Maşınlar gah yavaş gedir, gah da sürəti artırırdı. Çünki Bülbülü qarşılayanların sayı çox idi, ona görə də maşınlar böyük insan axını içərisindən çətinliklə keçirdi.

Alpan kəndinin kolxoz idarəsi qarşısındakı meydana böyük izdiham toplaşmışdı. Qırmızı parça salınmış stolların üstündə təzə-tər çiçəklər ətir saçırdı...

İclası kənd ağsaqqalı, Lenin ordenli Oruc müəllim açdı. Fəxri rəyasət heyəti seçildi. Sonra o, namizədin vəkilinə, yəni bu sətirlərin müəllifinə söz verdi. Mən namizədin həyatı, qədim Şuşada keçirdiyi uşaqlıq illəri barədə danışdım. Alpanlılar seçki günü bir nəfər kimi Bülbülə səs verəcəklərini bildirdilər.

İclasdan sonra geniş süfrə açıldı. Xoş söhbətlə keçən qonaqlıqdan sonra buradakı adamların böyük bir dəstəsi Bülbül



ilə şəkil çəkdirdi. Bülbül razılıqla: Bu çox yaxşı yadigardır, – dedi.

Ertəsi gün mən redaksiyada – öz kabinetimdə oturmuşdum, Bülbül isə kabinetin küçəyə açılan pəncərəsi önündə gəzişə-gəzişə mənə Alpan kənd məktəbinin vəziyyəti, mədəniyyət problemləri və başqa məsələlər barədə çoxlu suallar verirdi.

Cavablarım onu qane etsə də, bəzi məsələlərlə bağlı o öz mülahizələrini bildirirdi... Qonşu otaqdan həzin bir mahnı eşidildi. Bülbül qapıya yaxınlaşdı. Bu həzin səs «Kəsmə şikəstə»yə keçdi, sonra zəngulələr uzaqlaşdı və eşidilməz oldu.

Bu, balaca Fatma Mehrəliyevanın səsi idi. O, pəncərələri silən süpürgəçiyə kömək edirdi.

Bülbül soruşdu:

– Bu qız kimdir?

Cavab verdim ki, o bizim mətbəənin ocaqçısı Məmməd kişinin qızıdır. On iki yaşı var. Anası rəhmətə gedib. Bizim redaksiyanın böyründə yaşayırlar.

Bülbül saatına baxaraq:

– İndi yoldaş Hüseyn Şadrud oğlu bizi gözləyir, gedək, – dedi.

Biz rayon partiya komitəsinin birinci katibinin yanına getdik. Bülbül onunla salamlaşdı və stolun üstündən bir vərəq kağız götürüb Fatma Mehrəliyeva haqqında məndən öyrəndiklərinin hamısını qeyd elədi.

Bülbül səhəri gün raykom katibi ilə redaksiyaya gəldi. Əyləşmədən, özünəməxsus təbəssümlə dedi:

– Yoldaş redaktor, əgər mümkünsə Fatmanı çağırın, onunla tanış olaq.

Mən Fatmanın atası Məmməd kişini çağırdım. Bülbül ilə söhbətdən sonra Məmməd kişi gedib qızını gətirdi.

Fatma kasıb geyimdə idi. Salam verib, bir yanda dayandı. Bülbül ona yaxınlaşıb başını sığalladı:

– Qızım, dünən eyvanda oxuyan sən idin?
Fatma cavab verdi:
– Bəli, mən idim.
– Afərin, qızım. İndi burda o mahnını oxuyarsan?
– Baş üstə.

O, bir az yana çəkilib oxumağa başladı. Onun səsi, ifası Bülbülün çox xoşuna gəldi. Fatmadan soruşdu:

– Qızım, atan icazə versə, Bakıya oxumağa gedərsən?

Fatma əvvəlcə hörmətli qonağa, sonra dönüb atasına baxdı. Məmməd kişi dedi:

– Mən razıyam. Göndərin, qoy oxusun.

Bülbülün sifəti nurlandı:

– Qızım, sabah səni Bakıya, musiqi məktəbinə göndərərəm, – dedi.

Sonra Məmməd kişiyə razılığını bildirdi.

Səhəri gün səliqə ilə geyinmiş Fatmanı atası və redaksiyanın əməkdaşı Ağaxanov Bakıya apardı.

Axşam Bülbül şəhərlə tanış olmaq istədiyini bildirdi. Dedi ki, çıxaq bir şəhəri gəzək.

Başı qarlı Şahdağın ətəyində salınmış bağlar diyarı qədim Quba yaşıllıqlara bürünmüşdü. Şəhərin yaşıl guşələrindən biri olan Bulvar küçəsindən keçəndə hiss elədim ki, bu xiyaban böyük müğənninin çox xoşuna gəlib.

Azərbaycanın cənnət guşələrindən sayılan Şuşada doğulmuş Bülbül təbiət vurğunu idi.

Quba şəhər teatrında «Şah Abbas və Xurşidbanu» tamaşası gedirdi. Zalda bir dənə olsun boş yer yox idi. Beş-altı nəfərlik kiçik lojada Bülbül ilə yanaşı oturmuşduq. Tamaşaçılar onu hərarətlə alqışladılar. Alqışlar pərdə açılanadək kəsilmədi.

Qubanın əhalisinin sayını və camaatın incəsənətə məhəbbətini nəzərə alan Bülbül zalın kiçik olması barədə söhbət saldı. Səhəri gün o teatrın baş rejissoru İsa Musayevlə,



aktyorlarla, eləcə də başqaları ilə teatr binasını nəzərdən keçirdi, tikinti mütəxəssisləri ilə ətraflı söhbət elədi.

Binanın zirzəmisi beş metr dərinliyində idi. Zal kiçik, səhnə isə aktyorların gen-bol fəaliyyəti üçün o qədər də əlverişli deyildi.

Bülbülün təşəbbüsü və respublikanın əlaqədar təşkilatlarının köməyilə teatr binasında əsaslı təmir işləri başlandı. Bir neçə ay ərzində tamaşa zalı və zirzəmi qaydaya salındı. Döşəmə xeyli aşağı endirildi və nəticədə də binanın içəridən hündürlüyü 25 metrə çatdı. Lazım olmayan pəncərələr hörüldü, ventilyasiya quruldu, divar boyu 200 nəfərlik lojalar tikildi. Bir sözlə, teatr binası başqa görkəm aldı.

* * *

İndi qubalılar çox sevdikləri bu binanın yanından ötəndə Azərbaycan xalqının böyük oğlu, unudulmaz müğənni, bir vaxt xalq elçisi kimi onları Azərbaycan SSR Ali Sovetində ləyaqətlə təmsil edən ölməz Bülbülü məhəbbətlə, minnətdarlıq hissilə xatırlayırlar. Bizcə teatrın divarına Bülbülün barelyefi olan xatirə lövhəsi vurulması və binanın qarşısında isə onun büstünün qoyulması qubalıların ürəyincə olardı. Bu arzunun yerinə yetməsi Quba sakinlərinə böyük sevinc bəxş edərdi.

***Gülhüseyn KAZIMLI***
***«Qızıl Quba» qəzetinin***
***Redaktoru***

## *BÜLBÜL BİR MÖCÜZƏ İDİ*

Professional vokal sənətimizin banisi Bülbül xatirimdə həmişəlik qalmışdır. Mən onu ilk dəfə yeniyetməlik çağlarımda – təhsil aldığım musiqi məktəbində görmüşdüm. Bülbül səliqəli geyimi və görkəmilə seçilirdi. Müəllimlər, tələbələr dərs dediyi sinfin qarşısında yığışır, onun pedaqoqluq və ifaçılıq məharətini dərin maraqla izləyirdilər.

Atam musiqiyə, incəsənətə bağlı olmaqla, Bülbülün vurğunu idi. Elə bir konserti olmazdı ki, məni ora aparmasın.

Bülbülün ifasında Azərbaycan xalq mahnıları, həmçinin bəstəkarlarımızın əsərləri böyük hərarətlə qarşılanırdı. Rus və Avropa bəstəkarlarının əsərləri də müğənninin repertuarında geniş yer tuturdu.

Əllinci illərin əvvəli… Filarmoniyada Bülbülün solo konserti idi. O, birinci hissədə simfonik orkestrin müşayiətilə çıxış edirdi. Konferansye «Təbrizim» mahnısını elan etdi. Mahnının musiqisi unudulmaz sənətkarımız Niyazinin, sözləri isə cənub şeirlərilə şöhrət qazanmış Süleyman Rüstəmin idi. Orkestrə müəllif dirijorluq edirdi. Salonda iynə atsan yerə düşməzdi.

Niyazi musiqisi, Süleyman Rüstəm şeiriyyəti Bülbülün səsinə qoşularaq ürəkləri fəth edirdi. Bülbül oxuyurdu… Ana Təbrizə dərin bir sevgi var idi, məhəbbət yanğısı var idi onun səsində. Bülbülün səsi yanar bir çaya dönmüşdü, ürəkləri yandırıb yaxırdı…

*Qoymaram yadları girsin qoynuna,*
*İzn ver, qolumu salım boynuna,*
*Sənin bayramına, sənin toyuna,*
*Dili bir, qanı bir qardaşın gəlib,*
*Dərdinə aşina sirdaşın gəlib.*

*Nədir o mənalı, dərin baxışlar?*
*Nədir gözlərindən axan yağışlar?*



*Nədir qəlbindəki payızlar, qışlar?*
*Yetim tək boynunu burma, Təbrizim.*
*Məlul-məlul baxıb, durma, Təbrizim.*

*Ağlasan ağlaram, gülsən güləröm,*
*Yaşasan yaşaram, ölsən ölərəm,*
*Varımı səninlə yarı bölərəm,*
*Gəl bir də üzündən öpüm, Təbrizim!*
*Başına gül-çiçək səpim, Təbrizim!*

Mahnı qurtaranda alqışlar qopdu. Salon coşğun dənizi xatırladırdı. Gözlər yaşarmışdı…

Tale elə gətirdi ki, mən uzun illər radio və televiziyada çalışdım. Bülbül tez-tez radioya, televiziyaya gəlirdi. Kollektivlə görüşü həmişə çox səmimi keçirdi. Onun qiymətli təklifləri musiqi kollektivlərimizin və ifaçılarımızın inkişafında əvəzsiz rol oynamışdır.

Xoşbəxtəm ki, opera səhnəmizdə mən Bülbülün ifasında Koroğlu obrazını görmüşəm. Bununla yanaşı M.Maqomayevin «Nərgiz» operasında Əlyar, Qliyerin «Şahsənəm» operasında Aşıq Qərib, Q.Qarayev və C.Hacıyevin «Vətən» operasında Aslan, Niyazinin «Xosrov və Şirin» operasında Fərhad, Ə.Bədəlbəylinin «Nizami» operasında Nizami və başqa obrazları da bu sıraya daxildir.

Ölməz Üzeyir Hacıbəyovun dahi Nizaminin qəzəllərinə yazdığı «Sənsiz» və «Sevgili canan» romanslarının ilk və əvəzsiz ifaçısı da Bülbül olmuşdur.

O, bizim xalq mahnılarının, aşıq musiqimizin, muğamlarımızın öyrənilməsində, həmçinin bəstəkar əsərlərinin ifaçılığında, inkişafında böyük, mən deyərdim əvəzsiz xidmət etmişdir.

Təkrarolunmaz, geniş diapazonlu, gözəl, axıcı lirik-dramatik tenor səsə malik olan Bülbülün çoxşaxəli yaradıcılığı professional vokal sənətimizin inkişafında əvəzsiz bir xəzinədir.

**Tofiq AXUNDOV,**
**jurnalist**
**15.08.2002**

## *BÜLBÜL SƏNƏTİNƏ MƏHƏBBƏTLƏ*

Hörmətli Adilə xanım!

Martın 16-da bizim İnstitutda illik elmi konfrans keçirildi, burada mən «SSRİ xalq artisti Bülbülün yaradıcılığı və Azərbaycanda vokal ifaçılığının yaranması məsələləri» (Bakı ş. Xatirə Muzeyinin fondundakı materiallar əsasında) mövzusunda məruzə etdim.

Necə bilirsiniz bizim kafedranın seksiyasındakı konfransın Proqramında altı məruzə qeyd olunmuşdu, mən ikinci çıxış etdim və görünür, auditoriya mənim çıxışımın materialları ilə hədsiz maraqlandığı üçündür ki, çıxışımın vaxtını məhdudlaşdırmadılar, qalan məruzələri kafedranın gələcək iclasına keçirdilər. Bülbülün adı mənim kolleqalarıma, şübhəsiz, tanış idi, lakin onlar da mənim kimi muzeyə gəlməmişdən, sənətkarın əzəmətli şəxsiyyətini, onun qəhrəmanlığını (müğənni-vətəndaş-vətənpərvərin yaradıcılıq yolunu mən məhz bu cür səciyyələndirdim) təsəvvür belə etmirdilər. Çıxışım yazılışlardan, Sizin kitabınızdan götürülmüş ikonoqrafik materiallardan, «Sovet musiqisi»ndə və vallar dəstindəki məqalələrdən bol-bol misallarla müşayiət olunurdu. Bülbülün səsi və ustalığı hamını heyrətə gətirdi, xüsusilə italyan ariyalarını və Pyotrun mahnısını, Azərbaycan xalq mahnıları və təsniflərini ilk dəfə eşidirdilər. Musiqi tarixçiləri, nəzəriyyəçilər və folklorçular üçün müğənninin elmi və folklorçuluq fəaliyyəti, F.Əmirovun əsərlərində onun iştirakı, onun bəstəkara köməyi məhz bu cür səciyyələnmişdir – Azərbaycanda opera sənətinin ya millətli sovet incəsənətinin ideyaca möhkəm əqidəli xadimi Bülbül haqqında bunları bilmək maraqlı idi.

Bizim vokalçılar üçün professor Bülbülün konservatoriyada müğənnilərlə iş üsulları barədə məlumat almaq da maraqlı olardı. Təəssüf ki, məhz bu materiallar mənim sərəncamımda demək olar ki, yox idi. Yalnız evdə 1941-ci ildə çapdan çıxmış «Vokal təhsili üzrə ümumittifaq konfransının materialları» məcmuəsini tapdım ki, burada Bülbülün çıxış vardı. Lakin bu profilli məruzə gələcəyin işidir, çalışaram onu da yazım.

İndi növbədə USSR Teatr, musiqi və kinematoqrafiya muzeyində Bülbülün xatirə gecəsinə hazırlıqdır. İnzibati işçilərlə prinsipial razılaşmanı artıq əldə etmişəm, materiallar da müəyyən qədər konfransda sınaqdan keçirilib. Əlbəttə, sırf teatr auditoriyasını nəzərə alıb, çox şeyi yenidən işləmək lazım gələcək.

Gərək Sizinlə bərabər fotovitrin barədə fikirləşək, bu fotovitrin məruzə vaxtı nümayiş olunar, sonra da, ola bilsin, muzeyin ekspozisiyasına daxil edilərdi.

Mənim Azərbaycanla bağlı işlərim bu cürdür, yayda mütləq yenidən Azərbaycana gəlmək istəyirəm. Tbilisi və Kirovabaddan keçib gəlmək fikrindəyəm ki, Şuşa, Ağdam və Gəncədə (bilirəm ki, indi bura Kirovabaddır) mütləq olum, Bülbülün uşaqlıq və yeniyetmə dövrünü keçirdiyi yerləri gəzim, Dağlıq Qarabağ kəndlərinə gedim, mümkün olsa, Naxçıvana da gedim, ancaq oraya buraxılış vərəqəsi lazımdır. Xəritəni əldə etmişəm, amma Azərbaycan dili dərsliyim yoxdur, Kiyevdə də onu tapmaq mümkün deyil. Sizdən xahiş etməyə də utanıram, amma hərgah onlar Bakıda varsa (qeyri-azərbaycanlılar üçün), yaxud rusca-azərbaycanca danışıq kitabçası, ya da bu cür lüğət olarsa, onları əldə etməklə Sizə çox minnətdar olaram. Xahişlərimlə Sizə əziyyət verdiyimə görə vicdan əzabı çəkirəm.

Azərbaycana gələndə özümü bir qədər sərbəst hiss etmək istəyirəm, nəinki keçənilki kimi; o vaxt söz ehtiyatım 30 sözlə məhdudlaşırdı. Dil öyrənmək qabiliyyətim var, amma Kiyevdə azərbaycanlı dostlarım yoxdur.

Bir xahişim də var: Şuşadakı muzeyin ünvanını yazın,

konfransın proqramını ora da göndərmək istəyirəm, qoy orada da bilsinlər ki, uzaq Kiyevdə də Bülbülün adı çəkilir, onun qəhrəmanlığından xəbərdardırlar.

O ki var yazdım, yəqin Sizi yordum.

Məruzənin yazılmasında göstərdiyiniz köməyə görə və nəzərdə tutduğum, artıq həyata keçmiş ideyama diqqətinizə görə çox sağ olun.

Lütfən mənim salamımı muzeyin əməkdaşlarına çatdırın.

Hörmətlə,

**_Oleq İOVSA,_**
**_dosent_**
**_23.03.1984-cü il_**



## _BÜLBÜLÜN SƏSİ VƏ SÖZÜ_

_Səməd Vurğun Şuşanı anarkən, orada Bülbülün «Qarabağ şikəstəsi»ni dinlədiyini iftixarla ifadə etmişdir. Güman edirik ki, misli olmayan bir musiqi korifeyi təkcə səsinin heyrətedici vüsəti ilə deyil, dilimizin səs incilərini yeni-yeni çalarlarla, yeni-yeni rəng və rayihələrlə təqdim etmək qüdrəti ilə böyük şairi məftun etmişdir. Təəssüf ki, ifaçılıq sənətimizin tədqiqatçıları, şərhçiləri musiqi və söz vəhdəti məsələlərinə toxunanda belə, onu ancaq neqativ məqamdan təhlil edirlər. Halbuki bu, təkcə musiqi ifaçılığı üçün deyil, Azərbaycan dilinin gözəlliyini nümayiş etdirmək və gözəlliyi qorumaq, yaşatmaq, inkişaf etdirmək üçün xüsusi əhəmiyyət kəsb edir._

_Bir jurnalist kimi mənə Bülbül ilə müsahibə aparmaq müyəssər olub._

_Bülbüllə dialoqun tarixi belə oldu: «Azərbaycan gəncləri» qəzeti milli operamızın 50 illik yubileyini (1958) qeyd etməyə hazırlaşırdı. Həmkarım Şahin Quliyevlə mən səhnə ustalarımızla görüşməli olduq. Mən Bülbüllə görüşü seçdim. Konservatoriyaya gəldim. Böyük müəllimi dərsdə tapdım._

_...Gəlişimin məqsədini dedim. Bülbül mənə əyləşməyi təklif etdi, özü isə pianoya dirsəklənib, fikirləşmədən dərhal dedi:_

_– Yaz! O, ara vermədən danışırdı. Kiçik bloknotumun vərəqləri dolmaq üzrə idi. Macal tapıb ona deyə bilmirdim ki, cəmi yarım səhifəlik təəssürat lazımdır. Açığı onun sözünü kəsməyə cəsarət etmirdim. Lakin sürətlə dediyi kəlmələrinin birini də buraxmırdım, yazırdım. Çünki səlis və anlaşıqlı cümlələri məni ovsunlamışdı._

_O, birdən dayandı, bir mənə baxdı, bir də əyilib əlimdəki_

*bloknotda yazdıqlarıma. Ona elə gəldi ki, belə sürətlə deyilmiş sözlərin hamısını yazmaq çətin olduğu üçün fikrini tam yaza bilməmişəm, yəqin bunun üçün: – Hanı, bir oxu görək nə yazmısan? – dedi. Mən oxumağa başladım. Yazdığımı xeyli oxuduqdan sonra Bülbül mülayimcəsinə: – Əşi, sən lap stenoqrafistsənmiş ki, – deyib, dikəldi, gülümsədi, sonra:*

*– Redaktora de ki, necə var elə də dərc eləsin.*

*Əfsuslar olsun ki, böyük ustadın dediklərini qəzetdə tam dərc etmək mümkün olmadı... Həmin mətni – Bülbülün dediklərini sizə təqdim edirəm.*

* * *

Bu il xalqımız Şərqdə, islam dünyasında ilk yüksək opera dramaturgiyası mədəniyyətimizin 50-ci ildönümünü bayram edir. Bu bayram təbiətin gözəl günlərinə təsadüf edir: baharın coşğun çağında, həyatın canlandığı, təbiətin çiçəkləndiyi – bir sözlə, bütün varlığın cuşa gəldiyi günlərdə.

Çox çətindir, qəzet səhifəsində çoxcəhətli, çoxtərəfli, geniş bir mədəniyyətin – musiqi təfəkkürü mədəniyyətinin bütün sahəsini əhatə etmək, bu barədə ətraflı danışmaq, – yalnız onu deyə bilərəm ki, opera teatrı yaratmaq, xalq ruhuna, xalqın, millətin zəngin ənənəsinə, duyğusuna yaxın və tərcüman ola biləcək opera teatrı, opera dramaturgiyası yaratmaq ən yüksək səviyyəli, geniş ümumi mədəniyyətə malik olan xalqa məxsus ola bilər. O da bizim xalqımızdır.

Operamızın inkişafı başda Üzeyir Hacıbəyov olmaq şərtilə, bütün sonra gələn sənətkarlarımızla: kompozitorlarımız, dirijorlarımız, səhnə müəlliflərimiz, rəssamlarımız, simfonik orkestr heyəti, vokalistlərimiz, bütün musiqi təfəkkürünə sahib olmuş adamlarımızın böyük yaradıcılığı ilə əlaqədardır və onların ilk yaradıcılıqlarının ilhamı opera dramaturgiyası ilə başlanmışdır.

Bizim bütün peşəkar sənətkarlarımızın ilk ilham mən-



bəyi xalq operalarımız olmuşdur. «Leyli və Məcnun», «Şah İsmayıl», «Əsli və Kərəm», «Aşıq Qərib», operettalarımızdan «Arşın mal alan», «O olmasın, bu olsun» opera sənətkarlığımızın təməl daşını qoymuş və ilk yüksəliş pilləsi olmuşdur. Bu xalq operaları – opera dramaturgiyamızın ilk tarixini təşkil etmişdir. Həmişə xalqımıza ana laylası çalmışdır. Konservatoriyanın direktoru Cövdət Hacıyev böyük simfoniyalar müəllifidir. Onun kompozitorluğunun ilk böyük yaradıcılığı Qara Qarayevlə birgə yazdıqları «Vətən» operası ilə açılır. Qara Qarayev («Yeddi gözəl», «İldırımlı yollarla» baletlərinin müəllifi) ilk addımını opera ilə atmışdır. İlk peşəkar musiqi anlayışı operamızla bağlıdır.

Koroğlu obrazı elə mürəkkəb və eyni zamanda çətinliyi ilə bərabər, cəlbedici bir yaradıcılıq mənbəyidir ki, gələcək nəsillərin böyük oxuyanlarını həmişə düşündürəcək və onları böyük sənət zirvəsinə çatmağa hazırlayacaq.

Koroğlu surətinin səciyyəvi cəhətləri – o böyük qəhrəmanın şəxsiyyətində olan ən gözəl sifətləri bunlardır: geniş ürək, sevən qəlb, saf duyğu, qəhrəmanlıq, azadlıq uğrunda vuruş, döyüşlərdə bir qılınca beş baş kəsmək, düşməni tar-mar etmək, dağların döşünə çəkilib təmiz hava ala-ala xalqı son qələbəyə çağırmaq.

Belə böyük bir qəhrəmanın paltarını dəyişib, aşıq kimi xanın sarayına gəlməsi, oxuması, atılıb-düşməsi, özünü gizlətmək üçün bir çox dona girməsi, tutulub ağaca sarındıqdan sonra qolundakı kəndiri, zənciri qırıb, yanındakının toppuzunu alıb Həmzənin təpəsinə vuraraq, Qıratın belinə sıçrayıb aradan çıxması, sonra xanın sarayını tar-mar edib sevgili Nigarı, Poladı, Eyvazı azad edərək yenə xalqın arasına qayıtması: bunlar xalqın yaratdıqlarıdır və çox ibrətlidir.

Bu sifətlər, bu surətlər, bu daxili və xarici həyəcanlar hamısı ölməz bəstəkarımız Üzeyir Hacıbəyovun musiqi dühasından doğmuşdur. Yuxarıda saydıqlarım tərzlər, hərəkətlər hamısı musiqi ilə həmahəngdir. Orkestrin müşayiəti ilə

həmahəng olaraq bir vəhdət təşkil edir: bu vəhdət – sözün, mənanın, səsin ritmik qanunlarının vəhdətidir. Koroğlu obrazı bütün qəhrəmanlardan, operanın bütün iştirakçılarından yüksək musiqi ifası və səhnə sənətkarlığı tələb edir.

Mən 20 il ərzində bu obrazın üstündə mütəmadi çalışıram ki, gənc nəslimizin cavan opera artistləri üçün tamamlanmış, yaddan silinməyən, xalqın ürəyində özünə yuva salan bu qəhrəmanın obrazı həmişə nümunə kimi, örnək kimi qalsın.

Mən operamızın 50 illik bayramında istərdim ki, bütün Şərq xalqlarını bu yüksək mədəniyyətlə təbrik edim. Dövlətimizin yaratdığı şərait, qayğı bizə daha yüksək opera mədəniyyəti yaratmaq, xalqımızın ən nəcib duyğuları, mədəniyyətimizin bütün cəhətlərini musiqi vasitəsilə yüksəltmək, insanlığa xidmət etmək imkanı verir. Mən gənc oxucularımıza operanı sevmək, onun hər nailiyyəti ilə şadlanmaq arzu edirəm.

Mən 1921-ci ildə qaval dalından gələrək, Kərəm rolunda səhnəyə çıxarkən, oxumaq mənə o qədər çətin görünmürdü. Çünki opera muğam və xalq havaları üzərində qurulmuşdu. Mənə çətin gələn o idi ki, mən gələcəyə inandığımdan, çox cürətlə addım atmaq istəyirdim. O idi ki, konservatoriyaya daxil oldum, gecəni gündüz eləyərək, rus sözlərini ərəb hərflərilə yazaraq, ilk dəfə 1921-ci ildə musiqi teoriyasından imtahan verdim. Mən gərək rusca mükəmməl oxuya idim. Gərək italyanca öyrənəydim, çünki musiqi terminlərinin çoxu italyancadır. Onda yaşım 24 idi. Mənə hələ 10 il oxumaq lazım idi.

Çətinlik bir də o idi ki, elə mən onda da məşhur idim. Yaşımın 24 olmasına baxmayaraq, mən təzədən 12 il oxumağı qərara aldım. Bildiyiniz kimi 6 il vətənimizdə – Bakı, Moskva və Leninqradda və iki dəfə İtaliyada oxudum. İkinci dəfə 4 il. Bu günə qədər həm oxumaqda, həm də oxutmaqda davam edirəm. Mən Milanda olarkən «Arte Nostra» jurnalında birinci səhifədə şəklimlə bərabər tərcümeyi-halım verildi. Məni bütün islam dünyasında birinci oxuyan hesab edirdilər ki, təhsilimi İtaliyada qurtarmışam. Mənə orada qalmağa çox təkliflər oldu. Mən isə vətənimə can atırdım. Burada xalqımın musiqi mədəniyyəti məni özünə çəkirdi. Mən bir neçə dil bilirəm. Rusca çox yaxşı. İtalyanca, gürcü, fars və başqa Şərq dilləri məni maraqlandırır. İndi mən ərəbcə, türkcə ədəbiyyat üzərində çalışıram. Gənclik nə qədər çox dil bilsə, o qədər mükəmməl olar. Başqa dillərə həvəs göstərmək həmişə şüura qida verir. Mən italyanca bildiyim üçün ispanca da başa düşürəm. Rusca bildiyim üçün ukraynaca da başa düşürəm. Amma dili elmi və sənətkarcasına bilmək üçün 25 ildir ki, Azərbaycan dilinin etimoloji xüsusiyyətlərini öyrənirəm, fonetika üzərində çalışıram. Dilin xüsusiyyətlərini öyrənirəm və bu axtarışlar üzərində də sənətkarlığımı, oxumağımı təkmilləşdirirəm. Heç təsadüfi deyildir ki, bir neçə dillərdə oxumağı bacarmaqla bərabər, özü də daha yaxşı oxumaq istəmişəm. Mən Moskva fondunda yalnız Azərbaycan dilində oxumuşam. Nə qədər qrammofon vallarım varsa, hamısını Azərbaycan dilində oxumuşam. Moskvada 150-yə qədər Azərbaycan dilində ifam var ki, bütün dünyaya Moskva vasitəsilə verilir. Bu dili sevməyi, öyrənməyi hamıya məsləhət görürəm. Azərbaycan dili çox ahəngdar dildir.

***Məmmədağa QAFAROV***

***«Ədəbiyyat» qəzeti 01.10.1999-cu il***

## SƏS HAQQINDA XATİRƏ

İnsanın yaddaşında təkcə görüşdüyü adamların sifəti, gəzdiyi yerlərin mənzərələri yox, həm də eşitdiyi səslər qalır. Mənim uşaqlıq yaddaşımda bir səs qalıb və o səsin əks-sədası indiyəcən təkcə qulaqlarımda deyil, qəlbimdə, ruhumda da dolaşmaqdadır.

O sehrli səsi ilk dəfə hansı ilin hansı günündə eşitdiyimi indi dəqiqliyi ilə söyləyə bilmərəm. Amma yaxşı xatırlayıram ki, bizim evimizdə o zamanlar «daşla» işləyən iri bir radio və «iynə» ilə oxuyan kiçik bir patefon vardı. Və mən indi də içi sirli-sehrli səslərlə dolu olan o möcüzəli qutuları, oradan fəvvarə kimi çağlayıb püskürən musiqi sədalarını qəribə bir nostalgiya ilə yadıma salır, özümün ilk vətənim olan uşaqlığıma qayıdır, artıq yaddaşıma köçmüş o ilahi anları sanki təzədən yaşayıram. O zaman eşitdiyim səslərin ətrafına bəzən onlarca adam toplaşardı – ələlxüsus da, Bülbülün səsinin.

Bülbül oxuyardı... Uzun qış gecələrini soba ətrafında, isti yay günlərini əkin-biçində keçirən adamların ürəyinin, canının ağrı-acısını bir səs çıxardardı – bu, Bülbülün səsi idi.

Açığını deyim ki, mənim uşaqlıq yaddaşımda «Bülbül» adı bir qədər başqa assosiativ anlamda qalıb.

Yaxşı məlumdur ki, «Bülbül» böyük sənətkarın əsil adı deyil, onun təxəllüsüdür və bu adı ona bülbül kimi oxuduğu üçün veriblər. Amma mən uşaq ikən hər şeyi əksinə düşünürdüm: o zaman mənə elə gəlirdi ki, bizim bağ-bağçamızda cəh-cəh vuran bülbüllərə böyük Bülbülün adı verilib... Çünki həmin bülbüllər də Bülbül kimi oxuyurlar; ona görə də adamlar öz sevimli sənətkarlarının səsini əbədi eşitmək



arzusu ilə o nalə qoparan təbiət aşiqlərinə, bağrı qan olan bülbüllərə – Bülbül deyirlər...

Mən Bülbülün ölümünü, onun qəzetdə qara haşiyədə çıxan şəklini yuxu kimi xatırlayıram... 8-9 yaşım vardı. Radioda Bülbülün nəğmələri səsləndirilirdi. «Bülbül vəfat edib...» O vaxt – 1961-ci ilin soyuq payız günündə bu qara xəbəri eşidəndə mənə elə gəldi ki, ta bundan sonra bizim bağımızda cəh-cəh vurub, nəğmə oxuyan bülbüllərin səsi bir daha eşidilməyəcək; axı, o quşlar Bülbülə görə oxuyur; axı, onlar Bülbülün səsini yamsılayır. Əgər Bülbül yoxsa, bülbüllər oxumağı, cəh-cəh vurmağı, yanıb-yaxılmağı kimdən öyrənə bilər? Bülbül yoxsa, bülbüllər də susmalıdır.

Amma bülbüllər susmadı...

Mənim uşaqlıq yaddaşımda bir səs yaşayır: Bülbülün səsi... və o səsi yamsılayan bülbüllərin cəh-cəhi... Yenə Bülbül oxuyur, yenə bülbüllər cəh-cəh vurur...

***Firuz MUSTAFA,***
***yazıçı, fəlsəfə doktoru***
***1998-ci il***

## XX ƏSRİN DAHİ MÜĞƏNNİSİ

...1945-ci ilin ortaları idi. İkinci Dünya müharibəsi təzəcə qurtarmışdı. İndiki kimi yadımdadır, atam qrammofon alıb gətirmişdi, üstündə də bir bağlama val. Ailədə musiqi duyumlu uşaq mən sayıldığıma görə aldıqlarını mənim qarşıma qoydu: Qardaş-bacına da, – dedi, – icazə ver, hərdən çalıb-oxutdursunlar.

O vaxt mənim vur-tut beş yaşım var idi. Xalam Sona xanımın ömür-gün yoldaşı – məşhur maarif xadimi, dahi bəstəkarımız Üzeyirbəy Hacıbəyli ilə Qori Seminariyasında bir yerdə təhsil almış Cavadbəy Cuvarlinski məni ölməz bəstəkarın «Monolit»dəki evinə aparmış, musiqi qabiliyyətimi ona yoxlatdırmışdı. Beləliklə, musiqiyə olan qabiliyyətim evdəkilər üçün artıq məlum idi. Və hamıya aydın idi ki, evdə musiqi ilə bağlı nə olursa-olsun başda mənəm!... Ona görə onlar (qardaşım 7 yaş, bacım isə 2 yaş məndən böyük idi) mənim qılığıma girib arabir qrammofonda valları çaldırmaq arzularına çatırdılar...

Həmin qrammofonda mənim ilk çaldırdığım val Ü.Hacıbəylinin «Koroğlu» operasından parçalar idi. Valın bir üzündə ölməz müğənnimiz, milli vokal sənətimizin banisi Bülbülün ifasında ariyalar, şikəstə və s. musiqi fraqmentləri idi. Arxasında isə Nigarın iki ariyası və digər musiqi parçaları yazılmışdı. Demə, Nigarın ariyalarını (o vaxt mən hələ əlifbanı bilmirdim) erməni müğənnisi Knarik Qriqoryan ifa edibmiş. Mən valın Bülbülün oxuduğu ariya və şikəstələr yazılmış üzünü oxutdurmağı xoşlayardım. Həmin musiqi fraqmentlərini dinləməkdən doymazdım. «Koroğlunun ariyası»nı artıq əzbər bilirdim. Həm musiqisini, həm də ki, mətnini. Çox vaxt valı çaldıranda qoşulurdum Bülbülün səsinə, oxuyurdum. Bir dəfə də oxuyanda xəbərim olmayıb, hamı toplaşıb qulaq asıb. Ariya sona yetəndə əl çalmağa başladılar. Sevincim yerə-göyə sığınırdı.



Başqa vallarda Bülbülün ifasında ayrı-ayrı operalardan parçalar, xalq mahnıları, folklor nümunələri yazılmışdı. Mən onlara qulaq asmaqdan doymurdum.

Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasının nəzdindəki orta ixtisas musiqi məktəbində (indiki Bülbül adına Musiqi məktəbidir – R.Ş.) 1948-ci ildən oxumağa başlayanda Bülbülün «Koroğlunun ariyası» olan valın o biri üzünü – Knarik Qriqoryanın ifasında «Nigarın ariyaları» yazılmış üzünü qayçı ilə, biz ilə cızmağa başladım. Onu elə günə saldım ki, valın həmin tərəfindən xışıltıdan başqa heç nə eşidilmədi. Bir gün atamın gözü həmin vala sataşdı. Gördü ki, val çalınmaqdan bu günə düşməyib. Soruşdu: Kim bunu bu günə salıb?... Mən hazırcavab oğlan kimi dilləndim: «Mən!» Və tez əlavə etdim: – «Axı o, ermənidir!...» Atam bir anlıq duruxdu, söz tapmadı deməyə. Axı nə deyəydi? İndi o, sağ olsaydı və görsəydi ki, erməni faşistləri bizim millətin başına 13 ildir ki, nə oyunlar açır, məni bağrına basar, öpərdi. Atamın uşaqlıq və gənclik illəri Şaumyan rayonunun Şəfəq kəndində keçmişdi. İndi həmin yer Goranboy rayonudur. Şəfəq kəndinin yanında erməni kəndi – Qaraçinar yerləşirdi. Fikir verin ha, «Qaraçinar» sözünə. Adı Azərbaycan dilində olsa da, camaatı erməni daşnaklarından ibarət idi. Rayonun mərkəzi sayılırdı. Sovet dövründə Azərbaycanda iki rayon daşnak qulduru Şaumyanın adını daşıyırdı.

...Atam sağ olsaydı görərdi ki, erməni faşist quldurları Üzeyirbəyin, Natəvanın, Bülbülün Şuşadakı büstlərini necə gülləbaran ediblər, mənə o baxışla baxmazdı... Sağ olsun ki, ölməz Bülbülün yadigarı və sonbeşiyi sayılan Polad Bülbüloğlu bu üç büstün taleyini həll edib, erməni faşistlərinin caynağından xilas edib onları Bakıya gətizdirib!

1948-ci il... Noyabrın 23-ü... Qeyd etdiyim kimi mən Bülbül adına musiqi məktəbinin 1-ci sinfində oxuyurdum. Həmin gün məktəbimizdə böyük sarsıntı var idi – hamının dilində «Üzeyirbəy, Üzeyirbəy...» sözü. Sinif otağımızın qapısı açıldı. Məktəbin direktoru və musiqi məktəbini yaradan, professor Kövkəb xanım Səfərəliyeva içəri daxil oldu. Ayağa qalxdıq. O, çox qəmgin bir səslə bizə Üzeyirbəyin dünyasını dəyişdiyini dedi. Biz ayağa qalxıb dahi bəstəkarın xatirəsini yad etdik. Direktorumuz bizə «Əyləşin» deyəndən sonra da heç kəs oturmadı. Kövkəb xanım bu qəmli hadisəni başqa siniflərə elan etmək üçün getdi.

Dəfn günü... Azərbaycan Elmlər Akademiyasının böyük zalı. Hər tərəfdə qara məxmər pərdələr... sayagəlməz gül əklilləri... Hündür postamentdə Üzeyirbəyin tabutu. O, gül-çiçək içində idi... Üzü örtülməmişdi... Bizi – musiqi məktəbinin ən balaca «sakinlərini» dahi Üzeyirbəylə vidalaşmağa gətirmişdilər.

Dahi müğənnimiz Bülbül böyük həyəcan içində zala daxil oldu. O, Üzeyirbəyin tabutuna yaxınlaşdı. Filarmoniyanın Üzeyirbəyin adını daşıyan simfonik orkestri ayağa qalxdı. Dahi bəstəkarın beş il öncə Nizami Gəncəvinin anadan olmasının 800 illiyi münasibətilə bəstələdiyi «Sənsiz» romans-qəzəlini Bülbül ağlaya-ağlaya ifa etdi. Orkestr ağlaya-ağlaya Bülbülü müşayiət edirdi. Biz balacalar da göz yaşlarımızı saxlaya bilmirdik.

Dirijor pultu arxasında Üzeyirbəyin qardaşı, bəstəkar Zülfüqar Hacıbəylinin böyük oğlu maestro Niyazi dayanmışdı.

O vaxt kim bilirdi ki, düz 13 ildən sonra 63 yaşında Azərbaycan Elmlər Akademiyasının böyük salonunda Üzeyirbəyin tabutu qoyulan postamentdə gül-çiçəklərə qərq olmuş, üzü örtülməmiş Bülbül də gül-çiçək içində uyuyacaq?! Bircə fərq onda idi ki, əgər Bülbül dahi Üzeyirbəyin tabutu önündə canlı və mikrofonsuz oxuyurdusa, həmin gündən



Üzeyirbəyin adını daşıyan simfonik orkestr Niyazinin rəhbərliyi ilə canlı çalırdısa, bu dəfə (yəni, 1961-ci il sentyabrın 26-da – R.Ş.) Bülbülün lent yazıları səslənirdi, hamını ağladırdı.

1956-cı ilin yaz ayları idi... Cavadbəy Cuvarlıgildə idik. Mənim 16 yaşım hələ tamam olmamışdı. Atamla anam onunla nə barədəsə söhbət etdikdən sonra Cavadbəy qalxıb Bülbülə zəng etdi. Hiss etdim ki, o, Bülbüllə mənim barəmdə danışırdı. O, xahiş edirdi ki, mənim musiqi qabiliyyətimi yoxlayıb, yeni yazdığım əsərləri dinləsin. Bülbül razılığını bildirib vaxt təyin etdi. Mən səbirsizliklə həmin günü və saatı gözləyirdim. Nəhayət, o gün, o saat gəlib yetişdi. Saat 3-ə beş dəqiqə qalmış mən Bülbül yaşadığı evin həyətində idim. Mən artıq ikinci mərtəbəyə (Bülbülün indiki ev-muzeyi olan mərtəbəyə) çatıb zəngi basdım. Mən salamlaşıb və Cavadbəyin yanından gəldiyimi söylədim. O, sevincək səslə: «Deməli, Cavadbəyin göndərdiyi oğlan sənmişsən?...». Mən: Bəli, – dedim. Bülbül məni içəri dəvət etdi və saatına baxdı. Üç tamam olmuşdu. Böyük qonaq otağına keçdim. Nə görsəm yaxşıdı? Süfrədə nahar vaxtının bütün «atributları». Hətta nimçələrdə çəkilmiş, sonadək yeyilməmiş xörəklər... Bülbül keçib əyləşdi. Bülbül mənə göstərdiyi yerdə mən də əyləşdim. O, həyat yoldaşı Adilə xanımdan mənə də xörək çəkməyi xahiş etdi. Tez dilləndim: – Evdən gəlirəm, nahar etmişəm. – Bülbül xoş təbəssümlə: –Adilə xanımın xörəyindən olmaz! – dedi, – ye, gör, nə ləzzətlidir. Nə olar ki, evdə nahar etmisən. Bunu da ye!...

Nahardan sonra, mən piano arxasına keçib Bülbülün təklif etdiyi musiqi parçalarını çalmağa başladım. Sonra o, mənə öz əsərlərimi çalmağı təklif etdi. Mən yenicə bəstələdiyim «Prelüd»lərimi ifa etdim. O, məni təbrik etdi. Nə vaxt ürəyin istəsə burada da, konservatoriyada da özün mənə yaxınlaş, nə sözün olsa de, daha Cavadbəyə əziyyət vermə.

...Günlərin birində yenicə bəstələdiyim «3 romans-rübai»mi qovluğa qoyub, yollandım konservatoriyaya. Üçün-

cü mərtəbəyə qalxanda Bülbülün səsini eşitdim. Tələbələri ilə dərs keçirdi.

Mən qovluqdan «romans-rübailər»i çıxartdım. O, Ömər Xəyyamın sözlərinə yazılmış rübailərin notlarını, mətnlərini vərəqlədi. Mən çalmağa başlayanda tələbələrinə dedi: – Siz də bu gənc bəstəkarın bu yeni vokal silsiləsinə qulaq asın. Bəlkə hansınızsa onları oxumalı oldunuz.

Hamısı, o cümlədən Mobil Əhmədov, Firudin Mehdiyev royalın ətrafına yığışdı. Bülbül isə keçib əyləşdi öz qədim kreslosunda. Mən romans-rübailərin üçünü də əvvəldən axıradək çalıb-oxudum. Bülbül bəyəndi və üçünü də oxumağa söz verdi. Bir neçə dəfə Bülbülgilə getdim, məşq etdik. Onun verdiyi bütün göstərişləri mən sevinclə yerinə yetirirdim. Notları pianoçu V.Kozlova da vermişdi ki, o onları məşq edib hazırlasın.

1961-ci ilin yay ayları idi. Bülbülü Konservatoriyada gördüm. Bütün orden və medalları döşündə idi. Dedi: – Rəşid, bala, bu gün məşq edə bilməyəcəyik. Moskva üçün şəkillər çəkdirməliyəm.

...Konservatoriyaya daxil olmağa hazırlaşırdım. Xəbərim olmadan Cavadbəy Cuvarlı Bülbülə zəng edib məni konservatoriyanın rektoru, xalq artisti, professor Cövdət Hacıyevə tapşırmağı ondan xahiş edir. Konservatoriyanın qarşısında Bülbül məni görəndə: – Get Cövdət müəllimin yanına, – dedi, – və əsərlərini də özünlə apar. Qoy o, onlara nəzər yetirsin. Elə də etdim. Bütün əsərlərimi götürüb getdim konservatoriyaya. C.Hacıyev əsərlərimi dinləyib müəyyən tövsiyələr verdi və yeni əsər yazmağımı da tapşırdı.

Konservatoriyaya daxil olandan sonra maestro Bülbül və onun tələbələri ilə tez-tez görüşər, öz mahnı, romanslarımı onlara göstərərdim. Sonra isə biz Bülbülün qarşısında həmin əsərləri ifa edərdik. Bülbülün bütün qeyd və tövsiyələrini ürəkdən yerinə yetirməyə çalışardıq.

26 sentyabr... 1961-ci il... Dahi Bülbül dünyasını dəyişdi. Bülbülün tabutu Azərbaycan Elmlər Akademiyasının böyük salonunda qoyulmuşdu. Bülbül sənətinin pərəstişkarları, bütün Azərbaycan öz sevimli müğənnisini son mənzilə yola salmaq üçün axın-axın buraya gəlirdi. Düşünürdüm: Daha Bülbülün canlı səsini heç kim eşitməyəcək... Ondan bizə yadigar qalan onun parlaq və ecazkar səsi, lent yazıları, italyan «belkanto» məktəbi, Bülbül məktəbi qalacaq. Onun sevimli tələbələri unudulmaz müəllimləri Bülbülün irsini davam etdirəcək, bir örnək kimi daim qoruyacaqlar. Buna heç kəsin şübhəsi yoxdur!

Bülbül sənəti ölməzdir!
Bülbül sənəti əbədidir!

*Rəşid ŞƏFƏQ,*
*bəstəkar*
*«Kredo» qəzeti №№ 21-25*
*15 iyun – 20 iyul 2000-ci il*

## *USTADLAR USTADI*

1961-ci il... Bakıda yay imtahan sessiyasını başa vurub istirahət etmək üçün ana vətənim – Şuşaya qayıtdım.

Avqust ayı idi. Bülbül Qarabağa qastrol səfərinə çıxmışdı. Respublikanın xalq artisti Kərim Kərimov, kinooperator Nəriman Şıxəliyev və Bülbülün oğlu Polad da onunla birlikdə Şuşaya gəlmişdilər.

Bülbül ilk növbədə anadan olduğu mülkə baş çəkmək üçün tələsirdi. Onun maşınını oğlu Polad idarə edirdi.

Bülbülün ata mülkü şəhərin «Quşçular» məhəlləsində, mənim ata mülküm isə «Böyük qurdlar» məhəlləsində yerləşirdi. Bülbülün evi ilə bizim evimizin arasında məsafə o qədər də uzaq deyildi. Küçənin bir tərəfi «Cıdır düzü»nə baxırdı.

Axşam Şuşanın 3 saylı internat məktəbində Bülbülün konserti oldu. Konsertə o qədər tamaşaçı gəlmişdi ki, bir dənə də olsun boş yer qalmamışdı. Mən çox əziyyətlə həmin konsertə bilet tapa bildim. Biz cavanlar zalın arxa hissəsində ayaq üstə durub, çox həsrətlə Bülbülün çıxışını gözləyirdik.

Birdən o, gurultulu və sürəkli alqışlar altında konsert zalına daxil oldu. Divarlar titrəyirdi. Mən onda bir daha yəqin etdim ki, Bülbülə xalq sevgisi bir ümmandı. Konsertdə MK-nın və Nazirlər Sovetinin məsul işçilərindən də iştirak edənlər var idi.

O, konsertdən əvvəl tamaşaçılar qarşısında çıxış edərək, milli mədəniyyətimizin incisi olan Şuşanın tarixi abidələrinin bərbad vəziyyətə düşməsindən, görkəmli şəxsiyyətlərimizin xatirəsinin əbədiləşdirilməsinə olan ögey münasibətdən həyəcanla danışdı, axırda qeyd etdi, bu biganəlik gələcəkdə



bizə böyük zərbə olacaqdır. Nəticədə Şuşanı əldən verə bilərik. Bu sözlər bizə məgər həyəcan təbili deyildimi?

Tələbəlik dövrümdə Azərbaycan Dövlət Universitetinin akt zalında tez-tez mədəni-kütləvi tədbirlər keçirilirdi. Belə tədbirlərdən biri də professor Bülbülün tələbələri ilə görüş gecəsi idi.

Azərbaycan Dövlət Konservatoriyasının professoru Bülbül vokal sənəti sahəsindəki bilik və təcrübəsini böyük həvəs və şövqlə tələbələrinə öyrədirdi. Onun səyi nəticəsində bir çox istedadlı müğənnilər yetişmişdi.

1961-ci ilin əvvəlləri idi. Universitetin həmkarlar Komitəsi Bülbülün yaradıcılıq gecəsini təntənəli surətdə keçirməyi qərara aldı. Akt zalı müəllim və tələbələrlə dolmuşdu. Gecəni professor Cəfər Xəndan açdı. Elə bu anda professor Bülbül səhnədə göründü. Onun ardınca da tələbələri olmuş solistlərdən (hazırda onlar Azərbaycan Respublikasının əməkdar artistləridir) Məmməd Salmanov, Firidun Mehdiyev, Mobil Əhmədov və Rəcəb Mahmudov səhnəyə daxil oldular. Cəfər Xəndan dahi Bülbül sənətinin ecazından ürək dolusu danışdı. Sonra ona söz verdi. Bülbül geniş ürəklə bir-bir öz tələbələrini zaldakılara təqdim etdi. Beləcə, Universitet tələbələrinin qarşısında böyük Bülbülün tələbələrinin imtahanı başladı.

Yadımdadır, M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının solisti Məmməd Salmanovun ifaçılıq fəaliyyətindən imtahan gedirdi. Məmməd «Vəslin həvəsi» romansını ifa etdi.

1995-ci il dekabr ayının 29-da Respublika Mədəniyyət Fondunda «Xeyriyyə marafonu» keçirilirdi. Həmin gecəyə məni də dəvət etmişdilər. Mən orada təsadüfən respublikanın əməkdar artisti Məmməd Salmanovla rastlaşdım. Xeyli söhbətdən sonra mən 1961-ci ildə professor Bülbüllə olan görüş gecəsini qələmə alacağımı söylədim. O, çox məmnun olduğunu bildirdi və dedi: «Bülbül xalqımızın fəxridir. Hər gün onun yeri görünür».

Bülbül gözəl musiqiçi, müəllim, təşkilatçı, ictimaiyyətçi, eyni zamanda azəri və dünya musiqisinin yorulmaz təbliğatçısı idi. Azərbaycan xalq ifaçılıq mədəniyyətinin tarixi Bülbülü pedaqoji fəaliyyətə başlayandan xeyli əvvəllər də maraqlandırırdı. O, Azərbaycan vokal məktəbinin inkişaf yollarını məhz xalq müğənnilərinə xas olan ünsürlərin professional vokal məktəbinin metodik göstərişləri ilə qarşılıqlı münasibətində görürdü.

Bülbül ifaçı kimi də, sənət araşdırıcısı kimi də, pedaqoq kimi də ustad idi, ustadlar ustadı.

*Pərviz AXUNDBƏYLİ,*
*iqtisad elmləri namizədi,*
*dosent*
*1998-ci il*



## CƏBR DƏRSİ... BÜLBÜLLƏ BAŞLADI

...O vaxtkı ağlıma və düşüncələrimə görə 1961-ci ildən yadımda iki hadisə qalıb. Şübhəsiz ki, həmin ildə çox əhvalatlar olub. Mən isə, dediyim kimi, iki əsas hadisəni xatırlayıram: Qaqarinin «göyə uçması»nı və çox sevdiyim, musiqi aləmində ideal saydığım, sənətkar kimi hamıdan uca tutduğum Bülbülün vəfat etməsini...

...O vaxtlar bizim Muradxan kəndindən Bakıya ən çox gedib-gələn rəhmətlik Mirzəmməd əmi olardı. Hər dəfə də təzə bir xəbərlə qayıdardı: yəni Bakıda getdiyi teatrlardan, baxdığı yeni tamaşalardan, xüsusilə də «Koroğlu»dan, Bülbülün Qıratın belində Koroğlu kimi nərə çəkməsindən həyəcanla danışardı. Və adətən axşam çağlarında qoyun-quzu qabağına çıxan, mal-qaranın örüşdən gəlməsini gözləyən adamlar Mirzəmməd kişinin başına yığışıb, onun söhbətlərinə həvəslə qulaq asar, maraqdan yaranan bir istəklə onu sorğu-suala tutardılar. O vaxtlar mən də dövrə vurub dayanan böyüklərin böyrünə qısılıb, həmin söhbətlərə diqqət kəsilərdim. Ən çox da «Koroğlu»dan, «Leyli və Məcnun»dan, «Vaqif»dən danışılardı.

Mən Koroğlu və Bülbül sözlərini ilk dəfə həmin söhbətlərdən eşitmişdim. Çünki o vaxtlar kəndimizdə tək-tük adamın radiosu var idi.

Sonralar bizim də evimizə radio çəkildi. Bundan sonra mən Bülbülün bənzərsiz səsini eşitməyə, «Koroğlu» operasından parçaları radio dalğalarından dinləməyə başladım. O vaxt Bülbülün səsi, xüsusi avazla oxuduğu mahnılar canıma, qanıma, duyğularıma hopdu. Mən sözün əsl mənasında o gözəl səsin, bir-birindən gözəl mahnıların sədaları altında böyüyüb yaşa doldum. Odur ki, sənətdən söhbət düşəndə Bül-

bülün adını həmişə eyni hiss, eyni istək və məhəbbətlə çəkirəm.

...Evimizdə patefon vardı. Yadımdadır, patefonda oxutmaq üçün atam ilk dəfə Bülbülün vallarını almışdı. Yəni evimizdə gördüyüm ilk val Bülbülün valı olub. «Çoban Qara», «Neftçi Qurban», «Ölkəm», «Olmazsa olmaz», «Gülərəm gülsən» mahnılarını, romansları patefonda tez-tez oxudur, Bülbülün səsini dinləməkdən doymurduq.

Zaman keçdi. Bülbülün sənətini daha dərindən duymağa başladım. İnsanın varlığına, qəlbinə hakim kəsilən, ən incə, ən zərif duyğuları dilə gətirən o mahnıları indi də kövrələ-kövrələ dinləyirəm. Bülbülün böyüklüyünü, Bülbül sənətinin əzəmətini, onun qəlbimə, varlığıma necə hakim kəsildiyini ifadə etmək mənim üçün çətindir, çox çətin!

...Yeddinci sinifdə oxuyurdum. Zəng vuruldu. Birinci dərsimiz cəbr idi. Rza müəllim sinfə daxil oldu. Həmişə zəhmli, sərt və ciddi gördüyümüz Rza müəllim bu gün başqa cür görünürdü. O, ötəri salam verib, əlindəki jurnalı stolun üstünə qoydu. Əvvəlki günlərdən fərqli olaraq hazır-qaib aparmadı, dərsi kimin bilib-bilmədiyini də soruşmadı. İlk sözü bu oldu:

– Bilmirəm, eşitmisiniz, ya yox, Bülbül rəhmətə gedib...

Səsi titrəyirdi, az qalırdı hönkür-hönkür ağlasın.

Dərs dediyi cəbr fənni kimi sərt olan Rza müəllimdən indiyədək dərsdən, deyərdim ki, danlaqdan savayı heç nə eşitməmişdik. Hətta ürəyinin bu qədər yumşalmasına da təəccüb edirdik. Yerişindən, duruşundan, üz-gözündən zəhm yağan, həmişə zəng vurulan kimi sinifdə müntəzir olan, hər dəqiqənin qədir-qiymətini bilən, sinfə ayaq qoyar-qoymaz, elə qapının ağzındaca dərsi soruşmağa başlayan Rza müəllim həmin gün tanınmaz olmuşdu. İlk dəfə idi ki, dərs vaxtı kənar mövzudan danışırdı.

O, bu kədərli xəbəri bir də təkrar elədi və sözünə bir anlıq ara verib:



– Gözəl oxuyurdu, – deyə, dərindən köks ötürdü, – çox gözəl səsi vardı. Doğrudan da əsl Bülbül idi...

Həmin gün cəbr dərsi Bülbüllə başlayıb, Bülbüllə də sona yetdi. Biz Bülbül haqqında Rza müəllimdən çox şey öyrəndik...

...Tale elə gətirdi ki, Bakıya gəldim, Universitetə daxil oldum. Bülbül artıq həyatda yox idi. Amma tələbəlik illərimdə ürəyimdən gələn bir istəyin təsiri ilə Bülbülün iri xatirə lövhəsi vurulmuş evinin yanından tez-tez keçirdim. Hər dəfə də ayaq saxlayıb onun barelyefinə dönə-dönə baxırdım. Təkcə bu xatirə lövhəsi yox, bütövlükdə Bülbülün yaşamış olduğu bu bina, bu məhəllə mənə çox doğma və əziz görünürdü.

Sonralar Bülbülün ev muzeyinin açılması isə onun sənətini sevən milyonlardan biri kimi məni də hədsiz sevindirdi.

Hörmətli yazıçımız Nahid Hacızadənin bilavasitə səyi və təşəbbüsü ilə Bülbül haqqında xatirə kitabının nəşrə hazırlanması mənə də Bülbül sənəti, Bülbül şəxsiyyəti ilə daha yaxından tanış olmaq imkanı verdi...

Bülbülün ev muzeyinə getdim. Dahi sənətkarın ömür-gün yoldaşı Adilə xanımla görüşdüm. Bülbül haqqında gözəl xatirələri məhz Adilə xanımın dilindən eşitmək mənim üçün son dərəcə maraqlı idi.

...Ev muzeyinə ilk qədəm qoyduğum anların sevinci marağı və həyəcanı isə tamam başqa idi.

Budur, asta addımlarla binanın ikinci mərtəbəsinə qalxıram. Bu həzin, kövrək məqamlarda sanki mənim üçün əlçatmaz olan sehrli bir aləmə düşmüşəm. Düşünürəm: bir vaxtlar Bülbül də bax, beləcə, bu pillələrlə qalxıb-enib, qonum-qonşularla salamlaşıb, həmin bu qapını açıb evinə daxil olub. Bu evə, bu sənət ocağına Bülbülün nə qədər qonağı gəlib-gedib. Bu evdə Bülbül neçə-neçə sənət dostları ilə deyib-gülüb, duz-çörək kəsib. Ən başlıcası isə Bülbülün dünyanı

heyrətə gətirən ölməz sənət əsərləri bu evdən pərvazlanıb, qol-qanad açıb...

...Muzeydəki eksponatların hər biri isə əsl sənət tarixidir. Bülbülün sənət dünyasından, sənət uğurlarından bəhs edən çoxsaylı yazılar, fotoşəkillər, təltiflər, mükafatlar, təşəkkürnamələr, eləcə də Bülbülün bir vaxtlar çay içdiyi armudu stəkandan tutmuş müxtəlif əşyalar... Bütün bunları seyr etdikcə, olub-keçənləri yada saldıqca dərin bir kədərlə köks ötürməkdən, bu fani dünyanın vəfasızlığına təəssüflə baş bulamaqdan savayı əlindən heç nə gəlmir...

Bəli, Bülbül sənəti, Bülbül şəxsiyyəti ilə bağlı hər bir şey var bu muzeydə. Amma təkcə Bülbülün içərisindən qopub gələn o canlı səsi, o canlı nəfəsi eşidə bilmirsən...

Bütün bunlar barədə düşünərkən xəyalım yenidən kəndimizə – Bülbülün o gözəl, təkrarolunmaz səsindən zövq aldığım o uşaqlıq və ilk gənclik çağlarıma qayıdır. O çağlara ki, dahi Bülbülün yalnız səsini eşidirdim. Bu gün isə bir vaxtlar heç ağlıma belə gətirə bilməyəcəyim «əfsanəvi» bir məkana düşmüşəm – Bülbülün doğma evinə, ocağına gəlmişəm...

Fərəhlənirəm ki, Bülbül kimi dahi sənətkarın ölməz xatirəsinə həsr olunmuş bu gözəl kitabın ərsəyə gəlməsində azçox mən də iştirak etmişəm, buna görə özümü xoşbəxt sanıram.

***Tofiq ABDULLAYEV,***
***jurnalist***



# SƏNƏT KORİFEYLƏRİ BÜLBÜL HAQQINDA

* * *

Səhər vaxtı quş səsi, ruzigarda qayın ağacı yarpaqlarının səsi, sevgilinin ovcundan tökülən su səsi, maşınların səsi, kaman səsi, tar səsi. Amma məncə səslərin ən gözəli, ən dərini, ən ulusu insan səsidir. İnsan səsi insanları ölümə də çağıra bilər, həyata da, kinə də, sevgiyə də…

Sənin səsin, sevimli qardaşım, bütün ömrün boyunca insanları gözəlliyə, həqiqətə, haqqa, ümidə çağırdı. Mən sənə dilə gətirdiyin Koroğlu üçün ölümsüz gənclik diləyirəm. Koroğlu kimi haqq üçün, xalq üçün insan oğlunun bu güclü imkanlarından biri ilə – səsinlə döyüşməyə davam et!

Gözlərindən öpürəm.

***Nazim HİKMƏT,***
***türk şairi***

* * *

Böyük ustad Bülbülün adı, biliyi, zövqü oxuyan insanların gələcək nəsillərində yaşayacaq.

Bülbülü tanıyan insanlar onun zəhməti, sənətkarlığı, biliyini əsirgəməməsi, onunla tanışlığı, görüşləri üçün sevinc hissi duyurlar.

Əgər Böyük Teatrın divarları danışa bilsəydi, onlar bu gün belə parlaq nəticələr verən ifaçılıq ənənələri yaratmış o şan-şöhrətli adları sadalayardı. Mən Böyük Teatrda Bülbülün gözəl çıxışlarını yaxşı xatırlayıram.

Bülbülün səsi o zaman da eşidilirdi, indi də eşidilir və dövrün hadisəsi kimi qəbul edilir.

Bizim sıralarımızda yaşayıb-yaratmış bu sənətkara «çox sağ ol» deyirik.

***İvan KOZLOVSKİ,***
***SSRİ xalq artisti,***
***Sosialist Əməyi Qəhrəmanı***

* * *

Misilsiz musiqiçi – Azərbaycan bülbülü Bülbül! O, yerli müəlliflərin opera və mahnı-romans yaradıcılığının təbliği sahəsində necə böyük işlər görür!

Söz yox, Azərbaycan bəstəkarları üçün bu mənada son dərəcə əlverişli şərait vardır, təki daha çox yaz-yarat!

***Dmitri ŞOSTAKOVİÇ,***
***SSRİ xalq artisti, professor,***
***Sosialist Əməyi Qəhrəmanı,***
***Lenin mükafatı laureatı***

* * *

İlk dəfədir ki, uzun illər boyu gözəl oxuyan, rəqs edən və səhnədə canlı tarixi qəhrəmanı belə parlaq surətdə yaradan artistə rast gəlirəm. Koroğlu partiyasının ifasının çətinliyini heç bir opera partiyası ilə müqayisə etmək olmaz – nə Boris Qodunovun, nə Germanın, nə Otellonun…

Burada oxumağı saz çalmaqla, rəqslərlə, tullanma, atsürmə və başqa ritmik hərəkətlərlə uzlaşdırmaq lazım gəlir. Siz bütün çətinliklərin öhdəsindən məharətlə gəldiniz.

***S.A.SAMOSUD,***
***SSRİ xalq artisti,***
***Böyük Teatrın dirijoru***

* * *



Gözəl Bülbülə çox-çox illər misilsiz istedadının çiçəklənməsini, sovet adamlarına sevinc bəxş etməsini arzulayıram.

***Nikolay TİXONOV,***
***şair, Sosialist Əməyi Qəhrəmanı,***
***Lenin mükafatı laureatı***

* * *

Gözəl, parlaq istedadla hərtərəfli sənətkarlığın vəhdətindən gözəl, cəlbedici və güclü nə ola bilər?!

Siz bülbül kimi cəh-cəh vurursunuz. Oxumaq Sizin üçün həyati tələbatdır. Siz oxumaya bilməzsiniz.

***Konstantin STANİSLAVSKİ,***
***SSRİ xalq artisti***

* * *

Görkəmli müğənni, mənim əziz dostum Bülbülün gözəl oxumağı hələ uzun illər ürəklərimizi isindirəcək və sevindirəcəkdir.

***David OYSTRAX,***
***SSRİ xalq artisti***

* * *

Sovet mədəniyyətinin görkəmli xadimi, Azərbaycan Bülbülünün sehrli, ecazkar səsi bütün sovetlər ölkəsinin üzərində dalğalanır. Qoy Bülbülün həyat yolu üstündə daim gözəl qızılgüllər açsın ki, onun vurğun qəlbinin səsi heç vaxt susmasın!…

***Vano MURADELİ,***
***SSRİ xalq artisti***

* * *

Teatr, opera sənətinin yüksəlişini müəyyənləşdirən çox böyük sənətkarlardan biri, heç şübhəsiz, gözəl müğənni və gözəl aktyor Bülbül olmuşdur. Onun səhnədə hər çıxışı bütün opera sənətini sevənlər üçün böyük bayrama çevrilirdi. Onun adı sovet teatrı tarixinə qızıl hərflərlə yazılmışdır.

***İvan TUMANOV,***
***SSRİ xalq artisti***

* * *

Nəhəng istedad, inadlı zəhmət Sizi bütün xalqımızın tanıdığı, sevdiyi görkəmli sənətkara çevirmişdir.

***Sergey LEMEŞEV,***
***SSRİ xalq artisti***

* * *

Azərbaycan professional musiqisinin yaranması və çiçəklənməsində Bülbülün misilsiz xidməti ölçüyəgəlməzdir.

***Qriqori KİLADZE,***
***SSRİ xalq artisti***



# Şeirlər

* * *

[illegible] opera səhnəsinin yüksəkliyini müəyyənləşdirən çox böyük [illegible] beş [illegible] gözəl müğənni və gözəl [illegible] Onun səhnədə hər çıxışı [illegible] böyük bayrama çevrilirdi. [illegible] qızıl hərflərlə yazılmışdır.

*İvan TUMANOV,*
*SSRİ xalq artisti*

[illegible] bütün xalqımızın [illegible] çevirmişdir.

*Sergey LEMEŞEV,*
*SSRİ xalq artisti*

Azərbaycan [illegible] və [illegible] ölçüyəgəlməzdir.

*Qriqori KİLADZE,*
*SSRİ xalq artisti*





Yeniyetiməlik çağları. 1910-cu il



Gənclik illəri. 1920-ci il



Bülbül Tiflisdə. 1920-ci il



Berlin. 1924-cü il



İtaliyada. 1929-cu il



Soldan sağa: Bülbül, Kozlov, Ü.Hacıbəyov. 1931

Hər şəkil bir xatirədir.

İtaliyada. 1931







Məşhur rus yazıçısı
L.Leonov, Bülbül,
Zmeul
40-cı illər



İranda. 1942-ci il



Tehran. 1942

Bülbül və akademik Y.Məmmədəliyev. 1947





Bəstəkar dostları arasında: (soldan sağa) S.Hacıbəyov, Q.Qaraeyev, Bülbül, S.Rüstəmov və S.Ələsgərov. 1950

Bülbül övladları Çingiz və Poladla. 50-ci illər





Ayrılmaz dostlar Bülbül və Niyazi. 50-ci illər

Bülbül Xəzər fatehlərinin qonağıdır. 50-ci illər





Bəstəkar Q.Qarayevlə. 50-ci illər

Məşhur aktyor S.Ruhulla ilə





Bülbül, M.İbrahimov, M.Qurbanov
Moskvadan gələn qonaqlarla. 50-ci illər

Bülbül və R.Behbudov. 1953-cü il



Bülbül və
F.Əmirov.
1957-ci il



Bülbül və
S.Rüstəm.
50-ci illər





Oğlanları
Polad və Çingizlə.
Moskva, 1958-ci il



Bülbül ömür-gün
yoldaşı Ədilə xanımla.
Moskva, 1958-ci il



Bülbül, V.Axundov, S.Rəhimov, M.Hüseyn və başqaları.
60-cı illər



Ata gələcək sənət
oğlunun Poladın ilk
uğurlarına sevinir.
1960-cı il





Ədilə xanımın Bülbüllü günləri. 1961-ci il

Ömrün zirvəsi.
May, 1961



Əlvida,
mənim Şuşam!
Avqust, 1961-ci il

Ata öz oğulları ilə Çingiz və Poladla qanadlanırdı.
1961-ci il





Heydər Əliyev Bülbülün ailəsi ilə sənətkarın Memorial Ev-Muzeyində. 1982-ci il

*Mirzə Xosrov AXUNDOV (Şaiq)*

## *ŞUŞA BÜLBÜLÜ*

Səhnədə oxurkən Şuşa Bülbülü,
Qızardı fərəhdən gülşəndə gülü.
Öyrənir nəğməni ondan bülbüllər,
Oxucaq nəğməsin açılır güllər.
Adı da Bülbüldür, özü də bülbül,
O, yeni nəğmələr yaradır hər il.
Sənətkar sənətin ürəkdən sevir,
Səhnədə xalqına nəşələr verir.

## *BÖYÜK USTAD BÜLBÜLƏ*

Bülbül! Bilir aləm ki, Vətən, yurd çəmənindi,
Bağlardakı güllər də, çiçəklər də sənindi.
Biz vəcdə gələrdik o gözəl mahnılarından,
Sən müjdə verərdin elə sənət baharından.
Gəncdin, hələ qəlbinlə, könül nəğmələrinlə,
Bir dost kimi hər vaxt sevinərdik zəfərinlə.
Kim can verəcək, söylə görək, «Sənsiz»ə sənsiz!
Bir an belə sən olmadın ömründə Vətənsiz!

İlk gündən, əziz dost,
Ey qəlbi təmiz dost!

Xalqın, vətənin eşqini öz qəlbinə yazdın,
Al bayrağı candan öpərək bağrına basdın.

Hörmət də sənindi,
Şöhrət də sənindi.
Bülbül! Nəfəsində
Bir sel gücü vardı.
Nəğməndə, səsində
Bir el gücü vardı.

Gəzdin bu vətən mülkünü, hər yerdə görürdün,
Bülbül kimi nitqinlə şirindən də şirindin.
Min bəhrə verərdin bizə öz səhnə bağından,
Bir an belə düşməzdi təbəssüm dodağından.

Oldun vətənin çin əziz övlad,
Heyhat, yenə heyhat!



Getdin niyə, dostum, belə erkən aramızdan?
Var oldu ürəklərdə yerin, ey böyük insan!
Getdinsə də, yurdumda sənin qol-budağın var,
Eşqinlə saraylarda yanan çilçırağın var.
Ey mahnıların şairi, ey hər sözü göyçək,
Torpaq ananın qoynuna girsən də oğul tək,
Hər an səni xatırlayacaq, məncə, könüllər,
Haqqında sənin söyləyəcək şanlı nəsillər.
Elçün uzun illər yeni Bülbül kimi ötdün,
Bülbül kimi gəldin, yenə Bülbül kimi getdin.

## *DOSTUM BÜLBÜLƏ*

Sən ellərin sevgisilə bəzəmisən ömrünü,
Balam deyib əziz tutur ana vətən ömrünü.
Başın daşdan-daşa dəyib yeni sənət yolunda,
Döyüşmüsən əsgər kimi bu həqiqət yolunda.
Minbir ətir toplamısan minbir canlı çiçəkdən,
Alqış yağmış ünvanına milyon-milyon ürəkdən.
Sən ötdükcə vətənini ürəyinin gözüylə,
Ucaltmışdır xalqın səni qanadında özüylə.
Alnı açıq nəğməkarı sayılırsan ölkənin,
Dəryalarda dalğaları yenmiş mahnı yelkənin.
Sən dost sovet ellərinə söyləmisən nəğməni,
Əsrin solmaz güllərinə söyləmisən nəğməni.
Mahnıların durnaların qatarı tək düzülür,
Gur bulaqlar qayalardan könüllərə süzülür.
Gəl, gəl sıxım dost əlini, bu gün altmış
yaşında,
Yerin vardı göz üstündə, süfrəmizin başında.
Oxu, ucalt avazını Azərbaycan bülbülü,
Könül açan xoş mahnınla tamamlayaq bu ili!

Əziz dostum, yaşa, yarat, qoca sanma özünü,
Bizim ellər uzun illər dinləyəcək səsini!

*28 dekabr 1957*

## DOSTLUQ ŞARJI

### Bülbülə

Bülbüləm, vurmadı bağçamda xəzan güllərimi,
Yazıram qəlbimə mənalı keçən illərimi.
Dən verib, bəsləyirəm doğma vətən mülkündə
Ana bülbül kimi mən öz bala bülbüllərimi.



**Səməd VURĞUN**

## EŞİT HƏQİQƏTİN İNCƏ SƏSİNİ

…Bu günün eşqinə mahnılar deyək.
Desin Koroğludan bir ağız aşıq,
Nə lazım dünyada sözsüz yaraşıq?
Eşit həqiqətin incə səsini,
Bülbülün «Qarabağ şikəstəsi»ni.

**Rəsul RZA**

## QURURAM RADİONU...

Qururam radionu:
Ölü Bülbül oxuyur
Ölü Üzeyirin «Sənsiz»ini,
Piano çalan da
Ölmüşdür.
Dinləyirəm məyus, kədərli
Tellərin fəryadı ucalanda
Sanki nəğmə pıçıldayır qulaqlarıma:
Üzeyir də sağdır!
Bülbül də!
Ölməmişdir piano çalan da!



**Mirvarid DİLBAZİ**

## OXU, BÜLBÜL!

Oxu, Bülbül!
Oxu, Bülbül!
Çənlibeldən gəlsin səsin,
Oxu, Bülbül!
Uzaq, yaxın
Neçə eldən gəlsin səsin!
Oxu, Bülbül!
Bu səs deyil,
Bir əfsundur...
Bu səsə dünya məftundur.
Oxu! Bu bülbül cəh-cəhi
Qarabağdan gələn səsdir
Könlümüzü şerə, sözə
Qanadlandıran həvəsdir.
Bu Koroğlu zəngulәsi,
Qəhrəmanlıq nərəsidir.

*Nigar RƏFİBƏYLİ*

## BÜLBÜL

Bülbül, fəğan etmə bu gecəyarı,
Şirin yuxudadır hələ nazlı gül.
Könüldə məhəbbət oyanmamışsa,
Fəğanla oyatmaq olarmı, bülbül?

Qızılgül şahıdır bütün güllərin,
O, hələ qönçədir, yuxusu dərin.
Onu oxşayanda meh sərin-sərin,
Səbrinin kasası dolarmı, bülbül?

Gözəl bir ölkənin sən bülbülüsən,
Heyran eləmisən qönçə gülü sən.
Ellərin mehriban, şirin dilisən,
Sevimli nəğməkar ağlarmı, bülbül?

Mənim də yurdumun bir Bülbülü var,
Səsi bülbül səsi, qəlbi sənətkar.
Həzin nəğməsində gülümsər bahar,
Ona ilham verən baharmı, bülbül?

Ona çatan yoxdur hələ sənətdə,
Şirin nəğmələrə saf məhəbbətdə.
Dost, yar-yoldaşa xoş bir ülfətdə
Səninlə bağlamış ilqarmı, bülbül?



*Hüseyn ARİF*

## SƏNƏTKARA HƏDİYYƏM

***Bülbülə***

Bizim havaların gücü, qüdrəti,
Bülbülün dililə dillərə düşdü.
Elimin, günümün sözü, söhbəti
Ürəkdən süzülüb tellərə düşdü.

Başqadır yaşayıb, yaşatmaq eşqi,
Nəsillər yurdumda səs-səsə verdi.
Bir məslək, bir Vətən, bir torpaq eşqi,
Səni də bülbül tək dilə gətirdi.

Sən yenə cavansan, baxma yaşına
Qocalmaz el üçün döyünən könül.
Gəl, bu əziz gündə çıxım qarşına
Bir əlimdə şer, bir əlimdə gül.

*Qasım QASIMZADƏ*

### BÜLBÜLƏ

Bir yel əsdi qızılgülün ləçəkləri töküldü,
Budaqları büküldü.
Bir yel əsdi, nəğməkarı gülşənindən qopardı,
Cəh-cəhini apardı.
Bir ah çəkdi eşidəndə bu dərdi, bu sorağı,
Azərbaycan torpağı.
Qəmli, dərin bir sükuta qərq olsa da adamlar,
Qəlblərdə bir mahnı var.
Milyonların sinəsindən qanadlanan o mahnı
Gəzir bu gün dünyanı.
Gəzir itmiş sahibini gəzən kimi səbirsiz,
Gəzir səssiz-səmirsiz.
Şirin Bülbül ahəngiylə hamı «Sənsiz» oxuyur,
Hamı səssiz oxuyur…
Hamı… sənsiz oxuyur.



*Ələkbər ZİYATAY*

### YÜZ NƏĞMƏLİ BÜLBÜL ÜÇÜN

***Böyük müğənnimiz Bülbül***
***Məmmədovun xatirəsinə***

Bizim doğma gülşənin
qoynunda qırx-əlli il
cəh-cəh vurmuş o bülbül.
Bir elə bülbüldü ki,
Nəğməsində gah vüsal,
gah hicran səslənirdi,
Gah mavi gözlü Göy göl
gah Muğan səslənirdi.

O, elə bülbüldü ki,
gülürdü nəğməsində
Murov dağın döşündən
axan büllur bulaqlar.
O, elə bülbüldü ki,
canlanırdı səsində
Qubanın, Ordubadın
Hüsnü, bəzəyi bağlar.
Gah onun mahnısında
Döyünürdü ürəyi
sevib-sevilənlərin,
Rövşən tək qılınc çəkən,
Kərəm tək qan-yaş tökən
mərdlərin, ərənlərin.

Elə bilirdik hərdən
Abşerondan, Xəzərdən

Əsən güclü yellərin
Nərəsi var o səsdə.

Elə bilirdik hərdən
Nurlu-nübarlı Kürdən
Həyat almış çöllərin
Nəfəsi var o səsdə.

Bəzən onun nəğməsi
Köç etmiş babaların
Bu gün həqiqət olmuş
diləyindən deyirdi.

Bəzən onun mahnısı
Ellərin, obaların
Hünərindən deyirdi,
əməyindən deyirdi.

Hər nəğmə o dodaqda
Güldükdə, ağladıqda,
Sanırdın dodaq deyil,
qəlb dinir, can dinirdi.

O, elə bülbüldü ki,
Hər bir təranəsində
Azərbaycan səslənir,
Azərbaycan dinirdi.



*Əli KƏRİM*

## BÜLBÜLÜN XATİRƏSİNƏ

Nə səni dindirdi ölüm,
nə bizi,
Söndürdü nəğməylə
yaşayan nəbzi.
İnsan dəryasında bir qayıq kimi
axdı tabutun.
Bu zaman cəh-cəhlə ucaldı səsin,
Ucaldı,
Söylədi: – Qəmi unudun.
Hamı fikrə getdi.
Səni dinlədi.
Coşub bir-birinə dedi min könül:
Hamıtək ölümə məruz Bülbülü
Oxuyub dəfn edir ölümsüz Bülbül.

*Məmməd ARAZ*

## BÜLBÜLÜN SƏSİ

Sanki onu
Qarlı dağlardan,
Qaynar bulaqlardan
Çaylar gətirmişdi, çaylar!
O, quşlarla ötüşər,
Buludlarla öpüşər,
Öz doğma torpağına
Külək kimi yayılar,
Yağış kimi hopardı.
Onun zənguləsindən
Dağlar da diksinərdi,
Qayalar da qopardı…
İndi yoxdur, özü yoxdur,
Qulağımdan getmir səsi,
Haray çəkib səsi onu,
Onu gəzir…
Elə bil ki, yol üstündə
Düşüb qalan misri qılınc,
Yüyənsiz bir Qırat olub
Onun səsi, –
Onu gəzir,
Onu gəzir…

*1965*



*Tofiq MÜTƏLLİBOV*

## BÜLBÜL

***SSRİ xalq artisti Bülbülün anadan olmasının 60 illiyi münasibəti ilə***

Bülbül tək ötürsən ellər bağında,
Fərəhdən köksündə dağ olur ürək.
Sən altmış yaşında Qırat üstündə
Qalxırsan qəhrəman qoç Koroğlu tək.

Oxu, Azərbaycan Bülbülü, oxu,
Sıxıb əllərini söyləyirik: – Sən
Könüllər oxşayan gözəl səsinlə
Bülbülü lal edən Bülbülümüzsən.

## SƏNİN YADİGARIN

***Ölməz müğənnimiz Bülbülün Bakıda açılmış abidəsi önündə düşüncələr***

Deməsinlər atəş idi,
söndü səsin.
Yox, yox, ölməz mahnılara
döndü səsin.
Qırat üstə zirvələrə
qalxır adın,
Koroğluydun Üzeyirsiz
yaşamadın.

Nəğmələrin üfüqlərdə
xaldı sənsiz,
Uçub getdin, bir yadigar
qaldı «Sənsiz».

### HEYKƏLLƏŞƏN BÜLBÜL

Salonlar şərbət içdi
O şəlalə səsindən.
Seyr etdin bu dünyanı
«Koroğlu» zirvəsindən.

Səni Bülbül eləyən
Torpaq oldu, el oldu.
Qırat üstə qalxanda
Səhnə Çənlibel oldu.

Turşsu, İsa bulağı
Çağlar yenə səsində.
Göy göl gözəlliyini
Saxlar yenə səsində.

Şöhrətini yaşadan
Saza, neyə, tara bax.
Zümrüd Cıdır düzünü
Heykəl edib Qarabağ.

Dağlar çoxdu, nə Qoşqar,
Nə də ki, Kəpəz olmur.
Təzə «bülbül»lər gəlir,
Səsinə əvəz olmur.

Qurultaylar sarayı
Şəfəqlərə büründü…



«Cəngi»miz dilə gəldi,
Sənin yerin göründü.

«Ölkəm» seyrə səsləyir
Başdan-başa ölkəmi.
Gedir əbədiyyətə
Nəğmələrin yelkəni.

Nəğmən günəşə döndü,
Əritdi dağda qarı.
Görüşlərə səslədi
«Sevgili canan»ları.

İndi müğənnilər var,
Qalmır elin yadında.
Təzə xilaskar çıxıb
Fonoqramma adında.

Onlar heykəlləşməyə
Can atır, tələsirlər.
Heykəlinin önündə
Fəqət tir-tir əsirlər.

Nəğməni oxumadın
Doğma Vətənsiz heç vaxt.
«Sənsiz»in dilə gəlir,
Olmadıq sənsiz heç vaxt.

Bu torpağa, bu elə
Sən yenə «can» deyirsən.
O tunc dodaqlarınla
«Azərbaycan» deyirsən.

Sərdar ƏSƏD

## BÜLBÜL – NƏĞMƏKAR

Açıldı nəğməkar səs baharından,
Titrəyən kirpiyi şeh tumarladı.
Dillərə tökülən barmaqlarından
Lələklər oynadı, duyğu qarladı.

O səhra sinəyə sığdı hər diyar,
Qovuşdu simlərin şəlaləsindən.
Döndü nəğmələrə fərəh-bəxtiyar –
Gəzdi dodaqların zümzüməsindən.

Axdı ömürlərin uzunluğuna,
Sərnalı nəğmələr nura boyandı…
Dalğalı illərin yorğunluğuna
Yatdı o nəğməkar… nəğmə oyandı!

1972



Famil MEHDİ

## BÜLBÜL

Gözəldir,
Nəğmənə əhsən, min əhsən!
Dahi deyilmisən bu nəğmənlə sən?!
Kim deyər mahnını duyan olmayıb?
Yüz ildir,
Min ildir duyan olmayıb.
Yer də, göy də susur.
Mən də susuram,
Söykənib palıda qulaq asıram.
Nələr düşünürəm, bilirsən nələr,
Yəqin ki, çoxları eşidib gülər.
Bizim nəğməkarlar
gəlib arabir
Səni dinləsəydi, salsaydı yada,
Həyəcansız nəğmə, ürəksiz şer
Çox-çox azalardı, bəlkə, dünyada.

1971

*Tofiq BAYRAM*

## VİDA NƏĞMƏSİ

***Dahi müğənnimiz Bülbülün ölümü münasibətilə***

Ah, ölüm gör kimi susdurub, kimi?
«Sənsiz»im dil açıb harda ağlayır!
Mizrabsız hönkürür kamanın simi,
Saz da inildəyir, tar da ağlayır.

Musiqim yas tutub ağlayır, bəli,
Ürəklər fəth edən hökmdar susub.
Bulaq zümzüməli, bülbül nəğməli,
Koroğlu nərəli nəğməkar susub.

Gözümdən tökülür ahımın külü,
Ümmanı sükutda görmək zülümdür.
Ürəkdən-ürəyə qonan bülbülü
Bir qara tabutda görmək zülümdür.

Deyir, o çiçəklər qanamı batıb?
Nədir üzlərində görünən ləkə?
Hər gülə bülbüllər göz yaşı qatıb,
Bülbüllər şahına göndərib, bəlkə?

Koroğlu gözünü bir də yumdumu?
Bəlkə, o, səfərdən gəlib, dincəlir?
Dağlarda kişnəyən ildırımdımı?
Bəlkə də, Qıratdır, haraya gəlir?



Xan Eyvaz hardadır, Nigar hardadır?
Deyin, Giziroğlu qabağa gəlsin.
Gəlsin Halaypozan, igid dardadır,
Ölüm halayını pozmağa gəlsin!

O susur, ağlayır dostu, sirdaşı,
Cavan da, qoca da düzülüb səfə.
Dünən sevinc yaşı, bu gün qəm yaşı
Gözlər o gözləri görür son dəfə.

Alqış təlatümü qoparan əllər
Sınmış budaq kimi sallanıb yerə,
Dünən Koroğlunu aparan əllər
Bülbülü aparır axır səfərə.

Səsiylə titrədi torpağı, daşı.
Yer də nəfəsini canına çəkdi.
Öldü Üzeyirin sənət qardaşı
Musiqi nəğməni yanına çəkdi.

Hünər də, qeyrət də gəzdi səsində,
Şadlığa çağırdı ana yurdu o,
Nəğməkar xalqının öz ləhcəsində
Şeyda bülbül kimi cəh-cəh vurdu o.

Özgə budağına uçub qonmadı,
Elimin öz bağı bəsimdir, – dedi.
Yüz cənnət olsa da, yüz çiçək adı,
Bir vətən yarpağı bəsimdir dedi.

Oxudu «Sevgili canan» nəğməsi,
Eşqin şərbətini içdi sevənlər.
Axdı ürəyimdən «Vəslin həvəsi»,
Görüş həvəsinə düşdü sevənlər.

İndi qərq olmuşuq qəm dənizinə,
Salona həzinlik yağır qar kimi
Qara pərdəsini çəkib üzünə
Səhnə, çadra örtmüş analar kimi.

İnana bilmirəm!
Bu, nə qəm-qubar?
Necə ayrılıqdır: –
Mənə deyin bir.
Bəlkə, tamaşadır?
Axı sənətkar
Səhnədə yüz dəfə ölüb-dirilir.
Əfsus, həqiqətdir...
Bu sonsuz yolun
Qırmaz tilsimini milyon-milyon əl,
Həyat səhnəsində paylanan rolun
Zalım rejissoru əcəldir, əcəl!
Elə şirindi ki, avazı, sözü,
Ölüm də eşidib, həvəsə düşdü.
Aldı əlimizdən Bülbülümüzü,
O yerin altında qəfəsə düşdü.

Yox-yox, inanmıram, bu söz yalandır,
Yarıb dar qəfəsi azad səsimiz.
Bülbülün yuvası Azərbaycandır,
Bülbülün cəh-cəhi həyat səsimiz!

*1961*



## *BÜLBÜLÜN EV MUZEYİNDƏ DÜŞÜNCƏLƏR*

Bura nəğmələrin ziyarətgahı,
Müqəddəs evidir musiqimizin.
Burda yuva qurub bülbüllər şahı,
Səsi qəlbimizdə yaşayır bizim.

Arazın, Göy gölün, doğma Xəzərin,
Ən şirin sədası bu muzeydədir.
Bütün çeşmələrin, şəlalələrin,
Sehrkar nidası bu muzeydədir.

Bakımız öz polad biləkləriylə,
Bu evin sütunu olmaq istəyir.
Bütün güllərilə, çiçəklərilə
Çəmənlər bu yerə dolmaq istəyir.

Burdan sinəmizdə qalan hər iz də
Yazılsın məhəbbət əlifbası tək.
Onun cəh-cəhini ürəyimizdə
Sarı simlər kimi dindirib gedək.

Evi muzeydirsə, özü cahandır,
O nikbin ruhumuz, o şad səsimiz.
Bülbülün yuvası Azərbaycandır,
Bülbülün nəğməsi həyat səsimiz!

*21.06.1982-ci il*

*İlyas TAPDIQ*

## BÜLBÜL

***Böyük müğənnimiz Bülbülün xatirəsinə***

Bahar köçünü,
Dağlara çəkdi.
Bağlar yamyaşıl,
Düzlər çiçəkdi.

Qönçə yataqdan
Oyanır çiçək.
Evə eyvana
Boylanır çiçək.

Açılıb gülür –
Gül-güldən gözəl!
Oxuyur Bülbül
Bülbüldən gözəl!...

Bülbül cəh-cəhi
Vardı Bülbüldə.
«Bülbül» adıyla
Tanındı eldə.

Bizi «Sənsiz»i
Heyrətə salır.
Nənəmin əli
Üzündə qalır.



Deyir: – «Bülbülə
Mən gül vermişəm,
Şirin səsinə
Könül vermişəm»…

Dinləmək üçün
Həmişə onu,
Açıq qoyuruq
Biz radionu…

Açılıb gülür –
Gül güldən gözəl!
Oxuyur Bülbül
Bülbüldən gözəl!

## YENƏ DOĞUL, BÜLBÜLÜM!

Ay işığı kimi
Yayılır səsin.
Dağlarıma, düzlərimə.
Təbiət salamlayır
«Ölkəm»i
Gülümsünən
çiçək gözlərilə.
Gur şəlalə nəğmələrindən
Çinara nur süzülür,
Nəğmə-sevinc qətrəsi,
Baxışlara düzülür…
Necə doğmasan,
Bülbülüm!
Necə doğmasan!
Sən yenidən bu dünyaya
doğulmalısan,
Bülbülüm!

Mahnılarından yenə də
Çələng yaratmalısan.
Mahnı dəllallarını,
nəğmə kol-koslarını
nəhəng çinar kölgəndə
boğub saraltmalısan...
Ucuz səslərini
baha satanlar,
Elin nəğməsinə
yad səs qatanlar
Düşə, bəlkə, nəzərdən!
Oxuyasan –
Ürəklər
tel-tel ola, açıla
Şəlalə nəğmələrdən...
Avtobuslar, maşınlar
Kal səslərlə dolmaya,
Zövqləri korlayan
Zövqsüzlər olmaya,
Doğul, doğul, Bülbülüm,
Bizi səslə yenə də
Uca səs dağlarına.
Vəlvələ sal, Bülbülüm,
Ucuz zövqlülərin
Qarğa mahnılarına...
Elin ürəyindən,
mahnılarından
halısan, Bülbülüm!
Sən elə doğmasan,
sən yenidən
doğulmalısan,
Bülbülüm!



*Həmid ABBAS*

***BÜLBÜLƏ***

Gözəl səsin bulaqlarda,
Obalarda, oymaqlarda,
Düşməz adın dodaqlarda,
Haqlasan da yüzü, Bülbül!

Vurğunuyuq zil səsinin,
Hər sözünün, kəlməsinin,
Azərbaycan nəğməsinin,
Gur ocağı, közü Bülbül!

Dərə keçdin, dağlar aşdın,
Buludlarla pıçıldaşdın,
Mahnılarla doğmalaşdın,
Bu torpağa, elə Bülbül!

*noyabr, 1997*

*Ələkbər SALAHZADƏ*

### BÜLBÜL

Bir səs qalxdı Şuşadan!
Bir ox süzdü – şüadan.
Bir sim sızdı – şüşədən.
Bir fəvvarə
şölə-şölə,
şüa-şüa süzüldü.
Bir işıqdan sıza-sıza
Bir şəlalə açıldı!
Gümüş bir dağ partladı,
Sanki bir qayanın dili açıldı,
Bir sevinc kükrədi,
bir toy parladı.
Bir ildırım səsindən
O tay işıqlandı
bu tay parladı.
Bir ocağın işıqları gur yandı,
Bir Çənlibel,
bir qaya-səs,
bir qıyya səs
qalxdı, qalxdı qanadlandı,
enib gəldi,
bir misrayla axıb getdi.
Bir səs qalxdı,
daşıb getdi bir səhrayla!…
Bir Koroğlu nərəsindən
qığılcımlar sovruldu,
birdən-birə alov doldu bir nara.
Dəli-dəli şırımlandı bir nərə,
hardan-hara
sıralandı bir haray!
Bir səs qalxdı Şuşadan!
Bir ox süzdü – şüadan,
Bir sim sızdı – şüşədən.
Bir səs qalxdı – şimşəkdən!
Rişələrdən süzüldü,
Şimşəklərdən duruldu,
şahə qalxdı,
bir Koroğlu nərəsindən nərə-nərə
Araz kimi,
Kür kimi
gümüşü bir sim kimi
Süzüldü işıqlara,
Qarışdı səcərlərə,
çəkildi zirvələrə,
doldu qızıl bir nara…

*1972*

*Şahmar ƏKBƏRZADƏ*

## SƏNDƏN NƏ GƏLMƏYİB, NƏ GƏLMƏYƏCƏK

***100 yaşlı ölməz Bülbülümüzə***

Sənə ellər verib «Bülbül» adını,
Əbədi qalacaq vurduğun cəh-cəh.
Çox bülbül görübdür qoca dünyamız,
Səndən nə gəlməyib, nə gəlməyəcək!

Bülbülün vəfası gül soluncadır,
Sən solmaq bilməyən səs gülümüzsən.
Savaş meydanında Qoç Koroğlumuz,
Sənət meydanında Bülbülümüzsən!

Yüzillik ad günün Şuşasız keçir,
Cəlladlar yurduna od ələyiblər.
Səsinə mərminin gücü çatmayıb,
Namərdlər büstünü güllələyiblər.

Yad atlar kişnəyir Cıdır düzündə,
Qalıb əsirlikdə İsa bulağı.
Hər gün qan ağlayır sinəsi dağlı,
Bağrı şan-şan olan Bağrıqan dağı.

Yoluna göz dikib güllü, çiçəkli
«Yeddidolama»nın yetim yolları.
Laylanı çalan ev baxır Şuşadan
Boylanır ümidlə Bakıya sarı.

Baxır bizə sarı girov məzarlar,
Orda Vaqif qalıb, Xan qızı qalıb!



Hayla Xan Eyvazı, Halaypozanı
Qarabağ nərənə tamarzı qalıb.

Sənə ellər verib «Bülbül» adını,
Əbədi qalacaq vurduğun cəh-cəh.
Çox bülbül görübdür qoca dünyamız,
Səndən nə gəlməyib, nə gəlməyəcək!

## GÜLLƏLƏNMİŞ ABİDƏLƏR

***Natəvanın, Üzeyir bəyin, Bülbülün erməni quldurları tərəfindən güllələnmiş abidələri önündə düşüncələr***

Niyə kor olmuruq sizə baxanda?
Əsir arsız-arsız, əsir dizimiz.
Şəhidlər görmüşük nə qədər desən,
Şəhid heykəllər də gördü gözümüz!

İblis əməlindən heyrətlənirik,
Nə çıxar havayı heyrətimizdən.
Utanıb-qızarır şəhid heykəllər
Birləşə bilməyən qeyrətimizdən.

Yıxır evimizi boş danışıqlar,
Güldürür düşməni sözümüz bizim.
Bülbülün gözünə dəyən gülləyə
Sipər olmalıydı gözümüz bizim.

Çatlayır Şuşada goru Vaqifin
Soyuq ruhumuza od dammır hələ.
Üzeyirin alnını deşən qəlpələr
Namərd ağlımızı odlamır hələ.

Niyə kor olmuruq sizə baxanda?
Qəflət yuxusundan oyanmırıq biz!
Hələ Pənah xanın, Gövhər ağanın
Əsir məzarından utanmırıq biz.

Daha danışmağa sözmü qalıbdır?
Gərək söz tutmasın dodaqlarımız.
Ulu Xan qızının baş örpəyindən
Götürsün payını papaqlarımız!

İblis əməlindən heyrətlənirik,
Nə çıxır havayı heyrətimizdən?
Utanıb-qızarır şəhid heykəllər
Birləşə bilməyən qeyrətimizdən.



*Həsən MUXTAROV*

## *BÜLBÜLƏ AŞQABAD SALAMI*

Səni təbrik edir Aşqabad eli,
Xoş gəldin bizə, ey Bakı Bülbülü!
Cəh-cəhin qardaşlıq təranəsidir,
Səadət nişanı əfsun səsidir.
O şirin səsin,
Coşğun həvəsin.
Azad ürəklərə versin qol-qanad,
Sənə qucaq açmış gözəl Aşqabad.

Aşqabad vətəndir bahara-yaza,
Aşiqdir bülbülə, nəğməyə, saza.
Sən də bir Bülbülsən vətənə, elə,
Qoy səsin can versin gülə, bülbülə.
O şirin səsin,
Coşğun həvəsin.
Azad ürəklərə versin qol-qanad,
Sənə qucaq açmış gözəl Aşqabad.

Əlin uzadanda yurdumuza yad,
Bir yerdə döş gərdi Bakı-Aşqabad.
İki qardaşıq biz mehriban, əziz,
Dostluq günəşindən nur alırıq biz.
O şirin səsin,
Coşğun həvəsin.
Azad ürəklərə versin qol-qanad,
Sənə qucaq açmış gözəl Aşqabad.

*Aprel, 1947-ci il*

*Sabir RÜSTƏMXANLI*

## BÜLBÜL OXUYUR

Səs də zirvəyə dönə bilirmiş,
Görünə bilirmiş
dünyanın hər yerindən.
Səs də torpaq ola bilirmiş,
Addımlamaq olurmuş
mahnının üzərindən.
Səs də qanad ola bilirmiş,
Adlayarmış üstündən
yüz fəslin, yüz ilin.
Yol olub aparırmış
Dünyanın hər yerinə
bir millətı, bir eli.

*1978*



*Mövlud SÜLEYMANLI*

## «GÜLƏRƏM GÜLSƏN»

Şəhərlər, ağaclar,
dənizlər oxudu.
Sərhəd məftilləri
səs-səsə verdi
Ölkələr oxudu.
«Ağlasan ağlaram,
Gülərəm gülsən».
Məhəbbətin əlini
alıb ovcuna
Bütün ürəklər
Oxudu:
«Ağlasan ağlaram,
gülərəm gülsən…»
Ləpələr sahilə gətirdi məni
Çırpıram özümü qayalıqlara.
Bütün şəhərlərə,
ağaclara,
Bütün ürəklərə, ölkələrə,
Sərhəd məftillərinə
qoşulub oxuyuram
«Ağlasan ağlaram,
Gülərəm gülsən».

***15 noyabr, 1969-cu il***

*Həkim QƏNİ*

## *ÖLMƏZ MÜĞƏNNİMİZ BÜLBÜLÜN XƏYALI İLƏ…*

Üfüqdən-üfüqə açaraq o bal,
Süzür əzəmətlə bir uca qartal!
Süzür o möhtəşəm, ilahi xəyal!

Süzür Kainata o qalib kimi,
Süzür qadir, amir sakit əsəbi,
Yerlərdir onlarçun dünyanın dibi,
Ucadan ucadır yüksəliş təbi,
Heyrətə, dəhşətə bənzəyən bu hal!
Süzür əzəmətlə zirvədə qartal!

Açıb kainata balu-pərini,
Ona uzaq deyil göyün dərini,
Görür göydən yerin zərrələrini,
Qadir qanadında hicranla-vüsal,
Süzür əzəmətlə uca bir xəyal!

Bir insan ömrünü yaşadı, getdi!
Sənətə qovuşdu, murada yetdi,
Sənəti ellərin öz malı etdi,
Süzür əzəmətlə canlı bir xəyal!
Süzür o xoş niyyət, müqəddəs amal!

Bülbül! O İlahi səsin sahibi…
Olmadı səslənən bir onun kibi,
O rəssam xəyalı, o şair təbi!
Süzür xəyallarla zirvədə qartal!
Əbədiyyət quşu, cavabsız sual!



O Odlar yurdunun bir şöhrətiydi,
Musiqi diliydi, söz sənətiydi,
O qəzəlxanların əzəmətiydi,
Uçur zirvələrdə o qoca qartal!
O sənət fatehi, müqəddəs xəyal!

Sənətdə yox bənzər o canfədaya,
Üzeyirlə verib səda-sədaya,
Sanki ucalıblar günəşə, aya.
Birgə qanad çaldı o qoşa qartal!
O müqəddəs arzu, müqəddəs amal,
Süzür zirvələrdə, sanki bir xəyal!

***25 noyabr 1997-ci il***

*Çingiz ƏLİOĞLU*

## BÜLBÜL

Bəslərdi könlündə, həssas qəlbində
Neçə xoş arzunu, diləyi Bülbül.
Ötərdi xalqının toy-düyünündə
Yurdunun oxuyan ürəyi Bülbül.

Köksünə güc verən uca dağlardı,
Səsində bu elin eşqi çağlardı!
Quşlar nəğməsinə qanad saxlardı,
Yolundan edərdi mələyi Bülbül!

Dəyişib dünyasın çox da haçaqdı,
Bülbül o bülbüldü, bağ da o bağdı!
Bu gün də yaşayır, bu gün də sağdı,
Aldatdı ölümü, fələyi Bülbül!...



*Rüzgar ƏFƏNDİYEVA*

## AYRILIQ SAHİLİ

***Unudulmaz müğənni Bülbülün xatirəsinə***

Nədir bu çağlayan çaylar, nə deyir,
Oxuyan həsrətə aylar nə deyir,
Ürəyin qapısı açılıb günə,
İnsan da nəğmədə qayıdar, dönər.

Tutulan buludlar şimşək qanadlı,
İlahi, yanğılı görünməz oldu.
Alıb könlümüzü gedir hayana,
Qorxuram od tutub sevgilər yana.

Bir ömür baş alıb keçir nəğmədən,
Heç kəsə, heç nəyə bir söz demədən.
Fikirli gecəsi ulduzlanacaq,
Hardasa gözəllər tənha yanacaq.

Niyə kövrəlibdi dağların gözü,
Koroğlu axtarır yenə dağ-düzü.
Bir çinar ucalır göylərə sarı,
Payız bağlarını ayrılıq sarır.
«Sənsiz» adasıdı ayrılıqların,
Ölməz sədasıdı ayrılıqların.

Divanə olubdu, Bülbül, «Sənsiz»in,
«Sənsiz» qəribsəyib özünü gəzir,
Bülbül nəğməsinin öz dili varmış,
Nəğmənin ayrılıq sahili varmış.

*Ramiz HEYDƏR*

## *BAĞBAN, SULA BU GÜLLƏRİ...*

***Prezident Aparatı qarşısındakı meydanda (həyətdə) Üzeyir Hacıbəyovun, Natəvanın, Bülbülün Şuşadan gətirilib, bura qoyulmuş heykəl-büstləri olan bağçanı hər gün səhər-səhər sulayan, qayğısına qalan bağbana həsr edirəm.***

Bağban, sula bu çəməni, bu gülü,
Bağban, sula bu bağçada Bülbülü.
Bu guşəyə göydən şəfəq saçılsın,
Natəvanın təki könlü açılsın.

Sən su çilə Üzeyirin önünə,
Ürəkdən yan ustadın bu gününə.
Gəl, su çilə, qoy gül-çiçək sevinsin,
Təskinliyim olsun, ürək sevinsin.

Üç sənətkar uzaq düşüb Şuşadan,
Bu sevgidir heykəlləri yaşadan.
Köçkünlərdir elə hey xəyalımda,
Didərgin xalq heykəllərin halında.

Ah, necə də alışmasın qəlb oda,
Qaçqınları çox görmüşəm həyatda.
Qaçqın heykəl görməmişdim dünyada,
Belə vaxtda sınır qol da, qanad da.



Baxıb-baxıb heykəllərə yanıram.
O Şuşalı günlərimi anıram.
Gözlərimdir ah-yaş töküb ağlayan.
Ürəyimdir arzularla çağlayan.

Demirəm ki, dərd dərd üstə qalansın,
Deyirəm ki, torpağımız alınsın.
Qaytarılsın özümə o düz, o dağ,
Qaytarılsın özümüzə Qarabağ.

O gün olsun gələk Cıdır düzünə,
Şəfəq qonsun Üzeyirin üzünə.
Qoy varağa yazsın qəlbdəki dağı,
Natəvanın qələm tutan barmağı.

O gün olsun gələk, Şuşaya gələk,
Bülbülə də orada su çiləyək.
Sənətkarın təki ruhu durulsun,
Su çilənsin, qoy su aydınlıq olsun.

Kaş, salasan o yerlərə yolunu,
Bağban qardaş, çırmayasan qolunu.
Kaş, olasan hər guşənin bağbanı,
Kaş, olasan sən Şuşanın bağbanı.

*14.X.1999*

*Oqtay RZA*

## BÜLBÜL GÜNÜ

***Böyük müğənnimiz dünyasını dəyişəndən sonra hər il dərsim hansı ayınsa 26-na düşəndə tələbələrimə bildirirəm ki, bu gün «Bülbül günü»dür. Azərbaycan Teleradiosu onun lent yazılarını səhərdən axşamadək səsləndirəcək. İzləməyi unutmayın.***

Bülbülün cəh-cəhi yayılır yenə,
Təzə duyğularla köksümüz dolur.
Könüllər nəğmədən pay alır yenə
Dünya başdan-başa gül-gülşən olur.

Böyük sənətkarın sehrli səsi
Büllur bulaqlar tək safdır, təmizdir.
Bu səsi yaşadır Qorqud ölkəsi –
Dünyada musiqi şöhrətimizdir.

Oldu bülbüllərin avazı Bülbül –
Dönüb abidəyə milyon ürəkdə.
Çingizin, Poladın atası Bülbül
Deyərmiş: «Keçmişi gör gələcəkdə!»

Üzeyir ünvanlı «Koroğlu», «Sənsiz»
«Qalada yatmışı» oyatmalıdır!
Heykəli neçə il qalıb Vətənsiz,
Bakıdan Şuşaya qayıtmalıdır!

Xoş xəbər gəzəcək bütün cahanda:
Hər ayın özünün toy-düyünü var,



Bütöv, çiçəklənən Azərbaycanda
Bir də çoxəsrlik «Bülbül günü» var!

**PS.** Ü.Hacıbəylinin, Natəvanın, Bülbülün heykəlləri əvvəlcə İrəvana, sonra isə Tbilisi bazarına «sürgün» edilmişdi… Nə yaxşı ki, Mədəniyyət nazirimiz Polad Bülbüloğlu bu abidələri Bakıya gətirə bilib.

*16 avqust, 2002*

*Rəfiq ZƏKA*

## EFİRDƏ CANLI BÜLBÜL

Efirdə canlı Bülbül yenə candan oxuyur,
Üzeyirin «Sənsiz»i titrəyir mənliyində
Yoxluğu bu varlığın əbədi şənliyində,
Varlığıyla ölümə sanki meydan oxuyur.



*Teyyub QURBAN*

## BÜLBÜLÜN SÖHBƏTİ

***SSRİ xalq artisti Bülbülün xatirəsinə həsr olunur***

Qondu bülbül pəncərəmə bu səhər,
Ancaq mənə oxumadı nəğmələr.
Üz-gözünü bürümüşdü qəm-kədər, –
Dedim: – Bülbül, nə olubdur, nə xəbər?!
İki gilə yaş axıtdı gözündən,
Dedi: – Qafil, bilməyirsən məgər sən? –
Köçüb gedib Bülbülüm yer üzündən,
Qara geyib yas saxlayır çöl-çəmən,
Saralıbdır «ağ alması» Qubanın,
Teli düşüb o «üçtelli durna»nın,
Donub «Kəklik» dik başında qayanın,
Halı pisdir boz çuxa «Gül oğlan»ın.
Baxır məlul «Azərbaycan maralı»,
Hanı Bülbül? – Cavabsızdır sualı.
«Sarı gəlin», «Aman nənə», «Qalalı»
«Sənsiz» deyə gəzir qəlbi yaralı.
«Getdim gördüm bulaqdadır» «Çalpapaq»,
Göz yaşını soyuq suya qataraq,
Nalə çəkir: – Söylə mənə, a bulaq,
Bir də «bizə gələcəkmi yar qonaq»?
Bağa girdim, qızıl güllər saralıb,
Nizaminin geniş alnı daralıb.
Koroğlunun kirpikləri yaş alıb,
Çənlibelin baharını qış alıb,
...Dedim: – Bülbül, daha bəsdir, amandır

Bülbül haqda bülbül sözü yamandır.
Dedi: – Çox da nəğmə deyən bir quşam,
Fəqət səsi ustadımdan almışam.
Osa susdu… Özün söylə, hər səhər
Cəh-cəh vurub necə deyim nəğmələr?
Ürəyimdən tufan qopdu, bir tufan,
Gözlərimdən sellər axdı bir ümman.
Qarşımda quş, xəyalımda o insan,
Nə ağırdır bu ayrılıq, bu hicran!
Dedim: – Bülbül, burax dərdi, qubarı,
Tərk edərmi Bülbülümüz baharı?
Tərk edərmi Vətən kimi gülzarı?
Tərk etsə də… oxuyacaq məzarı!





## *SƏSİN NAĞILI*

Çığıra-çığıra dünyaya gəldi,
Qışqıra-qışqıra açdı gözünü.
Gəzdi səs,
Gördü səs
Qonaq-qaralı
İsa bulağını, Cıdır düzünü.
Gəzdi səs,
Gördü səs ulu dağları
Bir yanda cüyürlər mələşirdilər,
Bir yanda ceyranlar təpə-təpəyə,
Buynuz-buynuzaca hölləşirdilər.
Bir yanda səssizcə baş-başa verib,
Çiçəklər, arılar dilləşirdilər,
Qara qarışqalar, qara böcəklər
Qara tikanlarla əlləşirdilər…
Bir yanda atları sınayırdılar,
Bir yanda uşaqlar oynayırdılar,
Bir yanda bulaqlar qaynayırdılar,
Səs də maddım-maddım durub baxırdı.
Səs də qabağından yeyən deyildi,
Qışın qış çağında yay istəyirdi.
Axşam yarasadan – gecəquşudan
Ulduz istəyirdi, ay istəyirdi.

Dünyada hər şeyə əl aparırdı,
Öyüd verirdilər, yel aparırdı,
Qonşunun qızma gül aparırdı,
Səs də qabağından yeyən deyildi…
Dünya görə-görə, ay görə-görə,

Ulduz görə-görə böyüyürdü səs.
Bayatı dalınca, nağıl dalınca,
Oxşama dalınca, ağı dalınca
Düşüb uşaq kimi yüyürürdü səs.

Böyüdü, böyüdü bəmdən ziləcən,
Obadan-obaya, eldən-eləcən,
Məhəmmədgiləcən, Cabbargiləcən
Ancaq ipə-sapa yatmadı yenə.

Bir mizrab tərpəndi,
bir sim titrədi,
bir hava çalındı
havalandı səs.
Xamırını yaxşı yoğurmuşdular,
urva da verdilər –
urvalandı səs.
Bu urvalı səsin, urvatlı səsin
Nəfəsi kəpənək nəfəsi idi,
Həvəsi kəpənək həvəsi idi,
Bu urvalı səsin, urvatlı səsin...
...Böyüdü,
böyüdü,
böyüdü bu səs,
yüyürdü,
yüyürdü,
yüyürdü bu səs.
Yolları sap kimi əyirdi bu səs,
Günlərin bir günü gəldi Bakıya.

Yaxşı səslər vardı o vaxt Bakıda,
Dədə Üzeyirdən dərs alırdılar,
Çətinə düşəndə, dara düşəndə
Xanın ətəyinə qısılırdılar.



Onların hamısı yığışdı, gəldi.
Bir axşam bu ötkəm səsin yanına.
Səs qalxdı,
səs endi,
məclis uzandı
Axşam yeməyindən xoruz banına...

Hərdən fikir olub haçalanırdı,
Hərdən ümid olub parçalanırdı,
Camaat yerində qurcalanırdı,
Onlar da belə səs görməmişdilər.

Məcnun deyən kimi ağlayırdı səs,
Leyli deyən kimi lalayırdı səs,
Babəkin qanını yalayırdı səs, –
Onlar da belə səs görməmişdilər.

...Böyüyə,
böyüyə,
böyüyə bu səs
yüyürə,
yüyürə
yüyürə bu səs,
Yolları əyirə-əyirə bu səs
Bir gün də baş alıb çıxdı Bakıdan.
Yol da ki uzandı dünyaya sarı,
Bu yanda Moskva, Kiyev, Praqa,
o yanda Varşava,
Sofiya, Roma...
Bu səsi dünyada kim tanımırdı?
Hamı tanıyırdı dünyada....
amma...

Gəlib çıxmadı arıçı,
Pətəkdə arı qırıldı,
Yolun kəndiri kəsildi,
Yolun damarı qırıldı, –
Kim qarğadı, bu səsi, kim?
Selə döndü,
suya döndü,
Axdı, axdı yolun qanı,
Neylədilər, dayanmadı,
Yolun qanı, çulun qanı, –
Kim qarğadı bu səsi, kim?

…Pəncərəni daş almışdı,
Xumar gözü yaş almışdı,
Gül əlində, gül ovcunda
Bülbül əli boşalmışdı…



*Vilayət RÜSTƏMZADƏ*

## *OXU, BÜLBÜLÜM*

Bülbül uçdu hara bağdan?
Gülü verdi xara bağdan.
Bir səs getdi Qarabağdan,
Niyə susdu xoş avazın?
Oxu, Bülbülüm!…

Dağlara gələn dumandı,
Ayrılıq dərdi yamandı,
Odlar yurdu oda yandı
Qırılanda könül sazın,
Oxu, Bülbülüm!…

Buludlar çatdı qaşını,
Şah dağı əydi başını,
Kür axıtdı göz yaşını
«Sənsiz» deyir xan Arazın,
Oxu, Bülbülüm!…

Dinlə, ay çöl, ay biyaban,
Dinlə, ay Fəxri xiyaban,
Ay gül-çiçək əkən bağban,
Bu məzarın üstə yazın:
«Oxu Bülbülüm!»…
«Oxu, Bülbülüm!»…

*Bakı, 1962*

## *BÜLBÜL TƏKDİ DÜNYADA*

Oxşarsızdı, sadədi,
Bu səs qeyri-adidi.
Papaqsalan ucalıq,
Gözişləməz vadidi…

Möcüzədi, sehrdi,
Qeybdən gəlir bu səs.
Necə coşur, çağlayır,
Necə incəlir bu səs!

Bu səs necə qədimdi,
Bu səs necə uludu.
Bir karvanlı səhrada
Ayın işıq yoludu…

Xalqdan aldıqlarını
Oxudu xalqa Bülbül.
Əsil sənət deyəndə
Üzə tutalqa – Bülbül!

Bu səs yurdun səsidi,
Bu səs elin səsidi.
Bülbül elə oxuyub
Bülbüllərin bəsidi!

Bir kimsənin səsiylə
Ölçüyə gəlməz bu səs.
Doğulanla doğular,
Ölənlə ölməz bu səs!



Bülbülə dağ çəkildi
Bu zamanın əliylə,
Gedir əsrdən-əsrə
Bir ulduz axdı getdi.

Ayın haləsi qopdu.
Ürəyimdən yaralı
«Şuşa» naləsi qopdu.

Bu gün dilə gətirir
Neçə səssizi Bülbül.
Şuşa üçün oxuyur
Sanki «Sənsiz»i Bülbül.

Bu səsin kövrəminə
Yer də, göy də ağlayır.
Üç dahinin ilhamı
Bir məcrada çağlayır…

Kişnəsin Qarabağın
Adamboğan atları.
Qoy qılıncla açaq biz
Açılmayan qatları…

Bu tarix gözümüzdə
Sozalacaq doğrusu.
Atlanmasa bu yurdun
Bülbülü – Koroğlusu!

Şuşa üçün göynəyib
Ürəyimiz yananda,
Bir səsin ilğımında
Dahiləri ananda.

Əlçatmazlıq, ucalıq
Böyüklük düşür yada.
Bülbüllər çoxdu, fəqət
Bülbül təkdi dünyada!



**Rafiq YUSİFOĞLU**

## QAÇQIN HEYKƏLLƏR

Heykəl Natəvan!
Heykəl Üzeyir!
Heykəl Bülbül!
Gözləriniz önündə
Şuşa qəltan oldu qanına.
Tanklar qarışqa kimi daraşdı
Onun şirin canına.
Siz tarixin ucalığında susanda,
Güllələr alçaqların əllərində
dilləndi.
Evləriniz od tutub yandı,
Hayı alov-alov
Üfüqlərə çiləndi…
Sizi də güllələdilər,
Gözləriniz önündə
İldırımlar sayrışdı…
Qanınız tarixlərə axıb,
Babəklərin qanına qarışdı.
Hönkürdü Üçmıx dağı,
Hönkürdü Cıdır düzü…
Daşın da, torpağın da
Dolmuşdu gözü…
Heykəl Natəvan!
Heykəl Üzeyir!
Heykəl Bülbül!
Sizə işgəncə versələr də,
Dindirə bilmədilər.
Uçurdular postamentinizi,

Ancaq özünüzü
tarixin ucalığından
endirə bilmədilər…
Millətin yaralı ürəyini
Odlara yaxdınız.
Zülmlər görə-görə
Siz də gəlib
Bakıya çıxdınız.
Heykəl Natəvan!
Heykəl Üzeyir!
Heykəl Bülbül!
Qanınız yerdə qalmayacaq,
İgidlər silaha qurşanıb.
Heykəl Natəvan!
Heykəl Üzeyir!
Heykəl Bülbül!
Gəlin gözlərinizdən öpək,
Sonuncu siz görmüsünüz Şuşanı.
Həmyerlilərinizi görəndə
Gözləriniz dolmadımı?!
Heykəl Natəvan!
Heykəl Üzeyir!
Heykəl Bülbül!
Heykəl Vaqifdən
Xəbəriniz olmadımı?!



***MƏFTUNXANIM***

## *VAXTSIZ UÇAN BÜLBÜLÜM*

***SSRİ xalq artisti Bülbül Məmmədovun əziz xatirəsinə***

Vaxtsız uçan Bülbülüm!
Getdin haçan, Bülbülüm?
Ötməsən səhər-səhər,
Açılarmı qönçələr?
Yorğun ruhlar, ürəklər
Sənsiz necə dincələr?
Uçma, dayan, Bülbülüm!
Getmə, aman, Bülbülüm!
Tərk etsən çəmənzarı,
Ağlaram zarı-zarı.
Ağlaram için-için
Şirin nəğmələrinçin.
Tabutunun başında
Hanı anan, ağlasın,
Oxşayıb balasını
Ürəkləri dağlasın!
Yox qardaşın, yox bacın,
Yolsun pərişan saçın.
Bir cüt göyərçin balan
Qısılıb anasına,
Durublar başın üstə
Ağlayır yana-yana…
Bir də mahir sənətkar,
O sevimli tarzən

Yanır, qəlbi kövrəlir
O, pirin necə bilsən.
Boğur onu hıçqırıq
Söyləyir qırıq-qırıq:
Tək qoydun sən Qurbanı,[1]
Bülbül, bəs vəfan hanı?
Qoca, cavan, qız, gəlin
Dolandıqca dövrənə
Tökür göz yaşı hamı
Baxıb solğun çöhrənə.

## *ADİLƏNİN İZTİRABLARI*

Tavus kimi al-əlvan
Daim bəzəkli gəzən,
Tamam qara geyinmiş
Bu gün əziz Adilən.
Sənin o şux dilbərin
Ağlayır, ovunmayır,
Ağlayır, dil-dil ötür
Yerə-göyə sığmayır.

O, ətirli gülab tək
Odlu göz yaşlarını
Süzür kirpiklərindən,
Çataraq qaşlarını.
Qucub cansız tabutu
Titrəyir bir cüt əli,
Hıçqırıqlar içində
Deyir elin gözəli:
Getmə, Bülbül, amandır!

[1] *Azərbaycanın xalq artisti Qurban Pirimov.*



Hicran dağı yamandır!
Üzüldüm, insaf elə,
Bir qırpım olsa belə,
Gözlərini açsana,
Gözlərim baxsın sana.
Yalvarıram, mən sana,
Yalvarıram, mən sana!…

## BÜLBÜLÜN QƏBRİNİ ZİYARƏT ETDİM

Geyib tirmə köynəyim, səslədim gözəlləri,
Bağçadan üzdüm səhər şehli qızıl gülləri.

Qönçəni qatdım gülə,
Dəstə tutub Bülbülə.

Yollandım ziyarətə, «Koroğlu» qəbri üstə,
Min bir xəyal içində, gəldim mən asta-asta.
Gördüm ki, ətrafına əkilmiş şüy çinarlar,
Nazlı gəlinə bənzər yaşıl donunda onlar.

Körpə şaxələrdən ürək şəkilli
Yarpaqlar asılmış saplağı incə.
Xəfifcə bir mehdən titrəyib əsir
Ovçu görmüş sanki ahu gizlicə.
Gəlir xışıltısı həzin mahnı tək,
Dəyəndə yarpaqlar biri-birinə.
Elə bil layla der bu nəğməsilə
Kölgəsində yatan el Bülbülünə.
Dedim: – Ah, nə gözəl düşünmüş bunu
Çinar əkmiş burda o çinar boylun.
Əlvan çiçəklərə qərq etmiş səni,
Mehriban Poladın – sonbeşik oğlun!





## BÜLBÜL OXUYURDU BİR AXŞAMÇAĞI

Yanıb göynəyirdi tarın telləri,
Zirvələr atmışdı duman tülləri,
Ağlamaq tutmuşdu qızılgülləri,
Bülbül oxuyurdu bir axşamçağı.

Kövrəlmiş qocalar uşaq kimiydi,
Dağ onun kimiydi, o dağ kimiydi,
Efir yarpaqlamış budaq kimiydi,
Bülbül oxuyurdu bir axşamçağı.

Belə dolmamışdı könüllər belə,
Belə açmamışdı bu güllər belə,
İçini çəkmişdi bülbüllər belə,
Bülbül oxuyurdu bir axşamçağı.

Həsrətin qol atmış budaqlarında,
Şuşanın ən gözəl bulaqlarında,
Yaralı əsgərin qulaqlarında,
Bülbül oxuyurdu bir axşamçağı.

Dərdini bəd gəlmiş qışa deyirdi.
İndi can gələcək daşa deyirdi…
Elə hər nəfəsdə Şuşa deyirdi,
Bülbül oxuyurdu bir axşamçağı.

***2002-ci il***

*Allahverdi TAGIZADƏ*

## *BÜLBÜLÜ DİNLƏRKƏN*

Mərdlik dünyasından gətirir soraq,
Baxma ki, ay keçib, il dolanıbdır.
Yenə də qıy vurub qanadlanaraq
Vətən torpağında havalanıbdır.
Yığışın, dövrəyə alın ekranı,
Bir səs bürüyübdür Azərbaycanı.

Divarlar, tavanlar titrəyir yenə,
Eyvanda qönçələr açılır bir-bir.
Elə bil öz doğma Çənlibelinə
Səfərdən qayıtmış Koroğlu gəlir.
Xəbərdar eləyin eli, obanı,
Bir səs bürüyübdür Azərbaycanı.

Onun avazında dönüb məşələ
Füzuli şerinin alovu, közü.
Gecə laylasını demirəm hələ,
Bir də görürsən ki, gəlib dan üzü.
Oyadır yuxudan dağı, aranı,
Bir səs bürüyübdür Azərbaycanı.

Doğulub şimşəyin cəsarətindən,
Buludlar gözündə durulub axır,
Yoğrulub ellərin məhəbbətindən
Üzeyir tarına vurulub axır.
Belə seçmə hanı, belə çay hanı?!
Bir səs bürüyübdür Azərbaycanı.



Dünyanı görürəm nur içində mən,
Onu dinləməyə nə şam, nə çıraq.
Əldə vaxt var ikən, fürsət var ikən
Ayları, illəri sıxışdıraraq
Çevirin saata, günə bu anı...
Bir səs bürüyübdür Azərbaycanı.

*Zərbi Mücü NİYALI*

## *BÜLBÜL*

Bülbülün səsini saxlamışam mən,
Hər zaman sədası var qulağımda.
Ömrüm boyu onu unutmaram mən,
Onun zəngulәsi var qulağımda.

Heyif ki, qismətim olmayıb mənim,
Onun istedadı, onun gərdişi.
Bülbül tək sədası, həm qabiliyyəti,
Onun zəngulәsi var qulağımda.

Dahi sənətkarı olub vətənin,
Hər kəs tuta bilməz Bülbülün yerin.
Ədalətəm deyim hamınız bilin,
Bülbülün zəngulәsi var qulağımda.



*Nazilə MƏMMƏDOVA*

## *UNUDULMAZ MÜĞƏNNİMİZ*

***Bülbülə həsr edirəm***

Sənə Bülbül adı verənə əhsən,
O gözəl səsinlə dünyada təksən.
Bülbülüm, hər zaman oxuyarkən sən,
Azəri xalqını kövrəldəcəksən.

Sevinir ürəklər Bülbül səsindən,
Sanki güllər açır yaz nəfəsindən.
O an ovsunlayar, dinləyən kəsi,
Bülbül oxuyarsa «Sənsiz» mahnısı.

İnanın, Bülbülün ecazkar səsi,
Yalnız ola bilər allah vergisi.
Tanrım, necə qıydın, kəsdin nəfəsi,
Ürəklər titrədən o həzin səsi.

Həyatda yoxsa da Bülbülün özü,
Heç vaxt susmayacaq o gözəl səsi,
Yadigar qalıbdır hər kəlmə sözü,
Tay etməm Bülbülə, inan heç kəsi.

***25 noyabr, 1997-ci il***

*Dünyamalı MƏFTUN*

## GÖRÜNÜR

*SSRİ xalq artisti sevimli*
*Bülbülümüzün xatirəsinə*

Sən köçüb getsən də qoca dünyadan,
Elimin gözündə gözün görünür.
Daim şölə saçan, daim nur saçan
Sönməyən alovun, közün görünür.

Gəzdi nəğmələrin aranı, dağı,
Gətirdi xalqına başucalığı.
Sənət yollarında ilin hər çağı,
Min oğlun görünür, qızın görünür.

Gözəl Qarabağda qoxladın gülü,
Gəncədə mixəyi, Təbrizdə hili.
Güllü gülşənlərdə sarı bülbülü
Məst edən kamanın, sazın görünür.

Vicdan vicdandırsa, susmasın gərək
Haqq səni xəlq etmiş nadir inci tək.
Bülbüldən də qəşəng, güldən də qəşəng
Qəlblərdə söhbətin, sözün görünür.

Dolaşdın yurdunu sən qarış-qarış,
Nəğmələr topladın həm bahar, həm qış.
Baxıram hər qəlbdə, alqış, min alqış,
Baharın görünür, yazın görünür.



Cazibə qüvvəsi xoş nəfəsində,
Təravət çağlayır zəngulәsində.
Əvəzsiz, bənzərsiz bülbül səsində
Öz tamın görünür, duzun görünür.

Məftunam, and içsəm bu nəğməni, sən
Bülbül olmasaydın, yazmazdım qəlbdən.
Hayana çevrildim, hara baxdım mən,
Gördüm ki, silinməz izin görünür.

*İdris ZAMANLI*

## *BÜLBÜLÜN SON NƏĞMƏSİ*

Bulud topalandı, alışdı şimşək,
Yollarda, izlərdə qopdu boğanaq.
Payız müjdəsini gətirdi külək,
Tökdü ləçəyini qərənfil, zanbaq.

Bir nəğmə oxudu Bülbül, bir nəğmə,
Axdı budaqlardan yaş gilə-gilə.
Bağlar da bir anda büründü çənə,
O, son nəğməsini oxudu gülə.

Bülbül nəğməsini oxudu, getdi.
Sükuta qərq oldu tamam bağça-bağ.
Əriyib dumanlar içində itdi,
Çəkdi həsrətini bu ana torpaq.

Bülbül köç eylədi, bilmirəm nədən,
Qəlbimə od saldı onun nəğməsi.
Ayrıla bilmirəm mən o nəğmədən,
Getmir qulağımdan Bülbülün səsi.



*Əyyub ŞIRLANLI*

## *BÜLBÜL*

Anamız Şuşanın – cənnət məkanın,
Qarabağ elinin gülüsən, Bülbül!
Çəməndə çiçəyə sevgi oxuyan,
Nəğməkar bülbülün dilisən, Bülbül!

Dünya ləzzət alır şaqraq səsindən,
Koroğlu boylandı dağ zirvəsindən…
Dahi Nizaminin xəzinəsindən,
Götürdün ən şirin balı sən, Bülbül!

Nəğməkar oğlusan Azərbaycanın,
Dolaşır dünyanı şöhrətin, şanın.
Bizim Qarabağın, – bu gülüstanın,
Sənət məbədgahı – yolusan, Bülbül!

## ƏSRLƏRİ YAŞADAN SƏNƏTKAR

Diqqət! At üstündə Koroğlu gəlir,
Gəlir Nigar ilə – öz sevgisilə,
Neçə əsrləri arxada qoyub,
Yolunu qət edib cəmi yüz ilə.

Qoyub Qarabağda gənc illərini,
Xarı bülbülləri uçurub gəlib.
Keçən əsrlərin nəğmələrini,
Üzeyir notuna köçürüb gəlib.

Nəğmələr qoşuruq ana Vətənə,
Nəğməylə açmışıq gözlərimizi,
Yaşadan Allahdır – Allah eşqinə,
Bülbül nəğmələri yaşadır bizi.

Nə qədər Günəş var, Ay var, ulduz var,
Ölməzlik yaşadır öz qüdrətilə.
Zaman yaşadıqca Bülbül yaşayar,
Yaşar sənətinin hərarətilə.

Diqqət! At üstündə Koroğlu gəlir,
Gəlir Nigar ilə – öz sevgisilə,
Neçə əsrləri arxada qoyub,
Yolunu qət edib cəmi yüz ilə.





## BÜLBÜL ZİRVƏSİ

«Sənsiz» sənsiz yaman qəribsəyibdir,
«Sənsiz»i sənin tək oxuyan hanı?
Sənsiz Azərbaycan qəribsəyibdi,
Qəlbləri coşduran bir insan hanı?
Hanı bülbülləri mat qoyan ustad?
Bir ağız oxusun «Sevgili canan»…
Gülsün ana torpaq, gülsün kainat,
Bu səsə səs versin «şən Azərbaycan».
Mahnıdan elə bir çələng toxudun,
Önündə baş əydi misri qılınc da.
Sənət dünyasında meydan oxudun,
Bu sənət üstündə əsir qılınc da.
Böyük nəğməkarın coşanda qanı,
Hər dərdi, ağrını unutmaq olar.
Bülbül kəlməsiylə Azərbaycanı,
Bütün yer üzünə tanıtmaq olar.
Nəğməsi əkizdir onun baharla,
Bu nəğmə ucalar ulduza, aya.
Bu gün Azərbaycan böyük vüqarla
Bülbül zirvəsindən baxır dünyaya.

*Nazimə Odlar qızı QARABAĞI*

## *YARALI HEYKƏLLƏR VƏTƏNƏ DÖNDÜ*

«Yaralı heykəllər» Vətənə döndü,
Üşütdü, titrətdi bu xəbər məni.
Heykəllər qarşımda gülləyə döndü,
Sancılıb köksümə hey əyər məni.

Heykəllər önündə heykələm, daşam,
Daşlaşmış düşməndən qisas almasam,
Qanadı qırılmış qanadsız quşam,
Bülbülü oylağa yola salmasam.

Xan qızı, təvansız belə ağlama,
Ağlar günə qalar səni ağladan.
Şanəli bağrımı belə dağlama,
Şuşanı bəladan saxlar saxladan.

Üzeyirlə Bülbül hardadır? Səslə!
Qırat nəfəsində göylər kişnəsin.
Dəlilər meydana girsin həvəslə,
Sivri qılınclarım cəngdən düşməsin.

Şuşam! Xəyanətə qurban gedənim!
Qeyrəti çatacaq bir ərən gərək!…
Gözünü yollara şəhid edənim,
Özünü özünə qaytaran gərək.

Bizmi kar olmuşuq, dünyamı kardır?
Təbiət duyulmaz dinləyən yoxsa,



Bizmi kor olmuşuq, dünyamı kordur?
Təbiət yaşamaz bir görən yoxsa.

Getmədi heykəllər mühacirətə
Heyrət vermək üçün Vətənə döndü.
Dedi kişiləri gəlsin cürətə,
İbrət vermək üçün Vətənə döndü.

*14.07.1994*

Əli VƏKİL

## GÜLLƏLƏNMİŞ HEYKƏLLƏR

***Natəvanın, Bülbülün və Üzeyir bəy Hacıbəyovun Şuşadakı heykəlləri şəhər işğal olunandan sonra ermənilər tərəfindən uçurulmuş və «güllələnmişlər». Qardaş Gürcüstan Respublikasının vasitəçiliyi ilə heykəllər Bakıya gətirilmişdir.***

Hər bir vəhşiliyi görürdü onlar,
Hər şey həkk olurdu yaddaşa bir-bir.
Görürdü dahilər neçə satqın var,
Görürdü Natəvan, Bülbül, Üzeyir.

Dil açıb danışa bilmirdi büstlər,
Qeyrətsiz nə üçün yada baş əyir?
Min dəfə dirilib, ölürdü büstlər,
Susurdu Natəvan, Bülbül, Üzeyir.

Bir də göz açdılar satılıb Şuşa,
Düşmənlər kef çəkir, sağlıqlar deyir.
Xəyanət toruna atılıb Şuşa,
Neyləsin Natəvan, Bülbül, Üzeyir.

Şuşada dünyaya göz açıb onlar,
Şəhəri müqəddəs Məkkə biliblər.
Nəğmədən, sənətdən söz açıb onlar,
Burda şadlanıblar, burda gülüblər.



Əsirdir heykəllər, Vətəndə əsir,
Büstlər göz dağıdır düşmənlər üçün.
Heç nə qaniçənə təsir etməyir,
Atəşə tuturlar onları hər gün.

Tuşlandı güllələr şerə, qəzələ,
Məzarda Pənah xan üsyan qopardı.
Qıydılar şairə – məsum gözələ,
Tuncun da insan tək nifrəti vardı.

Bülbülə açılan namərd gülləsi
Bir anda «Sevgili canan»a dəydi.
O kədər gülləsi, o dərd gülləsi
Neçə ləyaqətli insana dəydi.

Dahi Üzeyirim güllələnəndə
Ağır yara aldı «Leyli və Məcnun».
Vicdanlar susanda, güllə dinəndə
Dünyaya səs saldı «Leyli və Məcnun».

Ölməz bəstəkara dəyən o güllə,
Qəzəbdən dindirdi «Koroğlu»nu da.
«Sənsiz»in qəddini əyən o güllə
Qıratdan endirdi Koroğlunu da.

Heykəli atəşə tutan qatillər,
Dünyada ən böyük cinayət etdi.
Qaya kölgəsində yatan qatillər
O gün insanlığa xəyanət etdi.

Olmayıb cahanda, olmayıb hələ,
Cansız heykəlləri güllələyən kəs.
Yazılsın tarixə, həkk olsun ilə,
Düşmənin niyyəti əbəsdir, əbəs.

Yaralı heykəllər yüz illər boyu,
Söhbət açacaqlar bu vəhşilikdən.
Məlum olacaqdır hər kəsin soyu,
Tanısın qonşunu, tanısın Vətən.

Xilas olacaqdır düşməndən Şuşa,
Heykəllər şəhərə qayıdacaqlar.
O bir möcüzədir, o bir tamaşa,
Tarixdə öz yeri, öz söhbəti var.

*05.08.1997*



*Nəriman HÜSEYN*

## *OXU, BÜLBÜLÜM, OXU*

Sən bir uca zirvəsən,
Zirvələri qar alır…
Xəzan yeli bəd əsir,
Gül-çiçəklər saralır,
Oxu, Bülbülüm, oxu…

Kaman necə hıçqırır,
Qəm axır tellərindən.
Vətən hələ doymayıb
Sənin nəğmələrindən,
Oxu, Bülbülüm, oxu…

Səsində çeşmələrin
Sərin zümzüməsi var.
«Sənsiz» yada düşəndə
Ürəkdə od qalanar,
Oxu, Bülbülüm, oxu…

Ömrün vəfası yoxmuş,
Koroğlu düşdü atdan.
Ölüm sənə yaraşmır,
Sən getməzsən həyatdan,
Oxu, Bülbülüm, oxu…

Kədərdən pas tutmasın
Çeşmələrin aynası,
Dumana bürünməsin
Sevdiyin Qız qayası,
Oxu, Bülbülüm, oxu…

*26.09.1961*

## BÜLBÜLÜN XATİRƏSİNƏ

Gözəl Qarabağım, ay anam Şuşa,
Dərdə məlhəm çiçəyin var, gülün var.
Xoş səsiylə ürəkləri fəth edən,
Cabbarın, Seyidin, Xan, Bülbülün var.

Üzeyir nəğməsi, Xan şikəstəsi,
Dolaşdı başının üstə hər zaman.
Gözəllər gözündə əzizdi Vaqif,
Bir qeyrət timsalı qızın Natəvan.

O sirli zümzümən İsa bulağı
Şirin nəğmə olub qəlblərə doldu.
Bir evdə doğulan körpə Murtuza
Böyüdü Vətənin Bülbülü oldu.

Koroğlu nərəsi vardı səsində,
O səsdən dağlar da lərzə gələrdi.
«Ölkəm» səslənəndə şirin dilində
Özü də ucalar, hey yüksələrdi.

«Sənsiz»lə nə qədər həlim, mülayim,
Sanki kövrəlirdi özü uşaq tək,
«Sevgili canan»la məğrur, əyilməz,
Yaşardı köksündə sevən bir ürək.

Gəzdikcə dünyanı nəğmələriylə
Hər eldə, obada min gül bitirdi.
Bülbül öz səsilə, öz sənətilə
Ana Vətəninə şöhrət gətirdi.





## BÜLBÜL

Ürəyimdə qərar tapıb «Sənsiz»in,
İlham səməndini çapıb «Sənsiz»in,
Sevgi şöləsi tək hopub «Sənsiz»in
Ötən hər ayıma, ilimə, Bülbül.

Koroğlu veribdir sənə cəsarət,
Nizami qəlbinə dolan şeriyyət,
«Sevgili canan»ın qoluna qüvvət,
Təranə bəxş edib dilimə, Bülbül.

Aslanın, Əlyarın öz dünyasısan,
Sən Aşıq Qəribin saz dünyasısan,
Sənə şer qoşan söz dünyasısan,
Ətir saçdın arzu gülümə, Bülbül.

Üzeyir qəlbini gətirib cuşa,
Sənət səmasında dönmüsən quşa
Ağ günlə yanaşı, qoşasan, qoşa,
Şöhrət yaranmısan elimə, Bülbül.

Gəzmisən çiçəkli yamacı, yalı,
Sənə ilham verib Vətən iqbalı.
Ürəkdən vurulub İsa Şuşalı
Nəğmənin bəminə, zilinə, Bülbül.

## YARALANAN BÜSTLƏR

Əsirlikdən qurtaran
Büstləri ağlar gördüm.
Gözündə həsrət yaşı,
Köksündə dağlar gördüm.

Şuşadan ayrı düşən,
Büstlərdə ağlayarmış,
Hicran odunda bişən
Büstlər də ağlayarmış.

Üzeyir çöhrəsində
Yad güllənin izi var.
Bülbül təranəsində
Yad güllənin izi var.

Natəvan köksü altda
Yara açıb güllələr.
Haqqı düşürüb atdan
Yara açıb güllələr.

Ağrısı qəlbimizdə
Yaralanan büstlərin
Naləsi alov-közdə
Yaralanan büstlərin.

Dada yetək çaparaq,
Ahın qəlbdən qoparaq,
Şuşamıza aparaq
Yaralanan büstləri.

Önündə baş endirək,
Qan ocağın söndürək,
Şahid kimi dindirək
Yaralanan büstləri,
Yaralanan büstləri.



**Fəzail CƏBRAYIL**

## BÜLBÜL

*Bülbülün xatirəsinə*

Səni, Çənlibeldə görürəm yenə,
Ekran gözlərimdə dolur dünyaya.
Şaqraq, gur səsinə, gur zəngulənə
Elə bil səs verir hər dağ, hər qaya.

Kim deyər yatırsan indi məzarda,
Yox, sükut olmadı sənin qismətin.
Bülbüllər ilhama gələr baharda,
Sənsə Bülbülüsən əbədiyyətin.

*Nazim RƏHİMLİ*

## BİR SƏS EŞİTMİŞƏM

***Professional vokal sənətimizin banisi, dahi sənətkarımız Bülbülün anadan olmasının 100 illik yubileyi münasibətilə***

Bir səs eşitmişəm, bir səs eşidir,
Bu səsə necə də vurğunam, Allah!
Bu səs yüz ildir ki, bu gün ömr edir,
Bu səs əbədidir, əbədi, vallah!

Bu nə səs mayası, daşmı, qayamı?
Gözlərim önündə dağlar ucalır.
Bu səs dönüb bu gün şirin röyaya,
Ruhuma kövrək bir laylamı çalır.

Bu nə səs, huşumu alıb başımdan,
Göylərin ünyetməz qatı nə yaxın.
Dinir torpağımdan, dinir daşımdan,
Bu səsə əl çalın, ayağa qalxın!

Bu səs Bülbül səsi, Bülbül nəğməsi,
Bu səsə oxuyan quşlar da heyran!
Dönüb musiqiyə Vətən kəlməsi
Bülbül cəh-cəhiylə, ey Azərbaycan.



## ÖYÜNDÜYÜM OĞULLARIN HEYKƏLLƏRİ GÜLLƏLƏNDİ

***Dahi Üzeyir bəyin, Xan qızı Natəvanın və Bülbülün güllələnmiş büstləri önündə düşüncələr***

Öyündüyüm oğulların
Heykəlləri güllələndi.
Canlı-cansız nəyin vardı
Tapdalandı ayaq altda,
Təpikləndi, silləl əndi.
Necə dözdün bu dəhşətə?
Necə dözdün bu ağrıya?
Ey Natəvan şeri ilə
Hər qarışı əzizlənən,
Havan kimi, suyun kimi,
Bülbülünün tər səsiylə
Hey saflaşan, təmizlənən,
Üzeyir tək bir dühanın
Dünyasından axıb gələn
«Üvertüra», «Cəngi» səsi
Eşidəndə
Öz qaranlıq, öz nadanlıq
Dünyasında tez gizlənən
Bir düşmənə əsir Şuşam.
Necə dözdün bu dəhşətə?
Necə dözdün bu ağrıya?...
Qəhrəman tək qayıtdınız
Geri döndüz əsirlikdən,
Şəhidlikdən, ey dahilər!
Ruhunuzun qeyrətiylə,
Hörmətiylə, qüvvətiylə,
Ruhunuzun şöhrətiylə
Ölmədiniz Siz o gündə,
Siz bu gün də əbədisiz!
Əbədi!

**Yaqub ƏLİYEV**

## BÜLBÜL

Zəmanəmiz şən bahardır,
Yurdun gülşənli diyardır.
Qəlbimizdə yerin vardır,
Qoy sönməsin gözün, Bülbül.

Bülbül zənguləsin vurur,
Xalq toplanır, məclis qurur.
Ceyranlar boynunu burur,
Gəlsə səsin, özün, Bülbül.

Bülbül səndən ilham alır,
Vurğun olur, heyran qalır.
Güllü bağda nəğmə çalır,
Gülsün könlün, gözün, Bülbül.

Bülbülüsən ilin, yazın,
Könül açır xoş avazın.
Vurğunusan tarın, sazın,
Səsin, Bülbül, özün, Bülbül.

Səhər-səhər sübh çağında,
Vətənin gülşən bağında,
Elimin səs yaylağında,
Axsın nəğmən, sözün, Bülbül.

Azərbaycan yurdun-yuvan,
Burda gəzmiş atan, baban,
Qoy var olsun elin-oban,
Nəğmə qoşun, düzün, Bülbül,
Qoy yaşasın sözün, Bülbül!



# «Fəxri qonaqlar» kitabından...

* * *

Sovet opera sənətinin görkəmli nümayəndəsi, professor, SSRİ xalq artisti Bülbülün Ev Muzeyinə böyük maraqla baxdım.

Muzey Bülbülün yaradıcılıq yolunu çox parlaq surətdə əks etdirir və şübhəsiz ki, indiki, həmçinin gələcək nəsilləri bu böyük sənətkarın yaradıcılığı ilə tanış edəcəkdir.

***Zərifə Əziz qızı ƏLİYEVA,***
***Azərbaycan SSR əməkdar elm xadimi,***
***professor***
***19 iyun 1982-ci il***

* * *

Azərbaycan sovet professional vokal sənəti banisinin muzeyinə həyəcanla tamaşa etdim. Maestro Bülbülün sədaqətli həyat yoldaşı Adilə xanıma dərin minnətdarlığımı bildirmək istəyirəm.

O, böyümərkdə olan gələcək nəsillərə və bizim incəsənətimizə böyük fayda verə biləcək materialları fədakarlıqla, məhəbbətlə qoruyub saxlamışdır.

***Firəngiz ƏHMƏDOVA,***
***SSRİ xalq artisti***
***10.06.1982***

* * *

Bu, sadəcə olaraq böyük musiqiçinin muzeyi deyil. Bu, insanları sevən, özünü səxavətlə bəşəriyyətə bəxş edən əsl insanın gözəllik və alicənablıq muzeyidir.

İnsan və bəşəriyyət! Bu iki məfhum Bülbül üçün eyni məna kəsb edirdi.

Bülbülün ilahi sənəti insanı ucaltdığı kimi, muzeylə tanışlıq da insanı ucaldır, ürəklərə nur saçır.

Muzeyin bütün təşkilatçılarına «çox sağ ol!» – deyirik.

Azərbaycanın mədəni həyatında Bülbül Muzeyinin əhəmiyyəti çox böyükdür.

***Janna DOZORTSEVA,***
***musiqişünas***
***24 iyun 1982-ci il***

* * *

Hamının sevdiyi, böyük hörmət bəslədiyi Bülbülün bu muzeyi bütün Azərbaycan xalqının ona layiqli sevgisinin, ehtiramının təcəssümüdür.

Bülbül sovet incəsənətini və öz xalqının istedadını bütün dünyada şöhrətləndirdi.

Biz öz əziz Bülbülümüzlə fəxr edirik və onun işıqlı surəti daim bizimlə olacaqdır.

***Azərbaycan SSR Xarici İşlər***
***Nazirliyinin kollektivi adından***
***nazir Tahirə TAHİROVA***
***29 iyun 1982-ci il***

* * *

İstəkli müğənnimiz Bülbülün bu gözəl Xatirə Muzeyini yaradanlar çox sağ olsunlar.

Xalqımızın böyük oğluna olan sevginizə, hörmətinizə, onun üçün çəkdiyiniz zəhmətə görə gələcək nəsillər sizə minnətdar olacaqlar.

***Mürsəl NƏCƏFOV,***
***sənətşünaslıq doktoru***
***27/IX-1982-ci il***



* * *

Böyük Bülbülün ruhunu, surətini və saçdığı işığı qoruyub saxlayan bu möcüzəni yaratdığınıza görə Sizə böyük minnətdarlığımı bildirirəm.

Əgər insanlar həyatdan köçənlərin yolu ilə gedirlərsə, onlara mənsub olan, onlarla bağlı hər xırda şeylə, sözlə, məna kəsb edən nə varsa, onu yadda saxlayıb əzizləyirlərsə, bunlar ölməzdir, əbədidir.

Bülbül kimi oğulları olan xalq yaşayır, şöhrətlənir.

***Teymuraz CƏFƏRLİ,***
***Gürcüstan SSR MK-nın***
***şöbə müdiri***
***1/XI-1982-ci il***

* * *

Biz – Bratislavadan (ÇSSR) gəlmiş yazıçı qadınlar – çoxmillətli sovet ədəbiyyatını slovak dilinə çevirən tərcüməçilər Azərbaycan xalqının böyük oğlu Bülbülün sənətindən aldığımız həyəcanlı təəssürat üçün heyranlığımızı və minnətdarlıq hisslərimizi bildiririk.

Bu gözəl muzeyin təşkilatçılarına, əməkdaşlarına və böyük Azərbaycan maestrosunun xanımına təşəkkürümüzü yetiririk.

***Vista XAGEROVA,***
***Mariya XİLMANOVA***
***12.12.1982-ci il***

* * *

Bu gözəl muzeydə maraqlı çox şey var. Bəlkə də ən əsası budur ki, burada olarkən bu qüdrətli musiqiçinin, artist və müğənninin, böyük və çətin həyat yolu keçmiş o dahi, səmimi insanın varlığını qəlbən duyursan.

Bu, eksponatlarla, xüsusilə də onun ailəsilə tanışlıqdan, ailə üzvlərinin söhbətlərindən, sadəcə, onların özlərinin necə olduqlarından doğan bir duyğudur.

Bu ziyalı muzeyə ən xoş hisslər və səmimi arzularla,

***G.A.ARBATOV,***
***ABŞ və Kanada İnstitutunun***
***direktoru, akademik***
***30.01.1983-cü il***

* * *

Azərbaycan mədəniyyətinin görkəmli xadimi Bülbülün həyat və yaradıcılığı ilə tanış olmaq imkanına görə bizim dərin minnətdarlığımızı qəbul edin.

Bu muzey müğənninin nadir səsini xatirələrdə yaşadır. Onu səhnədə görə bilməyən nəsillər bu səsi burada eşitmək imkanı qazanırlar.

Bülbül Sovet İttifaqının bütün xalqlarının xəzinəsidir. Biz, sizin gözəl muzeyinizi xatirimizdə yaşadacağıq.

***İngilis nümayəndəliyi***
***30.01.1983-cü il***

* * *



Bülbül kimi insanlar xalqa və ölkəyə şöhrət gətirirlər. Onlar bizim böyük sosialist vətəni xalqlarının dostluğunu möhkəmləndirən mənəvi özül yaradırlar.

***Sov. İKP MK ümumi şöbəsinin***
***müdiri Lobusov V.İ.***
***17.02.1983***

* * *

Azərbaycan xalqının istedadlı oğlunun – Sovet vətənpərvərinin bu gözəl muzeyini yaradanlara ürəkdən gələn səmimi minnətdarlığımızı bildirmək istəyirik.

Ümidvarıq və inanırıq ki, muzeyin işi vətənə məhəbbət duyğuları aşılamaqla xalqın estetik tərbiyəsinə kömək edəcəkdir.

Muzeyin hörmətli kollektivinə bu nəcib fəaliyyətində böyük uğurlar arzulayırıq.

***Sov. İKP MK-nın əməkdaşları –***
***Muzeyləri yoxlama üzrə Komissiyanın***
***üzvləri: Paşin, Bilak, Yeqorçenkov,***
***Svirepova, Qoroxova, Qorbaçova***
***12 mart, 1983-cü il***

* * *

Bülbülün Xatirə Muzeyinin ekspozisiyası ilə böyük maraqla tanış oldum. Nə yaxşı ki, muzeyin direktoru Bülbülün sədaqətli ömür yoldaşı Ədilə xanımdır.

O, görkəmli incəsənət xadimi, SSRİ xalq artisti, professor Bülbülün qaynar həyatını əks etdirən misilsiz materialları qoruyub saxlaya bilmişdir.

Mən xoşbəxtəm ki, Bülbül bizdə – Daşkənddə olarkən onun sehrli səsini dinləmək mənə nəsib olub.

***Z.RƏHİMBABAYEVA,***
***Özbəkistanın mədəniyyət naziri***
***6 may 1983-cü il***

* * *

Böyük ustad, xadim, getdiyi hər yerdə özündən sonra xatirə qoyan İnsanın muzeyi ilə çox böyük həyəcanla. tanış oldum.

Bülbülün Özbəkistana gəlişi Ə.Nəvai adına Opera və Balet Teatrında Ü.Hacıbəyovun «Koroğlu» operasının tamaşaya qoyulmasına səbəb olmuşdu.

Mənim atam – Özbəkistan SSR-in xalq artisti SSRİ Dövlət Mükafatı laureatı Qulam Əbdürrəhmanov ustad Bülbülün təklifi ilə Rövşənin partiyasını ifa etmişdi.

Bu cür gözəl muzeyin yaradılmasında iştirak edən bütün insanlara «çox sağ ol!» deyirəm.

***Dilbər ƏBDÜRRƏHMANOVA,***
***SSRİ xalq artisti, Həmzə mükafatı laureatı, Ə.Nəvai adına Özbəkistan SSR Dövlət Akademik Teatrının baş dirijoru***
***6 may 1983-cü il***

* * *

Biz sənətkarın parlaq həyatı qarşısında dərin hörmət və heyranlıq hissləri keçiririk. Biz Bülbülün istedadı və vətənpərvərliyi qarşısında baş əyirik.

Muzey sənədli materiallarla zəngindir. Bu da xalqın öz sənətkarının xatirəsini yaşatmaq üçün necə qayğı göstərməsinə bir sübutdur.

Bir daha öz dərin hörmətimizi bildiririk.

***Kampuçiyanın mədəniyyət nümayəndəliyi***
***24.07.1983-cü il***

* * *

Biz Azərbaycan musiqi sənətinin ən görkəmli nümayəndəsi olan Bülbül haqqında xatirələr prizmasından Azərbaycan musiqi sənətini kəşf etməkdən böyük həyəcan, sevinc duyur, heyranlığımızı və qardaşlıq salamımızı yetiririk.

***Jan JOAKİN,***
***Jan Pyer FİLİNNAR,***
***Belçika-SSRİ Dostluq Cəmiyyəti regional şöbələrinin katibləri***
***1 sentyabr 1983-cü il***

* * *

Biz Azərbaycan xalqının fəxri ölməz Bülbülə qonaq olduq, onun sehrli musiqisinin möcüzəli dünyasında bir neçə saat yaşadıq.

Bülbül bizim xalqımızın ifaçılıq sənətinin ən uca təcəssümüdür, buna görə də ölməzdir.

Mən onun ailəsinə, ilk növbədə, Bülbülün dostu və həyat yoldaşı Ada xanıma Bülbülə ehtiramına, xalq dühasının

səsini xatirələrdə yaşatmaq üçün bu muzeyin yaradılmasında çəkdiyi zəhmətə görə öz vətəndaşlıq minnətdarlığımı bildirmək istəyirəm.

*Gülrux ƏLİBƏYOVA,*
*professor*
*26.XI.1983-cü il*

* * *

Adına və sənətinə dünyanın bütün mütərəqqi insanlarının hörmət etdiyi Bülbülün nadir istedadına Azərbaycan hökumətinin necə ciddi və məhəbbətlə yanaşdığına heyran qalırsan.

Muzey mənə dərin təsir bağışladı. Belə əhatəli, maraqlı ekskursiyanı yalnız sənətkarın həyat və yaradıcılığını dərindən bilən adam apara bilərdi.

***Nemes BOQUMİL,***
***professor, Praqa Marksizm-Leninizm Universitetinin direktoru***
***14 aprel 1984-cü il***

* * *

Mən dahi tenor, maestro Bülbülün yaradıcılığı barədə «Bütün zamanların müğənnisi» adlı silsilə verilişlər hazırlamışdım. Bu verilişlərdə Kavaradossinin iki ariyası (Puççini), Federikonun ariyası (Çilea), «Nizami» operasından iki ariya (Ə.Bədəlbəyli), «Gürcüstan təpələrində» (Q.Qarayev), «Bəxtəvər oldum» (T.Quliyev) romansları, Məcnunun atasının ariyası (Ü.Hacıbəyov), Azərbaycan xalq mahnıları, muğamlar və «Segah təsnifi» səsləndi.



Verilişdən sonra saysız-hesabsız məktublar aldım. Amerikalılar maestro Bülbülün qeyri-adi səsinə valeh olmuşdular.

**P.S.** Mənim üçün bu gün böyük gündür, çünki Bülbülün ailəsi ilə tanış oldum və onun evində çay içdim.

Çalışacağam ki, onun gözəl səsini Amerika xalqına çatdıram.

***FƏRAMƏZ (Fred Azad),***
***Amerika jurnalisti***
***20.01.1984***

* * *

Vətənin azadlığının 39-cu ildönümü münasibətilə Bakıda olan Rumıniya-Sovet Dostluğu Cəmiyyətinin nümayəndə heyəti böyük sənətkarın – Bülbülün nümunəvi həyatını əks etdirən Xatirə Muzeyinə öz heyranlığını bildirir.

O, incəsənəti geniş xalq kütlələrinə çatdırmaqla öz misilsiz istedadını Azərbaycan xalqına, bütün sovet xalqına həsr etdi.

***Ernst BRANTENŞTAYN,***
***RKP MK üzvlüyünə namizəd, Alman Millətləri Zəhmətkeşləri Şurasının sədr müavini, «Kayerveq» qəzetinin baş redaktoru;***
***Leonida GERASİK,***
***RKP MK üzvlüyünə namizəd, Buxarest Tibbi Əczaçılar İnstitutunun rektoru, professor, elmlər doktoru;***
***Teodor FOTNADE,***
***Rumıniya Xarici Ölkələrlə Mədəni Əlaqələr İnstitutunun məsul işçisi***
***09.05.1984***

* * *

Bülbülün hörmətli xanımı!

Qonaqpərvərliyinizə və sevimli əriniz haqqında heyrətamiz söhbətinizə görə sizə təşəkkür edirik.

Mahnı, musiqi bütün dünya xalqlarını birləşdirir, onlar üçün manеə yoxdur.

Biz sizə cansağlığı, uzun ömür arzulayırıq, arzu edirik siz minlərlə insana sevimli ömür-gün yoldaşınızın böyük sənəti barədə danışasınız. Norveçdən salamlar!

***Pyer Yarne LUND,***
***Qunnar LEKEN,***
***«Norveç-Sovet İttifaqı» Dostluq Cəmiyyəti nümayəndəliyi***
***20.05.1984***

* * *

Azərbaycanın və Sovet İttifaqının böyük oğlu, xalq artisti, ictimai xadim Bülbülün həyatı və yaradıcılığı ilə tanış olduğumuz üçün sizin muzeyə və Bülbülün xanımına təşəkkür edirik. Biz inanırıq ki, Bülbülün geniş fəaliyyəti ölkənin mədəni həyatında yaşayır və ona daim yeni bədii impuls verir.

Bir də sağ olun, bu vacib işinizdə sizə uğurlar arzulayırıq.

***Erkki KİVİLEYAM,***
***Finlandiya-Sovet İttifaqı Cəmiyyətinin baş katibi***
***17.08.1984***



* * *

Azərbaycan xalqının böyük oğlu, yaradıcılığı hər bir sovet vətəndaşı üçün əziz sayılan Bülbülün həyatının timsalında gənc nəslin tərbiyə mərkəzi olan gözəl, maraqlı muzeyin yaradıcılarına «çox sağ ol!» deyirik.

***İrina RODİMTSEVA,***
***SSRİ Mədəniyyət Nazirliyi Muzeylər İdarəsinin rəisi***
***07.12.1984-cü il***

* * *

Bu gözəl muzeyə böyük maraqla baxdım, sonra böyük həyəcanla Bülbülün səsini dinlədim.

Bu misilsiz səs ömrüm boyu xatirimdə qalacaq.

***İren MELİKOFF,***
***Fransa-Strasburq Universitetinin professoru***
***05.01.1985***

* * *

Mən böyük dostum – müğənni Bülbülün Ev Muzeyinə gəlmişəm. Burada elə bil hər şey o heyrətamiz dərəcədə müdrik və xeyirxah insanla nəfəs alır. Burada bizim onlarca görüşümüz, məşqlərimiz olub…

Onu dinləməyi elə xoşlayırdım ki!…

Mən bu gözəl muzeyin yaradıcılarına qüvvət, can-sağ-

lığı, enerji arzulayıram! Bu muzey gələcək nəsillərə ölməz müğənninin – bizim Bülbülümüzün yaradıcılığının böyüklüyündən söz açacaq!

*Sizin Rəşid BEHBUDOV*
*31.01.1985-ci il*

* * *

Böyük vətənpərvər, beynəlmiləlçi, parlaq incəsənət xadimi, unudulmaz Bülbülün nəcib həyatı büllur kimi safdır.

Bizim misilsiz, görkəmli həmvətənimizin xatirəsinə belə qayğı ilə yanaşdığınız üçün çox sağ olun.

*QOLUBEVA,*
*SSRİ Mədəniyyət nazirinin müavini*
*02.02.1985-ci il*

* * *

Səni salamlayıram, ey əziz Bülbül!

Sənin adın özünə çox yaraşır. Mən bu sözləri, sənin bülbülləri mat qoyan səsin ruhumu oxşarkən yazıram. Sən onların ustadı və müəllimisən! Hətta onlar sənin zəngulələrini təkrar etmək istəsələr belə, sənin ürəkdən oxuduğun kimi oxuya bilməzlər. Heyranedici, bütün hiss üzvlərinin idarə etdiyi qəlbinin dərinliklərindən gələn səslə oxuduğun kimi cəh-cəh vura bilməzlər.

Sənin səsin, sənin qəlbin ruhumuzu daim oxşayacaq. Sən ölməzsən, əbədisən.

Sən daim bülbül olaraq qalacaqsan! Bütün insanlığın gələcək nəsilləri üçün nümunə və məktəb olaraq qalacaqsan!



Muzeyə – sənin qonaqpərvər evinə bu gün, 1985-ci il martın 14-də **Əbdürrəhman Fenniş** qonaq gəlib. Onu sənin məlahətli, hörmətli xanımın Ədilə xanım Bülbül qarşılayır.

*Əbdürrəhman FENİŞ,*
*İran İslam Respublikası*
*Bakı, 14 mart 1985*

* * *

Bu gün mən dünyanın ən gözəl səslərindən birini dinlədim və onun sənətinin necə yüksək qiymətləndirildiyinin şahidi oldum.

*YEKTACİBAŞI,*
*Türkiyə*
*20.05.1986-cı il*

* * *

Bizim sevimli Bülbülün Muzeyi ilə böyük maraq və diqqətlə tanış oldum.

Ölməz müğənnini tanıdığım və onunla təmasda olduğum üçün xoşbəxtəm. Onun adı, bütün həyatı ilə bağlı olan hər şeyin belə qayğı ilə, diqqətlə qorunub saxlanması çox gözəldir!

*D.LOMTADZE,*
*Gürcüstan SSR Mədəniyyət*
*nazirinin müavini*
*29.05.1987-ci il*

* * *

Biz özümüz üçün görkəmli sənətkar, müəllim, alim, eləcə də Azərbaycanın musiqi həyatının gözəl təşkilatçısını kəşf etdik.

Ecazkar səsdən və gözəl muzeydən böyük məmnunluq duyduq.

***Qvadelupa Kommunist Partiyasının nümayəndəliyi***
***12 aprel 1987-ci il***

* * *

Mənə Bülbül ilə tanışlıq, böyük Azərbaycan tenorunun təkrarsız səsini eşitmək, onunla söhbət etmək, Azərbaycan incəsənətinin inkişafı haqqında ustadın müdrik fikirlərini dinləmək, eləcə də onun portretini çəkmək səadəti nəsib olub.

Bülbül öz sənəlində Azərbaycanın qədim musiqisini Avropa vokalının böyük mədəniyyəti – belkanto ilə birləşdirmiş müğənnidir.

Bu gün də bu gözəl muzeydə mən onun ölməz səsini dinləyirəm.

***Toğrul NƏRİMANBƏYOV,***
***xalq rəssamı***
***13.VI.1987-ci il***

* * *

Böyük müğənni, böyük dövlət xadimi Bülbülün ev muzeyi ilə tanışlıq, hər şeydən əvvəl, onun təvazökarlığından və əməksevərliyindən xəbər verir. Bu, insanı heyran edir…

Bir daha aydın olur ki, onun əldə etdiyi hər şey böyük zəhmət və iradə bahasına başa gəlmişdir.



İstərdik ki, bu keyfiyyətlər, ustadın bu xüsusiyyətləri yalnız incəsənət xadimləri üçün deyil, bu gözəl muzeyə gələnlərin hamısı üçün nümunə olsun.

Muzeyi yaradanların hamısına «çox sağ ol!» – deyirik.

***N.JUKOVA,***
***RSFSR Mədəniyyət Nazirinin müavini***
***15 avqust 1987-ci il***

* * *

Böyük Bülbülün öz xalqının – Azərbaycan xalqının bütün gözəlliyini, səxavət və müdrikliyini tərənnüm edən əsl Yer oğlunun muzeyinin yaradıcılarına və mühafizlərinə böyük minnətdarlığımızı bildiririk.

Biz – müsabiqənin münsiflər heyətinin üzvləri M.İ.Qlinka adına Vokalçıların XII Ümumittifaq Müsabiqəsi günlərində bu nadir muzeydə olduq, gözəl müğənninin canlı səsini eşitdik, minnətdar müasirlərinin və gələcək nəsillərin ona olan məhəbbətini duyduq, öz heyranlıq səsimizi onların səsinə qoşduq, məşhur müğənni, pedaqoq-alim, ictimai xadim, adı böyük hərflə yazılan insanın sənəti qarşısında baş əydik.

***Vokalçıların Bakıda keçirilən XII Ümumittifaq Müsabiqəsinin münsiflər heyəti adından: İrina ARXİPOVA, SSRİ xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, Lenin mükafatı laureatı***
***27.X.1987-ci il***

* * *

Azərbaycanın tanınmış musiqiçisi Bülbülün muzeyində olmağımızdan, burada onun keçdiyi həyat yolunu əks etdirən olduqca maraqlı sənədlərlə tanışlığımızdan çox məmnunuq.

Biz qısa bir zamanda Bülbül kimi dahi bir sənətkar haqqında ətraflı məlumat aldıq, təsəvvürümüz xeyli genişləndi.

Muzeydə göstərilən bu nadir sənədlər Azərbaycanın dünya şöhrətli dahi müğənnisi, musiqi təbliğatçısı Bülbül haqqında çox dolğun təəssürat yaradır.

Bu sənədlər insana necə böyük təsir bağışlayır! Bu tarixi sənət ocağını ziyarət etməyimiz üçün bizə imkan yaradanlara, eləcə də muzeyin əməkdaşlarına öz səmimi təşəkkürümüzü bildiririk.

***Almaniya Demokratik Respublikası***
***İncəsənət Akademiyası, Berlin***
***Bakı, 13.02.1988***

* * *

Bülbülün ailəsinə, Azərbaycan SSR-in Mədəniyyət Nazirliyinə «çox sağ olun!» deyirik ki, adı yalnız bizim ölkədə deyil, xaricdə də incəsənəti, teatrı, musiqini sevən hər bir insana tanış olan böyük azərbaycanlı müğənninin xatirəsini belə yüksək hörmətlə, ehtiramla yaşadırlar.

Bülbülün xatirəsi onun səsini eşidən, onun haqqında, bu İnsan-Əfsanə haqqında eşidən hər kəsin qəlbindədir.

Çox sağ olun, qarşınızda baş əyirik!...

***Gənc musiqiçilər, ölkənin xüsusi orta***
***Məktəb şagirdlərinin I Ümumittifaq***
***Baxışı laureatlarının tapşırığı ilə***
***V.LYÜDENOV***
***05.04.1988-ci il***



* * *

Bu gözəl muzeydə Böyük Bülbülün sağlığında olan səmimi şəraiti belə fədakarlıqla, qayğıkeşliklə qoruyub saxladığına görə gözəl Ada xanım çox sağ olsun.

Bu misilsiz müğənninin ruhu qarşısında baş əyirik.

Xoşbəxtlik, sevinc və sevgi arzuları ilə!...

***Svyatoslav BELZA***
***20.VIII.1992-ci il***

* * *

Burada – bu gözəl muzeydə olmaq və böyük müğənninin bütün yaradıcılıq yolunu «görmək» səadətinə qovuşdum.

Bu sevincə görə çox sağ olun! Allah bu Evi qorusun!

***Yelena OBRAZTSOVA,***
***SSRİ xalq artisti***
***Algis JÜRAYTİS***
***23.V.1994-cü il.***

* * *

Azərbaycanın böyük sənət xadiminin, musiqi xadiminin Muzeyini ziyarət etməkdən qürur duydum. Yalnız Azərbaycanın deyil, bütün Türk dünyasının böyük sənətçisini hörmətlə yad edirəm.

***M.KOÇAK,***
***Türkiyənin Azərbaycandakı***
***Səfirliyinin mədəniyyət müşaviri***
***06.06.1995***

* * *

Məşhur musiqiçi, atamın dostu Bülbülün ev-muzeyi ilə tanış olmaqdan özümüzü xoşbəxt hiss etdik.

Öz silahdaşlarının xatirəsini əziz tutanların hamısına «çox sağ ol!» deyirik.

***Qalina VİŞNEVSKAYA,***
***Mstislav RASTROPOVİÇ***
***02.05.1997-ci il***

* * *

Bülbülün muzeyi hamı üçün, xüsusilə də vokalçılar üçün əzizdir.

Bülbül bu gün də coşğun ilhamlı ideal müğənni mücəssəməsidir. Böyük təbiətli insan, böyük sənət! Rodolfo Çelettinin dediyi kimi, onun tenoru həqiqətən məhəbbətdən oxuyurdu (La vole ihe canta d"amore).

Onun şöhrəti Azərbaycan xalqının yaradıcılıq geni kimi ölməzdir, əbədidir.

Öz dahi ərinin xatirəsini müqəddəs tutduğuna görə sevimli Ada xanıma çox sağ ol deyirik.

***Vokalçıların Bülbül adına II Beynəlxalq***
***Müsabiqəsi münsiflər heyətinin üzvləri:***
***İrina ARXİPOVA, Mariya BİEŞU, Nodar***
***ANDQULADZE, Aleksandr SAMOYLE,***
***Zoya XRİSTİÇ, Firəngiz ƏHMƏDOVA,***
***Fidan QASIMOVA, Xuraman QASIMOVA,***
***Frans Müller XAYZER, Vladislav PYAVKO***
***03.12.1997***



Bülbülün Xatirə Muzeyinə çiçəklənmə, onun kollektivinə böyük uğurlar arzulayıram. Xoşbəxtəm ki, bu gözəl muzeylə tanış oldum.

***Mariya BİEŞU,***
***Moldova***
***03.12.1997***

* * *

Azərbaycanın musiqi ictimaiyyəti Bülbülün Muzeyi kimi çox gözəl bir hədiyyə almışdır. Bu müğənni Ukraynada da məşhurdur. Onun dahiyanə istedadı ilə təmasda olduğum üçün özümü xoşbəxt sanıram.

***Yevgeniya MİROŞNİÇENKO,***
***Ukrayna***
***03.12.1997***

* * *

Öz xalqı üçün, dünya üçün bu qədər çox işlər görmüş böyük müğənninin – Bülbülün xatirəsinə həsr edilmiş yubiley təntənələrində iştirak etmək mənim üçün olduqca xoşdur!

Yubiley – onun yaratdığı həmişəyaşar gözəlliyi təsvir və təcəssüm etdirmək baxımından çox gözəl bir imkandır.

Ən xoş təbriklərlə:

***Nedda KASSİ,***
***Nyu-York Metropoliten***
***Opera Teatrının solisti***
***03.12.1997***

* * *

Atam David Andquladzenin gənclik çağlarını bir yerdə keçirdiyi dostu, unudulmaz Bülbülün ürəyimə əziz olan muzeyinə!

Mənim atam bu evə tez-tez gələrdi. Burada mənə hər şey əzizdir. Mən dahi Bülbülə ürəyimdə həmişəlik məhəbbət bəsləyirəm. Bu evə əmin-amanlıq, çiçəklənmə və yeni uğurlar arzulayıram!

Birinci müsabiqədən unudulmaz təəssüratlarla ayrılıram. Müsabiqə zamanı burada gördüyüm hörmətəlayiq hər şeyə görə təşəkkürlərlə:

Sizin

***Nodar ANDQULADZE***
***04.12.1997***

* * *

Bülbülün Xatirə Muzeyinin açılması gözəl bir hadisədir! Lakin bundan da gözəl hadisə odur ki, bura – onun istedadı ilə, öz xalqının gözəl gələcəyinə dərin inamla nəfəs aldığı xeyirxah əməllər evidir.

Sizə Azərbaycan bülbülünün istedadına pərəstiş edən çoxlu xeyirxah qonaqlar arzulayıram!

***N.DEMENTYEVA,***
***Rusiyanın Mədəniyyət naziri***
***1998***

* * *

Azərbaycanın bu görkəmli oğlunun xatirəsinə bəslənən dərin hörmət və məhəbbət insanda xoş hisslər oyadır. Görünür, bu o səbəbdəndir ki, bu gün onun şagirdləri və ardıcılları



Bülbülün misilsiz, təkrarsız səsinə yüzlərcə zəngulələrlə səs verirlər.

Hörmət və məhəbbətlə:

***A.BLOXİN,***
***Rusiyanın Azərbaycandakı***
***Fövqəladə və Səlahiyyətli səfiri***
***11.03.1998***

* * *

Şanlı vətənimiz Azərbaycanın böyük sənətkarı olan Bülbül yalnız bizim deyil, bütün insanpərvər xalqların sevimlisidir.

İkinci Dünya Müharibəsi zamanı – mən uşaq yaşlarımda olarkən, sonralar gənc olanda da qulağıma ilk çatan səs rəhmətlik Bülbülün səsi olub, onun ölməz nəğmələri olub.

Onun sənət gücü, sənət təsiri sadə sözlərlə bəyana gəlməz. O, Azərbaycanda, xüsusən də Cənubi Azərbaycanda çox sevilib və seviləcək də!

Bizim sənətkarlarımız indi də Bülbülün sənətindən ilham alır, ondan öyrənir və onun doğru-düzgün yolu ilə irəliləyirlər.

Bu muzeyi böyük sənətkarın əbədi xatirəsini diri saxlamaq üçün yaradanlara bir Cənubi azərbaycanlı kimi ürək duyğularımı təqdim edirəm.

Hər nəslin alimlərini, yaradıcılarını, sənətkarlarını diri saxlamaq ondan sonra gələn nəslin borcudur.

Keçmişlərin adını yaxşılıqla çəkən, gözəlcəsinə xatırlayan adamın adı həmişə ürəkdən çəkiləcəkdir.

Muzeyin hörmətli əməkdaşlarına çəkdikləri zəhmətə görə eşq olsun!

***Şair SÖNMƏZ,***
***İran İslam Respublikası***
***21.09.1998***

* * *

Azərbaycanın böyük sənətkarı, gözəl insan və vətənpərvər Bülbül Məmmədovun ailəsi, həyatı və yaradıcılığı ilə tanış olmaq imkanına görə Xatirə Muzeyinin yaradıcılarına, əməkdaşlarına ürəkdən minnətdarlığımı bildirirəm. Onun adı bütün dünyaya tanışdır, yaradıcılığı isə unudulmazdır.

*Lev YAMNİTSKİ,*
*İsrailin Azərbaycandakı*
*səfirliyinin 1-ci katibi*
*23.12.1998*

* * *

Çox hörmətli Ada xanım və Bülbülün Xatirə Muzeyinin əməkdaşları!

Ölməz müğənni, Azərbaycan ifaçılıq sənətinin korifeyi, öz xalqını, öz respublikasını bütün dünyada şöhrətləndirmiş Bülbülün Muzeyini ziyarət etməkdən özümüzü hədsiz dərəcədə xoşbəxt hesab edirik. Öz-özlüyündə muzeyin varlığı gözəldir. Burada Azərbaycan Bülbülünün yaradıcılığı ilə təmasda olur, xeyirxahlıq və məhəbbət duyursan.

Muzeyin fondlarında Bülbülün yarıməsrlik, çoxcəhətli fəaliyyəti haqqında zəngin material toplanmışdır. Bu əzəmətli, Azərbaycan vokal sənətinin banisi olan müğənninin lent yazılarına qulaq asmaq olduqca xoşdur!

Bizlərdən bəziləri onun canlı səsini eşitmişdik, bəziləri də bu nadir, misilsiz istedad sahibinin, hər çıxışı bayrama çevrilən müğənninin lent yazılarını xatırlayırdı.

Unudulmaz Bülbülün irsinin toplanmasına, qorunmasına və təbliğinə görə Ada xanıma hədsiz minnətdarlığımızı bildiririk.



Məhəbbət və hörmətlə:
Tatarıstanın Azərbaycandakı Daimi Nümayəndəliyi nəzdindəki Qadınlar Klubunun idarə üzvləri:

***Qadınlar Klubunun nümayəndəsi,***
***Ş.Mərcani adına Xeyriyyə Cəmiyyətinin***
***prezidenti, professor E.İ.İlyazova,***
***Qadınlar Klubu sədrinin müavini,***
***gənclər bölməsinin rəhbəri N.T.Kərimova,***
***Z.Z.Qafçulova, F.T.Səttarova, R.R.İlyazov,***
***A.Ramazanov, V.Mendeleyeva, A.Quliyev...***
*12.09.1999*

* * *

Mən düha qarşısında, böyük insan Bülbül qarşısında çox söz deyə bilmirəm. Onun zəngin tərcümeyi-halı, böyük ürəyi qarşısında baş əyirəm. Ona əbədi xatirə və ehtiram!

***Çjan Sİ YUN,***
***Çinin Azərbaycandakı***
***Fövqəladə və Səlahiyyətli səfiri***
***08.01.2003***

* * *

Mən düz 50 ildir ki, xalqımızın böyük oğlu və sənətkarı, dərdli xalqımızın ölməz səs xəzinəsinin incisi sayılan Bülbülümüzün şirin, şaqraq, bəzən həzin, bəzən zil və şən nəğmələrini dinləyə-dinləyə, zövq ala-ala, istirahət edə-edə və ən ümdəsi düşünə-düşünə yaşamışam, yaşayıram və ömrümün qalan hissəsini də beləcə yaşayacağıma inanıram.

Mən ömrümdə təbiətin nəğməkarları olan çoxlu quş səsləri və çoxlu böyük-böyük sənətkarların səsini dinləmişəm,

onları beynimin, ürəyimin gözəgörünməz, heç kəsin dilini bilmədiyi və heç kəsin qurub eşidə bilməyəcəyi maqnitofon lentinə yazıb yadigar saxlamışam. Bu gözəl səslərin içində təbiət bülbüllərinin səsi və bizim ölməz Bülbülümüzün səsi xüsusi yer tutur. Mən heyrətlə qeyd etmək istəyirəm ki, xalqımızın böyük oğlu, nəhəng sənətkarımız Bülbülün səsi təbiət bülbüllərinin səsini susdurub kölgədə qoymuşdur. Sənətin sehri və ölməzliyi bir də ondadır ki, Bülbül dünyasını dəyişəndən sonra da mənim üçün, sənin üçün, bütün xalqımız üçün oxuyur. Könüllərimizi oxşayır və bizi xeyirxahlığa, həyatı və insanları sevməyə, torpağımızın qədrini bilməyə çağırır.

Bülbülümüz oxuyur və xalqımız yaşadıqca bülbülləri mat qoyan və susduran ilahi səsi ilə həmişə oxuyacaqdır!

***Əlibala HACIZADƏ,***
***yazıçı***
***5 avqust 2003***



## MÜNDƏRİCAT

Özü Bülbül, sözü bülbül ***(Anar)*** ........ 3

## MƏQALƏLƏR

Sənət gülüstanının bülbülü ........ 11
Sənətkar və alim ........ 21
Görüşləri, söhbətləri xatırlarkən ........ 23
Azərbaycan operasının novatoru ........ 26
Böyük maestro ........ 28
Bülbülün xatirəsinə ........ 30
Heyrətamiz sənətkar istedadı ........ 32
Nadir şəxsiyyət, nadir sənətkar ........ 36
Xalqın sevimli sənətkarı ........ 38
Şərəfli yol ........ 41
Yaddaşıma ömürlük yazılıb ........ 43
Adı qızıl hərflərlə həkk olunub ........ 45
Xoşbəxt sənətkar ........ 46
Onu hamı sevir ........ 52
Azərbaycanın Bülbülü ........ 54
Azərbaycan xalqının fəxri ........ 56
O, əbədiyyətə üz tutub ........ 58
Bülbül səsi zirvədir ........ 59
Bülbül Özbəkistanda ........ 63
Təkrarolunmaz səs ........ 64
Bülbül ........ 69
Böyük sənətkar ........ 72
Xalq şeiri xalq musiqisi ilə birləşəndə ........ 77
Əfsanəvi sənətkar ........ 84
Həmişəyaşar Bülbül ........ 87
Səsin möcüzəsi və yaxud heyf sənə, əfsanə! ........ 93
Qaynaqlar ........ 95
Milli musiqi ifaçılığının Koroğlusu ........ 98
Parlament tribunası – Bülbülün səsi ........ 107
Bülbülün elmi fəaliyyəti ........ 115

Ecazkar səsə malik sənətkar ........................................ 132
Qızıl səsin nağılı ........................................ 139
Böyük müğənninin arzusu ilə ........................................ 171
Oxu, Bülbülüm, oxu! ........................................ 175
Dünyanın ən gözəl nəğməkarı ........................................ 185
Hər gecəm oldu kədər ........................................ 188

## XATİRƏLƏR

Bülbül – böyük nəğməkar ........................................ 195
Dost və müəllim ........................................ 200
Onun hər çıxışı bayram idi ........................................ 205
Böyük ustad ........................................ 209
O günü unuda bilmərəm ........................................ 210
Bülbül oxudu ........................................ 212
Mühacirin bir xatirəsi ........................................ 216
Azərbaycan Bülbülü ........................................ 216
Bülbül dərsləri ........................................ 219
«Məni dərdə salan dilbər» ........................................ 229
Dahi sənətkar ........................................ 246
Sənətdə Bülbül cahangirliyi ........................................ 253
Bülbül sənəti ölməzdir ........................................ 263
Qəlbimdə yaşayır ........................................ 268
Bülbülü xatırlayarkən ........................................ 270
Milanda görüş ........................................ 276
Onun sənəti qarşısında baş əyirəm ........................................ 281
Bülbül Böyük Vətən müharibəsi illərində ........................................ 282
İfaçılıq sənətimizin korifeyi ........................................ 290
Xalq ona Bülbül adı verdi ........................................ 293
Ustadım, mənəvi atam ........................................ 296
Gəncliyimin Bülbülü ........................................ 307
Bülbül Kutaisidə ........................................ 311
Unudulmaz səs ........................................ 317
Sənət cəngavəri ........................................ 319
Unudulmaz müəllim ........................................ 323
Bülbül haqqında xatirələrim ........................................ 325



Ustadımın xeyir-duası ........................................ 332
O, sağlığında klassik idi ........................................ 337
O günləri xatırlayanda ........................................ 346
Bülbül ........................................ 348
Polad kimi ........................................ 349
Bizim Bülbül – dünyanın Bülbülü ........................................ 352
Yeni il nağılı ........................................ 359
Mənim ustadım ........................................ 362
Bülbül ilə görüşlərim ........................................ 363
Bülbül bir möcüzə idi ........................................ 368
Bülbül sənətinə məhəbbətlə ........................................ 370
Bülbülün səsi və sözü ........................................ 373
Səs haqqında xatirə ........................................ 378
XX əsrin dahi müğənnisi ........................................ 380
Ustadlar ustadı ........................................ 386
Cəbr dərsi... Bülbüllə başladı ........................................ 389
Sənət korifeyləri Bülbül haqqında ........................................ 393

## ŞEİRLƏR

Şuşa Bülbülü ........................................ 401
Böyük ustad Bülbülə ........................................ 402
Dostum Bülbülə ........................................ 403
Dostluq şarjı ........................................ 404
Eşit həqiqətin incə səsini ........................................ 405
Qururam radionu ........................................ 406
Oxu, Bülbül! ........................................ 407
Bülbül ........................................ 408
Sənətkara hədiyyəm ........................................ 409
Bülbülə ........................................ 410
Yüz nəğməli bülbül üçün ........................................ 411
Bülbülün xatirəsinə ........................................ 413
Bülbülün səsi ........................................ 414
Bülbül ........................................ 415
Sənin yadigarın ........................................ 415
Heykəlləşən Bülbül ........................................ 416

Bülbül – nəğməkar ........ 418
Bülbül ........ 419
Vida nəğməsi ........ 420
Bülbülün ev muzeyində düşüncələr ........ 423
Bülbül ........ 424
Yenə doğul, Bülbülüm! ........ 425
Bülbülə ........ 427
Bülbül ........ 428
Səndən nə gəlməyib, nə gəlməyəcək ........ 430
Güllələnmiş abidələr ........ 431
Bülbülə Aşqabad salamı ........ 433
Bülbül oxuyur ........ 434
«Gülərəm gülsən» ........ 435
Ölməz müğənnimiz Bülbülün xəyalı ilə ........ 436
Bülbül ........ 438
Ayrılıq sahili ........ 439
Bağban, sula bu gülləri ........ 440
Bülbül günü ........ 442
Efirdə canlı Bülbül ........ 444
Bülbülün söhbəti ........ 445
Səsin nağılı ........ 447
Oxu, Bülbülüm ........ 451
Bülbül təkdi dünyada ........ 452
Qaçqın heykəllər ........ 455
Vaxtsız uçan Bülbülüm ........ 457
Adilənin iztirabları ........ 458
Bülbülün qəbrini ziyarət etdim ........ 460
Bülbül oxuyurdu bir axşamçağı ........ 461
Bülbülü dinlərkən ........ 462
Bülbül ........ 464
Unudulmaz müğənnimiz ........ 465
Görünür ........ 466
Bülbülün son nəğməsi ........ 468
Bülbül ........ 469
Əsrləri yaşadan sənətkar ........ 470
Bülbül zirvəsi ........ 471



Yaralı heykəllər Vətənə döndü ........ 472
Güllələnmiş heykəllər ........ 474
Oxu, Bülbülüm, oxu ........ 477
Bülbülün xatirəsinə ........ 478
Bülbül ........ 479
Yaralanan büstlər ........ 479
Bülbül ........ 481
Bir səs eşitmişəm ........ 482
Öyündüyüm oğulların heykəlləri güllələndi ........ 483
Bülbül ........ 484
«Fəxri qonaqlar» kitabından ........ 485

*Yığılmağa verilmiş 11.08.2006.*
*Çapa imzalanmış 28.10.2006.*
*Şərti çap vərəqi 32. Sifariş № 451.*
*Kağız formatı 60x84 1/16. Tiraj 300.*

*Kitab* ***«Nurlan»*** *nəşriyyat-poliqrafiya müəssisəsində hazır diapozitivlərdən çap olunmuşdur.*
*Direktor:* ***prof. N.B.Məmmədli***
***E-mail: nurlan1959@yahoo.com***
*Tel: 497-16-32; 850-311-41-89*
*Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.*

Ar 2006/1506

- Məqalələr
- Xatirələr
- Sənət korifeyləri Bülbül haqqında
- Şerlər
- "Fəxri qonaqlar" kitabından...
- Bülbül ömründən anlar

235